ÇARƏ QURAN ƏXLAQI



# CƏMİYYƏTİ AĞUŞUNA ALAN BƏLALAR VƏ PROBLEMLƏR



Kitab silsiləsi - 4

https://archive.org/details/@oyrenoyret2021

## GİRİŞ

Yaşadığımız dünyada kiçik, ya da böyük hər cəmiyyətin sülh və hüzurunu təhdid edən əhəmiyyətli bir problem vardır: Əxlaqi degenerasiya. Bir başqa sözlə, insanların yaxşı, doğru, dürüst, bağışlayıcı, ədalətli, mərhəmətli, namuslu olmaq kimi əxlaqi ərdəmləri tərk etmələri, “əxlaqdan kənar” olmağı özlərinə həyat fəlsəfəsi halına gətirmələri. Təməlində eqoizm, acgözlülük, mərhəmətsizlik, laqeyidlilik kimi xəstəliklərin yatdığı bu problemin necə həll ediləcəyi isə, 21-ci əsrin ən əhəmiyyətli məsələlərindən birini meydana gətirməkdədir.



Əslində bir çox insan (həllini tapa bilməsə də) bu problemin varlığının fərqindədir. Demək olar ki, hər ölkədə əxlaqın əhəmiyyətli bir qaynağı olaraq görülən “ailə dəyərləri” müdafiə olunmaqda və degenerasiyadan ən çox təsirlənən seqment olan gəncləri qorumaq məqsədiylə müxtəlif cəhdlər etməkdədirlər. Təhsil proyektləri, təşkil edilən seminarlar, şəxsən dövlət əliylə, ya da müxtəlif vətəndaş cəmiyyət quruluşları vasitəsilə başladılan kampaniyalar, bu əxlaqi tənəzzülün qarşısını almağı hədəfləməkdədir. Ancaq bu cəhdlər çox vaxt qalıcı nəticə verməməkdə, əxlaqi tənəzzül hər keçən gün daha da böyük sürət qazanmaqdadır. Çünki çözümlər səhv yerlərdə axtarılmaqda, cəhdlər sonsuz bir dövr içində qalmaqdadır.

Bu sonsuz dövrün ən əhəmiyyətli səbəbi, əxlaqi degenerasiya ilə mübarizə etmək adına yola çıxan insan, ya da qrupların bəhs etdiyimiz degenerasiyanı dəstəkləyən və istiqamətləndirən mütəşəkkil hərəkət haqqında həqiqi məlumata sahib olmamalarıdır. Əxlaqi degenerasiya çox insan tərəfindən, cəmiyyətin içində olduğu pis şərtlərin nəticəsində ortaya çıxan qaçınılmaz bir fakt olaraq qəbul edilməkdədir. Bu qəbul etmə, düzgünlük payı ehtiva etməklə birlikdə degenerasiyanın səbəbləri və həlləri ilə əlaqədar dəqiq bir hesabat ortaya qoya bilməməkdədir. Çünki bu yanaşmayla çox əhəmiyyətli bir həqiqət göz ardı edilməkdə, ictimai tənəzzül öz-özünə ortaya çıxan bir vəziyyət kimi düşünülməkdədir. Halbuki, dünyanın bir çox ölkəsində yaşanan əxlaqi degenerasiya, son dərəcə əhatəli və dolaşıq əlaqələrlə qurulmuş, qaranlıq bağlarla bir-birinə bağlanmış böyük bir “ictimai sinif” tərəfindən şüurlu şəkildə dəstəklənilməkdə və istiqamətləndirilməkdədir. Bütün təbliğat vasitələrini sıx şəkildə istifadə edən

bu sinif, xüsusilə din əxlaqının yaşanmadığı, mənəvi dəyərlərin zəif olduğu cəmiyyətlərdə təsirli olmaqda və hətta dövlət heyətlərinə belə sıza bilməkdədir.

Bu böyük ictimai sinif, bir-biriylə mənfəət əlaqəsi olan, hər millətdən, hər dildən və hər peşədən yüzlərlə hətta minlərlə insanı bünyəsində saxlamaqdadır. Aralarında qurduqları qeyri-qanuni və ya əxlaqdan kənar mənfəət əlaqələri, dini dəyərlərə və din əxlaqına qarşı duyduqları düşmənlik, paylaşdıqları azğın fəlsəfə və həyat formaları bu sinifin ortaq istiqamətlərini meydana gətirər. Əslində bu böyük kütləni dünyanın dörd bir tərəfinə dağılmış bir “**klan**”a bənzətmək mümkündür. Tarixin keçmiş dövrlərində və hələ də bəzi Afrika cəmiyyətlərində tək bir totemə bağlı olan böyük insan qruplarını təyin etmək üçün istifadə edilən bu anlayış, müasir cəmiyyətlərdəki əxlaqi tənəzzülün liderliyini edən bu kütləni də çox yaxşı təyin etməkdədir.

**Klan, lüğətdə “aralarında ya tək tərəfli qohumluq olan, ya da mütləq bioloji mənada bir qan bağı olmamaqla birlikdə, qruplarının simvolu olaraq qəbul edilən tək bir totemə bağlı insanlar qrupu” olaraq təyin olunar.** Xüsusilə Afrika qitəsindəki qəbilələrin böyük əksəriyyəti klanlar halında yaşayarlar. Məşhur antropoloq və sosioloq L. H. Morgan, “Ancient Society” (Köhnə cəmiyyət) adlı əsərində “klan həyatının nümunəsini, döyüş və qan iddialarında, torpağın klanlar tərəfindən paylaşılmasında və ortaq şəkildə istifadəsində, klan üzvlərinin və şeflərinin bir-birlərinə qarşı bağlılıqlarında görürük” (L.H. Morgan, *Ancient Society*, Londra, 1877, s. 357-360) deyər. Aparılan araşdırmalar hər klanın özünə xas qaydaları və qadağaları olduğunu ortaya qoymaqdadır. Fransız tarixçi Georges Dumézil totemlər və klanlar haqqında yazdığı bir məqaləsində, hər klanın digər klanlar tərəfindən bilinməyən xüsusi qadağalara sahib olduğunu, bəziləri üçün müqəddəs görülənlərin digərləri tərəfindən dəyərsiz görüldüyünü yazmaqdadır. (Georges Dumézil, Les survivances de Totémisme dans le monde indo-européen, Revue d’histoire des Religions 28 (1898))

Klanın ən əhəmiyyətli xüsusiyyəti isə üzvlərinin bir-birlərinə olan bağlılıqlarıdır. Klan üzvləri ayrı yerlərdə yaşasalar belə, bir-birlərinə çox güclü bağlarla bağlıdırlar. Birlik ruhuna sahibdirlər, aralarında möhkəm bir həmrəylik vardır. Bir-birlərini hər şərt altında mütləq qoruyar və müdafiə edərlər. Ancaq dərhal ifadə etmək lazımdır ki, bu, mənfəət əlaqəsinə söykənən bir həmrəylikdir. Klanın qorunmasının əhəmiyyəti isə müxtəlif qaynaqlarda bu şəkildə təsvir edilər:

*...Əsas element insan deyil, klandır/qəbilədir. Torpaq, yemək, ticarət, tabu, hüquq, su qaynağı, ov sahəsi və s. də təməl element klan/qəbilədir... Qəbilənin başında böyük insan (Big man) vardır. Bu, qəbilənin təcrübəli insanı, ən yaxşı ovçusu, ən yaxşı döyüşçüsüdür... Sözü eşidilər, hörmət edilər, ancaq qəbilə qərarlarını qəbilə üzvləri ortaq şəkildə verərlər... Kənardan gələn bir düşmənə qarşı klanlar tez birləşib bütünlüklə qarşı qoyarlar...* (http://www.araf.net/dergi/sayi08/html/csoy963.shtml)

**“Qara Klan”** anlayışı haqqında bəhs etməkdən məqsədimiz, hal-hazırda dünya üzərindəki əxlaqi degenerasiyanı təşkil edən və sanki bir şəbəkə kimi

bütün ölkələrdə əlaltıları olan bir ictimai quruluşu təyin etməkdir. Bu quruluş özünü son dərəcə müasir kimi göstərsə də, əslində tarixdəki totemist klanlara bənzər quruluşa bənzəməkdədir. Dünya üzərindəki narkotik ticarətini idarə edən, fahişəlik şəbəkələrinə nəzarət edən, əxlaqsızlığın reklamını edən bu qara klan, hər cür çirkli işin, pisliyin, azğınlığın arxasında iştirak etməkdədir. Bu klanın üzvləri, mediadakı əlaltıları sayəsində özlərini xalqa fərqli şəkildə tanıtmaqda, təhlükəsizlik qurumlarındakı bəzi əlaltıları sayəsində bir növ toxunulmazlıq əldə etməkdə, ədliyyədəki əlaltılarıyla hüququ öz lehlərinə istifadə etməni bacarmaqdadırlar. Üstəlik özlərinə düşmən olaraq gördüklərinə qarşı güclü birlik meydana gətirməkdədirlər. Klanın ən böyük düşməni isə, bu qaranlıq işlər şəbəkəsini ortadan qaldırmaq istəyən, gözəl əxlaqın, sevginin və sülhün dünya üzərində hakim olması üçün səy göstərən və insanları bu istiqamətdə şüurlandırmaq üçün bütün varlığıyla fikri mübarizə göstərən iman sahibləridir.



Bunları daha yaxşı anlamaq üçün, bəzi Latın Amerika ölkələrinin içinə düşdüyü vəziyyətin xatırlanmasında fayda vardır. Bu ölkələrdə yaşanan sui-istifadələr və ictimai tənəzzül, əslində bəhs etdiyimiz klanın fəaliyyətlərinin bir nəticəsidir. Eyni ölkələrdə diqqət çəkən bir başqa vəziyyət də; səmimi xristianların və klanın zülmlərinə etiraz edən, günahsız xalqın yanında olan kilsənin davamlı təzyiq altında tutulmağa çalışılmalarıdır. Bu da qara klanın din əxlaqını yaşayan insanlara qarşı aldığı rəftarın əhəmiyyətli göstəricilərindən biridir.

Bu kitabı oxuyarkən unudulmaması lazım olan bir başqa əhəmiyyətli məlumat da, qara klanın yaxın tarixlərdə ortaya çıxmış bir quruluş olmadığıdır. Pisliyi təşkilatlandıran, insanları inkara və degenerasiyaya istiqamətləndirən, yer üzündə qarışıqlıq və anarxiya çıxaran, hüzuru və təhlükəsizliyi pozan klan tipi bir təşkilatlanma və birliklər hər dövrdə var olmuşdur və qiyamətə qədər də var olacaqdır. Yaxşı ilə pisin fikri mübarizəsi tarix boyunca davam etmişdir. Allahın dinini və gözəl əxlaqı izah edən hər iman sahibinin qarşısında bənzər bir qrup iştirak etmiş, iman edənləri təsirsiz hala gətirmək, gözəl əxlaqın yayılmasını önləmək üçün mübarizə aparmışdır.

Bu, Allahın Quranda bizlərə bildirdiyi bir həqiqətdir. Quranda "inkarçıların qabaqcıllar" olaraq təsvir edilənlər klanın beynini meydana gətirən insanlara işarə edilir ola bilər (doğrusunu Allah bilər). Allah, Ənam surəsində **"Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada** *(mümkün qədər)* **yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və** *(bunu da)* **hiss**

**etmirlər."** (Ənam surəsi, 123) şəklində buyurmaqdadır. Onları bir yerə gətirən gücü isə Allah, **"...Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübahisə etmək üçün** *(batil əqidələr)* **təlqin edirlər..."** (Ənam surəsi, 121) ayəsiylə bildirmişdir. Qara klanı bir yerə gətirən, iman edənlərə qarşı təşkilatlandıran, onların strategiyalarını təyin edən şeytandır.

Şeytan və ona uyanlar isə sonunda mütləq hüsrana uğrayacaqlar. Allah Quranda belə bildirmişdir:

**Kafirlərə de: "Siz tezliklə məğlub olacaq və Cəhənnəmə toplanılacaqsınız! Ora nə pis yataqdır!"** (Ali İmran surəsi, 12)

## QARA KLANIN HƏYAT SAHƏSİ

İnsanlar arasındakı haqsızlıqları "böyük balıq, kiçik balığı udar" təlqiniylə məqbul və təbii kimi göstərən açıqlamalar edər...

"Atana belə güvənmə" və "kimsənin gözünün yaşına baxma" kimi təlqinlərlə, insanları mərhəmətsiz bir fərdiyyətçiliyə itələyən yalançı "ağıl müəllimləri"...

Səbir, fədakarlıq, təvazökarlıq kimi gözəl əxlaq xüsusiyyətlərini, saf kimi göstərməyə çalışan gizli və açıq təlqinlər...

Əgər ətrafınızı bir az diqqətli araşdırsanız, bu kimi təlqinlərin çox sıx və sistemli şəkildə edildiyini görə bilərsiniz. Dünyanın bir çox ölkəsində; bəzi mətbuat, televiziya, reklamçılıq, kino, ədəbiyyat, yumor kimi mədəni sahələrdə, bu mövzular israrla və həmişə eyni mesajlarla işlənər. Bu təbliğatın memarları, din əxlaqının insanlara öyrətdiyi həqiqətləri və dəyərləri göz ardı etməyə, buna qarşılıq inancsızlıq və əxlaqsızlığı ön plana çıxarmağa çalışarlar.

Məhz bu universal təbliğatın ardında, bu kitabda araşdıracağımız "qara klan" vardır. Bu klanın nəzəriyyəçiləri, qurduqları din əxlaqının xaricindəki dünyanı bəzəkli göstərmək üçün hərarətli fəaliyyət içindədirlər. Əvvəlcə Allaha olan inancı yox etməyə, insanları din əxlaqının öyrətdiyi dəyərlərdən uzaqlaşdırmağa çalışarlar. Bir tərəfdən də insanları fahişəlik, ya da homoseksuallıq kimi cinayət və pozğunluqlara etina etdirməyə, bunların təbii, qanuni və hətta məqbul görüldüyü bir ictimai mühit meydana gətirməyə çalışarlar. Bu ictimai mühit, onların, qurmuş olduqları çirkli və qaranlıq dünyanı yaşamaq üçün ehtiyac duyduqları həyat sahəsidir.



Xalqın əhəmiyyətli bir hissəsi isə (klanın əxlaqsızlıqlarının ölçüsünü tam mənası ilə bilməməsinə baxmayaraq) bu vəziyyətdən çox narahat olmaqda, ancaq bu klanın səbəb olduğu əyriliklərə necə maneə ola biləcəyini və bunların nə şəkildə ortadan qaldırıla biləcəyini bilməməkdədir. Bu səbəblə də əksəriyyət, bu qara klanla və onun qaranlıq fəlsəfəsi ilə mübarizə etmək yerinə onlardan üz çevirməyi, özlərinə onların tərzindən fərqli bir həyat yaşamağı yetərli görər. Bəhs etdiyimiz klan, məzlum xalqa dəhşət verəcək üsullara, hiyləgər siyasətlərə və mərhəmətsizliyə malikdir. Ancaq, Allahın **"...Siz doğru yolda olsanız,** *(haqq yoldan)* **azmışlar sizə zərər yetirə bilməzlər..."** (Maidə surəsi, 105) ayəsiylə bildirdiyi kimi, səmimiyyətlə doğru yola uyanlar Allahın qoruması altındadırlar və yaxşılıq üçün icra etdikləri işlərdə Allah onları şübhəsiz müvəffəqiyyətli edəcəkdir.

İrəliləyən səhifələrdə daha ətraflı olaraq görəcəyimiz üzrə, qara klan insanlar üzərində təxmin edilənin uzağında təsirə malikdir və bu təsirin ortadan qaldırılması, klanın fəaliyyətlərinin ifşa edilməsi və bu quruluşun dayağı halına gəlmiş ideologiyaların fikirlə yıxılması ilə təmin ediləcək. Buna görə əvvəlcə edilməsi lazım olan, klanın bir az daha yaxından tanınması, zehniyyətinin, tətbiqlərinin və planlarının hər istiqaməti ilə ortaya çıxarılması olmalıdır.

## QARA KLANIN ƏXLAQSIZ DÜNYASI

Klanın xüsusiyyətlərini sıralayarkən, klanı bir yerə gətirən ünsürlərin əvvəlində əxlaqi degenerasiya və qaranlıq bir həyat olduğunu ifadə etmişdik. Bu gün dünyaya baxıldığında, bu degenerasiya quruluşun beynəlxalq şəbəkə tərəfindən dəstək olduğu açıq şəkildə görülə bilər. Bəzi qəzetlər və televiziya kanalları tərəfindən çox vaxt əxlaqsızlıqların müasirlik və modernlik adı altında müdafiə olunmasının, əxlaqsızlıqları ilə məşhur insanların hər şeyə baxmayaraq adlarının gündəmdə tutulmasının, onlara qarşı gizli heyranlıq yaradılmağa çalışılmasının səbəbi də, əxlaqsızlığın klanın əhəmiyyətli gəlir qaynaqlarından biri olmasıdır. Diqqət yetirilsə, dövrümüzdə əxlaqsızlıq təbliğatının ən əhəmiyyətli şüarları, "müasirlik", "modernlik", "cəsurluq" və "azadlıq"dır. Şübhəsiz müasir bir dünya görüşünə sahib olmaq, əsrin inkişaflarını yaxından izləmək, yeniliyə açıq olmaq gözəl xüsusiyyətlərdir. Ancaq klanın hədəfi, hər cür əxlaqsızlıq və pozğunluğu bu bəzəkli təlqinlərin ardında, insanlara adi hal kimi təqdim etməkdədir. Bu səbəblə başda gənclər





olmaq üzrə bəzi insanlar, fərqində olmadan klanın sıx təlqinləri altında, əxlaqsızlığın əslində müasirliyin bir gərəyi olduğunu düşünər. Bundan çox deyil on il əvvəl insanların qınadıqları və qəti olaraq qarşı olduqları müxtəlif rəftar və davranışların, bu gün artıq bir çox insan tərəfindən adi qarşılanmağa başlanmış olması, hətta bunları tənqidçinin səhv olduğu inancının yayılması klanın təbliğatının cahil insanlar üzərində nə qədər təsirli olduğunun göstəricisidir. Dünyanın bir çox yerində bəzi televiziya kanallarında və bəzi maqazin jurnallarında sərgilənən əxlaqsızlıqlar, bu gün artıq evlilikdən kənar əlaqələrin, fahişəliklə dolanışığını təmin etmənin, homoseksuallığın, qumarbazlığın, sui-istifadənin, israfın son dərəcə yayılmış olduğunu göstərməkdə və daha da pisi bu xəbər və görüntülərlə xalqın şüurlu olmayan seqmentləri də bənzər bir həyata etina etdirilməkdədir.



Dünyanın bir çox ölkəsində, əxlaqsızlığın xalqın çox hissəsinə yayılması üçün, cəmiyyət tərəfindən tanınan insanları istifadə edərək etina etdirmə təbliğatı etmək olduqca təsirli bir üsuldur. Əslində ruhi problemləri olan, böyük bir tənəzzül içində yaşayan, mədəniyyət səviyyəsi olduqca aşağı, qavrayış qabiliyyətindən məhrum kimi insanlar dünya televiziya kanallarında, əxlaqsızlıqları nümunə verilərək, guya



"müasir, modern, cəsur" insanlarmış kimi önə sürülməkdə və xalqa "siz də müasirləşmək istəyirsinizsə bənzərini edin" təlqini verilməkdədir. Xarici musiqi kanallarında ürküdücü paltarlar geyən, qorxunc makiyajlar edən radikal musiqi qruplarının davamlı gündəmdə tutulmasının, satanizm kimi azğın inanclara sahib insanların tez-tez söhbət proqramlarına çıxarılmasının, bu marjinal olaraq təyin etdikləri azğın insanların ciddi bir qınama və ya tənqid ilə qarşılaşmayıb davamlı "simpatik" kimi göstərilmələrinin təməlində də eyni hədəf vardır. Bu səbəblə bəhs etdiyimiz təbliğatın ən "qiymətli" vəsaitləri olan fahişələr, oğrular, narkotik istifadəçiləri qara klan tərəfindən israrla qorunmaqdadır. Bəzən çox irəli getdiyi düşünülən insanlar qınanır kimi göstərilsə də, əslində xalqın şüur altına verilən təlqin tam tərsi istiqamətdədir. Çünki bu insanlar, klan tərəfindən yeni "gəlir qapıları" üçün bir növ tələ olaraq istifadə edilməkdədirlər. Buna qarşılıq bu insanlar da, klanın özlərini hər şərtdə qoruyacağını düşündükləri, klanın qaydalarına uyğun gəldikləri müddətcə bir zərərlə qarşılaşmayacaqlarına inandıqları üçün şüursuzca əxlaqsızlıqlarını davam etdirməkdədirlər.



Bu ittifaqın dünya daxilində meydana gətirdiyi mənfi təsir aparılan statistikaların nəticəsində açıq şəkildə görülməkdədir. Qara klanın əhəmiyyətli gəlir qaynaqlarından biri olan narkotik ticarəti səbəbiylə, narkotikin tələsinə düşənlərin sayı hər keçən gün artmaqdadır. Aparılan araşdırmalar son on il içində xüsusilə gənclər arasında narkotik istifadəsinin daha da yayıldığını, narkotikə başlama yaşının isə orta məktəb dövrünə qədər düşdüyünü göstərməkdədir. Bundan on il əvvəl, 1992-ci ildə aparılan araşdırmada, İngiltərədə gənclərin 50%-nin narkotik istifadə etdiyi, 30%-nin isə asılı olduqları təsbit edilmiş, bu gün isə bu nisbətlər daha da yüksəlmişdir. Amerikalıların da 1988-1995 illəri arasında narkotikə 57.3 milyard dollar xərclədikləri təsbit edilmişdir. Birləşmiş Millətlərin 90-cı illərin sonunda apardığı araşdırmaya görə isə, dünya daxilində 15 və 15-dən yuxarı yaşa sahib narkotik istifadə edənlərin sayı təxminən 200 milyondur. Buna görə dünya əhalisinin təxminən 5%-i narkotik istifadə etməkdədir. Yenə eyni araşdırma, 90-cı illərdə dünya ölkələrindən ən az 134-nün narkotik problemi ilə üz - üzə olduğunu, Pakistanda, 80 - ci illərin əvvəlində

çox az olan narkotik istifadəçilərinin sayının 90-cı illərdə 1.5 milyon insana çatdığını göstərməkdədir.

(Drug Report 2000, United Nations Office for Drug Control and Crime Prevention)

**1990-CI İLLƏRİN SONLARINDA ÜMUMDÜNYA NARKOTİK PROBLEMİ**




Klanın bir başqa gəlir qaynağı olan fahişəlik də sürətlə yayılan əxlaqsızlıqlardandır. Dövrümüzdə dünyanın bir çox ölkəsində uşaq deyiləcək yaşdakı qız və oğlanları pul qarşılığında, hətta bəzən şəxsən ailələri tərəfindən fahişəliyə təhrik etməkdədirlər. Daha qorunması və baxılması lazım olan bir yaşda gəlir mənbəyi olaraq istifadə edilən bu uşaqları qurtarmaq üçün bütün dünyanın birlik olması lazım olarkən, Filippinlər kimi fahişəliyə məcbur edildiyi uşaqların məşhur olduğu ölkələr ən seçilən turistik məkanlar arasında sayılmaqdadır. 1995-ci ildə Tailandda hökumət büdcəsinin 60%-i fahişəlikdən qarşılanmışdır. Hindistanda isə fahişəlik edən qadınların sayı, BM məlumatlarına görə təxminən 8 milyondur.

(http://www.catw-ap.org/facts.htm)



Dünyanın müxtəlif ölkələrindən bir çox turist hər il tək bu məqsədlə bu bölgələrə axın etməkdədir. Amerikada isə ən az 100 min uşağın fahişəlik ticarətində istifadə edildiyi bildirilməkdədir. Fahişəlik cinayətiylə Amerikan uşaq həbsxanalarında olan uşaqların sayı 300 min ilə 600 min arasında dəyişməkdədir.

(US Dept of Labor, Prostitution of Children, 1996)

Yenə Amerikada təxminən 2 milyon gəncin küçələrdə həyatını davam etdirdiyi və bunların böyük bir qısminin fahişəlik etdiyi təxmin edilməkdədir. (Kathlyn Gay, Child Labor: A Global Crisis, 1998, citing Joan J. Johnson, Teen Prostitution, 1992) Fahişəliklə birlikdə zina da yayılmaqda, evlilikdən kənar əlaqələr son dərəcə adi qarşılanarkən, evlilikdən kənar əlaqələrdən doğulan uşaqlar əhəmiyyətli bir ictimai problem halına gəlməkdədir.

Bunlarla yanaşı ictimai tənəzzülün əhəmiyyətli göstəricilərindən olan rüşvət, sui-istifadə, sələmçilik, saxtakarlıq, israf, haqsızlıq, ədalət sisteminin tənəzzülü kimi hadisələr də klan tərəfindən dəstəklənir. Hətta bu tənəzzül bəzi ölkələrdə bəzən elə bir mərhələyə gəlir ki, ölkəni idarə edənlərin də içinə daxil olduğu sistem tamamilə klanın idarəsi altına girər. İcra etmə, mühakimə və qanunvericilik təşkilatlarında klanın hakimiyyəti sıx olaraq görülər. Bəzi Latın Amerika ölkələri bunun ən təəccüblü nümunələrindəndir. Bu ölkələrdə degenerasiya və ictimai tənəzzül elə bir mərhələyə gəlmişdir ki, artıq narkotik ticarəti şəxsən dövlət tərəfindən icra edilməkdə, demək olar ki, hər gün faili məchul cinayətlər işlənməkdə, narkotik kartelləri və bənzəri cinayət şəbəkələri ədalət sistemini və dövlətin təhlükəsizlik güclərini istədikləri kimi istiqamətləndirib istifadə edə bilməkdədirlər.



Klanın mənfəət təmin etdiyi bu nizamdan şübhəsiz xalq həm maddi, həm də mənəvi olaraq böyük zərər görməkdədir.

Bu sistem, Quran əxlaqı ilə tamamilə zidd olan bir sistemdir və verdiyi zərərin ortadan qaldırılması ancaq din əxlaqının insanlara öyrətdiyi ərdəmlərin cəmiyyət tərəfindən mənimsənməsiylə olacaq. Allah, Quranda klan tərəfindən təşviq edilən əxlaqsızlıqların qəti olaraq insanlara haram qılındığını bildirməkdədir:

**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur! Allahın,** *(öldürülməsini)* **haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Kim haqsız yerə öldürülmüşsə, artıq onun varisinə ixtiyar vermişik**

*(istəsə bağışlayar, istəsə qisas tələb edər, istəsə də qanbahası alar)*. **Lakin o da qisas aldıqda həddi aşmamalıdır. Çünki ona artıq kömək olunmuşdur. Yetim həddi-buluğa çatana qədər, –xeyirxahlıq** *(qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək)* **istisna olmaqla,– onun malına yaxınlaşmayın! Əhdə vəfa qılın. Çünki** *(hər kəs)* **əhd barəsində sorğu-sual olunacaqdır. Ölçdükdə ölçüyə tam riayət edin,** *(çəkdikdə)* **düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır. Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı** *(sahibinin əməlləri)* **barəsində sorğu-sual olunacaqdır. Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. Bütün bu** *(qadağan edilmiş)* **pis əməllər, Rəbbinin xoşuna gəlməyən şeylərdir.** (İsra surəsi, 32-38)

Görüldüyü kimi klanlaşmış bir quruluşa sahib olan bu qrupun, müdafiəsini etdiyi və varlığını davam etdirə bilməsini təmin edən həyat tərzi, din əxlaqının tamamilə tərsidir.

Din əxlaqı insanlara vəfalılığı, dürüstlüyü, ədaləti, fədakarlığı, haqqı nə bahasına olursa olsun müdafiə etməyi və ədaləti əmr edərkən, qara klanın əxlaqı insanların eqoist, mərhəmətsiz, mənfəətçi, hiyləgər, fırıldaqçı, yalançı olmasını tələb edir. Klanın nizamı ancaq o zaman davam edə bilər. Hər bir klan üzvü bu çirkli nizam içərisində özünə bir yol tapmışdır və həyatını davam etdirə bilməsi üçün bu yolun əsla bağlanmaması lazımdır. Bəziləri rüşvət və haqsız qazanc ilə, bəziləri məzlumların haqqını və əməyini istismar edərək, bəziləri fahişəlik və narkotik ticarəti sayəsində varlıqlarını davam etdirərlər. Sistemlərini davam etdirə bilmələri üçün ətraflarında rüşvət verə biləcəkləri və rüşvət ala biləcəkləri əxlaqda insanların, fahişəlik etməyi qəbul edə biləcək, narkotik istifadə edəcək və narkotiki yayacaq insanların olması və hamısından əhəmiyyətlisi kimsənin bu çirkinliklərə və haqsızlıqlara qarşı fikri mübarizə etməyə cəsarət etməməsi lazımdır. Halbuki din əxlaqı həm bu pislikləri ortadan qaldırar, həm də pisliklərə qarşı güclü bir fikri mübarizə içinə girəcək insanların yetişməsinə vəsilə olar. Bu isə qara klanın tənəzzülü deməkdir.

**Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə** *(haqdan uzaqlaşmağa)* **yönəldərlər.**
(Nisa surəsi, 27)

**Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız".**
(Əraf surəsi, 81)



## KLANIN İÇİNDƏN "BİZNESMENƏ NƏSİHƏTLƏR"

Qara klanın bura qədər təsvir etdiyimiz quruluşu, şəxsən bu klanın içində yaşananlara şahid olan bəzi insanlar tərəfindən də zaman-zaman ifadə edilməkdədir. Bu mövzudakı maraqlı bir "etiraf", nəşr olunduğu sıralarda olduqca səs gətirən "Gənc biznesmenə" adlı kitabdır. Kitabın yazıçısı, uzun illər iş dünyasında iştirak etmiş, ancaq sonra bu dünyadakı əxlaqi degenerasiyadan narahat olaraq özünə daha sadə bir həyat qurmuşdur. Kitabında, klanın içində "Gənc biznesmen" olmaq üçün edilməsi lazım olanları satira üslubunda izah etməkdədir.

Ancaq əlbəttə bütün iş dünyasını və ya hər biznesmeni həmin kitabda yer alan məlumatlara görə qiymətləndirmək doğru deyil. Bir çox biznesmen, dürüstlükdən və əxlaqi dəyərlərdən güzəştə getmədən öz sahələrində böyük müvəffəqiyyətlər əldə etməkdədir. Bununla birlikdə, bu kitabda yer alan əxlaqsızlıqların iş dünyası içində yayılmasını istəyən bir gücün varlığı da əhəmiyyətsiz edilə bilməz.

Kitabda izah edilən dünya, qara klanın meydana gətirmək istədiyi quruluşun kiçik bir modelidir. "Gənc biznesmenə" adlı kitaba görə, bir biznesmenin ilk etməli olduğu, "ruhunu satmaq və vicdanını susdurmaq"dır:




*Ruhunu sat. Dərhal, bir an əvvəl sat və xilas ol. Harada və necə satmalısan? Bazar səni tapacaq maraqlanma! Ondan sonrası daha asandır.*

(Emre Yılmaz, Genç Bir İş Adamına, İlkkaynak, 20. baskı, 2001, s. 11)

*Vicdan; okeanları aşıb gələrsən, buna ilişərsən. Psixiatrlara "düşərsən". Hind fəlsəfələrinə sarılarsan. Uzaq yerlərə səyahət edərsən. Məktəblər, xəstəxanalar... tikdirərsən. Olmaz. Olmaz. Olmaz. Amma qorxma. Səbir et. Zamanla vicdanını da aldadarsan... Biznesmenin ağzından bu nəqarətlər düşməz. Əslində razı salmağa çalışdığı vicdanıdır. Vicdan. O, başqalarının görmədiyini görən, ürəyindəki bir cüt göz... Ruhunu satdığın gün vicdanını da satdığını zənn etmə. Ruh satılar. Vicdanını isə yavaş-yavaş boğmalısan. Bir it balasını boğar kimi.* (Emre Yılmaz, Genç Bir İş Adamına, İlkkaynak, 20. baskı, 2001, s. 11)

Yaxşı bəs niyə qara klana daxil olan biznesmen ruhunu satmaq və vicdanını öldürmək məcburiyyətindədir? Bunun səbəbi, klanın bəhs etdiyimiz dünyasının yalnız hiylə, saxtakarlıq, mərhəmətsizlik və eqoizm tələb etməsidir. Eyni kitabda, bu qaranlıq dünyanın tələb etdiyi əxlaq belə təsvir edilər:

*Ən böyük hiylə dürüstlükdür. Ən böyük yalanını, "nə qədər doğru danışır, nə qədər dürüst və açıq bir insandır" dedikləri zaman söyləməlisən.*

***Yalançı və ikiüzlü olmalısan.*** *Belə olmadığında hər kəsi inandıra*

*bilmənin yolu, əvvəlcə özünü aldatmaqdan keçər... Bir biznesmen hələ, ən yüksəklərdə olan bir biznesmen, ruhunu bir ömür boyu geri almayacaq şəkildə tərk edər.* (Emre Yılmaz, Genç Bir İş Adamına, İlkkaynak, 20. baskı, 2001, s. 24-25)

*Qısqanclıq birinci sinif bir hissdir. Təcavüzkarlıq, şəhvət və ya qürur kimi... **Qısqanclıq ən güvəndiyin impulslarından biri olsun.** Yaşat onu. Bəslə... **Təcavüzkarlıq, ehtiras, qısqanclıq kimi duyğularına yadlaşma.** Karyerini bu duyğular bəsləyər. Yumşaq hisslərinə, mərhəmətə, sevgiyə, həsrətə yadlaş.* (Emre Yılmaz, Genç Bir İş Adamına, İlkkaynak, 20. baskı, 2001, s. 39)

Eyni kitabda bəhs etdiyimiz qaranlıq dünyaya girmənin ən birinci şərti isə belə açıqlanar: "**Allahın varlığını və birliyini inkar etmək**." (Emre Yılmaz, Genç Bir İş Adamına, İlkkaynak, 20. baskı, 2001, s. 21) Kitabın yazıçısına görə bu qaranlıq dünyaya girmək istəyənlər, ruhlarını, vicdanlarını və Allah inancını tərk etmək məcburiyyətindədirlər.

Çünki Allaha inanan və Ona qarşı məsuliyyətinin şüurunda olan bir insan; cinayətdən, zülmdən və hər cür əxlaqsızlıqdan qaçınar. Klanın qaranlıq dünyasının davam etməsi, klan üzvlərinin eynilə tarixdəki azğın qövmlər kimi, Allahı inkar etmələrinə bağlıdır.

Bu səbəbdədir ki, Allaha olan inancı zəiflətmək və son mərhələdə də tamamilə yox etmək, klanın dünya səviyyəsindəki başlıca hədəflərindən biridir. Klan üzvlərinin çoxu, bu qəflətə girə bilmək üçün, heç bir şey düşünmədən yaşamağı, Allahın varlığını göstərən açıq-aşkar dəlilləri tamamilə görməməzlikdən gəlməyi seçərlər. Ancaq klanın daha yuxarı səviyyədəki nəzəriyyəçiləri, Allahın dəlillərini insanlardan gizləmək üçün bəzi fəlsəfə və nəzəriyyələrə şiddətlə ehtiyac duyulduğunun fərqindədirlər.

Qara klan ilə Darvinizm arasındakı əlaqənin çıxış nöqtəsi də budur.



**Klana görə, biznesdə uğur qazanmağın yolu ikiüzlü və amansız olmaqdan keçir. Halbuki Allah Quranda insanlara dürüst, mərhəmətli və ədalətli olmağı əmr etmişdir.**



**O gün ki, hər kəs etdiyi yaxşı və pis əməlləri** *(qarşısında)* **hazır görəcək, özü ilə** *(pis əməllərinin)* **arasında çox böyük məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən çəkindirir. Allah qullarına Şəfqətlidir.”**
(Ali İmran surəsi, 30)

**Müttəqilərə: “Allah nə nazil etmişdir?”– deyildikdə, onlar: “Xeyir** *(nazil etmişdir)*!**”– deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir.**
(Nəhl surəsi, 30)

**O gün hökm yalnız Allahındır.** *(Allah)* **onların arasında hökm verəcəkdir. İman gətirib yaxşı işlər görənlər Nəim bağlarında olacaqlar.**
(Həcc surəsi, 56)

## QARA KLANIN SOSİAL DARVİNİST DÜNYASI

Qara klanın sisteminin dindən kənar olduğunu və cəmiyyəti də mümkün olduğu qədər din əxlaqından uzaqlaşdırmaq istədiyini ifadə etdik. Ancaq burada bəhs edilən (hər nə qədər yəhudilik və xristianlıq zamanla təhrif edilmiş olsa da) islam, yəhudilik və xristianlıq kimi Allahdan gələn vəhyə söykənən İlahi dinlərdir. Buna qarşılıq klan buddizm, hinduizm, karma fəlsəfəsi kimi bütpərəst və ateist "din"lərə heç bir zaman qarşı deyil. Əksinə, bu kimi saxta və hiyləli dinlərin (daha doğrusu insan istehsalı fəlsəfələrin) batil təlimlərinin yayılmasını dəstəkləyir.

Ancaq adını çəkdiyimiz Uzaq şərq dinləri (və ya UNO-culuq və s. kimi "New Age" axınları) klan dünyasının yalnız bir qisminə xitab edər. Buna qarşılıq klanın bütün həyat formasını söykəyə biləcəyi daha əhatəli bir "dünya görüşü" lazımlıdır. Həqiqətdə klan üzvlərinin böyük əksəriyyəti, bu kimi fəlsəfi mövzularla maraqlanmayan, həyatlarını pul-cinsəllik-əyləncə üçbucağı içində keçirməyə çalışan olduqca səthi və cahil insanlardır. Amma klanın nəzəriyyəçiləri, əvvəl də ifadə etdiyimiz kimi, həm özləri həm də bu cahil qrup üçün lazımlı olan "dünya görüşü"nə böyük əhəmiyyət verərlər. Bu fikrin təməli isə, Darvinin təkamül nəzəriyyəsi və onun "Sosial darvinizm" olaraq bilinən davamıdır.

Sosial darvinizm, Darvinin təkamül nəzəriyyəsinin sosiologiyalara və ictimai mövzulara uyğunlaşdırılmasına deyilir. Elmi etibarsızlığını digər əsərlərimizdə çox ətraflı olaraq açıqladığımız bu nəzəriyyə, aşağıdakı həqiqətdən kənar iddialara söykənəndir:

1) Yer üzündəki həyat, tamamilə təsadüfi təkamül müddətinin nəticəsidir. Həyat təsadüfi olduğu üçün də, bir məqsədi yoxdur.
2) Dünyanın tək etibarlı qaydası "güclü və üstün olanların həyatda qalması"dır. Var gücü ilə bir həyat mübarizəsi vardır və qalib gəlmənin tək yolu eqoist və mərhəmətsiz olmaqdır.
3) İnsan da bir heyvan növüdür. Heyvanlarla eyni bioloji qanunlara tabedir. Bir başqa ifadəylə, insan da "meşə qanunlarına" görə yaşamalıdır.

Darvin bu azğın iddiaları ortaya atdıqdan sonra, hər nə qədər özünü dəstəkləyən elmi tapıntılar var olmasa da, nəzəriyyəsi sürətlə yayıldı. Bunun səbəbi, Darvinizmin dövrə hakim olan dindən kənar sistem və ideologiyalara uyğun bir fikri zəmin meydana gətirməsi idi. İngiltərə, qurmuş olduğu müstəmləkə imperatorluğuna hökumət qazandırmaq üçün, "millətlərarası həyat mübarizəsi" və "təkamüldə inkişaf etmiş irqlər" kimi darvinist anlayışlara ehtiyac duyurdu. Bu səbəblə İngiltərənin və sonra da digər böyük dövlətlərin hakimiyyəti, qısa müddətdə Darvinizmi mənimsədilər.

I Dünya müharibəsinin hazırlanmasında da, müharibəni "bioloji ehtiyac" sanan dövrün avropalı rəhbərlərinin yanılmaları böyük rol oynadı.

20-ci əsrdə Sosial darvinizmin daha da ağrılı nəticələri ortaya çıxdı: Nazi Almaniyası və faşist ideologiyası. İnsanları inkişaf etmiş heyvan kimi görən nazilər, zəif olanların üzərinə basaraq yüksəlməkdən, xəstə və zəif olanları bir şəkildə yox etməkdən, fərqli və aşağı gördükləri irqləri ortadan qaldırmaq



Həyatın təsadüfi bir təkamül prosesi olduğu iddiası ilə ortaya çıxan darvinizm, qarşıdurmaların, qan tökülmələrinin, təcavüzün, zəiflərə zülmün təbiət qanunları olduğunu iddia edən bir ideologiyadır. Darvinizmin bu yanlış məntiqi tarixdə böyük fəlakətlərə səbəb olmuşdur.

üçün qorxunc qırğın və soyqırımlar təşkil etməkdən çəkinmədilər. Çünki elm maskası taxmış nəzəriyyələri, onlara bunun "təbiətin qanunu" olduğunu söyləyirdi.

Sosial darvinizmin daha çox yayılmış bir nəticəsi isə, demək olar bütün müasir cəmiyyətlərə təsir edən əxlaqi degenerasiyada ortaya çıxdı. Darvinizmin gətirdiyi cəmiyyət quruluşu, rəqabətçi və mərhəmətsiz bir dünya görüşünün, əxlaqa əhəmiyyət verməyən, özünü və insanları inkişaf etmiş heyvanlar olaraq görən kütlələrin meydana gəlməsinə səbəb oldu. Yalnız fərdi mənfəətləri əhəmiyyətli görən, fədakarlıq edilməsi lazımdırsa, bunun ancaq mənfəətlərlə üst-üstə düşdüyündə edilməsinin lazım olduğunu müdafiə edən, əksinin insanın təbiətinə zidd olduğunu iddia edən bu hiyləgər ideologiya, hər cür eqoizmin və təcavüzkarlığın qanuni görüldüyü bir mədəniyyəti ortaya çıxardı.

Bəhs etdiyimiz mədəniyyətin müdafiəçilərinə baxdığımızda, tez-tez Darvinizmə istinad etdiyini görərik. "Mərhəmətsiz və eqoist olmanın" qanuniliyi demək olar ki, həmişə darvinizmdən gəlir. Dövrümüzün ən məşhur və qabaqcıl darvinistlərindən biri olan İngilis zooloq və yazar Richard Dawkins, bunun əsas nümunələrindəndir. Yazdığı kitablarla təkamül nəzəriyyəsinin ən məşhur müdafiəçisi halına gələn və bir ateist olan Richard Dawkins, yer üzündəki bütün həyatın "eqoist genlər" tərəfindən çıxarıldığını müdafiə etməkdə və eqoizmin təbiətin ən böyük qanunu olduğunu irəli sürməkdədir. Dawkins bu əyri düşüncəsini belə ifadə edər:

*İnsanlar, eqoist genləri tərəfindən var edilmiş maşınlardır. Müvəffəqiyyətli Çikaqo qanqsterləri kimi, genlərimiz son dərəcə rəqabətli dünyada həyatda qalmışlar.* ***Müvəffəqiyyətli bir gendə olması gözlənilən hakim xüsusiyyətin, mərhəmətsiz eqoizm olduğunu irəli sürürəm.***

(Richard Dawkins, The Selfish Gene, Oxford: Oxford University Press, 2nd Edition 1989, səh. 3)

İnsanların "müvəffəqiyyətli Çikaqo qanqsterləri kimi" mərhəmətsiz və eqoist maşınlar olduğuna inanan bir fəlsəfənin necə bir cəmiyyət modeli yaradacağı isə ortadadır. Dawkins və onun kimi düşünən bütün darvinistlər

və onların hiyləli mesajlarını cəmiyyətə "elmi həqiqətlər"miş kimi təlqin edən bəzi media, ictimai qarşıdurmanın və cinayət infrastrukturunu hazırlamaqdadırlar. Dawkins "bizlər həyatda qalma maşınlarıyıq; genlər olaraq bilinən eqoist molekulları qorumaq üçün proqramlaşdırılmış robotlarıq" deyərkən, hər cür hücum və təcavüzü də qanuni göstərməkdədir. Darvinizmin qabaqcıl tənqidçilərindən Phillip Johnsonun dediyi kimi:

*Bu məntiq, genlərə xidmət edən robotların (insanların), genetik müdirlərini təmin etmək üçün,* ***digər robotlara qarşı cinayət, soyğun, təcavüz və kölələşdirmə tətbiqinin son dərəcə təbii olduğu mənasına gəlməkdədir.***

(Phillip Johnson, The Wedge of Truth: Splitting the Foundations of Naturalism, Illinois, 2000, səh. 106)

Dawkinsin və onun kimi düşünən bütün digər darvinistlərin müdafiə etdiyi bu məntiq, əslində primitiv bütpərəst klanların batil inanclarından fərqli deyil. Primitiv bütpərəstlər, əlləriylə hazırladıqları büt və totemlərin onları yaratdığı kimi azğın bir fikrə inanar və bu bütlər üçün müharibə edib, qan tökərdilər. Müasir darvinistlər (bir başqa ifadəylə qara klanın nəzəriyyəçiləri) isə, insanların təsadüflər nəticəsində meydana gəlmiş genlər tərəfindən yaradıldığına inanmaqda və bu genlər üçün qarşıdurmanı müdafiə etməkdədirlər. Qısacası bütpərəstliyin ağılsızlığı, cəhaləti və vəhşiliyi eynilə davam etməkdədir, minlərlə il əvvəlki totemist klanlardan, zəmanəmizin darvinist qara klanına qədər...

Halbuki Allah insanı yoxdan yaratmışdır və bu dünyada insandan istənən də eqoist olmaq və zidd düşmək deyil, əksinə Allahın İlahi dinlərlə insanlara öyrətdiyi kimi gözəl əxlaqlı olmaq, yəni fədakar, mərhəmətli və sülhsevər davranmaqdır. İnsanın yaradıcısı və idarəçisi nə bütlər, nə totemlər, nə də onlar kimi şüursuz bir maddə yığını olan genlərdir. İnsanı yaradan, ona müəyyən tale təyin edən və həyatını hər anını idarə altında tutan aləmlərin Rəbbi olan Allahdır. Ancaq klan, bu həqiqəti kor-koranə rədd etməkdə və ya əhəmiyyətsiz etməkdədir.

Bu gün dünyada təkamül nəzəriyyəsi lehinə icra edilən geniş beyin yuma kampaniyasının ardında da, klan ilə Darvinizm arasındakı bu güclü ideoloji əlaqə yatar. Qara klanın nəzəriyyəçiləri, qurmuş olduqları dindən kənar və eqoist dünyanın sözdə elmi dayağının Darvinizm olduğunu çox yaxşı dərk edirlər və bu səbəblə də bu çökmüş nəzəriyyəyə dəstək olmaq üçün hər cür təbliğat üsulunu istifadə edərlər.

**Onlar hər dəfə müharibə alovunu yandırdıqda Allah onu söndürər.**
**Onlar yer üzündə fitnəkarlıq törətməyə səy göstərirlər.**
**Allah isə fitnəkarları sevmir!** (Maidə surəsi, 64)

**Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin.**
**Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti**
**yaxşılıq edənlərə yaxındır.** (Əraf surəsi, 56)

## SOSİAL DARVİNİZMİN GENETİK CİNAYƏT ANLAYIŞI

Qara klanın nəzəriyyəçiləri, Sosial darvinizmi müxtəlif cinayətləri qanuniləşdirmək üçün fərqli şəkillərdə istifadə edərlər. İnsanı bir heyvan olaraq təyin etdikləri üçün, onlara görə cinayət, təcavüz, oğurluq kimi cinayətlərin hamısının heyvanlar arasındakı həyat mübarizəsindən miras qalan genetik, yəni "təbii" səbəbi vardır. Buna görə, əgər insanlar bir-birlərini öldürmür, oğurluq etmir, ətraflarındakılara zərər vermirlərsə, bunu vicdanlarına uyğun gəldikləri üçün deyil, növlərinin mənfəətini düşündükləri üçün edərlər. Lazım olduğunda cinayət işləmələri, qırğın etmələri, təcavüz etmələri isə adi qarşılanmalıdır, çünki bu insanın "təbiətində" vardır. Bu azğın iddiaya görə bir növ heyvan olan insanın, arabir heyvani rəftarlar göstərməsində səhv olan heç bir istiqamət yoxdur.

Halbuki Allah, insanları vicdanlarına uyğun hərəkət etdikləri və gözəl əxlaq göstərdikləri təqdirdə həqiqi hüzuru tapacaqları şəkildə yaratmışdır. İnsanın fitrəti (təbiəti), sevgidən, mərhəmətdən, təvazökarlıqdan, fədakarlıqdan, dostluqdan zövq alacaq, digər bir ifadəylə din əxlaqını yaşayacaq şəkildədir. Bu həqiqəti Rəbbimiz bu şəkildə bildirmişdir:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi** *(şüurlu)* **məxluq kimi verdiyi fitrət budur.** (Rum surəsi, 30)

Tərs darvinist məntiqinin ortaya qoyduğu ən diqqət çəkici mənfəətlərdən bir başqası da nəyin cinayət olub olmadığı, cinayətkarların neyə görə qiymətləndirilməsi lazım olduğu mövzuları ilə əlaqədardır.



Cinayətin genetik olduğu düşüncəsinin ilk müdafiəçilərindən biri, cinayət antropologiyasının qurucularından qəbul edilən təkamülçü Cesare Lombrosodur. Daha sonra bir çox təkamülçü elm insanı tərəfindən də şiddətlə müdafiə olunan Lombrosonun fikirləri, cinayət törətməyi qanuni etmiş və sosial tənəzzülü sürətləndirmişdir. Bəzi təkamülçülər Lombrosonun ortaya qoyduğu iddiaların daha sonra qəbul edilmədiyini qarşıya qoysalar da, hal-hazırda da elm dünyasında son dərəcə məşhur olan "günahkar genlər", ya da "günahkar xromosomlar" anlayışı Lombrosonun fikirlərinin qismi dəyişikliyə uğramaqla birlikdə hələ də təkamülçülər tərəfindən müdafiə olunduğunu göstərməkdədir. Necə ki, bəzi darvinistlər də bunu açıq şəkildə dilə gətirərlər.

(Stephen Jay Gould, *Darwin ve Sonrası: Doğa Tarihi Üzerine Düşünceler*, Tübitak Yayınları, Ankara, 2000, səh. 239)

Lombrosonun tamamilə elmdən kənar olan iddiasına görə cinayət törədən insanlar əslində bir cinayət törətmiş olmur, təbiətlərinin gərəyi olaraq belə davranırdılar. Guya bu insanlar təkamül müddətində geri qalmış insanlar idi

və cinayət törətmək onlar üçün son dərəcə təbii idi. Bu vəziyyətdə cinayətlərin mühakimə olunması və qiymətləndirilməsində də bunun göz qarşısında saxlanılması lazım idi. Lombrosonun "doğuşdan cinayətkarlar" nəticəsinə necə gəldiyi isə, bu iddianın nə qədər elmdən kənar olduğunu bir daha gözlər önünə sərməkdədir:

***Tutqun bir dekabr gününün səhərində birdən birə, bir quldurun kəllə sümüyündə bir sıra əcdadlarının anomaliyasını gördüm... Cinayətkarın təbiəti və mənşəyi problemi həll edilmiş kimi gəldi; ibtidai insanların və heyvanların xüsusiyyətləri dövrümüzdə yenidən ortaya çıxmalı idi.***

(Stephen Jay Gould, *Darwin ve Sonrası: Doğa Tarihi Üzerine Düşünceler*, Tübitak Yayınları, Ankara, 2000, səh. 238)

Bunun da yanında Lombroso və assistentləri daha uzun qolların, basıq və dar bir alının, böyük qulaqların, qalın kəllə, böyük və çıxıq çənənin doğuşdan cinayətkarların təməl fiziki xüsusiyyətləri olduğunu irəli sürmüşlərdi. Hətta döymə etdirmənin Afrika qəbilələrinə xas bir xüsusiyyət olduğu iddiasından yola çıxaraq, döymə etdirənlərin də insani meymunlar olduqlarını, bu səbəbdən cinayətə meylli olmalarının normal qarşılanmaları lazım olduğunu iddia etmişlərdi. Beləcə, döymə etdirən bir insanın cinayət törətməsi də bir mənada qanuniləşdirilmiş olurdu.



İnsanların kəllə quruluşuna baxaraq, qollarını ölçərək və bədənlərindəki döymələri təsbit edərək "cinayətin təməlini" kəşf etdiyi iddiası ilə ortaya çıxmaq, dövrün primitiv elm şərtləri altında sərgilənən bir yanılma idi və bu cür kobud bir yanaşma zamanla tərk edildi. Lakin, günümüzdəki təkamülçü elm insanları hələ bunun kimi nəzəriyyələri müdafiə etməyə davam etməkdə, yalnız bir az daha "elmi" kimi görünən bir üslub istifadə etməkdədirlər. Onlara görə cinayət, insanın fitrətinə zidd bir yoldan çıxma deyil, insanın guya təkamül təbiətinin bir gərəyidir.

## KÖRPƏ CİNAYƏTLƏRİ

Bu mövzudakı şərhləriylə diqqət çəkən darvinistlərdən biri də, Steven Pinkerdir. Xüsusilə insan şüurunu araşdıran kitablarıyla tanınan (daha doğrusu insan şüurunu darvinist və materialist doqmaya görə izah etməyə çalışan, amma bunu bacara bilməyən Pinkerə ən çox şöhrət qazandıran hadisələr isə, 1996-97 illərində yaşanan "körpə cinayətləri"dir.

Bu cinayətlərin əvvəlində, hər ikisi də 18 yaşında və lisey şagirdi olan amerikalı bir kişi və qadının, qeyri qanuni əlaqələri nəticəsində doğulan körpəni boğaraq öldürdülər və cəsədini də böyük zibil qutusuna atdılar. İkinci hadisədə isə, yenə 18 yaşında olan amerikalı bir gənc qız, lisey məzuniyyət mərasimindən ayrılaraq qarnındakı körpəni bir tualetdə doğdu, öldürdü, zibilə atdı və sonra da yarım buraxdığı məzuniyyət mərasiminə geri döndü.



DÜNYA

**Cani anneye 2.5 yıl**

ABD'de, lise arkadaşıyla 17 yaşındayken girdiği ilişkiden doğan bebeğini öldürüp çöpe atan acımasız anne, 2.5 yıl hapis cezasıyla kurtuldu

Lise arkadaşından hamile kalan ve doğan bebeğinden kurtulmak için onu döverek öldüren Amy Grossberg 2.5 yıl hapis cezasına çarptırıldı. Cani annenin sevgilisi Brian Peterson da motel odasında gerçekleşen vahşi cinayete engel olmadığı için 2 yıl hapisle cezalandırıldı.

ABD'nin New Jersey eyaleti Bergen kentinde aileleriyle birlikte yaşayan kolejli aşıklar, Amy'nin hamile kalmasının ardından, bebekten kimseye bahsetmeyerek ondan kurtulmaya karar verdi.

**Cesedi poşete koydu**

Amy, bir motel odasında sa... Ancak, daha sonra bebeği... koyarak çöpe attı. Hiçbir ... katilleri, otel yönetiminin... bebeğin ölü doğduğunu, ... söylemediklerini iddia et... işledikleri cinayeti itiraf e... mahkum oldu.

**Cani anneye 15 yıl**

ABD'de okul balosu sırasında tuvalete gidip doğum yapan sonra bebeği ölüme terkedip piste geri dönen **Melissa Drexler**, ölüme sebebiyet verme suçundan 15 yıl hapis cezasına çarptırıldı. New Jersey eyaletinin Monmouth Bölge Mahkemesi'nde görülen davada gözyaşlarını tutamayan cani anne, yaklaşık üç yıl içinde aftan yararlanabilecek.

**1 - www.aksam.com.tr/aksam/19980711/dunya/dunu.html**
**2 - www.arsiv.hurriyetim.com.tr/hur/turk/98/10/31/dunya/04dun.htm**

Bu iki qorxunc hadisə, amerikalılara, cəmiyyətlərində gedərək artan şiddət, mərhəmətsizlik və vicdansızlığın hansı ölçülərə gəldiyini göstərirdi.

Və necə ki, böyük bir ictimai şouya və mübahisələrə gətirib çıxardı. Hadisəni şərh edənlərin çoxu, bu iki ağla sığmaz cinayətin, əxlaqi degenerasiyadan və faillərin psixoloji natarazlıqlarından qaynaqlandığını müdafiə etdi.

Ancaq Amerikanın ən məşhur və ən qatı darvinistlərindən biri olan Steven Pinker, hadisəni daha fərqli şərh etdi. Pinker, bu hadisələrin əxlaqi degenerasiya və ya psixopatoloji bir problemdən qaynaqlanmadığını, əksinə guya "insanın təkamüllü təbiəti" lazımınca son dərəcə adi olduğunu irəli sürdü. "New York Times" qəzetində nəşr olunan məqaləsində, "neonaticide" (bir körpəni doğumunun ilk günündə öldürmə) adını verdiyi tətbiqin əqli xəstəlik sayılmaması lazım olduğunu, çünki "**bunun tarixdəki bir çox mədəniyyətdə qəbul edildiyini və tətbiq olunduğunu**" iddia etdi. Pinker, bu azğın iddiasında daha da irəli gedərək, bu cinayət tətbiqinin "təkamüllü lazımlılıq"dan yarandığını iddia edərək belə yazdı:

***Primitiv şərtlərdə yaşayan analar, var olan körpələrinə baxmaq və yeni doğan bir körpəsini böyütmək arasında çətin qərarlar qəbul etmək məcburiyyətində qalır və əgər yeni doğulan bir körpə xəstə isə, ya da həyatda qalma şansı aşağı kimi görünürsə, zəif olanı fəda edir və mövcud olanlar arasından ən güclü olanları yaşatmağı seçirdilər...***

(Phillip Johnson, *The Wedge of Truth: Splitting the Foundations of Naturalism*, Illinois, 2000, səh. 111)

Pinkerə görə insan genlərinə köçürülmüş olan bu yalançı təkamül "neonaticide" (körpə cinayəti) vərdişi, ananın dünyaya uşaq gətirməyi özü üçün riskli gördüyü vəziyyətlərdə yenidən ortaya çıxa bilərdi. Bir başqa sözlə, amerikalı lisey şagirdi gənc qızların qarınlarında daşıdıqları körpələri vicdansız şəkildə öldürmələri, Pinkerə görə, təkamül qanunlarının gərəyi ortaya çıxmış bir "genetik davranış"ın ifadəsindən başqa bir şey deyildi.

Qısacası, Pinker, körpə cinayətlərini darvinist məntiqlə "təbii" görürdü. Michael Kellyin "Washington Post" qəzetində nəşr olunan ***"Arguing For Infanticide" (Körpə cinayətini müdafiə etmək) başlıqlı yazısında ifadə etdiyi kimi, "Pinker, körpələrin qətl edilməsini açıq şəkildə" müdafiə edəcək qədər irəli getməmiş... amma buna çox yaxın bir şey söyləmişdi."*** (Michael Kelly, Arguing For Infanticide, *The Washington Post*, 6 noyabr 1997)



**Darvinist Steven Pinkerə görə, bəzi anaların körpələrini öldürməsi tamamilə normaldır. Təkamülçü zehniyyət bu cür vəhşiliyi belə müdafiə etməkdən çəkinmir.**

Pinkerin hər hansı bir elmi dayağı olmayan, yalnız darvinist bir fərziyyədən ibarət olan iddiasının bir qismi xüsusilə maraqlı idi: Primitiv qəbilələrdə də körpə cinayətlərinə rast gəlinməsi. Həqiqətən də bir çox bütpərəst cəmiyyətdə körpə cinayətləri yayılmış idi.

Amma bunun səbəbi, Pinkerin qarşıya qoyduğu kimi genetik bir meyl deyil, bütpərəst cəmiyyətlərin degenerasiya əxlaq anlayışı idi. Bütpərəstlər, uşaqlarını xəyali ilahlarına qurban edər və ya yalnız "faydasız" gördükləri üçün göz qırpmadan öldürə bilərdilər.

İlahi dinlərlə birlikdə, bu degenerasiya əxlaqı tamamilə ortadan qaldırıldı, mərhəmətsiz cinayətlərin yerini şəfqət, mərhəmət və sevgi aldı. İslamdan əvvəl Ərəb cəmiyyəti bu vəziyyətin nümunələrindən biriydi. İslamdan əvvəlki cahiliyyə ərəbləri, uşaq cinayətlərini çox məqbul və qanuni görürdülər. İslam dininin hökmüylə bu qorxunc vəhşilik qəti şəkildə qadağan edildi. Allah Quranda, Peyğəmbərimizə, körpə cinayətlərinin haram qılındığını təbliğ etməsini əmr etdi:

**De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın,** *(öldürülməsini)* **haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız.** (Ənam surəsi, 151)

Allah bir başqa Quran ayəsində isə, uşaqlarını öldürənlərin ağılsızlığını və etdikləri günahı belə bildirmişdir:

**Axmaqlıqları üzündən dərk etmədən öz övladlarını öldürən və Allahın onlara verdiyi ruzini Allaha iftira ataraq haram edənlər, əlbəttə, ziyana uğramışlar. Onlar azdılar və doğru yola yönəlmədilər.**
(Ənam surəsi, 140)

Bir başqa ayədə isə Allah, Hz. Muhəmmədə özünə beyət etmək (bağlılıq bildirmək) üçün gələn müsəlman qadınlardan, digər bəzi imani və əxlaqi sözlərlə yanaşı **"uşaqlarını öldürməmək"** mövzusunda da and içmələrini istəməsini əmr etmişdir (Mumtəhinə surəsi, 12). Uşaq öldürmək, Allahın heç bir şəkildə xoş görmədiyi bir pozğunluq, zalımlıq və cahillikdir.

Burada diqqət çəkici olan nöqtə isə, bütpərəst cəmiyyətlərdə var olan bir əxlaqi azğınlığın, müasir darvinistlər tərəfindən "genetik meyl" kimi qəbul etdirilərək qanuni göstərilməyə çalışılmasıdır. İslam dininin hökmləri və (yəhudilik və xristianlıq) bütpərəst cəmiyyətlərin uşaq cinayətlərini qəti şəkildə qadağan etmiş və tarixə basdırmışkən, insanların din əxlaqından uzaqlaşmaları nəticəsində bütpərəst azğınlıqlar yenidən ortaya çıxmaqda və darvinistlər də bu azğınlıqlara təkamüllü məntiqlərlə guya haqlı səbəblər axtarmaqdadırlar.

Görüldüyü kimi, Darvinizmin müdafiə etdiyi cəmiyyət quruluşu ilə qara klanın dəstəklədiyi cəmiyyət modeli eyniylə üst-üstə düşməkdədir. Darvinizmin müdafiə olunması qara klan üçün əslində öz həyat sahəsinin qorunması və davam etdirilməsi mənasını verməkdədir. Bu səbəblə də qara klan ilə Darvinizm arasında olduqca güclü bir bağ vardır.

## OĞURLUQ, TƏCAVÜZ VƏ HOMOSEKSUALİZM

Pinkerin körpə cinayətləri mövzusundakı şərhləri, "cinayət tərəfdarı" darvinist yanaşmalardan yalnız biridir. Darvinistlər cəmiyyət tərəfindən cinayət olaraq qəbul edilən bir çox hərəkətin adi qarşılanması lazım olduğunu müdafiə etməkdədirlər. Təkamülçülərin məntiqdən kənar iddialarına görə, hər hansı bir şəkildə cinayət törədən (insan öldürən, oğurluq edən, təcavüz edən və s.) insan, hələ təkamülləşməsini tamamlayamadığı üçün cinayət törətməkdədir, bundan ötəri qınanmamalıdır və bu insanlara cəza verilərkən bu vəziyyət göz qarşısında saxlanılmalıdır. Bu elmdən kənar iddianın təməlində, "meymundan gələn genlər daşıdığımıza görə, bu genlər bizim bəzi heyvan xüsusiyyətləri göstərməmizə səbəb ola bilər" yanılması yer almaqdadır. Yaxın keçmişin məşhur təkamülçülərindən Stephen Jay Gould, bir çox təkamülçünün sahib olduğu bu məntiqi belə yekunlaşdırır:

*Geyinmiş, şəhərləşmiş və mədəniləşmiş ola bilərik, amma ruhumuzun dərinliklərində bir zamanlar atamıza, qatil meymuna xidmət etmiş olan genetik davranış nümunələrini yaşadarıq.*

(Stephen Jay Gould, *Darwin ve Sonrası: Doğa Tarihi Üzerine Düşünceler*, Tübitak Yayınları, Ankara, 2000, səh. 258)




**Təcavüz kimi bir vəhşəti belə normal qarşılayan Darvinist zehniyyətin cəmiyyətə verdiyi zərəri, aparılan araşdırmalar ortaya qoymaqdadır. İngiltərədə aparılan bir araşdırma göstərdi ki, Britaniya gənclərinin təxminən 50%-i təcavüzü normal hesab edir. Bu ibrət verici vəziyyət, cəmiyyətlərin din əxlaqından uzaqlaşmalarının nəticələrindən biridir.**

Bəzi təkamülçülər də təcavüzün də belə adi qarşılanması lazım olduğunu söyləyəcək qədər irəli getməkdədirlər. Randy Thornhill və Craig Palmer adlı təkamülçü elm insanları keçdiyimiz illərdə nəşr olunan "Natural History of Rape" (Təcavüzün təbii tarixi) adlı kitablarında, guya hələ də heyvani instinktlərə sahib olan insanın təcavüz etməsinin adi qarşılanması lazım

olduğunu müdafiə etməkdədirlər. Bu azğın iddiaya görə, bir növ heyvan olan insanın guya meymun ataları kimi zaman-zaman təcavüz etməsinin normal olduğu, hətta bunun soyun davamı üçün lazımlı bir hərəkət olduğu qarşıya qoyulmaqdadır:

*Buna səmimiyyətlə inanırıq ki, eynilə bəbirin xallarının meydana gəlməsi, ya da zürafənin boyunun uzanması kimi təcavüz də darvinist seleksiyanın bir hissəsidir...* ***Təcavüzün təkamül səbəbindən genetik bir mənşəyi olduğuna şübhə yoxdur.*** (http://dir.salon.com/books/feature/2000/02/29/rape/index.html)

Görüldüyü kimi Darvinin heç bir elmi dayağı olmayan, insanların meymunlarla ortaq ataya sahib olduqları iddiası, insanları, təcavüz kimi vəhşi bir hərəkəti belə qəbul edə biləcəkləri degenerasiya əxlaq anlayışına sürüyə bilməkdədir.

Bənzər bir vəziyyət (qara klan içində olduqca məşhur şəkildə yaşanan) bir azğınlıq olan homoseksuallıq üçün də etibarlıdır. Quranda Hz. Lutun qövmünün də bu azğınlığı yaşadığı bildirilmişdir və Allah bu azğınlığı qəti olaraq qadağan etmişdir. Dövrümüzdə bu azğınlığı qanuni insan davranışı kimi göstərərək yaymağa çalışanlar isə, yenə Darvinizmə söykənməkdədirlər. Homoseksuallılığın genetik mənşəyi olduğu şəklindəki iddia, bu azğınlığı günahsız və qanuni kimi göstərmək üçün irəli sürülən əsassız tezislərdən biridir.



**Homoseksuallığın genetik mənşəli olduğunu iddia edən Darvinistlər, bu azğınlığın günahsız göstərmək üçün çoxlu əsassız tezislər önə sürməkdədirlər.**

Buradakı təməl məsələ isə, əxlaq anlayışının doğru başa düşülməsidir. Təkamülçülərin iddia etdiyinin əksinə insanı Allah yaratmışdır. Və Allah insana, göndərmiş olduğu elçilər və İlahi kitablar yoluyla doğru və səhvi öyrətmişdir. Əxlaq, Allahın bu kitablarındakı hökmlərinə söykənir. Allah eyni zamanda insana, özünə həmişə doğru yolu göstərən vicdanını və pisliyə sürümək istəyən nəfsini vermişdir. Bu səbəbdən, hansı ictimai kütləyə aid olursa olsun, necə bir təhsil aldığı, hansı dili danışdığı, hansı irqə aid olduğu, cinsiyyətinin nə olduğu fərq etmədən, hər insan nəyin yaxşı nəyin pis olduğunu bilər. Əgər Allahdan qorxub çəkinən bir insansa, iradəsini istifadə edərək həyatının hər anında vicdanının səsini dinləyər və yaxşı davranışlar sərgiləyər. Nəfsinin səsini dinləyən insan, əslində pislik etdiyinin fərqindədir. Bu səbəbdən bir insan pis davranışlar sərgiləyərsə, bunun şüurundadır və alacağı qarşılığı da nəzərə almış

deməkdir. Allah ayədə belə bildirmişdir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və** *(Allahdan)* **qorxmağı təlqin edənə! Nəfsini** *(günahdan)* **təmizləyən uğur qazanmışdır. Onu** *(günaha)* **batıran isə ziyana uğramışdır.** (Şəms surəsi, 7-10)



**Darvinistlərin azğın zehniyyətlərinə görə, adam öldürən, oğurluq edən, təcavüz edən adam, hələ təkamülünü tamamlaya bilməmişdir. Bu yanlış anlayışın məqsədi hər cür cinayətləri qanunilәşdirməkdir.**




Homoseksuallıq insanın öz fitrətindən (təbiətindən) ayrılması və Allahın qəti şəkildə haram etdiyi azğınlığa düşməsi deməkdir. Unutmaq olmaz ki, şeytan insanlara "Allahın yaratdıqlarını dəyişdirmələrini" əmr edər (Nisa surəsi, 119). İnsanları fitrətindən uzaqlaşdırmağa, müxtəlif azğınlıqlara düçar etməyə çalışar. Şeytanın insanları istiqamətləndirdiyi azğınlıqların ən ifrat nümunələrindən biri homoseksuallıqdır.

Allah Quranda, Hz. Lutun qövmünün də eyni azğınlığı yaşadığını bildirmişdir. Bu azğın qövm, Hz. Lutun onları doğru yola dəvət etməsinə baxmayaraq, inkarda və azğınlıqda israr edirdilər və Allah qatından bir əzab ilə qarşılıq görmüşdülər. Ayələrdə bu şəkildə bildirilmişdir:

**Lutu da** *(elçi göndərdik)*. **Bir zaman o, öz qövmünə demişdi: "Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız". Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır" – deməkdən başqa bir şey olmamışdı. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə** *(daşlardan)* **yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu.** (Əraf surəsi, 80-84)

## QARA KLANIN DARVİNİZMƏ OLAN LABÜD EHTİYACI

Bura qədər sosial darvinizmin əxlaq və cinayət anlayışından bəzi nümunələri araşdırdıq. Elmi iddiasının olmasına baxmayaraq həqiqətdə heç bir elmi dayağı olmayan bu ideologiyanın, cəmiyyət quruluşu üzərində meydana gətirəcəyi təxribat və pozulma isə çox açıqdır. İnsanların qəsb etmələrinin, oğurluq etmələrinin, cinayət işləmələrinin, təcavüz etmələrinin, fahişəlik etmələrinin təbiətlərinin və keçmişlərinin labüd həqiqəti və bioloji zərurət olaraq qiymətləndirilməsi, cəmiyyət nizamında sürətli pozulma və çirklənməyə səbəb olacaq. Necə ki, olmuşdur da. Ancaq bu pozulmadan mənfəət təmin edən kütlələr, müdafiə etdikləri əxlaqsızlığa guya elmi bir örtük tapmış olmaları səbəbiylə, Darvinizmə dörd əllə sarılmışlar. Bunların başında da qara klanın mənsubları gəlməkdədir. Klanın mənfəət təmin etdiyi və varlığını davam etdirməsi üçün lazımlı olan bütün şərtlər, darvinist cəmiyyət quruluşu ilə birə-bir eynidir. Bu səbəblə də klan üçün Darvinizmi müdafiə etmək, çökmüş bir ideologiya olmasına baxmayaraq dəstək olmağa çalışmaq, bir mənada klanın öz varlığını qorumasının təməl ideoloji şərtidir.

Klanın nəzəriyyəçiləri çox yaxşı bilməkdədirlər ki, Darvinizmin ləğv olması demək, insanların “yaradılış və həyatın əsl məqsədi” haqqında doğru cavabları tapmağa başlamaları deməkdir. Kainatın və canlıların, darvinistlərin axmaq iddialarındakı kimi “kor təsadüflərin” əsəri ola bilməyəcək qədər mükəmməl və qüsursuz olduğunun fərqinə varan bir insanın, öyrənmək istəyəcəyi ilk şey, bu möcüzə nizamın necə və kim tərəfindən, nə şəkildə var edildiyi olacaqdır. Araşdırmaları isə onu tək bir cavaba çatdıracaq: Kainat və içindəki bütün canlılar, üstün və uca bir Yaradıcının əsəridir. Və bu Yaradıcı, hər şeyin sahibi və hakimi olan Uca Allahdır.

Bu açıq-aşkar həqiqəti anlayan insanın bundan sonra edəcəyi şey isə, Yaradıcımızı tanımaq və Onu gərəyi kimi təqdir edə bilmək üçün səy göstərmək olacaq. Allahın əmr etdiyi kimi bir həyat sürən insan, hər cür əxlaqsızlıqdan şiddətlə uzaqlaşacaq, ədalətli olacaq, hiylə etməyəcək, fırıldaqçılıq etməyəcək, məzlumun haqqını qoruyacaq, haqsızlıqdan çəkinəcək qısaca qara klanın istədiyinin tam tərsi bir həyat sürəcək. Belə insanların sayının artması isə klanın sisteminin sonunu gətirəcək.

Məhz bu səbəblə qara klanın dünya səviyyəsindəki üzvləri, Darvinizmin oyunlarının, saxtakarlıqlarının, əksikliklərinin, əyriliklərinin, ağıl və məntiqdən kənar iddialarının ifşa edilməsini heç bir zaman istəməzlər. Din əxlaqını izah edən, materializm və Darvinizmə qarşı fikri mübarizə edənlərə böyük qəzəb və kin duyarlar və onlara qarşı hərəkətə keçərlər.

Bu hərəkəti anlamaq üçün, əvvəl klanın quruluşunu sonra isə istifadə etdiyi üsulları araşdırmaq lazımdır.

## QARA KLANIN QURULUŞU

Hər cəmiyyət müəyyən ictimai siniflərdən meydana gələr və bu siniflər arasında, kəskin sərhədlərlə təyin olunmuş olmasa belə, müəyyən ayrı-seçkilər vardır. Bu ayrı-seçkilər, həmin qrupların əxlaqi dəyərləri, həyat stilləri, dünyaya baxışları, mədəniyyət təcrübələri və maddi imkanları kimi müəyyən ünsürlər təyin edər. Cəmiyyətin "qabaqcıl sinifi" içində yer alan bəzi ümumiyyətlə, həyat tərzi ilə daha çox degenerasiya olmuş quruluş sərgilərkən, xalqın böyük əksəriyyəti isə bu degenerasiyadan mümkün olduqca qorunmağa və uzaq dayanmağa çalışar. Qabaqcıl olan bu insanların bir çoxunun ümumi xüsusiyyəti, sahib olduqları imkanlar (zənginlik, mövqe, mülk, gözəllik, şöhrət kimi) səbəbiylə ərköyünlüyə qapılmaları və degenerasiyalı bir həyatın qabaqcılları olmalarıdır.

Allah Quranda bizə, tarix boyunca bir çox cəmiyyətin qabaqcılların din əxlaqına qarşı böyük mübarizə verdiyini xəbər vermişdir. Allah İsra surəsində bu şəkildə bildirməkdədir:

**Biz bir məmləkəti məhv etmək istədikdə onun cah-calal içində yaşayan sakinlərinə** *(Allaha itaət etməyi)* **əmr edirdik. Onlar isə orada günah işlər görürdülər. Beləcə, onun** *(o məmləkətin)* **barəsindəki söz gerçək oldu və Biz onu yerlə yeksan etdik.** (İsra surəsi, 16)

Bir başqa ayədə isə inkar edənlərin din əxlaqının yayılmasına qarşı hər cür imkanlarını səfərbər etdiklərini Allah bizə belə bildirmişdir:

**Şübhəsiz ki, kafir olanlar** *(insanları)* **Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər. Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər. Kafir olanları Cəhənnəmə toplayacaqlar...** (Ənfal surəsi, 36)

Qara klanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri də, qrup üzvlərinin çox geniş olmasıdır. Digər ölkələrdə bol miqdarda nümunəsini gördüyümüz kimi, özlərini incəsənət adamı olaraq təyin edən halbuki incəsənətlə deyil, qeyri-əxlaqi həyat tərzi ilə gündəmdə olanlar, dünya mediasının kilid nöqtəsindəki insanlar, dünya ticarətini mənfəətləri istiqamətində yönləndirənlər və hətta dövlətlərin müxtəlif təşkilatlarında iştirak edən bəzi insanlar, bu klanla birlikdə hərəkət edərlər. Ancaq bunun da vurğulanması lazımdır ki, incəsənət və media dünyasına, dövlətin bəzi təşkilatlarına sızan bu insanların varlığı, bu sahələrdə qiymətli və dürüst insanların işlədiyi və onların da bu qara klanın fəaliyyətlərindən narahatlıq duyduğu həqiqətini unutdurmamalıdır.

Klanın mövcudiyyətini qoruya bilməsinin təməl səbəblərindən biri, ən yuxarı səviyyədən ən aşağı səviyyəyə qədər demək olar ki, hər yerdə mənsubunun olmasıdır. Bu insanların yetişdiyi mühitlər, içindən gəldikləri ailə strukturları, sahib olduqları mədəniyyətlər kiçik fərqlər göstərə bilər, ancaq bu insanlar tək bir düşüncə ətrafında birləşmişlər; klanın əxlaqsızlığını davam etdirə bilmək və bu əxlaqsızlıqlardan özlərinə mənfəət təmin edə bilmək. Həmçinin bu insanları bir yerdə tutan əhəmiyyətli bir başqa ünsür də əxlaqlarının bənzər olmasıdır.

Allah bizə Quranda bu insanların sahib olduğu ortaq əxlaq xüsusiyyətləri belə bildirmişdir:

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da** *(başqasının adını mənimsəyən)* **fırıldaqçıya – o** *(adam)* **var-dövlət və oğul-uşaq sahibi olsa belə. Ayələrimiz ona oxunduğu zaman: “Bu, keçmişdəkilərin əsatirlərindəndir!”- deyər. Biz onun burnuna damğa vuracağıq.** (Qələm surəsi, 10-16)

Kitabın sonrakı səhifələrində qara klan ilə əlaqədar yer verəcəyimiz məlumatları araşdırarkən, ayələrdə bildirilən bu əxlaqın göz qarşısında saxlanılması son dərəcə əhəmiyyətlidir. Bu, klan üzvlərinin ruh hallarının daha yaxından tanına bilməsi üçün lazımlıdır.



**“Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki,** *(onun barəsində)*: **“Sehrbazdır, ya da dəlidir!”– deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.”** (Zariyat surəsi, 52-53)

Həmçinin klan içərisində müəyyən bir iyerarxiya quruluş hakimdir. Klanın liderləri və onlara tabe olanları vardır. Ancaq özündə, klan üzvləri tək bir bədən olaraq, son dərəcə təşkilatlı bir şəkildə hərəkət edərlər. Hər üzvün məsuliyyəti və bu məsuliyyətini nə şəkildə yerinə yetirəcəyi müəyyəndir. Üzvlər arasında açıq şəkildə elan edilməmiş olmasına baxmayaraq hər kəs tərəfindən çox yaxşı bilinən bir əmək bölgüsü mövcuddur. Məsələn, klan üzvlərindən biri bəzəkli sözlərlə və fəlsəfi terminlərlə degenerasiyanı tərifləyərkən, bir başqası həyatıyla təriflənən bu modelə nümunə təşkil edər. Digər bir üzv isə, etdiyi əxlaqsızlıqlar və ya işlədiyi cinayətlər səbəbiylə bu insanın başının dərdə girməsi vəziyyətində onu qorumaqla məsuldur. Bəzi üzvlər, mətbuatı istifadə edib onun lehinə təbliğatlarla insanı qoruyarkən, bəziləri də dövlət içindəki güclərini istifadə edərək bu insanı potensial təhlükələrdən qoruyarlar. Qoruma mexanizmi, sonrakı səhifələrdə də toxunacağımız kimi, klanlaşmanın ən vurucu xüsusiyyətlərindən biridir və klanın davamını təmin edər.

## KLANIN İÇİNDƏKİ ÇİRKLİ HƏMRƏYLİK



Əxlaqi degenerasiyanın ardındakı bu qruplaşma bir az daha yaxından araşdırıldığında, üzvlər arasındakı gizli həmrəylik dərhal diqqət çəkər. Sosiologiyada edilən klan təriflərində bu nöqtəyə xüsusilə diqqət çəkilər. Məsələn "Grolier International America" ensiklopediyasına görə klanın ana qaydalarından biri, *"klan üzvlərindən birinə edilən hücum hər kəsə edilmiş sayılar"* qaydasıdır Bu səbəblə klan mənsubları, aralarındakı müxtəlif fərqlər və hətta qarşıdurmalara baxmayaraq, qara klanın ideologiyasına zidd həyat yaşadığına inandıqları "ortaq düşmən"ə qarşı güclü həmrəyliyə sahibdirlər. Bu həmrəyliyin təməlində şübhəsiz, varlığını davam etdirə bilmə instinkti vardır.

Klanın ən böyük qorxusu həyat sahəsinin əlindən alınmasıdır. Bu qorxu, qara klanın üzvlərinin böyük həmrəylik içinə girmələrinə səbəb olar. Klanın hücumları da, müdafiə etmələri də ciddi bir həmrəylik içərisində reallaşdırılar. Təhlükə olaraq görülən ünsürlərə qarşı, klan üzvlərinin hamısı birlik olarlar. Və təhlükənin aradan qaldırıldığından əmin olana qədər, birlik içində hərəkət edərlər.

Dünyanın bir çox ölkəsində qarşılaşılan və dünya mətbuatında da iştirak edən bəzi hadisələr xatırlandığında bu həmrəyliyi zehninizdə canlandırmanız daha asan olacaq. Məsələn belə düşünün, bu günə qədər "böyük xəbər" başlığı altında, dünyanın müxtəlif ölkələrində neçə fahişəlik qrupunun, neçə narkotik ticarətinin ifşa edilib xalqa deyildiyinə şahid oldunuz. Kim bilər neçə ölkədə, neçə rüşvət şəbəkəsinin tutulmasını izlədiniz. Bəlkə də "fahişəliyə zərbə", "mafiyaya son", "hüquqda təmizlik", "təmiz əllər" kimi başlıqlarla eşitdiyiniz bu beynəlxalq xəbərlərin bir qismi, sizə "dünyada artıq bir çox şeyin düzələcəyinə" dair ümidlər də verdi. İndi bir daha düşünün, bunların neçəsi həqiqətən gözlədiyiniz kimi nəticələndi? İfşa edilən hansı fahişəlik qrupu daha böyük bir ticarətin ortaya çıxarılmasını təmin etdi? Həbs edilən narkotik şəbəkələri, neçə narkotik şəbəkəsini həqiqətən məhv etdi? Rüşvət alarkən və ya verərkən tutulan insanlar, hansı mexanizmin tamamilə haqq və hüquqa görə işləyən halına gəlməsinə səbəb oldu? Bu suallara verəcəyiniz cavab, böyük ehtimalla, demək olar ki, heç biri olacaq. Çünki bu hadisələr (hər şey dəqiq və açıq olmasına baxmayaraq) klanın "gizli əlləri" tərəfindən bir şəkildə ört-bas edilər.

"Sürətli ört - baslar" qara klanın həmrəyliyinin ən nəzərə çarpan

nümunələrindəndir. Bütün dəlillərə, şahidlərə və isbatlara baxmayaraq cinayətlərin üzəri örtülər. Hər hansı bir şəkildə klanın cinayətlərinin və skandallarının ortaya çıxacaq olması, qaranlıq təşkilatın bir anda həyəcana keçməsinə səbəb olar. Çirkli bir müdafiə etmə hücumu başlayar. İlk olaraq, uyğun bir xəbərləşmə şəbəkəsi ilə mümkün olduqca çox klan üzvünə dəyişiklər xəbər verilər. Qısa müddətdə lazımlı bütün insanlar xəbərdar edilmiş olar. Qalan insanlara əlaqədar mesajın çatdırılması isə, bəzi mətbuat quruluşları içində yer alan klan üzvlərinin məsuliyyətindədir. Qəzet və televiziyalarda hadisəni qınayırmış kimi görünən, ancaq əslində klanın qoruma və həmrəylik daxili motivini hərəkətə keçirəcək olan xəbərlər nəşr olunmağa başlanar. Klan lazım olduğunda, dövlət təşkilatları içərisinə sızmış bəzi insanlarını da istifadə edərək, təhlükəsizlik orqanlarını və ədalətin işləməsini də klanın mənfəətləri istiqamətində yönləndirməyə çalışar. Bunun üçün son dərəcə hiyləgər siyasətlər izləyərlər.

Çünki ört-bas edilməyən hər hadisə, daha böyük bir hadisənin ortaya çıxmasına səbəb ola bilər. Bəzən bir narkotik istifadəçisinin həbs edilməsi, bəzən fahişəlik edən bir insanın göz altına alınması, bəzən də bir haqsız gəlirin ifşa edilməsi, klanı narahat etməyə yetər. Necə ki, bədənin bir yerində bir narahatlıq meydana gəldiyində, bu, bütün bədənə çətinlik versə bir fahişənin, bir narkomanın, bir fırıldaqçının, bir rüşvətçinin, ya da bir qatilin həbs edilməsi klanda böyük narahatlığa səbəb olar. Bir insanın həbs edilməsi bəlkə də yüzlərlə, minlərlə insanı narahat edər. Həbs edilən insanın hər zaman üçün tanışı və bildiyi digər insanları ələ vermə təhlükəsi vardır. Ələ verilən insan da bir başqasını ələ verə bilər. O da bir başqasını və beləcə zəncirləmə reaksiya ilə bir anda klanın bütün təşkilatlanması ortaya çıxa bilər, çirkli işlərin hamısı ifşa ola bilər. Hamısından əhəmiyyətlisi, klan üzvlərinin hər biri bir-bir bu vəziyyətdən zərər görə bilər.




Bu tərzdə zəncirləmə təhlükəyə qarşı, hadisənin tezliklə ört-bas edilə bilməsi üçün klan üzvlərinin dərhal hamısı dövrəyə girərlər. Bu səbəblə, bu tərz xəbərlər klan üzvləri tərəfindən yaxından izlənilər. Klan hər hadisədən, öz əleyhinə ola biləcəyini düşündüyü üçün narahatlıq duyar. Bundan təxminən 10 il əvvəl İtaliyada "təmiz əllər" əməliyyatının başlamasına səbəb olan P2 qalmaqalının ortaya çıxmasında yaşanan hadisələr bu vəziyyətə bir nümunədir. Yalnız Licio Gellinin qeyri-qanuni fəaliyyətlərinin polisin diqqətini çəkməsi, bütün P2 mason lojasının fəaliyyətlərinin ifşa olmasıyla nəticələnmişdi. Gelli, P2-nin böyük ustadı idi. Onun çirkli pul əlaqələrini araşdıran təhlükəsizlik orqanları, villasındakı xüsusi hissələrdə axtarış etməyə qərar verdilər. Bu axtarışda Gellinin ustadı olduğu lojanın yüzlərlə

üzvünün siyahısı və bunların mafiya, narkotik və çirkli pul yuma istiqamətindəki gizli işlərini ortaya qoyan sənədlər ortaya çıxdı. Klanın tək bir üzvünün həbs edilməsi, bütün bir şəbəkəni çökdürmüşdü. Bir siyahının ələ keçirilməsi ilə başlayan hadisələr, qısa müddət ərzində bütün ölkəni sarsıdan qalmaqal zəncirinə çevrilmiş, qara klanın çıxar əlaqələri ortaya çıxmağa başlamışdır. Tamamilə ifşa olma narahatlığına qapılan qara klanın bu vəziyyət qarşısında aldığı tədbirlər isə son dərəcə sərt olmuşdur. Hadisəni araşdıran bəzi səlahiyyətlilərin müxtəlif hücumlara məruz qalmaları, hətta bəzilərinin sui-qəsdlərin hədəfi olmaları qara klanın, narahatlığa qapıldığında nələr edə biləcəyini və cinayətlərini ört-bas edə bilmək üçün hansı üsullara müraciət edə biləcəyini göstərən əhəmiyyətli nümunələrdir.

Qara klan üzvlərinin bu narahat və xəstə ruh halı Quranda bildirilmiş olan bir ruh halıdır. Münafiqlərin xüsusiyyətlərinin izah edildiyi bir ayədə, bu insanların hər səs-küyü öz əleyhinə sandıqları bildirilməkdədir:

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar** *(divara)* **söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də** *(haqdan)* **döndərilirlər!** (Munafiqun surəsi, 4)

Digər tərəfdən klan həmrəyliyi, "mənə də zərər gələ bilər" narahatlığı ilə inkişaf edən zəruri və instinktiv bir həmrəylikdir. Bu həmrəyliyin təməli vəfa, fədakarlıq, sədaqət və sevgi kimi dindən qaynaqlanan əxlaqi ərdəmlərə deyil, cinayət ortaqlığına söykənər. Təhlükə olmadığı zamanlarda isə, klan üzvləri demək olar ki, bir-birlərindən nifrət edərlər, hətta çox vaxt öz deyimləriylə "bir-birlərinin quyusunu qazar"lar. Klan içində bütün əlaqələr və insanlar arası dialoqlar mənfəətə söykənəndir. Bu səbəbdən kənara qarşı birlik kimi görünsələr və davransalar da, öz içlərində parçalanmışdır.

Əslində bütün bunlar Allahın Quranda bizə detalları ilə bildirdiyi inkarçı xarakterinin və inkar edən cəmiyyətin xüsusiyyətləridir. Bunu xəbər verən bir ayədə belə buyurulmaqdadır:

**Onlar hamılıqla sizə qarşı ancaq möhkəmləndirilmiş şəhərlərdə və ya divar arxasından vuruşarlar. Onların öz aralarındakı düşmənçilik isə çox kəskindir. Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır.** (Həşr surəsi, 14)

Əslində mənfəətə söykənən həmrəylik anlayışı, klanın sahib olduğu darvinist ideologiya ilə də eynilə üst-üstə düşməkdədir. Darvinist doqmaya görə də, sözdə "təbiətin qanunu" olaraq canlılar bir-birləri ilə ancaq mənfəətlərinə uyğun olduğundaköməkləşərlər. Bunun xaricində həyatda qala bilmək üçün davamlı bir-birləri ilə mübarizə halında olmaları lazım olduğuna inanarlar və bu mübarizədə hər yolu qanuni görərlər.

Dünyada ikən bu halda olan klan həmrəyliyi, axirət günündə isə tam mənası ilə çökəcək. Klan üzvləri o gün bir-birləri ilə həmrəyliyə güc çatdıra



bilməzlər, həyatları boyunca inkarçılıqda birlik olanlar və yaxşılar əleyhinə ittifaqlar quran bu insanlar axirət günündə əsl həqiqət ilə üz-üzə gələcəklərdir. Bu gün onlar Allahın özlərinə verəcəyi qarşılığa təslim olmuşlar. Allah, bu vəziyyəti belə xəbər vermişdir:

*(Günahkarlara deyiləcək:)* **"Sizə nə olub ki, bir-birinizə kömək etmirsiniz?" Bəli, onlar bu gün baş əyəcəklər! Onlar bir-birinə üz tutub soruşacaqlar.** *(Tabe olanlar)* **deyəcəklər: "Siz bizim yanımıza sağ tərəfdən gəlirdiniz".** *(Başçılar)* **deyəcəklər: "Xeyr! Siz inanan adamlar deyildiniz. Bizim sizin üzərinizdə heç bir hökmranlığımız da yox idi. Xeyr, siz özünüz həddi aşmış adamlar idiniz. Rəbbimizin Sözü bizim barəmizdə həqiqətə çevrildi. Biz** *(əzabı)* **hökmən dadacağıq. Biz sizi azdırdıq. Çünki biz özümüz də azmış adamlar idik". Şübhəsiz ki, həmin gün onlar əzaba şərik olacaqlar.** (Saffat surəsi, 25-33)

**"Haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafirlərin qəlblərinə qorxu salacağıq. Onların sığınacaqları yer Oddur. Zalımların məskunlaşacağı yer necə də pisdir!"**
(Ali-İmran surəsi, 151)

Bütün bu məlumatlar bizə açıq bir həqiqəti göstərməkdədir: Bu həmrəyliyin mənşəyində hər insanın şüur altında yer alan öz nəfsini qoruma instinkti vardır. İnsanların özlərini qoruma motivləri, edilən çirkli işlərin böyüklüyü ilə doğru mütənasibdir. Buna görə müdafiə etmələri də çox vaxt təcavüzkar şəkildə olar. Bu müdafiə etmələr, rəqibləri haqqında yalan və böhtanlarla dolu qaralama kampaniyalarına da çevrilə bilər.

## KLAN ÜZVLƏRİNİN İÇİNDƏ YAŞADIQLARI DAİMİ QORXU

Qara klanın ən xarakteristik xüsusiyyətlərindən biri də, üzvlərinin davamlı qorxu içində yaşamasıdır. Daha əvvəlki hissələrdə, klan üzvlərinin ifşa olmaqdan, həyat tərzlərinin dəyişməsindən (yəni əxlaqsızlıq edə bilməyəcək olmaqdan), mənfəətlərinin zədələnməsi ehtimalından çox qorxduqlarını ifadə etmişdik. Klan mənsublarının hər hadisəni öz əleyhinə ola biləcəyini düşünmələri, hər an etdikləri əxlaqa zidd davranışların və işlədikləri cinayətlərin ifşa olması ehtimalı ilə yaşamaları, şizofren ruha sahib olmalarına səbəb olar. Klan üzvlərinin bu ruh hallarını daha yaxşı

anlaya bilmək üçün bəhs etdiyimiz qorxularını bu maddələr altında toplaya bilərik:

**1)** Qara klan üzvlərinin ən bilinən qorxularından biri klan içindəki yerini itirmək və tək qalmaqdır. Çünki tək qalmaq demək, toplu olaraq əldə edilən mənfəətlərdən artıq pay ala bilməmək deməkdir. Üstəlik tək qalan bir klan üzvü varlığını davam etdirə bilməz. Klanın dəstəyini və müdafiəsini itirmişdir, bu da qısa müddətdə etdiklərinin ortaya çıxacağı, əzilib yox olmağa başlayacağı mənasını verər. Bu səbəblə klan üzvlərinin hər biri tək qalmamaq üçün əlindən gələni edər. Tək qalmaqdansa digər klan üzvlərinin hər cür əxlaqsızlığına, cinayətinə və çirkinliyinə ortaq olmağı, bunları var gücüylə müdafiə etməyi seçər. Onsuz da bu cinayətin ortaqlığı səbəbi ilə klan üzvləri bir-birlərinə məhkum olduqlarını düşünərlər.

**2)** Əhəmiyyətli klan qorxularından bir başqası isə, daha əvvəl də tez-tez vurğuladığımız kimi, mənfəət itirmə qorxusudur. Qara klanda dini inanc olmadığı üçün, həyatın tək məqsədi dünyəvi dəyərlərdir. Güclü bir mövqe və mövqeyə sahib olmaq, geniş maddi imkanlar əldə etmək klan üzvləri üçün hər şeydən daha əhəmiyyətlidir. Bu insanlar üçün səbir, fədakarlıq, sədaqət, gözəl əxlaq bir məna daşımaz. İnsanlara da əxlaqlarına görə deyil, maddi varlıqlarına görə dəyər verərlər. Dünyanın ən əxlaqsız insanlarına qarşı belə, əgər bu insanlar zəngin və güclüdürsə üstəlik özlərinə də müxtəlif imkanlar təmin edəcəklərsə, böyük hörmət göstərərlər. Digər tərəfdən dürüst və namuslu olduğuna əmin olduqları bir insana, əgər kifayət qədər güc və imkan sahibi olmadığını və ya özlərinə maddi çıxar təmin etmədiyini düşünürlərsə, həm dəyər verməz, həm də lazım olduğunda ona qarşı çox mərhəmətsiz ola bilərlər. Bu, onların axirətin varlığına iman etməmələri, hər şeyin yalnız bu dünyadan ibarət olduğunu sanmaları səbəbiylədir. Öz azğın anlayışlarına görə, "əgər həyat yalnız bu dünyadan ibarətsə, o zaman bu həyatın bütün imkanlarından sonuna qədər faydalanmaları" lazımdır.

Bu zehniyyətdəki insanların dünya həyatına olan bağlılıqları və necə böyük bir yanılma içində olduqları ayələrdə belə xəbər verilmişdir:

**O kəslərin ki, dünyanı axirətdən üstün tutur,** *(insanları)* **Allah yolundan sapdırır və onu əyri göstərməyə çalışırlar. Onlar dərin bir azğınlıq içindədirlər.** (İbrahim surəsi, 3)

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər!** (Ənkəbut surəsi, 64)

**3)** Gizlilik və sirr saxlama, klanın ən əhəmiyyətli prinsiplərindən biridir. Hər kəs bir-birinin cinayətini, əxlaqsızlığını gizləməklə özünü məsul hiss edər. Başqasını qorumaq əslində insanın özünü qoruması deməkdir. Buna görə öz etdiklərinin ortaya çıxmaması üçün göstərilən səyin eynisi digər klan üzvləri üçün də göstərilər. Bu

da, klan üzvlərinin ən ciddi qorxularından birinin öz əxlaqsızlıqlarının ortaya çıxması olduğunu göstərər. Öz cinayətlərinin ifşa olması düşüncəsi belə onları narahat etməyə yetər. Bu, onlar üçün ən böyük kabusdur. Çünki klan üzvləri cəmiyyət içində özlərini etibarlı və hörmətli insanlar olaraq göstərmək istəyər, bu şəkildə cəmiyyət içində qəbul görə biləcəklərini düşünərlər. Qara klanın hər bir üzvü hər cür saxtakarlığı, yalanı, hiyləni tətbiq etdiyi halda, özünü günahsız və məzlum göstərməyi hədəfləyər. Bu günahsız imicinin zərər görməsinin, mənfəətləri baxımından çox təhlükəli olacağının fərqindədir.

**4)** Əlbəttə qara klan üçün bütün bu qorxulardan başqa, sahib olduğu hər şeyi təməldən itirəcəyi ictimai dəyişmə qorxusu vardır. Bu, bütün qorxulardan daha ağırdır. Klanın qorxu duyduğu ən əhəmiyyətli dəyişiklik; əxlaqsızlıqları, haqsızlıqları, ədalətsizləri tamamilə ortadan qaldıracaq olan din əxlaqının cəmiyyətə hakim olmasıdır. Belə bir dəyişiklik olması, klanın bir daha heç bir şəkildə fəaliyyət göstərə bilməməsi mənasını verər. Bu həqiqət tarix boyunca var olmuş bütün qara klanlar üçün keçərlidir. Keçmişdə də, qara klanın səmimi dindarlardan və din əxlaqını yaymaq üçün səy göstərən möminlərdən son dərəcə narahat olmasının və hətta qorxmasının təməlində də bu vardır. Bir ayədə belə buyurular: **Doğrusu, onlar ürəklərində Allahdan çox sizdən qorxurlar. Çünki onlar anlamayan adamlardır.** (Həşr surəsi, 13) Ayədə də açıq şəkildə bildirildiyi kimi, Allahın dininə qarşı döyüş açmış vəziyyətdəki insanlar, səmimi möminlərdən, digər bir ifadəylə iman edənlərin dindən kənar sistemlərə qarşı icra etdikləri fikri mübarizədən, çox qorxarlar. Halbuki Özündən qorxulması lazım olan tək varlıq Allahdır. Klanın mənsubları, Allahdan, Onun mövqeyindən və axirət günündə verəcəkləri hesabdan deyil, içində olduqları dərin qəflət və cəhalət səbəbiylə möminlər tərəfindən ideologiyalarının yox edilməsindən qorxu duyarlar.

**5)** Bütün bunlarla yanaşı klan üzvlərini dəhşət salan başqa bir qorxu daha vardır: "Klanın nüfuzu". Qara klan üçün insan sayı əhəmiyyətli bir gücdür. Klan, sayını davamlı artırmaq istəyər. Nə qədər çox insan gücünə sahib olsa, klanın etdiyi təbliğatın diametri o qədər geniş olacaq. Hər hansı bir təhlükə vəziyyətində də, bu fərdlərin hər biri klan üçün fəaliyyət göstərə biləcək, müxalif səslər asanlıqla boğula bilmə səbəbindən də klan özünü daha rahat qoruya biləcək. Bu səbəbdəndir ki, hər hansı bir insan klanın nizamına ən kiçik bir şəkildə belə qarışmış olsa, klan bu insanı sürətlə içinə çəkər və bir daha da özündən ayrılmasına icazə verməz.

Pislikdə qurulan ortaqlıqlarla klanın çirkli işlərinə daxil olan bir kimsə, bundan sonra istəsə də asanlıqla bu sistemdən qopa bilməz. Qara klanın özünə xas bir nüfuz, şiddət və təzyiq anlayışı vardır. Klan içində eynilə

ibtidai Afrika qəbilələrində olduğu kimi mərhəmətsiz qaydalar hakimdir. Klanın ən mərhəmətsiz və təcavüzkar olduğu vəziyyətlərdən biri də, öz içindən bir insanın fərqli bir yol izləməyə cəhd etdiyi anlardır. Tək bir insanın belə klandan ayrı bir yolu seçmək istəməsi, qara klanın gələcəyi üçün böyük təhlükələrə səbəb ola bilər. Bu insanın hər zaman üçün klanın quruluşunu etiraf etmə və ifşa etmə ehtimalı vardır. Bu səbəblə belə bir cəhd edən insan qara klan tərəfindən çox çətin vəziyyətdə qalar.

İzlədiyiniz xəbərlərdə, müxtəlif dünya ölkələrində, şahid olduğu çirkinlikləri etiraf etməyə və klanın etdiklərinə mane olmağa çalışanların necə bir sona uğradıqlarını görmüsünüz. Bu nümunələr klanı ifşa etmək istəyən bəzi insanların, çox vaxt məhkəmə salonlarına gəldiklərində, ya da şahidliklərinə ehtiyac duyulduğunda bundan imtina etmələrinə səbəb olmaqdadır. Bir çox ölkədə tətbiq olunan "şahid qoruma proqramları" belə həmin insanların cəsur davranmalarına yetərli olmamaqdadır. Əlbəttə, Allah qorxusu olmayan və Allaha təvəkkül etmənin sirrini bilməyən, dünya həyatına bağlı bir insan belə bir cəsarət göstərə bilməz.

## QARA KLANIN LİDERLƏRİ VƏ ONLARA TABE OLANLAR

Kitabın əvvəlki hissələrində klan içində iyerarxiya bir quruluşun olduğuna toxunmuşduq. Bu quruluş içində bəzi insanlar degenerasiyada və əxlaqsızlıqda liderlik edərkən, bəzi insanlar da (bunların varlıqlı və güclü görünmələrinin təsirində qalaraq) kor-koranə bu insanların yolunu izləyərlər. İnsanların bir qisminin klanın istədiyi kimi din əxlaqından uzaq yaşaması, klanın çirkli həmrəyliyinin güclü imic verməsi, bu insanları yanıldan ən əhəmiyyətli ünsürlərdəndir. Onlara görə güclü gördükləri insanın tərəfində olmaq, bu insanların xüsusiyyətidir. Bu səhv məntiqə görə "haqlı olan güclü deyil, güclü olan haqlıdır." Bu səbəbdən də, güclü olduğuna inanılan insan haqsızlıq da etsə, ədalətsiz də olsa, hətta bir çox cinayət da işləsə bütün bunlar göz ardı edilər. Heç layiq olmadığı halda bu insan həmişə heyranlıqla xatırlanar. Hər şərt altında müdafiə olunar. Hətta bu insana qeydsiz şərtsiz tabe olar. Totalitar rejimlərdə liderə duyulan bağlılıq əslində bu psixologiyanın əhəmiyyətli nümunələrindəndir. Totalitar cəmiyyətdə yaşayan hər kəs özünü idarə edən diktatorun zalım və mərhəmətsiz olduğunu vicdani olaraq bilər, əsassızlıqlarına və balanssızlıqlarına şahid olar, ancaq hər cür gücə sahib kimi görünən bu liderə heç bir zaman qarşı gəlməz. Kütlə psixologiyası üzündən insanların böyük əksəriyyəti bu sistemin bir parçası olar.

Bu vəziyyətin ən gözəçarpan nümunələrindən biri Quranda bildirilən Firon hekayəsidir. Tarixin ən qanlı diktatorlarından biri olan Fironun sahib olduğu güc və imkanların təsiri altında qalan bir çox insan, doğru və haqq olduğunu bildikləri halda Hz. Musaya tabe olmamış və haqq dindən üz çevirmişdir. Bu insanların haqq dinə uyğun gəlməmələrinin təməlində, öz ağıllarına görə Fironu (maddi imkanları və iqtidarı səbəbiylə) hər şeyə güc çatdıran bir insan kimi görüb ona qarşı qorxu dolu heyranlıq duymaları vardır. Allah ayəsində, Firon və ətrafından çəkinərək, Hz. Musaya çox az

sayda insanın tabe olduğunu belə xəbər vermişdir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi.** (Yunus surəsi, 83)

Qara klana tabe olanlar da, klanın liderlərinin heç bir zaman yıxılmayacaqları, heç bir zaman məğlub olmayacaqları, hər cür çətinliyin öhdəsindən gələ biləcəkləri yanılmasına qapılarlar. Bu səbəblə də özlərinə görə "məntiqli" olanın, klana tabe olmaq olduğuna inanarlar. Guya "hiyləgərcə" davranar və gələcəklərini "zəmanətə" alarlar. Halbuki bu çox böyük yanılmadır. Əsl gücün sahibi Allahdır və Allahın köməyi hər zaman üçün Özünə tabe olan möminlər ilədir. Allah Quranda belə bildirmişdir:

**Möminləri qoyub kafirləri** *(özlərinə)* **dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.** (Nisa surəsi, 139)

Bu insanların unutduğu və göz ardı etdiyi çox əhəmiyyətli həqiqətlər vardır. Hər şeydən əvvəl özlərinə sığınıb, gücü yanlarında axtardıqları insanlar da Allahın yaratdığı aciz qullardır.

Allah diləmədikcə nə bir mala, nə zənginliyə, nə mövqeyə nə də gücə sahib ola bilərlər. Onlara verilən mal və zənginlik yalnız bu dünya həyatının keçici bir bəzəyidir və yox olmağa məhkumdur. İnsanlara verilən hər cür maddi varlıq o insanlar üçün bir sınaqdır. İnkarçılara verilən imkanların sirri və hikməti isə bir Quran ayəsində bu şəkildə bildirilər:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir.** (Tövbə surəsi, 55)

Ayədə bildirildiyi kimi, inkar edənlərin sahib olduqları keçici imkanlar onlar üçün dünyada və axirətdə bir əzab vəsiləsidir. Bunun fərqinə vara bilməyənlər isə, malın və imkanların sehrinə qapılaraq, bu insanların pis əxlaqını və Allah Qatındakı vəziyyətlərini düşünmədən, ağılsız şəkildə onlara heyranlıq bəsləyərlər.

İnsanların, bütün malın və mülkün Allaha aid olduğunu unudaraq, zənginliyə qarşı hiss etdikləri heyranlığa Quranda bildirilən Qarun hekayəsində diqqət çəkilmişdir. Allah Qaruna çox böyük mal varlığı vermişdir. Qarun isə Allahın verdiyi bu nemətlər qarşısında Allaha yönəlib şükür edəcəyinə nankorluq etmiş, böyüklənmiş və çirkin əxlaq sərgiləmişdir. Qarunun bu pis əxlaqına baxmayaraq, onunla eyni cəmiyyətdə yaşayan insanların bir qismi Qaruna heyranlıq bəsləməkdən özlərini saxlaya bilməmişlər:

*(Qarun)* **öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir".** (Qəsəs surəsi, 79)

İman edənlər isə, malın əsl sahibinin Allah olduğunun dərk etdikləri üçün, Qarunun zənginliyinin cazibəsinə heç bir zaman qapılmamışlar. Allah, Qaruna verdiyi nemətləri geri aldığında isə, yalnız malı səbəbiylə Qaruna heyranlıq duyub bağlananlar nə qədər böyük səhv etdiklərinin fərqinə varmışlar:

**Biz onu öz evi ilə birlikdə** *(yerə)* **batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də** *(yerə)* **batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!"** (Qəsəs surəsi, 81-82)

Qara klanın üzvləri də eynilə Qarunun keçici imkanlarının təsirinə qapılanlar kimi, klanın varlığının onları hər zaman qoruyacağını zənn edərlər.

Dünyada qurduqları çıxar əlaqələrinin, şərtlər nə olursa olsun davam edəcəyinə inanarlar. Halbuki klan üzvləri dünya həyatında bir-birlərini dəstəkləsələr belə, axirət günündə əsla bir-birlərinə kömək etməyə güc çatdıra bilməyəcəklər. Axirət günündə hər kəs, ilk yaradılışda olduğu kimi, tək başına və tənha Rəbbimizin hüzuruna çıxacaq və dünyada etdiyi hər şeyin hesabını verəcək. Allah elçiləri vasitəçiliyi ilə insanlara yalnız Özündən qorxub çəkinmələrini və elçilərə itaət etmələrini əmr etmişdir. Yer üzündə pislik və təxribatçılığı təşkil edənlərə tabe olmamaq Allahın bütün insanlara əmridir. Quranda bildirilən Hz. Salehin qövmünə təbliği belədir:

**Allahdan qorxun və mənə itaət edin! Həddi aşanların əmrinə tabe olmayın. Onlar yer üzündə fəsad törədir və** *(özlərini günahdan)* **təmizləmirlər".** (Şuəra surəsi, 150-152)

Bununla birlikdə ayələrdə, təxribatçıların axirət günündə bir-birləri ilə böyük bir çəkişmə içində olduqları da bildirilmişdir. Dünya həyatı boyunca bir-birlərinə dəstək olurmuş kimi görünən inkarçılar, böyük əzabı gördükləri vaxt bir-birlərini günahlandıracaqlar. Axirət günü klanın çirkli həmrəyliyinin açıq şəkildə sona çatdığı zamandır. Allah, bu insanların o gün içinə düşəcəkləri vəziyyəti ayələrdə bizə belə bildirmişdir:

**Kafirlər dedilər: "Biz nə bu Qurana, nə də bundan əvvəlkilərə əsla inanmayacağıq!" Kaş sən o zalımları öz Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları anda görəydin. Zəiflər, öz şəxsiyyətləri haqda yüksək rəydə olanlara deyəcəklər: "Əgər siz olmasaydınız, biz iman gətirərdik". Özləri haqda yüksək rəydə olanlar da zəiflərə belə deyərlər: "Sizə doğru yol göstəricisi gəldikdən sonra sizi ondan bizmi yayındırdıq? Xeyr, siz özünüz günahkar idiniz". Zəiflər özləri haqda yüksək rəydə olanlara deyərlər: "Xeyr!** *(İşiniz)* **gecə-gündüz hiylə qurmaq idi. Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz". Onlar əzabı gördükdə peşmançılıq hissini gizlədərlər. Kafirlərin boyunlarına zəncirlər vurarıq. Onlar ancaq etdikləri əməllərə görə**

**cəzalandırılarlar. Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: “Biz sizinlə göndərilənləri inkar edirik!”– dedilər. Onlar: “Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir”– dedilər.** (Səba surəsi, 31-35)

O gün artıq qara klanın mənsublarının bir-birlərinə, **“... Kaş ki, mənimlə sənin aranda məşriqlə məğrib** *(arasındakı)* **uzaqlıqqədər** *(məsafə)* **olaydı. Sən nə pis yoldaş imişsən!”** (Zuxruf surəsi, 38) deyəcəkləri bir gündür. Ancaq artıq bu peşmanlıqlar üçün çox gecdir. Dünya həyatında özlərinə dəfələrlə bu günlə qarşılaşacaqları xatırladıldığı zaman, bu xəbərdarlıqları dinləməyən, özlərinin yaxşılığı üçün çalışan insanların əleyhinə tələlər quran və pislikdə əməkdaşlıq edən insanlar üçün Rəbbimizin Qatında ağrılı bir əzab vardır:

**O zaman onlar odda bir-birilə höcətləşəcəklər. Zəiflər təkəbbür göstərənlərə: “Biz sizin ardınızca gedirdik. İndi siz odun bir hissəsindən bizi qurtara bilərsinizmi?”– deyəcəklər. Təkəbbür göstərənlər: “Hamımız bunun içindəyik. Artıq Allah qullar arasında hökmünü vermişdir”– deyəcəklər.** (Mömin surəsi, 47-48)

## QARA KLANIN MİLLİ DƏYƏRLƏRƏ OLAN DÜŞMƏNLİYİ


Batı'da yolsuzluk bunalımı

General Elektrik'in muhasebe kayıtları inceleme altında

Amerika'da yolsuzlukların ardı arkası kesilmiyor

**Klanın yaratmaq istədiyi cəmiyyətdə korrupsiya normal hesab olunur. Halbuki başqalarının haqqını tapdalamaq Allahın insanlara haram etdiyi bir əməldir.**

Klan yalnız din əxlaqına deyil, eyni zamanda milli dəyərlərə də qarşıdır. Klanın eqoist və mənfəətçi quruluşu səbəbiylə, qara klan üzvləri vətən sevgisindən və millətə xidmət duyğusundan məhrum insanlardır. Bu insanlar üçün əhəmiyyətli olan mənfəətlərini davam etdirə biləcək infrastrukturun təmin edilmiş olmasıdır. Bunun üçün də fahişəliyin qanuni görüldüyü, narkotik istifadəsinin yayıldığı, əxlaqsızlığın davam edə bilməsi üçün asanlıqla vəsait olan bilən bir mühit lazımlıdır. Qara klan səfalət və rüsvayçılıq mühitində həyat sahəsi tapar. Belə bir mühitin vətənin və millətin yaxşılığına olmayacağı, bu insanların da millətin mənfəətini öz mənfəətlərinin qarşısında tutmayacaqları açıqdır. Rifahın artması, zənginliyin yayılması, elm və texnologiyanın imkanlarından hər kəsin bərabər olaraq faydalana biləcəyi bir quruluşun meydana gəlməsi bu təşkilatın əsla maraqlarına uyğun gəlməz. Bu təşkilat cəmiyyətin hamısına istiqamətli zənginlik meydana gəlməsindən narahat olur. Ölkənin inkişafını, gəlir paylanmasının təkminləşdirilməsi, ictimai hüzur və təhlükəsizliyin

təmin edilməsini istəməz. Hətta incəsənətin inkişafından da xoşlanmaz. Çünki o zaman qaranlıq işləri üçün istifadə edəcəyi insanları tapması çətinləşəcək. Üstəlik klan üzvlərinin səhv zehniyyətinə görə güclü olması lazım olan yalnız öz lideridir. Sistemlərinin davam edə bilməsi üçün gücün, liderlərinin əlində olması lazımlıdır və bu onlar üçün kifayətdir.

Qara klanın idarəsinin güclü olduğu ölkələrdə bu vəziyyət açıq şəkildə müşahidə edilə bilər. Başda bəzi Latın Amerikası və Afrika ölkələri olmaq üzrə, üçüncü dünya ölkələrinin böyük əksəriyyətində, bu ölkələrin inkişafı üçün bir çox təbii qaynaq olmasına baxmayaraq, səfalətin və yoxluğun hakim olması olduqca diqqət çəkicidir. Bu ölkələrin ümumi xüsusiyyəti, ölkə iqtisadiyyatı, bir ovuc varlıqlı insan tərəfindən nəzarət edilib istismar edilərkən, xalqın böyük əksəriyyətinin aclıq və yoxluq içində yaşamasıdır. Bu sui-istifadənin ən böyük səbəbi, ölkəyə hakim olanların çıxarmaq yerinə istismar etməyi seçmələri, ölkə iqtisadiyyatını bir növ sui-istifadə iqtisadiyyatı halına gətirmələridir. Xüsusilə diktator rejimləri ilə idarə olunan Latın Amerika ölkələrində sui-istifadə ilə mübarizə etmək demək olar qeyri-mümkündür. Təhlükəsizlik orqanları arasında mütəşəkkil cinayət təşkilatları ilə birlikdə hərəkət edənlər və ədliyyə orqanlarındakı insanların əksəriyyəti bu şəbəkələr adına işləyirlər. Geriyə qalanlar da cinayət təşkilatlarından qorxmaqdadır. Bu ölkələrdə diktator rejimlərinin xalqa qarşı tətbiq etdiyi zülmə qarşı çıxan Katolik kilsəsi, başlıca hədəf halına gəlmiş, bir çox ölkədə rahiblər və din insanları "ölüm manqaları" tərəfindən qətl edilmişdir.




**Klan xalqı amansızcasına istismar etməkdə heç bir qəbahət görməz. Dünyanın bir çox ölkələrində səfalət və yoxsulluğun hakim olması da klanın eqoist və mənfəətpərəst quruluşunun nəticələrindən biridir.**

Afrika ölkələrinin əksəriyyətində də, oğurluq və cinayət çox məşhurdur. İnsanlar hava qaraldıqdan sonra küçəyə çıxa bilməməkdə, zənginlər evlərini xüsusi cangüdənlərlə qorumaqdadırlar. Həmçinin bu ölkələrdə başda AIDS olmaq üzrə, bir çox yoluxucu xəstəlik çox məşhurdur. Faili məchul cinayətlərin tez-tez işləndiyi, narahatlıq və qorxunun hakim olduğu, ədalətdən və hüquqdan bəhs etmənin mümkün olmadığı, fahişəliyin və narkotik ticarətinin ən əhəmiyyətli gəlir qaynaqları arasında sayıldığı bu ölkələrin içinə düşdükləri vəziyyətdən heç cür xilas ola bilməmələrinin əhəmiyyətli bir səbəbi, ölkələrində suveren olan qara klanın fəaliyyətləridir. Bu ölkələrə suveren olan klan üzvləri, beynəlxalq kömək quruluşlarının aclıqdan ölmə sərhədindəki insanlara göndərdikləri köməklərə belə əl qoymaqda və bunları kasıb xalqa pul qarşılığında satmaqdadırlar. Ölkələrindəki milyonlarla insanın aç və səfil qalması, bu vicdansız insanlar üçün son dərəcə üstün "dolanışıq qaynağı" vəziyyətindədir.








**Narkotik istifadəsi klanın əsas gəlir mənbələrindən biridir. Bu səbəbdən klan üzvləri narkotik istifadəsini yaymaq üçün gizli və ya açıq-aşkar fəaliyyətlə məşğul olur, mümkün qədər çox gənci tələyə salmağa çalışırlar. Bəzi Avropa ölkələrində zaman-zaman gündəmə gələn 'narkotik istifadəsinin sərbəst buraxılması' istiqamətindəki cəhdləri də bu çalışmaların nümunələrindəndir.**

Bununla birlikdə klanın üzvləri, xalqın önünə çıxdıqlarında ölkələrinin mənfəətini güddüklərini iddia edər, əsl məqsədlərinin ölkələrini inkişaf etmiş ölkələrin mədəniyyət səviyyəsinə yüksəltmək olduğunu söyləyərlər. Halbuki mədəniyyətə çatmağı hədəflədiklərini söylədiklərində də əsas diqqət etdikləri, inkişaf etmiş ölkələrin demokratiyası, sənayesi, elmi deyil din əxlaqından uzaq mədəniyyət quruluşu və degenerasiya olmuş cəmiyyət modelidir. Saxta görüntü üçün, yüksək elm və texnologiya səviyyəsindən, insan haqlarına və təməl azadlıqlara hörmətlə yanaşdıqlarından bəhs etsələr belə, əsl meydana gətirmək istədikləri zinanın sərbəst olduğu, evlilikdən kənar münasibətlərin yaşandığı, narkotik istifadəsinin azad buraxılıb narkotikin dövlət tərəfindən təmin edildiyi, ailəyə bağlılıq və hörmət anlayışının tamamilə ortadan qalxdığı bir cəmiyyətdir.



Qərb dünyasında qara klan, vətən və millət kimi anlayışları əksəriyyətlə tənqid edər və bu anlayışlara dəyər verənləri də alçaq görər. Bunun səbəbi, qara klanın inandığı Sosial Darvinist əxlaqın, eqoist bir fərdilik tələb etməsi və bunun da vətən və millət sevgisi kimi fədakarlıq tələb edən anlayışlara zidd düşməsidir.




**Onlar, doğru yolu verib azğınlığı satın almış kimsələrdir. Amma onların ticarəti qazanc gətirmədi və** *(özləri də)* **doğru yola yönəlmədilər.**

(Bəqrə surəsi, 16)

## QARA KLANIN MÜBARİZƏ ÜSULLARI

Kitabın əvvəlki hissəsində qara klanın öz içindəki həmrəyliyini, ört-bas etmə üsullarını, qurduğu çirkli sistemi detallı olaraq araşdırdıq. Bu həmrəyliyin gücü, qara klanın qorunma və müdafiə etmə mexanizmlərində də təsirini göstərər. Klan, mövcud quruluşunu qorumaq, gücünü itirməmək və ola biləcək təhlükələrin qarşısını ala bilmək üçün olduqca kompleks və əhatəli bir müdafiə etmə mexanizmi meydana gətirmişdir. Bu mexanizmin ən əhəmiyyətli hissəsini, klanın özünə qarşı təhdid olaraq gördüyü ünsürləri təsirsiz hala gətirmək, hətta ortadan qaldırmağı meydana gətirər. Bu nöqtədə, klanın düşmən olaraq qiymətləndirdiyi insanların milli və mənəvi dəyərlərinə sahib çıxan, gözəl əxlaqı, ədaləti, haqqı və doğrunu müdafiə edən insanlar olduğunu vurğulamaq yerində olacaq. Çünki bu insanların varlığı və müdafiə etdiyi dəyərlər, klanın çirkli nizamını davam etdirməsinin önündəki ən böyük maneələrdəndir. Bu insanlar, onların təmsil etdikləri hər cür pisliyin qarşısında cəsarətlə dayanan, klan üzvlərinin bütün qaranlıq fəaliyyətlərini ifşa edən insanlardır.

Necə ki, Rəbbimizin Quranda bildirdiyi, **Sən onların bir çoxunu günaha, düşmənçiliyə və haram yeməyə tələsən görürsən. Onların tutduqları əməllər necə də pisdir!** (Maidə surəsi, 62) ayəsiylə, klanın iki böyük xüsusiyyətinə işarə edilməkdədir: Cinayətlərin alovlandırılması və din əxlaqını yaşayanlara düşmənlik.

Unutmamaq lazımdır ki, tarixin hər dövründə, insanlara böyük çətinliklər çəkdirən, zülm, haqsızlıq və ədalətsizlik üzərinə bir yerə gəlmiş mənfəət kütlələri olmuşdur. Bu kütlələr, yaşadıqları dövr içində inkarın yayılması, əxlaqsızlığın mümkün olduqca yayılması üçün cəhd göstərmişlər. Allah, bu nizamın tarix boyunca var olduğunu bir Quran ayəsində bu şəkildə bildirməkdədir:

**Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.** (Zariyat surəsi, 53)

Və hər zaman bu insanların qarşısında, Allaha iman edən, gözəl əxlaqlı, cəsur və səbirli insanlar yer almışdır. Pisin qarşısında yer alanlar, nə bahasına olursa olsun pisliyin sona çatması, yer üzünə təhlükəsizlik və hüzurun hakim olması üçün səy göstərmişlər. İndiki vaxtda da qara klan pisliyin ən qabaqcıl nümayəndəsidir. Və bu gün də, eynilə keçmişdə olduğu kimi, yaxşı olanlarla arasında fikri mübarizə vardır. Klanın mənsubları yaxşılığın nümayəndəsi olan vicdanlı, imanlı, gözəl əxlaqlı, milli və mənəvi dəyərlərinə sahib çıxan insanlarla məşğul olmaqda, onları qorxutmaq və aradan qaldırmaq üçün səy göstərməkdədir. Klanın vicdanlı və gözəl əxlaqlı insanları hədəf almasının təməlində isə, bu insanların gözəl əxlaqda qərarlı olmaları vardır. Allah Quranda bu həqiqəti bizə bu şəkildə bildirmişdir:

**Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır"– deməkdən başqa bir şey olmamışdı.** (Əraf surəsi, 82)

Allahın ayədə buyurduğu kimi, təmiz və gözəl əxlaqlı qalmaq, inkar edənlərin fitnələrindən və təlqinlərindən çəkinmək istəyən insanlar qara klan tərəfindən qəti olaraq sevilməzlər. Klan öz əxlaqi quruluşuna daxil olmayan hər insanı, sistemin davamına maneə ola biləcək potensial bir təhlükə olaraq görər.

Qara klanın, əxlaqsızlıqları, saxtakarları, qatilləri, narkotik satıcılarını, fahişəlik edənləri, silah qaçaqçılarını və hər növdən qaranlıq insanı bünyəsində saxlamasının və bu insanları hər şərt altında qorumasının ana səbəblərindən biri də bu tarixi mübarizədir. Bu üzvlər, klanın varlığını davam etdirə bilməsi üçün istifadə edilərlər. Dünya daxilində əxlaqi tənəzzül yaşayan cəmiyyətlərdə görüldüyü kimi, bəzi media quruluşlarında, təhlükəsizlik orqanlarında, ədliyyə sistemi içərisində bu şəbəkənin qoruyuculuğunu boynuna götürən və təbliğatını edən insanlar da klanın müdafiəsində əhəmiyyətli rol boynuna götürmüşlər. Bu insanlar, həm bu şəbəkənin işlərini, əxlaqsızlıqlarını, azğınlıqlarını, cinayətlərini ört-bas etməkdə, həm də özlərinə çıxar təmin etməkdədirlər. Üstəlik bunlar, lazım olduğunda klanı təmizə çıxarmaq üçün qiymətləndirilər, müxtəlif intriqalarda, düşmənləri məhv etmək üçün bir növ maşa kimi istifadə edərlər. Klanın müdafiə etmə mexanizmi içində vəzifə yerinə yetirənlər iki ayrı qrupdan meydana gələr. Bunlardan birinciləri lider mövqeyində olan və çirkli təşkilatları boynuna götürən insanlardır. Bunlar əxlaqsızlığın, fahişəliyin, narkotik ticarətinin, silah qaçaqçılığının, qarşıdurmaların və qarışıqlığın üzərindən mənfəət təmin edən, bu səbəbdən də insanları degenerasiyaya etina etdirən, bunun üçün təşviq edən kütlələrdir. Hər cür cinayət və əxlaqsızlığın reklamını edənlər, insanları əxlaqsız olmanın qanuni olduğuna inandıranlar da bunlardır. İkinci qrup isə, həyatlarını davam etdirə bilmək üçün klanın ayaqda qalmasına və klanın liderləri tərəfindən qorunmağa möhtac olan insanlardır. Bunlar tamamilə klanın idarəsindədirlər. Klanın liderlərinin sözündən çıxmaz, onların istiqamətləndirmələriylə hərəkət edərlər. Klan içindəki vəzifələrindən biri də, klanın düşmənləri ilə mübarizədə ön mərhələlərdə iştirak etmələridir.

**"... Giriftar olacaqları şiddətli əzabdan dolayı vay kafirlərin halına! O kəslərin ki, dünyanı axirətdən üstün tutur,** *(insanları)* **Allah yolundan sapdırır və onu əyri göstərməyə çalışırlar. Onlar dərin bir azğınlıq içindədirlər."**
(İbrahim surəsi, 2-3)



Klanın heç fərqində olmadığı bir həqiqət isə, haqqa qarşı batili müdafiə edənlərin məğlubiyyətə məhkum olduqlarıdır. Allah, Quranda inkarçıların mübarizəsinin batil mübarizə olduğunu və bu mübarizəni tarix boyunca bir çox inkarçının boynuna götürdüyünü və hamısının məğlubiyyətə uğradığını belə bildirmişdir:

**Onlardan əvvəl Nuhun xalqı və sonrakı əlbir dəstələr də** *(elçiləri)* **yalançı saydılar. Hər ümmət öz elçilərini yaxalamağa qəsd edirdi. Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım.** *(Bir görəydin)* **Mənim cəzam necə oldu!** (Mömin surəsi, 5)

Görüldüyü kimi, inkarçıların əsas məqsədlərindən biri din əxlaqını izah edənlərin bu işlərinə maneə törətməyə çalışmaqdır. Qara klan tarix boyunca, öz nizamının qarşısında olduğunu düşündüyü insanları haqsız yerə tutub həbs etdirməyə, yurdundan sürgün etməyə və hətta öldürməyə belə cəhd etmişdir. Qara klanın, düşmən olaraq gördüklərinə qarşı tarixdə ən çox istifadə etdiyi üsullardan biri isə sui-qəsddir.



## KLANIN ƏHƏMİYYƏTLİ TAKTİKASI: SUİ-QƏSD

İnkarçıların iman edənlərin əleyhinə sui-qəsdlər qurduqları Quranda bildirilən bir həqiqətdir. Allah Quranda inkarçıların sui-qəsdçi xarakterlərinə diqqət çəkmişdir. Bir çox ayədə insanları Allahdan və din əxlaqından uzaqlaşdırmaq üçün tələlər qurub planlar etdikləri xəbər verilmişdir. Allah, ənam surəsinin 123-cü ayəsində belə buyurmuşdur:

**Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada** *(mümkün qədər)* **yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və** *(bunu da)* **hiss etmirlər.** (Ənam surəsi, 123)

Allah Quranda, **"Həm də onunla** *(o Kəbə ilə)* **təkəbbürlük edir, gecələr toplanıb yaramaz sözlər danışırdınız."** (Muminun surəsi, 67) ayəsiylə inkarçıların gecələri etdikləri gizli yığıncaqlara diqqət çəkmiş və bu

yığıncaqlarda iman edənlər əleyhinə müxtəlif sui-qəsdlər planlandığını, tələlər qurulduğunu bildirmişdir. Gizli yığıncaqların çoxunda xeyir olmadığı və bu yığıncaqlarda ümumiyyətlə dincliyi və nizamı pozacaq və insanlara zərər verəcək cəhdlərin danışıldığı Allahın bildirdiyi bir başqa həqiqətdir (Nisa surəsi, 114; Mücadilə surəsi, 9-10). İnkarçıların gizli gecə yığıncaqlarını seçmələrinin səbəblərindən biri isə, gecənin qaranlığının etdiklərini örtüb gizləyəcəyini düşünmələri, beləcə ifşa olma ehtimallarının daha az olduğuna inanmalarıdır. Halbuki bu yığıncaqları edənlər gecənin ən qaranlıq saatını da seçsələr, heç kimin bilmədiyi ən ucqar və gizli məkanlarda da görüşsələr, Allah onların qurduqları planı ən incə detalına qədər biləndir. Və onlar insanların əleyhinə bir tələ qurarkən, Allah da onların tələlərini alt-üst edəcək qüsursuz bir plan qurmaqdadır. Allah bir ayəsində belə bildirmişdir:

**Onlar** *(öz günahlarını)* **insanlardan gizlədir, Allahdan isə gizlətmirlər** *(Ondan çəkinmirlər)*. **Halbuki onlar** *(Allahın)* **razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir.** (Nisa surəsi, 108)

Sui-qəsd hazırlamaq qara klanın da ən müvəffəqiyyətli olduğu və "təhlükə gördüyü" anlarda ən çox müraciət etdiyi üsullardandır. Təşkil etdikləri gizli yığıncaqlarda özləri və sistemləri üçün meydana gələ biləcək təhlükələri aradan qaldırmaq üçün incə planlar qurarlar. Qurduqları tələnin əksiksiz olaraq işləməsi üçün lazımlı gördükləri bütün tədbirləri görərlər. Sui -qəsdlərinin hədəfə çata bilməsi üçün lazım olduğunda süni və saxta dəlillər meydana gətirə bilər, yalançı şahidlər vasitəçiliyi ilə ağla sığmaz ssenariləri həyata keçirə bilərlər. Bu məqsədlə istifadə edilə biləcək insanları tapmaq klan liderləri üçün heç çətin deyil. Çünki klan içində, ehtiyac olduğunda istifadə edilmək üzrə kifayət qədər insan saxlanılmaqdadır.



**"Məgər onlar bilmirlər ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir?"** (Bəqərə surəsi, 77)

Keçmişdə yaşamış olan möminlərin həyatlarında, qara klanın özləri əleyhinə qurduqları sui-qəsdlərin bir çox nümunəsi vardır. Müşriklər, Peyğəmbərimizi yurdundan çıxarmış və həyatına qəsd etmək üçün tələlər qurmuş; Hz. Yusufun qardaşları, eqoistcə paxıllıqlarından ötəri, Hz. Yusufu bir quyuya tərk etmiş; Hz. İbrahimin cəmiyyəti onu atəşə atmış; Firon Hz. Musanı müxtəlif təhdidlərlə qorxutmağa çalışmışdır. İnkarçıların, Peyğəmbərimiz Hz. Muhəmməd əleyhinə qurduqları tələləri Allah bizə Quranda belə xəbər verməkdədir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya** *(yurdundan)* **qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır.** (Ənfal surəsi, 30)



**Hz. Yusufun qardaşları, Hz. Yusufa qarşı duyduqları qısqanclıq səbəbilə onu öldürməyə cəhd etmişdilər və bu məqsədlə onu bir quyuya atmışdılar.**

**Yusufu ya öldürün, ya da onu** *(uzaq)* **bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız". Onlardan biri dedi: "Yusufu öldürməyin! Əgər** *(ona qarşı hökmən)* **nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardanbiri onu götürsün!"** (Yusuf surəsi, 9-10)

Şübhəsiz, keçmişdə olduğu kimi dövrümüzdə də iman edənlər, Allah yolunda səy göstərənlər, dindən kənar ideologiyalar ilə fikri sahədə mübarizə aparanlar inkarçıların müxtəlif sui-qəsdləri ilə qarşı-qarşıya qala bilərlər. İman edənlərin müxtəlif sınaqlardan keçiriləcəkləri Allahın vədidir. Keçmişdə möminlər üçün necə tələlər quruldusa bunların bir bənzəri bu gün

də qurula bilər. Bunlar səmimi olaraq Allaha iman edən insanlar üçün böyük bir xeyir və gözəl müjdədir. Bu səbəbdən möminlər qara klanın fəaliyyətlərini də bu dünyagörüşüylə qiymətləndirərlər. Üstəlik iman edənlər, insanların ən gizli olduğunu sandıqları anlarda belə Allahın onlara şahid olduğunun və Allahın məlumatı xaricində kimsənin kimsəyə sui-qəsd edə bilməyəcəyinin, plan qura bilməyəcəyinin və bu planları həyata keçirə bilməyəcəyinin dərk edirlər. Allah bir ayədə hər şeydən xəbərdar olduğunu belə bildirməkdədir:

**Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki,** *(onların)* **dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar,** *(Allah)* **onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir.** (Mücadilə surəsi, 7)

## BİR KLAN NÜMUNƏSİ: SƏMUD QÖVMÜNÜN DOQQUZ NƏFƏR QULDUR DƏSTƏSİ

Doqquz nəfər quldur dəstəsi olaraq Quranda bildirilən qrup, klan strukturunun əhəmiyyətli nümunələrindən biridir. Allah, Hz. Saleh peyğəmbərin dövründə yaşamış olan bu klanın qurduğu plana və Hz. Saleh əleyhinə qurduğu tələyə diqqət çəkmişdir. Bu qrupun üzvlərinin ən əhəmiyyətli xüsusiyyəti pislik və təxribatçılıqda məşğul olmalarıdır. Hz. Saleh, yaşadığı cəmiyyəti Allaha iman etməyə, Allahın əmrlərinə tabe olmağa və Onun sərhədlərini qorumağa dəfələrlə dəvət etmişdir. Ancaq onlar bu çağırışlara məhəl qoymamışlar, üstəlik Hz. Salehə qarşı son dərəcə aqressiv davranış sərgiləmişlər. Hz. Salehin din əxlaqını yaymaq üçün göstərdiyi səyin, öz mənfəətlərini zədələyəcəyini düşündükləri üçün də Hz. Salehə qarşı planlar qurmuşlar. Tələ quranların başında isə, dövrün qara klanlarından "doqquzluq quldur dəstəsi" gəlməkdədir.

Doqquz nəfər quldur dəstəsinin qurduğu tələ, Quranda belə bildirilmişdir:

**Şəhərdə doqquz adam var idi ki, bunlar yer üzündə fitnə-fəsad törədir, yaxşı işlər görmürdülər. Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib öldürəcək, sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik".** (Nəml surəsi, 48-49)

Doqquz nəfər quldur dəstəsinin Hz. Salehə qarşı tələ hazırlayarkən buna dair "Allah adına" and içmələri çox diqqət çəkici bir vəziyyətdir. Ayədəki bu ifadə, quldur dəstəsinin üzvlərinin özlərini, öz səhv məntiqləri içində dindar gördüklərini və ya heç olmasa dindar görünən bir üslub istifadə etdiklərini göstərməkdədir. Bu həqiqət dövrümüzdə də qara klanın üzvlərinin bəzən dindarlıq iddiasında ola biləcəyini, hətta iman edənlərə qarşı icra etdikləri hücumlarda saxta dindar ifadə istifadə edə biləcəklərinə işarə ola bilər (doğrusunu Allah bilər).



**"Sizdən əvvəlkilərin – Nuh, Ad və Səmud tayfalarının, onlardan sonrakıların xəbərləri sizə gəlib çatmadımı?"**
(İbrahim surəsi, 9)

Doqquz nəfər quldur dəstəsinin qurduğu hiyləli nizam, tarix boyunca iman edənlərə qurulan bütün tələlərlə eyni aqibətə məruz qalmışdır. Allah, qurmaqda olduqları bu tələni onların əleyhinə çevirmişdir. Bu vəziyyət tarix boyunca heç bir klanın planlarında müvəffəqiyyətə çata bilmədiyinin, bundan sonra da çata bilməyəcəklərinin əhəmiyyətli dəlillərindən biridir. Allah onlara verdiyi qarşılığı belə xəbər verməkdədir:

**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar** *(bunu)* **hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik. Haqsızlıqları üzündən viran qalmış evləri də budur. Həqiqətən, bunda bilən adamlar üçün ibrət vardır.** (Nəml surəsi, 50-52)

## KLANIN MÜDAFİƏ MEXANİZMLƏRİ: YALAN VƏ BÖHTAN

Böhtan və yalan, klan üçün əhəmiyyətli silahlardır. Din əxlaqından tamamilə uzaq olmaları, bu insanların vicdanlarını istifadə etməmələrinə, utanma hisslərini də itirmələrinə səbəb olar. Bu səbəbdən özlərini qorumaq üçün qarşılarında olan insanları mərhəmətsizcə yox etməkdən, mümkün ola biləcək ən hiyləgər taktikaları istifadə etməkdən çəkinməzlər. Allah Quranda inkar edənlərin şeytanın ilhamı ilə hərəkət etdiklərini bildirmişdir. Bəhs etdiyimiz taktikalar, yalanlar, böhtanlar da klan üzvlərinin şeytanın təlqinləri ilə istifadə etdikləri üsullardır. Ayələrdə bu şəkildə buyurulmuşdur:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar.** *(Şeytanlar vəhydən)* **eşitdiklərini** *(kahinlərə)* **təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır!** (Şuəra surəsi, 221-223)

Bu taktikaların böyük əksəriyyəti Quranda bildirilən keçmiş inkarçı qövmlərin də istifadə etdikləri üsullardır. Allah bu qövmlərin etdiklərindən bəzilərini bizə xəbər vermiş və bu tip quruluşların üsullarından xəbərdar etmişdir. Məsələn Hz. Yusuf peyğəmbərin həyatının izah edildiyi hekayədə, Hz. Yusufa verilən nemətlər qarşısında qısqanclığa qapılan qardaşlarının,

toplu olaraq hərəkətə keçdikləri və həsədləri səbəbiylə Hz. Yusufun canına belə qəsd etdikləri bildirilmişdir. Hz. Yusufun qardaşlarının zehniyyəti və davranışları, qara klanın rəftar və üsullarının bir nümunəsidir. Hz. Yusufun qardaşlarının, Hz. Yusuf əleyhinə qurduqları plan Quranda bu şəkildə bildirilməkdədir:

**Bir vaxt** *(onun qardaşları)* **dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusuf və onun** *(doğma)* **qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir. Yusufu ya öldürün, ya da onu** *(uzaq)* **bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız".** (Yusuf surəsi, 8-9)

Hz. Yusufun qardaşlarının, Hz. Yusufa qarşı bəslədikləri qısqanclığın təməlində atalarının Hz. Yusufu özlərindən daha çox sevdiyini düşünmələri durur. Bu da, onlarda, klanın ən çox narahat olduğu bir vəziyyətə, imkanlarının azalacağı və mənfəətlərinin zədələnəcəyi qorxusuna səbəb olmuşdur. Bu vəziyyət qarşısında, öz əksik ağılları ilə, bir plan hazırlamışlar. Buna görə, əvvəlcə özlərini etibarlı insanlar kimi göstərib, atalarından Hz. Yusufu özləri ilə birlikdə göndərməsi üçün icazə alacaqlar, daha sonra da əllərindən gələn hər şeyi etdikləri halda Hz. Yusufu qorumağa güclərinin çatmadığını və bir qurdun Hz. Yusufu alıb apardığını söyləyəcəklər. Bu planlarının həqiqi kimi görünməsi üçün saxta bir dəlil göstərməyi də unutmamışlar. Ayələrdə bu şəkildə buyurular:

**Onlar axşam ağlaya-ağlaya atalarının yanına gəlib dedilər: "Ey atamız! Biz Yusufu əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən".** *(Qardaşları)* **onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər.** *(Yaqub)* **dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir.** *(Mənə)* **gözəl səbr gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır".** (Yusuf surəsi, 16-18)



**Yuxarıdakı təmsili şəkildə, Hz. Yusufun qardaşlarının, üzərinə qan sürtülmüş olan Hz. Yusufun köynəyini Hz. Yaquba göstərmələri görünməkdədir.**

Bu xain planı qurduqdan sonra, ataları Hz. Yaquba ağlayaraq gəlmələri və doğrunu söylədiklərində israr etmələri, çox yaxşı rol oynadıqlarını göstərməkdədir. Bu tərz böhtan məqsədli aktyorluqlar, klan üzvləri arasında da məşhurdur. Vicdan sahibi bir insanın yalan danışması mümkün deyil, halbuki klanın bu iş üçün istifadə etdikləri insanlar ən böyük böhtanları böyük inandırıcılıq içində (hətta özlərini də buna inandıraraq) ata bilər, bu böhtanın tələb etdiyi dramatik səhnələri rahatlıqla oynaya bilərlər.

Qara klan üzvlərinin bir başqa xüsusiyyətləri də saxta dəlillər meydana gətirməkdir. Hz. Yusufu bir qurdun yediyi yalanını söyləyən qardaşları, bu yalanlarını dəstəkləyə bilmək üçün üzərinə qan sürtülmüş bir köynəyi gətirmişlər və qarşıya qoyduqları bu saxta dəlil ilə inandırıcı olacaqlarını zənn etmişlər. Klan üzvlərinin ən böyük yanılmalarından biri də budur. Qurduqları saxta dəlillər ilə atdıqları böhtanların, uydurduqları yalanların təsirli olacağını zənn edərlər. Hətta özlərini buna elə qapdırarlar ki, bir müddət sonra özləri də söylədikləri yalana inanar hala gələrlər. Halbuki nə yalan danışmaları, nə də yalanlarını dəstəkləyəcək uydurma dəlillər meydana gətirmələri həqiqəti dəyişdirməz. Həqiqət mütləq ortaya çıxar.

Möminlər isə, bu kimi tələlər qarşısında hər zaman olduğu kimi, Allaha təvəkkül edərlər. Hz. Yusuf da ona qurulan tələlər qarşısında yalnız Rəbbimizə təvəkkül etmiş, Allah da ona belə vəhy etmişdir: **“... Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən”.** (Yusuf surəsi, 15) Hz**.** Yusuf, qardaşlarının onu atdığı quyudan, yoldan keçən bir karvan vəsiləsi ilə xilas olmuş və daha sonra misirli bir rəhbərin (vəzirin) yanına yerləşmişdir.

Hz. Yusuf hekayəsində, qara klanın üsullarını göstərən bir başqa nümunə də, Hz. Yusufun yanında olan vəzirin arvadının Hz. Yusuf əleyhinə qurmuş olduğu tələdir. Bu tələ, klan üzvlərinin özlərini qorumaq üçün necə etinasız böhtanlar ata bildiklərini və dəstəkçiləri tərəfindən necə qorunmasını göstərməsi baxımından əhəmiyyətli bir nümunədir. Vəzirin arvadı, Hz. Yusufun gözəlliyindən təsirlənib ona çirkin təkliflər etmişdir, Rəbbimizdən qorxub çəkinən Hz. Yusuf isə bu təklifi qəti olaraq rədd etmişdir. Bu vəziyyət qarşısında qəzəblənən qadın, Hz. Yusuf əleyhinə böhtanlar atmışdır. Bu vəziyyət ayədə bu şəkildə xəbər verilmişdir:

**Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi və qapıları bağlayıb: “Yanıma gəl!”– dedi. O isə: “Allah uzaq eləsin! Axı** *(sənin ərin)* **mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!”– dedi.** (Yusuf surəsi, 23)

Vəzirin bu hadisələri öyrənməsi üzərinə, qadın dərhal yalana keçmiş və Hz. Yusufa böhtan atmışdır:

**Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı.** *(Qadın)* **dedi: “Sənin ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!”** (Yusuf surəsi, 25)

Qadının Hz. Yusuf üçün qurduğu tələ bununla da kifayətlənməmiş, bu hadisələrin xalq arasında yayılması ilə birlikdə, qadın öz mənfəətlərini qoruya bilmək üçün Hz. Yusufun həbs edilməsini təmin etmişdir. Qəti dəlillər Hz. Yusufun günahsız, qadının isə günahkar olduğunu isbatlanmasına baxmayaraq, Hz. Yusif cəmiyyətin qabaqcılları, yəni dövrün klanı tərəfindən həbsxanaya göndərilmişdir. Mövzuyla əlaqədar ayələr bu şəkildədir:

*(Yusuf)* **dedi: "O məni yoldan çıxartmaq istəyirdi".** *(Qadının)* **ailəsindən olan bir şahid belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa,** *(qadın)* **doğru deyir, o isə yalançılardandır. Yox əgər onun köynəyi arxadan cırılıbsa,** *(qadın)* **yalan deyir, o isə doğru danışanlardandır".** *(Qadının əri)* **onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: "Şübhəsiz ki, bu sizin** *(qadın)* **hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür.** (Yusuf surəsi, 26-28)

*(Bu qədər)* **dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər.** (Yusuf surəsi, 35)



*Giulio Romano, Roma, 1519*

**Hz. Yusufa tələ quran vəzirin arvadı, Hz. Yusuf ondan üz çevirincə arxasından köynəyini dartıb cırmışdı. Cırılan bu köynək, əsl günahkarın vəzirin arvadı olduğunu göstərən önəmli bir dəlil idi.**

Bu ayələrdə klan ilə əlaqədar, əhəmiyyətli bir ədalət sistemi pozuqluğu da görünür: Dəlillər bir insanın günahsız olduğunu göstərsə də, sırf onu günahlandıranların hay-küyləri və cəmiyyət içindəki mövqeləri səbəbiylə, onu günahkar kimi qiymətləndirib həbsə ata bilməkdədirlər. Bu da bizlərə, klan tərəfindən hədəf alınan insanların həqiqətdə günahkar olub olmadığının başa düşülməsi üçün, həqiqi dəlillərə baxılması, bununla yanaşı "klan hay-küyü" və əleyhinə təbliğatlardan təsirlənilməməsi lazım olduğunu göstərər.

Hz. Yusuf ilə əlaqədar ayələrdə də açıq şəkildə görüldüyü kimi klan, mənfəətlərinin zədələnilməsindən bəhs edildiyində qaranlıq nizamlar qura bilməkdə, bu nizamları üçün saxta dəlillər meydana gətirə bilməkdə və böhtanlarıyla günahsız insanları mərhəmətsizcə yox etməyə cürət edə bilməkdədir.

Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə daha məşhur olmaq üzrə, dövrümüzdə də bir çox insan, qaralamalara, böhtanlara, yalanlara məruz qalmaqda, günahsız insanlar bunların səbəbiylə zərər görməkdədir.

Qara klanın bu taktikalarını araşdırarkən üzərində dayanmaq gərəkən digər bir nöqtə də, istifadə edilən üslubdur. Hz. Yusuf hekayəsində də gördüyümüz kimi, hücum edərkən özünü günahsız kimi göstərmək, bu insanların istifadə etdikləri əhəmiyyətli taktikadır. Bunun üçün lazım olsa süni gözyaşıları axıda bilər, sanki hücuma uğrayan özləriymiş kimi qışqırıqlar qopara bilər, cəmiyyəti yanıltmaq üçün təlqinlər edə bilərlər. Üslublarındakı tələsiklik və çirkin cəsarət dərhal diqqət çəkər. Bu cəsarətin səbəbi isə, klanın digər üzvləri tərəfindən bir şəkildə dəstəkləniləcəklərindən əmin olmalarıdır. Necə ki, Hz. Yusuf hekayəsində də görüldüyü kimi, vəzirin arvadının haqsız olduğu konkret dəlillər ilə isbat edilmiş olduğu halda, cəmiyyətin qabaqcılları Hz. Yusufu həbs etmişlər və klanın mənfəətlərinə uyğun şəkildə davranmışlar.

Həmçinin Quranda keçmiş cəmiyyətlərdən verilən nümunələrdə, klanın bir başqa xüsusiyyətinə daha diqqət çəkilmişdir. Bu da klan mənsublarının özlərindən çox əmin olmaları, hiyləgər planlarının, əxlaqsızlıqlarının, cinayətlərinin ortaya çıxmayacağını sanmalarıdır. Məsələn tarixin ən azğın inkarçılarından biri olan Firon, dövrün qara klanının ən əhəmiyyətli nümayəndəsidir. Firon və onun klanı, Hz. Musaya və iman edənlərə tələlər qurar, onlar əleyhinə planlar qurarkən, zəfərin onların olacağına çox əmin idilər. Firon və ətrafının bu yanılması ayələrdə bu şəkildə bildirilmişdir:

**Firon şəhərlərə** *(əsgər)* **toplayanlar göndərdi.** *(O dedi:)* **"Bunlar kiçik bir dəstədir. Onlar bizi qəzəbləndirmişlər. Biz hamımız ayıq-sayıq olmalıyıq".** (Şuəra surəsi, 53-56)

Ancaq, **"Bəlkə yaramaz işlərə yol verənlər Bizdən gizlənib özlərini xilas edəcəklərini zənn edirlər? Onlar nə yarıtmaz düşüncələrə dalırlar."** (Ənkəbut surəsi, 4) ayəsiylə də buyurulduğu kimi pislik edənlərin yaxşılara qarşı qalib olması əsla mümkün deyil. Qara klan, nizamını davam etdirmək üçün nə qədər səy göstərsə də, hansı qaranlıq yollara müraciət etsə də sonunda məğlub olmağa məhkumdur. Bu, Allahın dəyişməz qanunudur.

## QARA KLANIN HAY-KÜYÇÜLÜYÜ

Qara klanın mənsubları, bəzi zamanlar yaşadıqları azğın həyat tərzini ifşa edəcək hadisələrlə qarşı-qarşıya qala bilərlər. Son dərəcə təhlükəli gördükləri belə anlarda, özlərini qurtarmaq üçün müraciət etdikləri ən bilinən üsullardan biri, xalq arasındakı təbiri ilə "hay-küy qoparmaq"dır. İstifadə etdikləri şişirdilmiş və təcavüzkar üslub ilə qarşılarındakı insanı qorxuda biləcəklərini zənn edər, hay-küy etməklə diqqətləri əsas mövzudan uzaqlaşdırıb, etdikləri əxlaqsızlığı və ya cinayəti unutduracağını düşünürlər.

Məsələn narkotik satarkən və ya istifadə edərkən tutulan bir klan üzvü, cinayətini qəbul edib peşmanlığını dilə gətirmək yerinə ətrafına içi boş təhdidlər yağdırıb, əsli olmayan iddialar ortaya ataraq diqqətləri öz üzərindən dağıtmağa çalışar. Çox vaxt bəzi mətbuat orqanları da bu oyuna aldanır və bir müddət sonra bu insanın işlədiyi cinayətdən çox mövzuyla heç bir əlaqəsi olmayan bildirişləri, iddiaları və böhtanları gündəm olar. Xalq əsl günahkarın kim, əsas mövzunun nə olduğunu unudub klan üzvünün ortaya atdığı önəmsiz iddiaları müzakirəyə başlayır. Bir tərəfdən bunlar yaşanarkən digər tərəfdən klan da nizamını davam etdirər.

Hay-küylü üslub istifadə edilməsinin bir başqa məqsədi də bunun çox qorxuducu davranış olmasıdır. İnsanların bir qismi qışqırıq qoparan, təcavüzkar və təhrikedici üslub istifadə edən insanlarla (haqsız və günahkar olduğunu bilsələr də) mübarizə etməkdən çox çəkinərlər. Bu insanların yalanlarını ifşa etməyə, açıqlarını dilə gətirməyə kimsə çox cəsarət edə bilməz. Bu bilinən bir vəziyyət olduğundan, hay-küyçülük qara klan tərəfindən tez-tez istifadə edilən bir taktikadır. Onsuz da klan üzvləri də, qopardıqları qışqırığa baxmayaraq onlarla mübarizə edəcək biri qarşılarına çıxarsa böyük qarışıqlıq yaşayarlar. Belə anlarda da geri addım atmaq yerinə, daha böyük yalanlara, daha böyük oyunlara keçərlər.

Əslində qara klan tərəfindən tətbiq olunan bu üsul, Allahın Quranda bildirdiyi şeytanı xüsusiyyətlərdəndir. Şeytan da yalan danışan, insanları yalanları ilə təhrik edib qızışdıran, hay-küy qoparan varlıqdır. Allah şeytanın bu xüsusiyyətlərini ayələrdə bu şəkildə xəbər vermişdir:

**Məgər kafirlərin üstünə onları** *(günaha)* **sövq edən şeytanları göndərdiyimizi görmürsənmi?** (Məryəm surəsi, 83)

**Onlardan gücün çatdığı kimsələri səsinlə** *(günaha)* **təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər.** (İsra surəsi, 64)

Hz. Musa və Hz. Harunun Firon haqqında istifadə etdikləri bildirilən, **"Ey Rəbbimiz! Biz, onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq."** (Taha surəsi, 45) ifadəsi də, inkarçıların şeytana uyaraq həddini aşan davranışlar sərgilədiklərini göstərən bir başqa əhəmiyyətli işarədir.

Qara klanın və bənzəri qruplaşmaların həddini aşmış və aqressiv davranışlarına qarşı iman edənlərin rəftarları isə hər zaman üçün etidallı və

stabildir. Hər şeydən əvvəl iman edənlər, Allaha təvəkkül edərlər və Allahın onların qoruyucusu olduğunu bilərlər. Bununla yanaşı Allah iman edənlərə, şərtlər nə olursa olsun etidallı, ədalətli və səbirli olmalarını əmr etmişdir. Bu səbəblə möminlər, qara klan hansı üsula müraciət edərsə-etsin əsla onların üslubu ilə ünsiyyətdə olmazlar. Möminlərin qara klana qarşı verəcəyi mübarizə hər zaman fikri zəmində olar. Onsuz da belə bir mübarizə də qara klanın sonunu gətirəcək, qurmuş olduqları din əxlaqına zidd quruluşu yerlə bir edəcək bir mübarizədir.

## QARA KLANIN SONU VƏ YER ÜZÜNÜN İŞIQLI GƏLƏCƏYİ

Kitabın bura qədər olan hissəsində qara klanın quruluşunu, ideologiyasını və qurmuş olduğu sistemə nəzər saldıq. Bütün bu məlumatlar klanın yaxşı mütəşəkkil olmuş bir hərəkət olduğunu və sistemini davam etdirə bilmək üçün hər cür tədbiri aldığını göstərməkdədir. Bu səbəblə bəzi oxucularımız, klanın qurmuş olduğu qaranlıq nizamın qalıcı olduğu kimi səhv düşüncəyə düşə bilərlər. Halbuki bütün dindən kənar sistemlər kimi qara klan və qurmuş olduğu nizam da yox olmağa məhkumdur. Allah Quranda bizə, iman edənlərin və yaxşılığın tərəfdarı olanların pisliyə qarşı verdikləri mübarizədə qəti olaraq qalib gələcəklərini müjdələmişdir:

**Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.** (Ali İmran surəsi, 139)

Onsuz da klan üzvlərinin də davamlı narahatlıq və təlaş içində həyatlarının əsas səbəblərindən biri, sistemlərinin nə qədər çürük və qırıla bilən tarazlıqlar üzərinə qurulduğunu bilmələridir. Bir gün bir şəkildə, etdikləri pisliklərin, işlədikləri cinayətlərin hesabını verəcək olma ehtimalları klan üzvlərinin şiddətli çətinlik duymalarına səbəb olar. Hesab vermək demək, onlar üçün həyatın mənasını və dəyərini itirməsi deməkdir. Bu səbəblə davamlı özlərinə və klana qatılan insanlara, "güclü olduqları" və "kimsəyə hesab verməyəcəkləri" yalanını izah edərlər. Sahib olduqları imkanların heç vaxt əllərindən çıxmayacağı yanılmasına qapılan bu insanlar, qurduqları planların da əksiksiz olaraq işləyəcəyini düşünərlər. Zaman, bu insanların özlərini aldatmalarına səbəb olar, almaları lazım olan qarşılığı bəzən dərhal görməmələri bu insanları yanıldar. Allah Quranda bizə bu insanlara müəyyən bir müddət verməsini, ancaq bu müddətin sonunda özlərinin də əsl həqiqətə şahidlik edəcəklərini bildirmişdir:

**De: "Qoy ər-Rəhman azğınlıqda olan hər kəsə uzun müddət möhlət versin! Nəhayət, özlərinə vəd olunan ya əzabı, ya da o Saatı gördükləri zaman onlar kimin məqamının daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər".** (Məryəm surəsi, 75)

O gün kimsənin heç kimi qoruya bilməyəcəyi və heç bir mövqenin, heç bir malın heç kimə fayda verməyəcəyi bir gündür. O gün klan üzvlərini, Allahın verəcəyi qarşılıqdan qoruya biləcək nə bir təşkilat qalmışdır nə də tək bir insan. İnsanlar axirət günündə, dünyadaykən etdikləri pisliklər və əxlaqsızlıqlarla aralarında uzaq bir məsafə olmasını istəyər, dünyaya bir daha

dönə bilmək üçün Allaha yalvararlar. Allah Quranda bizlərə, **"...kim də pis bir işə vasitəçilik etsə, ona da** *(onun günahından)* **bir pay düşər..."** (Nisa surəsi, 85) ayəsiylə hər insanın etdiyi ilə qarşılıq görəcəyini bildirmişdir. Başqa ayələrdə isə, Allah insanların axirət günü içinə düşəcəkləri vəziyyəti belə xəbər vermişdir:

**Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni** *(əzabdan)* **qurtarmadı.**
(Haqqa surəsi, 25-28)

Üstəlik ortaq olduqlarını düşündükləri insanlar da özlərindən uzaqlaşmışdır. Dünyada ikən özlərindən güc tapdıqları, birlikdə günah işlədikləri, əsla özlərini tək buraxmayacaqlarını düşündükləri hər kəs ətraflarından dağılmışdır:

**Barələrində Sözün gerçəkləşəcəyi kimsələr deyəcəklər: "Ey Rəbbimiz! Bunlar bizim azdırdığımız kimsələrdir. Özümüz azdığımız kimi onları da azdırdıq. Biz** *(onlardan)* **uzaqlaşıb Sənə üz tuturuq. Doğrusu, onlar bizə ibadət etmirdilər".** *(Müşriklərə:)* **"Şəriklərinizi çağırın!"– deyiləcək.** *(Müşriklər)* **onları çağıracaq, lakin** *(şərikləri)* **onlara cavab verməyəcəklər. Onlar əzabı görəcəklər. Yaxşı olardı ki, onlar doğru yolla getmiş olaydılar.**
(Qəsas surəsi, 63-64)

Allahın ayələrdə də bildirdiyi kimi inkarlarından imtina edib tövbə etməyənlər, Allahın onlara verdiyi nemətlərlə azğınlığa qapılanlar, Allah onları əzab ilə tutduğu zaman nə qədər böyük səhv etdiklərini daha yaxşı anlayacaqlar. Ancaq Allah bizə ayələrdə, dünya həyatında da inkarçıların məğlubiyyətə uğrayacaqlarını və gözəl əxlaqın insanlar arasında yayılacağını xəbər vermişdir. Allahdan başqa kimsəni vəli etməyənlər və pis işlərdən çəkinənlərin, ətraflarındakı insanları da pis işlərdən çəkindirmək üçün səy göstərmələri lazımdır. Bu səyin nəticəsi, Allahın icazəsi ilə, qara klanın yer üzündə zorbalığa və zülmə söykənən, qurmuş olduğu sistemin sonunun gəlməsini, bunun yerinə işıqlı, hüzurlu və güvən verən bir mühit təsis edilməsini təmin edəcək. Allah iman edənlərin üzərindəki bu məsuliyyəti Quranda bu şəkildə bildirmişdir:

**Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı...** (Hud surəsi, 116)

Allah insanları sülhə və sağlamlığa dəvət edər, iman edənlər də Allahın onlara yüklədiyi yaxşılığı əmr etmə, pislikdən məhrum etmə məsuliyyətini gərəyi kimi yerinə yetirdiklərində, həqiqi din əxlaqını bilməyən və tanımayan bir çox insan Qurana yönələcək və Allahın razı olduğu kimi həyat sürməyə başlayacaq. Klanın qurmuş olduğu qaranlıq quruluşun ortadan qaldırılmasıyla qarışıqlıq, yoxluq, narahatlıq, etibarsızlıq, ədalətsizlik, haqsızlıq kimi çətinliklər sona çatacaq, dünya sülh və rifah dolu bir məkan olacaq. Küçələr güvən içində gəziləcək yerlər olacaq, hüquq sistemi həqiqi mənası ilə ədaləti təmsil edəcək, Allahın insanlara verdiyi nemətlərdən hər kəs bərabər olaraq faydalanacaq, təhsil və səhiyyə sahələrində hər kəs



bərabər imkanlara sahib olacaq, incəsənətə lazım olan dəyər və əhəmiyyət veriləcək, yaşanılan məkanların keyfiyyəti yüksələcək, elm və texnologiyada böyük irəliləmələr ediləcək, insanlar bir-birlərinə sevgi, mərhəmət və şəfqət ilə yaxınlaşacaq, cinayətlərin nisbətlərində böyük azalma görüləcək.

Unutmamaq lazımdır ki, bu saydığımız gözəlliklərin reallaşması üçün dua edib səy göstərmək iman sahibi hər kəsin məsuliyyətidir. İman edənlər ixlasla və səmimiyyətlə, din əxlaqını yaymaq üçün səy göstərdiklərində Allah şübhəsiz, möminləri **"... Onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək."** (Nur surəsi, 55) Bizim də duamız bütün müsəlmanlar kimi, "insanların Allahın dininə dalğa-dalğa girdiklərini" görməkdir:

**Allahın köməyi və qələbə gəldiyi zaman,**
**insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!** (Nəsr surəsi, 1-3)



# ƏXLAQİ POZULMA DARVİNİST DÜNYABAXIŞININ BİR NƏTİCƏSİDİR



Darvinizmin dünya üzərindəki təsirini qiymətləndirməyən və ya görməzlikdən gələnlər, insanların din əxlaqından uzaqlaşıb, dinsizliyə yönəlmələrinin həqiqi səbəblərindən xəbərsizdirlər. Halbuki darvinizmin bəşəriyyətə gətirdiyi ən böyük bəla, şübhəsiz ki, insanları dinsizliyə sürükləməsidir. Çünki din əxlaqından uzaqlaşmış cəmiyyətlərdə, qısa müddətdə kəskin əxlaqi və mənəvi pozulma meydana çıxar. Müasir cəmiyyətlərdə də, bu vəziyyətin nümunələri görülür.

Hal-hazırda darvinizmi şüurlu şəkildə müdafiə edən insanların sayı azdır. Lakin azlıq təşkil edən bu kütlələr, ictimai həyata demək olar ki, hər sahədə yön verənlərdir və öz dünyabaxışlarını böyük kütləyə təlqin etmə imkanları vardır. Məsələn, universitetlərin təhsil işçilərinin əksəriyyəti, kino rejissorlarının böyük hissəsi, dünya səviyyəsində tanınan nəşriyyat orqanlarının, qəzet və jurnalların redaktorları və müəllifləri əsasən materialist və darvinistdirlər. Dolayısilə bu seqmentin xitab etdiyi kütlələr də, onların təlqinlərini alır və onların təkamülçü və din əxlaqına uyğun olmayan düşüncələrini mənimsəməkdədirlər. Nəticə etibarilə də, ortaya bu batil fikirlərin geniş şəkildə qəbul olunduğu cəmiyyətlər çıxır.

Darvinistlərin ictimai həyatdakı bu geniş miqyaslı hakimiyyəti, insanlar üzərində sanki çox güclü "hipnoz" təsiri meydana gətirir. Xüsusilə də gənclər, darvinist və materialist təlqinlərə asanlıqla qapıla bilirlər. Oxuduqları jurnallar, kitablar, seyr etdikləri filmlər, tamaşa etdikləri teatrlar və ya musiqi klipləri, dinlədikləri mahnıların sözləri və ən əhəmiyyətlisi də məktəbdə aldıqları təhsil vasitəsilə gənclərin dünyabaxışlarını və düşüncələrini yönləndirmək olduqca asan olur. Necə ki, insanların təkamül nəzəriyyəsini, bütün yalanlarına və qeyri-elmi olmasına baxmayaraq, 150 ildir ki, elmi həqiqət zənn etmələrinin səbəbi də darvinistlərin bu güclü təbliğatıdır.

Vurğulanmalı olan digər bir əhəmiyyətli mövzu isə, hazırkı dövrdə dinsizliyin əsasən gizli təbliğ edilməsidir. Bu ateist, materialist ətrafların dini mövzuları və ya dindarlığıyla tanınan insanları öz aləmlərində lağa qoymaları, mahnı sözlərində, romanlarda, filmlərdə, qəzet başlıqlarında, lətifələrdən Allaha, taleyə və dinə istiqamətli ədəbsiz sözlər işlətmələri (Allahı tənzih edirik), bu hiyləgər taktikalardan yalnız bir neçəsidir.



Darvinizmin mövzuları isə, dinsizlik təbliğatının ən tez-tez istifadə olunan vəsaitləridir. Heç əlaqəsi olmayan mövzularda belə, atalarımızın meymunlarla ortaq olduğu yalanı tez-tez vurğulanır. İnsan psixologiyasının analizinə dair nəticələrdə belə, təkamül nəzəriyyəsinin iddiaları sətir aralarında verilər. Beləliklə də, özündən soruşulduqda Allaha və dinə inandığını söyləsə belə, əslində dini, axirəti, əxlaqi məsuliyyətləri öz aləmlərində əhəmiyyətsiz hesab edən (Allahı tənzih edirik), düşünməyən, Allahdan qorxmayan və əslində isə, Ona inanmayan insan cəmiyyətləri ortaya çıxır. Allah qorxusuna və imana sahib olmayan insanlarsa, heç bir mövzuda sərhəd tanımaz və əcdadları olduğunu zənn etdikləri heyvanlarla bənzər həyat tərzi yaşamağa başlayarlar. Məsələn, Allahdan qorxub çəkinməyən insanların namuslarını qorumaları gözlənilməz, çünki bunun üçün aşmamalı olduqları olan hər hansı hədd olmadığını düşünərlər. Digər insanların gözündən gizləndikləri müddətcə hər cür əxlaqsızlığı edə bilərlər. Necə ki, hazırkı dövrdə dünya səviyyəsində xüsusilə gənclər arasında və cəmiyyətlərin müəyyən seqmentlərində getdikcə həddi daha da aşan, əxlaqi dəyərləri görməzlikdən gələn bir anlayışın yayılması, insanların darvinist təlqinlər nəticəsində din əxlaqından uzaqlaşmalarının bir nəticəsidir. Özbaşına buraxıldıqlarını hesab edən və heç kəsə haqq-hesab verməyəcəklərini güman edən insanların xarakteri, hər keçən gün daha da korlanır. Zina, bəzi nəşriyyat orqanlarının az qala tərifləyərək və qibtə edərək danışdığı, hətta hər kəsi dəvət etdiyi, hər kəs tərəfindən normal qarşılanan bir hərəkətə çevrilmişdir. Diqqətlə araşdırılsa, cinayətin, fahişəliyin, fırıldaqçılığın, saxtakarlığın hər növü, rüşvət almaq, rüşvət vermək, yalan söyləmək, bir sözlə, bilinən bütün əxlaqsız davranışların təməlində dinsizlik olduğu görülər. Bu dinsizliyin yayılma üsullarının ən təsirlisi isə, darvinizmin "özbaşına buraxılmış, təsadüflər nəticəsində meydana gəlmiş insan" yalanının cəmiyyətlərə israrla təlqin edilməsidir.

The lie: Evolution (bir yalan: Təkamül) adlı kitabın müəllifi Ken Ham, darvinizmin səbəb olduğu dinsizliyə diqqət çəkərək belə söyləyir:

*Əgər Allahı inkar edər və dini inancların yerinə şans və təsadüflərlə dolu olan başqa inanc qoysanız, səhv və doğru üçün əsas qalmaz. Qanunlar, istədiyiniz kimi olar. Mütləqilik yoxdur, tabe olunmalı prinsiplər yoxdur. İnsanlar öz qanunlarını yazarlar.*

(Ken Ham, The Lie Evolution, 15-ci nəşr, Master Books, aprel 1997, səh. 84)

Burada bu həqiqət xatırladılmalıdır: Bəziləri insanların öz qoyduqları

qaydalarla da əxlaqi dəyərlərin qoruna biləcəyini, ictimai nizam-intizamın təmin edilə biləcəyini düşünə bilərlər. Lakin bu doğru deyil. Əlbəttə ki, cəmiyyətdə nizam-intizamı təmin edən qanunlar və qaydalar olması vacibdir. Eləcə də, bunlar əxlaqi dəyərlərin qorunmasına kömək edərlər. Lakin bunlara tam mənasıyla riayət etmək, nizam-intizamın hər kəsin razı qalacağı və rahat olacağı şəkildə qorunması, ancaq Allaha və axirət gününə iman etməyin gətirdiyi gözəl əxlaqla mümkündür.



Feodosiy Dobrjanskiy (Theodious Dobzhansky) də, darvinizmin əxlaqi pozulmaya zəmin hazırladığını qəbul edən darvinistlərdən biridir. Darvinizmin təməli olan "təbii seleksiya" düşüncəsinin cəmiyyətlərin əxlaqi dəyərlərini zəiflətdiyini belə ifadə edir:

*Təbii seleksiya eqoizmi, əyləncə düşkünlüyünü, cəsarət əvəzinə qorxaqlığı, saxtakarlığı və istismarı seçər. Cəmiyyət etikası isə, "təbii" rəftarları qadağan edər və bunların əksi olan nəzakət, comərdlik və hətta digər şeylərin, cəmiyyətin, millətin və nəhayət bütün insanların yaxşılığı üçün özünü fəda etmək kimi xüsusiyyətləri ucaldar.* (Theodosius Dobzhansky, Ethics and Values in Biogical and Cultural Evolution, Zygon, the Journal of Religion and Science, Los Angeles Times'da yayınlandığı halıyla alınmışdır, 4 bölüm (iyun 16, 1974), səh. 6; (That Their words, səh. 413))

Dobrjanskiyin (Dobzhansky) sözləri çox mühüm bir həqiqətə diqqət çəkir: Comərdlik, fədakarlıq, vəfa, sədaqət, köməksevərlik kimi gözəl əxlaq xüsusiyyətləri darvinist zehniyyətin əsla qəbul etməyəcəyi fəzilətlərdir. Çünki darvinizm bunları təkamül prosesini gerilədən bir maneə hesab edir. Darvinizmə görə xəyali təkamül prosesinin davam edə bilməsi üçün, insanlar mərhəmətsiz, eqoist, sevgisiz, vəfasız olmaq məcburiyyətindədirlər. Belə bir anlayışın geniş kütlələr tərəfindən qəbul edildiyi bir cəmiyyətdə dinclikdən, etimaddan və sabitlikdən danışmağın qeyri-mümkün olduğu isə aydındır.

Belə ki, diqqətli araşdırıldıqda, darvinist zehniyyətin vurduğu böyük ziyanın izləri dərhal görülə bilər. İnsanların yardımlaşma, fədakarlıq, hörmət və sevgi bağları olmadan, bir-birlərindən ayrı yaşamalarının, guya inkişafın və mədəniləşmənin bir nəticəsi olduğu cəmiyyətlərə təlqin edilir. Daha çox istehsal və inkişaf üçün belə bir nəticəyə dözülməli olduğu yalanı tez-tez təkrarlanır. Əslində isə, bu inkişafın və mədəniləşmənin deyil, insanların özlərini "heyvan səviyyəsi"nə gətirmələrinin bir nəticəsidir. Halbuki insan Allahın ağıl, şüur, vicdan və ruh sahibi olaraq yaratdığı, digər bütün canlılardan bu xüsusiyyətləriylə tamamilə fərqlənən bir varlıqdır. Lakin darvinist-materialist əxlaqın cadusuna qapılan bəzi insanlar bu xüsusiyyətlərini unudar və çox vaxt heyvanlarda belə görülməyəcək alçaq, vicdansız, şüursuz, əxlaqsız hərəkətlər edəcək qədər alçalarlar. Sonra da; "bizim soyumuz onsuz da heyvan olub, bunlar da onlardan qalan genetik mirasdır" deyərək, öz iradəsizliklərinə və şüursuzluqlarına dırnaqarası elmi zəmin hazırlayarlar.



Bir çox darvinist etoloq, bu yanlış məntiqə əsaslanaraq, insanların cinayətə meyletmə səbəbinin heyvan olan atalarından özlərinə qalan bir miras olduğunu iddia edir. Təkamülçü Stefen Cey Quld (Stephen Jay Gould) "ever since Darwin" ("Darvindən indiyədək") adlı kitabında ilk olaraq

italyan fizik Lombroso tərəfindən ortaya atılan bu iddianı belə nəql edir:

*Günahkarlığa aid bioloji qanunlar çox yeni sayılmazdı, lakin Çezare Lombrozo (italyan bir həkim) bu mübahisəyə yepyeni təkamüli yön verdi. Anadangəlmə günahkarlar yalnız kəmağıl və ya xəstə olmayıb, daha əvvəlki təkamüli mərhələyə geri düşmüş və sözün əsil mənasında nəsillərinə çəkmişdilər. Primitiv və meymunabənzər atalarımızın irsi xüsusiyyətləri genetik repertuarımızda qorunur. Bəzi fərdlər normadan artıq irsi xüsusiyyətlərə sahib şəkildə doğular. Davranışları keçmişdəki bəzi vəhşi cəmiyyətlər üçün uyğun olsa da, bu gün bu davranışlara cinayət deyirik. Anadangəlmə günahkarlara yazığımız gələ bilər, çünki onlar özlərinə hakim ola bilməzlər...* (Stephen Jay Gould, Ever Since Darwin, səh. 223)

Yəni darvinistlərin iddialarına görə bir insanın digərini öldürməsi, ona əzab verməsi, oğurluq etməsi, müharibə yaratması, guya ona meymun atalarından genetik olaraq verilmiş mirasdır. Dolayısilə, bu əsassız iddiaya görə işlədiyi cinayətlər həmin insana aid deyildir və üzrlü hesab edilməlidir. Bu ağılsız və məntiqsiz iddialardan da aydın olduğu kimi, darvinist ideologiya insanın sahib olduğu vicdanı, iradəni, qərar vermə, mühakimə yürütmə qabiliyyətlərini tamamilə heçə sayar və insanı eynilə heyvanlar kimi instinktləriylə hərəkət edən, ağılsız məxluq kimi qəbul edər. Bu azğın anlayış, vəhşi bir şirin içindəki təcavüzkarlığı cilovlaya bilməməsi, qəzəbini boğaraq, bağışlayaraq və səbir göstərərək fəzilətli rəftar göstərə bilməməsini nümunə verərək, insanın da eyni şəkildə davranacağını iddia edər. Aydındır ki, belə insanların yaşadığı bir cəmiyyət narahat, güvənsiz, qarışıqlıq, döyüş və münaqişələr içində olacaq.

Darvinist və materialistlərin yanlış fikirlərinə görə insanlar da daxil olmaqla bütün kainat, xaos və təsadüflərin əsəridir. Bu batil anlayışın cəmiyyətlərə təlqin edilməsiylə, özbaşına buraxılmış olduğunu zənn edən, məsuliyyətsiz insanlar ortaya çıxar. Məqsədsiz bir insan isə, düşünməz və özünü inkişaf etdirməyi hədəfləməz. Belə insan biganə, lağlağı, laqeyd olar, heç nədən təsirlənməz, vicdanından istifadə etməz, heç bir hədd və qanun tanımaz. Sahib olduğu heç bir fəzilət və gözəllik olmaz. Həmçinin öz azğın anlayışına görə, özü kimi inkişaf etmiş bir heyvan olan digər varlıqların etdiyi şəkildə bu dünyada qidasını tapa bilməli, nəsil verə bilməli, bəzi ehtiyaclarını qarşıladıqdan sonra mümkün qədər əylənərək ölümü gözləməlidir. Bu heyvanlar aləminin yaşadığı həyatın, insan həyatına uyğunlaşdırılmış versiyasıdır. Eləcə də, diqqət yetirilsə hər nə qədər insanların böyük hissəsi darvinizmin texniki incəliklərini bilməsə də, darvinistlərin insanlar üçün münasib gördükləri bu həyatı yaşayırlar.

Həmçinin bu insanlar məqsədsiz və yox olacaqları bir həyat yaşadıqlarına görə görünməmiş pessimizmə və ümidsizliyə qapılarlar. Ölümlə birlikdə hər şeyin yox olacağını düşünmək bu insanların içlərinə qapanmalarına, bədbəxt olmalarına səbəb olar. İntihar hallarının, psixoloji problemlərin, depresiyaların altında yatan səbəblərdən biri də darvinist cadunun insanların psixologiyaları üzərindəki bu mənfi təsirləridir.


Sabah Gazetesi, 28.07.01
Bırakın uyuşturucu
SERBEST KALSIN!
Vatan Gazetesi, 17.01.03
BATI'DAKİ KÜRESELLEŞME KARŞITLARI YENİ BİR ANLAYIŞ GETİRDİ
Anarşizm hortladı!
Akşam Gazetesi, 27.05.01
Okullu anarşistler
Uyuşturucuya başlama yaşı 13 oldu
DEHŞET!
Ürkütücü
rakamlar
SAĞLIK Bakanlığı'nın liselerde yaptırdığı ankete
göre, ülkemizde sigaraya başlama yaşı 9, alko-
le başlama yaşı 12, ucucu maddelere başlama
yaşı ise 13'e düştü. Yine ankete katılan öğrenci-
lerin yüzde 53'ü esrarı denerken, yüzde
8.5'inin sürekli kullandığı belirlendi. Yüzde
10'u da eroinle tanışmış durumda...
Türkiye Gazetesi, 13.01.02

Bütün kainatı yoxdan yaradan, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin hər şeyi bir məqsədlə yaratdığını unudan və ya görməzlikdən gələn cəmiyyətlər, mütləq əxlaqi və mənəvi cəhətdən pozulmağa məhkumdurlar. Zənginlik, rifah, iqtisadi inkişaf təklikdə bu insanlara qətiyyən əmin-amanlıq və təhlükəsizlik bəxş etməz. Ağlının və vicdanının əmrlərinə itaət etməyən, özünü özbaşına buraxılmış və məqsədsiz bir varlıq hesab edən insanları dünyada bədbəxtliyə, ümidsizliyə, pessimizmə salan çox şey var. Ən əhəmiyyətlisi də, ölümlə birlikdə yox olacaqlarını zənn edən bu insanların, öldükdən sonra qarşılaşacaqları əsil həyatı gördükdə yaşayacaqları şey, peşmançılıq, bədbəxtlik və pessimizm olacaq. Halbuki, Allaha və axirətin varlığına inanan bir insan əsil həyatını dünyada deyil, axirətdə yaşayacağını bilir. Həmişə Allahın rizasını və cənnətini qazanmağın ümidini və sevincini daşıyar. Hər hadisədə Allaha təvəkkül edər, digər bir sözlə, heç vaxt ümidsizliyə və bədbinliyə qapılmaz.

Göründüyü kimi, darvinizmin hədəflədiyi dünya modelinin İslam əxlaqıyla uyğunlaşması, ikisinin arasında orta yol tapılması qətiyyən mümkün deyil. Çünki ikisi bir-birinin tam əksidir. İslam dininin insanlara tövsiyə etdiyi bütün əxlaqi dəyərlər, darvinist əxlaq tərəfindən rədd edilir. Darvinizm, sevgini, şəfqəti, mərhəməti, paylaşmanı, köməkləşməni, fədakarlığı və ehtiyac sahiblərinə kömək etməyi zəiflik əlaməti qəbul etdiyi halda, bu əxlaq xüsusiyyətləri İslam əxlaqının təməlini meydana gətirir. Dolayısilə öz ağıllarınca darvinizmi günahsız göstərməyə çalışan, onun İslam diniylə uzlaşa biləcəyi kimi yanlış fikrə qapılanlar, bu mövzu barədə bir daha dərindən düşünməli və darvinizm qarşısındakı aciz və passiv yanaşma tərzindən imtina etməlidirlər. Qəzetlərdə, jurnallarda, televizorda gördükləri təkamül təbliğatı aparan proqramlar, xəbərlər, yazılar, elm üçün aparılmış bir fəaliyyət olmaqdan olduqca kənar məna daşıyırlar. Darvinizmin lehindəki hər bir fəaliyyət, bu mövzu barədə məlumatsız zehinlərə tutulmuş zəhərli ox qədər təhlükəlidir. Bu zəhərli təbliğatın qarşısını almaq, təhlükənin böyüklüyünü görmək və bu təhlükəyə qarşı aparılacaq elmi mübarizəni gecikdirməmək mühüm əhəmiyyət daşıyır.

## TERROR, DARVİNİZM SAYƏSİNDƏ YAŞAMA İMKANI TAPIR

Son illərdə terror, dünyanın ən güclü ölkələrini belə təhdid etməyə başlamışdır. Hər hansı ölkənin terror hücumlarına məruz qalmayacağına zəmanət verilə bilməz. Görülən tədbirlər, çıxarılan yeni qanunlar, artırılan detektiv tədbirlər vasitəsilə bu təhdidin qarşısını almaq çox çətindir. Artıq hər kəs terrorun nə qədər böyük bəla olduğunu bilir, lakin əksər insan bu bəlanın ideoloji təməlinin darvinizm olduğundan xəbərsizdir. Darvinizmin insanların şüur altına aşıladığı; "insan, mübarizə aparan heyvandır" yalanının olduqca təsirli olduğu aydın məsələdir. Darvinizm insanlara bir "dünyabaxışı" və "üsul" tərifi verir. Bu azğın dünyabaxışının və üsulun təməl anlayışı isə, "özündən olmayanla mübarizə aparmaq"dır.

Dünyada müxtəlif inanclar, müxtəlif dünyagörüşləri və müxtəlif fəlsəfələr var. Bunlara sahib olanlar, ya bunlara sahib olmayanlara hörmət

göstərə bilər, onlarla dialoq yaratmağa çalışa bilər, "humanist" üsul tətbiq edə bilər, ya da bunlara sahib olmayanlarla vuruşmaq, döyüşmək, onlara zərər verərək öz fəlsəfələrinə görə üstünlük qazanmaq yolunu seçə bilər, yəni "heyvani" davrana bilərlər.

Terrorun dünyada yayılma səbəbi, bu ikinci yolun seçilməsinin bir nəticəsidir. Dolayısilə terrorla mübarizədən söhbət getdikdə əsl edilməli şey, terrorun təməl dayaq nöqtəsini yox etmək, yəni darvinizmlə elmi mübarizə aparmaqdır. Darvinizm aparılacaq fikri mübarizə nəticəsində yox edildikdə, artıq dırnaqarası elmi dayaqları qalmayacağı üçün terrorist təşkilatlar və dolayısilə terrorizm bəlası da sona çatacaq.



Lakin darvinizm ayaqda tutulmağa davam edildiyi, insanlara darvinist yalanlar təlqin edilib öyrədildiyi müddətcə, terrorun sona çatması qeyri-mümkündür. Bir tərəfdən məktəblərdə darvinizmi öyrədib, digər tərəfdən də gənclərin terrorist təşkilatlara qoşulmalarına təəccüblənmək bir təzaddır. Çünki bir insanın terrorist olması üçün, o, əvvəlcə qarşısındakının insan olmadığına, qarşıdurmanın təbiətin qanunu olduğuna, öldürmənin və qətlə yetirməyin normal olduğuna, heç kim qarşısında məsuliyyət daşımadığına inanmalı, yəni darvinist olmalıdır. İllərlə şüursuz atomların bir araya gələrək canlıları meydana gətirdiyi, özünün də bir maddə yığını, hətta bir növ heyvan olduğu, qarşıdurma olmadan inkişafın mümkün olmayacağı yalanlarıyla böyüyən bir insana, "sevgidən, tolerantlıqdan, mərhəmətdən, sülhsevər" olmaqdan danışmaq mənasızdır. Həmçinin, bu insanın "necə olub da qəddarcasına günahsız insanları qətlə yetirə bildiyini" soruşmaq da nəticə verməz. Bu insandan, başqalarına hörmət göstərməsini, qanunlara tabe olmasını, dövlətinə itaət etməsini gözləmək mənasızdır.

Bunu təkrarlamaq lazımdır ki, dünyadakı qırğınların, vəhşicəsinə işlənən cinayətlərin, insanlara tətbiq olunan zülmün, terrorun, seprataçılığın, din və dövlət düşmənçiliyinin arxasında darvinizm və materializm təhsili almış insanlar var. Elə buna görə də, başda Qərb dünyasında olmaqla, darvinist təhsilə son verilməsi zəruridir. Dünya dövlətlərinin bir çoxu təhsil sistemlərində materializm və darvinizmə mühüm yer ayırır, gənclərə bunları öyrətmək üçün milyonlarla dollar pul xərcləyirlər. Daha sonra da ölkələrində meydana gələn terror hadisələriylə mübarizə aparmaq üçün yenə milyonlarla dollar xərcləyirlər. Məktəblərində, təhsil qurumlarında, universitetlərində darvinist-materialist təhsil verilən, televiziya kanallarında, qəzetlərində darvinist zehniyyət təlqin edilən bir ölkədə; "anarxiya və xaosun qarşısını niyə ala bilmirik?" sualının verilməsi səmimi yanaşma tərzi deyildir. Əvvəlcə darvinist-materialist təhsil verib, sonra da bu zehniyyətin məhsulu olan hərəkətlərindən ötrü insanları sorğu-sual edən dünya dövlətləri böyük təzad içindədirlər.

Halbuki terrorun qarşısını almaq məsələsində səmimidirlərsə, əvvəlcə anarxiyanın və terrorun təməlini meydana gətirən, insanlara "qarşıdurma"nı və güclülərin qalib gəldiyi "həyat mübarizəsi"ni haqlı göstərən materialist-darvinist təhsil verməkdən imtina etməlidirlər. Milyonlarla dolları, materializmin və darvinizmin qeyri-elmi, xurafatlarla dolu və qeyri-real fikirlər olduğunu öyrətmək üçün, xərclədikləri təqdirdə problem kökündən həll olacaq.

Bura qədər qeyd etdiyimiz məlumatlar, darvinizmin nə qədər böyük bəla olduğunu açıqca göz qabağına gətirir. Bu həqiqətlərə baxmayaraq, darvinizmin bir təhlükə meydana gətirmədiyini və ya yox olduğunu düşünənlər, bu yanlış fikirlərini ətraflarında yayanlar, həmin bu nəzəriyyənin inkişafına bilərək və ya bilməyərək kömək edərlər. Çünki bu yolla bir məlumat verdikləri vaxt, cəmiyyətdə belə bir təhlükə olmadığı fikri meydana gələr. Buna bağlı olaraq da, darvinist təbliğata, saxtakarlıq və təlqinlərə qarşı

Star Gazetesi, 08.07.05

# DALGA DALGA KABUS

11 Eylül 2001'de ABD'yi, 15 ve 20 Kasım 2003'te Türkiye'yi, 11 Mart 2004'te de İspanya'yı vuran terör dün İngiltere'yi cehenneme çevirdi. Tüm Avrupa alarm durumunda. Özellikle İtalya ve Danimarka teyakkuzda











fikri və elmi həssaslıq yaranmaz, tədbir görülməz. Buna baxmayaraq, təkamül nəzəriyyəsini müdafiə edən insanlar, köhnəlmiş məlumatlarla da olsa öz ağıllarınca hazırlıq görməyə davam edər, hər fürsətdə nəzəriyyələrini qızğın şəkildə müdafiə edərlər. Müxtəlif saxtakarlıqlar və təhriflərlə də olsa fikirlərini ayaqda tutmağa çalışarlar.

Bütün müsəlmanlar üçün din əxlaqına qarşı çıxan, Allahın varlığını inkar edən hər fikri, elmi mübarizə yolu ilə çürütmək, haqqdan istifadə edərək batili yox etmək mühüm məsuliyyətdir. Bu məsuliyyəti görməzlikdən gələrək inkar düşüncəsiylə ortaq bir nöqtədə "razılaşmaq", qarşı tərəfə güzəştə getmək və ya onların fikirlərinə təslim olmaq çox böyük səhvlik olar. Məhz bundan ötrü də, təkamül yalanına aldanan bəzi müsəlmanlar, müdafiə etdikləri fikri yenidən düşünməlidirlər. Məsələn, kommunizmin yayıldığı bir cəmiyyətdə müsəlmanın vəzifəsi "kommunizmi İslamlaşdırmağa çalışmaq" deyildir. Bu, heç bir müsbət nəticə verməyəcək, əksinə kommunizmə fayda gətirəcək çıxılmaz bir yoldur. Müsəlmanın vəzifəsi, kommunizm fəlsəfəsini bütöv şəkildə çürütmək, fikirlə yox etmək və bunun müqabilində İslamın həqiqətini göstərməkdir. Eyni şəkildə darvinizmə qarşı da müsəlmanın vəzifəsi; "darvinizmi İslamlaşdırmağa çalışmaq" deyil, bu böyük yalanı fikirlə çürütmək, yox etmək və bunun müqabilində yaradılış həqiqətini ortaya qoymaqdır. Bundan ötrü də, bütün müsəlmanlar bu şüurla hərəkət etməli, dünya üzərindəki bütün ateist fəlsəfələrə dayaq təşkil edən darvinizmə arxa çıxmamalıdırlar. Belə olduqda edilməli şey, təhsil müəssisələrində, kitablarda, mətbuat və nəşriyyat orqanlarında, ictimai məkanlarda, bir sözlə, hər yerdə, təkamül xurafatlarıyla dünya gəncliyinin beyinlərinin zəhərlənməsinə icazə verməmək və onları Quranın və elmin uyğun gördüyü ağla, dərin düşünməyə yönəltməkdir. 150 ildir ki, davam etməsinə baxmayaraq, heç bir elmi dəyəri olmayan bu saxta təlqini məğlub etməksə, asandır.

Bu günə qədər bir çox səmimi müsəlman, təkamül nəzəriyyəsini qəbul etmiş, bu batil nəzəriyyə ilə İslam dini arasında kompromis yolları axtarmış, hətta müxtəlif mühitlərdə bu nəzəriyyəni müdafiə etmiş ola bilər. Lakin müsəlman səhvini gördüyü vaxt, dərhal bunu düzəltməlidir. Bu İslam əxlaqının tələbidir. Darvinizmin cəmiyyət üzərindəki korlayıcı təsirini bilmədən bu nəzəriyyəyə dəstək olmaqla, nəzəriyyənin əsrlərdir ki, yaratdığı zərərləri bildikdən sonra bu batil inanca dəstək olmaq eyni deyildir. Gözəl və fəzilətli rəftar, həqiqətləri öyrənən insanın dərhal hərəkətə keçməsi, vicdanının səsini dinləyib bu zərərli ideologiyaya qarşı aparılan fikri

mübarizəyə dəstək olmasıdır. Müsəlmanların birlik olub, darvinizmə qarşı aparacaqları elmi mübarizə, şübhəsiz ki, çox qısa müddətdə nəticə verəcək və bu batil nəzəriyyə tarixin qaranlıq səhifələrində öz yerini alacaq. Arzumuz bu yanlış rəftarda israr edilməməsi, hər hansı səhvlikdən ötrü darvinizmə dəstək vermiş bəzi müsəlmanların həqiqətlər qarşısında gözlərini bağlamamasıdır.

## DARVİNİZMİN MƏNFİ TƏSİRİ DAVAM EDİR

İnanclı insanların bir hissəsi təkamül nəzəriyyəsinin keçmişdə qaldığını, müasir elm dünyasında artıq qəbul edilmədiyini, dolayısilə müsəlmanlar baxımından elə də mühüm bir təhlükənin olmadığını zənn edərlər. Bundan ötrü də, bu nəzəriyyənin saxtakarlıqlarını, qeyri-elmi iddialarını, dünyada yaratdığı böyük fəlakətləri göstərməyi öz ağıllarınca əhəmiyyətsiz hesab edərlər. Darvinizmin insanları din əxlaqından uzaqlaşdıran böyük bəla olduğu həqiqətinin deyilməsindən narahat olarlar. Darvinizmlə elmi mübarizə aparan insanları və göstərdikləri dünya səviyyəsindəki fəaliyyətləri də öz aləmlərində lüzumsuz görüb, əhəmiyyətsiz hesab edərlər.

Halbuki bu insanlar xeyli yanılırlar və açıq həqiqətləri görməzlikdən gəlirlər. Onların düşündüklərinin əksinə, hazırkı dövrdə təkamül nəzəriyyəsi elm qarşısında bütün dayaqlarını itirməsinə baxmayaraq, yalnız ideoloji xüsusiyyətindən ötrü geniş kütlə tərəfindən müdafiə olunur. Bir çox ölkədə, universitetlərdə, mediada və təhsil müəssisələrində darvinistlər olduqca təsirli rol oynayır. Üstəlik, bu fasiləsiz güclənir. Elmi həqiqətlər bu nəzəriyyəni tarixin qaranlıq səhifələrinə gömmüş olsa da, darvinizmə olan bağlılıq zəifləmir. Materialist və ateist dünyagörüşünün dırnaqarası elmi dayağını təşkil edən təkamül nəzəriyyəsi, hər nə bahasına olsa da, müəyyən çevrələr tərəfindən fasiləsiz şəkildə dəstəklənir. Darvinizmin materialist qayğılarla dəstəklənildiyini, təkamül nəzəriyyəsini tənqid edən elm adamlarından biri olan Amerikalı professor Filip Conson (Philip Johnson), marksist zooloq Riçard Leontinin (Richard Lewontin) iddialarını qiymətləndirdiyi bir yazısında belə açıqlayır:

*Darvinizm, fəlsəfi olaraq bitərəf olması lazım gələn (elmi) dəlillərə deyil, materializmə olan "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) sədaqətə əsaslanır. Fəlsəfəni elmdən ayırdığınız təqdirdə, qürur qülləsi yıxılar. Cəmiyyət bunu tam olaraq anladığı təqdirdə, Leontinin darvinizmi, elmi tədris planından çıxarılmağa başlanacaq və o, tarixin tozlu rəflərində Leontinin marksist görüşlərinin yanında öz yerini alacaq.* (Phillip E. Johnson, The Unraveling of Scientific Materialism. *First Things: A Monthly Journal of Religion and Public Life*. Issue: 77, November 1997, 22)

Təkamülçülər elm aləmində sanki bir təzyiq sistemi yaradıblar. İstər elmi nəşrlərdə, istərsə də mediada həmişə tək tərəfli açıqlamalar verilir və təkamül nəzəriyyəsi sanki mütləq həqiqət kimi göstərilir. Xüsusilə də geniş kütlə üzərində təsirli olan bir qisim media orqanları, olduqca əlaqəsiz tapıntı və mövzuları belə təkamülün yeni bir dəlili kimi əks etdirir. Bu xəbərlərlə həqiqətlər təhrif edilir və insanlar aldadılırlar. Dünyanın bir çox ölkəsində məktəblərdə və universitetlərdə darvinist alimlər dəstəklənilir, Allah inancına

sahib elm adamlarının isə, akademik karyeralarına əngəl törədilməyə çalışılır. Darvinizmi rədd etdikləri üçün əksəriyyətinin kitabları və məqalələri elmi nəşrlərdə yer almır, eyni zamanda da, onlar belə olmadıqları "mürtəceliklə" günahlandırılırlar. Əksər Qərb ölkələrində akademik karyera sahibi olmaq istəyən bir elm adamı, darvinist cəfəngiyatlara göz yummalı, hətta bunları istər-istəməz müdafiə etməlidir. Əks təqdirdə akademik karyerasında yüksəlməsi, hətta çalışdığı universitetdə həmişəlik qalması belə çox çətindir.




**1. Time jurnalı, *"Silahlı və Təhlükəli"* manşetli xəbərində Amerikada məktəblərdə meydana gələn şiddət hadisələrinə diqqət çəkmişdir.**

**2. Newsweek jurnalının *"Məktəb Baxçasındakı Qatillər"* başlıqlı xəbərində Arkanzas ştatında bir liseydə meydana gələn şiddətli hadisəni xəbər vermişdir.**

**3. Newsweek jurnalının *"Canavarlar Yan Qonşumuzmu? Onları Buna Nə Vadar Etdi?"* başlıqlı xəbərində başqa bir məktəb qətli-amı araşdırılmaqdadır. Bu qətli-amda, ortada şəkilləri görünən iki gənc 13 dostlarının ölümünə səbəb olmuşdurlar.**

Biokimya professoru Maykl Bixi (Micheal Behe) elm aləmində materializmin hakim olduğunu və elmin xalqa necə əks etdirildiyini belə ifadə edir:

*Kainatın necə işlədiyinə dair demək olar ki, bütün məlumatlar, ayırd edilmədən, əvvəlcə qatı materialist bir süzgəcdən keçirilir. Daha sonra xalqa təqdim edilir... Elmi ədəbiyyat tamamilə bu anlayışı əks etdirir. Tədqiqatlar əksərən, həm ümumi, həm də xüsusi mövzularda, təbiətin bilinən və əmin olunan işləyişindən bəhs edər. Dərsliklər bu qənaəti şagirdlərə çatdıraraq vəzifələrini yerinə yetirmiş olarlar. Boşluqlardan və ya cavabı tapılmayan suallardan qətiyyən bəhs edilməz. Bunun əvəzinə, hər şeyin bilindiyi, ən azından demək olar ki, hər şeyin bilindiyi və laboratoriyalarda sınandığı təəssüratı verilər. Əgər nəzəriyyəyə uyğun gəlməyən bir dəlil varsa, bu zaman da nəzəriyyədən deyil, dəlildən şübhə duyular... Problem, məntiqli iddialara əsaslanmayan, ictimai təzyiqlə yayılmağa çalışılan materializmdir.*

(*First Things: A Monthly Journal of Religion and Public Life*, Issue: 158; December 2005)

Maykl Bixinin (Micheal Behe) də diqqət çəkdiyi darvinistlərin bu yanaşma tərzi, təkamülçü Frank Qaroldun (Frank Harold) "the way of the cell" ("hüceyrənin işləyişi") kitabında açıqca ifadə edilir:

*Bir prinsip məsələsi olaraq, təsadüflər və lazımlılığın əvəzinə, ağıllı bir nizamın qəbul edilməsinə qarşı çıxmalıyıq. Lakin digər tərəfdən, darvinist açıqlamaların hər hansı biokimyəvi sistemi qəti izah edə bilməyəcəyini, bunların yalnız belə olmasını istəyən fərziyyələrdən ibarət olduğunu qəbul etməliyik.* (*First Things: A Monthly Journal of Religion and Public Life,* Issue: 158; December 2005)

Göründüyü kimi Qarold (Harold), təkamül nəzəriyyəsinin canlıların yaranma prosesinə izah gətirməsinin qeyri-mümkün olduğunu qəbul edir, lakin kainatdakı və canlılardakı nizamı yaradan üstün bir ağlın, yəni Allahın varlığını rədd edir. Bunun "prinsiplərinə" zidd olduğunu söyləyir. Frank Qaroldun (Frank Harold) bəhs etdiyi prinsiplər, materialist prinsiplərdir və elm aləmində olduqca məşhurdur.

Filip Conson isə, təkamül nəzəriyyəsinin dini inanclara qarşı necə bir növ silah kimi istifadə edildiyini belə açıqlayır:

*Müasir elmin liderləri, özlərini bir Yaradıcının mövcud olduğunu qəbul edənlərə qarşı başladılan bir döyüşün qabaqcılları hesab edirlər... Darvinizm isə, bu döyüşdə əvəzolunmaz ideoloji rol oynayır. Elə buna görə də, bugünkü gündə elmi çevrələr, darvinizmi sınamağı deyil, nə olursa olsun qorumağı özlərinə məqsəd hesab ediblər. Elmi tədqiqatların prinsipləri də, bu ideologiyanı təsdiqləyəcək şəkildə müəyyənləşdirilir.*

(Phillip E. Johnson. *Darwin On Trial,* Intervarsity Press, Downers Grove, Illinois, 2nd ed, 1993, s. 155)

Consonun da ifadə etdiyi kimi, təkamülçü elm adamları akademiyalarda, universitetlərdə bir növ "diktatorluq" yaradıblar. Bu insanlar bəzi universitetləri darvinist təhsil ocaqlarına döndərir və bu yerlərdə materialist fəlsəfəni elm zənn edən insanlar yetişdirirlər. İnanclı insanların isə, akademik karyera sahibi olmamalı olduqları düşünülür. Bunun ən nəzərəçarpan nümunələrindən birini Türkiyə təkamülçülərindən olan Prof. Dr. Əli Dəmirsoy təşkil edir və o; "əgər bir elm adamı bu və ya digər halda Allaha

30.04.00, Yeni Mesaj Gazetesi

**ABD şiddeti önleyemiyor**

Tek süper güç olma iddiasındaki ABD ülke içindeki şiddetin önüne geçmeyi bir türlü başaramıyor. İlkokul çocukları arasında yaşanan öldürme vakaları giderek artarken ülke şimdi de ırkçı saldırılardaki artışla karşı karşıya.

24.03.05, Sabah Gazetesi

**Hitler'in ruhu, okul katliamında göründü**

ABD'de 9 kişiyi öldürüp intihar eden 16 yaşındaki lise öğrencisi Jeff Weise'nin Hitler hayranı olduğu ortaya çıktı

27.04.02, Takvim Gazetesi

**LİSEDE TOPLU KATLİAM** 18 ÖLÜ

Almanya'da okuldan atılan çılgın liseli, 14 öğretmen 2 öğrenci ve 1 polisi öldürdükten sonra intihar etti

4 30.09.04, Takvim Gazetesi

**Okulda vahşet**

Olay, Arjantin tarihinin en kanlı okul trajedisi oldu

Arjantin'in güneyindeki bir okul, kan gölüne döndü. 15 yaşındaki bir öğrenci, babasının silahıyla 3 kişiyi öldürdü, 6 kişiyi yaraladı...

**Məktəblərdə zorakılığın yayılması bir çox Avropa cəmiyyətlərində və ABŞ-da ciddi problemdir. Gənclərin şiddətə meyl etməsinin təməlində isə darvinist təlqinlərin böyük təsiri var. İnsanların guya heyvan olduğu, eqoist və aqressiv olmağın insanın təbiəti olduğu yalanını məktəb illərində öyrənən uşaqlar gözlərini qırpmadan məktəb yoldaşlarını və ya müəllimlərini öldürə bilməkdədirlər. Əgər Qərb cəmiyyətləri səmimi olaraq məktəblərdəki şiddətə son qoymaq istəyirlərsə, darvinist təhsildən əl çəkməlidirlər.**

06.09.00, Hürriyet Gazetesi

**Katillerin % 12'si çocuk**

Suç istatistikleri, çocuklarla ilgili tüyler ürperten sonuçlar ortaya çıkardı... Kasten adam öldürme: % 12, kasten yaralama: % 18, hırsızlık: 34.

24.03.01, Hürriyet Gazetesi

**ABD'de yine öğrenci dehşeti**

San Diego'da 3 hafta önce, 2 öğrencinin ölümü 15'inin yaralanmasıyla sonuçlanan olayın ardından, dün de California'daki bir lisede aynı dehşet yaşandı. El Cajon kasabasındaki okulda 3 arkadaşıyla 2 öğretmenini yaralayan öğrenci vurularak durdurulabildi.

ABD'nin California Eyaleti El Cajon kasabasındaki Granite Hills lisesinde 18 yaşındaki bir öğrenci, açtığı ateş sonucunda 3 arkadaşıyla, 2 öğretmeni yaraladı. Polisle çatışmaya giren öğrenci, vurularak etkisiz hale getirildi.

San Diego Kenti'nin doğusundaki bulunan Granite Hills Lisesi'nde öğrenim gören 18 yaşındaki **Jason Hoffman** isimli öğrenci, okula getirdiği 2 tabanca ile ateş etmeye başlayınca 2 kadın öğretmen ve 2 öğrenci yaralandı...



**Evlada kavuşma sevinci**

**SİLAHLI** saldırıyı duyan öğrenci velileri, gözyaşları içinde okula koştular. Büyük bir heyecan ve korkuyla sarsılan anne babalar, gözyaşları içinde çocuklarıyla sarmaş dolaş oldular. Polis, okul çevresin-

inansa universitetdə olmamalıdır. Allaha inananı universitetdən xaric edərəm" kimi ifadələr işlədərək, qərəzli təkamülçü dünyagörüşünü tam açıq şəkildə göstərir.

İnanclı elm adamlarının yaradılışın elmi dəlillərini ortaya qoymaları, elm aləminin əksəriyyəti, xüsusilə də materialist düşüncənin hakim olduğu təşkilatlar və akademiyalar tərəfindən əks reaksiya ilə qarşılansa da, ateizm və ya materializm təbliğatı aparılmasına əsla qarşı çıxılmır. Filip Conson (Philip Johnson) bu vəziyyəti belə ifadə edir:

*Akademiya (Amerikan Milli Elmlər Akademiyası), Riçard Doukinzin (Richard Dawkins) elmi nüfuzundan istifadə edərək ateizmi təşviq etdikdə və ya Karl Saqan (Carl Sagan) "kosmos" serialında "kainatın əzəli və əbədi olduğunu" söylədikdə, reaksiya verməmişdir. Tam əksinə, Akademiya Saqanı medalla mükafatlandırmışdır.*

(Phillip E. Johnson , Overestimating the Power of Science, *Commonweal*. Volume: 125. Issue: 11, June 5, 1998, s.15)

Bəlkə də, bəzi inanclı insanlar bu həqiqətləri bilmədikləri üçün, hadisələri yanlış optimallıqla qiymətləndirir və bundan ötrü də, darvinizmi təhlükəli hesab etmirlər. Halbuki bu materialist və ateist çevrələr darvinizmdən aldıqları dırnaqarası elmi dəstək sayəsində, din əxlaqına və dindarlara qarşı ciddi mübarizə aparırlar. Bütün dünya müsəlmanları materialist, ateist, inkarçı ətrafların zülmləriylə, təzyiq və qorxutma siyasətləriylə üzləşirlər. Müsəlmanlar bu darvinist diktatorluqdan ötrü, inanclarını yaşaya bilmir, düşüncələrini və doğruları dilə gətirə bilmirlər. Məhz bundan ötrü də, "darvinizm təhlükə kəsb etmir" deyən müsəlmanlar təcili surətdə bu yanlış fikirdən xilas olmalıdırlar. Bütün dünyada təkamül nəzəriyyəsi vasitəsilə din əxlaqına qarşı ciddi fikri hücum həyata keçirildiyi halda, bu nəzəriyyənin təhlükə olmadığını söyləmək və darvinizmi zərərsiz hesab etmək olduqca yanlış hərəkət olacaq.

## DARVİNİZM İNSANLARI ALDATMAĞA DAVAM EDİR

Bunu unutmamaq lazımdır ki, darvinizm, dünya səviyyəsində mütəşəkkilləşmiş bir hərəkatdır. Xüsusilə də Avropa İttifaqı ölkələrinin olduqca böyük hissəsində, Rusiyada, Çində və digər bir çox ölkədə təkamül nəzəriyyəsi xalqın çox böyük hissəsi tərəfindən qəbul edilir, yaradılış həiqqəti isə rədd edilir. Dünyadakı bütün universitetlərdə təkamül nəzəriyyəsi yeganə etibarlı nəzəriyyə qəbul edilir, ibtidai təhsil təşkilatlarından etibarən məktəblərdə şagirdlərə təkamül nəzəriyyəsi yeganə həqiqət kimi öyrədilir. Yaradılış həqiqətindən bəhs etmək belə, bir çox ölkədə qadağan edilmişdir. Vəziyyət uzun illərdir ki, belədir. Xüsusilə də Avropa ölkələrində keçirilən anketlər, Fransa, Almaniya, İngiltərə başda olmaqla, bir çox ölkədə insanların böyük hissəsinin təkamül nəzəriyyəsini elmi həqiqət kimi qəbul etdiyini göstərmişdir. Təkamül yalanına inanan bu insanlar, Allaha iman etməkdən və din əxlaqından da uzaqlaşırlar.

*Dünya səviyyəsində tanınmış elm jurnallarından "Nature"də aparılan bir araşdırmaya görə müasir elm dünyası tarix boyu heç olmadığı qədər Allahın varlığını rədd edir. Amerika Milli Elmlər Akademiyasının üzvləri arasında*

*aparılan araşdırma nəticəsində, akademiyanın yalnız 7% üzvünün Allahın varlığına inandığı, 93% üzvün isə, inanmadığı məlum olmuşdur. Bu nəticələr qarşısında, tanınmış təkamülçü bioloq Ernst Mayr bu açıqlamanı vermişdir: "Nəticəyə baxılsa hamımız ateistik".*

(Phillip Johnson, Evrim Duruşması, Gelenek nəşriyyatı, İstanbul, 2003, səh. 65)

Bu vəziyyət daha əvvəl də ifadə etdiyimiz kimi, bizə bəzi inanclı insanların söylədiklərinin tam əksini göstərir. Darvinizm hələ də geniş kütlələr üzərində öz təsirini göstərir və elm aləmində də hakim dünyabaxışıdır. Üstəlik, yalnız elmi bir nəzəriyyə deyil, insanları Allaha iman etməkdən uzaqlaşdıran ən əhəmiyyətli səbəblərdən biridir. "Nature" də dərc olunan bu araşdırma, 1914-ci ildə də aparılmış və nəticələrə görə o dövrdə Allaha inananlar 35,2% təşkil etmişdir. Aradan keçən 90 il ərzində elm adamlarının böyük hissəsi Allah inancından demək olar ki, tamamilə uzaqlaşmış, materialist və ateist ideologiyanı mənimsəmişdirlər. Diqqət yetirilməli ən əhəmiyyətli xüsus isə, bu dövrün təkamül nəzəriyyəsinin elm aləmində hakimiyyət qazandığı dövr olmasıdır. (http://members.shaw.ca/tfrisen/Science/scientistbelieving/scintist.htm)

Dünya iqtisadiyyatında və siyasətində öz təsirini göstərən bəzi Asiya ölkələrində də inancsızlıq çox geniş yayılmışdır. Bu ölkələrin başında Çin gəlir. Çində xalqın 71%-i özünü dinsiz və ya ateist elan edir. (http://library.thinkquest.org/18802/factchin.htm) Xüsusilə də Avropa ölkələrində yaşanan din əxlaqından uzaqlaşma prosesi, son illərdə müxtəlif araşdırmalar, kitablar və məqalələrin mövzusuna çevrilir. Avropanın xristian köklərini rədd etməsi, sürətlə din əxlaqından uzaqlaşması, ateizmin güclənməsi, kilsəyə bağlılığın çox zəifləməsi, Amerikada güclənən darvinizm əleyhinə fəaliyyətlərin Avropada əks-səda oyandırmaması, Avropa ölkələrindəki məktəblərdə qətiyyətlə təkamül nəzəriyyəsinin tədris olunmasına davam edilməsi və əks fikirlərə qətiyyən mövcudluq imkanı verilməməsi, bu fəaliyyətlərin təməlini təşkil edir. “Associated Press”in dərc etdiyi bir araşdırma nəticəsində isə, Qərbi Avropada inancsızlığın gücləndiyi qeyd olunmuşdur. Bu araşdırmanın göstərdiyi nəticələrə görə, Fransa dini dəyərlərin açıqca ifadə edilməsinə ən çox qarşı çıxan ölkədir və ölkədəki ateistlər orta hesabla 19% təşkil edir. Yenə eyni araşdırmanın nəticələrinə görə, bu qədər çox inancsız insanın olduğu digər bir ölkə isə, Cənubi Koreyadır.

(http://www.carnegiecouncil.org/viewMedia.php/prmID/5216)

Bu mübahisələr Avropa İttifaqının konstitusiyasının yaradılması vaxtı daha da kəskinləşmişdir. Bu konstitusiyada dini inanclara dair heç bir ifadənin yer almaması, dindar ətrafların əks reaksiyasına səbəb olmuş, lakin belə reaksiyalar qəti şəkildə rədd edilmişdir. Vatikanda verilən rəsmi açıqlamalar isə, müasir Avropanın, xristian dəyərləri üzərində qurulmuş bir cəmiyyət görünüşü vermədiyi ifadə edilmiştir. (http://www.time.com/time/europe/html/030609/religion.html) *CBN* də yayımlanan "Is Europe the new 'dark continent'?" (Avropa yeni 'qaranlıq qitədir'mi?) başlıqlı məqalədə 1000 il ərzində xristian mədəniyyətinin mərkəzi olan Avropada artıq bu dövrün bitdiyi ifadə edilmiş və müxtəlif mütəxəssislərin fikirlərinə yer verilmişdir. (http://www.cbn.com/CBNNews/News/040301a.asp) The cube and the cathedral: Europe, America, and politics

without God, (Kub və kafedral: Allahsız Avropa, Amerika və siyasət) adlı kitabın müəllifi və Vaşinqtondakı Ethics and Public Policy Center (EPPC - etika və cəmiyyət siyasət mərkəzi) rəhbərlərindən Corc Vayqel (George Weigel), Avropada inancsızlığın yüksəlişini bir müsahibəsində belə açıqlamışdır:

*Avropalılar özlərini müasir və sərbəst olmaq üçün, radikal dünyəvi olmaları mövzusunda şərtləndirmişlər. Bu şərtlənmənin, Avropada gündəlik həyat və mədəniyyət üzərində mühüm və ölümcül təsiri var. Avropanın əxlaqi dəyərlərinin korlanmasının təməlində, bu qənaətin və cəmiyyətdə yaratdığı problemlərin təsiri müşahidə olunur.*

(http://www.albertmohler.com/commentary_read.php?cdate=2005-06-01)

BMT tərəfindən keçirilən bir anket nəticəsi də, Avropa ölkələrində darvinizm və ateizmin yüksəlişini göstərən dəlillərdən biridir. Anketə görə avropalıların yalnız 18%-i insanı Allahın yaratdığına inanır, 82%-i isə insanın digər növlərdən təkamül yolu ilə meydana gəldiyini zənn edir. Ölkələrə ayrı-ayrılıqda nəzər yetirdikdə vəziyyətin belə olduğu görülür:

| Ülke | Ateist ve inançsızların yüzdesi |
|---|---|
| İsveç | 46-85 |
| Danimarka | 43-80 |
| Norveç | 31-72 |
| Çek Cumhuriyeti | 54-61 |
| Finlandiya | 28-60 |
| Fransa | 43-54 |
| Almanya | 41-49 |
| Macaristan | 32-46 |
| Hollanda | 38-44 |
| İngiltere | 31-44 |
| Belçika | 42-43 |
| İsviçre | 17-27 |
| Avusturya | 18-26 |
| İspanya | 15-24 |
| Yunanistan | 16 |
| İtalya | 6-15 |

Kaynak: http://www.pitzer.edu/academics/faculty/zuckerman/atheism.html

- Almaniya: 35%-i katolik, 36%-i isə protestant olan xalqın yalnız 14%-i yaradılışa inanır.
- *Fransa: Yaradılış həqiqətinə inananlar təxminən 18% təşkil edir. Fransada ateistlər təxminən 19% təşkil edir.* (http://www.iht.com/articles/2005/06/06/news/religion.php)
- *İngiltərə: Xalqın 20%-i yaradılışa inanır. Təkamül nəzəriyyəsinə inananlar isə 26 yanvar 2006-ci ildə aparılmış bir araşdırma nəticəsinə görə təxminən 50% təşkil etmişdir. Məktəblərdə yalnız təkamül nəzəriyyəsinin tədris olunmalı olduğunu söyləyənlər isə, 70% təşkil edir.* (http://news.bbc.co.uk/1/hi/sci/tech/4648598.stm) *Aparılan araşdırmalar İngiltərənin sürətlə inancsız bir ölkə olmaq yolunda irəlilədiyini, yalnız immiqrantların dini inanclarını yaşadıqlarını, ingilislərin isə dindən uzaqlaşdığını göstərir. Mətbuatda yer alan bir xəbərə görə isə, İngiltərədə məktəblərdə ateizmin öyrədilməsi planlaşdırılır.* (http://www.sabah.com.tr/2004/02/16/dun108.html)
- *İspaniya: Əhalinin böyük hissəsini katoliklərin meydana gətirdiyi İspaniyada, insanları Allahın yaratdığı həqiqətinə inananlar 13% təşkil edir.*
- *Norveç: Yaradılışa inananlar cəmiyyətin 19%-ni təşkil edir.*
- *Finlandiya: Yaradılışa inananlar 16% təşkil edir.*
- *İsveç: Allahın insanları yaratdığına inananlar 12% təşkil edir.*

- *Danimarka: Xalqın 9%-i yaradılışa inanır.*
- *Belçika: Yaradılış həqiqətinə inananlar 10% təşkil edir.*
- *İsveçrə: Xalqın 24%-i yaradılış həqiqətinə inanır.*

(http://www.geocities.com/fedor_steeman/Europe.html)

Bu məlumatlar, bütün elmi tapıntıların təkamülü təkzib etdiyini, darvinizmin xəyal məhsulu hekayələrdən ibarət olduğunu, elmin göstərdiyi həqiqətin yaradılış olduğundan bəhs etməyin əhəmiyyətini yenidən sübut edir. İnsanların Allahın, axirətin və haqq - hesab gününün varlığına inanmalarına, Allah rizasına uyğun şəkildə yaşamsına mane olan darvinist dünyagörüşünün aradan qaldırılması üçün, bütün müsəlmanların birlik olub, olduqca geniş miqyaslı fikri mübarizə aparmaları təcili yerinə yetirilməli məsələdir. Bu fəaliyyətlərə mane olmağın, əhəmiyyətsiz hesab etməyin və ya əhəmiyyətsiz göstərməyin isə, çox yanlış hərəkət olduğu aydındır…

## DARVİNİZMLƏ ELMİ MÜBARİZƏ APARILMASI BÜTÜN MÜSƏLMANLARIN MƏSULİYYƏTİDİR

Dövrümüzdəki texnoloji imkanlar, müsəlmanlar üçün çox böyük nemətdir. Bu nemətlərdən lazımınca istifadə edildikdə, darvinizmə və materializmə qarşı aparılacaq fikri mübarizə olduqca asan və sürətli olacaq. Əhəmiyyətli olan heç kimin; "mən nə edə bilərəm ki?", "mənim səyim nəyi dəyişdirər ki?" kimi yanlış düşüncələrə qapılmamasıdır. Hər kəsin nə qədər imkanı olursa olsun, bu imkanından nə qədər istifadə etdiyi, nə qədər səmimi şəkildə istifadə etdiyi əhəmiyyətlidir. Nəticəni uca Allah təqdir edəcək. Allah, səmimi şəkildə səy göstərənlərin işlərini ən gözəl şəkildə nəticələndirər. Hər kəsin göstərdiyi səyin qarşılığını tam alacağı Quranda belə bildirilmişdir:

**İnsan can atdığı şeyə nail olar. Əlbəttə, onun can atdığı** *(əməl)* **ona nəsib olacaqdır. Sonra da ona** *(bunun)* **əvəzi tam veriləcəkdir!” Son dönüş sənin Rəbbinədir.** (Nəcm surəsi, 39-42)

Bütün insanlar arasında Quran əxlaqının yayılması üçün səy göstərmək, iman və vicdan sahibi bütün insanların məsuliyyətidir. Allah, Quranın; **"Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır."** (Ali İmran surəsi, 104) ayəsiylə də, bu məsuliyyətlərini iman edənlərə bildirmişdir. Quran əxlaqının təbliğ edilməsinin mühüm bir mərhələsi də, insanları Quran əxlaqından uzaqlaşdıran ideologiyaların yox edilməsidir. Din əxlaqının yaşanmasına və yayılmasına mane olan ideologiyalar fikirlə təsirsiz hala gətirildikdə, insanların doğrunu görmələri daha asan olacaq. Digər bir ayədə isə, Allah bütün iman edənlərə; **“... Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq...”** (Maidə surəsi, 48) deyə buyurmuşdur. Yaşadığımız dövrdə materializm və ateizmin elmi cəhətdən məğlub edilməsi, ən yaxşı işlərdən biridir. Allahın icazəsiylə bu iş, dinsizliyi yox edəcək, din əxlaqının yer üzünə hakim olmasına vəsilə olacaq. Bundan ötrü də, hər müsəlman əlindəki



**Darvin canlılar aləmini 19-cu əsrin ibtidai alətləri ilə tədqiq etmiş və bu səbəblə həyatın mürəkkəbliyini dərk etməmiş və həyatın kor təsadüflərin əsəri ola biləcəyi kimi böyük bir yanılmaya qapılmışdır.**

imkanlar çərçivəsində darvinizmi fikri mübarizəylə yox etməyə, Quran əxlaqının təbliğ edilməsinə dəstək olmağa çalışmalıdır.

Bu mövzudakı yanlış düşüncələrdən biri də, "imkanları olanlar onsuz da əllərindən gələni edirlər, mənim başqa bir şey etməyimə ehtiyac yoxdur" məntiqidir. Halbuki, hər insan, Allahın Quranda bildirdiyi hökmləri tətbiq etmək, əxlaqı yaşamaq, məsuliyyətləri yerinə yetirmək mövzusunda yalnız

özü məsuliyyət daşıyır. Necə ki, bir insan digər bir insanın etdiyi səhvlərdən, işlədiyi günahlardan lazımi xəbərdarlığı və xatırlatmanı etdikdən sonra məsul olmazsa, başqasının etdiyi gözəl davranışlardan da əgər bunlara hər hansı dəstək verməyibsə bir pay ala bilməz. Axirət günündə hər kəs Rəbbimizin hüzuruna tək-tənha çıxacaq və etdikləri və etmədiklərindən ötrü tək-tənha şəkildə hesab verəcək. Bu həqiqət Quranda belə bildirilmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz** *(nemətləri)* **arxanızda qoyub gəldiniz...** (Ənam surəsi, 94)

Hər müsəlman, digər mövzularda olduğu kimi, inkara qarşı apardığı fikri mübarizəsi, bu mövzuda nə qədər səy göstərməsi, din əxlaqının yayılması üçün necə səy göstərməsi kimi məsələlərdə də tək-tənha hesab verəcək. Belə olan halda, edilməli olan, nəfsin irəli sürdüyü bəhanələrə aldanmadan, əlindən gələnin ən çoxunu etmək, dinsizliyin yox olması üçün gücünün çatdığı qədər səy göstərməkdir. Allah yolunda səmimi səy göstərənlərə, şübhəsiz ki, Allah yol göstərəcək, onları köməyi ilə dəstəkləyəcək. Rəbbimiz möminləri belə müjdələyir:

**... Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir.** (Həcc surəsi, 40)

**Bir şeyi** *(yaratmaq)* **istədikdə ona təkcə: “Ol!” deyər, o da olar.** (Ya Sin surəsi, 82)

## ELMİ DƏLİLLƏR AÇIQ-AYDIN ŞƏKİLDƏ TƏQDİM EDİLMƏLİDİR

Darvinistlər nəzəriyyələrinin elmi olduğunu iddia edir və həmişə bunun təbliğatını aparırlar. Bu vəziyyət qarşısında müsəlmanların darvinizmə elmi cavab verməsi, elm adından ortaya atılan iddiaların yenə elmlə çürüdülməsi əhəmiyyətlidir.

Darvinizmə qarşı çıxan bütün elmi inkişafların yaxından təqib edilməsi, bu inkişafların göstərdiyi həqiqətlərin toplanılaraq, açıq və konkret dəlillər halında təqdim edilərək mübarizə aparılması zəruridir. Kifayət qədər məlumat və dəlil təqdim etmədən, "madam ki, insanlar meymundan əmələ gəldi, bəs onda niyə hələ də meymunlar var, onlar niyə insana çevrilmir" kimi illərdir ki, alışılmış bəzi nümunələr verilərək darvinizmin fikri yolla məğlub edilə biləcəyini güman etmək, hadisənin ölçülərinin kifayət qədər düşünülməməsindən qaynaqlanır. Həmişə çox müxtəlif mənbələrdən darvinizm təbliğatına məruz qalan bir insanın, sadə və bəsit nümunələrlə qəlibləşmiş düşüncələrini dəyişdirə bilməyəcəyi aydındır. Dolayısilə elmin təkamül nəzəriyyəsini dəstəklədiyini zənn edən insanlara, bilavasitə elmin göstərdiyi nəticələr təqdim edilərək, təkamülün qeyri-elmi olduğu göstərilməlidir.

Təbii seleksiyanın təkamül yaradıcı gücü olmadığı, illərdir ki, təkamülə dırnaqarası dəlil kimi göstərilən sənaye kəpənəkləri mövzusunun təkamülçü iddiaları dəstəkləmədiyi, Kembri dövrü tapıntılarının təkamüllə izah olunmasının qeyri - mümkün olduğu, mutasiyaların canlıların quruluşuna

zərər verdiyi, onları meydana gətirib inkişaf etdirmədiyi elmi dəlilləriylə göstərilməlidir. Fosil qeydlərinin, canlıların mərhələli şəkildə bir-birlərindən meydana gəlmədiyini göstərdiyi, göstərilən fosil nümunələrinin saxtakarlıq məhsulu olduqları, fosil qeydlərində milyonlarla ildir ki, canlıların quruluşunda ən kiçik bir dəyişiklik olmadığının görüldüyü, yaşayan fosillərin təkamül nəzəriyyəsi üçün düyün nöqtəsi olduğu, insanın xəyali nəsil ağacının yüzlərlə dəlillə çürüdüldüyü, zülalın, hüceyrənin, DNT-nin, RNT-nin təsadüflərlə meydana gəlməsinin qeyri-mümkün olduğu açıq və konkret şəkildə izah edilməlidir. Cansız maddə yığınının canlıları meydana gətirə bilməyəcəyi, şüursuz atomların birləşərək düşünən, sevgi bəsləyən, sevgidən xoşlanan, mərhəmət edən, gülən, mühakimə qabiliyyətinə sahib olan bir varlıq meydana gətirə bilməyəcəkləri, göz və qulaq kimi orqanlardakı mükəmməl nizamın mərhələli şəkildə meydana gələ bilməyəcəyi ağıllı nümunələrlə izah olunmalıdır. Variasiyanın təkamüli dəlil olmadığı, antibiotik müqavimətinin təkamülə dəlil qəbul edilə bilməyəcəyi, atrofiyaya uğramış orqanlar adlı bir şey olmadığı, canlılardakı bənzərliyin darvinizmi dəstəkləmədiyi, molekulyar homologiyanın əsassız iddia olduğu, təkamül nəzəriyyəsinin embrioloji dayağının olmadığı kimi mövzular sübutlarıyla təqdim edilməlidir.

İnsanların böyük hissəsi yuxarıda saydığımız həqiqətlərdən xəbərsiz olduğu üçün, darvinizmin təlqinlərinə aldanırlar. Bu həqiqətlər, izahedici nümunələrlə, elmi tapıntılarla, dəlil və sübutlarla izah edildikdə bir çox insan həqiqətləri görəcək. Bundan ötrü də, müsəlmanlar, ötəri cavablar və kor-koranə açıqlamalar vermək əvəzinə, elmi dəlillərlə darvinizmi çürütməlidirlər. Darvinizmi bundan başqa üsulla fikri yolla məğlub etmək qeyri-mümkündür. Dəlillərlə izah etdikdə isə, darvinizmi məğlub etmək çox asandır.

Dolayısilə, müsəlmanların bu mövzuda özlərini yetişdirmələri, məlumatlarını artırmaları da əhəmiyyətlidir. Bir ateistin, materialistin, darvinistin ortaya atdığı iddiaları ən hikmətli şəkildə çürüdə biləcək məlumat təcrübəsinə sahib bir insanın, darvinistlərlə elmi mübarizə aparmaqdan çəkinməsinə heç bir səbəb qalmaz. Passivlik və acizlik göstərməsinə, qəribə acizlik hissi yaşamasına, çəkinməsinə, narahat olmasına zəmin hazırlayan bütün ünsürlər ortadan qalxar. Saleh bir müsəlmana yaraşacaq şəkildə, darvinizmə qarşı açıq, qalibanə bir fikri mübarizə aparar. Belə olduqda, Hz. Musanın əsasının sehrbazların bütün hiylələrini udub yox etməsi kimi,



İbtidai elm səviyyəsinin məhsulu olan Darvinizm, xüsusilə 20-ci əsrin ikinci yarısında əldə edilən elmi bilgi və tapıntılarla məhv edilmişdir.

göstərilən dəlillər, darvinizmin bütün yalanlarını təsirsiz hala gətirər. Eləcə də, Allahın icazəsiylə, Rəbbimizin Quranda bildirdiyi kimi, haqq açıqca ortaya çıxar və inkarçılar böyük məğlubiyyətə uğrayarlar:

**Artıq haqq üzə çıxdı, onların etdikləri isə batil oldu.** *(Sehrbazlar)* **orada məğlub oldular və rüsvay olaraq geri döndülər.** (Əraf surəsi, 118-119)

## ŞEYTAN MÜSƏLMANLARI, DARVİNİZMƏ QARŞI APARILAN MÜBARİZƏDƏN AYIRMAQ İSTƏYƏR

Dünya həyatında yaradılan imtahanın tələbi olaraq, şeytan həmişə insanları Allah yolundan azdırmağa çalışar, möminləri gücsüzləşdirib cansızlaşdırmaq, həyəcanlarını və şövqlərini yox etmək, beləliklə də, mübarizə əzmlərini azaltmaq üçün var gücüylə səy göstərər. Şeytanın dünyadakı hədəfi, boş xülyalar və vəsvəsələr pıçıldayaraq insanları gizlicə aldatmaq və beləliklə də, məhvə sürükləməkdir. Quranda şeytanın bu istiqamətdə göstərdiyi fəaliyyət; **"Mən onları mütləq** *(doğru yoldan)* **azdıracaq və xülyalara salacağam..."** (Nisa surəsi, 119) ayəsiylə xəbər verilmişdir. Şeytan bütün insanlara olduğu kimi, iman edənlərə də müxtəlif yollarla yaxınlaşmağa, yaxşı və gözəl şeyləri onlara pis şeylər kimi göstərməyə çalışar. Bəzi hadisələri həllsiz kimi göstərərək yarı yoldan qaytarmaq, yaxşı işləri yarımçıq saxlatdırmaq istəyər. Hadisələri çətin göstərərək, insanları qorxutmağa, ümidsizliyə salmağa çalışar. Tənbəlliyə sövq edərək asta hərəkət etmələrini, iradəsizlik göstərmələrini istəyər.

Şeytanın müsəlmanları gücdən salmağa çalışdığı mövzulardan biri də, darvinizmə qarşı aparılan fikri mübarizədir. Darvinizmi elmi göstərərək, fikirlə məğlub olması sanki qeyri-mümkünmüş kimi təlqinlər verərək, müsəlmanları yersiz qorxulara salaraq, onları darvinizmlə elmi mübarizə aparmaqdan ayırmaq istəyər.

Lakin Quranda şeytanın bütün səylərinin və hiyləsinin əslində olduqca zəif olduğuna diqqət çəkilmişdir:

*(Şeytan)* **onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir.** (Nisa surəsi, 120)

**... Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.** (Nisa surəsi, 76)

İman sahibləri də bu həqiqəti dərk etməli, şeytanın təlqinlərinin özlərinə təsir etməsinə icazə verməməlidirlər. Ağlından və vicdanından tam şəkildə istifadə edən biri üçün, darvinizmlə elmi mübarizə aparmaqdan qaçmaq qeyri -mümkündür. Tam əksinə, saleh bir mömin ən təsirli, ən əsaslı, ən ağıllı və ən hikmətli üsullarla, böyük şövq və əzmlə bu mübarizəni həyata keçirər.

Möminlər, darvinizmin yalanlarına qarşı, Allahın varlığından və vahidliyindən danışır, Onun üstün yaradıcılığının dəlillərini göstərir və çox şərəfli bir xidmət icra edirlər. Bundan ötrü də, darvinizmlə aparılan fikri mübarizədə müsəlmanlar yaxşı işlərdə yarışmağın şövqüylə hərəkət etməli, mütləq qalib gələcəklərini düşünərək əzmkar və güclü olmalı, Rəbbimizin vədini əsla unutmamalıdırlar:

**Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.** (Ali İmran surəsi, 139)

## DARVİNİZMLƏ FİKRİ MÜBARİZƏ APARMAQ BİRLİK OLMAĞI TƏLƏB EDİR

Belə geniş miqyaslı bir elmi mübarizənin təsirli olması üçün, müsəlmanların birlik və həmrəylik ruhu içində hərəkət etmələri böyük əhəmiyyət daşıyır. Allah Quranda müsəlmanların inkar əxlaqına qarşı aparacaqları fikri mübarizədə birlik olmalarının lazım olduğunu bildirmişdir. Bir ayədə müsəlmanların birlik içində hərəkət etməmədikləri təqdirdə yer üzündə fitnə-fəsad çıxacağı belə bildirilmişdir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz** *(bir-birinizə yardımçı olmasanız)*, **yer üzündə fitnə və böyük bir fəsad baş verər.** (Ənfal surəsi, 73)

Dinsizlik dünyanın bir çox bölgəsində geniş yayıldığı, terror və anarxiya bütün insanları təhdid etdiyi, bir çox məzlum və günahsız insan, zülm və təzyiq altında əzildiyi halda, səmimi iman edənlərin etməli olduqları şey, bütün imkanlarından sonacan istifadə edib darvinizmlə fikri mübarizə aparmaqdır. Çünki, dinsizlik və ateizmin dayaq nöqtəsi darvinizmdir. Müsəlmanların aralarındakı düşüncə fərqlərini göstərərək birlik ola bilməmələri, aparılmalı olan bu böyük elmi mübarizədə güclərinin azalmasına səbəb olacaq. Mövcud şərait fikir ayrılıqlarından əl çəkib, din əxlaqının yayılması üçün birlik olmaq zərurəti yaradır.

Allah Quranda möminlərə; **"...bir-birinizlə mübahisə etməyin…"** (Ənfal surəsi, 46) əmr edir və bunun müsəlmanları zəiflədəcək bir faktor olduğunu bildirir. Digər bir ayədə isə, belə əmr edilir:

**Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.** (Ali İmran surəsi, 105)

Bəzi iman edənlərin dinsizliyə qarşı aparılan fikri mübarizədə birlik ola bilməmələrinin təməlində, Allahın əmr etdiyi əxlaqı lazımınca yaşamamaları dayanır. Bu əxlaq təvazökarlığı əsas alır. Təvazökarlıqdan uzaqlaşanlar, özlərini və öz fikirlərini mütləq doğru hesab edər, özlərindən fərqli düşünənləri aşağı hesab edər və onlara qəzəb bəsləyərlər. Öz fikirlərinin mütləq doğru olduğundan qətiyyən şübhə duymadıqları üçün, özlərini heç vaxt sorğu-sual etməz və dolayısilə daha yaxşıya, daha doğruya yönələ bilməzlər. Yalnız öz fikirlərinin eşidilməsini, yayılmasını, anladılmasını istəyərlər. Eyni məqsəd naminə səy göstərənlərə dəstək verməz, bu səyləri görməzlikdən gələrlər. Çox vaxt öz ağıllarınca digərlərinin işlərini və fəaliyyətlərini əhəmiyyətsiz hesab edər, hətta bu işlərə maneə törədəcək rəftarlar belə sərgiləyərlər. Yalnız öz söylədiklərini bəyənib bununla öyünənlərin vəziyyətinə Quranda; **"... onlar öz dinini aralarında parçalayıb firqələrə böləndülər. Hər firqə öz təriqətinə sevinir."** (Muminun surəsi, 53) ayəsiylə diqqət çəkilmişdir.

Allahdan qorxub çəkinənlər və axirət günündə haqq-hesab verəcəyinə iman edənlər, bundan şiddətlə çəkinib qorunmalıdırlar. Bu mövzunun əhəmiyyətini dərk edənlər, digər möminləri də bu səhvə yol verməkdən çəkindirməli, müsəlmanların Quran əxlaqında və dinsizliyə qarşı aparılan

fikri mübarizədə birləşmələrini təmin etmək üçün səy göstərməlidirlər.

Darvinizmə qarşı aparılan elmi mübarizədə hər müsəlman boynuna məsuliyyət götürməlidir. Bütün müsəlman qeyri-hökumət təşkilatları, təşkilatlar, fondlar və dərnəklər ortaq şüurla hərəkət etməli, "bu bizim təşkilatımızın aparmalı olduğu fəaliyyət deyil" və ya "bu bizim vəqfimizin əsəri deyil" deyə düşünmədən, darvinizmlə aparılan mübarizəyə kömək etməlidir. Üzvü olduğu vəqfin, dərnəyin, təşkilatın fəaliyyətləri xaricindəki bütün fəaliyyətləri görməzlikdən gəlmək, "bizim firqəmizdən deyildir, bundan ötrü də, fikrinə əhəmiyyət vermərik" məntiqinə sahib olmaq, müsəlmanlara qəti şəkildə yaraşmayan yanaşma tərzidir.

Bütün dünyada müsəlmanların yaşadığı çətin vəziyyət, yaşanan qarşıdurmalar, çəkilən əzablar, anarxiya və terrorun səbəb olduğu qorxu və narahatlıq mühiti din əxlaqının yayılmasına təcili ehtiyac duyulduğunu göstərir. Bu şərtlər altında müxtəlif bəhanələr ortaya ataraq darvinizmlə fikri mübarizə aparmaqdan qaçmaq, birlik və həmrəylik ruhuyla hərəkət etməmək həm dünyada, həm də axirətdə məsuliyyət gətirəcək hərəkət ola bilər. Səmimi müsəlmanların bu səhvə yol verməkdən çəkinməsi olduqca əhəmiyyətlidir.

## SOSİAL DARVİNİZM

Güclünün haqlı sayılması, bərabərsizlik, irq və ya etnik əsaslı ayrı-seçkilik, zülm, haqsız rəqabət və çəkişmə, kasıbların əzilməsi, güclünün zəif olanı istismar etməsi cəmiyyətlərin tarix boyu yaşadığı pislik və çətinliklərdəndir. Min illərlə əvvəl, məsələn, Hz. Musanın dövründə yaşayan fironun rəhbərliyində də bütün bunları görmək mümkündür. Firon zənginliyi və güclü ordusu səbəbi ilə daima özünü üstün görmüşdür. Doğru söylədikləri açıq olan Hz. Musa və Hz. Harunu bütün gücü ilə yalanlamış, hətta onları öldürmək istəmişdir. Firon, bundan başqa, bölücü siyasət aparıb xalqını siniflərə ayırmış, bəzilərini aşağı sinif adlandırmış, İsrail oğullarına müxtəlif işgəncələr etmiş, onların kişilərini öldürüb, qadınlarını sağ buraxmışdır. Beləcə, İsrail oğullarının soyunun kəsilməsini hədəfləmişdir. Allah Quranda Fironun bu azğınlıqlarını belə bildirir:

**Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü.** *(Firon)* **onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi.** (Qəsəs surəsi, 4)

**Ya da mən bu aciz və az qala** *(sözünü)* **belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?** (Zuxruf surəsi, 52)

*(Firon)* **öz xalqını aldatdı, onlar da ona itaət etdilər. Həqiqətən, onlar fasiq adamlar idilər.** (Zuxruf surəsi, 54)

**Zəif camaatı isə yer üzünün xeyir-bərəkət verdiyimiz məşriqlərinə və məğriblərinə varislər təyin etdik...** (Əraf surəsi, 137)

Yalnız güclünün haqlı sayıldığı, insanların siniflərə ayrıldığı, aşağı

görülənlərin əzilib yox edildiyi, bəzi insanların digərlərinə qarşı insanlıqdan kənar davranışlara yol verdiyi tək azğın cəmiyyət firon hakimiyyətindəki qədim Misir deyildi. Min illərlə əvvəldən günümüzə qədər belə üsul və tətbiqlərin bir çox nümunəsi var.

Lakin 19-cu əsrdə bütün bu pisliklər daha fərqli bir ölçüyə sahib oldu. 19-cu əsrə qədər zalımlıq, təcavüzkarlıq, amansızlıq olaraq səciyyələndirilən bu cür tətbiq və siyasətlərin bir anda sözdə "təbiətin həqiqətlərinə əsaslanan elmi tətbiqlər" yalanı müdafiə olunmağa başlandı. Yaxşı, bəs bütün bu mərhəmətsizliklərə birdən-birə sözdə qanunilik qazandıran nə idi?

Çarlz Darvinin təkamül nəzəriyyəsi... Darvin 1859-cu ildə nəşr olunan *"Növlərin mənşəyi"* adlı kitabında ortaya atdığı təkamül nəzəriyyəsi ilə həyatın mənşəyinə dair bəzi fərziyyələr irəli sürürdü. Bu fərziyyələri son dərəcə aldadıcı bir dünyagörüşünün və həmçinin Allahın varlığını inkar edən və təsadüfləri "yaradıcı" sayan (Allahı tənzih edirik), insanı heyvan qəbul edən, həyatı mübarizə və rəqabət yeri olaraq görən azğın bir fəlsəfənin sözdə elmi həqiqət kimi qəbul edilməsinə səbəb oldu.



**Darvinin elmdən kənar nəzəriyyəsi ilə gücləndirilən zəif və gücsüz olanların əzilməsinin lazım olduğu yanlışlığı bərabərsizliyin, haqsızlığın və ədalətsizliyin yayılmasında ən əsas amillərdən biridir.**

Darvin elmi sübutu olmayan, 19-cu əsrin köhnə elm anlayışının bir nəticəsi olaraq ortaya çıxan bu nəzəriyyəni təkbaşına inkişaf etdirməmişdi. Özündən təxminən 50 il əvvəl, 1798-ci ildə Tomas Maltus *"Əhali qanununda təcrübə"* adlı işində Darvinin nəzəriyyəsinə əsas təşkil edən, həqiqətlə əlaqəsi olmayan bəzi fikirlər ortaya atmışdı. Maltus indiki dövrdə elmi dəyəri olmadığı isbat edilən işində əhalinin qida qaynaqlarından daha sürətli artdığını, buna görə, əhalinin idarə edilməsinin lazım olduğunu iddia edirdi. Müharibələrin, epidemik xəstəliklərin əhali üzərində təbii idarə təmin etdiyini və bu səbəbdən faydalı olduğunu iddia edən Maltus ilk dəfə "həyatda qalma mübarizəsi"ndən danışan insan oldu. Maltusun insani dəyərlərdən uzaq bu tezisinə görə, kasıblar qorunmayıb mümkün olduğu qədər pis şərtlərdə yaşadılmalıdırlar ki, çoxalmalarının önü kəsilsin və yuxarı siniflərə kifayət qədər qida qaynağı qalsın. (Ətraflı məlumat üçün baxın: "MALTUSDAN DARVİNƏ MƏRHƏMƏTSİZLİYİN TARİXİ" bölümü). Vicdan və ağıl sahibi hər insanın şiddətlə qarşı çıxacağı bu vəhşiliyin qəbul olunması, heç şübhəsiz, böyük zülmdür. Din əxlaqının kasıblara, möhtaclara əl tutmağı tələb etməsinə baxmayaraq, Maltus və onu təqibçisi Darvin bu məzlumların mərhəmətsiz

şəkildə ölümə tərk edilməsini söyləyirdi.

Maltusun insanlıq xarici bu fikirlərini dərhal mənimsəyib inkişaf etdirənlərin başında ingilis sosioloq və fəlsəfəçi H. Spenser gəlirdi. Darvinizmin təməl iddiasını yekunlaşdıran "ən uyğun olan həyatda qalır" ifadəsi Spenserə aid idi. "Uyğun olmayanlar"ın isə ələnməsinin, yəni ölməsinin lazım olduğunu iddia edən Spenser: "İnsanlar əgər yaşamaq üçün kifayət qədər tamamdırlarsa, yaşayırlar və yaşamaları da yaxşıdır. Əgər yaşamaq üçün kifayət qədər tamam deyillərsə, ölürlər və ən yaxşısı ölmələridir",-deyirdi. (Herbert Spencer, *Social Status*, 1850, s. 414-415) Yəni Spenserə görə, kasıb, xəstə, şikəst, müvəffəqiyyəti və təhsili olmayan hər insan ölməli idi. Bütün bunlar Spenserin nə qədər ürküdücü, zalım olduğunun, xəstə ruha və dünyagörüşünə sahib olduğunun göstəriciləri idi. Şəfqət və qorunmağa ehtiyacı olan insanlara qarşı böyük mərhəmətsizlik duyur, eyni Maltus kimi onları əziyyət yolu ilə yox etməyin yollarını axtarırdı. Dövlətin kasıbları qoruyan qanunlar çıxarmasını da önləməyə çalışan Spenser üçün amerikalı tarixçi R.Hofstadter “Amerikan düşüncəsində sosial darvinizm” adlı kitabında belə açıqlama vermişdir:

*Spenser yalnız yoxsullar üçün hazırlanan qanunlara deyil, eyni zamanda, dövlətin dəstəklədiyi təhsil, sağlamlıq yoxlaması, saxlama şərtlərinin təşkil edilməsi və hətta saxta həkimlərə qarşı cahillər üçün dövlət qorumasının təmin edilməsi ilə əlaqədar qanunlara da qarşı çıxırdı.*

(Richard Hofstadter, *Social Darwinism in American Thought*, Rev. Ed., Boston, Beacon Press, 1955, s.41)

Maltus və Spenserin mərhəmətsiz dünya görüşlərindən çox təsirlənən Darvin isə *“Növlərin mənşəyi”* adlı kitabında növlərin təbii seleksiya ilə təkmilləşdikləri nağılını ortaya atdı. Darvin alim deyildi, biologiya ilə yalnız həvəskar kimi maraqlanmışdı. Bundan başqa, Darvinin dövründəki mikroskoplar da son dərəcə primitiv idi. O dövrdə hüceyrə hələ yalnız bir ləkə bilinirdi, irsiyyət qanunları da kəşf edilməmişdi. Darvin elmi baxımdan son dərəcə qeyri-kafi olan bu şərtlərdə məhdud bilgisi ilə inkişaf etdirdiyi nəzəriyyəsində təbiətin həmişə üstün və ən uyğun olanları seçdiyini, digərlərini isə ələdiyini, canlılığın bu şəkildə inkişaf etdiyini iddia etdi. Darvinin ən əvvəldən səhv bir təməl üzərinə qurduğu elmdən kənar nəzəriyyəsinə görə, canlılıq təsadüflərin əsəri idi; bu şəkildə, Darvin canlılığı Allahın yaratdığı həqiqətini də rədd edirdi. (Allahı tənzih edirik). Darvin *“Növlərin mənşəyi”* kitabından sonra *“İnsanın törəməsi”* adlı kitabında elmə zidd nəzəriyyəsini insanlara da tətbiq etməyə cəhd etdi. Kitabında sözdə geri qalmış irqlər olduğundan bu irqlərin yaxın gələcəkdə ələnəcəyindən və bu minvalla üstün olanların inkişaf edib irəliləyəcəyindən bəhs edirdi. Darvinin bu kitabında və bəzi yazışmalarında təkamül nəzəriyyəsini insanlara tətbiqi ilə sosial darvinizm formalaşdı.

Bundan sonrakını isə qatı Darvin tərəfdarları davam etdirdi. İngiltərədə Spenser və Darvinin əmioğlusu F. Qalton, Amerikada U. Q. Sumner kimi bəzi alim və kapitalistlər, Almaniyada isə E. Hekkel kimi darvinistlər və ardından 20-ci əsrin qanlı diktatoru A. Hitler kimi faşist irqçilər sosial darvinizmin amansız və mərhəmətsiz qanunlarının öndə gələn müdafiəçi və

tətbiqçiləri oldular.

Sosial darvinizm qısa müddətdə vəhşi kapitalizm adı altında haqsız rəqabəti ən amansız şəkli ilə tətbiq edənlərin- irqçilərin, imperialistlərin, kasıbları və köməyə möhtacları qorumaq vəzifəsini yerinə yetirməyən idarəçilərin özlərini sözdə müdafiə etmə vasitəsi halına gəldi. Sosial darvinistlər zəiflərin, kasıbların, sözdə "aşağı" irqdən olanların əzilməsini; şikəstlərin sağlam insanların, kiçik müəssisələrin isə böyük şirkətlərin qarşısında yox olmasını təbiətin bir qanunu və insanlığın irəliləməsinin tək yolu kimi göstərməyə çalışdılar. Vicdansızlıq kimi qəbul edilməsinə baxmayaraq, insanlıq tarixi boyu davam edən bu haqsızlıqları bir anda sözdə elm adı altında qanuni göstərmək istədilər. Sosial darvinizm amansızlığı təbiətin qanunu və insanlığın sözdə təkamülünün ən əhəmiyyətli yolu kimi izah edirdi.

Xüsusilə amerikalı bəzi kapitalistlər meydana gətirdikləri şiddətli rəqabət mühitini sosial darvinist ifadələrlə özlərinə görə qanuniləşdirdilər. Halbuki, bu, böyük yalandan başqa bir şey deyildi. Haqsız və mərhəmətsiz rəqabəti sözdə elmi dayağı varmış kimi göstərməyə çalışanlar yalnız yalan danışırdılar. Məsələn, Amerikanın ən böyük sərmayə sahiblərindən A. Karneci də bu yanılanlardan biri idi və 1889-cu ildəki bir nitqində belə deyirdi:

*Rəqabət qanunu üçün cəmiyyətin ödədiyi əvəz ucuz komfort və lükslər üçün ödədiyi əvəz kimi böyükdür; ancaq bu qanunun üstünlükləri əvəzindən daha çoxdur. Çünki bu qanun sayəsində maddi inkişaf mükəmməldir və bu, bizə daha inkişaflı şərtlər təmin edir... Bu qanun insan üçün bəzən çətin olsa da, irq üçün ən yaxşısıdır. Çünki hər sahədə ən uyğun olanın həyatda qalmasına zəmanət verir. Buna görə, böyük bərabərsizlikləri, iş imkanlarının, sənaye və ticarətin bir neçə adamın əlində toplanmasını və bunların arasında rəqabət qanunu kimi şərtləri qəbul edir və xoş qarşılayırıq. Bunlar yalnız faydalı deyil, eyni zamanda, irqin inkişafı üçün əsasdır.* (Mark Kingwell, "Competitive States of America, Microsoft proves it: we're still wrestling with that treasured national ideal", *New York Times*, 25 Haziran 2000; http://www.spaceship-earth.org/Letters/Editor/Competitive_States_of_America.htm)

Göründüyü kimi, sosial darvinizmə görə, tək hədəf irqin fiziki, iqtisadi və siyasi baxımdan inkişafıdır. Fərdlərin xoşbəxtliyi, rifahı, hüzuru və təhlükəsizliyi əhəmiyyət kəsb etmir. Acı çəkən, kömək üçün fəryad edən, uşaqlarına, ailəsinə və yaşlı ata-anasına yemək, dərman, sığınacaq tapa bilməyən yazıq və gücsüz insanlara heç bir şəkildə mərhəmət duyulmur. Məsələn, bu azğın düşüncəyə görə, kasıb, lakin gözəl əxlaqlı bir insan qiymətli deyil. Bu adamın ölməsinin cəmiyyətə faydalı olduğunu iddia etmək olar. Bununla belə, pis əxlaqlı, amma zəngin bir insan irqlərinin inkişafı üçün son dərəcə əhəmiyyətli görünür, şərtlərdən asılı olmayaraq, o adama böyük dəyər verilir.

Sosial darvinizmin ortaya qoyduğu bu səhv məntiq yığını bu düşüncəni müdafiə edənləri əxlaqi və mənəvi çöküntüyə sürüyür. Bir başqa sosial darvinist U. Q. Sumner isə 1879-cu ildə bu azğın cərəyanın yalanlarını belə

ifadə etmişdir:

*Bu alternativin xaricinə çıxa bilməyəcəyimiz artıq aydın olsun: bərabərsizlik, ən uyğun olanın həyatda qalması; bərabərlik, uyğun olmayanın həyatda qalması. İlk sayılan xüsusiyyətlər cəmiyyəti irəliyə apararkən cəmiyyətin bütün ən yaxşı üzvlərinin lehinədir; sonrakılar isə cəmiyyəti geriyə aparar və bütün ən pis üzvlərin lehinədir.*

(http://www.allston.org/josh/socialdarwinismf99.htm)

Sosial darvinizmin ən vəhşi tətbiqçiləri irqçilər idi. Darvinist irqçilər arasında ən təhlükəlisi, əlbəttə, nasist ideoloqları və hərəkatın lideri A. Hitler idi. Nasistlər Darvinin nəzəriyyəsini özlərinə əsas götürüb həm yevgeni (Darvinin əmioğlusu F. Qaltonun pis genlərin ayırd edilməsi ilə cəmiyyətin daha keyfiyyətli fərdlərdən yaradıla biləcəyinə bağlı iddiası) qanunlarını tətbiq etdilər, həm də soyqırım cinayətlərini reallaşdırdılar. Sosial darvinizmin ən ağır nəticəsi nasizmlə oldu. Nasistlər darvinist ifadələri sanki özlərinə haqq qazandırırmış kimi pərdə olaraq istifadə etdilər. Darvinist alimlərin məsləhəti ilə aşağı irq saydıqları yəhudiləri, qaraçıları, şərqi avropalıları soyqırıma uğratdılar; əqli xəstələri, şikəst və yaşlıları qaz otaqlarında qətl etdilər. Bütün bu cinayətləri ən amansız üsullarla reallaşdırdılar. 20-ci əsrdə dünyanın gözü qarşısında sosial darvinizm adına milyonlarla cinayət işləndi.

Darvinin əmioğlusu F. Qaltonun öndərliyi ilə başlayan yevgeni hərəkatı sosial darvinizmin ayrı bir fəlakət məhsulu olaraq ortaya çıxdı. Təbii seleksiyanı sürətləndirmək üçün insan əli ilə seçimin lazım olduğunu qarşıya qoyan və beləliklə, insan növünü daha sürətli inkişaf etdirəcəklərini zənn edən yevgeni tərəfdarları Amerikadan İsveçə qədər bir çox ölkədə özlərinə görə lazımsız gördükləri insanları zorla axtaladılar. Ailələrinin xəbəri və icazəsi olmadan yüz minlərlə insan öz razılığı olmadan adam yerinə qoyulmayıb əməliyyat edildi. Yevgeninin ən zalım tətbiqləri isə nasist Almaniyasında reallaşdı. Nasistlər əvvəl cəmiyyətdəki şikəstliyi, əqli çatışmazlığı və ya irsi xəstəliyi olan insanları axtaladılar; sonra bununla kifayətlənməyib bu məzlum insanları toplu şəkildə öldürməyə başladılar. Yüz minlərlə günahsız insan yalnız əli, barmağı, ayağı olmadığı və ya yaşlandığı üçün öldürüldü.



**Nasistlər zehni və ya irsi xəstəliyi olan uşaqları əvvəl axtaladılar, sonra qaz otaqlarında öldürməyə başladılar. Təkcə baş barmağı olmayan uşaqlar belə yevgeni proqramlarının hədəfinə çevrildilər.**

Heç şübhəsiz, bu, din əxlaqında qətiyyən yeri olmayan böyük zülm və vəhşilikdir. Allah insanlara ehtiyac içində olanları qorumağı əmr etmişdir. Kasıbların ehtiyaclarını

qarşılamaq; şikəst insanlara qarşı şəfqətli və mərhəmətli olmaq, onların haqlarını qorumaq; cəmiyyət içində köməkləşmə və həmrəyliyi təmin etmək din əxlaqının gərəyi olan gözəl əxlaq xüsusiyyətləridir. Allahın əmr etdiyi əxlaqı görməzlikdən gələnlər isə həm özlərini, həm də içində yaşadıqları cəmiyyətləri böyük fəlakətlərə sürüyür. Sosial darvinizmin səbəb olduğu bəlalar bu həqiqətin ən təəccüblü nümunələrindəndir.

Sosial darvinizmin sözdə əsaslılıq qazandırdığı fəlakətlərdən bir başqası da müstəmləkəçilikdir. Müstəmləkəçi dövlətlərin o dövrkü bəzi rəhbərləri müstəmləkələrə qarşı mərhəmətsiz mövqeyini sosial darvinizmin elm, ağıl və məntiq baxımından heç bir əsaslılığı olmayan tezisləri ilə özlərinə görə haqlı göstərməyə çalışdılar. "Aşağı irq"lərin "üstün irq" tərəfindən idarə edilməsinin lazım olduğunu, bunun təbiətin qanunu olduğunu iddia edib zülmə əsaslanan imperialist siyasətlərini sözdə elmi təmələ yerləşdirdilər.

20-ci əsrdə meydana gələn iki böyük dünya müharibəsində tərəflər sosial darvinizmin səhv məntiqlərindən istifadə edib müharibəni qaçılmaz hadisə kimi göstərməyə çalışdılar. Günahsız və yazıq insanların qətl edilməsini; evlərinin, işlərinin, tarla və heyvanlarının yandırılmasını; milyonlarla insanın ev-eşiyindən olmasını; körpə və uşaqların əhəmiyyət verilmədən öldürülməsini son dərəcə məntiqsiz sosial darvinist iddialarla insanlıq inkişafının yolu kimi tanıtmağa çalışdılar.

Nəticədə, sosial darvinizm 19-cu və 20-ci əsrdə irqçiliyin, müstəmləkəçiliyin, haqsız və mərhəmətsiz rəqabətin, güclünün gücsüzü əzməsinin və on milyonlarla insanın öldüyü müharibələrin arxa planındakı təhrikedici gücü oldu. Sosial darvinizmlə birlikdə əsrlərlə davam edən bir çox pislik sözdə elm qılığına büründü. Necə ki, təkamülçü paleontoloq S. J. Qouldun *"İnsanın səhv ölçüsü"* adlı kitabında Darvinin *"Növlərin mənşəyi"* kitabı üçün aşağıdakı şərhi də bu həqiqəti yenə diqqətə çatdırır:

*1859-cu ildə "Növlərin mənşəyi"*nin nəşr olunmasından sonra əsarət, koloniyalaşma, irq fərqlilikləri, sinfi strukturlar və cinsi rollar haqqındakı müzakirələr elm bayrağı altında aparılmağa başlandı.

(Stephen Jay Gould, *The Mismeasure of Man*, W.W. Norton and Company, New York, 1981, s. 72)

## DARVİN DƏ SOSİAL DARVİNİST İDİ

Hər nə qədər dövrümüzdə təkamülçülər Darvinin adını sosial darvinizmin 20-ci əsrdə səbəb olduğu acı nəticələrə qarışdırmamağa çalışsalar da, Darvin açıq şəkildə bir sosial darvinist olmuşdur. Xüsusilə *"İnsanın törəməsi"* adlı kitabında və xüsusi yazışmalarında dəqiq olaraq sosial darvinist ifadələrdən istifadə edirdi. Darvin hələ 1869-cu ildə yazıçı H.Tilə yazdığı bir məktubda nəzəriyyəsinin cəmiyyətlərə tətbiq olunmasında qorxu görmədiyini ifadə etmişdi:

*Növlərin dəyişməsi ilə əlaqədar baxış yönümə bənzər bəzi fikirlərin əxlaqi və sosial problemlər üzərində tətbiq olunduğunu görürəm. Bu mövzu ilə çox maraqlandığıma inanmalısan.*

(*The Life and Letters of Charles Darwin*, Editör: Francis Darwin, D. Appleton and Co., 1896, Vol. 2, s . 294)

Fransiskan Universitetində elm və ilahiyyat mövzusunda dərslər

verən, *"Əxlaqi darvinizm: necə həzçi olduq?"* adlı kitabın yazıçısı B. Viker özünün verdiyi bir reportajda Darvinin ilk sosial darvinist olduğunu ifadə edir və belə deyir:




Benyamin Vaykerin "Mənəvi Darvinizm" adlı kitabı

Bəyənin, yaxud bəyənməyin, Darvinin *"İnsanın törəməsi"* adlı kitabı oxunduğunda, əslində, ilk sosial darvinistin və müasir yevgeni hərəkatının atasının özü olduğu açıq şəkildə aydın olar. Sosial darvinizm və yevgeni birbaşa onun təbii seleksiya prinsipini əsas götürür.

*Mənə görə, insanların darvinizm və yevgeni kimi mövzular arasında əlaqələr quran bir insana etiraz etməsinin gerçək səbəbi nəzəriyyənin əxlaqi maraqlarla ləkələnməsini istəməməkləridir. Ancaq bu maraqlar yalnız mətnin içində deyil, darvinizmin ortaya çıxmasından indiyədək keçən yüz əlli illik dövrdə buraxdığı sosial və əxlaqi təsirlərin içində sübut edilmiş vəziyyətdədirlər.*

(http://www.touchstonemag.com/docs/issues/15.8docs/15-8pg43.htm)




Darvinin "İnsanın Törəməsi" adlı kitabı

Darvinin bir çox ifadəsi və şərhi onun sosial darvinist görüşlərin ilk qaynağı olduğunu açıq şəkildə göstərir. İndiki dövrdə təkamülçülər sosial darvinizmin 20-ci əsrdəki ürpərdici nəticələrinə görə bu fikirləri açıq qəbul etməkdən çəkinirlər. Ancaq sosial darvinizmin əsas amillərindən olan rəqabət, irqçilik, ayrı-seçkilik təkamül nəzəriyyəsinin təməlində də yer alır. Təkamülçülər qəbul etməsə də, darvinizmin mənimsənilməsi ilə ortaya çıxan nəticələr bunlardır. İnsanları təsadüflərin əsəri olaraq görən, onların bir az daha inkişaf etmiş heyvan növü olduğunu zənn edən, bəzi irqlərin digərlərinə görə az inkişaf etdiklərini, dolayısilə, heyvanlara daha yaxın olduqlarını, təbiətin mübarizə, rəqabət yeri olduğunu, güclülərin zəifləri əzməsi ilə insanlığın inkişaf edəcəyini iddia edən bir nəzəriyyənin faciəli nəticələr verməsi qaçılmazdır. Təkamülçülərin sosial darvinizmi rədd edirmiş kimi görünməsi həll deyil. Həll təkamül nəzəriyyəsinin elmi olaraq əsassız olduğunun qəbul edilməsindədir. Təmənnimiz bu nəzəriyyənin yanılmalarına aldananların da bu həqiqəti görməsidir.



**Müharibənin irq və millətlərin inkişafını təmin edən tələb kimi qəbul edilməsi darvinist fəlsəfənin müsibət gətirən nəticələrindən biridir. Ən qanlı müharibələrdən biri olan İkinci Dünya Müharibəsində xarabaya dönmüş Fransa küçələri bu fəlakəti göz önünə gətirir.**

## TƏBİƏT QANUNLARININ İNSANLARA TƏTBİQİ YANLIŞLIĞI

Darvin təkamül nəzəriyyəsini ortaya atdığında elm dünyası bir çox yöndən inkişaf etməmişdi. Hələ elektron mikroskop yox idi, dolayısilə, orqanizmlərin xüsusiyyətləri bilinmirdi. Hüceyrə sadə bir ləkə olaraq bilinir, bir çox orqanoiddən ibarət olan, ən az bir şəhər qədər kompleks quruluşa sahib olduğu bilinmirdi. Genetika elmi hələ yox idi, irsiyyət qanunları kəşf edilməmişdi. Bir çox bioloq və alim (bunlara Darvin də daxildir) qazanılmış xüsusiyyətlərin sonrakı nəslə köçürüləcəyini zənn edəcək qədər yanlış bilgilərə sahib idi. (Məsələn, nalbəndlik etdiyinə görə qol əzələləri güclənən atanın güclü qol əzələlərinə sahib oğulları olacağı kimi cahil inanca sahib idilər.) Darvin nəzəriyyəsini beləcə elmi olaraq primitiv mühitdə inkişaf etdirdi. Təkamül nəzəriyyəsinin materialist və ateist düşüncəyə zəmin yaratması bu nəzəriyyənin elmi cəhətdən zəif olduğuna baxmayaraq, elm dünyasının bir hissəsi tərəfindən dərhal mənimsənməsinə səbəb oldu. Nə Darvin, nə də tərəfdarı olan başqa təkamülçü təkamül nəzəriyyəsi üçün paleontologiya, biologiya və ya anatomiya kimi elm sahələrinin heç birindən dəlil təqdim etməmişdi. Bundan başqa, növbəti illərdə və xüsusilə 20-ci əsrin ikinci yarısında aparılan müşahidə və təcrübələr, əldə edilən yeni tapıntılar bu nəzəriyyənin tamamilə səhv olduğunu açıq şəkildə ortaya qoydu.

Ancaq təkamül nəzəriyyəsi elmi dayağı olmadığı halda, ehtiva etdiyi ideoloji mesajlar səbəbi ilə bəzi çevrələr tərəfindən sosial sahəyə də tətbiq olundu. Soyqırımlar, kütləvi qırğınlar, qardaşın qardaşı vurduğu vətəndaş müharibələri, onlarla ölkəni dağıdan böyük dünya müharibələri ilə keçən 20-ci əsrin simvoluna çevrilən fəlakətlərin təməlində yer aldı. Din əxlaqının insanlara qazandırdığı mərhəmət, şəfqət, köməkləşmə, sevgi, fədakarlıq kimi dəyərlər yerini yalnız güclülərin qazandığı, zəiflərin əzilərək ortadan qaldırıldığı meşə qanunlarına buraxdı. Elmi baxımdan heç bir əsaslılığı olmayan bir nəzəriyyə bütün əsri təsiri altına aldı.



Darvinin dövründə istifadə edilən primitiv mikroskoplar hüceyrəni sadə bir ləkə kimi göstərirdi.



Dövrümüzdə istifadə edilən mikroskoplar isə hüceyrənin nə qədər mürəkkəb və möhtəşəm quruluşa sahib olduğunu göstərir.

Sosial darvinistlərin ən böyük yanılmalarından biri elmi dəlili olmayan bir nəzəriyyəni sosial sahəyə tətbiq etməyə cəhd etmələri idi.

Sosial darvinistlərin başqa bir böyük yanılmaları isə heyvanlar üçün əsaslı olan qanunların insanlar üçün də əsaslı olduğunu zənn etmələridir. İnsanlar heyvanlardan fərqli olaraq şüur, ağıl, vicdan və mühakimə qabiliyyətinə sahibdirlər. Dolayısilə, sosial darvinistlərin iddia etdiyi kimi, meşə qanunlarına heç bir şəkildə tabe deyildirlər. Allah insanı ağıl, şüur və mühakimə qabiliyyəti ilə birlikdə yaratmışdır və hər insan həyatı boyu bu qabiliyyətlərindən ən yaxşı şəkildə istifadə etməklə məsuldur. Allah hər insanı müəyyən ömürlə yaratmışdır. Rəbbimizin təqdir etdiyi müddət sona çatdığında hər insan ölür, sonra da dünyada etdiyi hər bir əməlinin hesabını vermək üçün yenidən dirilir.

Təbiətdə bəzi canlılar içində olduqları şərtlərə uyğunlaşmadıqda ölə bilərlər və ya nəsilləri tükənə bilər. Məsələn, tünd rəngli dovşan qarla örtülmüş meşədə asan fərq edildiyindən qısa müddətdə başqa heyvan tərəfindən ovlanıb ölər. Amma bu vəziyyət darvinistlərin iddia etdiyi kimi, yeni növün meydana gəlməsini təmin etməz. Yəni ölən tünd rəngli dovşanların yerinə başqa növ, məsələn, açıq rəngli marallar meydana gəlməz. Ayrıca, insanlar heyvanlardan çox fərqlidirlər. İnsanlar yaşamaq üçün təbiət şərtlərinə uyğunlaşmaq məcburiyyətində deyildirlər. Əksinə, olduqları mühiti öz istək və ehtiyaclarına görə dəyişdirmək imkanı və qabiliyyətinə sahibdirlər. Məsələn, soyuq iqlimdə binalarını, istilik cihazlarını, paltarlarını iqlimə uyğunlaşdıra bilərlər. İnsan cəmiyyətlərində təbii seleksiya olmaz, çünki insan ağıl və qabiliyyətləri ilə bu cür seçimi önləyir.



**Bir cəmiyyətdə köməyə ehtiyacı olan insanlar pis rəftar görüb tərk edilirsə, bu -əgər bəhs edilən cəmiyyətdə din əxlaqının əsası olan səbir və bağışlama hakim deyilsə- cəmiyyətdə gərginliyə və nifrətə səbəb olar.**

Bu böyük yanılmalar sosial darvinistlərin cəmiyyətləri insanlıq xarici baxış yönü ilə qiymətləndirmələrinə səbəb olmuşdur. Zəiflərin, köməyə ehtiyacı olanların, gücsüzlərin, şikəstlərin tənha buraxılmaları ilə

cəmiyyətlərin irəliləyəcəyini düşünmələri bu ağıl və vicdan xarici dünyagörüşünün əhəmiyyətli nümunəsidir. Halbuki, eqoizm, zəif və möhtac insanlara kömək etməmək irəliləyiş deyil, gerilik gətirir. Çünki sosial darvinizmin köməksiz və möhtac vəziyyətdə buraxılmasının lazım olduğunu iddia etdiyi insanlar dərk edən, düşünən şüur sahibi insanlardır. Bu insanlar haqsızlıqla, zülmlə qarşı-qarşıya gəldiklərində, ehtiyac içində buraxıldıqlarında (əgər din əxlaqının insanlara qazandırdığı səbir, bağışlamaq, anlayış kimi dəyərlərə də sahib deyillərsə) özlərinə bu hərəkəti edənlərə qarşı böyük qəzəb və kin duyurlar. Qəzəblərini bildirmək üçün isə yaxın tarixdə də bir çox nümunəsi göründüyü kimi, şiddətə əl atırlar. Bu da böyük qarşıdurmalar və müharibələr doğurur. Bunun nəticəsində, bütün maddi və mənəvi imkanlar belə qarşıdurmaları yatırmağa xərcləndiyindən irəliləyiş deyil, əksinə, sənətdən texnologiyaya, iqtisadiyyatdan elmə qədər hər sahədə geriləmə yaşanır.

Bundan başqa, yevgeni tərəfdarlarının etdikləri kimi, xəstə və ya əlil insanların öldürülməsi həm vəhşilikdir, həm də bu vəhşiliyin cəmiyyətin irəliləməsinə təkan verməsi heç bir şəkildə mümkün deyil. Cinayətin bu qədər açıq şəkildə işlənməsinin və qəbul edilməsinin cəmiyyətdə meydana gətirdiyi müsibətlər böyük itkilər gətirir. Dövrümüzdə dünya əhalisinin təxminən altı faizi əlildir. Bu, böyük rəqəmdir və təxminən yarım milyard insan deməkdir. Belə vəziyyətdə hər insan ailəsindən və ya çevrəsindən bir çoxunu itirər, yaxınlarından ən az bir neçə adamın öldürülməsinə razılıq vermiş olar. Bunun gətirəcəyi ağır mənəvi yaralar insanların ruhi sağlamlığını və müvazinəti pozar, böyük əxlaqi çöküntünü özü ilə gətirər. Ananın uşaqlarına, uşaqların ata-analarına, qardaşın qardaşa güvənmədiyi, hər an birinin digəri haqqında ölüm razılığı verdiyi cəmiyyətdə çox ciddi degenerasiya və böhran yaşanacağı açıqdır. Ayrıca, insanların yalnız əlil olduqları üçün öldürüldükləri cəmiyyət onun, əslində, qorxunc əxlaqi çöküntü yaşadığını göstərir. Belə bir cəmiyyət bütün mənəvi dəyərlərdən məhrum olmalı, insanlığını tamamilə itirmiş olmalıdır. Cinayət yolu ilə insanlığı inkişaf etdirdiyini iddia etmək, heç şübhəsiz, çox ciddi zehni və ruhi problemlər yaşandığının əhəmiyyətli göstəricisidir.




**Sosial darvinist tətbiqlər insanlığa kin, nifrət, münaqişə, mübahisə, cinayət və müharibədən başqa heç nə gətirməmişdir.**

Şübhəsiz, ən böyük fəlakətlərdən biri də seçimə məruz edilən insanların çəkdiyi böyük acılardır. Bu acılar digər insanların da vicdanlarında böyük yaralar meydana gətirər.

Ç. Darvinin olduqca geri elm anlayışı ilə ortaya atdığı təkamül nəzəriyyəsinin cəmiyyətlərə tətbiq olunması ilə inkişaf edən sosial darvinizm tamamilə insan təbiətinə zidd olan, tətbiq olunduğunda insanlığı geri salan, alçaldan, böhran və xaosa sürüyən, qarışıqlıq, kin və nifrət gətirən, müharibələrə, cinayətlərə və qarşıdurmalara səbəb olan bir dünyagörüşüdür. Sosial darvinizm 19-cu əsrin ikinci yarısında və 20-ci əsrdə həqiqi mənada hakim olsa da, dövrümüzdə hələ bir çox sahədə mənfi təsirini göstərir. Təkamüli psixologiya, genetik determinizm kimi adlar altında cəmiyyətlər hələ də darvinizmin yanılmalarına görə qiymətləndirilir. 21-ci əsrin yeni fəlakətlərdən qorunması üçün sosial darvinizmin təhlükələri hər yönüylə insanlığa göstərilməli və ayrıca, bu fəlsəfəyə əsas təşkil edən təkamül nəzəriyyəsinin heç bir elmi dəlilinin olmadığı dünyaya izah edilməlidir.



**Geridə qoyduğumuz əsrdə yaşanan zülmlərin 21-ci əsrdə təkrarlanmaması və bu əsrin sülh və hüzur dolu olması üçün insanlar darvinizmin yalan və təhlükələri haqqında məlumata sahib olmalıdırlar.**

## MALTUSDAN DARVİNƏ MƏRHƏMƏTSİZLİYİN TARİXİ

Əvvəl də ifadə edildiyi kimi, *"Növlərin mənşəyi"* adlı kitabı yazarkən Darvinin fikirlərindən ən çox təsirləndiyi şəxslərin başında ingilis iqtisadçı və demoqraf Tomas Robert Maltus gəlirdi.

Maltus ilk nəşri 1798-ci ildə nəşr olunan *"Cəmiyyətin gələcək inkişafına təsirləri baxımından əhali qanunu üzərinə təcrübə"* adlı kitabında insan əhalisinin hər 25 ildə həndəsi silsilə ilə (2, 4, 8, 16, 32, 64, 128, 256...), yemək qaynaqlarının isə eyni müddət içində ədədi silsilə ilə (1, 2, 3, 4, 5, 6, 7, 8, 9...) artdığını iddia etmişdi. Yəni Maltusa görə, əhali hər 25 ildə ikiqat artarkən yemək qaynaqları daha az artırdı. Maltus üç əsrin içində əhalinin yemək qaynaqlarına nisbətinin 4096-ya 13 olacağını iddia etdi. Yəni Maltusun bu elmi olmayan iddiasına görə, qaynaqlar sürətlə artan əhali üçün qeyri-kafi qalır və həyatda qalmaq üçün ciddi mübarizə aparmaq sözdə qaçılmaz hala gəlirdi. Darvinin kitabının alt başlığında ifadə edilən iddia da bu idi: *Növlərin mənşəyi.... Əlverişli fərdlərin həyat mübarizəsində qorunması...*

Maltus təcrübəsində əhalinin sürətli artımının qarşısının alınmasının



TOMAS MALTUS

lazım olduğunu ifadə edib özünə görə bəzi çıxış yolları qarşıya qoydu. Maltusa görə, əhalinin artımına nəzarət edən iki təməl amil vardı: iztirablar və pis əxlaq. Qıtlıq və epidemik xəstəlik kimi hadisələr əhaliyə nəzarət edən iztirablar idi. Müharibə, yeni doğulan uşaqların öldürülməsi kimi hadisələr isə əhaliyə nəzarət edən digər amillər idi. Maltus müharibə, qıtlıq, xəstəlik və uşaq cinayətləri kimi hadisələrlə əhalinin sürətli artımının idarə ediləcəyini və bu sayədə əhalinin qida qaynaqları ilə balanslı hala gələcəyini yazmışdı. Ağıllı və vicdan sahibi hər insanın həmfikir olduğu kimi bu, həm ağıl və məntiq xarici, həm də son dərəcə vəhşi iddiadır. Cəmiyyətlərin rifah və hüzuru düşünülərək gəlir və dolanışıq qaynaqlarının doğru planlanması, əlbəttə, cəmiyyətlərin gələcəyi baxımından böyük əhəmiyyət daşıyır. Ancaq bir cəmiyyətin gələcəyini müharibə, qətliam və cinayətlərlə planlamağa cəhd etmək, əlbəttə, qəbul edilən vəziyyət deyil. Bunun cəmiyyətlərə acı və göz yaşı dolu fəlakətlər gətirəcəyi açıqdır.

Bununla belə, Maltusun başqa məntiqdən kənar təklifləri də var idi. Məsələn, işçi sinifindən və ya yoxsul dairədən evli cütlərin uşaq sahibi olmamağı üçün lazım olan bütün tədbirlərin alınmasının gərəkdiyini qarşıya qoymuşdu. Maltusun fikirləri 1834-cü ildə İngiltərədə kasıblar üçün xüsusi iş evləri qurulmasını təmin edən yeni qanunla zirvəyə çatdı. Bu qanunla iş evlərindəki əhali artımını azaltmaq üçün evli cütlərin qəti qaydalarla ayrı qalmaları təmin edilirdi.

Əslində, bu tətbiqlərin arxasındakı səbəblərdən biri keçmişdən indiyə gələn sözdə aşağı siniflərin davamlı artan əhalisinin daha mədəni insanları "tükədəcəyi" qorxusu idi. Əlbəttə, bu qorxu son dərəcə yersizdir və böyük yanılmanın məhsuludur. Əvvəlcə, bir insanın maddi vəziyyəti, cəmiyyətdəki mövqeyi və ya dili, irqi, cinsiyyəti səbəbiylə bir başqasına üstün olması söz mövzusu deyil. Allah bütün insanları bərabər yaratmışdır. İnsanları dəyərli edən sahib olduqları müxtəlif imkan və ya fiziki xüsusiyyətləri deyil, göstərdikləri gözəl əxlaq xüsusiyyətləridir.

Fransa inqilabının ardından əvvəlki etibar və gücünü əlində tuta bilməyəcəyi narahatlığını yaşayan ingilis burjuaziyası yoxsulların sayca artımını önləmək üçün maltusçuluğa böyük dəstək vermiş və bu istiqamətdə radikal tədbirlərin alınmasından çəkinməmişdir. Bu vəziyyət din əxlaqından uzaqlaşan insanların qapıldığı yanılmaların nəticələrindən biridir. Dövrün öndə gələnləri cəmiyyətlərinin gələcəyinin varlı insanların sayca çox olmasında və yoxsul olanların isə azalmasında olduğunu sanmışdılar. Əlbəttə, bir cəmiyyətdə varlı insanların sayının artması, rifah səviyyəsinin yüksəlməsi istənilən bir vəziyyətdir. Ancaq rifah səviyyəsini yüksəltmək üçün tətbiq olunan üsulların nələr olduğu son dərəcə əhəmiyyətlidir. Sosial

darvinizmin qarşıya qoyduğu kimi kasıbları qətl edib və yoxsullara zülm edib varlı insanların sayını artırmağa çalışmaq əsla qəbul edilməyən üsuldur. Ayrıca, cəmiyyətin inkişafı yalnız varlı insanların sayının artması ilə təmin edilməz. Varlı, amma din əxlaqının gərəyi olan dürüstlük, fədakarlıq, təvazö, səmimiyyət, səbir, tolerantlıq, ağıl, çalışqanlıq kimi dəyərlərdən məhrum olan insanların sayca çoxalmalarının cəmiyyətə fayda yerinə zərər gətirəcəyi hamıya məlumdur. Buna görə, cəmiyyətləri irəli aparmaq üçün qurulan planların hədəfə çatması o cəmiyyətin maddi olaraq inkişaf edərkən mənəvi dəyərlərə olan bağlılığının da gücləndirilməsi ilə mümkündür.



**Sosial darvinizmin azğın təlqinlərinə görə zəif, gücsüz, aciz insanlar ölümə tərk edilməlidir. Bu, dünya tarixinin gördüyü ən qəddar fəlsəfələrdəndir.**

Ancaq Maltusla eyni dövrdə yaşayan bir çox insan bu açıq həqiqətin fərqinə varmamış və cəmiyyətlərini sonrakı illərdə böyük əxlaqi çöküntüyə sürüyən bu azğın fikirlərə dəstək vermişdir.

Maltusun yoxsul əhalinin artmasını önləmək üçün qarşıya qoyduğu amansız təkliflərdən bəziləri bunlar idi:

*Yoxsul çevrələrə təmizliyi tövsiyə etməyin əvəzinə onları buna zidd olan vərdişlər yönündə cəsarətləndirməliyik.* ***Şəhərlərimizdəki yolları daha dar etməli, evləri daha izdihamlı yerlərə çevirməli və vəbanın yayılması üçün səy göstərməliyik. Çöllüklərdə kəndlərimizi durğun su kənarlarında tikməli, məskunlaşmanın bataqlıq sahələrdə və zərərli şərtlərdə də olsa, edilməsini təşviq etməliyik.*** *Ancaq hər şeydən kənar, zərərli xəstəliklər üçün alınan xüsusi tədbirləri və bəzi xəstəlikləri kökündən yox etmək üçün layihələr təşkil edib insanlığa xidmət etdiklərini düşünən xeyriyyəçiləri (ki, bu insanlar səhvə yol vermişlər) qınamalıyıq.* (Thomas R. Malthus, *An essay on the principle of population as it affects the future improvement of society*., Reprint, London:Reeves and Turner, (1798) 1878, s. 412)

Maltus uşaq cinayətlərini də təşviq edirdi:

*Ədalət və təqdir mövzuları ilə üsulən məşğul olmağımızın səbəbi yoxsulun dəstək istəmək haqqını rədd etmək üçündür. Bu məqsədlə, heç bir yeni doğulan uşağın kömək tələb etmək haqqına sahib olmadığının lazım olduğunu açıqlayıb gərəkli tənzimləmələrin edilməsini təklif etməliyəm. Müqayisə gərəkdirsə, (qeyri-qanuni) olaraq doğulan uşaq cəmiyyətdə çox az dəyərə malikdir, digərləri isə zamanla onun yerini alar.* ***Əhalini bu (arzu edilən) səviyyədə tutmaq üçün lazım olandan artıq doğulan bütün uşaqlar yetkinlərin ölümləri ilə onlara yer açılmadığı müddətcə ölməlidirlər.***

(Thomas R. Malthus, *An essay on the principle of population as it affects the future improvement of society*., Reprint.London:Reeves and Turner, (1798) 1878, s.411, 430-431)

Maltus cəmiyyətlərin gələcəyi üçün yeni doğulan uşaqların qətl

edilməsini məqbul görəcək dərəcədə azğın məntiqə sahib idi. Bu sətirləri oxuyan bəzi insanlar Maltusun görüşlərinin keçmişdə qaldığını və dövrümüzdə artıq belə azğın fikirlərin qəbul edilməyəcəyini düşünə bilərlər. Amma bu yanılmadır. Dövrümüzdə Çində əhali planlamasının yeni doğulan körpələrin öldürülməsi yolu ilə aparıldığı göz önünə gətirildikdə Maltusun və onun təqibçisi olan Darvinin azğın fikirlərinin cəmiyyətlərdəki qalıcı və korlayıcı təsirləri daha yaxşı aydın olar. Kommunist Çində din əxlaqının yaşanması dövlət tərəfindən əngəllənir, dövlət xalqı darvinist dünyagörüşü ilə qiymətləndirir. Buna görə də yaşanan böyük ictimai və əxlaqi çöküntü ilə yanaşı, Çində insanlar iş düşərgələrində bütün insani şərtlərdən məhrum olaraq zorla işlədilir; dövlətin icazə verdiyi saydan çox uşağa sahib olan ailələrin uşaqları zorla toplanıb öldürülür; fikir cinayəti səbəbi ilə insanlar edam edilir və edam səhnələri ictimai mərasim halına gətirilir. Çində yaşananlar darvinist düşüncələrin təsiri altında qalan cəmiyyətin içinə düşəcəyi vəziyyətin günümüzdən bir nümunəsidir.

Maltusun tezisləri İngiltərədə yoxsulların vəziyyətini daha da pisləşdirən zülmedici qanunun hazırlanması ilə bitmədi, ictimai problemləri daha da kompleks və çətin duruma gətirdi. İndiki dövrdə hələ bəzi çevrələrin müdafiə etdiyi darvinizm kimi 20-ci əsrə qarışıqlıq, müharibə, irqçilik və dinsizlik və s. bəlalar gətirən nəzəriyyəyə liderlik edən bu tezis heç bir elmi dəlilə əsaslanmır. Hətta Maltus tezisini ortaya qoyarkən keçi və itlər haqqında danışılan, nə qədəri doğru olduğu da bilinməyən bir hekayədən ilham almışdır.

## KEÇİLƏRİN VƏ İTLƏRİN HEKAYƏSİNDƏN DARVİNİZMƏ

Təcrübəni yazarkən Maltusa əsl ilham qaynağı olan hadisə Sakit okeanındakı bir adaya ispan dənizçi J. Fernandez tərəfindən buraxıldığı deyilən keçilərlə əlaqədar bir hekayədir. Hekayəyə görə, bu keçilər zamanla adada çoxalmış və adaya baş çəkən dənizçilər üçün yemək qaynağına çevrilmişlər. Keçilər bir tərəfdən sürətlə çoxalıb adadakı qida qaynaqlarını tükətməyə başlamışlar. İspanlar isə onlara hücum edib ticarətlərinə maneə olan ingilis əsgərlərinin bu adadakı keçilərdən faydalanmalarına əngəl olmaq üçün adaya erkək və dişi itlər buraxmışlar. Bu dəfə itlər zamanla çoxalmış və keçilərin bir çoxunu öldürmüşlər. Fransız riyaziyyatçı və inqilabçı C. Tounsend bu şəkildə təbiətin tarazlığının qurulduğunu yazmış və belə demişdir:

*İki növün ən zəifləri təbiətə borc ödəyənlərin ilki oldular; ən fəal və güclü olanlar həyatlarını qorudular. İnsan növünün də sayını təşkil edən yemək miqdarıdır.* (Karl Polanyi, *The Great Transformation*, Boston, Beacon Press, 1957, s.112)

Daha əvvəl də ifadə etdiyimiz kimi, bəzi təbii şərtlər heyvanların sayının artması və ya çoxalması, nəslinin tükənməsi və ya qorunması kimi mövzularda təsirli ola bilər. Ancaq bunun insan cəmiyyətləri üçün əsaslı olduğunu zənn etmək çox ciddi yanılmadır. Belə yanılmanı tətbiq etmənin nə qədər qorxunc nəticələrə yol açacağı yaşanmış təcrübələrlə sübut edilmişdir.

Tounsend bu düşüncələrini qüvvədə olan yoxsul qanununa tətbiq etmək

istədi. İngiltərədəki yoxsul qanununa görə kasıblar ac qalmırlar, ancaq çox işləməyə məcbur edilirlər. Tounsend isə kasıbları işləməyə məcbur edən bu qanunun daha çox çətinliyə və səs-küyə səbəb olduğunu qarşıya qoydu. Bunun yerinə kasıbları aclıqla yola gətirmənin daha məqbul olacağını iddia etdi. Tounsendə görə, aclıq ən vəhşi heyvanı belə itaətli edir, onlara mədəniyyəti və idarə altına girməyi öyrədir və onları işə təşviq edir. (Karl Polanyi, *The Great Transformation*, Boston, Beacon Press, 1957,s.112.) Əlbəttə, bu, çox amansız və vicdansız bir yanaşmadır. Bu mərhəmətsizliyin təməlində insanları maddi imkanlarına və fiziki xüsusiyyətlərinə görə təsnif etmə yanlışlığı yer tutur. Din əxlaqına heç bir şəkildə uyğun olmayan bu ayrı-seçkilik tarix boyu ictimai nizamı pozan, qarışıqlıq, anarxiya və qarşıdurmaya səbəb olan bir ünsür olmuşdur.

Keçilərin və itlərin hekayəsi Tounsendin ardından Maltusun tezislərinin də əsasını meydana gətirdi. Maltusdan sonra H. Spenser tərəfindən ortaya atılan *"ən uyğun olan həyatda qalır"* cümləsi ilə ifadə edilən yalanın və ardından Darvinin qarşıya qoyduğu *"təbii seleksiya ilə təkamül"* yanılmasının ilham qaynağı da yenə bu hekayədir.

Halbuki, daha əvvəl də vurğuladığımız kimi, heyvanlar üçün əsaslı olan bəzi qanunları insanlara tətbiq etmək Tounsendlə başlayan, Maltus, Spenser və Darvinlə davam edənlərin ən böyük səhvlərindən biri olmuşdur. Onlar insanları ancaq radikal və şiddətə dayanan tədbirlərlə və aclıq, müharibə və səfalət kimi amillərlə idarə edilən vəhşi varlıqlar kimi görmüşlər. Halbuki, insan ağıl, kamal, məntiq sahibi olan varlıqdır. Heyvanlar kimi instinktləri ilə deyil, ağıl və vicdanı ilə hərəkət edir.

## MALTUSUN İDDİALARI ELMİ MƏLUMATLARA ƏSASLANMIR

Maltusun nəzəriyyəsi bütün yanlışlıqlarına baxmayaraq, dövrün şərtlərində bəzi çevrələr tərəfindən qəbul edilmişdir. Və sonrakı əsri təsiri altına alan bəzi azğın ideologiya və cərəyanlara da əsas təşkil etmişdir. Bununla yanaşı, heç bir elmi dəlilə əsaslanmır və ziddiyyətlərlə doludur. Bunlardan bəziləri belədir:

*1. Maltus kitabını yazdığı dövrlərdə əlində əhalinin artımı ilə əlaqədar istifadə edəcəyi heç bir məlumat yox idi. Çünki İngiltərədəki ilk milli siyahıyaalma işi 1801-ci ildə, yəni Maltus təcrübəsini yazdıqdan 3 il sonra aparılmışdı. Bundan başqa, Maltus 1801-ci ildə aparılan siyahıyaalmadan istifadə edə bilməzdi, çünki əhalinin artım nisbətini hesablamaq üçün əvvəlki illərə aid əhali sayına da ehtiyac var idi. Dolayısilə, əhalinin artım nisbətini təyin edə biləcəyi etibarlı statistikaya sahib deyildi. İddialarını tamamilə fərziyyələrə əsaslandırmışdı.*

*2. Maltus yemək qaynaqlarının artım sürətini hesablamaq üçün müəyyən məlumatlara da sahib deyildi. Nə qədər ərazinin əkildiyini, nə qədərindən hansı miqdarda məhsul götürüldüyünü hesablayacağı üsul o dövrdə yox idi. Bu mövzuda yalnız təxminlər etmişdi.*

*3. Maltusun qarşıya qoyduğu qayda öz içində ziddiyyətli idi. Maltus əhalinin həndəsi olaraq artdığını qarşıya qoymuşdu. O zaman heyvan və*



**Allah insanlara möhtac olanları qoruyub saxlamağı, şəfqətli və mərhəmətli olmağı əmr etmişdir. Allahın əmr etdiyi əxlaqın yaşanması bir çox problemin həlli olacaq.**



*bitkilər də həndəsi olaraq artırdı ki, bilindiyi kimi, hər ikisi də insan həyatı üçün əsas təşkil edirlər. Praktikada nə insanlar, nə heyvanlar, nə də bitkilər həndəsi şəkildə çoxalmazlar. Artım nisbəti ətraf şərtlərə görə dəyişir. İnsan daxil olmaqla, bütün ekoloji sistem son dərəcə balanslı uyğunlaşma içindədir. Təbiətdəki nizam Maltus və Darvinin iddia etdiyi kimi, "ye və ya yem ol" şəklində yekunlaşdırılan, sözdə həyat mübarizəsi iddiasından son dərəcə uzaqdır.*

Qısası, Maltusun ortaya atdığı iddialar heç bir elmi dəlilə əsaslanmır, tam əksinə, səhvləri və məntiqsizlikləri isbat edilmişdir. Darvin isə təkamül nəzəriyyəsini Maltusun yalnız bəzi fərziyyələrə əsaslanan, xəyali iddiaları üzərinə qurmuşdur.

## "HƏYAT MÜBARİZƏDİR" İDDİASI DOĞRU DEYİL

Maltus və Darvinə olan bağlılıqları səbəbindən bəzi darvinistlər "həyat mübarizədir" düşüncəsini ən kritik nöqtələrə qədər aparıblar. Bəziləri yalnız heyvanların deyil, daxili orqanlardan molekullara qədər bütün varlıqların rəqabət içində olduqlarını iddia edirdilər. Məsələn, T. H. Haksli hər orqanizmin molekullarının bir-biri ilə rəqabət içində olduğunu irəli sürürdü. Alman embrioloq Vilhelm Ruks isə orqanların qida üçün bir-birləri ilə mübarizə apardıqlarını, böyrəklərin ciyərlərə, ürəyin beyinə qarşı mübarizə apardığını iddia etdi. (http://www.trufax.org/avoid/manifold.html)

20-ci əsrdə biologiya sahəsindəki nailiyyətlər isə təbiətdə belə bir həyat mübarizəsinin olmadığını göstərir. Bu gün biologiyada orqanizmdəki rəqabətdən deyil, iş birliyindən bəhs edilir. Məsələn, bioloq Levis Tomas "Lives of Cells" (Hüceyrələrin həyatı) adlı kitabında belə yazmışdır: Bildiyimiz kimi, canlı varlıqlar arasındakı birlik, əslində, kömək məqsədli, bir dərəcəyə qədər simbiotikdir (ortaq həyat tərzi); ümumiyyətlə, düşmənləri ilə qarşılaşdıqda, bir-birlərinə siqnal və xəbərdarlıq yolladıqları və birlikdə hərəkət etdikləri bir münasibət...

(L. Thomas, The Lives of a Cell, New York: Bantam Books INC., (1974))

Darvin Retried: An Appeal to Reason" (Darvin yenə mühakimə olundu: ağıla müraciət) kitabının yazıçısı Norman Makbet isə Maltus və Darvinin

yanıldığını və təbiətdə hər hansı bir mübarizənin olmadığını belə açıqlamışdır: Darvin bioloq olmaqdan çox (qəddar) sosioloq olan Maltusun bu fikrini inkişaf etdirdi. Bu fikir bitki və heyvanlara sevgi rəğbətinin nəticəsi olaraq ortaya çıxmadı. Bu tip düşüncə... hər üzvi varlığın geometrik nisbətlə çoxalmaq üçün böyük cəhd sərf etdiyini, ya da mübarizənin mövcud olduğunu göstərmir... (www.trufax.org/avoid/manifold.html)




**Norman Makbetin "Darvin yenidən mühakimə olundu: ağıla müraciət" adlı kitabı**

Təkamülçü Peter Kropotkin də heyvanlar arasındakı birlik mövzusuna toxunduğu "Mutual Aid: A Factor en Evolution" (Qarşılıqlı kömək: təkamüldə bir amil) adlı kitabında Darvin və tərəfdarlarının yanıldığını belə bildirir: Darvin və onun ardıcılları təbiəti canlıların davamlı şəkildə bir-biri ilə mübarizə apardığı yer kimi təsvir edirlər. Haksliyə görə heyvanlar aləmi qladiatorların şousuna bənzəyirdi. Heyvanlar bir-biri ilə mübarizə aparır, ən sürətli və ən hiyləgər olanı ertəsi gün mübarizə aparmaq üçün həyatda qalırdı. Ancaq, ilk baxışda, Hakslinin təbiətlə bağlı düşüncələrinin elmi olmadığı aydınlaşır… (Peter Kropotkin, Mutual Aid: A Factor of Evolution, 1902, I. Bölüm.)

"Elm və Texnika" jurnalında yayımlanan bir məqalədə isə təbiətin mübarizə meydanı olduğu iddiasındakı yanılma belə etiraf edilir: Problem canlıların niyə bir-birlərinə kömək etdikləridir. Darvinin nəzəriyyəsinə görə, hər canlı öz varlığını davam etdirib yaşaya bilmək üçün mübarizə aparır. Başqalarına kömək etmək o canlının sağ qalma ehtimalını azaltdığına görə, uzun zaman içində təkamül bu davranışı sıradan çıxarmalı idi. Halbuki, canlıların fədakar olduqları müşahidə olunmuşdur. (Bilim ve Teknik, sayı 190, s.4)

Bütün bu məlumatlar bir daha göstərir ki, Darvinin ibtidai elmi şərtlər altında ortaya qoyduğu nəzəriyyə böyük yanlışlıq və saxtakarlıqla doludur. Elmin demək olar ki, hər sahəsindəki yeniliklər Darvinin təkamül nəzəriyyəsinin əsassızlığını sübut edir. Bunu elm kimi mənimsəyənlər elmdən kənar ibtidai nəzəriyyəni müdafiə etdiklərini görməzlikdən gəlməməli və bu yanılmadan tez bir zamanda uzaqlaşmalıdırlar.

## MALTUSÇU DARVİN

Darvin Maltusun təcrübəsini 1838-ci ildə oxudu və qeyd dəftərinə belə yazdı:

*Oktyabr, 1838-ci ildə, yəni sistematik şəkildə araşdırmalarıma başladıqdan 15 ay sonra yalnız marağım olduğu üçün Maltusun əhali ilə əlaqədar işini oxumağa başladım. Və heyvanlarla bitkilərdə davamlı müşahidə etdiyim həyatda qalma mübarizəsini düşündüyümdə bir an fərqinə vardım ki, bu şərtlər altında uyğun variasiyalar qorunur və uyğun olmayanlar yox edilir. Bunun nəticəsində, yeni növlər ortaya çıxır. Burada sonradan*

*üzərində çalışacağım nəzəriyyəni sonda əldə etmişdim.*

(Sir Gavin de Beer, *Charles Darwin*, London: Thomas Nelson & Sons, 1963)

Darvinin qeydlərindən də aydın olduğu kimi, təbii seleksiya ilə təkamül və həyat mübarizəsi anlayışları Darvinin zehnində Maltusu oxuduqdan sonra şəkillənmişdir. Darvin *"Növlərin mənşəyi"* kitabında Maltusun iddialarını tamamilə mənimsədiyini bu sözləri ilə qəbul edirdi:

*Təbii olaraq yüksək sürətlə çoxalan hər orqanik varlıq əgər yox edilməzsə, dünya qısa müddət içində tək bir cütün soyu ilə örtülərdi. Bu, istisnasız bir qaydadır. Yavaş çoxalan insan əhalisi də son iyirmi beş ildə ikiqat artmışdır və bu nisbət göz önünə gətirildiyində önümüzdəki bir neçə min ildə insan soyu üçün, həqiqətən də, ayaq üstə duracaq yer qalmaz...*

(Charles Darwin, *On the Origin of Species By Means of Natural Selection*, London, 1859, (tekrar baskı 1964, Harvard University Press, Cambridge) s.64)



**Maltusun səhv məntiqi uşaqlar üzərində də tətbiq olunmuş və bir çox uşaq çətin şərtlər altında işlədilmişdir.**

Darvin Maltusun nəzəriyyəsi və təbii seleksiya tezisi arasındakı əlaqəni belə açıqlayırdı:

*Həyatda qalan fərd sayından daha çoxu dünyaya gəldikcə tək bir fərdin eyni növün digər fərdlərinə qarşı, yaxud fərqli növlərin fərdləri arasında, yaxud da fiziki şərtlərə qarşı hər halda bir həyat mübarizəsi olmalıdır. Bu, Maltusun təliminin müxtəlif dərəcələrdə bütün heyvan və bitki aləminə tətbiq olunmasıdır...* (Charles Darwin, *On the Origin of Species*, s. 117)

Darvinin Maltusun azğın fikirlərindən dəstək aldığı bu düşüncələri ciddi yanılmadır və elmi heç bir dəyərə sahib deyil. Bundan başqa, əhali planlamasını zəif və kasıbları ortadan qaldırmaqla təmin etməyi qarşıya qoyan və kifayət qədər güclü olmayanların yox olmalarının lazım olduğunu ifadə edən bu dünyagörüşü böyük zalımlıqdır. Necə ki, həyatı hüzuru, təhlükəsizliyi və anlayışı təməl alan bir sahə olaraq deyil, yalnız həyatda qalmağı, buna görə də amansız mübarizə aparmağı tələb edən sahə olaraq görən bu dünyagörüşü cəmiyyətlərə böyük fəlakətlər gətirmişdir.

## MALTUSDAN AMANSIZ DÜNYAGÖRÜŞÜNƏ

Maltus və Darvinin fikirləri elmi dəlillərə əsaslanmadığına baxmayaraq, böyük dəstək tapdı. Bunun səbəbini hər ikisinin də yaşadıqları dövrdə axtarmaq lazımdır. Maltus və Darvin sənaye inqilabından sonrakı dövrdə İngiltərədə yaşayırdılar. İngiltərə aristokratiyası sənaye inqilabı ilə yanaşı, mövqeyini və gücünü işçi sinifinə qarşı itirməkdən qorxurdu. Bir tərəfdən də ucuz işçi qüvvəsinə çox ehtiyacları var idi. Bu dilemma nəticəsində idarəçi sinifin öz səhv anlayışı ilə gəldiyi nəticə bu oldu: İngiltərədə "aşağı sinif" idarə altına alınmalı, əzilməli, gücləndirilməməli və işlədilməli idi. Maltus isə sürətlə artan əhaliyə qarşı qeyri-kafi qalan qida qaynaqları tezisini qarşıya qoyarkən həlli "aşağı sinif"in çoxalmasını dayandırmaqda göstərib həm yoxsulları təhdid edirdi, həm də onlara qarşı sərt tədbirlərin alınmasına səbəb olurdu. Darvin Maltusun tezisini təbiət elminə və biologiyaya tətbiq edib bu iddiaya sözdə elmi görünüş qazandırmışdı.



**Malthusa görə "aşağı sinif" nəzarət altına alınmalı, əzilməli, gücləndirilməməli və işlədilməlidirlər. Bu səhv görüş mənimsəndi və işçi sinfi ən ağır şərtlərdə işlədilməyə başlandı.**

R. Hofstadter *"Amerikan düşüncəsində sosial darvinizm"* adlı kitabında Darvinin Maltusun tezisinə verdiyi dəstək üçün belə demişdir:

*Maltusçuluq İngiltərədə çox məşhurlaşdı... Bu cərəyan, eyni zamanda, zənginləri kasıbların çəkdiyi acılara istiqamətli olaraq yerinə yetirmələri lazım olan vəzifələrindən qurtarmışdır. Hadisələrin axışında Maltusun səhvi sübut edildi və nəzəriyyə tam siyasi iqtisadiyyatda yavaş-yavaş ortadan qalxmağa başlamışdı ki, ona Darvinin bioloji yanaşmasından yeni dəstək gəldi.* (Richard Hofstadter, *Social Darwinism in American Thought*, s. 88)

Tədqiqatçı və yazıçı İ. Taylor isə Maltusla əlaqədar bir məqaləsində Maltusun tezisinin ehtiva etdiyi degenerativ fikirlər üçün belə deyir:

*Bütün bunlardan alınası dərs Allahı, Onun təqdirini və müdaxiləsini rədd edən Darvin və digərlərinin Maltusun prinsipində ağıza alınmayacaq və axmaq elmi təkliflərə yönəldən, dəhşət verici bir fəlakət və çarəsizlik tapmalarıdır. Maltusun arqumentindəki son dərəcə diqqəti cəlb edən zəiflik və çatışmazlıqlara baxmayaraq, bu, belədir.* (http://www.creationism.org/csshs/v04n3p18.htm)

Maltusun "amansız, ümidsizlik verən, axmaq" iddiası elm tərəfindən yalanlansa da, günümüzə qədər təsirini davam etdirmişdir. İ. Taylor "İnsanların zehnində" adlı kitabında Maltusla başlayan və Hitlerlə sona çatan bu mərhəmətsizlik zəncirini belə yekunlaşdırır:

*Maltus düşüncəsini daha sonradan "ən uyğun olan həyatda qalır" təması*



Ucuz iş gücünə ehtiyacı olan bəzi qruplar Maltusun batil fikirlərinə ilk sahib çıxanlar oldu.

*halını alan qaydaya söykədi. Bu anlayış Kondorketdən Maltusa, Spenserə, Uallasey və Darvinə qədər uzanır. Ən sonda A. Hitler kimilərinə təsir etmək məqsədi ilə sürətlə inkişaf etdi. Ancaq unutmamalıyıq ki, hər şeyin başında keçilərin və itlərin hekayəsi var idi.*

(Ian Taylor, *In the Minds of Men*, s. 65)

Göründüyü kimi, Maltusun zalım görüşlərinin dəstək görməsinin təməlində bunları öz mərhəmətsizliklərinə, mənfəətlərinə, azğınlıqlarına bir növ örtük kimi istifadə etməyi istəyən bəzi idarəçi və liderlərin, ideoloji qayğılar daşıyan bəzi qənaət öndərlərinin əhəmiyyətli payı olmuşdur. Söz mövzusu çevrələrin öz mənfəətləri uğruna dəstək verdikləri bu amansız dünyagörüşünün səbəb olduğu fəlakətlər isə tarixdə misli görülməmiş böyüklükdə olmuşdur. Növbəti səhifələrdə Maltusla başlayan bu amansız və mərhəmətsiz dünyagörüşünün sosial darvinizm adı altında necə gücləndirildiyini və insanlığa nəyə başa gəldiyindən bəhs edəcəyik.

## DARVİNİN TƏQİBÇİSİ "OĞRU BARONLAR"

19-cu əsrin sonlarında başlayan və günümüzə qədər davam edən bir çox təhlükəli fikir cərəyanının, ideologiya və tətbiqin arxasında darvinizmin olması son dərəcə maraqlıdır. Darvinizm bir-birinə zidd qütblərdəki ideologiyaların da əsas dayaq nöqtəsini meydana gətirir. Nasizm, faşizm və kommunizmin ortaya çıxıb yayılmasında, irqçi və kommunist qətliamların sözdə qanuniləşdirilməsində əhəmiyyətli rol oynayan darvinizm vəhşi kapitalizmin də sözdə elmi əsasını meydana gətirmişdir. Xüsusilə Viktoriya dövrünün İngiltərəsində və "oğru baronlar" olaraq adlandırılan bəzi mərhəmətsiz kapitalistlərin Amerikasında darvinizm kapitalizmin amansız yönünə verdiyi dəstək səbəbi ilə böyük rəğbət görmüş və gücləndirilmişdir.



Sosial darvinist əxlaqa görə, zərər çəkmiş və köməyə möhtac insanlara kömək əli uzatmaq olmaz. Şübhəsiz ki, bu, son dərəcə zalım bir fikirdir.

Vəhşi kapitalizmin ən əhəmiyyətli xüsusiyyəti daha zəif müəssisələrin və zəif insanların heç bir məhdudlaşdırma olmadan əzilməsi, istismar edilməsi və yox edilməsi yanılmasıdır. Heç şübhəsiz, bu, böyük zalımlıq və mərhəmətsizlikdir və heç bir şəkildə qəbul edilə bilməz. Dövrümüzdə bu yanılma "böyük balıq kiçik balığı udur" məsəli ilə ifadə edilir. Yəni kiçik müəssisələr daim böyük müəssisələr tərəfindən ortadan qaldırılır. Bu, darvinizmin iş dünyasına uyğunlaşdırılmasıdır.

Bunu təhlil edərkən bəzi məlumatları dəqiqləşdirmək yerinə düşər. 20-ci əsrdə dünyada xüsusilə iki fərqli iqtisadi model təcrübə edilmişdir: 1. Xüsusi mülkiyyət və sərbəst sahibkarlığa əsaslanan liberal iqtisadiyyat. 2. Dövlət mülkiyyətinə və planlı iqtisadiyyata əsaslanan sosial iqtisadiyyat. Dünyanın hər yerində sosial iqtisadiyyatlar müvəffəqiyyətsizliyə uğramış, cəmiyyətlərə kasıblıq və səfalət gətirmişdir. Liberal iqtisadiyyat isə mübahisəsiz şəkildə müvəffəqiyyət göstərmiş, cəmiyyətlərə və fərdlərə daha çox rifah gətirmişdir.

Ancaq liberal iqtisadiyyat cəmiyyətin ümumisinə rifah gətirmək üçün təkbaşına kafi deyil. Liberal iqtisadiyyat sayəsində çox vaxt cəmiyyətdəki ümumi iqtisadi səviyyə yüksələr, amma cəmiyyətin hamısı bu yüksəlişdən payını almaz. Cəmiyyətin bir qismi kasıb olaraq qalar və sosial ədalətsizlik təhlükəsi baş verər. Odur ki, bu təhlükənin önlənməsi və sosial ədalətsizliyin ortadan qaldırılması üçün iki şey mühümdür:

1) *Dövlətin "sosial dövlət" anlayışının gərəyi kimi kasıblara, düşkün və işsizlərə sahib çıxması. Onların faydası üçün tənzimləmələr etməsi.*
2) *Cəmiyyətin daxilində, din əxlaqının gərəyi olan "köməkləşmə və həmrəylik" duyğularının hakim olması.*

Bu iki maddədən xüsusilə ikincisi həyatidir, çünki birinci maddəni (yəni dövlətlərin anlayışını) təyin edən nəticədə cəmiyyətlərin təmayülləridir. Əgər bir cəmiyyət güclü dini və əxlaqi dəyərlər səbəbi ilə sosial ədalətə əhəmiyyət verərsə, o cəmiyyətdə tətbiq olunan liberal iqtisadiyyat həm iqtisadi inkişaf, həm də sosial ədalət gətirər. Zənginlər əldə etdikləri sərvətin bir qismini kasıblara kömək etmək, zəiflərə dəstək verməyə yönələn sosial proqramlar təşkil etmək üçün istifadə edərlər. (Necə ki, Allahın Quranda bildirdiyi iqtisadiyyat modeli də bu şəkildədir. İslamiyyətdə xüsusi mülkiyyət vardır, amma mülk sahibləri kasıblara kömək etməklə, mallarının bir qismini zəkat və sədəqə şəklində, ehtiyac sahiblərinə kömək üçün istifadə etməklə öhdəlik daşıyırlar.)

Əgər bir cəmiyyətin əxlaqi dəyərləri degenerasiya olmuşsa, onda liberal iqtisadiyyat kasıb və düşkünlərin heç bir kömək görmədiyi, əksinə, əzildiyi, hər hansı bir sosial kömək proqramının olmadığı, sosial ədalətsizliyin bir problem deyil, təbii bir vəziyyət olaraq görüldüyü vəhşi kapitalizmə çevrilər.

Burada təhlil edəcəyimiz iqtisadiyyat modeli də liberal iqtisadiyyat, yəni xüsusi mülkiyyət və rəqabətə əsaslanan sərbəst iqtisadi model deyil, vəhşi kapitalizmdir.

Vəhşi kapitalizmin ilham qaynağı növbəti səhifələrdə yazdığımız kimi, sosial darvinizmdir.

Darvinist tətbiqi iş dünyasına ilk gətirənlər Amerikada "oğru baronlar" olaraq adlanan bir çevrə idi. Oğru baronlar darvinizmə inanırdılar və darvinizmin "ən uyğun olanlar həyatda qalır" iddiasının öz mərhəmətsiz tətbiqlərini sözdə qanunilәşdirdiyini zənn edirdilər. (Matthew Josephson, *The Robber Barons*, New York, Harcourt and Brace, 1934) Nəticə isə iş dünyasında cinayətlərə qədər gedən amansız rəqabətin başlaması oldu. Oğru baronların tək hədəfi daha çox pul və güc qazanmaq idi. Cəmiyyətin rifahı ilə heç maraqlanmır, hətta öz işçilərinə belə dəyər vermirdilər. Darvinizmin iqtisadiyyata girməsi ilə milyonlarla insanın həyatı məhv oldu. Son dərəcə aşağı əmək haqları, çox ağır iş şərtləri, uzun iş saatları və heç bir təhlükəsizlik tədbirinin olmamağı işçilərin xəstələnməsinə, zədələnməsinə və hətta ölməsinə səbəb olurdu.



**Aclıq çəkən və ya müharibə və qarşıdurmalar üzündən kasıb olan ölkələrdəki zərər çəkmiş xalq imkanlı insanların yardımına möhtacdır. Ancaq sosial darvinist əxlaqda insanların bir-birinə kömək etməsi, ehtiyac içində olanların nəzərə alınması təşviq edilməz.**

## DARVİNİST SAHİBKARLARIN ZÜLMÜ

19-cu əsrdə İngiltərədə başlayaraq bütün dünyaya yayılan sənaye inqilabı ilə yanaşı, yeni fabriklər qurulmuş və bu fabriklərdə maşınlardan istifadə edilməyə başlanmışdı. Ancaq insan həyatına, xüsusilə də işçilərin həyatına heç bir dəyər verməyən bəzi müəssisə sahibləri lazımi təhlükəsizlik tədbirləri almadıqlarından tez-tez zədələnmələr olurdu. Bu zədələnmələrin çoxu ölümlə və ya əllərin, barmaqların, yaxud qolların qopması kimi ciddi əlilliklərlə nəticələnirdi. 1900-cu illərdə ildə bir milyon işçinin öldüyü, yaralandığı və ya xəstələndiyi müəyyən edilmişdi.

(Robert Hunter, *Poverty*, New York: Torchbooks, 1965)

Həyatı boyu fabrikdə çalışan bir işçi üçün orqanını itirmək demək olar ki, qaçılmaz bir son idi. İşçilər arasında aparılan araşdırmalar yarısından çoxunun iş həyatı boyunca qol və ayaq itkisindən görmə və ya eşitmə itkisinə qədər çox ciddi zədələndiklərini və ya xəstələndiklərini ortaya çıxarmışdı. Məsələn, sərt çıxıntılı papaq emal edən işçilər civədən zəhərlənirdilər. Radiumlu boyadan istifadə edən işçilərin demək olar ki, hamısı sonradan xərçəng olurdular.

(Jeanne Stellman, Susan Daum, *Work is Dangerous to Your Health*, New York, Random House Vintage Books, 1973)



Bəzi sahibkarlar iş şərtlərinin və yaşanan qəzaların tamamilə fərqində olmalarına baxmayaraq şərtləri yaxşılaşdırmaq üçün heç bir tədbir görmürdülər. Polad emal edən metaltökmə zavodlarında çalışan bir çox işçi 12 saatlıq növbələrdə, 40-50 dərəcə istilikdə və çox aşağı ödənişlərlə çalışırdı. (Otto Bettmann, *The Good Old Days! They Were Terrible!*, New York, Random House, 1974, s. 68) 1892-ci ildə ABŞ prezidenti B. Harrison orta hesabla bir amerikan işçinin hər gün müharibədəki əsgər qədər təhlükə ilə qarşı-qarşıya olduğunu söyləyib işçilərin məruz qaldığı insanlıq xarici müamilədən söz etmişdi. (Otto Bettmann, *The Good Old Days! They Were Terrible!*, s. 70)

**Sosial darvinist anlayışla idarə olunan iş yerlərində aşağı əmək haqqı, ağır iş şərtləri, uzun iş saatları və heç bir təhlükəsizlik tədbirinin olmaması işçilərin xəstələnməsinə, yaralanmasına və hətta ölümünə səbəb olurdu.**

Bəzi kapitalist iş adamları insan həyatını asan xərclənən kimi görürdülər. Təkcə dəmiryolu inşaatları əsnasında pis şərtlər səbəbi ilə yüzlərlə insan həyatını itirmişdi. (Howard Zinn, *A People's History of the United States*, New York, Harper Collins, 1999, s. 255) İnsan həyatına heç dəyər verilmədiyini göstərən ən təəccüblü nümunələrdən biri də amerikalı iş adamı J. P. Morqanın mərhəmətsizliyidir. J. P. Morqan bir ədədi 3.5 dollardan 5000 ədəd xarab tüfəng alıb biri 22 dollar olmaqla, ABŞ ordusuna satmışdı. Yəni öz dövlətinin ordusunu aldadıb öz əsgərlərinin həyatını təhlükəyə atacaq qədər əxlaqi dəyərlərini itirmişdi. Tüfənglərdəki pozuntu səbəbi ilə onlardan istifadə edən əsgərlərin baş barmağı qopurdu. (Howard Zinn, *A People's History of the United States*, s. 255) Bu tüfənglər üzündən yaralanan əsgərlər J. P. Morqanı məhkəməyə verdilər, lakin uduzdular. Çünki o dövrdə məhkəmələr, ümumiyyətlə, oğru baronların lehinə qərar verirdilər. (Otto Bettmann, *The Good Old Days! They Were Terrible!*, s. 71)







**19-cu əsrdə fabriklər və digər sənaye müəssisələri sosial darvinist və vəhşi kapitalist əxlaqın ən şiddətli tətbiqlərinin reallaşdığı yerlər idi. Bu azğın əxlaqa sahib iş verənlər işçilərinin həyatını çox dəyərsiz görür, yalnız öz mənfəətlərini düşünürdülər.**

Dövrün kapitalist sahibkarlarından birisinin özünə işçiləri üçün qoruyucu dam tikməsini söyləyənlərə işçilərin kirəmitlərdən daha ucuz olduğu cavabını verməsi dövrün mərhəmətsizliyinin bir başqa nümunəsidir.

(Otto Bettmann, *The Good Old Days! They Were Terrible!*, s.71)

Bütün bu zalımlığın təməli araşdırıldığında darvinizmin təsiri açıq şəkildə görünür. İnsanı özlərinə görə bir heyvan növü kimi qəbul edən, bəzi insanların daha az inkişaf etdiyini, həyatın mübarizə yeri olduğunu və yalnız gücün qazandığı yalanını qəbul edən bir dünyagörüşünün nəticələri, əlbəttə ki, mərhəmətsizlik, amansızlıq və əziyyətdir.

## DARVİNİZMİN İŞ DÜNYASINDAKI TƏXRİBATI



**19-cu əsrdə uşaqlara belə mərhəmətsiz davranılırdı. Uşaqlar uzun saatlarla yorucu işlərdə işlədilirdilər.**

Vəhşi kapitalizmin müdafiəçiləri olan iş adamlarının bir çoxu, əslində, Allaha inanan kəslər kimi yetişdirilmişdilər. Ancaq sonradan darvinizmin saxta təlqinlərinin təsiri altında qalıb inanclarını tərk etmək yanlışlığına düşdülər. Məsələn, 19-cu əsrdə polad sənayesinin öndə gələn adlarından məşhur amerikalı iş adamı A. Karneci əvvəllər xristianlığa bağlı idi, ancaq sonradan darvinizmin hiyləsinə aldanmışdı. Karneci avtobioqrafiyasında özünün və bir çox yoldaşının darvinizmin təsirinə necə düşdüyünü açıq şəkildə ifadə edirdi.

Halbuki, Karnecinin həqiqət kimi gördüyü təkamül nəzəriyyəsi başdan sona böyük hiylə və saxtakarlıqdan ibarət idi. Növbəti illərdə elm dünyasında yaşanan inkişaflar bu hiylənin həqiqi üzünü gözlər önünə gətirdi. Necə ki, o dövrdə bir çox insan kimi bəzi iş adamları da hələ bu həqiqəti anlaya bilməmişdilər. Karneci ilə eyni səhvə yol verən başqa iş adamları da darvinist təlqinlər nəticəsində vəhşi kapitalizmi qəbul etmişdilər. Bu vəziyyət daha çox pul qazanmaq üçün amansız rəqabət aparmağı, insanların həyatına dəyər verməməyi, fədakarlıqdan qaçmağı məqbul görməyə səbəb oldu.

Darvinizm yanılmasına düşən Karneci rəqabəti həyatın vazkeçilməz qanunu sanmış və bütün həyat fəlsəfəsini bu yanılmanın üzərinə qurmuşdu. Rəqabət qanununun, bəzi insanlar üçün çətin olsa da, irq üçün ən yaxşısı olduğunu və bu sayədə yalnız uyğun olanların həyatda qaldığını iddia edirdi.

(Kenneth Hsu, *The Great Dying; Cosmic Catastrophe, Dinosaurs and the Theory of Evolution*., New Yokr, Harcourt, Brace, Jovanovich, 1986, s. 10)

Karnecini ilk olaraq darvinizmlə tanış edənlər Nyu York Universitetindən bir professorun evində qarşılaşdığı yeni insanlıq dini axtarışında olan sözdə azad və aydınlanmış mütəfəkkirlər idi. (Joseph F Wall, *Andrew Carnegie*, New

York, Oxford University Press, 1970, s. 364 ) Karnecinin yaxın çevrəsindəkilərdən biri də Darvinin təqibçilərindən və sosial darvinizmin ən əhəmiyyətli adlarından H. Spenser idi. Spenser bir çox öndə gələn amerikalı iş adamını təsiri altına almışdı. Söz mövzusu iş adamları içində olduqları şərtlərin təsiri ilə Spenser və Darvinin azğın düşüncələrini mənimsəyir, bunun özlərini və yaşadıqları cəmiyyəti necə bir çətinliyə sürüyəcəyini düşünə bilmirdilər.



Amerika təbiət tarixi muzeyinin antropoloqu və *"Təkamül ensiklopediyası"*nın yazıçısı R. Milner dövrün iş adamlarının darvinizmin təsirinə düşmələrindən bəhs edərkən Karnecinin darvinizmlə olan əlaqəsini belə bildirir:

*...Karneci ticarət həyatında insanı və dünyanı istismar edən, rəqabətdə əzib keçən və etdiklərini sosial darvinizm fəlsəfəsi ilə qanuniləşdirən, güclü və mərhəmətsiz iş adamı olmaq yolunda yüksəldi. Təşəbbüskar rəqabətin zəifləri ortadan qaldırıb cəmiyyətə xidmət göstərdiyinə inanırdı. İş həyatında həyatda qalmağı bacaranlar "uyğun idi" və buna görə, status və mükafatlarına layiq idilər. Karneci kapitalist əxlaqını təbiət qanunu halına gətirdi.* (Richard Milner, *Encyclopedia of Evolution: Humanity's Search for Its Origin*, New York, Facts on File, 1990, s. 72)

Karneci və onun kimi düşünən iş adamlarının güclü və mərhəmətsiz olmağı ticarətin bir parçası kimi görmələri böyük bir səhvdir. İnsanların dolanışıqlarını təmin etmələri, rahat və komfortlu həyat yaşamaları üçün ticari fəaliyyət göstərmələri son dərəcə təbiidir. Ancaq bu əsnada digər insanların zərər görməsinə səbəb olmaq, öz mənfəətləri uğruna digər insanların çətin vəziyyətdə qalmasına göz yummaq, öz gücünü artırmaq üçün daha zəif olanları əzməyə cəhd etmək heç bir şəkildə qəbul edilə bilməz. Allah insanlara hər mövzuda olduğu kimi, ticarətdə də dürüst və doğru davranmalarını, ehtiyac içində olanların haqlarını qorumalarını əmr etmişdir. Gücsüz olanları əzib, hətta onları tamamilə ortadan qaldırmağı hədəfləyib cəmiyyətin faydası məqsədini qarşıya qoymaq isə böyük yalandan başqa bir şey deyil.


ANDRE KARNECİ

Karneci növbəti illərdə də söhbət və çıxışlarında, həmçinin kitab, məqalə və fərdi yazışmalarında həmişə darvinist ifadələrə yer vermişdir. Tarixçi F. Cozef *"Andre Karneci"* adlı kitabında bu mövzuda belə deyir:

*Karneci yalnız nəşr olunan məqalə və kitablarında deyil, eyni zamanda, dövrünün iş adamlarına yazdığı xüsusi məktublarında da sosial darvinist inanc sisteminə tez-tez isnad edirdi. "Ən uyğun olanın həyatda qalması", "fərdin inkişafı" və "həyat mübarizəsi" kimi cümlələr qələmindən asanlıqla çıxırdı. Ticarəti böyük rəqabətçi mübarizə kimi qiymətləndirirdi.*

(Joseph F Wall, *Andrew Carnegie*, s.389)

Sosial darvinizmin təlqinləri altında qalanlardan biri də məşhur amerikalı sənaye sahibi J. D. Rokfeller idi. Rokfellerin "Ticarətin böyüməsi yalnız uyğun olanın həyatda qalması... bir təbiət qanununun həyata keçməsidir..." (William Ghent, *Our Benevolent Feudalism*, New York, Macmillan, 1902, s. 29)



JOHN D. ROCKEFELLER

Darvinizmin iş dünyasına təsirinin ən nəzərə çarpan nümunələrindən birini Spenserin Amerika səyahətində görmək mümkündür. R. Hofstadter *"Amerikan düşüncəsində sosial darvinizm"* adlı kitabında bu hadisəni belə açıqlayır:

*Hər nə qədər qonaqları Spenserin düşüncəsindəki incəlikləri tam olaraq anlaya bilməsələr də, rəsmi ziyafətlər onun Birləşmiş Ştatlarda nə qədər məşhur olduğunu göstərirdi. Spenser İngiltərəyə dönmək üçün gəmi göyərtəsində ikən Karneci və Youmansın əllərini tutaraq jurnalistlərə belə səsləndi: "Budur, amerikalı ən yaxşı iki yoldaşım". Spenserə görə, bu hərəkət hiss etdiyi xüsusi istiliyin nadir təkrarlanan göstəricisi idi. Ancaq, bundan başqa, ticari mədəniyyətin düşüncəsi ilə yeni elmin (sosial darvinizmin) uyğunlaşmasını işarə edirdi.*

(Richard Hofstadtler, *Social Darwinism in American Thought*, s. 49)

Bəzi kapitalistlərin sosial darvinizmi mənimsəmələrinin səbəblərindən biri də bu cərəyanın yanlış təlqinlərinin kasıbların məsuliyyətini varlı insanların üzərilərindən götürməsi idi. Əxlaqi dəyərlərin qorunduğu cəmiyyətlərdə zəngin olanların kasıb və qorunmağa möhtaclara maraq göstərməsi, onlara kömək etməsi gözlənilərkən, sosial darvinizmin mərhəmətsiz tətbiqləri ilə bu dəyər ortadan götürülməyə çalışılırdı. Elmi yazıçı İ. Asimov *"Qızıl qapı: 1876-cı ildən 1918-ci ilə Birləşmiş Ştatlar"* adlı kitabında sosial darvinizmin bu mərhəmətsiz yönü üçün belə açıqlama vermişdir:

*Spenser "ən uyğun olan həyatda qalır" ifadəsini ortaya atdı və məsələn, 1884-cü ildə işləyə bilməyəcək xüsusiyyətə malik olan və ya cəmiyyətə yük olan insanlara kömək və xeyriyyəçilik etməkdənsə, öldürülmələrinə icazə verilməsinin lazım olduğunu müdafiə etdi. Bunu etmək üçün uyğun olmayan fərdləri ayırd etmək və irqi gücləndirmək lazım idi. Bu, insanın ən pis hədəfini qanuniləşdirmək üçün istifadə edilən qorxunc bir fəlsəfə idi.*

(Isaac Asimov, *The Golden Door: The United States from 1876 to 1918*, Boston, Houston Mifflin Company, 1977, s.94)

Vəhşi kapitalizmi tətbiq edən adlar darvinizmi dəstəkləyərkən darvinistlər də söz mövzusu insanları dəstəkləmişlər. Məsələn, sosial

darvinizmin öndə gələn nümayəndələrindən U. Q. Sumner milyonerlərin cəmiyyətdəki "ən uyğun kəslər" olduqları iddiasını ortaya atmışdır. Və bu səbəblə xüsusi imtiyazlara haqlarının olduğu, onların rəqabət putasında təbii olaraq seçildikləri kimi məntiqdən kənar fikirlər irəli sürmüşdür. (Richard Milner, *Encyclopedia of Evolution*, 1990, s.412) Fəlsəfə professoru S. Asma sosial darvinizmlə əlaqədar *"The Humanist"* jurnalındakı bir yazısında Spenserin kapitalistlərə verdiyi dəstəyi belə açıqlayır:

*Spenser "ən uyğun olan həyatda qalır" ifadəsini ortaya atdı, Darvin də bu ifadəni mənimsəyib "Növlərin mənşəyi" kitabının sonrakı nəşrlərində istifadə etdi... Spenserin amerikalı tərəfdarları olan təşəbbüskarlar J. D. Rokfeller və A. Karneciyə görə, sosial iyerarxiya təbiətin sarsılmaz və ümumdünya qanunlarını əks etdirirdi. Təbiət güclünün həyatda qaldığı, zəifin isə yox olduğu şəkildə inkişaf edirdi. Buna görə, həyatda qalan iqtisadi və sosial strukturlar digərlərinə nisbətən daha güclü və daha yaxşı idilər. Bu strukturların kifayət qədər güclü olmayanları isə açıq şəkildə yox olub getdilər.*

(Stephen T. Asma, "The New Social Darwinism: Deserving Your Destitution.", *The Humanist*, 1993, 53(5), s. 11)

Halbuki, daha əvvəl də vurğuladığımız kimi, cəmiyyətlərin inkişafını təmin edən ana ünsür mənəvi dəyərlər və bu dəyərlərin qorunmasıdır. Köməkləşmə və həmrəylik ruhunun güclü olduğu, insanların bir-birinə sevgi, mərhəmət və hörmətlə yanaşdığı cəmiyyətlərdə iqtisadi şərtlərdəki çətinliklər birlik ruhu içində asanlıqla həll edilə bilər. Amma insani əlaqələrin ortadan qalxdığı, hər kəsin başqasını yalnız rəqib olaraq gördüyü, mərhəmətin və anlayışın olmadığı bir cəmiyyətdə iqtisadi yöndən inkişaf olsa da, daha böyük zəiflədici və dağıdıcı problemlər başlayar. Buna görə də cəmiyyətdəki bütün fərdlərin rifah səviyyəsini və həyat keyfiyyətini artıran işlər görüb insanların yalnız iqtisadi olaraq deyil, mənəvi yöndən də güvənlikdə olacağı mühit meydana gətirmək lazımdır. Bunun isə ancaq həqiqi din əxlaqının yaşanması ilə mümkün olacağı müəyyəndir. Din əxlaqına uyğun olmayan heç bir cərəyan və ideologiya keçmişdə və dövrümüzdə bir çox nümunəsi ilə isbat edildiyi kimi, insanlara həsrətində olduqları rifah, hüzur və etibarı əsla verə bilməzlər.

## SOSİAL DARVİNİZMİN VƏ DİNSİZLİYİN ORTAQ MƏHSULU: VƏHŞİ KAPİTALİST QURULUŞ

Bura qədər bildirilənlərdən aydın olduğu kimi, 19-cu əsrdə ortaya çıxan mərhəmətsiz kapitalistlər tətbiqlərini darvinizmə əsaslandırmışlar. Yalnız güclü və zəngin olanların yaşamaq haqqı olduğunu müdafiə edən və kasıb, zəif, şikəst və xəstələrin "işə yaramaz yük" olduqlarını və dolayısilə, mümkün olduğu qədər istismar edilmələrinin lazım olduğunu iddia edən darvinist kapitalistlər 19-cu əsrdən etibarən bir çox ölkədə zülm sistemi qurmuşlar. Bu mərhəmətsiz rəqabət mühitində insanları əzmək, qorxutmaq, yaralamaq, hətta öldürmək belə qanuni sayılmış, hər cür əxlaq və qanun xarici hərəkət "təbiətin qanunlarına uyğun" sayıldığı üçün qarşısı alınmamış və ya qınanmamışdır.





**Dünyanın sərvətləri bütün insanlar üçün kifayətdir. Ancaq bu ehtiyatlar ağıllı və vicdanlı bir şəkildə istifadə edilmir. Dünyanın bir çox yerində yeməklər israf edilərkən, bir çox ölkədə insanlar aclıq və səfalətdən ölürlər. Bu insanların ədalət, sevgi və şəfqət görməyi üçün sosial darvinist anlayışı tamamilə ortadan qaldırılmalıdır.**

**"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə** *(heç) (bir)(şey)* **verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir."** (Nur surəsi, 22)

Bu sistem dövrümüzdə də din əxlaqının yaşanmadığı bir çox ölkədə davam edir. Zənginlə kasıbın arasındakı fərqin gedərək artan bir sürətlə çoxaldığı bu ölkələrdə ehtiyac içində olan insanların yaşadığı şərtlər görməməzlikdən gəlinir. Sosial darvinizmin batil təlqinlərinə görə, kasıbların qorunması və onlara baxılması təbiət qanunlarına zidd qəbul edildiyi və bu insanlar cəmiyyətə yük olaraq görüldükləri üçün, düşkünlərə və kasıblara kömək əli uzadılmır.

Yalnız bir ölkədəki insanların rifah səviyyəsi deyil, ölkələr arası rifah səviyyəsi də böyük fərqliliklər göstərir. Xüsusilə qərb ölkələrində rifah səviyyəsi gedərək artarkən, bir çox üçüncü dünya ölkəsində aclıq, xəstəlik, səfalət və yoxsulluq hökm sürür, insanlar baxımsızlıqdan və aclıqdan ölürlər. Halbuki, ağıllı və vicdanlı şəkildə istifadə edildiyi təqdirdə dünyanın qaynaqları bütün insanlara rifah təmin etməyə çatacaq qədər boldur.

Dünya qaynaqlarından ədalətli şəkildə istifadə edilməsi, kasıb və baxıma möhtacların, aclığa və yoxsulluğa tərk edilənlərin insani şərtlərdə yaşamalarının təmin edilməsi üçün darvinizmin bütün dünyadakı fikri təsirinin yox edilməsi şərtdir. Darvinist görüş və anlayışın yerini Quran əxlaqını mənimsəyən bir anlayış aldığında bu cür problemlər təbii olaraq həll




19-cu əsrin ikinci yarısında İngiltərədən insan mənzərələri. Bir təbəqə rifah və zənginlik içində, bir başqa təbəqə isə böyük səfalət içində yaşayırdı.

ediləə. Çünki sosial darvinizm zəiflərin əzilməsini, "böyüklərin kiçikləri udmasını", mərhəmətsiz rəqabəti insanlara təlqin edərkən, din əxlaqında mərhəmət, qoruma, köməkləşmə, həmrəylik, paylaşma vardır. Məsələn, Peyğəmbər əfəndimiz bir hədisi-şərifində: "Yanındakı qonşusu ac ikən tox yatan adam (yetkin) mömin deyil", - buyurur. (Ibn Ebi Şeybe, Kitabü'l-İman (neşr:el-bani) s.33; El-Bânî, Silsiletü'l-ehâdisis'sahîha, I, 69-71; Hakim ve Beyhaki, 250, H.no:190.) Peyğəmbər əfəndimizin bu hikmətli sözləri müsəlmanların şəfqət və mərhəmətlərinin göstəricilərindən biridir.




**Aradan bir əsr keçməsinə baxmayaraq, dəyişən bir şey olmadı. Halbuki, dünyanın imkanları bütün insanların rahatlıq içində yaşayacaqları qədər genişdir. Edilməsi gərəkən din əxlaqına uyğun olan fədakarlıq, köməkləşmə və həmrəyliyin yayılmasını təmin etməkdir.**

Allah bir çox ayəsində insanlara sevgi, mərhəmət, şəfqət və fədakarlığı əmr etmiş, müsəlmanların gözəl əxlaqlarından nümunələr vermişdir. Sosial darvinizmdə varlı olanların yoxsulları və möhtacları əzməsi, onların üzərinə basaraq yüksəlməsi kimi bir zülm olduğu halda, İslam əxlaqında varlı olanların möhtac olanları qorumaları əmr edilir. Rəbbimizin bu mövzuda bildirdiyi ayələrdən bəziləri belədir:

**Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah** *(lütfü ilə)* **Genişdir, Biləndir!** (Nur surəsi, 22)

**Səndən** *(Allah yolunda)* **nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir..."** (Bəqərə surəsi, 215)

**Onlardan özünüz də yeyin, məzlum yoxsullara da yedirdin!** (Həcc surəsi, 28)

**O kəslər ki, namazlarını həmişə qılırlar. O kəslər ki, onların mallarında məlum bir haqq vardır- dilənən və** *(həya edib)* **dilənməyən miskinlər üçün.** (Məaric surəsi, 23-25)

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər** *(və deyərlər)*: **"Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!"** (İnsan surəsi, 8-10)

Allah Quranda yoxsula və zəifə kömək etməyənlərin cəhənnəmlə qarşılıq görəcəklərini də bildirir:

**Günahkarlar barəsində. Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik.** (Muddəssir surəsi, 41- 44)

**Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi, və (heç kəsi) kasıbı yedirtməyə rəğbətləndirmirdi. Bu gün burada onun üçün bir dost tapılmaz.** (Haqqə surəsi, 32-35)

Bu əhəmiyyətli həqiqəti unutmaq olmaz: hər kəsə qazancını və müvəffəqiyyətini verən, bütün varlığın sahibi və bütün kainatın hakimi olan uca Allahdır. Bir insan "həyat mübarizəsində" var gücü ilə rəqabət etdiyi, gücsüzləri əzərək gücləndiyi üçün zəngin olmaz. Hər insana bütün mal varlığını verən Allahdır. Allah zənginliyi insanlar arasında onları sınamaq üçün paylayır. Zəngin bir insan həqiqətdə bu mal varlığı ilə sınanır. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Biz yer üzündə olan hər şeyi onun özünə məxsus bir bəzək timsalında etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.** (Kəhf surəsi, 7)

Bu durumda insana düşən məsuliyyət Allahın özünə nemət olaraq verdiyi bütün imkanları Allahın özündən razı olacağı şəkildə ən gözəli ilə qiymətləndirməkdir. Səmimi olaraq iman edən insan sahib olduğu hər cür

imkanın Allahın bir lütfü olduğu, Rəbbimiz dilədiyi təqdirdə sahib olduğu hər şeyi özündən ala biləcəyi kimi, istəyərsə, daha çoxunu da verə biləcəyinin düşüncəsi ilə hərəkət etməlidir.

## SOSİAL DARVİNİZM VƏ ƏLVERİŞLİ FƏRDLƏR YALANI

Dünya tarixinin bir çox dövründə irqçi cəmiyyətlərə, idarəçilərə və tətbiqlərə rast gəlmək mümkündür. Ancaq irqçiliyə ilk dəfə sözdə elmi əsaslılıq qazandıran Darvin olmuşdur. Darvinin "Növlərin mənşəyi" adlı kitabının alt başlığı "Həyat mübarizəsində əlverişli fərdlərin qorunması" idi. Darvinin "əlverişli fərdlərin qorunması" haqqında yazdıqları və xüsusilə "İnsanın törəməsi" kitabındakı elmdən kənar iddiaları almanlardan aryan irqinin, ingilislərdən isə anqlo-saksonların üstün olduğu yanılmalarını dəstəkləyirdi. Ayrıca, Darvinin təbii seleksiya nəzəriyyəsi var gücü ilə həyatda qalma mübarizəsindən danışırdı. Bu "meşə qanunu" insan cəmiyyətlərinə tətbiq olunduğunda irqlər və millətlər arasında qarşıdurma və müharibələrin baş verməsi qaçılmaz idi. Necə ki, elə də oldu. İrqçi və hərbçi idarəçilərdən fəlsəfəçilərə, siyasətçilərdən elm adamlarına qədər dövrün öndə gələn bir çox adı Darvinin nəzəriyyəsini mənimsədi. Şimali Karolina Universitetinin tarix bölməsindən professor K. A. Şloynes "Auşvitsə gedən dolaşıq yol" adlı kitabında irqçilərin Darvinin nəzəriyyəsini dərhal qəbul etdiklərini belə açıqlayır:

*Darvinin həyatda qalma mübarizəsi fikri irqçilər tərəfindən sürətlə qəbul edildi... Ən son (sözdə) elmi düşüncələrin qanunilaşdirdiyi belə bir mübarizə irqçilərin müdafiə etdiyi yüksək və aşağı insan anlayışının doğruluğunu sübut etdi... və bunlar arasındakı mübarizəni əsaslı etdi.*

(Karl A. Schleunes, *The Twisted Road to Auschwitz* (Urbana, Illinios, University of Illinois Press, 1970), s. 30, 32; Jerry Bergman, *Eugenics and Nazi Racial Policy*, s. 118)




**1863-cü ildə şallaqlanaraq işgəncə görən və sonra qaçmağı bacaran bir zənci kölə. Bu illərdə Amerikada kölələr, ümumiyyətlə, şallaqlanır və ya daha ağır üsullarla işgəncə görürdülər.**

Şloynesin kitabında bəhs etdiyi *"Darvinin nəzəriyyəsinin irqçilərin insan sinifləri ilə əlaqədar fikirlərini təsdiqləməsi"* mövzusu, əlbəttə, irqçilərin dünyagörüşünü əks etdirir. İrqçi fikirləri müdafiə edənlər Darvinin ortaya atdığı iddialarla azğın fikirlərinə özlərinə görə elmi dayaq tapdıqlarını zənn etmişlər. Halbuki, Darvinin iddialarının heç bir elmi əsası olmadığı kimi, qısa müddət sonra nəzəriyyənin əsassızlığının şəxsən elm tərəfindən gözlər önünə gətirilməsi irqçilərin və Darvinin cəhalət dolu fikirlərini əsas alan daha bir çox cərəyanın yanıldıqlarını göstərmişdir.

20-ci əsrdə darvinizmdən aldığı dəstəklə irqçiliyi ən şiddətli şəkildə tətbiq edən güc, əlbəttə ki, nasist Almaniyasıdır. Lakin sözdə

"elmi" irqçiliyin inkişaf etdiyi tək yer Almaniya olmadı. Başda İngiltərə və Amerika olmaqla, bir çox ölkədə irqçi görüşə sahib idarəçi və ziyalıların sayı getdikcə artarkən, bir tərəfdən də irqçi qanun və tənzimləmələr baş verdi.

19-cu əsrdə və 20-ci əsrin əvvəllərində təkamülçülərin demək olar hamısı irqçi düşüncələrə sahib idi. Bir çox elm adamı irqçi fikirlərini açıq şəkildə müdafiə etməkdən çəkinmirdi. O dövrdə yazılan kitab və məqalələr bunun ən dəqiq nümunələridir. Cənubi İllinoys Universitetində tarix professoru olan J. S. Hallar *"Təkamüldən məhrum buraxılanlar: irqi alçaldılmağa elmi baxış"* adlı kitabında 19-cu əsrdə təkamülçülərin hamısının ağ irqin üstünlüyü və digər irqlərin isə aşağı irq olduqları yalanına inandıqlarını bildirir. *"Scientific American"* jurnalında bu kitab haqqında yazılan bir məqalədə belə deyilir:

*Bu, uzun müddətdir haqqında şübhələr olan bir mövzunu dəlilləndirən son dərəcə əhəmiyyətli kitabdır: şimali amerikalı elm adamlarının 19-cu əsr boyu (və 20-ci əsrdə də) köklü və qatı şəkildə demək olar ittifaqla qəbul etdikləri irqçilik... Hələ ən əvvəldən Afrika mənşəli amerikalılar bu ziyalılar tərəfindən bəzi yönlərdən islah edilə bilməz, dəyişdirilə bilməzdilər və tamamilə aşağı olaraq qiymətləndirilirdilər.*

(Sidney M. Mintz, *American Scientist*, vol.60, Mayıs/Haziran 1972, s. 387)

*"Science"* jurnalında nəşr olunan başqa yazıda isə eyni kitabdakı bəzi iddiaları belə şərh edirdi:

*Viktoriya dövründə yeni olan şey darvinizm idi... 1859-cu ilin əvvəlində bir çox elm adamı qaraların ağlarla eyni növdən olub-olmadığını araşdırmışdı. 1859-cu ildən sonra təkamüli plan (xüsusilə afrikalı amerikalıların ağlarla olan yaxın əlaqələrindəki mübarizələrində həyatda qalıb-qala bilməyəcəkləri kimi) yeni sualların ortaya atılmasına səbəb oldu. Son dərəcə əhəmiyyətli olan cavab hər yerdə əks-səda doğuran "xeyr" idi... Afrikalı aşağı idi, çünki meymunlarla tevtonlar arasındakı "itmiş halqanı" təmsil edirdi.* (John C. Burham, *Science*, vol.175, 4 Şubat 1972, s. 506)

Şübhəsiz, bu, heç bir həqiqət payı olmayan bir iddiadır. İnsanların dərilərinin fərqli rənglərdə olması, fərqli irq və ya etnik mənşələrə mənsub olması birini digərindən daha üstün və ya daha zəif edən vəziyyət deyil. 19-cu əsrdə bu yanılmanın hakim olmasının əsas səbəblərindən biri dövrün primitiv elmi şərtləri səbəbi ilə əksəriyyətə hakim olan cəhalətdir.

19 və 20-ci əsrin irqçi fikirləri ilə tanınan elm adamlarına verilə bilən nümunələrdən bir başqası Prinston Universitetindən amerikalı bioloq E. Q. Konklindir. Konklin digər irqçi darvinistlər kimi, yanlış fikirlərini açıq ifadə etməkdən çəkinməmişdir:

*Hər hansı bir müasir irqin neandertal və ya heydelberq tipləri ilə müqayisə edilməsi bunu göstərir... Zənci irqlər ağ və sarı irqlərdən çox orijinal irqə (meymunabənzər atalara) bənzəyir. Hər amil ağ irqin üstünlüyünə inananları irqin saflığını qorumaq, digərlərindən seçilməsini gücləndirmək və davam etdirmək üçün səy göstərməyə yönəltməlidir.*

(Edwin G. Conklin, *The Direction of Human Evolution,* New York, Scribner's, 1921, s. 34)

Oksford Universitetindən paleontologiya və geologiya professoru

U. Sollas 1911-ci ildə nəşr olunan *"Qədim ovçular"* adlı kitabında irqçi fikirlərini belə ifadə etmişdi:

*Ədalət güclünün əlindədir və hər irqə gücü nisbətində paylaşdırılmışdır. Bir torpağı işğal etmək üçün birincilik mənası daşımadığına baxmayaraq, orada haqq tələb etməyi təmin edən gücdən istifadədir. Buna görə, mümkün olan hər yolu sınayıb gücün artırılmasına getmək hər irqin olduğu qədər, insan soyunun da özünə qarşı bir vəzifəsidir. İstər elm, istər təhsil, istərsə də müdafiə təşkilatlanması sahələrində olsun, orqanik dünyanın güclü, lakin lütfkar hökmdarı olan təbii seleksiyanın bunu sürətlə və sona qədər reallaşdırmamağı, birbaşa bu vəzifənin yerinə yetirilməməyi bir cəza olacaq.*

(http://www.ncl.ac.uk/lifelong-learning/distrib/darwin/08.htm)

Bunu ifadə etmək lazımdır ki, ədalətin güclü olana aid olduğunu söyləmək ictimaiyyət və cəmiyyətlər arası böyük xaoslara gətirib çıxaran ciddi yanlışlıqdır. Ədalət şərtləri və imkanlarından asılı olmayaraq rənginə, dilinə və cinsiyyətinə baxılmadan bütün insanların bərabər olaraq faydalanmasının lazım olduğu bir anlayışdır. Həqiqi ədalət də budur. Darvinist irqçilərin önə sürdüyü kimi, "ədalətin yalnız güclü olanlar üçün əsaslı olduğu" iddiası doğrunu heç bir şəkildə əks etdirməyən haqsızlıq və ədalətsizlikdir. Bundan başqa, unutmaq olmaz ki, hər fərd özü və içində yaşadığı cəmiyyət üçün hər şeyin daha gözəlini, daha yaxşısını, daha keyfiyyətlisini əldə etməyi istəyə bilər. Bunun üçün xüsusi əmək də sərf edə bilər. Amma bunu edərkən başqalarına zərər verməyi gözə almaq heç bir şəkildə doğru deyil. Bunun əksini iddia etmək həm ağıla, həm də vicdana ziddir.

Növbəti tarixlərdə irqçi olmadıqlarını söyləyən təkamülçülərin yazılarında da (təkamülə olan inanclarının təbii nəticəsi kimi) irqçi görüşlərə rast gəlinir. Bunlardan biri olan təkamülçü paleontoloq C. Q. Simpson hər nə qədər özünə irqçi deyilməsinə qəti qarşı çıxsa da, "Science" jurnalında nəşr olunan bir məqaləsində təkamül nəticəsində irqi fərqliliklərin meydana gəldiyini və bəzi irqlərin digərlərinə görə daha inkişaf etmiş və ya daha primitiv olduqlarını iddia etmişdir:

*Təkamül fərqli birliklərdə fərqli sürətlərdə irəliləyir. Buna görə, bir çox heyvan qrupunda bəzi növlər daha yavaş təkmilləşir. Dolayısilə, bu növlər bu gün bəzi xüsusiyyətləri və hətta ümumi quruluşları baxımından daha primitivdirlər. Bir çoxlarının soruşduğu kimi, insan irqləri içərisində bənzər şəkildə bir yöndən və ya ümumiyyətlə, primitiv olanların olub-olmadığını soruşmaq təbiidir. Əslində, bir irqdə bir xüsusiyyətin digərinə nisbətlə daha inkişaf etmiş və ya daha primitiv olduğunu tapmaq mümkündür.*

(George Gaylord Simpson, "The Biological Nature of Man", *Science*, vol.152, 22 Nisan, 1966, s. 475)

Simpson tərəfindən ifadə edilən bu batil görüş heç bir elmi dayağının olmadığına baxmayaraq, fərqli çevrələr tərəfindən ideoloji qayğılarla mənimsəndi. Dövrün digər elm adamları da yazılarında, çıxışlarında və kitablarında təkamül nəzəriyyəsinin elmdən kənar iddialarını müdafiə edərkən bir tərəfdən də irqçiliyə dəstək verirdilər. 20-ci əsrin birinci yarısının öndə gələn irqçi və təkamülçü antropoloqlarından və o dövrün "Amerikan təbiət tarixi" muzeyinin rəhbəri H. Osborn da "İnsan irqlərinin təkamülü"

**20-ci əsrin ortalarına doğru irqçilik ABŞ-ın bəzi bölgələrində yenidən yüksəlməyə başladı. Şiddətə əsaslanan bir ideologiyaya sahib olan Klu Klux Klan təşkilatı ABŞ-da irqçiliyin qabaqcıl müdafiəçilərindəndir. Ağ irqin üstünlüyü yalanını müdafiə edən və qaraların sözdə ikinci sinif insan olduqları yalanını qarşıya qoyan bu təşkilatın fəaliyyəti bir çox günahsız insanın həyatını itirməsinə səbəb oldu.**



başlıqlı yazısında irqlər arasında müqayisələr aparıb heç bir elmi dəlilə əsaslanmayan bəzi nəticələr qarşıya qoymuşdur:

*Orta hesabla yetkin bir zəncinin zəka standartı homo sapiens (insan) növünə aid on bir yaşındakı bir gənc ilə bənzərdir.* (Henry Fairfield Osborn, "The Evolution of Human Races," *Natural History*, Ocak/Şubat 1926; ikinci kez yayınlanışı *Natural History*, vol. 89, Nisan 1980, s. 129)

Bu elm adamlarının ifadələrində də göründüyü kimi, 19 və 20-ci əsrdə təkamülçü elm adamlarının çoxu irqçi idi və bu azğın görüşlərinin daşıdığı təhlükələr görməməzlikdən gəlinirdi. Amerikalı elm adamı C. Ferquson 19-cu əsrdə başlayan sözdə elmi təkamüli irqçiliyin dünya üzərindəki korlayıcı təsiri haqqında bunları deyir:

*19-cu əsr Avropasında irq anlayışı inkişaf edən bəşəri elmlər üçün narahatlıq ünsürü idi... İlk fiziki antropoloqlar 1930-cu illərdə Almaniyada və günümüzdə cənubi Afrikada ənənəvi irqçiliyi qızışdıran "Aryan üstünlüyü" anlayışının inkişafına kömək etdilər.*

(James Ferguson, "The Laboratory of Racism", *New Scientist*, vol. 103, 27 Eylül 1984, s. 18)

Təkamülçü S. C. Qould bir məqaləsində təkamülçü antropoloqların irqçi fikirləri üçün belə demişdir:

*İrqlərin təyin olunması və dərəcələndirilməsi mövzusundakı istəyini qiymətləndirmədikcə... 19-cu əsrin sonunun və 20-ci əsrin əvvəlinin antropoloji tarixini kifayət qədər anlaya bilmərik.*

(Stephen Jay Gould, "Human Equality is a Contingent Fact of History", *Natural History*, vol.93, Kasım 1984, s. 28)

Təkamül nəzəriyyəsinin sözdə elmi əsaslılıq qazandırması ilə 19-cu və 20-ci əsr elm adamları çəkinmədən və tərəddüd etmədən "aşağı irqlər", "insanlardan çox meymunlara daha yaxın olan irqlər" kimi xəyali anlayışlardan bəhs etmişdilər. Hitler kimi zalım irqçi diktatorlar isə bu mühiti fürsət bilib milyonlarla insanı özünə görə "aşağı", "qeyri-kafi", "qüsurlu", "xəstə" olduqları üçün qətl etdilər.

## DARVİN DƏ İRQÇİ İDİ



Darvinistlərin aşağı irq olaraq gördükləri aborigenlər digər insanlardan fərqi olmayan bir irqdir. Sağda 2000 Olimpiya atəşini alovlandıran aborigen mənşəli məşhur atlet Keti Friman.

20-ci əsr irqçiliyin amansızlığına və mərhəmətsizliyinə çox şahid olduğu üçün dövrümüzdə təkamülçülərin böyük əksəriyyəti 19-cu əsr təkamülçülərinin əksinə, irqçiliyə qarşı olduqlarını söyləyirlər. Darvinin adını da irqçilik iddialarından özlərinə görə təmizləməyə çalışırlar. Darvinlə əlaqədar yazıların bir çoxuna baxsaq, Darvinə sözdə köləliyə qarşı çıxan, şəfqətli, yaxşı niyyətli, mərhəmətli bir insan olduğu təəssüratı vermək üçün xüsusi səy göstərildiyini görə bilərik. Halbuki, Darvin həqiqi mənada irqçidir və təbii seleksiya nəzəriyyəsinin insanlar arasında irq ayrı-seçkiliyinə və irqlər arasındakı qarşıdurmaya bir elmi səbəbin olduğu yanlışlığına inanır. Darvinin kitablarında, bəzi məktublarında və xüsusi qeydlərində irqçiliyinə dair açıq ifadələr vardır. 19-cu əsrin təkamülçülərinin demək olar ki, hamısının irqçi olduqlarının ən əhəmiyyətli səbəblərindən biri fikri öndərləri olan Darvinin də irqçi görüşlərə sahib olmasıdır. Məsələn, Darvin *"İnsanın törəməsi"* adlı kitabında zəncilər və aborigenlər kimi bəzi irqlərin sözdə aşağı irqlər olduqlarını və həyatda qalma mübarizəsində gələcəkdə elənib ortadan qalxacaqlarını iddia etmişdir:

*Bəlkə də yüz illər sürməyəcək yaxın zamanlarda mədəni insan irqləri vəhşi irqləri tamamilə yer üzündən siləcək və onların yerinə keçəcəklər. Digər tərəfdən insanabənzər meymunlar da, şübhəsiz, elənəcəklər. Bu minvalla, insanla ən yaxın qohumları arasındakı boşluq daha da genişlənəcək. Bunun sayəsində ortada indiki avropalılardan daha mədəni olan irqlər və indiki zəncilərdən, Avstraliya yerlilərindən və qorillalardan belə daha geridə olan əntər növlü meymunlar qalacaq.*

(Charles Darwin, *The Descent of Man*, 2. baskı, New York, A L. Burt Co., 1874, s. 178)

Darvin yuxarıdakı sözlərində bəzi irqləri qorillalarla bir tutmuş, "mədəni insan irqləri"nin "vəhşi irqləri" yox edəcəyini, onları yer üzündən tamamilə siləcəyini iddia etmişdir. Yəni Darvin yaxın gələcəkdə meydana gələcək soyqırımlardan, irqi qətliamlardan danışır. Necə ki, Darvinin bu fəlakət dolu "uzaqgörənliyi" reallaşmış, təkamül nəzəriyyəsini özlərinə sözdə elmi dəstək olaraq görən irqçilər 20-ci əsrdə böyük qətliamlar törətmişlər. Nasistlərin İkinci Dünya Müharibəsində təxminən 40 milyon insanı qətl etməsi, Cənubi-Afrikadakı "apartheid" sistemi (Cənubi-Afrika hökuməti tərəfindən tətbiq olunan avropalı irqlərin digərlərinə görə imtiyazlara sahib olması sistemi), Avropada türklərə və digər xaricilərə yönələn irqçi hücumlar, ABŞ-da

zəncilərə, Avstraliyada isə aborigenlərə yönələn irq ayrı-seçkiliyi Avropanın bir çox ölkəsində zamanla çoxalan neo-nasist hərəkatları həmişə darvinizmin irqçiliyə verdiyi sözdə elmi dəstəkdən istifadə edib güc tapmışdır.

Darvinin irqçi ifadələri bununla da məhdudlaşmır. Məsələn, *"Növlərin mənşəyi"*ndən əvvəl nəşr olunan *"Biqlin səfəri"* adlı kitabında Biql adlı gəmi ilə etdiyi səfərdə qarşılaşdığı Tierra del Fueqo (odlu torpaq) yerlilərini az inkişaf etmiş, geri qalmış insan irqləri olaraq adlandırmış və belə demişdir:

*Bu, istisnasız həyatım boyunca müşahidə etdiyim ən qəribə və ən maraqlı mənzərə idi (Tierra del Fueqo yerlilərini ilk dəfə görmək). Bir vəhşi ilə mədəni insan arasındakı fərqin belə böyük olduğuna inanmazdım. Fərq vəhşi heyvanla ev heyvanı arasındakı fərqdən daha böyükdür. Əminəm ki, bütün dünyanı axtarsaq, bundan aşağı səviyyəli insana rast gəlmərik.*

(Charles Darwin, *The Voyage of the Beagle*, (edited David Amigoni, London: Wordsworth, 1997), Bölüm 10, "Tierra Del Fuego")




**Darvinin "The Voyage of the Beagle" (Biqlin səfəri) adlı kitabı**

Darvin özünə görə barbar kimi səciyyələndirdiyi Pataqoniya yerlilərini isə belə təsvir edir:

*... Bəlkə də heç bir şey insanı barbarı öz yuvasında görmək qədər təəccübləndirməz. Bu insanın ən aşağı və ən vəhşi halıdır. İnsanın ağlı keçmiş əsrlərə doğru gedir və sonra soruşur ki, atalarımız bunlar kimi insanlar ola bilərmi? Hərəkətləri və ifadələri əhliləşdirilmiş heyvanlardan daha az aydın olurdu... Vəhşi və mədəni insan arasındakı fərqi tərif və ya təsvir etməyin mümkün olduğuna inanmıram.* (Charles Darwin, *The Voyage of the Beagle*, s.477)

Darvin yazdığı bir məktubunda yenə Tierra del Fueqo yerlilərini belə təsvir etmişdir:

*Tierra del Fueqoda çılpaq, rəngli, tir-tir əsən və görünüşü insanı sanki dəli edən vəhşi insanı ilk gördüyümdə atalarımın az-çox buna bənzər varlıqlar olduqlarının lazım olduğunu düşündüm. Onda bu mənə çox iyrənc gəlmişdi. Hətta bu mənə indiki inancım olan müqayisə edilməyəcək qədər uzaq atalarımın tüklü vəhşi heyvanlar olduğu fikrindən belə daha iyrənc gəlmişdi. Meymunlar təmiz ürəkli heyvanlardır. (Darvinin Ç. Kinqsleyə məktubu)* (http://www.ncl.ac.uk/lifelong-learning/distrib/darwin/08.htm)

Bütün bu sözlər Darvinin irqçiliyinin əhəmiyyətli göstəriciləridir. Darvin bəzi insan irqlərini tamamilə alçaltdığı halda, meymunları "təmiz ürəkli heyvanlar" ifadəsi ilə insanlaşdırır və təriflәyirdi. Darvinin irqçiliyinin göstəriciləri yalnız bunlar deyildi; aşağı irqlərin yox edilməsinin lazım olduğunu, bunun təbii seleksiyanın nəticəsi olduğunu və mədəniyyətin inkişafına böyük təkan verəcəyini açıq şəkildə müdafiə edirdi. Darvin bu ağıl və vicdan xarici düşüncələrini iyul, 1881 tarixində V. Qraham adlı alimə

yazdığı məktubunda belə dilə gətirirdi:

*Təbii seleksiyaya əsaslanan müharibənin mədəniyyətin inkişafına sizin zənn etdiyinizdən daha çox fayda verdiyini isbat edə bilərəm. Düşünün ki, bir neçə əsr əvvəl Avropa türklər tərəfindən işğal edildiyində Avropa millətləri nə qədər böyük risk altında qalmışdı, amma artıq bu gün Avropanın türklər tərəfindən işğalı bizə nə qədər gülünc gəlir. Avropa irqləri kimi bilinən mədəni irqlər həyat mübarizəsində türk barbarlığına qalib gəlmişlər. Dünyanın çox da uzaq olmayan gələcəyinə baxdığımda bu cür aşağı irqlərin çoxunun mədəniləşmiş yüksək irqlər tərəfindən yox ediləcəyini görürəm.*

(Francis Darwin, *The Life and Letters of Charles Darwin*, Vol. I, 1888. New York, D. Appleton and Company, s.285-286)

Göründüyü kimi, Darvinin irqçi hədyanları yüksək əxlaqa və şanlı tarixə sahib türk millətinə qədər uzanmışdır.

Darvin öz azğın düşüncələrinə görə aşağı irq olaraq gördüyü millətlərin yox edilməsini nəzərdə tutaraq həm təkamül nəzəriyyəsinin irqçiliyə verdiyi dəstəyi göstərir, həm də 20-ci əsrdə meydana gələn irqi müharibələrin, qətliam və soyqırımların sözdə elmi təməlini meydana gətirirdi.

Təkamülçülər böyük səylə Darvinin adının irqçiliklə yanaşı çəkilməsini önləməyə çalışsalar da, Harvard Universitetindən S. C. Qould *"Növlərin mənşəyi"* kitabına isnad edib Darvinin irqçiliyə verdiyi dəstəyi qəbul edir:

*1859-cu ildən əvvəl irqçilik haqqında bioloji müzakirələrə rast gəlmək mümkündür, lakin təkamül nəzəriyyəsinin qəbul edilməsi ilə bunlar böyük əhəmiyyət qazanıb artdılar.*

(Stephen Jay Gould, *Ontogeny and Phylogeny*, Cambridge, Mass: Harvard University Press, 1977, s. 12752.)

Yalnız Darvin deyil, T. Haksli kimi təkamül nəzəriyyəsinin ən öndə gələn müdafiəçiləri də irqçi idi. Haksli Amerika vətəndaş müharibəsindən qısa müddət sonra zənci kölələrin azadlığa çıxmasının ardından belə yazmışdı:

*Ətrafındakı hadisələrin fərqində olan məntiqli heç bir insan orta hesabla bir zəncinin ağ insanla bərabər və ya ondan bir az aşağı olduğuna inanmaz. Bütün bu çatışmazlıqlar çıxarıldığında qabarıq çənəli qohumumuzun (Himayənin və zalımlığın olmadığı bərabər mühitdə, dişləməyin deyil, düşüncələrin istifadə edildiyi bir yarışda olduğumuzu fərz etsək) böyük beyinli və kiçik çənəli rəqibinə qarşı müvəffəqiyyətlə mübarizə aparacağını düşünmək, həqiqətən də, ağılın qəbul etməyəcəyi bir düşüncədir.*

(Thomas Huxley, *Lay Sermons, Addresses and Reviews*, New York, NY:Appleton, 1871, s. 20)



**1904-cü ildə cənub-qərbi Afrikada azadlıq istəyən kölələr vəhşicəsinə basdırıldılar.**

Haksli özünə görə zənci irqi haqqında insanlardan deyil, heyvanlardan danışırmış kimi bəhs edir, zəncilərin düşüncə yarışında mütləq geri qalacaqları kimi əsassız və dəfələrlə əksi isbat edilmiş iddialar önə sürür. Bu

da təkamül nəzəriyyəsinin həqiqi üzünü göstərməsi baxımından son dərəcə əhəmiyyətlidir.

1800-cü illərin ortalarında təkamül nəzəriyyəsi ilə birgə ortaya atılan irqçilik toxumları 1900-cü illərin ortalarına doğru əsl nəticələrini verməyə başladı. Ən şiddətli şəkildə Almaniyada milli-sosializmlə birlikdə özünü göstərdi. Darvinin müasiri və təkamül nəzəriyyəsinin qatı müdafiəçisi olan F. Nitz Almaniyada "super insan" və "ali irq" kimi əsassız anlayışları məşhurlaşdırdı. Nasizm isə qaçılmaz bir son idi. Hitler və nasistlər Darvinin meşə qanununu milli siyasətə çevirdilər və 40 milyon insanın ölümünə səbəb oldular. (Bu mövzu "Darvin-nasizm koalisiyasının nəticəsi: 40 milyon ölü" başlıqlı hissədə incəlikləri ilə araşdırılacaq.)

## GENETİK BAXIMDAN İNSANLAR ARASINDA İRQ AYRI-SEÇKİLİYİ YOXDUR




**1902-ci ildə asılaraq öldürülən iki gənc zənci. Bu gənclər fərqli irqdən olduqları üçün irqçilər tərəfindən öldürülüblər. Halbuki, 21-ci əsrdə aydın oldu ki, bioloji baxımdan insanlar arasında irqi fərqlilik yoxdur.**

Xüsusilə son 10 ildir ki, genetika elmində əldə edilən tapıntılar bioloji baxımdan insanlar arasında irqi fərqliliklərin olmadığını ortaya çıxardı. Elm adamlarının bir çoxu bu mövzuda həmfikir idilər. Məsələn, Atlantda keçirilən elmin inkişafı konqresində elm adamları belə bir açıqlama verdilər:

*İrq tarixə keçmiş hadisələrlə şərtləndirilmiş hisslərimizin məhsulu olan sosial fantastikadır. Heç bir bioloji həqiqəti yoxdur.*

(Robert Lee Hotz, "Race has no basis in biology, researchers say," *Los Angeles Times*, 20 Şubat 1997)

Genetik araşdırmalarda irqlər arasındakı genetik fərqliliklərin çox kiçik olduğu və genlərə baxılıb irqlərin ayırd edilməsinin mümkün olmadığı ortaya çıxdı. Mövzu haqqında araşdırma aparan elm adamları eyni qrupda yer alan insanlar arasında da genetik olaraq 0.2 faiz fərq olduğunu ifadə edirlər. İrqi fərqlilikləri təyin edən dəri rəngi, göz şəkli kimi xüsusiyyətlər isə bu 0.2 faizin yalnız 6 faizini meydana gətirir. Bu da genetik olaraq irqlər arasında yalnız 0.012 faiz fərqin olduğu mənasına gəlir. (Susan Chaves Cameron, *Journal of Counseling and Development*, 76:277-285, 1998) Başqa sözlə desək, irqi fərqliliklər tamamilə əhəmiyyətsiz deyiləcək qədər azdır.

*"New York Times"* qəzetinin 22 avqust, 2000-ci il tarixli sayında N. Anqer imzası ilə nəşr olunan *"İrqlər fərqlidirmi? DNT-nin göstərdiyinə görə çox deyil"* başlıqlı yazıda bu son tapıntılar belə açıqlanır:

*Elm adamları uzun illər cəmiyyət tərəfindən qəbul edilən irqi kateqoriyaların genetik səviyyəyə əks olunmadığından şübhə etdilər.*

*Ancaq tədqiqatçılar insan vücudunun demək olar hər hüceyrəsinin ürəyində saxlanan və genetik material tamamlayıcısı olan insan genomunu daha yaxından araşdırdıqca insanları "irq" yolu ilə bir-birindən ayırd etmək üçün istifadə edilən standart etiketlərin çox az və ya heç bir bioloji məna ifadə etmədiyinə daha çox inandılar.*

*İlk baxışda bir insanın qafqazlı, afrikalı və ya asiyalı olub-olmadığını söyləməyin asan olduğunu, lakin görüntünün altındakı xüsusiyyətlərə gəldikdə və genomu irqin DNT xüsusiyyətləri üçün araşdırdıqda bu asanlığın ortadan qalxdığını söyləyirlər.*

(Natalie Angier, "Do Races Differ? Not Really, DNA Shows", *New York Times*, 22 Ağustos 2000)


Do Races Differ? Not Really, DNA Shows

by NATALIE ANGIER, New York Times Aug. 22, 2000

In these gloory, lightweight days of an election year, it seems, they can't build metaphorical tents big or fast enough for every politician who wants to pitch one up and invite the multicultural folds to "Come on under!" The feel-good message that both parties seek to convey is: regardless of race or creed, we really ARE all kin beneath the skin.

Yet whatever the calculated quality of this new politics of inclusion, its sentiment accords firmly with scientists' growing knowledge of the profound genetic fraternity that binds together human beings of the most seemingly disparate origins.

Scientists have long suspected that the racial categories recognized by society are not reflected on the genetic level.

But the more closely that researchers examine the human genome -- the complement of genetic material encased in the heart of almost every cell of the body -- the more most of them are convinced that the standard labels used to distinguish people by "race" have little or no biological meaning.

Scientists say that while it may be easy to tell at a glance whether a person is Asian, African or Caucasian, the differences dissolve when one looks beyond surface features and scans the human genome for DNA hallmarks of "race."

Related Articles
• The Human Genome Project
• Science/Health

**Milliyet, 13 fevral 2001**

**"New York Times" qəzetində nəşr olunan "İrqlər fərqlidirmi? DNT-nin göstərdiyinə görə yetəri qədər deyil" başlıqlı yazı.**

İnsan genomu layihəsini icra edən "Celera Genomics" şirkətinin rəhbəri J. K. Venter də irqin elmi deyil, sosial anlayış olduğunu deyir. (Natalie Angier, "Do Races Differ? Not Really, DNA Shows", *New York Times*, 22 Ağustos 2000) Dr. Venter və "National İnstitutes of Health"də çalışan elm adamları insan genomunun bütün ardıcıllığının layihəsini bir yerə gətirdiklərini və yalnız tək bir insan irqinin olduğu nəticəsinə gəldiklərini ifadə edirlər.

"Manhattan North General Hospital"ın rəhbəri Dr. H. P. Friman isə biologiya və irq mövzusundakı işlərinin nəticəsini belə yazır:

*İrqi baxımdan yanaşdığımızda genlərinizin nə qədərinin xarici görünüşünüzə əks olunduğunu soruşsanız, buna veriləcək cavab belə olar ki, bu, 0.01 faiz civarındadır. Bu, genetik quruluşunuzun çox aşağı səviyyədə əks olunmasıdır.*

(Natalie Angier, "Do Races Differ? Not Really, DNA Shows", *New York Times*, 22 Ağustos 2000)

Eyni nəticəyə gələn elm adamlarından bir başqası da Vaşinqton Universitetindən biologiya professoru A. R. Templetondur. Templeton fərqli millətlərdən insanların DNT-lərini analiz etmişdir. Analizlər nəticəsində insan növündə çoxlu genetik variasiya var ikən bu variasiyaların çoxunun fərdi olduğunu müşahidə etmişdir. Millətlər arasında hər nə qədər bəzi variasiyalar olsa da, bu variasiyaların çox kiçik olduqlarını təyin etmişdir. Templeton gəldiyi nəticələri (təkamülə olan səhv inancını qorumaqla birlikdə) belə qeyd edir:

*İrq cəmiyyətdə mədəni, siyasi və iqtisadi bir anlayışdır, ancaq bioloji anlayış deyil. Təəssüflər olsun ki, bir çox insan -genetik fərqliliklərin- insan irqinin əsli olduğu yanlışlığına inanır... Mən mövzuya bir az obyektivlik*

*əlavə etmək istədim. Olduqca tərəfsiz analizin nəticəsinə görə insanlığın bir-birindən həqiqətən fərqli alt qruplara bölünməsi kimi bir şey söz mövzusu deyil.* (Genetically Speaking, Race Doesn't Exist In Humans http://www.eurekalert.org/pub_releases/1998-10/WUiS-GSRD-071098.php)



**Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar.**
(Muminun surəsi, 101)



**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır!**
(Rum surəsi, 22)

Templetonun əldə etdiyi nəticələrə görə, avropalılarla aşağı saxaralı afrikalılar arasında və avropalılarla melaneziyalılar (Şimal-şərqi Avstraliya adalarının sakinləri) arasındakı genetik bənzərlik afrikalılarla melaneziyalılar arasında olduğundan daha çoxdur. Halbuki, aşağı saxaralı afrikalılarla melaneziyalılar qara dəriləri, saçlarının cinsi, kəllə və üz şəkilləri baxımından bir-birlərinə daha çox bənzəyirlər. Bunlar bir irqin səciyyəvi xüsusiyyətini göstərmək üçün istifadə edilən xüsusiyyətlərdir, ancaq genetik baxımdan bu insanlar bir-birlərinə daha az bənzəyirlər. Templeton bu tapıntının göstərdiyi kimi, irqi xüsusiyyətlərin genlərdə görünmədiyini ifadə edir. (Genetically Speaking, Race Doesn't Exist In Humans http://www.eurekalert.org/pub_releases/1998-10/WUiS-GSRD-071098.php)

Populyasiya genetikləri L. K. Sforza, P. Menozzi və A. Piazza tərəfindən yazılan "İnsan genlərinin tarixi və coğrafiyası" adlı kitabda da bu nəticəyə gəlinir:

*Boy və ya dəri rəngi kimi xarici xüsusiyyətlərdən məsul olan genlər xaricə çıxarılarsa, insan irqləri dərilərinin altında bir-birlərinə fövqəladə bənzər olduqları görünər. Fərdlər arasındakı növlərə ayrılmalar qruplar arasındakı növlərə ayrılmalardan daha böyükdür.* (*Time*, 16 Ocak 1995)

Kitab haqqında bir dəyərləndirmənin yer aldığı *"Time"* jurnalında isə

mövzu ilə əlaqədar bunlar deyilir:

*Əslində, fərdlər arasındakı fərqlilik elə böyükdür ki, bütün irq anlayışı genetik səviyyədə mənasını itirir. Nüfuzlular hər hansı bir populyasiyanın bir başqasının qarşısında genetik üstünlüyündən danışan nəzəriyyələrin heç bir elmi təməlinin olmadığını söyləyirlər. Çətinliklərə baxmayaraq, alimlər bəzi mühüm kəşflər etdilər. Bunlardan biri hələ kitabın üz qabığında yer alır: dünyanın genetik müxtəlifliyinin rəngli xəritəsində yelpiyin bir ucunda Afrika, digər ucunda da Avstraliya yer almışdır. Avstraliyalı aborigenlər və orta səhralı afrikalılar dəri rəngi və bədən forması kimi xarici xüsusiyyətləri bölüşdükləri üçün onların yaxın əlaqəli olduqları geniş miqyasda qəbul edildi. Amma genləri fərqli şeylərdən bəhs edir. Avstraliyalılar bütün insanların içində afrikalılardan ən uzaq olanlardır və qonşuları olan cənub-şərqi asiyalılara daha çox bənzəyir.* (*Time*, 16 Ocak 1995)

## İrqçi hərəkətlərdən nümunələr - Nigeriyalı kiçik qız

Bəzi dərman firmalarının Afrika, şərqi Avropa, Asiya və cənubi Amerika ölkələrinin vətəndaşları üzərində yeni istehsal etdikləri dərmanları sınadıqları və bu təcrübələr əsnasında əxlaq və peşə qanunlarının pozulduğu məlum olmuşdur. Bunun ötən illərdə ortaya çıxan örnəklərindən biri məşhur dərman firması tərəfindən həyata keçirilən təcrübə oldu. 1996-cı ildə Nigeriyanın Kano şəhərində yaşayan 10 yaşlı, 18.5 kq çəkisi olan kiçik qız meningit xəstəliyindən dolayı dəhşətli ağrılar çəkirdi. Həmin amerikan dərman firmasının qurduğu düşərgədə hələ icazəsi alınmamış bir antibiotik uşaqlar üzərində sınaqdan keçirildi. Bu dərman firma üçün çox əhəmiyyətli idi. Birja analizlərində bütün istifadə sahələri üçün icazə alındığı təqdirdə, dərmanın şirkətə hər il 1 milyard dollar gətirəcəyi gümanında idi. Təcrübə üçün Amerikada xəstə tapa bilməyən şirkət Kanoya gəlmişdi. Kiçik qız bu firmanın peşəkarları tərəfindən bir növ sınaq kimi istifadə edildi.

Həkimlər balaca qıza bu dərmandan gündə 56 milliqram verməyə başladılar. Dərmana başladıqdan bir gün sonra balaca qız öldü. *Vaşinqton Post* qəzeti apardığı araşdırmalar nəticəsində Afrika, Asiya, şərqi Avropa və cənubi Amerikada ticarət mənfəəti məqsədilə aparılan dərman təcrübələrinin getdikcə yayıldığını göstərdi. Bəzi amerikan firmaları Amerikan qida və dərman dairəsinin qanunlarından qaçmaq üçün bu ölkələrdəki həkimlərlə iş birliyi edir və on minlərlə üçüncü dünya ölkəsi vətəndaşını təcrübələrdə istifadə edirdilər. Nigeriyadakı meningit təcrübəsində olduğu kimi, həmin firmanın işçiləri təcrübələrin icazə alınmaqla həyata keçdiyini söylədilər, lakin ekspertlər hadisənin bir çox baxımdan tibb əxlaqına və zəruri qaydalara zidd olduğunu ifadə etdilər. Məsələn, bu cür təcrübələrin, ümumiyyətlə, ən az bir il davam etməsi gərəkdiyi halda, Nigeriyadakı təcrübə yalnız 6 həftə davam etmişdi. Digər tərəfdən, Amerikada meningit xəstələrinə dərmanlar təsirini çox tez göstərən iynə vasitəsilə verilərkən, Nigeriyadakı təcrübələrdə bu dərmanın ağızdan qəbul edilən və daha əvvəl uşaqlar üzərində heç tətbiq olunmamış bir növü istifadə olunmuşdu. Təcrübədə dərman müsbət təsir göstərmədikdə başqa dərmana keçmək gərəkdiyi halda, istehsalçı firmanın

peşəkarları balaca qıza ölənə qədər bu dərmandan verməyə davam etmişdilər.

Həmin dərmanın uşaqlar üzərində istifadə olunmasına heç vaxt icazə verilməməsi, yetkinlər üzərində istifadə olunmasının isə qaraciyər xəstəliklərinə və ölümə səbəb olduğu bəyanatı ilə Amerikada buna məhdudiyyət qoyulması və Avropada tamamilə qadağan olunması dərmanın nə qədər təhlükəli olduğunu göstərir. (Yeni Binyıl Gazetesi, 20.12.2000)

## Darvinin qəbir oğruları

Darvinin *"Növlərin mənşəyi"* kitabının yayımlanmasından sonra bəzi darvinistlər insanın guya təkamülündəki itən halqalarını axtarmağa başladılar. İrqçi təkamülçülər avstraliyalı aborigen yerlilərinin insanın təkamülündəki ibtidai mərhələlərdən biri olduqlarına inanırdılar. Bunu sübut etmək üçün aborigenlərin cəsədləri qəbirlərindən çıxarılıb Amerika və Avropadakı muzeylərə satılmağa başlandı. 1991-ci ildə Avstraliyada çıxan həftəlik *"The Bulletin"*də Devid Monaqan imzası ilə təəccübü məlumatlar yayımlandı. (David Monaghan, 'The Body-snatchers', The Bulletin, November 12. 1991, s. 30-38) Monaqan 18 ay bu mövzu üzərində çalışmış, Londonda araşdırmalar aparmış və 8 oktyabr 1990-cı il tarixində İngiltərədə yayımlanan *"Darwin's Body-Snatchers" (Darvinin qəbir oğruları)* adlı sənədli film hazırlamışdı. Jurnalist Monaqanın *"The Bulletin"*də çıxan yazısında verilən məlumatlardan bəzisi belə idi:




**Müasir dövrdə də aborigenlərə qarşı ayrı-seçkilik davam edir. Yuxarıda aborigenlər əllərindən torpaqlarının alınmasına qarşı etiraz edirlər.**

- *İngilis və amerikalı təkamülçülər ibtidai insan nümunələri toplamaq işini olduqca genişləndirmişdilər. Vaşinqtondakı Smithsonian İnstitutunda fərqli irqlərdən 15.000 insana aid qalıq var idi. (Əlbəttə, topladıqları bu nümunələr heç bir şəkildə onların iddia etdiyi kimi ibtidai irqdən olan insanlar deyildi. Bunlar fərqli fiziki xüsusiyyətlərə malik, fərqli etnik mənşə və irqə aid olan insanlar idi)*
- *Muzey rəhbərləri ilə yanaşı, ingilis elminin öndə gələn adları da bu qəbir oğurluğu ticarətinə qarışmışdılar.* (David Monaghan, 'The Body-snatchers', The Bulletin, November 12. 1991, s.33) *Riçard Ouen, antropoloq Sir Artur Kit və Darvinin özü bu insanların arasında idi. Darvin bir məktubunda əgər onları qəzəbləndirmirsə, dörd tasmaniyalı aborigenin kəllə sümüyünü istədiyini söyləyirdi. Muzeylər yalnız skeletlə deyil, dəri ilə də maraqlanırdı. Bunları nümayiş etdirmək üçün qeyri-adi vəsait kimi qəbul edirdilər.*

- *Duzlanmış aborigen beyinlərinə də böyük maraq var idi, bu beyinləri aborigenlərin ibtidai irq olduğunu sübut etmək üçün istəyirdilər.*
- *Aborigenlərə aid kəllə sümüklərinin insanları öldürməklə əldə edildiyinə dair heç bir şübhə yoxdur.*
- *1874-cü ildən etibarən 20 il boyu Sidneydəki Avstraliya Muzeyində rəhbərlik edən Edvard Ramsey çıxardığı muzey kitabında aborigenlərdən Avstraliya heyvanları olaraq bəhs edirdi. Yazıçı kitabda qəbirlərdən aborigenlərə aid cəsədlərin necə oğurladığını izah etməklə kifayətlənmir, eyni zamanda, yeni öldürülən aborigenlərin kəlləsindəki güllələrin necə çıxarılacağını izah edirdi. Bir çox kəllə sümüyü kolleksiyaçısı onun tövsiyələrinə görə çalışdı. Banci qara dərililərin kəllə sümüyünü istədikdən dörd həftə sonra bir gənc tələbə ona iki kəllə sümüyü yolladı və bu sümüklərin qəbilələrinin son iki üzvü olduğunu və yeni vurulduğunu söylədi.* (David Monaghan, 'The Body-snatchers', The Bulletin, November 12. 1991, s.34.)
- *Alman təkamülçü Amaliya Ditrix Avstraliyaya gəldikdə benzindoldurma məntəqəsi sahiblərinə aborigenləri vurmalarını tövsiyə etdi və vurduqları aborigenləri muzeyinə aparmaq istədiyini söylədi.* (David Monaghan, 'The Body-snatchers', The Bulletin, November 12. 1991, s.33)



Aborigenlərə qarşı qətliamı və pis rəftarı özündə əks etdirən başqa bir əsər isə Avstraliya Mühit və Mədəniyyət Mirası Naziri Şarman Stoun tərəfindən yazılan *"Aborigines en White Australia: A Documentary History of the Attitudes Affecting Official Policy and the Australian Aborigine 1697-1973"* (Avstraliyalı aborigenlərə yönələn, rəsmi siyasətə təsir edən yanaşmaların sənədli tarixi, 1697-1973) adlı kitabdır. Kitab yazıçının bir neçə açıqlamasından başqa, parlament sənədləri, məhkəmə qeydləri, redaktorlara gələn məktublar, antropoloji hesabatlar kimi sənədlərdən ibarətdir.

Şarman Stoun kitabda Darvinin nəzəriyyəsi ilə aborigenlərin qətl edilməsi arasında belə əlaqə qurur:

*1859-cu ildə Çarlz Darvinin kitabı "Növlərin mənşəyi"* ilə birlikdə bioloji (və ictimai) təkamül xalqın anlaya biləcəyi şəkildə izah olunmağa başladı. Təhsilli insanlar öz aralarında mədəniyyətin yeganə mərhələ olduğunu və irqlərin bu mərhələdən aşağı, ya da yuxarı hərəkət etdiyini müzakirə etməyə başladılar. Avropalı insan həyatda qalmağa ən uyğun idi... Aborigenlər isə təbiət qanunlarına uyğun olaraq dinozavrlar və dodo quşu kimi əvvəl-axır yox olacaqdılar. Əllərindəki hadisələrlə dəstəklədikləri bu nəzəriyyə qara irqin çoxaldığının fərq edildiyi 20-ci əsrin müəyyən hissəsinə qədər qəbul edilməyə və xatırlanmağa davam etdi. Bu zamana qədər biganəlik və cinayəti

haqlı göstərmək üçün istifadə olunurdu.

(Sharman Stone, Aborigines in White Australia: A Documentary History of the Attitudes Affecting Official Policy and the Australian Aborigine 1697–1973, Heinemann Educational Books, Melbourne, 1974)



**Cənab ünvanı alan ilk aborigen cənab Duqlas Nikolas və həyat yoldaşı.**

Yazıçının da bildirdiyi kimi, bəzi avropalı darvinistlər aborigenlərin davamlı ölməsini bu irqin təbiət qanunlarının bir tələbi olaraq yox olmağa məhkum olduğunun dəlili kimi göstərirdilər. Lakin 20-ci əsrdə bu dəlillərinin qəbul olunmadığı aydınlaşdı. Çünki aborigenlərin ölüm səbəbləri təbiət qanunları deyil, gördükləri pis rəftar idi. Həmçinin qara dərili insanların sayının olduqca sürətlə artması ilə darvinistlərin bu iddialarının da doğru olmadığı sübut olundu.

1861-ci ildə Yüksək Heyətin apardığı istintaqda bir polis məmurunun verdiyi cavablar aborigenlərə qarşı pis rəftarın darvinist və irqçi təməllərini və o dövrdə bunun çox təbii qarşılandığını görmək üçün önəmlidir. Bu məmur belə demişdir:

*"Əgər biz qara dərililəri cəzalandırmasaq, onlar bunu zəiflik göstəricisi olaraq qəbul edəcəklər... Bu, hansı irqin ən güclü olduğu ilə əlaqədar bir mövzudur - əgər onlara boyun əysək, bunun üçün bizi alçalda bilərlər.*

(Sharman Stone, Aborigines in White Australia: A Documentary History of the Attitudes Affecting Official Policy and the Australian Aborigine 1697–1973, Heinemann Educational Books, Melbourne, 1974, s. 83)

Stounun araşdırmasına görə, 1880-ci ildə çıxan qəzet xəbərində də belə deyilirdi:

*Edə biləcəyimiz heç bir şey bu dünyadakı inkişafımıza nəzarət edən sirli və dəyişməz qanunları dəyişdirməyəcək. Bu qanunlar sayəsində Avstraliyanın yerli irqi ağ adamın oraya gəlişi ilə birlikdə ölümə məhkum olmuşdur. Bizim öhdəmizə düşən və edəcəyimiz tək şey isə bunların yaranmasına mümkün ola biləcək ən az vəhşilikdən istifadə edərək kömək etməkdir. Qara dərililəri qorxu ilə idarə etməliyik...*

(Sharman Stone, Aborigines in White Australia: A Documentary History of the Attitudes Affecting Official Policy and the Australian Aborigine 1697–1973, Heinemann Educational Books, Melbourne, 1974, s.96)

Bu sətirlər sosial darvinist dünyagörüşünün təməlindəki qəddarlığı bir daha sübut edir. Yalnız dərilərinin rəngləri fərqli olduğu və bəzi fərqli fiziki xüsusiyyətlərə malik olduqları üçün bu insanları bir növ heyvan olaraq qəbul etmələri və bu insanlara heyvanlara belə layiq olmayan rəftar göstərmələri sosial darvinistlərin zalımlığının dəlillərindən yalnız biridir. Yenə 1880-ci ildə bir qəzetə yazılan məktubda sosial darvinistlərin aborigenlərə etdiyi zülm belə izah olunurdu:

*Açıq demək lazımdır ki, bu, bizim aborigenlərlə necə mübarizə apardığımızı göstərir: aborigen yerlilərinin yaşadıqları yeni bölgələri işğal etdikdən sonra, onlara o bölgədə rast gəlinən vəhşi heyvanlar, ya da quşlar kimi davrandıq. Həyat və malları, yurd-yuvaları avropalılar tərəfindən tamamilə istifadə olunmaq üçün əllərindən alındı. Yeməkləri alındı, uşaqları*

*oğurlandı, qadınları ağ dərililər tərəfindən aparıldı. Ən kiçik bir müqavimətə silahlarla cavab verildi... Əylənmək istəyənlər yerli qara dərililəri öldürdülər, onlara təcavüz edib qarət etdilər. Onlar nəzarətdən çıxmışdı və törətdikləri cinayətlərin nəticələrindən onları qurtarmaq üçün müstəmləkə idarəçiliyi hər zaman yanlarında idi.*

(Sharman Stone, Aborigines in White Australia: A Documentary History of the Attitudes Affecting Official Policy and the Australian Aborigine 1697–1973, Heinemann Educational Books, Melbourne, 1974, s.93)

Burada izah olunanlar darvinist irqçiliyin qaranlıq və qəddar tərəfinin yalnız çox kiçik bir hissəsidir. Ancaq dinsizliyin vəhşətini, darvinizmin bəşəriyyətə gətirdiyi fəlakətləri görmək üçün kifayətdir.

## Rekapitulyasiya nəzəriyyəsi və İrqçilik

Alman ateist və təkamülçü bioloq Ernst Hekkel tərəfindən iddia edilən rekapitulyasiya nəzəriyyəsinə görə, canlı rüşeymlərin inkişaf mərhələsi atalarının keçirdikləri təkamüli mərhələni təkrarlayır. Bu ağıldan kənar iddiaya görə, məsələn, insan rüşeymi ana bətnindəki inkişaf mərhələsində əvvəl balıq, sonra sürünən xüsusiyyətləri göstərir, ən sonda isə insana çevrilir. Uzun illər boyu təkamül nəzəriyyəsinin bir dəlili kimi göstərilən bu iddianın elmi olmadığı, tamamilə xəyal məhsulu bir ssenari olduğu aydın olmuşdur.

(Keith S. Thompson, "Ontogeny and Phylogeny Recapitulated", American Scientist, vol 76, Mayıs/Haziran 1988, s.273)



ERNST HEKEL



Ernst Hekel və saxta embrion şəkilləri

Ernst Hekkel iddia etdiyi elmdən kənar nəzəriyyəsini dəstəkləmək üçün saxta şəkillər hazırlamış, balıq və insan rüşeymlərini bir-birinə bənzətməyə çalışmışdır. Saxtakarlığının ortaya çıxmasından sonra isə özünü müdafiə etmək üçün digər təkamülçülərin də buna bənzər saxtakarlıqlar etdiyini ifadə etmişdir.

(Francis Hitching, The Neck of the Giraffe: Where Darwin Went Wrong, New York: Ticknor and Fields 1982, s.204)

Ancaq Hekkelin ortaya atdığı və şəkil saxtakarlıqları edərək müdafiə etdiyi bu xəyal məhsulu ssenari başda Almaniya olmaqla, bir çox ölkədə irqçiliyə elmi zəmin hazırlamışdır.

Rekapitulyasiya nəzəriyyəsinin elmdən kənar iddialarına görə, insanın rüşeym dövründə və ya uşaqlığında sahib olduğu xüsusiyyətlər, təkamüli atalarının yetkinlərindən qalan xüsusiyyətlərdir. Məsələn, Hekkel və tərəfdarları mədəni insanın uşaqlığının vəhşi insanın yetkinləri ilə eyni zəka və rəftar xüsusiyyətlərinə sahib olduğunu iddia etmişlər və bu iddialarını guya ağ irqin üstünlüyünü sübut etmək üçün istifadə etmişlər. Stiven C. Quld *"Ever Since*

*Darwin"* (Darvindən bəri) adlı kitabında rekapitulyasiya nəzəriyyəsinin irqçiliyə verdiyi dəstəyi belə yekunlaşdırır:

*Rekapitulyasiya Hekkelin ən sevdiyi fikir idi... Hekkel və həmkarları rekapitulyasiyanı şimali avropalı ağların irqi üstünlüyünü təsdiqləmək məqsədi ilə gündəmə gətirdilər... Herbert Spenser mədəniləşməmiş cəmiyyətlərin zehni xüsusiyyətlərinin mədəni cəmiyyətlərin uşaqlarında yenidən ortaya çıxan xüsusiyyətlər olduğunu yazdı. Karl Voqt, 1864-cü ildə bunu daha sərt şəkildə ifadə edərək belə dedi: "Yetkin zənci zehni qabiliyyətləri baxımından uşaqla eyni xüsusiyyətləri daşıyır..."* (Stephen Jay Gould, "Racism and Recapitulation," Ever Since Darwin adlı kitabın 27. bölümü, (New York, W.W. Norton & Co., 1977), s. 217)

Spenser, Voqt və başqalarının ortaya atdıqları bu iddia heç bir şəkildə həqiqəti əks etdirmirdi. Heç bir elmi əsası olmayan bu iddialar zaman içində elm tərəfindən təkzib edildi və tarixin tozlu səhifələri arasında tərk edildi. Quld, *"Natural History"* jurnalında nəşr olunan *"Dr. Down's Syndrome"* (Dr. Doun sindromu) adlı yazısında isə belə demişdir:

*"Bu nəzəriyyə, ümumiyyətlə, "fərdin yaranması nəslin yaranmasının təkrarıdır" sözləri ilə ifadə edilir. Mənası, daha yüksək heyvanların rüşeymlərinin inkişaf müddətlərində ataları olan aşağı canlıların yetkin formalarını təmsil edən silsilə mərhələdən keçdikləridir. Rekapitulyasiya ağ dərili alimlərinin irqçilik iddialarının kulminasiya nöqtəsidir.*

(Stephen Jay Gould, "Dr. Down's Syndrome", Natural History, vol.89, Nisan 1980, s.144)

Air War College International Security Studies Core (Beynəlxalq Təhlükəsizlik İşləri Mərkəzi) başçısı Professor Corc J. Stein isə "American Scientist" jurnalında nəşr olunan "Biological Science and the Roots of Nazism" (Bioloji elm və nasizmin kökləri) adlı məqaləsində: "Əslində, Hekkel və sosial darvinist həmkarları nasional sosializmin təməl mülahizələri olan fikirləri inkişaf etdirmişlər", - deyərək, Hekkel-sosial darvinizm–irqçilik arasındakı təhlükəli əlaqəni yekunlaşdırır.

(George J. Stein, "Biological Science and the Roots of Nazism," American Scientist, Vol. 76, Jan/Feb. 1988, s. 56.)

## YENİ İMPERİALİZM VƏ SOSİAL DARVİNİZM



**Adam Willaertsin bir ingilis gəmisinin şərqi Hindistana hərəkətini göstərən tablosu.**

Müstəmləkəçilik Darvindən daha əvvəl, 16-cı əsrdə Avropa ölkələrində inkişaf etməyə başlamışdı. Ancaq irqçilik kimi müstəmləkəçilik də Darvinin nəzəriyyəsindən güc qazandı və fərqli hədəf seçdi. 16-cı əsrdə və sonralar, xüsusilə də sənaye inqilabının ardından Avropa dövlətlərinin fərqli qitələrə və ölkələrə yayılmasındakı məqsəd daha çox ticari məqsəd daşıyırdı. Avropalılar istehsal etdikləri mallar üçün bazar axtarırdılar və həlli fərqli qitələrdəki ölkələrə hakim olmaqda görürdülər. 19-cu əsrdəki imperialist səylər isə daha fərqli səbəblər ehtiva edirdi. Buna

görə, bu dövrdəki imperialist hərəkatlar "Yeni imperializm" olaraq xatırlanır.

Sosial darvinist təlqinlər yeni imperializmin dünyagörüşünə tamamilə hakim idi. Yeni imperializmə gətirib çıxaran darvinist səbəblərdən biri üstünlük yarışı idi. Bir-birləri ilə rəqabətə girən ingilis, fransız, alman və digərləri sözdə "həyat mübarizəsində" üstün gəlmək və "ən güclü" millət olmaq üçün daha çox torpaq əldə etmələrinin lazım olduğu yanlışlığına düşmüşdülər.

İkinci səbəb isə digər irqlərə qarşı üstünlüyün sübut edilməsi yanılması idi. "Üstün irq" olduqlarını iddia edən anqlo-saksonlar və aryanlar aşağı irq saydıqları afrikalıları, asiyalıları və ya Avstraliya yerlilərini idarələri altına almağı, onların iş qüvvələrini, zəngin qaynaqlarını və imkanlarını istismar etməyi özlərinə görə təbii haqları kimi görürdülər. Beləcə, iqtisadi qayğılar-dan çox darvinist hədəflər nəticəsində 19-cu əsr imperializmi inkişaf etdi. (Jim Knapp, *Imperialism: The Struggle to Be Superior*, http://www-personal.umich.edu/~jimknapp/papers/Imperialism.html)

*"Britannica"* ensiklopediyasının 1946-cı il nəşrində yeni imperializmin sosial darvinist mənşələri üçün belə deyilir:

*19-cu əsrin sonundakı bu yeni imperializm dövrü mənəvi dəstəyini bütün Avropanı alt-üst edən bismarkçılıq, sosial darvinizm və gücü, müvəffəqiyyəti ucaldan bənzər bütün nəzəriyyələrdən aldı. İrqçi nəzəriyyələr ənənəvi əxlaqi dəyərlərə (xristianlıq kimi) qarşı dövrün haradasa ən üstün inancı halına gələn bu yeni düşüncəyə elm və təbiət yolu ilə qanunilik qazandırmış kimi görünür.* (*Encyclopedia Britannica*, 1946 edition, volume 12, page 122A)

Sosial darvinizmin 19-cu əsr yeni imperializminin həqiqi mənşəyi olduğu bir çox tədqiqatçı və yazıçı tərəfindən qəbul edilir. Məsələn, tarix professoru Q. Himmelfarb *"Darvin və darvinçi inqilab"* adlı kitabında sosial darviniz-min irqçilik və imperializm ilə olan yaxın əlaqəsi haqqında bunları deyir:

*Sosial darvinizm, ümumiyyətlə, belə aydın olmuşdur: rəqabəti, güc və şiddəti adət-ənənənin və din əxlaqının üzərində ucaldan bir fəlsəfə. Beləcə, radikal milliyyətçiliyin, imperializmin, militarizmin, diktatorluğun, qəhrəmanlıq kultlarının, üstün insan və ali irq inancının bir növ sandığı halına gəlmişdir.* (Gertrude Himmelfarb, *Darwin and the Darwinian Revolution*, Chicago, Elephant Paper-backs, Ivan R. Dee, Publisher, 1996, s. 416)

Məşhur alman tarixçi Uehler də sosial darvinizmin bu yönünü belə ifadə edir:

*Sosial darvinizm işçi və ya müstəmləkə xalqlarının azadlıq istəyinin mövcudiyyət mübarizəsindəki ikinci sinif insanların lazımsız etirazı kimi hesab edilməsinə və bir kənara atılmasına imkan verdi. İdarəçilərin mənfəətləri ilə əlaqəli olan bu gücü sosial darvinizmə qazandıran şey "rədd edilməz" elmi donda təqdim edilən tətbiq müxtəlifliyi idi. Bir ideologiya olar-aq imperializmi dəstəklədiyi üçün sənayeləşmiş millətlərin içərisindəki tərəfdarları tərəfindən canlı tutulurdu.*

(Hans-Ulrich Wehler, *The German Empire*, s.180, http://www.geocities.com/Area51/Rampart/4871/Darwin.html)

Alman G. Bernhardinin 1912-ci ildə *"Britaniya Almaniyanın vassalı kimi"* adlı kitabında alman imperializmi haqqında yazdığı sətirlərdə sosial darvinist fikirləri görmək mümkündür:

**Üstdə ingilis müstəmləkəsindəki Hindistanda ingilis kral ailəsinin keçişi görünür. Altda isə Osmanlı imperiyasının ardınca Fələstin torpaqlarını işğal edən ingilis qüvvələrinin gəlişi görünür. Osmanlı rəhbərliyi altında əsrlərlə hüzur və təhlükəsizliyin hakim olduğu Fələstin torpaqlarında müstəmləkə rəhbərliyi ilə birlikdə qarışıqlıq, qarşıdurma və zülm başlamışdır.**



*Dünya mədəniyyətinin faydası üçün Almaniyanın müstəmləkə imperiyasını genişləndirmək bizim vəzifəmizdir. Yalnız bu şəkildə dünyada alman mədəniyyətini siyasi, yaxud ən azından milli olaraq birləşdirə bilərik. Ancaq bu şəkildə alman mədəniyyətinin insanlığın inkişafında ən lazımlı amil olduğu qəbul edilər. Dünya səviyyəsində yeni bölgələr əldə etmək üçün bütün gücümüzlə səy göstərməliyik, çünki Almaniyanı gələcəkdə doğulacaq milyonlarla alman üçün qorumalı, onlar üçün yemək və iş təmin etməliyik. Onlar alman səması altında alman həyatı yaşamalıdırlar.*

(T. D. Hall, *The Scientific Background of the Nazi "Race Purification" Program, US & German Eugenics, Ethnic Cleansing, Genocide, and Population Control*, http://www.trufax.org/avoid/nazi.html)

Darvinist təlqinlərin təsiri ilə güc qazanmış imperializmin səbəb olduğu daha çox torpaq ələ keçirmək arzusu imperialist ölkələr arasında qarşıdurmalara səbəb oldu. Yenə darvinizmin yanlışlarına əsaslanmaqla ələ keçirilən torpaqlarda yerli xalqların sözdə aşağı irqin nümayəndələri olaraq qiymətləndirilmələri səbəbi ilə böyük zülmlər yaşandı. Söz mövzusu torpaqlara sözdə mədəniyyət aparmaq üçün yola çıxdıqlarını qarşıya qoyan imperialistlər darvinizmə əsaslanan azğın dünyagörüşləri üzündən bir çox acılara və göz yaşlarına səbəb oldular.

## SOSİAL DARVİNİZM VƏ İRQLƏRARASI QARŞIDURMA

Allahın yer üzündə fərqli irqlər, qəbilələr və millətlər yaratmasının hikmətlərindən biri onların arasında mədəni ticarətin və dolayısılə qlobal bir mədəni zənginliyin olmasıdır. Allah fərqli insan birliklərini **"bir-birləri ilə tanış olmaları üçün"** yaratdığını Quranda xəbər verir. (Hucurat surəsi, 13)

Sosial darvinizmin batil dünyagörüşünə görə isə insanlar tanış olmaq üçün deyil, zidd olmaq üçün vardır. Buna görə, insanlığın inkişafının ən əhəmiyyətli yolu irqlər və millətlər arasındakı qarşıdurmadır. Sosial darvinistlərin məntiq xarici uzaqgörənliyinə görə, irqlər arasındakı qarşıdurmada üstün gəlmək üçün yeni tapıntılar əldə ediləcək, nəticədə, daha mədəni və üstün olanlar qalib gələcək və beləcə, insanlıq inkişaf edəcək. İnsanların döyüşərək, cinayət işlədərək, qətliamlar törədərək, digərlərini

əzərək və onlara zülm edərək inkişaf edəcəklərini qarşıya qoymaq vəhşiliyi müdafiə etməkdən başqa bir şey deyil. İnsanlar və ya cəmiyyətlər arasında zamanla müxtəlif anlaşılmazlıqlar və ya problemlər baş verə bilər. Ancaq bütün problemlər sülh yolu ilə rahatlıqla həll edilə bilər. Həllin şiddətə əl atmaqda olduğunu düşünmək problemin daha da çətinləşməsindən başqa bir işə yaramaz. Yaxud -əvvəl də ifadə etdiyimiz kimi- millətlərin öz mənfəətlərini və gələcəklərini qoruyan tədbirlər almaq istəməsi haqlı tələbdir. Ancaq digər millətlərin haqlarını heç sayaraq və ya öz mənfəətlərinin digərlərini yox etməkdə olduğuna inanaraq siyasət müəyyən edilməsi həm məntiqdən, həm də vicdandan kənardır.

Dövrümüzdəki təkamülçülərinin insancıl və irqçiliyə qarşı kimi tanıtmağa çalışdıqları Darvin də irqlərarası qarşıdurmanı müdafiə etmiş və bu qarşıdurmada üstün gələnlərin özünə görə mədəni olanlar olacağı yalanını ortaya atmışdır. Darvinin və digər təkamülçülərin bəhs etdikləri mədənilər isə, əlbəttə ki, ağ irqdir. Darvinin "İnsanın törəməsi" kitabındakı bəzi ifadələri belədir:

*Mədəni millətlər barbarlarla qarşılaşdıqlarında öldürücü iqlimin yerli irqə kömək etdiyi yerlər xaricində mübarizə qısa sürəcək... Bir-birləri ilə rəqabətdə olan millətlərin müvəffəqiyyət əldə etməsindəki ən əhəmiyyətli amil mədəni səviyyələri kimi görünür.* (Charles Darwin, *The Decent of Man*, s. 297)

Darvin kitabının başqa yerlərində olduğu kimi, bu ifadələrində də barbarlarla mədənilərin qarşıdurmasından danışır və üstünlüyün mədənilərə aid olduğunu iddia edir. Bu xəyali fərziyyələrinin səbəbiylə də demək olar ki, bir əsr boyu davam edən xaos və acılara zəmin hazırlamışdır.

Darvindən sonra da bir çox darvinist irqlərarası qarşıdurmanı sanki elmi bir həqiqət imiş kimi dilə gətirmişlər. Məsələn, 19-cu əsrin təkamülçü nəzəriyyəçilərindən və F. Qaltonun təqibçisi kimi qəbul edilən K. Pirsonun *"Elmi baxımdan milli həyat"* adlı kitabından götürülmüş aşağıdakı ifadələri 19-cu əsr darvinistlərinin irqlərarası qarşıdurmalara olan düşüncələrini və yeni imperializmin arxasındakı səbəbləri görmək baxımından əhəmiyyətlidir. Pirson digər sosial darvinistlər kimi irqlərarası qarşıdurmanın lazım olduğunu iddia edir və bir irq içindəki mübarizənin təkamül üçün kafi olmadığını zənn edir. Pirsonun heç bir elmi doğruluğu olmayan bu iddialarından bəziləri belədir:

*Pis irq haqqında söylədiklərim mənə görə aşağı insan irqləri üçün etibarlıdır. Neçə əsr və neçə min ildir ki, zənci afrikalılar Afrikada ağ adam tərəfindən narahat edilmədən böyük torpaqlara sahib oldular? Buna baxmayaraq, aralarındakı qəbilə qarşıdurmaları aryan irqi ilə bir az da olsa, müqayisə edilə bilən mədəniyyət meydana gətirmədi. İstədiyiniz kimi onları öyrədib yetişdirin, irqi dəyişdirmə mövzusunda müvəffəqiyyətli olacağınıza inanmıram. Tarix mənə yüksək səviyyədə mədəniyyət meydana gətirmək üçün yalnız və yalnız tək bir yol göstərir, irqin irqlə mübarizəsi və fiziki və zehni olaraq uyğun olan irqin həyatda qalması...*

(Karl Pearson, *National Life from the Standpoint of Science*, Cambridge, Cambridge University Press, 1900, s. 11-16, 20-23, 36-37, 43-44)

**Amerika tarixindəki ən böhranlı iki dövrdən biri 1861-65-ci illər arasında reallaşan şimal-cənub müharibəsidir. Müharibə köləliyin ləğv olunmasını istəyən şimal əyalətləri ilə köləliyin davam etməsini müdafiə edən cənub əyalətləri arasında olmuşdur. Ağ irqin üstünlüyü iddiası insanları yalnız başqa irqlə deyil, öz irqi ilə də dörd il boyu döyüşəcək mövqeyə gətirmişdir. Şimal əyalətlərinin müharibədə qalib gəlməsi ilə Amerikada köləlik qadağan edilmişdir.**



Pirson və bənzərlərinin belə yanlış açıqlamaları imperialistlərə sözdə elmi dəstək vermişdir. Afrika qitəsini və Asiyanın əhəmiyyətli hissəsini işğal edən, Avstraliya yerlilərinə müxtəlif zülmlər edən bəzi Avropa dövlətləri işğallarının təbiətin qanunu və insanın inkişafının tək yolu olduğunu iddia etmişlər. (Bu iddianın elmi heç bir əsası olmadığı isə elm dünyasında yaşanan inkişaflarla birbaşa elm tərəfindən isbat edilmişdir.) Pirsona görə, tarix boyu şüursuz şəkildə aparılan müharibələr artıq şüurlu və əvvəldən planlı olaraq aparılmalıdır:

*... İrqin irqə və millətin millətə qarşı bir mübarizəsi var. İlkin dövrlərdə bu mübarizə barbar qəbilələrin kor və şüursuz mübarizəsi idi. İndiki dövrdə mədəni ağ adamın durumunda daha şüurlu və milləti davamlı dəyişən ətrafa uyğun hala gətirəcək şəkildə diqqətlə yönləndirilmiş mübarizə mövcuddur. Millət mübarizənin necə və hara doğru yönləndirəcəyini əvvəldən görməlidir...*

*Sizdən millətə və digər millətlərə istər ordu, istər ticarət və istərsə də iqtisadi proseslərdən istifadə edib davamlı mübarizə içində olan mütəşəkkil bir bütün kimi baxmağınızı istəmişdim. Və sizdən hər cür mübarizəyə tamamilə pis bir şey kimi baxmamağınızı istəmişdim. Çünki mübarizə dünya tarixi boyu insanın irəliləyişinin qaynağı olmuşdur.* (Karl Pearson, *National Life from the Standpoint of Science*, Cambridge, Cambridge University Press, 1900, s. 11-16, 20-23, 36-37, 43-44)

İrqlər və millətlər arasındakı qarşıdurmaların, müharibə və çəkişmələrin inkişafın yolu olduğuna inanan, öz irqinin və millətinin xaricindəki irq və millətləri aşağı görən bu azğın məntiq 19-cu əsrdə dünyanın dörd tərəfində böyük torpaqları hakimiyyəti altına aldı. Bəzi imperialist Avropa dövlətləri işğal etdikləri torpaqlardakı millətlərə qarşı son dərəcə amansız davrandılar. İşlərində bu millətləri insan olaraq görmədikləri, kiçik hesab etdikləri, aşağı və zəif gördükləri, özləri ilə eyni haqlara sahib olduqlarını qəbul etmədikləri açıq şəkildə görünürdü. 19-cu əsrdə inkişaf edən yeni imperializm sosial darvinizmin dünya səviyyəsində tətbiqi oldu.

Darvinizmin təlqinlərinin bu qədər dəstək görməsinin səbəblərindən biri də dövrün Avropa ölkələrində insanların din əxlaqından uzaqlaşmalarıdır. Din əxlaqı insanların sülh içində yaşamalarını tələb edir. Allah insanlara bir-birlərinə qarşı bağışlayıcı və mərhəmətli olmalarını əmr etmişdir. Yer üzündə

nizamı pozmaq, müharibə və qarşıdurmaları qızışdırmaq isə Allah qatında böyük məsuliyyəti olan pisliklərdir. Allah Quranda yer üzündə təxribatı, insanlara zərər verilməsini sevmədiyini xəbər vermişdir:

*(O şəxs səndən)* **ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli məhv etməyə çalışar. Halbuki, Allah fitnə-fəsadı sevməz!**

(Bəqərə surəsi, 205)

## MÜSTƏMLƏKƏLƏRDƏKİ AMANSIZ TƏTBİQLƏR



**Hindistandakı ingilis əsgərləri mərasim əsnasında**

Öndə gələn müstəmləkəçi dövlətlərə hakim olan sosial darvinist görüşlər onların müstəmləkələrindəki millətlərə tətbiq etdikləri siyasətdə də özünü büruzə verirdi. Bu millətləri insan saymayan, özlərinə görə adi bir ara-keçid forması kimi görən bu rejimlər hakim olduqları ölkələrə acı, müsibət, bədbəxtlik gətirdilər. Bu ölkələrin mərhəmətsiz siyasətlərində sosial darvinizm ən əhəmiyyətli amillərdən biridir. Daha əvvəl də ifadə edildiyi kimi, bəzi millətlərin mövcud üstün irq iddiaları və kibrlərindən qaynaqlanan təcavüzkar, amansız, digər millətləri aşağı görən tətbiqləri sosial darvinizmlə saxta qanunilik qazanmışdır. Söz mövzusu ölkələr bu cür siyasətlərində etdiklərini haqlı görürdülər, bu da tamah və təcavüzkarlıqlarını artırırdı.

Tiryək müharibəsi bunun maraqlı bir nümunəsi idi. İngiltərə hələ 19-cu əsrin əvvəllərində Çinə tiryək satmağa başlamışdı. Halbuki, İngiltərədə tiryək çıxarmaq, satmaq və istifadə etmək qadağan idi. Öz insanlarını belə bir bəladan ciddi şəkildə qoruyan dövrün ingilis rəhbərləri qısa müddətdə bu ölkənin insanlarını tiryək aludəçisi halına gətirdilər. İmperatorun oğlu da tiryəkdən həddindən çox istifadə edib ölüncə imperator ingilislərin ölkəyə tiryək gətirmələrinə son verməyə qərar verdi. Hökumət vəzifəlisi Lin Tse-Hsu Şərqi Hindistan Şirkətinin ən böyük ticarət limanı olan Kantona tiryək idxalına son vermələri üçün görüşə göndərildi. İngilis tacirlər əməkdaşlığa yanaşmadıqları üçün Tse-Hsu tiryək anbarlarını bağlatdırdı. Bu, dərhal ardından əsgəri müdaxilə gətirdi. Çinlilər qəti məğlubiyyətə uğradılar və çox alçaldıcı razılaşmanı qəbul etmək məcburiyyətində qaldılar: bu razılaşmaya görə Çində tiryək ticarəti qanuni sayılacaqdı. Tse-Hsu isə hökumətdəki vəzifəsindən alındı və sürgünə göndərildi.

Portuqaliyalılar isə sözdə üstünlüklərini Anqola xalqını kölələşdirməklə göstərdilər. Bu bölgədə yaşayan xalqın böyük hissəsini gəmilərlə qaçırdılar və beş illiyinə müqaviləli işçilər kimi uzaq yerlərə göndərdilər. Ancaq işçilərin çox az hissəsi müqavilənin sonunu görəcək qədər yaşadı. (John Merriman, *A History of Modern Europe*, Volume Two: From the French Revolution to the Present, s.990-991) İşğal

edilən yerlərin demək olar hamısında işğalçı dövlətlər uyğun hesab etdikləri torpaqlara və qaynaqlara əl qoydular, öz ölkələrindən gələn insanlara və ya şirkətlərə bu yerləri verdilər. Torpaqlarından edilən yerli xalqa isə heç maraq göstərilmədi. Bu xalqların pulları, iş qüvvələri, malları və mədən qaynaqları sonadək istismar edildi.



**Üstdə:**
**Azadlıq istəyən hindliləri ağır hücum ilə əzən ingilislər**
**Altda:**
**Hind ordusu üçün əsgər seçən ingilis əsgəri.**

İngilislər müstəmləkələrindən aldıqları pambıq, çay, mədən cövhəri kimi xam maddələri İngiltərəyə gətirirdilər. Daha sonra bu xam maddələrlə çıxarılan mallar təkrar müstəmləkələrə gətirilib yüksək qiymətlərə satılırdı. Hindistandan alınan pambıq İngiltərədə işlənir və təkrar Hindistana satılırdı. Əsl maraqlı olan isə Hindistanda hind pambığının satışının qadağan edilməsi idi, yəni yalnız ingilislərin satdığı pambıq istifadə edilə bilərdi. Bundan başqa, hindistanlılar yalnız ingilislərin çıxardığı duzu satın ala bilirdilər.

Yeni imperializmin bir başqa haqsız tətbiqi də hakimiyyət altına alınan ölkələrin idarəçilərinə hörmət qoyulmamağı, onlara önəm verilməməyi idi. Halbuki, əvvəlki dövrlərdə kraliça Yelizavetdən Napaleona qədər bütün rəhbərlər xarici liderlərə qarşı bərabər şəkildə davranmışdılar. 19-cu əsrdə avropalılarda getdikcə güclənən özünü üstün görmə xəyalı kobudluq və insafsızlıq gətirdi.

Əsl maraqlı olan isə darvinist imperialistlərin başqa millətləri istismar edərkən bunu öz "aşağı irqlərin" və "geri qalmışların" yükünü boynuna götürdüklərini göstərmələri idi. İddialarına görə, dünyanın inkişafı üçün üstün irqin nizamının bütün dünyaya yayılması, aşağı olanların inkişaf etdirilmələri lazım idi. Başqa sözlə, müstəmləkəçi güclər işğal etdikləri torpaqlara mədəniyyət apardıqlarını iddia edirdilər. Ancaq tətbiq və siyasətləri onların sözdə yaxşı niyyətli iddialarının həqiqəti əks etdirmədiyini göstərirdi. Sosial darvinist düşüncələrə sahib 19-cu və 20-ci əsr müstəmləkəçi dövlətləri getdikləri ölkələrə rifah, xoşbəxtlik və mədəniyyət deyil, qarışıqlıq, döyüş, qorxu və alçaldılma gətirdilər. Müstəmləkəçiliyin müstəmləkə ölkələrə bəzi faydalar verdiyi qəbul edilsə də, zərərləri daha çox idi.

Karl Pirsonun aşağıda yer alan amansız və insanlıqdan, mərhəmətdən uzaq sözləri sosial darvinizmə əsaslanan irqçi və imperialist görüşlərin tam bir xülasəsi xüsusiyyətindədir:

*Mübarizə acı çəkməkdir, ciddi mənada acı çəkmək deməkdir. Ancaq mübarizə və acı ağ adamın hazırda çatdığı inkişafın mərhələləri olmuşdur. Artıq mağaralarda yaşamadığı, kök və qabıqlı yemişlərlə bəslənmədiyi*

*həqiqəti bunu açıqlayır. İnkişafın ən uyğun olan irqin həyatda qalmasına bağlı olması (bu, bəzilərinizə həddindən artıq qaranlıq gələ bilər) həyatda qalma mübarizəsinə özünü bağışladan xüsusiyyətləri qazandırır. Yaxşı metal qızğın metal putasından çıxar. Qılıncın kotana çevriləcəyi, amerikalı, alman və ingilis tacirlərin dünya bazarlarında artıq xam maddə və yemək üçün rəqabət etməyəcəkləri, ağ adamla qara adamın aralarındakı torpağı paylaşacaqları və hər birinin torpağı istədiyi kimi işlədə biləcəyi bir zamanı ümid edə bilərsiniz. Ancaq mənə inanın ki, o gün gəldiyində insan artıq inkişaf etməyəcək. Aşağı irqin törəməsinə nəzarət edən heç bir şey olmayacaq; amansız irsiyyət qanunu təbii seleksiya tərəfindən nəzarətdə olmayacaq və yönləndirilməyəcək. İnsan durğunlaşar... İnkişaf yolu millətlərin dağıntıları ilə örtüldü; mükəmməlliyə gedən çətin yolu tapa bilməyən aşağı irqlərin və zərər çəkmişlərin izləri hər yerdədir. Yenə də bu ölü insanlar doğrusu, insanın günümüzdəki daha yüksək intellektual səviyyəsinə və daha dərin romantik həyatına yüksəlməsində işə yarayan atlanma daşlarıdır.* (Karl Pearson, *National Life from the Standpoint of Science*, 1900)



**Üstdə:**
**Vindzor hersoqu şahzadə Edvard, Koi-yahur Mihracesindən hədiyyələr qəbul edərkən.**
**Altda:**
**Torba yarışı ilə Kraliça Viktoriyanın ad gününü qeyd edən ingilis əsgərlərini əyləndirən Zululular.**

Dünyadakı millətlərin çoxunu aşağı görən, onların acılarını, ölümlərini sözdə təkmilləşmə yolunda bir pillə olaraq qəbul edən bu dünyagörüşünün bütün insanlıq üçün nə qədər böyük təhlükə olduğu aydındır. Bu kitabda diqqət yetirilən təhlükə də budur. Əgər bir fikri nə qədər təhlükəli olursa olsun və ya nə qədər elm və məntiq xarici olursa olsun, bəziləri elmi həqiqət kimi təqdim edib və daima təbliğ etsə, onda bu fikir və məhsulları bir müddət sonra mövzu haqqında kifayət qədər məlumatıolmayan insanlar tərəfindən qəbul edilməyə başlayacaq. Odur ki, darvinizmin təhlükəsi bunda gizlənmişdir. 19-cu və 20-ci əsrdə "həyatda qalma mübarizəsi", "üstün və aşağı irqlər arası qarşıdurmalar" kimi anlayışların doğruluğuna inanan insanlar bu iddiaları özlərinə sipər edib hər cür mərhəmətsizliyi etmişlər və ya edənlərə səs çıxarmamışlar. Bunun nəticəsində isə Hitler, Mussolini, Franko kimi xəstə ruhlu, irqçi, təcavüzkar, tamahkar, mərhəmətsiz diktatorlar ortaya çıxmış, milyonlarla insan onları alqışlamış, on milyonlarla insan isə bu zalımların ideologiyaları üzündən acı, səfalət və qorxu içində yaşamış və ölmüşdür.



Fransızlar 1827-ci ildə Əlcəzairi işğal etdilər. Müstəmləkəçilik anlayışına uyğun olaraq özləri xaricindəki millətləri ikinci sinif insanlar olaraq görən dövrün fransızları Əlcəzairdə təzyiq və şiddətə söykənən sistem qurdular. Əvvəlcə, ərəbcə danışmaq və təhsil almaq qadağan edildi. Rəsmi danışıq dili olaraq yalnız fransız dili qəbul edildi. Daha sonra Əlcəzair iqtisadi yöndən tam mənası ilə Fransadan asılı hala gətirildi. Müqavimətləri isə qanlı şəkildə qırdılar. Əlcəzair xalqına edilən işgəncə və pis rəftarı əks etdirən rəsm.



Sağdakı kiçik şəkil:
1919-cu ildə Nebraskada 5.000 nəfərlik ağ dərili qrup, ədliyyə sarayını mühasirəyə alaraq qara bir məhbusu ələ keçirdilər. Qrup qara adamı şikəst edənə qədər döydü, daha sonra 1000 dəfədən çox atəş açdı və sonda cəsədini yandırdı.

Böyük şəkil:
İndianada 1930-cu ildə Tomas Şip və Abraham Smit adlı iki qara gənc daşqalaq edildi. Minlərlə əlində silah və beysbol çubuğu olan ağ dərili, iki gənci öldürənə qədər döydülər və sonra asdılar. 1930-cu illərdə Ku Klux Klan getdikcə daha da yayılmağa başlamışdı. Bu daşqalaq hadisələri irqçiliyin gətirdiyi kin və mərhəmətsizliyi göstərən saysız-hesabsız nümunədən ikisidir.

## SOSİAL DARVİNİZM VƏ MÜHARİBƏ

Sosial darvinizmin irqlər arası qarşıdurmanın millətlərin irəliləməsinə kömək etdiyi yalanı müharibələrə də zəmin hazırlamışdır. Sosial darvinizmin məşhur olduğu Birinci Dünya Müharibəsindən əvvəlki dövrdə müharibə zəiflərin ələnməsi, güclülərin həyatda qalması, insan irqinin inkişaf edə bilməsi, ağırlıq və yük kimi görülən insanların yox edilməsi üçün sözdə "ən uyğun yol" olaraq görünürdü.

Tarix boyu insanlıq bir çox müharibə görmüşdür. Ancaq bu müharibələr, ümumiyyətlə, sərhədlərdə, mülki xalq birbaşa hədəf alınmadan müharibə edən ölkələrin orduları arasında baş verirdi. Sosial darvinist məqsədlərlə aparılan müharibələrdə isə əsl hədəf xalq idi. Çünki məqsəd sözdə uyğun olmayan, özlərinə görə aşağı olan milləti yox etmək və "lazımsız yerə çox olan" əhalini azaltmaq idi.



**Qarşıdurmanın insanın təbiətində olduğunu iddia edən darvinist məntiq sülh və hüzur içində yaşamaq əvəzinə, millətləri müharibəyə təşviq edir. Ancaq müharibənin günahsız vətəndaş xalq üzərindəki nəticələri göz qabağındadır.**

Birinci Dünya Müharibəsindən öncə müharibənin darvinist istinadlarının açıqlandığı yazı və nitqlərə tez-tez rast gəlinirdi. Nyu York Amerikan Təbiət Tarixi Muzeyinin jurnalı "Natural History"nin baş redaktoru R. Milner Birinci Dünya Müharibəsində alman ziyalılarının darvinçi və döyüşçü fikirləri haqqında belə deyir:

*Birinci Dünya Müharibəsi əsnasında alman ziyalılar təbii seleksiyanın qarşı qoyulmaz güc və onları hakimiyyət üçün qanlı mübarizəyə məcbur edən təbiət qanunu olduğuna inandılar. Siyasi və hərbi dərs kitabları Darvinin nəzəriyyələrini dünya hakimiyyəti üçün aparılan araşdırmanın elmi əsası olaraq inkişaf etdirdilər. Alman elm adamları və biologiya professorları isə buna tam dəstək verdilər.*

(Richard Milner, *Encyclopedia of Evolution: Humanity's Search for Its Origin*, s. 59)

General F. V. Bernhardi də eyni illərdə "Sonrakı müharibə" adlı kitabında sosial darvinizmi təbliğ etmiş və müharibəni tərifləmişdi. Müharibənin bioloji zərurət olduğunu iddia edən Bernhardi dünyanı uyğun olmayanlardan təmizləməyin ən yaxşı yolunun müharibə olduğunu iddia etmişdi. Bernhardi: "Müharibə birinci növbədə əhəmiyyət daşıyan bioloji zərurətdir, insanlığın həyatında imtina edilməz nizamlayıcı ünsürdür. Müharibə gücü artırır və insanın inkişafını təşviq edir", -deyirdi. (Oscar Levy, *Complete Works of Nietzsche*, 1930, Vol. 2, s. 75)



**Sosial darvinist məntiq mərhəmətsiz nasist istismarının da dayağı olmuşdur. Nasist işğalı dövründə rus xalqından milyonlarla adam kölə işçi kimi sərhəddən xaric edilərkən, milyonlarla adam da edam edilmişdi.**

Müharibənin nizamlayıcı ünsür olduğunu qarşıya qoymaq ağıl, məntiq və elmi bilgilərlə açıqlanan bir vəziyyət deyil. Müharibə böyük can və mal itkisinə səbəb olan, cəmiyyətlərin gələcəyi üçün əvəzinin verilməsi çətin bir fəlakətə səbəb olan dağıdıcı gücdür.

Buna baxmayaraq, davamlı müharibə və qətliamları sözdə mədəniyyətin gərəyi kimi görənlər döyüş çağırışlarına davam edirdilər. Məsələn, Bernhardi kitabının bir başqa yerində belə yazırdı:

*Müharibə təkcə millətlərin həyatı üçün lazımi bir ünsür deyil, eyni zamanda, mədəniləşmiş bir millətin ən yüksək güc və canlılıq tapdığı mədəniyyətin imtina edilməz parçasıdır... Müharibə bioloji baxımdan haqlı qərarlar verir, çünki qərarları obyektlərin təbiətinə əsaslanır... Bu yalnız bioloji qanun olmaqdan başqa əxlaqi bir vəzifə və sivilizasiyanın imtina edilməz parçasıdır!*
(Richard Hofstadter, *Social Darwinism in American Thought*, s. 197; Gertrude Himmelfarb, *Darwin and the Darwinian Revolution*, s. 417)



**Müharibənin insanlara yaşatdığı ağır nəticələrə baxmayaraq, gənc insanların vuruşmağa məcbur edilmələri darvinizmin çirkli üzüdür.**

Heç şübhəsiz, bu təlqinlərə aldananların ən böyük yanılmalarından biri insanın quruluşunun müharibəyə uyğun olduğunu və müharibənin insanlar üçün qaçılmaz olduğunu düşünmələri idi. Onlara görə, insanlar döyüşdükcə enerji və canlılıq qazanırdılar. Halbuki, bu, böyük bir yalandır. Allah insanları sülhdən hüzur tapan quruluşda yaratmışdır. Xaos və qarşıdurma insanın ruhunda böyük gərginlik və narahatlıqlara səbəb olur. İnsanın ictimai, iqtisadi və mədəni baxımdan ən sürətli inkişafı hüzur və təhlükəsizliyin hakim olduğu mühitlərdə mümkündür. Müharibə və qarşıdurma isə yalnız fəlakət və itki gətirir. Q. Himmelfarb "Darvin və darvinçi inqilab" adlı kitabında sosial darvinizmin müharibəyə baxış yönü haqqında bu açıqlamanı vermişdir:

*Generallar üçün birinci növbədə müharibə ehtiyacları gəlirdi, imperialist macəralar və milli təcrübələr bundan sonra gəlirdi. Digərləri üçün isə vəziyyət tam əksinə idi: imperialist və milli maraqlar müharibəni və militarizmi gətirdi. Hətta elələri də var idi ki, müharibənin üstünlüklərini militarizm və millətçilik kimi məsuliyyətlər olmadan da sevirdilər; bu, ən saf halı ilə ön mühakiməsiz sosial darvinizm idi.* (Richard Hofstadter, *Social Darwinism in American Thought*, s. 197; Gertrude Himmelfarb, *Darwin and the Darwinian Revolution*, s. 417)

Təkamülçü antropoloq və Darvinin həyatını yazan Sir Artur Kit də müharibə tərəfdarı olduğunu açıq şəkildə ifadə etmiş, fərdi şəkildə sülhü sevməsinə baxmayaraq, belə bir təcrübənin, yəni sülhün nəticələrindən qorxduğunu söyləyib olduqca səhv bir dünyagörüşü ifadə etmişdir. Beş əsr davam edən sülh dövründən sonra dünyanın neçə payız boyu budanmamış və sonsuz illər boyu nəzarət edilməyən hədsiz böyümə ilə üsyan edən meyvə bağına çevriləcəyi kimi məntiq xarici uzaqgörənlik etmişdir.

(Arthur Keith'in, *Machin'in Darwin's Theory Applied to Mankind* adlı kitabına yazdığı önsözden, s. Viii; Gertrude Himmelfarb, *Darwin and the Darwinian Revolution*, s. 417)

Kitin sözləri darvinist təlqinlərin insanları nə qədər mərhəmətsizləşdirdiyinin bir göstəricisidir. Kit dünyanın zamanla "budanması"nın lazım olduğuna, yəni dünyanın güclənməsinə sözdə mane olan ünsürlərin kəsilib atılmasının lazım olduğuna inanırdı. Açıq şəkildə vəhşiliyi müdafiə edirdi. Kitin bəhs etdiyi budama müharibələr idi. Müharibələrdə ölənlər, yəni Kitin "atılması lazım olanlar" olaraq gördükləri isə yazıq qadınlar, kişilər və günahsız uşaqlar idi. Darvinizmin yalanlarına inananların bu günahsızlara acıması və sevgi, şəfqət duyması mümkün deyil. Çünki inandıqları nəzəriyyə onlara ağ irqi inkişaf etdirib gücləndirmək üçün lazım gəldikdə zəif görünənlərin yox ediləcəyi vicdansızlığını təlqin edir. Bu da tarix boyu bənzəri az görünən zalımlıqların yaşanmasına səbəb olmuşdur.

**İnsanlar müharibəni yaşamadıqları müddətcə, bunun nə qədər böyük fəlakət olduğunu düşünməyə bilərlər. Ancaq unutmamaq lazımdır ki, müharibələr milyonlarla günahsız insan üçün böyük hüzn, itki və acı deməkdir. Dünyanı müharibələrin və qarşıdurmaların olmadığı, hüzur və güvən dolu bir yerə çevirmənin yolu din əxlaqına uyğun olmayan ideologiyaların fikirlə ortadan qaldırılması və Allahın əmri olan gözəl əxlaqın yayılmasıdır.**



Odur ki, sosial darvinizmin müharibə haqqındakı bu yanlış şərhləri 19-cu əsrdən etibarən fasiləsiz davam edən müharibələrin, daxili qarşıdurmaların, döyüş və qırğınların əsas səbəblərindəndir. Sosial darvinizm haqqında heç bir şey bilməyən bəzi insanlar belə bu nəzəriyyəyə əsaslanan müharibə çağırışları nəticəsində sosial darvinizmin təsirinə düşmüşlər.

20-ci əsrin əvvəllərində isə yalnız bir qrup ideoloq deyil, jurnalistlərdən akademiklərə və siyasətçilərdən bürokratlara qədər bir çox insan



**1906-cı ildə vəhşicəsinə döyülən Afrikalı Amerikalılar.**

**Allah sevgisi və Onun yaratdığı insanlara qarşı mərhəmət və şəfqət hissi hakim olmadığı müddətcə insanlıq bu cür faciələri yaşamağa davam edəcək.**

müharibənin lazımlılığına inanmaqla yanılmışdılar. (W. Carr, *A history of Germany 1815-1990*, 4. Baskı, s. 205; Ernst Haeckel, *Der Kamkpf um den Entwicklungs-Gedanken*, 1905) Yəni qadınların, uşaqların, yaşlıların və möhtac vəziyyətdəki insanların yox edilmələri, gənc insanların əhəmiyyət vermədən cəbhəyə aparılmaları sözdə insanlığın faydasına təşviq edilirdi.

Bu fikirləri yuxarı məqamlarda olanlar da bölüşürdülər. Məsələn, alman kansleri Betman-Holveq Birinci Dünya Müharibəsi başlayanda orta sinfin arasında məşhur olan slavyan və tevtonlar arasında qarşıdurmanın qaçılmaz olduğu haqqındakı fikri bölüşürdü. (W. Carr, *A History of Germany 1815-1990*, 4. Baskı, s. 208) Kayzerin də eyni fikirləri bölüşdüyü bilinirdi. Bir çox tarixçinin qəbul etdiyi kimi, müharibənin qaçılmaz olduğu, aşağı irqlərin təmizlənməsi üçün təbii və faydalı olduğu yönündəki vicdan xarici iddia Birinci Dünya Müharibəsinin ən əhəmiyyətli səbəblərindən biri idi.

Faşizmin qabaqcılı sayılan alman fəlsəfəçi Niçşe Almaniyada sosial darvinizmin ən öndə gələn müdafiəçilərindən biri idi. Niçşenin sözlərində də Bernhardi ilə eyni səbəblərdən müharibə tərəfdarı olduğu açıq şəkildə görünürdü. Niçşeyə görə, ideal ictimai sistem müharibəni hədəf almalı idi: "Kişilər döyüş üçün öyrədiləcəklər və qadınlar isə döyüşçülərin təkrar dünyaya gəlməsi üçün çalışacaqlar; bunun xaricində hər şey axmaqlıqdır". (Oscar Levy, *Complete Works of Nietzsche*, 1930, Vol. 2, s. 75) Niçşenin azğın dünyagörüşünə görə, həyat yalnız müharibədən ibarət idi və hər şey müharibə üçün idi.

Həm Darvinin, həm də Niçşenin böyük pərəstişkarı olan Hitler onların döyüşçü fikirlərini tətbiq edən fanatik sosial darvinist idi. Hitler militarist düşüncələrini təkamül nəzəriyyəsi ilə birləşdirib belə demişdi:

*Təbiətin hamısı güc və zəif arasındakı davamlı qarşıdurma və güclünün zəif üzərindəki sonsuzadək sürən zəfəridir.* (H. Enoch, *Evolution or Creation*, 1966, s. 147-148)

Hitler və bənzərlərinin iddia etdikləri bu fikirlər, əslində, böyük cəhalətin məhsulu idi. Militarist və təcavüzkar düşüncələrini özlərinə görə təkamül nəzəriyyəsi ilə birlikdə elmi zəminə oturtduqlarını zənn edənlər yalnız özlərini aldadırdılar. Necə ki, bu aldanışa arxalarından sürüdükləri on minlərlə insanla dünya tarixində bənzərsiz fəlakətin memarı oldular.

Yazıçı (və sionist hərəkatın qabaqcıllarından) Maks Nordau "Müharibənin fəlsəfəsi və əxlaqı" adlı məqaləsində Darvinin müharibə tərəfdarlarının ən öndə gələn adı olduğunu deyir:

*Bütün müharibə tərəfdarları arasındakı ən böyük nüfuz Darvindir. Təkamül nəzəriyyəsinin elanından sonra təbii barbarlıqlarını Darvinin adı ilə gizlədir və qəlblərinin dərinliyindəki zalım instinktlərini elmin son sözü kimi göstərirdilər.*

(Max Nordau, "The Philosophy and Morals of War", *North American Review*, 169 (1889), s. 794)



**Sosial darvinist fəlsəfənin hakim olduğu 20-ci əsr müharibə və qarşıdurmaların yer aldığı bir əsr oldu. Bu səbəbdən, tarixə qanlı əsr olaraq keçdi. Dünyanın bir çox yerində milyonlarla insanın üzündən əzab ifadəsi on illərlə əskilmədi.**

Kolumbiya universitetində tarix dərsləri deyən J. Barzun *"Darvin, Marks, Vaqner"* adlı kitabında darvinizmin çatdığı hər yerdə militarizmi və müharibəni alovlandırdığını və müharibəni bir simvol halına gətirdiyini ifadə etmişdir:

*Müharibə dünyadakı insani işlərin simvolu, imici, təşviqi, səbəbi və dili halına gəlmişdir. 1870-1914-cü illərin ədəbiyyatının əhəmiyyətli hissəsini araşdırmayan bir insan qan tökmək üçün edilən bitib-tükənməyən cəhdin bu ölçülərdə olduğunun fərqində ola bilməz. Əsrin ikinci yarısında ortaya çıxan xadimlər müharibəni sanki şeirləşdirmiş, müharibə arzusundan böyük həzz almışlar. İnsanlığın yaranma məqsədinin yalnız həyat mübarizəsi olduğunu və bu mübarizəni itirənlərin ölməsinin təbii qarşılanmasının lazım olduğunu müdafiə etmişlər...*

(Jacques Barzun, Darwin, Marx, Wagner, Garden City, New York, Doubleday, 1958, s. 92, 93)

*Barzun yenə eyni kitabında sosial darvinizmin irqçi və döyüşçü yönünün 19-cu əsrin sonlarından etibarən, xüsusilə Avropaya necə təsir etdiyini belə açıqlamışdır:*

*1870 və 1914-cü illərdə hər Avropa ölkəsində silahlanmanı istəyən bir müharibə partiyası, mərhəmətsiz rəqabət istəyən bir fərdiyyətçi partiya, geri qalmış insanlar üzərində sərbəst əl istəyən bir imperialist partiya, xaricilərə qarşı daxildən təsviyəni təmin edən bir sosialist partiya var idi… Bu partiyaların hamısı zəfəri qeyd etdiklərində və ya məğlub olduqlarında, hətta daha əvvəl də elmin təkrar canlanması mənasını verən Spenseri (sosial darvinizmin qurucusu) və Darvini dəstəkləmişdilər. İrq bioloji idi, sosioloji idi, darvinçi idi.* (Jacques Barzun, *Darwin, Marx, Wagner*, s. 92-95)

Bir çox alim və yazıçının əsərlərində təsbit edib dilə gətirdikləri bu darvinist yalanlar 20-ci əsrin niyə müharibə, qətliam və soyqırımların əsri olduğunu açıqlayan ifadələrdir.



Aparılan müharibələrdə zərər çəkənlər yalnız dinc əhali deyildi. Qan, kədər və göz yaşından başqa bir şey gətirməyən batil fəlsəfənin nəticəsiylə döyüşməyə məcbur edilən əsgərlər də, müharibələrin zalım görünüşünün bir hissəsi olmuşdular.

## ALLAH QATINDA ÜSTÜNLÜK İRQƏ GÖRƏ DEYİL, TƏQVAYA GÖRƏDİR

İrqçiliyin dəhşəti yalnız nasistlərlə məhdudlaşmır. Dünyanın bir çox yerində irqçilik səbəbi ilə böyük fəlakətlər yaşanmış, yüz minlərlə insan irqçilik üzündən öldürülmüş, alçaldılmış, evlərindən, ailələrindən zorla alınıb kölə edilmiş və sözdə heyvan rəftarı görüb sonda ölümə tərk edilmiş, dərman təcrübələrində istifadə edilmiş, həyatları heçə sayılmışdır. Bu kitabda verilən nümunələr irqçiliyə əsaslanan vəhşiliyin və mərhəmətsizliyin sənədləşdirilmiş nümunələrindən yalnız bir neçəsidir.

Qaradərili bir vəkilə hücum edən ağdərili tələbələr. İrqçilik qəzəb, kin, təcavüzkarlıq və qarşıdurma səbəbidir. Bu tələbələr heç günahı olmayan bir insanı yalnız dərisinin rənginə görə öldürə biləcək qədər insanlıqdan çıxıblar. Onları bu hala gətirən isə bilərək və ya bilməyərək təlqini altında yaşadıqları sosial darvinizmdir. Üstdə 1930-cu ildə Alabamada bir yolçu avtobusu. Ağ olmayanlar üçün "Colored Passengers" (ağ olmayan yolçular) ifadəsi ilə ifadə olunaraq ayrı bir hissə hazırlanmışdır.



Materialist nəzəriyyə olan darvinizmin nəzərdə tutduğu cəmiyyət quruluşunun necə olduğu yaxşı təsbit edilməlidir. Sosial darvinizm digər bütün materialist ictimai nəzəriyyələr kimi, insanın yalnız özünə qarşı məsul olan və öz mənfəətləri üçün yaşayan eqoist bir varlıq olduğunu qarşıya qoyduğu üçün, heç bir zaman fərdlərə və cəmiyyətə gözəl əxlaq və xoşbəxtlik qazandıra bilməz. İnsanın gözəl əxlaq və xoşbəxtlik qazanması üçün eqoist maraqlardan imtina etməlidir. Bunun necə olduğunu insana öyrədən isə Rəbbimizin əmri olan din əxlaqıdır. Quranda insana Allaha qarşı olan məsuliyyətləri və Onun razılığı üçün tabe olması gərəkən əxlaqi

dəyərlər bildirilmişdir.

**… Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun…** (Maidə surəsi, 2)

**Xeyr! Kim yaxşı işlər gö-rüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.** (Bəqərə surəsi, 112)

Əgər bir insan Allahın əmrlərinə, Allahın endirdiyi kitaba iman edib tabe olarsa, o zaman insanlara qarşı sevgi, mərhəmət və şəfqət bəsləyə bilər.

Allahdan qorxan, Allahı sevən və əmrlərinə itaət edən kəslər insanları Allahın yaratdığı bir varlıq olaraq sevər, onları irqlərinə, millətlərinə, tiplərinə, rənglərinə və dillərinə görə ayırmazlar. Hər birində Allahın yaratdığı bir gözəllik görər, bu gözəllikdən zövq alarlar. İnancları səbəbi ilə mehriban, mərhəmətli, qoruyucu insanlar olarlar. Darvinizmin yalanları ilə beyni yuyulan bir insan digər irqlərdən, millətlərdən nifrət edər; onları əzməkdən, hətta yox etməkdən zövq alar və çevrəsinə daima gərginlik, bədbəxtlik və qorxu gətirər. Budur, 19-cu və 20-ci əsrdəki irqçilik və imperializm darvinist dünyagörüşünün bir nəticəsidir.

Allah Quranda irqlərə görə ayrı-seçkiliyin edilməsini qadağan etmiş, insanların əxlaqları və imanları ilə Allah qatında üstün olacağını bildirmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.** (Hucurat surəsi, 13)

## DARVİN-NASİZM KOALİSİYASININ NƏTİCƏSİ: 40 MİLYON ÖLÜ

Sosial darvinizm haqqında bura kimi izah edilənlərdən sonra dünya tarixinin ən böyük soyqırımlarından birinin memarı olan və tarixə ən amansız və zalım hökümətlərdən biri olaraq keçən nasistlərin də sosial darvinizmə möhkəm bağlı olduqlarını demək təəccüblü deyil.



ADOLF HITLER

Hitlerin və nasist ideoloqlarının yazıları, nitq mətnləri və digər sənədlər araşdırıldığında onların irqçi, təcavüzkar və döyüşçü siyasətlərini darvinizmin üzərinə qurduqları açıq şəkildə görünər.

Hitlerin eyni heyvan yetişdirənlər kimi insan soyunu islah edəcəyini zənn etməsi, aryan irqini "kirlətdiyini" düşündüyü irqlərin, irsi xəstəliyi olanların və zəiflərin yox edilmələrinin lazım olduğunu iddia etməsi, milyonlarla insanın qətlini mərhəmətsiz şəkildə əmr etməsi onun

insanları heyvan kimi gördüyünün və darvinizmə olan bağlılığının dəlillərindən bir neçəsidir. Nasist soyqırımından sağ qurtulanlardan biri A. Kimel "Nasist terroru" başlıqlı məqaləsində sosial darvinizm və nasizm əlaqəsini vurğulayır və sosial darvinizmə inanan nasistlərin insanlara necə acımadan heyvani rəftar etdiklərini belə açıqlayır:

*Nasizm sosial darvinizmi qəbul edərək insanları heyvanlarla bərabər hala gətirdi, əllərindəki fərdi seçim azadlığını, özləri üçün düşünə bilmək qabiliyyətini aldı. Mərhəmətsizlik, terror, yalan və insanın insan tərəfindən amansız istismar edilməsi bir davranış normasına çevrildi. Əgər insanları heyvanlar kimi eyni təbii seleksiya qanunları idarə edirsə, insanın şüurundakı ilahi qığılcım götürüldüyündə insanlarla heyvan kimi davranıla bilər: süni şəkildə çoxaldıla bilər və mal-heyvan kimi rəftar görə bilərlər. Məsələn, müharibə və müharibənin laqeyd idarəsi böyük itkilər gətirmişdi. Hitler vəziyyəti itkilərin qarşısını almaqla deyil, artırma metodlarını inkişaf etdirməklə düzəltməyə çalışırdı. Oşvitzdə (nasist həkim) Mengele əkizlər üzərində onları öldürməklə, kəsib doğramaqla artım üsullarının necə inkişaf etdiriləcəyinə, alman qadınlarının doğum məhsuldarlığının necə iki qat artırıla biləcəyinə dair "elmi" təcrübələr apardı. Almanlar törəyən heyvanlar kimi görüldü, S.S. onların çobanları və Führer də tərbiyəçi sahibləri idi. Almanlar mükafat qazanmış heyvanlar, digər xalqlar sıravi heyvanlar və yəhudilər isə zərərli böcəklər kimi qəbul edilmiş və elə rəftar görmüşlər...*

(http://www.kimel.net/terror.html)

Nasistlərin əsrlər boyu nümunəsi görünməmiş bir soyqırım reallaşdırmaqda əsaslandıqları azğın dünyagörüşü bu idi. Hitlerin müdafiə etdiyi "üstün irq" yalanı bioloji "növ"ün içində yer alan qrupların bərabərsizliyi yalanına əsaslanırdı. Yəni Hitlerə və tərəfdarlarına görə, bəzi növlər təkamüldə inkişaf etmiş, amma bu növlərin içindəki bəzi fərd və ya qruplar geri qalmışdılar. İrqçiliyin zəminini meydana gətirən bu yanlış iddia Darvinin nəzəriyyəsinin ən fundamental nöqtələrindən biri idi. Proffessor K. A. Şloynes Oşvitz haqqındakı kitabında Darvinin nəzəriyyəsinin irqçiliyə sözdə elmi dəstək verdiyini belə qəbul edir:

*Darvinin həyatda qalma mübarizəsi fikri irqçilərin üstün və aşağı insan və millət anlayışını haqlı göstərdi və bunların arasındakı mübarizəni təsdiqlədi.*

(Karl A. Schleunes, The Twisted Road to Auschwitz, University of Illinois Press, Urbana, Illinois, 1970. s.30-32)

Təkamülçü elm adamları tam olaraq nasistlərin istədiyi kimi nəzəri haşiyə cızırdılar. Məsələn, heyvan davranış elminin qurucusu sayılan təkamülçü K. Lorenz irqlərin təmizlənməsini bioloji quruluşlarla müqayisə edib belə deyirdi:

*Eyni xərçəngdə olduğu kimi, ən yaxşı müalicə parazitlərin kökünü ən qısa müddətdə kəsməkdir. Həmişə cəmiyyət üçün problem olan aşağı millətlərin mənfi sosial təsirlərinə qarşı yevgen qorunma üsullarının tətbiq olunması zəruridir... Bu aşağı ünsürlər (sağlam) bir cəmiyyətin içindən təsirli şəkildə ayırd edilmədiklərində (eynilə bəd xassəli şişin hüceyrələrinin bütün insan bədənində sürətlə çoxalmasına izn verilməsi kimi) həm özlərini,*



Nasist zülmündən ən çox payını alanlardan biri də ac, kimsəsiz və baxımsız qalan uşaqlardır.

*həm də onları saxlayan bünyəni yox edərlər.*

(A. Chase, The Legacy of Malthus; The Social Costs of the New Scientific Racism, Alfred Knopf, New York, 1980, s. 349)

Fərqli irqləri və ya cəmiyyətdəki zəif, möhtac insanları bir növ xərçəng kimi görmək və onları amansızca təmizləməyi istəmək açıqlanması mümkün olmayan vəhşilikdir. Nasist ideoloqlar bu vəhşiliyi darvinizmin yalanlarını qarşıya qoymaqla sözdə elm maskası altında gizlətməyə çalışmışlar. "İrq və kral" adlı kitabın yazıçısı J. Tenenbaum nasist siyasətlərinin darvinizmlə necə formalaşdığını belə bildirir:

*Mübarizə, seleksiya və ən uyğun olanın həyatda qalması... Bütün bu anlayış və müşahidələr Darvin tərəfindən ortaya atıldı. Ancaq daha əvvəl də 19-cu əsr alman sosial fəlsəfəsində bu anlayışlar qəbul edilməyə başlanmışdı... Bunun bir nəticəsi kimi almanların üstün irq olduqları inancına əsaslanan bütün dünyaya hakim olma doktrinası inkişaf etdi. Bu doktrina, eyni zamanda, Almaniya dövləti ilə zəif millətlərin arasındakı "çəkic və zindan" əlaqəsinə əsaslandırılmışdı.*

(Arthur Keith, Evolution and Ethics, G.P. Putnam's Sons, New York, 1946, s. 230)

Tenenbaum nasistlərin siyasi sistemlərini heç bir əskiklik olmadan tamamilə darvinizmə görə təyin etdiklərini açıqladıqdan sonra belə davam edir:

*Siyasi lüğətləri torpaq, mübarizə, seleksiya və nəslin tükənməsi kimi sözlərlə dolu idi. Məntiqlərinin qiyası açıq şəkildə belə ifadə edilmişdi: dünya fərqli millətlərin torpaq üçün mübarizə apardığı balta girməmiş bir meşədir. Daha güclü olan qazanır, daha zəif olan ölür və ya öldürülür...*

(The Nuremberg Trials, Vol. 14, U.S. Government Printing Office, Washington, D.C., s. 279)

Hitler 1933-cü ildə Nuremberq mitinqində üstün irqlərin aşağı irqləri idarə etdiyini, bunun təbiətdə görünən haqq olduğunu və yeganə məntiqli haqq olduğunu irəli sürərkən bunu təbiətin qanunu kimi gördüyünü iddia edirdi. (J. Tenenbaum, Race and Reich, Twayne Pub., New York, 1956, s. 211) Amma, əlbəttə, bu iddiası ilə tarixin ən böyük yalanlarından birini müdafiə edirdi.



Hitler, Nuremberq mitinqi zamanı

Hitlerin "Millətin qədəri haqqında" başlıqlı nitqindəki sözləri də darvinist görüşlərinin bir xülasəsidir:

*Həyatın ən fundamental motivasiya amilləri arasında öz-özünü mühafizə və*

*gələcək nəsillərin qorunması yer alır. Siyasət insanların həyatda qala bilmək üçün apardıqları mübarizədən başqa bir şey deyil. Bu şiddətli yaşamaq arzusu dünya miqyaslıdır və bütün millətləri yönləndirir. Yaşamaq istəyi qarşıdurmaya aparmalıdır, çünki bu istək təmin edilə bilməməklə yanaşı, eyni vaxtda, həyatın təməlidir. Yaşanan sahə məhduddur. Buna görə, insaniyyətdən çox mərhəmətsizlik həyatda əsasdır! İnsan ixtilaflar və davam edən mübarizə nəticəsində dünyanın sahibi olmuşdur. Bu, insanlığın deyil, güc və hakimiyyəti qazanan qüvvənin üstünlüyüdür. İrqlər arasında fərqliliklər vardır. Dünya mədəniyyətini seçmə sinifdən (elitalardan) almışdır. Bu gün nə görürüksə, hamısı aryanların işlərinin və müvəffəqiyyətlərinin bir nəticəsidir. Ancaq hər irqin içində nəticəyə aparan əsl amil yetişdirməyi bacardığı əhəmiyyətli şəxsiyyətlərdir. İnsanlığın şəklini demokratik çoxluqlar deyil, əhəmiyyətli şəxsiyyətlər təyin etmişdir.*

(Adolf Hitler, Um das Schicksal der Nation', in B. Dusik (ed.), Hitler. Reden Schriften Anordnungen. Februar 1925 bis Januar 1933, vol. 2(2), Munich, 1992, Doc 245.)

Hitlerin hədyanlarının açıq göründüyü bu azğın fikirlər o dövrdə bir çoxlarını təsiri altına almışdı. Cəhalətin də təsiri ilə on minlərlə insan Hitlerin xəyal məhsulu olan bu fərziyyələrin təqibçisi oldu. Daha əvvəl də vurğuladığımız kimi, cəmiyyətləri inkişaf etdirən qarşıdurma meyilliliyi və ya həyatda qala bilmək üçün aparılan mərhəmətsiz mübarizə deyil. Hər cəmiyyət daha zəngin və gözəl həyat üçün cəhd göstərər, amma bu cəhdin müvəffəqiyyətə çatması söz mövzusu cəmiyyətin mənəvi və əxlaqi dəyərlərə olan bağlılığı ilə düz mütənasibdir. Başqalarını yox etməyə çalışmaq, bitmək bilməyən şiddət və təcavüzkarlıq həmişə bütün tərəflərə müsibət gətirər. İrqlər arasındakı fiziki və ya mədəni fərqliliklər isə bunların birini digərinə üstün edən xüsusiyyətlər deyil. Tam əksinə, bu fərqliliklər sülh və təhlükəsizliyin hakim olduğu mühitlərdə mədəni zənginliyi təmin edən qiymətli ünsürlərdir.



**1945-ci il Almaniyasından bir şəkil**

Din əxlaqı da bu fərqlilikləri mədəni zənginliyə çevirməyi zəruri edir. Allah insanlara istənilən şərtlərdə bağışlayıcı olmağı, ədalətdən əsla ayrılmamağı, digər insanlara şəfqət və mərhəmətlə yanaşmağı əmr etmişdir. İman edənlər Allahın fərqli irqlər və millətlər yaratmasının bir çox hikmətinin olduğunu bilər, qardaşlıq və həmrəylik ruhu ilə hərəkət edərlər. İnsanları irqlərinə görə təsnif etməyə çalışmaq, mənsub olduğu irq səbəbi ilə (heç bir haqlı səbəbi olmamağına baxmayaraq) öyünüb qürurlanmaq isə iman etməyənlərin və şərik qoşanların xüsusiyyətləridir. Bir ayədə inkar edənlərin öz soylarını kinlə qorumaq həvəsləri bu şəkildə bildirilir:

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahiliyyə lovğalığına qapıldıqları zaman...** (Fəth surəsi, 26)

Hitler isə ruhi problemlərinin də təsiri ilə bu azğın fikirlərini müdafiə etməyə davam etmiş, Darvinin nəzəriyyəsinin öz fikirləri ilə bu dərəcə paralel olmasını batil fikirlərini yaymaq üçün sözdə yaxşı bir vasitə kimi görmüşdür. Hitlerin darvinizmə olan bağlılığı hələ 1925-ci ildə nəşr olunan "Mənim mübarizəm" adlı kitabında görünür. Məsələn, kitabının 4-cü hissəsində darvinizmin müvəffəqiyyətli Almaniya üçün yeganə təməl olduğunu ifadə etmişdir. "Darvin: əvvəl və sonra" kitabının yazıçısı Klark Hitlerin darvinizmə olan bağlılığından belə bəhs edir:

*Təkamüli fikirlər (olduqca açıq bir şəkildə) "Mənim mübarizəm"*in ən pis hissələrinin və (Hitlerin) xalqa nitqinin qaynağıdır. Hitler üstün irqin həmişə aşağı irqə üstün gələcəyi nəticəsinə gəlmişdir.

(Robert Clark, Darwin: Before and After, Grand Rapids International Press, Grand Rapids, MI, 1958, s. 115)




**Hitlerin sosial darvinist açıqlamalara tez-tez yer verdiyi kitabı: "Mübarizəm"**

"Nasist Almaniyasının öldüyü gün" adlı kitabın yazıçısı B. Uaylder-Smiz nasist doktrinasının təməl ünsürünün nə olduğunu belə açıqlayır:

*Nasist nəzəriyyəsinin və doktrinasının ən əhəmiyyətli prinsiplərindən biri... təkamül nəzəriyyəsinin (və) ...bütün biologiyanın yuxarıya doğru təkmilləşdiyi və daha az inkişaf etmiş növlərin fəal şəkildə kökünün kəsilməsinin lazım olduğu (və) ...təbii seleksiyaya kömək edilə biləcəyi və edilməsinin lazım olduğudur... buna görə, (nasistlər) "az inkişaf etmiş" olaraq qiymətləndirdikləri yəhudiləri və... qaraları yox etmək üçün siyasi qanunları tətbiq etməyə başladılar...* (Beate Wilder-Smith, The Day Nazi Germany Died, Master Books, San Diego, CA, 1982, s. 27)

Professor C. J. Stein *"American scientist"* jurnalındakı "Bioloji elm və nasizmin kökləri" başlıqlı yazısında Hitlerin sosial darvinist fikirləri haqqında belə yazır:

*... Alman sosial darvinizmi Almaniyanın hər yerində məşhur şəkildə bilinir və qəbul edilir, bundan daha əhəmiyyətlisi, elm adamları da daxil olmaqla, əksər alman tərəfindən elmi baxımdan doğru olduğu düşünülürdü. Daha yaxın zamanlarda millətçi sosializm və Hitler üzərinə aparılan akademik işlər bu həqiqətin fərqində olmağa başladı... (Darvinin nəzəriyyəsini tətbiq etməyi) nasizmin ən diqqəti cəlb edən xüsusiyyəti idi. Millətçi sosializm "bio-siyasi"... radikal bərabərsizliyə dair mistik-bioloji bir siyasətdir; var olmaq üçün sonsuz mübarizəyə əsaslanır, ən uyğun olanın həyatda qalmasını təbiət qanunu olaraq qəbul edir və təbii seleksiyanı cəmiyyət siyasətinə çevirmək üçün dövlət gücündən istifadə edir...*

(George J. Stein, "Biological science and the roots of Nazism", American Scientist 76(1):50–58, 1988, s.51)

Professor Ştayn yazısında alman sosial darvinizminin təməlində insanın heyvandan fərqli canlı olmadığı iddiasının olduğunu ifadə edir və belə deyir:

*Alman sosial darvinizminin ana xətləri ilə xülasəsi belə idi... insan üstün və ya insani xüsusiyyətlərə sahib deyildi və yalnız təbiətin bir parçası idi. Digər tərəfdən almanlar bioloji baxımdan daha üstün bir birliyin üzvləri idilər... Siyasət biologiya qanunlarının sadə tətbiqi idi. Əslində, Hekkel və tərəfdarları olan sosial darvinistlər millətçi sosializmin təməl fərziyyələri halını alan fikirləri inkişaf etdirdilər... Dövlətin təşkilat olaraq işi yevgeni və süni seleksiya idi...*

(George J. Stein, "Biological science and the roots of Nazism", American Scientist 76(1):50–58, 1988, s. 56)

Ştaynın yazısında açıq şəkildə ifadə etdiyi millətçi sosialistlərin bu yanılmaları onlarla ölkənin qatılmaq məcburiyyətində qaldığı dünya müharibəsinə zəmin hazırladı. Darvinin xəyal məhsulu nəzəriyyələrinin dəstəyi ilə inkişaf edib güc tapan nasizm dünya tarixində bənzəri az olan bir fəlakətin memarı oldu. Bu, elə böyük bir fəlakət idi ki, milyonlarla insan həyatını itirdi, şəhərlər xəritələrdən silindi. Ən böyük zərəri isə nasist ideoloqların təbliğatlarında daha çox güc qazanacağını və inkişaf edəcəyini iddia etdikləri alman cəmiyyəti gördü. Qarşıdurmanın, müharibənin, mərhəmətsizliyin, digər millətləri yox etməyə cəhd etməyin bir milləti qətiyyən inkişaf etdirməyəcəyi yenə görülmüş oldu.

Hitler isə yaşadığı müddətdə nasistlərin özlərinə və digər insanlara dünyagörüşünü vurğulayan "Biz nasistlər... barbarıq. Barbar olmaq istəyirik. Bu, şərəfli bir ünvandır və bununla dünyanı gəncləşdirəcəyik" (Rauschning, H., The Revolution of Nihilism, Alliance Book Corp., New York, 1939) sözləri ilə yanılmalarından heç imtina etmədi.

Sir Artur Kitin ifadəsi ilə təkamülçü olan Hitler Almaniyanın təcrübəsini təkamül nəzəriyyəsinə uyğunlaşdırmaq üçün şüurlu şəkildə çalışmışdı. (Arthur Keith, Evolution and Ethics, G.P. Putnam's Sons, New York, 1946, s. 230) Kit, bundan başqa, təkamül nəzəriyyəsi, Hitler və müharibə üçbucağı haqqında bunları deyir:

*Əgər müharibə təkamülün uşağıdırsa, (və belə olduğuna inanıram) bu vəziyyətdə təkamül "dəli olmuş" və qəbilələrin, millətlərin və fərqli irqlərin bir-birləri ilə rəqabətlərində elə mərhəmətsiz olmuşdur ki, inkişafa mane olacaq rol oynamışdır. Təkamüli qanunların insan təbiətinə zorla qəbul etdirdiyi sanksiyalardan onu qurtarmaq xaricində müharibədən xilas olmağın heç bir yolu yoxdur.*

(Arthur Keith, Evolution and Ethics, G.P. Putnam's Sons, New York, 1946, s. 105)

Peter Hofman *"Hitlerin şəxsi təhlükəsizliyi"* adlı kitabında Hitlerin darvinist fikirləri haqqında belə deyir:

*Hitler mübarizəyə hər insanı digərlərinə üstün gəlmək üçün çalışmağa məcbur edən darvinçi bir prinsip olaraq inandı; mübarizə olmadan pozular və yox olardılar... 1945-ci ilin aprel ayındakı məğlubiyyətində belə Hitler güclünün həyatda qalmasına olan inancını dilə gətirdi və slavyanların daha güclü olduqlarını isbat etdiklərini eşitdirdi.*

(Peter Hoffman, Hitler's Personal Security, London, Pergamon Press, 1979, s. 264)

Qısası, bir çox tarixçi və tədqiqatçının fikirlərindən aydın olduğu kimi,

eyni zamanda, Hitlerin yazılarında və nitqlərində də açıq şəkildə göründüyü kimi, nasizm darvinizmdən güc və qaynaq tapmışdı. Hitler və digər nasist öndərlər bir çox sözdə elmi dəlildən istifadə edib bütün şəxsi dəlilik, mərhəmətsizlik və zalımlıqlarını darvinizmə əsaslandırıb özlərinə görə qanuniləşdirmişdilər. Əslində, belə bir ideologiya və psixologiyanı inkişaf etdirmələrinə səbəb olan mədəni mühit də böyük ölçüdə sosial darvinizmin izlərini daşıyırdı. Növbəti səhifələrdə vurğulayacağımız kimi, E. Hekkel kimi qatı darvinistlərin əli ilə Almaniyaya girən sosial darvinizm 20-ci əsrin birinci yarısında bütün alman cəmiyyətinə dərindən təsir etmiş, degenerasiya etmiş və nasizmə qapılmalarına səbəb olan ən əhəmiyyətli zehni təməli meydana gətirmişdi.

## NASİST ALMANİYASINDA TƏKAMÜL VƏ MÜHARİBƏ

Sosial darvinizmin azğın təlqinlərinə görə, müharibə cəmiyyətləri inkişaf etdirən və ən uyğun olanların seçilməsini, zəiflərin isə ələnməsini təmin edən bir yoldur. Bu yanlış cərəyan müharibəni yalnız zəif irqləri yox etdiyi üçün deyil, eyni zamanda, üstün irq içindəki zəif üzvləri yox etdiyinə görə də müsbət güc olaraq qəbul edir. Buna görə, sosial darvinizm müharibəni təsdiqləyir və təşviq edir. Nasistlər də eyni sosial darvinist məntiqlə müharibəni mənimsəmişlər. Robert Klark *"Darvin: əvvəli və sonrası"* adlı kitabında Hitlerin müharibəyə baxış yönü ilə əlaqədar olaraq *"Mənim mübarizəm"*'i qaynaq göstərib aşağıdakı bilgiləri verir:





**19 avqust 1942: Fransa sahili Dyepdəki nasist hərbi qarnizonu tərəfindən qətl edilən insanlar.**
**Üstdə (sağda), Norveç cəbhəsindəki müharibə şəraitində ağır silah daşıyan almanlar.**
**Sosial darvinist məntiq keçdiyimiz əsrdə bir çox insanın müharibələrdə ölməsinə, bir çox ölkənin də məhvə məruz qalmasına səbəb olmuşdur.**

*Hitlerin Millətlər Cəmiyyətinə, müharibəyə və sülhə yanaşması eyni prinsiplərə əsaslanır. "Bir dünya məhkəməsi... bir zarafat olardı.... Təbiət tamamilə gücün və zəifin qüvvətli mübarizəsidir, güclünün zəif üzərindəki sonsuz zəfəridir. Əgər belə olmasaydı, təbiətin daxilində pozulmanın xaricində bir şey olmazdı. Bu ən əsas qanunu pozan dövlətlər tənəzzül edər. Yaşayan döyüşməlidir. Daimi mübarizənin həyatın bir qanunu olduğu bu dünyada döyüşmək istəməyən isə yaşamaq haqqına sahib deyil. Başqa cür düşünən təbiəti alçaldar. Kədər, bədbəxtlik və xəstəlik də aldığı sərt*

*qarşılıqdır".*

(Robert Clark, Darwin: Before and After, Grand Rapids International Press, Grand Rapids, MI, 1958, s. 115-116)

İxtilafçı ideologiya və müharibə isteriyası sosial darvinizmlə birlikdə güclənmiş, darvinist təlqinlər bu meyilləri qızışdıran və bütün bir cəmiyyət tərəfindən mənimsənməsinə səbəb olan çox güclü və təsirli bir katalizator olmuşdur. İrqçilik, qarşıdurma və müharibə həsrəti bu minvalla ilk dəfə sözdə elmi dayaq tapmış və elmin nüfuzuna əsaslanıb cəmiyyətə rədd edilməz bir həqiqət kimi təqdim edilmişdir. Nasist dövrünün təkamülçü nəzəriyyəçilərindən A. E. Uiqamın 1922-ci ildə nəşr olunan kitabında yazdıqları o vaxtlar alman fikir dünyasında olduqca çox rast gəlinən yalanlardan birini əks etdirməsi baxımından diqqəti cəlb edir:

*Bir zamanlar insanların beyinləri əmioğluları olan insanabənzər canlılardan çox az böyük idi. Amma təpikləməklə, dişləməklə, döyüşməklə... və düşmənlərini hiyləgərliklə yenməklə və bunları edəcək qabiliyyətə sahib olmayanları öldürməklə insanların beyinləri böyüdü və həcm baxımından olmasa da, çeviklik və ağıl baxımından inkişaf etdi.*

(A. E. Wiggam, The New Dialogue of Science, Garden Publishing Co., Garden City, NY, 1922, s. 102)



**3-4 milyon insanın öldüyü Oşvitz düşərgəsində aclıqdan ölən və ya ölmək üzrə olan insanlar. Nasistlərin sosial darvinizm ilə dəstəklədikləri sözdə üstün irq azğınlığı milyonlarla günahsız insanın bu şəkildə ölməsinə səbəb oldu.**

Tamamilə xəstə bir zehnin məhsulu olan bu xəyali "təkamüli tarix"dən çıxarılan nəticə isə aydın idi: Nasistlərin batil düşüncələrinə görə, müharibə uzun vədədə müsbət bir şey idi, çünki təkamülçülər insanın yalnız öldürücü çəkişmələrlə irəlilədiyini iddia edirdilər. Hitler və Rozenberq kimi digər nasist ideoloqlar da dövrümüzdəki mədəniyyətin davamlı müharibələrlə meydana gəldiyini iddia etmişdilər. Dövrün bəzi sözdə elm adamları bu səhv fikri özlərinə görə müdafiə etməyi öz üzərilərinə götürmüşdülər. Məsələn, darvinizmin Almaniyadakı tanınan müdafiəçilərindən Berlin Universitetinin professoru Hekkel xüsusilə qədim yunan döyüşçü şəhər dövləti olan Spartanı tərifləmiş, spartalıların seçilmiş irq olduqlarını və buna görə müvəffəqiyyətli və üstün olduqlarını iddia etmişdir. Fövqəladə dərəcədə sağlam və güclü uşaqların xaricindəkiləri öldürmələrinin spartalılara davamlı güc və mətanət verdiyini söyləmişdir. (Ernst Haeckel, The History of Creation: Or the Development of the Earth and Its Inhabitants by the Action of Natural Causes, Appleton, New York, 1876, s. 170) Spartalıların bu mərhəmətsiz və vəhşilik dolu tətbiqlərini məqbul hesab edən Hekkelə görə, Almaniya da Sparta ənənəsini izləməli idi, çünki xəstə və fiziki çatışmazlığı olan körpələrin öldürülməsi həm öldürülən körpələrin, həm də cəmiyyətin faydası üçün idi. Hekkelin bu vicdansız və son dərəcə zalımanə təklifləri darvinizmin elmdən kənar iddialarının necə azğın bir məntiq hörgüsünə

təməl təşkil etdiyini göstərməsi baxımından əhəmiyyətli bir nümunədir. Hekkel və darvinizmə görə bütün həyatların bərabər dəyərdə olduğu və ya qorunmasının lazım olduğu yalnız ənənəvi bir doqma idi və sözdə elmi həqiqətlərə zidd düşürdü. (George Stein, "Biological science and the roots of Nazism", American Scientist 76(1):50–58, 1988., s. 56; Ernst Haeckel, The Wonders of Life; A Popular Study of Biological Philosophy, Harper, New York, 1905, s. 116) Ağıl və məntiq sahibi heç kimin qəbul etmədiyi bu iddialar bir dövr Almaniyasının öndərləri tərəfindən şiddətlə mənimsənmişdi.

**Bir çox alman ideoloqu müharibə və qarşıdurmanın insanı inkişaf etdirərək təkamülə köməkçi olduğu azğınlığına inanırdı. Ali irqin sözdə üstünlüyünə inanan nasistlər irqlərini daha da üstün hala gətirmək üçün İkinci Dünya Müharibəsini alovlandırdılar və 40 milyon insanın ölümünə səbəb oldular.**




Sosial darvinizm yalnız Almaniyada deyil, dünyanın bir çox yerində ilahi dinlərin öyrətdiyi gözəl əxlaqı, bu əxlaqda yer alan mərhəmət, qoruma, köməkləşmə, acıma, səbir etmə kimi dəyərləri rədd edirdi. Bu dəyərlərin yerinə isə mənfəətinə uyğun gəlməyəni öldürmək, yox etmək, mərhəmətsiz və amansız olmaq kimi (həqiqətdə insanlığın ən böyük azdırıcısı olan şeytana aid) xüsusiyyətlərin üstün olduğunu iddia edirdi. Nasistlərin yəhudi düşmənliyinin mənşəyində də ilahi dinlərə duyulan nifrət var idi.

Neo-nasizmin dünyada davam edən varlığı bizlərə bu xəstə ideologiyanın hələ də böyük təhlükə olmağa davam etdiyini göstərir. Unutmaq olmaz ki, hər nə ad altında olursa olsun, sosial darvinizmin insanlıq üçün uyğun hesab etdiyi həyat şəklində yalnız qarşıdurma, müharibə, mübarizə, çəkişmə, qan tökmə, döyüş, acı çəkmə və qorxu vardır. Oşvitz kimi ölüm düşərgələri sosial darvinizmin tətbiq sahələridir, darvinizm qaçılmaz şəkildə sosial darvinizmi gətirir. Sosial darvinizmin yenidən hakim olduğu dünyada isə yeni Oşvitzlər görmək mütləqdir.

## HİTLER SOSİAL DARVİNİST OLDUĞU ÜÇÜN ZALIM İDİ

Qatı darvinist olan Hitler və digər nasist öndərlər törətdikləri qətliamlara görə və insanlara illər boyu yaşatdıqları dəhşətə görə günah hissi duymurdular, hətta özlərini sözdə qəhrəman olaraq görürdülər. Çünki insanın təkamülünü təmin edən, gələcəkdə "təkmilləşməklə inkişaf etmiş nəsillərin" minnətdar olacağı bir xilaskar olduqlarını zənn edirdilər. Halbuki, bu, bir yalan və hiylə idi.



**1940-cı ildə alman işğalçılar tərəfindən asılaraq xalqa nümayiş etdirilən üç yuqoslav**

Hitlerin azğın ideologiyasına görə, toplama düşərgələri günahsız insanların qətl edildikləri, işgəncə gördükləri yerlər deyil, üstün irqin qorunması üçün xəstə, zəif və pis ünsürlərin ayrıldığı karantin yerləri idi. Hitler xəstə bir ruha və düşüncə quruluşuna sahib idi. Bu xəstə zehinin məhsulu olan təhlükəli fikirlərini sosial darvinizmin təlqinləri ilə genişləndirib tətbiq etmişdi. Beləcə, darvinizm tarixin ən böyük fəlakətini gətirən, insanlara ən böyük acı və qorxuları yaşadan bir soyqırımın və illərlə sürən müharibənin təməl fəlsəfəsini meydana gətirən saxta elm kimi tarixə keçdi. Hitler isə bu saxta elmin tətbiq edən bir zalım olaraq.

### Məşhur faşizm koalisiyası: Darvin-Hekkel-Hitler

Tarixə Ç. Darvinin və sosial darvinizmin Almaniyadakı bir nömrəli nümayəndəsi olaraq keçən Ernst Hekkel, Darvinin *"Növlərin mənşəyi"* kitabını oxuduqdan sonra belə açıqlama vermişdir:

*Darvinin mükəmməl şəkildə birləşdirilmiş təbiət anlayışında və təkamül doktrinasının güclü təməlində bioloji çalışmalarımın başlanğıcından bəri məni narahat edən bütün şübhələrimin həllini tapdım.* (Daniel Gasman, Scientific Origins, s. 6; Benjamin Wiker, Moral Darwinism: How We Became Hedonists, Intervarsity Press, 2002, s. 257)

Darvinin kitabı ilə şübhələrindən xilas olduğunu zənn edən Hekkel, əlbəttə, yanılırdı. Dövrün ibtidai elmi şərtlərində formalaşan təkamül nəzəriyyəsi həyatın başlanğıcı başda olmaqla, heç bir mövzuda məqsədyönlü, aydın və elmi məlumat ortaya qoymamışdır. Hekkel *"The Wonders of Life"* (Həyatın möcüzələri) adlı kitabında darvinizmə əsaslanaraq inkişaf etdirdiyi insan irqləri haqqındakı batil fikirlərini belə dilə gətirirdi:

*Nə qədər üstün və aşağı irqlərdəki insanların həyat tərzi və mədəniyyətləri arasında böyük fərqlər olsa da, bunlara, ümumiyyətlə, laqeyd yanaşılır və buna görə də fərqli səviyyələrdəki həyat dəyəri yanlış qiymətləndirilir. Aşağı irqlər (Vəddahlar və ya Avstraliya zənciləri) psixoloji baxımdan avropalılardan çox məməlilərə (meymun və köpəklər) daha*

*yaxındırlar. Buna görə, onların həyatı üçün tamamilə fərqli dəyər inkişaf etdirməliyik... Mədəni insanın dərin düşünən zehni ilə vəhşinin düşüncəsiz heyvan ruhu arasındakı uçurum çox böyükdür, vəhşini itin ruhundan ayıran uçurumdan da böyükdür.*

(Ernst Haeckel, The Wonders of Life: Popular Study of Biological Philosophy, Çeviri: Joseph McCab (New York: Harper & Brothers, 1905), s.390-91; Daniel Gasman, The Scientific Origins of National Socialism: Social Darwinism in Ernst Haeckel and the German Monist League, (London: MacDonald, 1971), s.39-40)

Hekkelin bu iddiaları heç bir elmi dəlilə əsaslanmırdı. Buna baxmayaraq, azğın inanclı insanlar tərəfindən sanki elmi həqiqət kimi mənimsənildi. Digər tərəfdən Hekkel təkamül nəzəriyyəsindən monizm adlandırdığı yeni materialist inanc formalaşdırdı. Monizm adlı bu azğın düşüncə ruhun varlığını tamamilə rədd edir və hər şeyi maddə ilə əlaqələndirirdi. Hekkel belə deyirdi:

*İlk dəfə təbiətin birliyini qavraya bildik, belə ki, artıq ən qarışıq üzvi hadisələrə belə mexaniki səbəbdən açıqlama gətirə bilərik. Nəticə olaraq, canlı və cansız üzvlər arasında hər hansı bir fərq yoxdur. Bütün təbiət hadisələri, havaya atılan bir daş və ya kinovar (boya, kosmetika və əcza sənayesində istifadə olunan mədən növü) hasil etmək üçün birləşən kükürd, yaxud civə, bitkilərin böyüməsi və çiçək açması, heyvanların çoxalması və ya hərəkətləri, insanın düşünməsi və hadisələri qavraması bir-birindən fərqi olmayan mexaniki hadisələrdir.* (Ernst Haeckel, The History of Creation, s. 1.23)

Materialist yanaşma ilə bir çox sualın cavabını tapdığını zənn edən Hekkel, əslində, yalnız özünü aldadırdı. Canlı və cansız üzvlər arasında heç bir fərqin olmadığı, hər şeyin mexaniki açıqlamasının olduğunu iddia edən materialist dünyagörüşü 21-ci əsrdə irəliləyən elm və aparılan araşdırmalarla böyük zərbə almış və materializmin elmi əsaslarının hər biri yerlə bir olmuşdur. Hər elmi nailiyyət və tapıntı bir daha kainatın qüsursuz bir dizayn əsəri olduğu həqiqətini sübut edir. Kainat materialistlərin iddia etdiyi kimi, əzəli və əbədi deyil, mexaniki yeniliklər nəticəsində də ortaya çıxmamışdır. Kainatı və içindəkiləri qüsursuz bir tarazlıq ilə yoxdan yaradan Allahdır və Rəbbimizin təqdir etdiyi vaxt gəldikdə bütün insanlar və varlıqlar kimi kainatın da sonu olacaq.

Lakin qatı materialist olan Hekkel azğın düşüncəsi ilə İlahi dinləri və din əxlaqının tələbi olan insaniyyəti və mərhəməti rədd edirdi. Daha əvvəl də bildirdiyimiz kimi, yevgeni vəhşiliyini müdafiə edərək spartalılar (e.ə. 9-cu əsrdə qurulmuş, sənədi, fəlsəfəni və ədəbiyyatı rədd edən, yalnız əsgəri qüvvədən ibarət yunan şəhər dövləti idi) tərəfindən tətbiq olunan insanın süni seleksiyasını müdafiə edirdi. Spartalılar dövründə bütün yeni doğan uşaqlar diqqətlə araşdırılırdı. Zəif, xəstə və ya fiziki qüsurları olanları mərhəmətsiz şəkildə qətl edirdilər. Yalnız səhhət problemi olmayan və güclü uşaqların yaşamalarına icazə verilirdi. Hekkel də spartalıların günahsız körpələri qətl edən bu vəhşi metodunu dəstəkləyirdi. (Ernst Haeckel, The History of Creation, s. 1.75-76)

Hekkel onu tənqid edənlərə isə belə cavab verirdi:

*Hər il müalicəsi olmayan xəstəliklərlə doğulan minlərlə şikəst, kar-dilsiz və əqli çatışmazlığı olan uşaqlara süni qulluq etməyin insanlığa necə faydası ola bilər?* (Benjamin Wiker, Moral Darwinism, s. 260)



**Əlil və ya şikəst doğulan körpələrə şəfqətlə yanaşmaq və onları qorumaq lazımdır.**

Şübhəsiz, Hekkelin irəli sürdüyü bu fikir çox azğın bir məntiqdə idi. Sevgi, mərhəmət və şəfqət hisslərini yalnız özlərinə fayda gətirənlərə yönəltmək insanlıqdan kənar davranışdır. Bu, materializmin və darvinizmin insanlara verdiyi təlqinlərin nəticəsində formalaşan eqoist mövqedir. Din əxlaqı yaşandıqda isə insanlar heç bir mənfəətləri olmasa belə, ehtiyac içində olana şəfqət duyur, onu sevgi və mərhəmət hissləri ilə qoruyub müdafiə edirlər. Əsl insaniyyət də budur. Məsələn, Quranda möminlərin özlərindən əvvəl yoxsulları, əsirləri, ehtiyac içində olanları düşünüb yeməklərini onlara verdikləri və bunu yalnız Allahın rizasını qazanmaq üçün etdikləri bildirilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər** *(və deyərlər)*: **"Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik!** (İnsan Surəsi, 8-9)

Digər tərəfdən, Hekkelin liderlik etdiyi monistlər yalnız fiziki xüsusiyyətlərin deyil, bəzi xarakterik xüsusiyyətlərin də genetik qüsurlardan qaynaqlandığını iddia edir və qüsurlu gördükləri hər kəsin süni seleksiya ilə məhv edilməsi fikrini müdafiə edirdilər.

Hekkelin kitabları nasist proqramının qəbul edilməsində mühüm rol oynadı. Xüsusilə, Hekkelin tələbəsi olan və həyat hekayəsini yazan Vilhelm Bölşe, Hitlerə Hekkelin sosial darvinist fikirlərini birbaşa mənimsətdi. Həmçinin 1904-cü ildən 1944-cü ilə qədər yayımlanan və yevgeni saxtakarlığı ilə saxta nasist elmini yaymaq üçün istifadə olunan ən əsas təşkilata çevrilən *Archiv för Rassen und Gesellschaftsbiologie* (İrqi və sosail biologiya arxivi) Hekkelin əsərlərindəki təhlükəli fikirlərindən istifadə etdi. (Robert Jay Lifton, The Nazi Doctors, New York: Basic Books, 1986, s.441, 161)

Tarixçi Daniel Qasmanın ifadəsilə, *Hitlerin tarix, siyasət, din, xristianlıq, təbiət, elm, sənət və təkamül haqqındakı fikirlərinin əksəriyyəti eklektik (seçmə) və fərqli bir çox mənbədən olmalarına baxmayaraq, Hekkelin fikirləri ilə üst-üstə düşürdü və eyni dildə ifadə edilirdilər.*

(Daniel Gasman, Scientific Origin, s. 161)

Hekkelin azğınlıqlarından biri də intihar və evtanaziyanı müdafiə etməsi idi. Hekkelin təxəyyülünə görə, insan yalnız ata və anası arasındakı cinsi münasibətin nəticəsi olaraq yaranıb və buna görə də ailə çox külfətli olduqda bu insan həyatdan ayrıla bilərdi.

Hekkel bu azğın düşüncələrini belə ifadə edirdi:

*Əgər bu vəziyyətdə həyat şərtləri döllənmiş yumurtadan öz günahı olmadan yaranmış varlığa çox təzyiq edərsə, ehtiyac, xəstəlik və hər cür səfalət gəlirsə, bu insanın ölümlə iztirablarına son qoymaq haqqı vardır... Bir insanın dözülməz əzablarına könüllü olaraq ölümlə son qoyması onun qurtuluşudur.* (Ernst Haeckel, Wonders of Life, s.112-14)

Halbuki, insan kor təsadüflər nəticəsində yaranmış varlıq deyil. İnsanı yaradan Allahdır və insanın yaradılışının bir məqsədi vardır. Bu məqsəd Quranda belə bildirilmişdir:

**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.** (Zariyat surəsi, 56)

İnsan həyatı boyu etdiyi hər hərəkətdən məsuldur və yaşadığı hər anın axirətdə hesabını verəcək. Hekkel kimi insanları intihara, ölümə, cinayətə sürükləyənlər isə, şübhəsiz, hesabını verə bilməyəcəkləri böyük məsuliyyətin altına girirlər.




**Nasist Almaniyasında yük maşınına yığılmış və skeletə dönmüş cəsədlər toplama düşərgələrinin gündəlik görüntülərindəndir. Bu düşərgələrdə nasistlərin aşağı irq kimi gördüyü milyonlarla polşalı, qaraçı, yəhudi günahsız insan öldürüldü. "Oşvitzdə Bir Qaraçı", "Paylaşılan Acılar: Bir Qaraçı Ailəsi Soyqırımı Xatırlayır", "Nasistlərin Qaraçı Qətliamı" kitabları onların qaraçılara etdikləri zülmü gün işığına çıxaran əsərlərdən yalnız bir neçəsidir.**

*Hekkel yenə "Wonders of Life" (Həyat möcüzələri) adlı kitabında yeni doğulan körpələrin kar və şüursuz doğulduqlarını (lakin doğru deyil) və buna görə insan ruhu daşımadıqlarını iddia etmişdi. Bu elmdən kənar iddiasına əsaslanaraq anormal doğulan körpələrin öldürülməsini müdafiə etmiş və bunun məntiqi olaraq cinayət kimi qəbul edilməyəcəyini irəli sürmüşdü. Göründüyü kimi, Hekkel açıq-aşkar cinayəti müdafiə edir, ətrafındakı insanları da qatil olmağa yönləndirirdi.*

*Hekkel yalnız insanın istəyinə bağlı evtanazini deyil, istək xaricindəki evtanazini də müdafiə edəcək qədər qəddar idi. Bu mövzudakı qəzəbini bu sözlərlə ifadə edirdi: Yüzlərlə və minlərlə müalicəsi olmayan insan - dəlilər, cüzamlılar, xərçənglilər və s. - özlərinə və ümumiyyətlə, cəmiyyətə ən kiçik bir fayda vermədən süni olaraq həyatda saxlanılırlar. (Benjamin Wiker, Moral Darwinism, s. 262; Ian T. Taylor, In The Minds of Men: Darwin and the New World Order, 3. baskı, TFE Publishing, 1991, s.409) Hekkelin bu vəziyyətə gətirdiyi mərhəmətsiz həll isə belə idi:*

*Bu pislikdən xilas olmağın yolu tək dozalıq ağrısız və sürətli təsir edən zəhərin... səlahiyyətli bir qurumun nəzarəti altında istifadə olunmasıdır.*

(Ernst Haeckel, The Wonders of Life, New York: Harper, 1904, s. 119)

*Hekkelin müdafiə etdiyi vəhşiliyin Almaniyada çox sarsıdıcı təsirləri oldu. Hekkel Almaniyada təxminən 300 min ruhi xəstənin, fiziki şikəstliyi olan insanların, müalicəsi mümkün olmayan xəstələrin və digər istənilməyən insanların mərhəmətsiz şəkildə qətl edildiyi "T4" adlı evtanazi proqramını təqdim etdi. Hekkel və Hitlerin zalımlıqlarının, təşviq etdikləri və icazə verdikləri cinayətlərin tək mənbəyi var idi: sosial darvinizm.*

*Darvin-Hekkel-Hitler koalisiyasının nəticəsində ortaya çıxan yevgeni, evtanazi, zorla sonsuzlaşdırma, toplama düşərgələri, irqi təmizləmə, qaz otaqları ilə 20-ci əsrin ortalarında insanlıq tarixinin ən böyük və qəddar zülmləri yaşandı.*

## SOSİAL DARVİNİSTLƏRİN SONSUZLAŞDIRMA VƏ ÖLDÜRMƏ QANUNLARI

Sosial darvinizmin ən geniş miqyaslı və ən mərhəmətsiz tətbiqlərindən biri də yevgenidir. (İnsan irqinin irsiyyət yolu ilə islahına çalışan sözdə elmi sahə). İlk olaraq Ç. Darvinin əmioğlusu F. Qalton tərəfindən 1883-cü ildə istifadə edilən yevgeni termini yunan dilində iki sözün birləşməsindən əmələ gəlir; eu (yaxşı) və genet (doğum). İki söz bir yerdə "doğuşdan yaxşı olma", "irsi əsillik" mənalarında istifadə edilir. Ancaq bu anlayış mənasında yer aldığı kimi yaxşılıq deyil, tam əksinə, böyük vəhşilik və zalımlıq ehtiva edir.

Yevgeni tərəfdarları yalnız öz irqlərinin və ya siniflərinin qorunmasının və inkişaf etdirilməsinin lazım olduğunu iddia etmiş və digər irqin və ya sinfin insanlarının süni seleksiyaya məruz edilmələrinin lazım olduğunu sanmışlar. Məsələn, yevgeni nəzəriyyəsinin qurucusu sayılan ingilis F. Qaltona görə, qorunması lazım olanlar yalnız İngiltərənin yüksək sinfidir. Buna görə, Qalton yoxsul, xəstə, gücsüz, bacarıqsız insanların çoxalmalarının qarşısının alınmasının lazım olduğunu qarşıya qoymuşdur.

Nasistlər isə aryan irqinə mənsub sağlam insanların xaricindəki

insanların dövlətə və cəmiyyətə yük olduqlarını və sonsuzlaşdırma və ya öldürmə yolu ilə ortadan qaldırılmalarının lazım olduğunu iddia etmişlər və bu düşüncələrini tətbiq etmişlər. Nasistlər yevgeni siyasəti daxilində yüz minlərlə insanı sonsuzlaşdırarkən xəstə, şikəst, ruhi xəstə, yaşlı, bacarıqsız və kimsəsiz olduğu üçün yüz minlərlə insanı da qaz otaqlarına göndərib, ac qoyub və ya dərman verib öldürmüşlər.



**1914 –cü ildəki yevgeni təlim sinfindən bir şəkil**

Yevgeni müdafiəçilərinin ən ciddi yanılmalarından biri insanların xarakterik xüsusiyyətlərin böyük əksəriyyətini irsi sanmaları və ya qəsdən bu iddiada olmalarıdır. Məsələn, Qalton daxil olmaqla, yevgeni tərəfdarlarına görə tənbəllik, yoxsulluq kimi istənməyən xüsusiyyətlər irsidir. Tənbəl insanların tənbəl uşaqlarının olacağını zənn etdikləri üçün, bu insanların evlənmələrinə və uşaq sahibi olmalarına mane olmağa çalışmışlar. Təkamülçülərin belə məntiq xarici və axmaq iddianı sözdə elm adına müdafiə etmələri olduqca maraqlıdır.

Darvinistlərin sözdə elm adına müdafiə etdikləri yevgeni bir çox insanın böyük acılar yaşamasına səbəb olmuşdur. Bu zalımlığın tarixi inkişafının araşdırılması söz mövzusu vəhşiliyi müdafiə edənlərin təməl dayaqlarının daha yaxşı başa düşülməsini təmin edər. Darvinin yevgenini özünə görə necə sözdə elm adına müdafiə edib təşviq etdiyinin öz sözləri ilə ortaya qoyulması bu baxımdan son dərəcə əhəmiyyətlidir. Əslində, yevgeni azğınlığı Platonun “Dövlət” adlı əsərinə qədər gedib çıxsa da, darvinizmlə birlikdə sözdə elmi görünüş qazanmış, hətta haradasa bir elm sahəsinə çevrilmişdir. Qaltondan çox təsirlənən və əvvəlki səhifələrdə irqçi fikirlərinə yer verdiyimiz K. Pirson yevgeninin qaynağının təkamül nəzəriyyəsi olduğunu belə ifadə edir:

*... Müasir yevgeni düşüncəsi yalnız 19-cu əsrdə oyandı. Bu əsrdə yevgeniyə marağın artmasının bir neçə səbəbi vardır. Ən əhəmiyyətli səbəb təkamül nəzəriyyəsidir. Yevgeni terminini də kəşf edən F. Qalton fikirlərini əmioğlusu Ç. Darvinin doktrinasına əsaslandırırdı.*

(K. Ludmerer, *Eugenics, In: Encyclopedia of Bioethics*, Edited by Mark Lappe, The Free Press, New York, 1978, s.457)

## DARVİNDƏN ƏMİOĞLUSU QALTONA QALAN MİRAS: YEVGENİ



**Yevgenistlərə görə qocalar ixtisar olunası zəif insanlardır. Bu səbəbdən, qocalara hörmət və sevgi göstərilmir, cəmiyyətdən uzaqlaşdırılmalarının lazım olduğuna inanılırdı.**

Yevgeni azğınlığının əsası, əslində, Maltus və Darvinlə qoyulmuşdu. Darvinə ilham qaynağı olan Maltusun təcrübəsində yevgeniyə əsas təşkil edən batil təlqinlər var idi. Məsələn, Maltus insanların bəslənən heyvanlara tətbiq olunan üsullarla çoxalacağını iddia edirdi:

*Çoxalma mövzusuna göstərilən bir diqqətlə eynilə heyvanlarda olduğu kimi, insanlar arasında da müəyyən dərəcəyə qədər irəliləyiş əldə etmək mümkün görünür. Zəkanın köçürülməsi mövzusu şübhəlidir; ancaq boyu, gücü, gözəlliyi, dəri rəngini və bəlkə uzun ömrü belə müəyyən dərəcəyə qədər nəql etmək olar.*

(Thomas Robert Malthus, *An Essay On The Principle of Population*, Sixth Edition, 1826, based on the second edition (1803))

Digər bir çox açıqlamasında olduğu kimi, bu sözlərində də Maltusun insanları bir növ heyvan kimi qiymətləndirdiyi açıq şəkildə görünür. Maltusun bu azğın dünyagörüşü Darvinə də təsir etmiş və Darvin də yevgeni ilə əlaqədar fəlakət dolu bəzi proqnozlar vermişdir. *“İnsanın törəməsi”* kitabında bəzi sosial tətbiqlər səbəbi ilə zəif olanların ələnmədiklərini və bunun da bioloji geriləməyə səbəb olacağına dair narahatlığını dilə gətirmişdi. Darvinin azğın düşüncələrinə görə, *"Yabanı insanlar"* və heyvanlar arasında qüsurlu olanlar sürətlə ələnərkən mədəni cəmiyyətlərdə bu insanların tibb və xeyriyyəçilər tərəfindən qorunması böyük səhv idi. Darvinə görə, heyvan bəsləyənlərin süni seleksiya yolu ilə soy islahı aparmaqla daha yaxşı xüsusiyyətlərə sahib olan heyvanlar yetişdirdiyi və zəif və gücsüzləri ələdiyi kimi, insan cəmiyyətlərində də bunlar edilməli idi:

*Beləliklə, mədəni cəmiyyətin zəif üzvləri öz növlərini çoxaldırlar. Ev heyvanlarının törəməsi ilə maraqlanan hər kəs bunun insan irqi üçün son dərəcə zərərli olduğundan tam əmindir. Baxım tələbinin və ya səhv yönləndirilmiş baxımın nə qədər qısa müddətdə evcil irqi degenerasiyaya aparacağı təəccüblüdür. Lakin insanın durumu xaric, heç kim ən pis heyvanların törəməsinə izn verəcək qədər cahil davrana bilməz.*

(Charles Darwin, *The Descent of Man*, 2nd Ed., s. 133–134, 1887)

*Yabanı insanların vücud və kəllə baxımından zəif olanları ələnir və sağ qalanların əksəriyyəti, həqiqətən, sağlam olurlar. Digər yandan biz mədəni insanlar ələnmə müddətinə mane olmaq üçün əlimizdən gələni edirik. Kəmağıllılar, şikəstlər və xəstələr üçün baxım evləri qururuq; yoxsulları qorumaq üçün qanunlar çıxarırıq; tibb alimlərimiz hər bir xəstəni yaşatmaq*

*üçün sonadək bacardığını edir... Beləcə, mədəniləşmiş cəmiyyətlərin zəif fərdləri öz soylarını davam etdirirlər. Ev heyvanı bəsləyən heç kim bunun insan irqinə böyük zərər verəcəyindən şübhə etməz.*

(Charles Darwin, *İnsanın Türeyişi*, s. 171)

*Xəstə bir zehnin məhsulu olan bu hədyanlar irqçilərin, yevgeni tərəfdarlarının, müharibə çağırışçılarının və insanlığı böyük bəlalara sürüyən bir çox ideoloqun əsas düsturu olmuşdur. Darvin "İnsanın törəməsi" kitabının sonunda həyatda qalmaq üçün mübarizənin insanlığa faydalı olduğu, əks halda, insanın tənbəlləşəcəyi, həmçinin həyat mübarizəsində bacarıqlı insanların bacarığı daha az olanlara görə üstün mövqeyə gələ bilməyəcəkləri kimi bir çox elmdən kənar iddia qarşıya qoymuşdur.* (Charles Darwin, *The Descent of Man*, s. 945)

Darvin bütün bu yanlış nəzəriyyələri ilə yevgeni tətbiqlərinə zəmin hazırlamışdır. Təkamül nəzəriyyəsinin sözdə elmi həqiqət kimi görünməsi isə yevgenist və irqçi siyasətlərin qəbul edilib tətbiq edilməyə başlanmasına səbəb olmuşdur.

## İNGİLTƏRƏDƏ YEVGEVİ

İngiltərədə yevgeni vəhşiliyinin öndəri Darvinin daha əvvəl də bəhs etdiyimiz əmioğlusu F. Qalton idi. Darvinin oğlu Leonard Darvin də yevgeni azğınlığının İngiltərədəki müdafiəçilərindən və tətbiqçilərindən idi. Bundan başqa, U. Çörçil də yevgeni hərəkatına dəstək verənlərin arasında idi.

(Allan Chase, *The Legacy of Malthus*, Chicago:University of Illinois Press, 1980, s.136.)

Qalton *"güclü olan həyatda qalır"* qanununa tabe olmağı və yalnız ən güclü insanların dünyada qalmağına izn verilməsinin lazım olduğunu iddia etmişdi. Qaltonun bu elm və məntiq xarici tezisinə görə, insan insanın sözdə təkamülünü idarə edə biləcək və hətta daha üstün bir irq meydana gətirə biləcək mövqedə idi. Qalton yüksək sinifin və yüksək irqin üstünlüyü kimi yanlış fikirlərə inandığını açıq şəkildə ifadə etməkdən çəkinmirdi. Digər tərəfdən zənci irqinin aşağı zəka səviyyəsinə sahib olduğunu da iddia etmiş və belə demişdir:



**Qalton barmaq izlərindən və üz formalarından günahkarların ortaq genetik xüsusiyyətlərini müəyyən etmək kimi məntiqsiz və nəticəsiz bir təcrübə aparmışdır.**

*... Zəncilər arasında yarım ağıllı kimi adlandırmağımız gərəkənlərin sayı olduqca çoxdur. Amerikada zənci kölələrdən bəhs edən hər kitab bunun nümunələri ilə doludur. Mən də Afrikaya etdiyim səyahətlər əsnasında*

*gördüyüm bu həqiqət qarşısında çox təsirlənmişdim. Zəncilərin özləri ilə əlaqədar mövzularda etdikləri səhvlər o qədər uşaq kimi, axmaq və sadə idi ki, öz növümdən utanmağıma səbəb oldu.*

(Francis Galton, *Hereditary Genius: An Inquiry into its Laws and Consequences*, London:Macmillan, 1892, s. 330)

Bəzi it cinslərinin bəzi insan irqlərinə nisbətən daha yuxarı zəka səviyyəsinə sahib olduğu (Joseph L. Graves Jr., *The Emperor's New Clothes*, Rutgers Universtiy Press, 2001, s. 96) yalanını müdafiə edəcək qədər irəli gedən Qalton zənci və kölələri qiymətləndirərkən çox açıq bir həqiqəti görməzlikdən gəlmişdi; kölələrlə əlaqədar kitabların bir çoxu kölə sahibləri tərəfindən yazılmışdı. Bundan başqa, kölələr özlərinə tamamilə yad bir cəmiyyətdə, heç bilmədikləri mədəniyyətdə yaşamağa başladıqları üçün bir çox davranış və hərəkəti yadırğamaları son dərəcə təbii idi. Afrikanın bir kəndinə yaşamağa gedən hər hansı bir avropalının da onların həyat şəkillərinə və mədəniyyətlərinə uyğunlaşmağa çalışarkən oxşar hərəkətlərə yol verməsi aydındır.

Daha önəmlisi, Qaltonun zəncilər və ya digər ölkələrə köç edən öz vətəndaşları üçün irəli sürdüyü iddialar heç bir elmi əsasa sahib deyildi. Bunlar dövrün primitiv şərtləri içində materialist dünyagörüşü ilə beyinləri yuyulan bəzi sözdə elm adamlarının və mütəfəkkirlərin xəyali fərziyyələrinə əsaslanaraq meydana gətirilmişdir.

Qaltonun ön mühakiməli və əsassız tezisləri bunlarla da məhdudlaşmırdı. Məsələn, sosial inkişafın reallaşması üçün zəkası və intellektual səviyyəsi aşağı olanların çoxalmalarının dayandırılması və digərlərinin çoxalmalarının təşviq edilməsinin lazım olduğunu da qarşıya qoymuşdu. Əks halda, sosial pozuntunun baş verəcəyini iddia edirdi. Halbuki, əsl sosial pozuntunun Qalton və bənzərlərinin ortaya qoyduqları qətliamlara, qarşıdurmalara və şiddətə əsaslanan həyat modelinin tətbiq edilməsi ilə yaşanacağı məlumdur. Qalton 1907-ci ildə Haksli Universitetində bir konfrans əsnasında: “Millətimizin beyinləri yuxarı səviyyəli siniflərimizdəki insanların arasında var“, - deyə iddia etmişdi. (Joseph L. Graves Jr., *The Emperor's New Clothes*, Rutgers Universtiy Press, 2001, s. 98) Qalton ayrıca, yuxarı sinfə aid uşaqların doğum əsnasında təyin olunmalarını və ailələrinə bu uşaqlar üçün 1000 funt ödənməsini təklif etdi. Yuxarı sinfin qadınlarına öz istəklərindən xaric bir oğlan və bir qız doğmalarını təklif etdi.

(Joseph L. Graves Jr., *The Emperor's New Clothes*, Rutgers Universtiy Press, 2001, s. 98)

Qaltonun özünə görə yuxarı sinif olaraq gördüyü insanların sayca çoxalmasının cəmiyyəti inkişaf etdirəcəyinə inanması ağıl və məntiqə zidd olan bir düşüncədir. Üstəlik, elmi də deyil. Bir cəmiyyəti inkişaf etdirən bir çox ünsür vardır. Amma bunların ən əhəmiyyətlisi cəmiyyəti meydana gətirən fərdlərin əxlaqı və xarakterləridir. Gözəl əxlaqa, güclü xarakterə sahib fərdlərdən ibarət olan cəmiyyətin inkişafı sürətli və davamlı olar. Bu xüsusiyyətlərin irsi olaraq fərddən fərdə köçürülməsi isə mümkün deyil. İçində yaşadığı cəmiyyətin, həqiqətən, irəliləməsini istəyən insanın önə çəkməli olduğu əsl mövzu müxtəlif mədəni və elmi proqramlarla fərdlərin mənəvi cəhətdən güclənməsini təmin etmək olmalıdır. Qalton və bənzərlərinin təsirli olduqları ölkələrdə insanlara sanki heyvan rəftarı etməklə zənginləri

çoxaldıb kasıbları azaltmaq istəmələri, bunun üçün cinayəti belə qanuniləşdirməyə çalışmaları həm böyük zülm, həm də tərifi mümkün olmayan cəhalətdir.

Buna baxmayaraq, Qaltonun yönləndirilməsi ilə İngiltərədə yevgeni hərəkatının ilk fəaliyyəti doğuma nəzarətdə olmuşdur. Bu, yalnız təkamül nəzəriyyəsinin yanılmalarına inananlar tərəfindən sözdə aşağı insanlar kimi görülən kasıb xalqı və yenə özlərinə görə aşağı irqdən insanları hədəf alan bir işdir.

1920-ci və 30-cu illərdə kasıb xalqın sayının davamlı artdığını, orta və yüksək sinifə məxsus əhalinin artımının azaldığını və bunun böyük təhlükə olduğu düşünürdülər. Məsələn, C. Haksli 1925-ci ildə *"Nature"* jurnalında belə yazmışdı:

*İstənilənlərin nisbəti azalarkən istənilməyənlərin nisbəti artır. Bu vəziyyət ələ alınmalıdır.* (*Nature*, 116 (1925), s. 456)

Yevgenistlərə görə, istənilənlərlə istənilməyənlərin arasındakı tarazlığı qorumaq üçün atılan ilk addım sözdə irqi gigiyena olmalı idi. İrqi gigiyena üçün əvvəlcə kimlərin istənilən, kimlərin istənilməyən olduğunu təyin etmək lazım idi. Bu seçimi etmək üçün olduqca sadə və ağıla sığmaz yollara əl atılırdı. Məsələn, İngiltərə və ABŞ-da insanların başları ölçülməyə başlandı. Qaltonun öndərliyi ilə başlanan kampaniyalarla insanların başlarının böyüklüyü ölçülür, buna görə sözdə zəkaları təyin olunurdu. Ancaq baş ölçülərinin zəka ilə birbaşa əlaqəsinin olmadığı elm tərəfindən sonradan ortaya qoyulacaqdı.

Baş ölçmələrindən sonra zəka testlərindən istifadə edilməyə başlandı. Zəka testlərinin nəticələrinə görə, insanların sonsuzlaşdırılmasına, həyatı boyu nəzarətdə və idarə altında saxlanmasına qərar verildi. Ancaq növbəti illərdə istifadə edilən zəka testlərinin etibarlı nəticələr vermədiyi aydın oldu. Bundan başqa, bu test nəticələri qiymətləndirilərkən insanların yetişdiyi çevrənin şərtləri, aldığı təhsil kimi amillər heç nəzərə alınmır, yalnız o kəslərin irsi olaraq ağıllı olub-olmadığı nəticəsi əldə edilirdi. Bunlar, əsaslı olmayan, dövrün elmi cəhalətini əks etdirən qiymətləndirmələr idi. Onsuz da məqsəd, əslində, əsaslı nəticələr əldə etmək deyil, müəyyən şəkildə istənilməyən kütləni, yəni kasıbları, xəstələri və aşağı görülən irqləri ortadan qaldırmaq və ya təcrid etmək idi.

## ABŞ-DA YEVGENİ

Qaltonun ölümü ilə birlikdə yevgeni hərəkatının liderliyi Amerikaya keçdi. H. Qodard, H. F. Osborn, H. Laflin və M. Qrant Qaltonun amerikalı varislərindən yalnız bir neçəsi idi.

Yevgeni vəhşiliyini ABŞ-da dəstəkləyənlərin başında Rokfeller İnstitutu və Karneci Vəqfi gəlirdi. Rokfeller institutu Almaniyada yevgeni hərəkatının qabaqcıllarından K. Vilhelm İnstitutunu maliyyələşdirdi və irqi gigiyena mövzusunu vəzifə halına gətirən professor E. Rüdinə 1920-ci illərdə genetik araşdırmalar üçün xüsusi bina təsis etdi. Alman Ruhi Xəstələri Təmizləmə Hərəkatı böyük miqyasda Rokfeller İnstitutu tərəfindən dəstəkləndi. Ayrıca,



6 Americans Honored At Heidelberg's Fete

43 Foreigners Get 550th Anniversary Degrees

HEIDELBERG, June 30 (UP).—Six Americans were among forty-three distinguished foreigners who received honorary degrees from the University of Heidelberg on its 550th anniversary today. They were:

Professor Kirsopp Lake, of Harvard; Professor Harry H. Laughlin, of the Carnegie Institution, Cold Spring Harbor; Ferdinand Thun, of Reading, Pa.; William May Garland, of Los Angeles; Professor Reginald Aldworth Daly, of Harvard, and Henry K. Janssen, of Reading Pa.

Jean Sibelius, Finnish composer, was among a group of European, South American, Chinese, Turkish and Japanese statesmen and intellectuals honored by the university.

Transfer Jersey National Guard

*Special to the Herald Tribune*

TRENTON, N. J., June 30.—Transfer of headquarters of the 44th Division,

**Yevgeninin qabaqcıl şəxslərindən H. Laflin irqi təmizlik elmi haqqında apardığı araşdırmalara görə, Heydelberq Universitetinin mükafatını almışdı. Bəhs edilən xəbəri nəşr edən qəzet.**

Rokfeller institutundan Nobel mükafatı laureatı A. Karel almanların törətdiyi qətliamı coşğuyla alqışlamış və ruhi xəstələri ilə məhkumların toplu şəkildə qətl edilmələri vəhşiliyini heç çəkinmədən müdafiə etmişdir.

(Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 18)

Yevgeni azğınlığı Amerikada bir çox əyalətdə zəruri sonsuzlaşdırma qanunlarının qəbul edilməsinə səbəb olmuşdur. ABŞ-da cəmi 100 min nəfər (çoxu razı olmadan) sonsuzlaşdırıldı. 20-ci əsrin əvvəllərində Virciniyada 8.000 nəfərin "uyğun" olmadıqları səbəbi ilə sonsuzlaşdırılması yevgeni vəhşiliyinin ABŞ-da miqyasını göstərən yalnız bir nümunədir. Bu insanlıq xarici tətbiq 1974-cü ilə qədər bir çox əyalətdə qanuni idi.

(http://www.politicalamazon.com/pioneerfund.html)

Amerikadakı yevgeni azğınlığının ən öndə gələn adlarından biri genetik Ç. B. Davenport idi. Davenport irsiyyət qanunları ilə darvinizmi birləşdirməyə çalışan məqalələri ilə tanınırdı. Hansı ki, bu məqalələrdə qarşıya qoyulan iddialar fərziyyədən kənara çıxmırdı. 1906-cı ildə Amerikan Yetişdiricilər Birliyi yevgeni üzərində işlər görmək üçün israr etdi. 1910-cu ildə "Yevgeni Qeyd Ofisi"ni (ERO) təsis etdi. ERO Təcrübi Təkamül Mərkəzi üçün ayrılan büdcənin 13-29 faizini götürürdü. Bu, ERO-nun dövrün digər elmi təşkilatlarına görə daha çox maliyyələşdiyini göstərir. Bu təşkilat yevgeni vəhşiliyini yaymaq üçün çalışan bir çox insana təhsil verdi. Verilən dərslərin başında təkamül nəzəriyyəsi və yevgeni qanunları gəlirdi. Şagirdlərə ayrıca, Stanford-Binet kimi yevgeni tətbiqlərində çox istifadə edilən bəzi zəka testlərinin necə tətbiq olunacağı və qiymətləndiriləcəyi də öyrədildi.

(Joseph L. Graves Jr., *The Emperor's New Clothes*, Rutgers Universtiy Press, 2001, s. 116-117)




**Nyu-Yorkdakı yevgeni qeydiyyat ofisi (ERO) və Çarlz B. Davenport**

ERO tərəfindən öyrədilən şəxslər sahə işlərində məlumat toplamaqla vəzifələndirildilər. ERO topladığı bu məlumatlarla uyğun olmadığını düşündüyü şəxslərin evlənib uşaq sahibi




**Yevgeninin sözdə elmi dayağı təkamül nəzəriyyəsidir. Yevgenistlərin təkamül və yevgeni əlaqəsini vurğuladıqları Bir poster. Posterdə "Yevgeni insanın təkamülünü özünün istiqamətləndirməsidir" ifadəsi qeyd edilib.**

olmalarına mane olmağı hədəf alırdı. 1924-cü ildə ERO tərəfindən sonsuzlaşdırma qanununun mətni hazırlandı. Bu mətndə xəstəliklər cinayət sayılaraq şəxslərin sonsuzlaşdırılması təklif edilirdi.

İnsanların öz istəkləri xaricində zorla sonsuzlaşdırılması ağıl və vicdanın qəbul edəcəyi vəziyyət deyil. Genetik pozuntuları olanlar müxtəlif xəstəliklərə sahib olan insanlar, fiziki qüsurları olanlar, ağlı yerində olmayanlar şəfqət və mərhəmət duyulması lazım olan məzlumlardır. Din əxlaqının hakim olduğu cəmiyyətlərdə bu insanlar qorunar, ehtiyacları ən yaxşı şəkildə qarşılanmağa çalışılar. Yevgeni vəhşiliyini müdafiə edənlərin özlərinə görə "cinayətə meyilli" kimi təyin etdikləri insanları zorla sonsuzlaşdırmağa çalışmaları və ya onları yox etməyi hədəfləmələri də zülmdən başqa bir şey deyil. Bu insanlar lazımi mədəniyyət proqramlarına daxil edilməklə öyrədilə bilər, cəmiyyətə faydalı hala gətirilə bilərlər. Söz mövzusu insanların islah edilməsinin çətin olduğu vəziyyətlərdə belə bu şəxslər yox edilməyə çalışılmamalı, ən vicdani və ədalətli həllər axtarılmalıdır.




**Amerika Yevgeni Cəmiyyəti əyalət yarmarkalarında yevgeni dərsləri verir və sözdə ən uyğun ailənin seçildiyi yarışmalar təşkil edirdi.**

Necə ki, sonrakı dövrlərdə amerikalı fikir öndərləri və cəmiyyətdəki sağlamdüşüncəli insanlar yevgeninin tam mənası ilə vəhşilik olduğu həqiqətinin fərqinə varmışlar və lazımi tədbirləri alıb bu vəhşiliyin tətbiq edilməsinin qarşısını almışlar. Hansı ki, həmin ərəfədə nasistlər sonsuzlaşdırma ilə əlaqədar ilk tətbiqlərində amerikan qanunlarını nümunə götürüb 2 milyon insanı zorla sonsuzlaşdırmışlar. <u>(Joseph L. Graves Jr., *The Emperor's New Clothes*, Rutgers Universtiy Press, 2001, s. 119)</u>

Bura qədər nəzərdən keçirilən nümunələrdə açıq şəkildə göründüyü kimi, sosial darvinizmin yalan və hiylə dolu təlqinləri ilə insanların bir-birlərinə qarşı laqeyd yanaşmasına və acıma, mərhəmət hissləri tamamilə götürülərək sanki bir

heyvan kimi davranmasına çalışılır. Bu, din əxlaqının insanlara qazandırdığı gözəl xüsusiyyətlərə və dəyərlərə tamamilə ziddir. Quranda əmr edilən əxlaqda zəif, baxıma möhtac, kimsəsiz və ya xəstə insanlara baxım, şəfqət və fədakarlıqla qorunmaları vardır. Allah iman edənlərə istənilən şərtlərdə özlərindən əvvəl başqalarının rahatlığını təmin etmələrini, daima səbir etmələrini və həmişə fədakar olmalarını əmr edir. Allah Quranda səbir edib yaxşılıq edənləri belə müjdələyir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər** *(və deyərlər)*: **"Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər və onlara səbr etdiklərinə görə Cənnəti bəxş edər və** *(orada geyəcəkləri)* **ipəklə mükafatlandırar.** (İnsan surəsi, 8-12)

## NASİST ALMANİYASINDA YEVGENİ

İan Kerşou tərəfindən yazılan və 1998-ci ildə nəşr olunan A. Hitlerin bioqrafiyasında 1920-ci illərin Almaniyasında sosial darvinizmin yevgeni və faşizmlə birgə keçdiyi ifadə edilir və belə deyilir:

*İnteqral nasionalizm, nasional sosializm, sosial darvinizm, irqçilik, bioloji anti-semitizm, yevgeni, elitizm fərqli ölçülərdə bir-birləri ilə qarışdılar...* (Ian Kershaw, *Hitler,* volume 1, 1998, s. 134)

Elm tarixindəki səhvlər üzərində çalışan R. Yanqsonayz bir qiymətləndirməsində nasist qətliamlarının təməlində yevgeni fikrinin yer aldığı və yevgeninin tarixin ən böyük elmi yalanlarından biri olduğunu belə ifadə edir:

*Yevgeninin bu qaranlıq yönünün nəticəsi A. Hitlerin saf aryanların evlənmələrini təşviq edərək və az inkişaf etmiş genlərə sahib olduqlarını iddia etdiyi altı milyon insanı öldürərək "ali irq"i çoxaltmağı təcrübə etməsi idi. Qaltonu soyqırım səbəbi ilə, hətta bu mövzunu müdafiə etməsinin gətirəcəyi nəticələri qabaqcadan görməsindəki müvəffəqiyyətsizliyi səbəbi ilə günahlandırmaq lap ədalətli olmaz. Lakin yenə də Qalton qəti şəkildə yevgeninin əsas memarı idi və Hitlerdə bu fikir mübtəlalıq halına gəlmişdi. Dolayısilə, nəticə baxımından bu görüş bütün dövrlərin ən böyük elmi səhvlərindən biri kimi xarakterizə edilə bilər.* (R. Youngson, *Scientific Blunders; A Brief History of How Wrong Scientists Can Sometimes Be*, Carroll and Graf Pub., New York, 1998)

Yanqson Qaltonun ağıl və elmə zidd fikirlərini yalnız elmi səhv olaraq səciyyələndirməklə, əslində, "yaxşı niyyətli" yanaşma sərgiləyir. Qalton və bənzərlərinin qarşıya qoyduqları iddialar dünya tarixində görünməmiş vəhşilik və qətliamın əsasını meydana gətirmiş qorxunc dünyagörüşüdür. Nasist Almaniyası sosial darvinist dünyagörüşü cəmiyyətlərə tam şəkildə tətbiq olunduğunda necə böyük fəlakətlərin yaşanacağını görmək baxımından tarixi bir ibrət hadisəsidir.

Nasistlər özlərinə görə aryan irqini "ləkələyən" hər irqi, hər bir "aşağı", "nöqsan", "qüsurlu" və "xəstə" insanı öldürməyi dövlət siyasəti olaraq qəbul

etmişdilər. Hitler bu mərhəmətsizliyin səbəbini özünə görə belə açıqlayırdı:

*Çürüyəcək insanlar... təbiət uzun vədədə zərərli ünsürləri ortadan qaldıracaq. İnsan bütün canlıların qarşılıqlı şəkildə bir-birlərini yox etmələrini istəyən bu təbiət qanununa nifrət edə bilər. Quş bir cırcıramanı udar, həmin quşu sonra özündən daha böyük bir quş udar... Təbiətin qanunlarını bilmək onlara tabe olmağımıza imkan verər.*

(A. Hitler, *Hitler's Secret Conversations 1941–1944, With an introductory essay on The Mind of Adolf Hitler* by H.R. Trevor-Roper, Farrar, Straus and Young, New York, 1953, s. 116)



**Ari irqindən olmadıqları üçün bir çox uşaq şəfqətsiz, sevgisiz buraxılır, hətta müxtəlif bəhanələrlə öldürülməyə və ya axtalanmağa çalışılırdılar.**

Hitler təbiətdəki ekoloji tarazlığı təmin edən bəzi hadisələrə baxıb bunun insanlar üçün də etibarlı olduğunu önə sürməklə yanılmışdı. Heyvanların bir başqasını yem olaraq görməsi insanların da özlərindən gücsüz gördüklərini mərhəmətsiz şəkildə yox etmələri mənasını verməz. Heyvanlar şüuru olmayan varlıqlardır. İnsanlar isə ağıl, şüur və vicdan sahibidirlər və yaxşı ilə pisi, doğru ilə səhvi bir-birindən ayırd etmək və hadisələri qiymətləndirmək qabiliyyətinə sahibdirlər. İnsanların heyvani həyat sürməsinin gərəkdiyini iddia edənlər isə ancaq Hitler kimi ruhi çatışmazlıqlarına özlərinə görə qanuni zəmin yaratmağa çalışanlardır. Necə ki, Hitler bu yalanları böyük mübtəlalıq halına necə gətirdiyini bu sözləri ilə də ifadə edirdi:

*Əgər müqəddəs bir əmri qəbul etsəm, o, bu olar: "Sən növləri qoruyacaqsan". Fərdin həyatına yüksək qiymət verilməməlidir. Əgər fərd təbiətin gözündə əhəmiyyətlidirsə, təbiət onu qorumaq üçün lazımi marağı göstərəcək. Bir ağcaqanadın qoyduğu milyonlarla yumurtanın içindən çox azı yumurtadan çıxır, amma yenə də ağcaqanad irqi inkişaf edir.*

(A. Hitler, *Hitler's Secret Conversations 1941–1944, With an introductory essay on The Mind of Adolf Hitler* by H.R. Trevor-Roper, Farrar, Straus and Young, New York, 1953, s. 116)

Halbuki, hər insanın həyatı irqindən, cinsiyyətindən və dilindən asılı olmayaraq qiymətlidir. Vicdan sahibi olan insan irqinə və ya sahib olduğu fiziki xüsusiyyətlərinə baxmadan bütün insanları qorumaq üçün əlindən gələni etməlidir. Hitlerin və digər nasist ideoloqlarının insan həyatını bu qədər dəyərsiz görmələrinin və digər millətlərə qarşı duyduqları kin və intiqam hisslərinin insanlığın başına hansı böyük fəlakətlər gətirdiyini isə İkinci Dünya Müharibəsi bütün insanlara göstərmişdir. Bundan başqa, Hitlerin azğın dünyagörüşü yalnız digər irqlər üçün deyil, Hitlerin öz vətəndaşları üçün də böyük bəlaya çevrilmişdir. Almaniyada məşhur şəkildə tətbiq olunan yevgeni bunun nümunələrindən biridir.

- **Almaniyada yevgeni hərəkatının böyüməsi**

1900-cü ildə alman sənayeçi A. Krup tərəfindən ən yaxşı məqalə



Kayser-Vilhelm İnstitutunun yevgeni ilə əlaqədar işlərindən bir nümunə

müsabiqəsi təşkil edildi. Müsabiqədə "Daxili siyasəti inkişaf etdirmək və qanunlara tətbiq etmək üçün darvinizmin qanunlarından nə öyrənə bilirik?" mövzusu haqqında yazılan ən yaxşı məqaləyə mükafat veriləcəkdi.

Müsabiqəni V. Şolmeyer qazandı. Şolmeyer mədəniyyət cəmiyyətini, əxlaqı və hətta doğru və səhvi özünə görə həyat mübarizəsi anlayışı ilə açıqlamağa çalışırdı. Bütün qanunların bu anlayışlara uyğunlaşdırılmasının lazım olduğunu, beləliklə, ağ irqin Avstraliya aborigenləri ilə eyni səviyyəyə düşməsini önləyəcəyini, cəmiyyətin fiziki və zehni baxımdan zəif insanları qoruduğu müddət ərzində geriləmənin qaçılmaz olduğunu iddia edirdi. İrqi gigiyena vəhşiliyinin Almaniyadakı qurucusu və sosial darvinist A. Plotz Şolmeyerin yanlış fikirlərinin hamısını dəstəklədiyini və ağ irqin qorunmasının lazım olduğunu açıqladı. Məsələn, müharibə vaxtı irqin qorunması üçün yalnız irqi baxımdan aşağı olan insanların ön cəbhəyə göndərilməsini israrla müdafiə etdi. Ön cərgədə döyüşən əsgərlər, ümumiyyətlə, öldürüldükləri üçün, sözdə işə yaramayan zəiflər öldüyü halda, üstün olanların həyatda qalacaqlarını iddia edirdi. Daha irəli gedərək doğum əsnasında bir həkim qrupunun olmağını və körpənin yaşamaq üçün kifayət qədər uyğun olub-olmadığına qərar vermələrini, uyğun olmadığı təqdirdə uşağı öldürmələrini təklif etdi. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 11)

Yuxarıdakı dəhşət verici təkliflər nasist iqtidarından əvvəl yevgeni hərəkatının atılmış ilk addımları idi. 14 iyul, 1933-cü ildə nasist partiyasını iqtidara gətirən mart seçkilərindən yalnız 4 ay sonra yevgeni və sözdə zehni gigiyena hərəkatı getdikcə yayılmağa başladı. O tarixdən əvvəl yevgenik məqsədlərlə sonsuzlaşdırma tətbiq olunsa da, qanuna zidd idi. Artıq gələcək nəsillərdə irsi xəstəliklərin qarşısının alınması qanunu, əsl adı ilə sonsuzlaşdırma qanunu daxilində yevgenik vəhşiliyin sərbəst tətbiq olunmasına icazə verilirdi. Bu zalımlığın baş memarı Münhen Universitetində psixiatriya professoru Kayzer-Vilhelm İnstitutunun rəhbəri professor E. Rudin idi. Rudin sonsuzlaşdırma qanunu qəbul edildikdən qısa müddət sonra nasist partiyasından bəzi vəkil və mütəxəssislərlə birlikdə qanunun mənasını və məqsədlərini izah edən bir şərh nəşr etdi. Qanunun məqsədi xülasə ilə alman idealına çatmaq üçün xalqın saf olmayan və istənməyən ünsürlərdən təmizlənməsinin təmin edilməsi idi.

Yazıq və qorunmağa möhtac olan bu insanların yevgeni dəhşətinin önə sürdüyü insanlıq xarici rəftarlara məruz edilmələri ancaq sosial darvinizmin yalanları ilə aldanmış insanlar tərəfindən qəbul edilən vəziyyətdir. Bu

insanların hər biri köməyə ehtiyacı olan xəstəlik və acizliklərə malikdir. Aciz insanlara istədikləri kimi davrana biləcəklərini düşünən nasistlər iqtidarda olduqları dövr boyu dəhşət verici səhnələrin yaşanmasına səbəb olmuşlar.

Almaniyada tətbiq edilməyə qoyulan bu primitiv qanuna görə, sonsuzlaşdırma şəxsin razılığı olmadan da edilirdi. Rəsmi bir həkim polisin köməyi ilə, lazım gəldikdə güc tətbiq etməklə sonsuzlaşdırmağa qanuna görə haqq sahibi idi. Amerikalı sosial darvinist, irqçi və nasist tərəfdarı L. Stodard "Qaranlığa doğru-indiki dövrdə nasist Almaniyası" adlı kitabında Almaniyaya səfəri əsnasında yevgeni məhkəmələri haqqındakı təəssüratlarından danışır. Stodard xalq sağlamlıq xidmətlərinin vərəm bölməsindən bir vəzifəli ilə söhbətində özünə bunların deyildiyini ifadə edir:

*Vərəm xəstəsinə tətbiq olunan müalicə o adamın sosial dəyərinə görə təyin olunur. Əgər dəyərli vətəndaşdırsa və müalicəsi mümkündürsə, heç bir xərcdən çəkinmirlər. Əgər müalicəsinin olmadığına qərar verilirsə, yaşatmaq üçün heç bir şey edilmir. Çünki onu yaşatmaq nə özünə, nə də cəmiyyətə fayda gətirməyəcək. Almaniya ancaq müəyyən sayda insanı doydura bilər. Biz nasional sosialistlər yalnız sosial və bioloji dəyəri olan insanlara baxmaqla məsuluq.* (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s.22)

İslam əxlaqında isə insanlar maddi imkanları və mövqeləri nə olursa olsun, müalicə imkanlarından bərabər faydalanma hüququna sahibdirlər. Bir insanı bəzi fiziki qüsurlarından və ya varlı olmadığından dolayı ölümə tərk etmək açıq şəkildə cinayət işləməkdir. Bunu sosial sahədə tətbiqə cəhd etmək isə kütləvi qırğın törətmək mənasını verir.

Nasist Almaniyasında sonsuzlaşdırma qanunu getdikcə daha da genişləndirildi. 24 noyabr, 1933-cü ildə ictimai əxlaqa qarşı çıxmağı vərdiş halına gətirənlərin də sonsuzlaşdırılmalarına qərar verildi. Nasistlərin irqi çirklənmə tezisləri, beləliklə, ictimai əxlaqa qarşı çıxma cinayətini də əhatə edirdi. Növbəti illər nasional sosialistlərin qorxunc planlarının yalnız sonsuzlaşdırmadan ibarət olmadığını da göstərəcəkdi.

## • Nuremberq qanunları

Nasistlərin əsl hədəfi üçün sonsuzlaşdırma qanunu kifayət etmirdi. Sözdə təmizlənmiş aryan irqini meydana gətirmək üçün 1935-ci ildə Nuremberq qanunları çıxarıldı. Bu qanunlar vəhşiliyin yazılmış halı idi. Söz mövzusu qanunlarla aryan irqinin sözdə təmizlənəcəyi mübtəlalığı qəbul edilmişdi.

İrqi təmizləmə işləri ilk olaraq dövlət məmurlarının soylarının araşdırılması ilə başladı. Aryan irqinə aid olmadığı düşünülən məmurlar təqaüdə çıxmağa məcbur edildilər. Nuremberq qanunları alman xalqını iki yerə ayırırdı. Dövlətə tabe olanlar və siyasi haqlar da daxil olmaqla tam vətəndaşlıq haqqına sahib olanlar. Yəhudilər, qaraçılar və digər irqlərdən olanlar yalnız tabe olanlar idi, vətəndaşlıq haqlarına sahib deyildilər. Nuremberq qanunlarının ikincisi olan "Alman qanını və alman şərəfini qoruma qanunu" (qısa şəkildə qan qoruma qanunu kimi bilinir) xalqın sözdə irqi saflığını zəmanət altına almağı məqsəd güdürdü. Yeni qanuna görə, alman

vətəndaşları ilə alman tabeləri arasında evlilik cinayət sayılırdı. Bundan başqa, bu qanun istənməyən fərdlərin təcrid edilmələri üçün gələcək tətbiqlərə əsas təşkil edirdi.

- **Üstün irqi təyin etmə proqramları**

Yevgeni proqramında ilk addım nasistlərin yanılmalarına görə üstün və qorunacaq irqin hansı xüsusiyyətlərə sahib olduğunu təyin etmək idi. Buna görə, üstün irqin xüsusiyyətləri belə idi:

*Sarışın, uzun boylu, uzun başlı, dar üzlü, güclü çənəli, dar və donqar burunlu, yumşaq saçlı, açıq rəngli gözlü və çəhrayı-ağ dəri rənginə sahib.*

(J.C. Fest, *The Face of the Third Reich*, Pantheon, NY, 1970, s. 99–100)

Xəstə bir zehnin məhsulu olduğu aydın olan bu və bənzəri meyarlar həm elmə ziddir, həm də əxlaqi baxımdan qəbul edilməzdir. Daha əvvəl də vurğuladığımız kimi, insanları bədənlərinin, gözlərinin, saçlarının rənginə görə seçmək heç bir məntiqi və ya əxlaqi dəyərlə açıqlana bilməz.



**Kəllə ölçülərinin və saç rənginin müəyyən edilməsi, ciyər həcminin ölçüləri və barmaq izləri yevgenist məqsədlər üçün istifadə edilir, uyğun olmadığı düşünülən insanlar bu şəkildə təsbit edilirdi.**

Təyin olunan bu ağıl xarici meyarlara baxmayaraq, nasistlərin irqləri bir-birindən ayırmaları o qədər asan olmurdu. Bunun üçün kəllə ölçmək, elmi dəyəri olmayan bəzi zəka testləri tətbiq etmək daxil olmaqla, bir çox primitiv metodla insanlarda müxtəlif ölçülər apardılar. Lazımi üstün irq xüsusiyyətlərinə sahib olduqlarını düşündükləri qadınlar xüsusi evlərdə saxlandılar və bu primitivlik davam etdiyi müddət boyu nasist zabitləri tərəfindən hamilə qoyuldular. Bu qeyri-əxlaqi "insan yetişdirmə fermaları"nda ataları müəyyən olmayan uşaqlar dünyaya gəldi. Bu uşaqlar sözdə üstün alman irqinin gələcək nəsli idi. Ancaq bu fermalarda heç gözlənilməyən nəticə alındı. Bu fermalarda doğulan uşaqların İQ testi (zəka dərəcəsi) orta hesabla ata-analarından daha aşağı idi.

(Jerry Bergman, *Darwinism and the Nazi Race Holocaust*, http://www.trueorigin.org/holocaust.asp)

- **T4 evtanaziya proqramı: elmi cinayətlər**

Nasistlər bütün bu qanunlarla birlikdə inanılmaz tətbiqlərin təməllərini atmış oldular. İnsanlıq üçün utandırıcı olan bu tətbiqlərdən biri də "zehni xəstələrin kütləvi qırğını" olaraq açıqlanan "T4 evtanaziya proqramı" idi. Proqram, adını tətbiqin icra edildiyi mərkəzin Berlindəki ünvanının baş hərflərindən götürülmüşdü: Tiergartenstrasse 4.

Nasist Almaniyasında evtanazi sözdə irqi təmizliyi təmin etmək üçün sonsuzlaşdırmadan sonra əl atılan ikinci üsul halına gəlmişdi. T4 evtanazi proqramı daxilində müalicəsi mümkün olmayan, fiziki və ya zehni əlil, ruhi problemləri olan insanlar və yaşlılar öldürüldülər. Bir tərəfdən qaz otaqlarında günahsız körpələr, qadınlar, yaşlılar yalnız fərqli irqdən olduqları üçün soyqırıma məruz edilərkən, digər tərəfdən də eyni irqdən olmalarına baxmayaraq, zəif və gücsüz göründükləri üçün minlərlə məzlum mərhəmətsiz şəkildə qətl edilirdi. Hitler bu mərhəmətsiz proqramı 1939-cu ildə başlatdı və 1941-ci ilə qədər rəsmi olaraq bu tətbiq davam etdi. Ancaq cinayətlər 1945-ci ildə nasistlərin məğlubiyyətinə qədər qeyri-rəsmi olaraq davam etdirildi.



**Hitler nasist Almaniyası üçün gənclərin daşıdığı əhəmiyyətin fərqində idi. Nasizmin azğın təlqinləri ilə yetişən yeni nəsil Hitlerin davamçıları olması planlaşdırılırdı. Bu səbəblə, Hitlerin təbliğat mühəndislərinin xüsusi ixtisas sahələrindən biri də gənclər oldu. Üstün fiziki xüsusiyyətlərə sahib bəzi gənclər xüsusi yevgeni düşərgələrində bir yerə toplanır və bu düşərgələr xüsusi çoxalma fermaları kimi istifadə edilirdi. Son dərəcə azğın və əxlaqa uyğun olmayan bu üsulla alman xalqının daha saf və daha üstün bir hala gələcəyinə inanılmışdı. Digər tərəfdən gənc beyinlər nasizmin azğın fikirləri ilə yuyunur, gənclər kor-koranə bu ideologiyaya bağlanılırdı. Daha uşaq yaşlarından etibarən nasizmin batil təlqinləri ilə zəhərlənən bu gənclər, nəyin doğru nəyin səhv olduğunu belə ayırd edə bilməz bir hala gətirilirdilər.**

T4 “Gizli alman hökumət məsələləri” kimi bilinən əmr və tədbirləri də ehtiva edirdi və bunların yerinə yetirilməsində vəzifəli olan şəxslər susmağa məcbur idilər. Nasist dövründəki evtanazi tətbiqləri mövzusunda çoxlu məlumatın əldə olunmamasının önəmli səbəblərindən biri bu proqram daxilində öyrədilən və istifadə edilən personalın daha sonra müharibənin ən təhlükəli cəbhələrinə əsgər olaraq göndərilmələri idi. Bunlardan biri Yuqoslaviya cəbhəsi idi. Bu ölkədəki müqavimətçi partizanlar əsir götürməyin yerinə bütün düşmən əsgərlərini öldürmələri ilə tanınırdılar. Evtanazi şahidlərinin böyük əksəriyyəti də bu cəbhəyə göndərilib ortadan qaldırılmışdı.

Almaniyada sözdə irqi təmizliyin qurucusu A. Plotz *“İrqi təmizliyin əsas icmalı”* adlı kitabında xəstə və əlillərin öldürülməsindən ilk bəhs edənlərdən biri oldu. Plotzın azğın məntiqinə görə, zəif və xəstələrin qorunmaları və baxılmaları irqin qorunması və təmizliyi baxımından son dərəcə səhv idi. Bu azğın düşüncəyə görə, zəiflər ələnmələri gərəkən yerdə qorunub yaşadılırdılar. (Halbuki, sağlam cəmiyyətdə edilməsi lazım olan budur. Zəif olanlar qorunar.) Plotz əlil və ya qüsurlu doğulan bir körpənin həkim heyəti tərəfindən verilən az dozalı morfi ilə dərhal öldürülməsinin lazım olduğunu qarşıya qoyacaq qədər də zalım idi.

Plotzı digərləri də təqib etdi. 1922-ci ildə hüquqşünas K. Bindinq və psixiatr A. Hok “Dəyərsiz həyatın yox edilmə izni” adında evtanaziyanı müdafiə edən kitab nəşr etdilər. Kitabda xəstə və əlillərin həm özlərinə, həm də cəmiyyətə yük olduqlarını və ölmələrinin böyük itki olmayacağını, bu "işə yaramaz" insanları həyatda saxlamağın xərcinin yüksək olduğunu və dövlətin bu pulu daha məhsuldar mövzulara xərcləyə biləcəyini iddia etdilər. Özlərinə görə həll olaraq fiziki və zehni əlillərin öldürülmələrinin lazım olduğunu irəli sürdülər və bunun üçün dini və qanuni maneələrin ortadan qaldırılmasını istədilər. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 17) Hokun ağıl xarici fərziyyələrindən biri də insan həyatının qorunması ilə əlaqədar əxlaqi dəyərlərin yaxında yox olacağı, "lazımsız" həyatların yox edilməsinin cəmiyyətin həyatda qalması üçün zərurət halına gələcəyi idi. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 17)



Hitlerin hər müxtəlif siyasətinin insanları ölümə və vəhşiliyə apardığını təmsil edən 1945-ci ilə aid bir karikatura.

Bunun necə qorxunc təklif olduğunu daha yaxşı anlamaq üçün söz mövzusu insanların qarşıya qoyduqları modellərin tətbiq edildiyi bir cəmiyyətdə olduğumuzu düşünmək kifayət edər. Qulaqları eşitməyən bir bacınız, gözləri görməyən ananız, ruhi problemləri olan bir qonşunuz, ayaqları tutmayan babanız, müalicəsi mümkün

olmayan xəstə nənəniz, yaşlanan atanız gözlərinizin qarşısında ölümə aparılsa və bu vəhşiliyi edənlər bunu sözdə elm adına və cəmiyyətin yaxşılığı üçün etdiklərini iddia etsələr, nə düşünərdiniz? Şübhəsiz, bu iddialarının heç bir elmi tərəfi olmadığını çox yaxşı anlayıb sevdiyiniz və dəyər verdiyiniz insanların qətl edilmələrinin zülm olduğunu bilərdiniz. Bu iddiaların xəstə zehinlərin məhsulu hədyanlar olduğunu qavramağınız çətin olmazdı. Tətbiq olunan vəhşiliyin sizə və bütün tanışlarınıza tərifi mümkün olmayan acılar yaşadacağı da məlumdur. Budur, başda nasist Almaniyası olmaqla, yevgeni isteriyasına düşən bir çox cəmiyyətdə belə acılar yaşanmış, bu cinayətlər söz mövzusu cəmiyyətlərin vicdanlarında dərin yaralar açmışdır.

Unutmaq olmaz ki, təkamülçülərin yaşanan zülmlərin böyüklüyünü görməzlikdən gəlib insanlara unutdurmağa çalışmaları və ya bu cinayətləri yox saymaq üçün cəhd göstərmələri boş yerədir. Üstü nə qədər örtülməyə çalışılsa da, həqiqətlər ortadadır. Darvinizmin yalanlarının meydana gətirdiyi ideoloji zəmin səbəbi ilə insanlıq böyük acılar yaşamış və böyük itkilər vermişdir.

Eyni dövrdə evtanazi vəhşiliyi yalnız Almaniyada deyil, başda ABŞ olmaqla bir çox ölkədə yayılmağa başladı. ABŞ-da Rokfeller İnstitutundan A. Karelin 1935-ci ildə *"Bilinməyən insan"* adlı kitabı nəşr olundu və bu kitab üç il içində doqquz ayrı dilə çevrildi. Karel kitabının *"İnsanın yenidən düzəldilməsi"* adlı son hissəsində sosial problemlərə sözdə həll kimi yevgeni və evtanazini göstərdi. Zehni xəstələrin və günahkarların uyğun qazların saxlanıldığı kiçik evtanazi institutlarında öldürülmələrinin lazım olduğunu söyləyib cinayəti bu sözlərlə müdafiə etməyə çalışırdı:

Çoxlu sayda əlil və günahkarın olması həll edilməmiş problemdir. Bunlar normal əhali üçün böyük yükdür. Daha əvvəl də diqqət çəkdiyim kimi, həbsxanaların və ruhi xəstəxanaların baxımını təmin etmək və xalqı qanqsterlərdən və ruhi xəstələrdən qorumaq üçün böyük məbləğlərə ehtiyac vardır. Niyə bu lazımsız və zərərli varlıqları qoruyuruq? Anormal olanlar normal olanların inkişafına mane olurlar. Bu həqiqətlə dürüst şəkildə üzləşmək lazımdır. Cəmiyyət niyə günahkarlardan və ruhi xəstələrdən iqtisadi yanaşma ilə xilas olmur? Məsulu məsuliyyətsizdən ayırmaq üçün çalışmağa, günahkarı cəzalandırmağa, cinayət törətməsinə baxmayaraq əxlaqi baxımdan günahsız olduğu düşünülənləri ayrı tutmağa davam edə bilmərik.

İnsanları mühakimə edəcək qədər kafi deyilik. Ancaq cəmiyyət problem yaradan təhlükəli ünsürlərə qarşı qorunmalıdır. Bu, necə edilə bilər? Əlbəttə, gerçək sağlamlığın daha böyük və elmi baxımdan daha inkişaf etmiş xəstəxanalar inşa etməklə təmin edilə bilməyəcəyi kimi, daha böyük və daha rahat həbsxanalar tikməklə bunu edə bilmərik. Almaniyada hökumət aşağı növlərin, ruhi xəstələrin və günahkarların çoxalmasına qarşı təsirli tədbirlər almalıdır. İdeal həll bu tip bütün fərdlərin təhlükəli olduqları isbat edildikdən dərhal sonra ortadan qaldırılmalarıdır…

Bundan sonra günahkarlara qarşı da təsirli bir mübarizə aparmaq

lazımdır. Bəlkə də həbsxanalar qaldırılmalıdır. Daha kiçik və az xərci olan təşkilatlar bunların yerini ala bilər. Əhəmiyyətsiz cinayətlərə görə haqqında hökm çıxarılmış günahkarların (daha sonra qısa müddətli xəstəxanada qalmaları şərti ilə) qamçılanmaqla və ya başqa elmi üsullarla islah edilmələri nizamın təmin edilməsi üçün böyük ehtimalla kafi olar. Daha böyük cinayət işləyənlər lazımlı qazların saxlandığı kiçik evtanazi təşkilatlarında insani şəkildə və xərci az olan üsullarla yox edilməlidirlər. Bənzər üsul cəza tələb edən bir cinayəti olan, ağlı yerində olmayana da tətbiq oluna bilər. Müasir cəmiyyət özünü normal fərdlərə uyğun şəkildə təşkil etmə mövzusunda tərəddüdə qapılmamalıdır. Fəlsəfi sistemlər və emosional ön mühakimələr belə bir ehtiyaca gətirib çıxarmamalıdır. İnsan şəxsiyyətinin inkişafı mədəniləşmənin son məqsədidir. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, II. Bölüm)

Dr. Karel kitabında günahkarların və cəmiyyətə zərər verdiyi düşünülən insanların qətl edilmələrinin ən yaxşı və ən iqtisadi həll olduğunu iddia edir. Daha əvvəl də ifadə edildiyi kimi, sosial darvinizm cəmiyyətin problemlərinə həll axtararkən hadisələrin insani ölçülərini göz önündə tutmur, son dərəcə mexaniki, insanlıqdan kənar, mərhəmətsiz, zalım və insan vicdanına qəti uyğun gəlməyən tədbirlər qarşıya qoyur. İnsanların, xüsusilə də sözdə istənməyən insanların heyvan və ya əşya kimi qəbul edilməsinin lazım olduğunu iddia edir.

Burada bu mövzunu açıqlamaq lazımdır: cinayət və cinayət törədənlərlə mübarizə cəmiyyətlər üçün son dərəcə əhəmiyyətlidir. Bu mübarizə, şübhəsiz, fikri sahədə icra edilməlidir. Həm cinayət törətməyə zəmin hazırlayan mühitlər ortadan qaldırılmalı, həm də cinayət törədən insanlar müxtəlif mədəni və öyrədici proqramlarla cəmiyyətə qaytarılmağa çalışılmalıdır. Darvinizmin insanı bir növ heyvan kimi göstərən yalanları hər cür cinayətə zəmin hazırlayır və cinayəti, oğurluğu, təcavüzü və hər cür pisliyi sözdə qanuniləşdirir. İnsanlara əvvəl cinayət törətməyi özlərinə məqbul göstərmək, sonra da cinayət törətdikləri üçün onları qətl edib cəzalandırmağı qarşıya qoymaq izahı olmayan bir vəziyyətdir. Buna görə, kifayət qədər bilgi sahibi olmadıqları və ya bu iddiaların səbəb olacağı fəlakətləri düşünmədikləri üçün təkamül nəzəriyyəsini müdafiə etməyə davam edənlərin təhlükənin ölçülərinin fərqinə varmaları son dərəcə əhəmiyyətlidir. Cinayət törədənləri öldürmək yolu ilə cəmiyyətə rifah gətirməyə çalışmaq son dərəcə vəhşi və barbar bir üsuldur. Cinayət nisbətini və günahkar insanların sayını azaltmanın ən təsirli və qalıcı yolu cəmiyyəti mənəvi baxımdan gücləndirmək, məlumatlandırmaq, həyat şərtlərini inkişaf etdirmək, rifah səviyyəsini artırmaqdır. Ən əhəmiyyətlisi, cəmiyyətin dini inancını, Allah qorxusunu və sevgisini gücləndirməkdir. Allahdan qorxan, öldükdən sonra dünya həyatında etdiklərinin qarşılığını cəza və ya mükafat olaraq alacağını bilən, Allahı sevən bir insan Allahın yaratdıqlarını da sevər. Digər insanlara sevgi ilə yanaşar və hörmət edər, daima gözəl əxlaq göstərər. Bu anlayış bir cəmiyyətdə nə qədər yerləşərsə, o cəmiyyət o qədər rifah və hüzur içində olar, inkişaf edib irəliləyər.

## • Hitlerin cinayətlərə icazə verən gizli əmri



ADOLF HITLER

BERLIN, den 1.Sept.1939.

Reichsleiter Bouhler und
Dr. med. Brandt

sind unter Verantwortung beauftragt, die Befugnisse namentlich zu bestimmender Ärzte so zu erweitern, dass nach menschlichem Ermessen unheilbar Kranken bei kritischster Beurteilung ihres Krankheitszustandes der Gnadentod gewährt werden kann.

**Hitlerin əmri olaraq verilən bu səlahiyyət sənədində Hitler nasist həkimlərinə zəruri gördükləri xəstələri öldürmə səlahiyyəti verir. Bu səlahiyyət nasist həkimlərinin işlədiyi cinayətləri sözdə qanuni bir təməl yaratmışdır.**

Nasist Almaniyasında çıxarılan irqçi qanunlardan sonra sıra xalqa yevgeni tətbiqlərini, xüsusilə evtanazini qəbul etdirməyə gəlmişdi. Buna görə, çox müxtəlif təbliğat üsulları istifadə edildi. Bu üsulların başında filmlər gəlirdi. Məqsəd insanları "bu qədər çox işə yaramaz insanı yaşatmaq üçün niyə bu qədər çox səy göstərilsin ki" yalanına inandırmaq idi. Qəzetlərdə zehni əlillər üçün nə qədər pul xərcləndiyinə və bu pulun başqa hansı faydalı işlərdə istifadə edilə biləcəyinə dair xəbərlər və yazılar nəşr olundu. Başlanan kampaniya o qədər böyük idi ki, məktəb kitablarına qədər gedib çıxdı. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 32)

1938-ci ilin sonunda Almaniyada ilk evtanazi tətbiqləri başladı. 1938-ci ilin sonlarına doğru Leypsiqdən Knauer adlı birisi A. Hitlerə bir məktub göndərdi. Məktubda kor, əqli zəif və üzvləri nöqsan doğulan uşağının həyatına son vermək üçün həkim istədiyini yazdı. Məktubuna cavab olaraq Hitler xüsusi həkimi professor K. Brandtı Leypsiqə göndərdi və nəticədə, uşaq həkimlər tərəfindən öldürüldü. (Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 32)

Hitler K. Brandt və F. Buhlerə xüsusi vəziyyətlərdə evtanaziyə icazə vermə səlahiyyəti verdi. "Hitlerin əmri" olaraq xatırlanan səlahiyyət sənədində belə deyilirdi:

*Buhler və Brandt adla təyin olunacaq bəzi həkimlərin səlahiyyətlərini genişləndirməklə məsuldurlar. Buna görə, xəstəlik vəziyyətlərinin tədqiq edilməsindən sonra insan ağlı (bu xəstələr üçün) mərhəmətli ölüm üçün qərar verə bilər. İmza, A. Hitler.*

(Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 33)

Cinayəti gündəlik həyatın bir parçasına çevirən bu səlahiyyət nasist Almaniyasının psixiatrları tərəfindən işlənən cinayətlərə qanuni əsas təşkil etməklə qalmamış, daha sonra Nuremberq məhkəmələrində və digər bəzi məhkəmələrdə müttəhimlərin bu səlahiyyəti bir əmr olaraq izah etmələri törətdikləri qırğınları sözdə yüngülləşdirən səbəb olaraq qarşıya qoyulmuşdur.

- **T4 evtanazi proqramı necə tətbiq olundu?**

1939-cu ilin ortalarında evtanazi proqramı ilə əlaqədar hazırlıqların son mərhələsi başlanmışdı. Psixiatriya komitəsi və məşvərətçilər tərəfindən hazırlanan anketlər oktyabr ayında ruhi xəstəliklərlə əlaqədar xəstəxana və təşkilatlara göndərildi. Anketdəki suallar bunları ehtiva edirdi: "Xəstənin adı, mədəni vəziyyəti, milliyyəti, ən yaxın qohumu, müntəzəm ziyarət edilirmi, ziyarətçiləri kimlərdir, maliyyə məsuliyyəti kimə aiddir, nə qədər vaxtdır xəstəxanada qalır, nə vaxtdan xəstədir, diaqnoz, əsas əlamətlər, yatalaqdırmı, nəzarətdədirmi, müalicəsi mümkün olmayan bir xəstəlikdən və ya şikayətdən ötrü yatırmı, müharibədə yaralanıbmı və xəstənin irqi". Bu anketlər T4 proqramı içində vəzifə icra edən qabaqcıl qruplar tərəfindən paylanırdı.

T4 sistemində dörd qabaqcıl qrup təşkil olunmuşdu və hər hansı bir istintaq vəziyyətində bu qruplar əsl qaynağı gizlədəcəkdilər. T4-ün əsl qrupundan gələn əmrləri bu qabaqcıl qruplar tətbiq edirdilər. Hər hansı bir xəstəxana və ya ailə ölüm əmrini və ya şəklini araşdırdığında bu əsl qrupu müəyyən edə bilməzdi və dörd qabaqcıl qrupun arxasında heç kimi tapa bilməzdi.

Bu dörd qrupa paralel olaraq çalışan başqa bir qrup yenə var idi ki, bunlar xüsusilə uşaqların öldürülməsi mövzusunda mütəxəssis olmuşdular. Bu qrupun adı *"Genetik və Bünyəyə Bağlı Ciddi Xəstəliklərə Elmi Yanaşma Üçün Xalq Komitəsi"* idi və bu təşkilatla əlaqəli çalışan iki əlavə alt qrup var idi. *"Xəstələrin Daşınması Üçün Yardımsevərlər Birliyi"* adlı təşkilat xəstələri öldürmə mərkəzlərinə daşımaqla vəzifəli idi. *"Təşkilati Baxım üçün Yardımsevərlər Vəqfi"* adlı təşkilat isə son hazırlıq və tənzimləmələri etməklə vəzifəli idi.



**Bernburq Öldürmə Mərkəzinin fərqli yönlərdən çəkilmiş şəkilləri.**



**Hadamar Öldürmə Mərkəzindəki insan yandıran sobaların tüstülənən bacası.**

Nasistlərin insafsız tətbiqlərindən biri də öldürülən xəstələrin ailələrindən cinayətin xərclərinin alınması idi; ancaq ailələr ödənişləri yaxınlarının

öldürülmələri üçün etdiklərini bilmirdilər.

Gələn anketlər ruhi xəstəxanada o xəstələrdən məsul olan həkim və ya psixiatrlar tərəfindən doldurulurdu. Anketlər geri gəldiyində T4-ün psixiatrları və digər mütəxəssisləri tərəfindən qiymətləndirilirdi. Heç bir xəstə müayinə edilmirdi və görülmürdü. Bir xəstənin sağ qalmasına və ya öldürülməsinə bu anketlərdəki məlumatlara görə qərar verilirdi.

Anketlər göndərilməyə başlandığında bəzi ruhi xəstəxanalar və uyğun binalar öldürmə mərkəzləri və cinayət təhsili məktəbləri kimi istifadə edilmək üçün yenidən quruldular. Binalardakı ölüm otaqları yuyunma yerləri kimi kamuflyaj edildilər.

Bu dəhşətli sistem belə işləyirdi: anket cavabları gəldikdən sonra ölümünə qərar verilən xəstələrin qaldığı təşkilata bir bəyanat göndərilir və müharibədə yaralananlara yer ayrılması və ya bu xəstələrin daha yaxşı müalicə edilməsi üçün başqa yerə aparılacağı bildirilirdi. Bu xəstələr qabaqcıl təşkilatlardan biri olan və xəstələri daşımaqla vəzifəli olan təşkilat tərəfindən toplanır və öldürmə mərkəzlərindən birinə aparılırdılar. Bu mərkəzlərə gətirildikdən sonra isə bir neçə saat içində öldürülürdülər.

Öldürülənlər yalnız zehni baxımdan müalicəsi mümkün olmayan xəstələr deyildi. Evtanazi tətbiqi sürətləndikcə nasistlər özlərinə görə başqa istənməyən fərdləri də bu tətbiqə daxil etdilər. Ruhi problemi olanlar, şizofrenlər, yaşlılıqdan əziyyət çəkənlər, epilepsiya olanlar, iflic, parkinson, skleroz və beyin qlioması kimi digər üzvi nevroloji xəstəliyi olanlar üçün də ölüm əmrləri verildi. Uşaqlar da eyni şəkildə öldürülürdülər, yetimxanalar və koloniyalar qətl ediləcək yeni namizədlər üçün ətraflı şəkildə araşdırılırdı.

Bu əhəmiyyətli nöqtəni ifadə etmək lazımdır ki, öldürülən xəstələrin 50 faizi əgər yaşamalarına izn verilsəydi, sağalma imkanı olan xəstələr idi.

(Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 40)

**Böyük şəkildə Bernburq Psixiatriya Xəstəxanasının maketi görünür. Mavi oxlar ölüm bölgəsinə gedən xəstələrin daşındığı yolu, dairə içinə alınmış bina isə ölülərin yandırıldığı yerləri və qaz otaqlarını göstərir. Sağdakı şəkil: sosial elmlər sahəsində professor olan Dr. Kath Leichte 1940-cı ildə Ravensbruq toplama düşərgəsinə sövq edildi və 1942-ci ildə gestapolar tərəfindən Bernburq Evtanazi İnstitutunda zəhərli qaz verilərək öldürüldü. Soldakı şəkil: Bir zoologiya professorunun qızı olan Marqarita Sinqer evtanazi proqramı çərçivəsində öldürüldü.**



Daha əvvəl də ifadə edildiyi kimi, T4 əməliyyatlarını və ölüm mərkəzlərini gizlətmək üçün bunların adi ruhi xəstəxanalar kimi

görünməsinə böyük əhəmiyyət verilmişdi. Bu həqiqət Nuremberq məhkəmələrində KdF-nin (bu termin Fürerin kansleri mənasında istifadə edilir) ikinci bölməsinin rəisi və evtanazi proqramının edamından məsul şəxslərdən biri olan V. Brak tərəfindən etiraf edilmişdi. Brak Nuremberq məhkəmələrində ölüm otaqlarına girərkən xəstələrin əllərində dəsmal və sabun olduğunu və həqiqətən yuyunacaqlarını zənn etdiklərini ifadə etdi. Duşlardan isə su yerinə öldürücü qaz verilirdi.

Cinayətləri reallaşdıran tələbələri Hitlerə bağlı olan yüksək rütbəli nasist zabitlər seçirdi və həmin şəxslər ciddi şəkildə öyrədilirdilər. Əvvəl cinayətləri izləyir, təhsilləri artdıqca xəstələri otaqlara daşımağa və ölüm qazını xəstələrin olduğu otağa verməyə başlayırdılar. Bunun ardından xəstələrin can verməlırinə baxır və öldüklərinə əmin olduqdan sonra otaqların havasını təmizləyib cəsədləri götürürdülər. Bu şəkildə minlərlə günahsız insanı qətl etdilər.

Bütün bu cinayətlər ciddi təhlükəsizlik tədbirləri görülməklə reallaşdırılırdı və xaricə ən kiçik məlumatın belə sızmamağı üçün bütün tədbirlərə əl atılırdı. Çünki bu binalarda öldürülən insanlar başqa irqdən deyildilər. Çoxu alman və ya avstriyalı idi. Əgər alman xalqı öz vətəndaşlarının bu şəkildə öldürüldüklərini öyrənsəydi, nasistlərin bunu açıqlamaları çətin olacağı üçün hər cür təhlükəsizlik tədbiri alınırdı.

Bir növ cəllad olan tələbələr bir müddət sonra cinayətə alışırdılar və bu insanların yalvarışlarından, qışqırtılarından və can verməlırindən artıq təsirlənmirdilər. Bu müddət içində isə təlimçiləri tərəfindən diqqətlə müşahidə edilirdilər, reaksiyaları qeyd edilir və buna görə barələrində hesabat yazılırdı. Bundan başqa, bu tələbələr öz millətlərindən olan insanları yalnız xəstə olduqları üçün bu qədər asan öldürə bildiklərinə görə, sözdə aşağı irqdən insanları daha asan öldürəcəkləri hesablanaraq qarşıdakı daha geniş əhatəli tətbiqlər üçün öyrədilirdilər. Bu cinayətləri işləməyə dözməyən və ya reaksiya verən tələbələr isə müharibənin ön cəbhələrinə göndərilirdilər və daxil olduqları bölüyün komandiri tərəfindən "intihar manqasına" göndərilirdilər.

Cəllad olmaq üçün öyrədilən tələbələr yanmış insan ətinin qoxusuna, ölməkdə olan insanların qışqırtılarına və can verməlırinə qarşı dözümlü, ölümə apardıqları insanlarla sanki yuyunmağa gedirmiş kimi rahat danışan, soyuqqanlı, “qüsursuz” qatillər olaraq yetişdirilirdilər. Tələbələrə müxtəlif mükafatlar verilir və bu üsulla təşviq edilirdilər. Müxtəlif mükafatlardan başqa İkinci Sinif Alman Dəmir Xaç Nişanı alırdılar. Bu nişanın verilmə səbəbi kimi alman hökumətinin gizli məsələləri göstərilirdi.

Xalq zamanla bu institutlarda hansı şeylərin baş verdiyini anlamağa başlayınca etirazlar başladı. Bundan sonra Hitlerin cinayətləri dayandırmaq əmri verdiyi bildirildi. Ancaq cinayətlər dayanmadı, yalnız üsul dəyişikliyi edildi. Artıq öldürücü iynə və ya ac saxlama kimi üsullardan istifadə edilir və ölülər toplu şəkildə basdırılırdı. Bu şəkildə evtanazi vəhşiliyi müharibə boyu davam etdi.

- **Xüsusi hərəkat 14f13**

Bir çox istənməyən ruhi xəstə və sözdə faydasız insan qətl edildikdən sonra T4 proqramı, 14f13 kodu altında iş sahəsini genişləndirdi. Proqram ruhi xəstəxanalar və araşdırma institutları ilə məhdud olduğu halda, bundan sonra, ümumiyyətlə, qaldıqları yerlərdəki şərtlərə görə xəstələnən alman və avstriyalı məhkumlarla toplama düşərgələrindəki yəhudilərə, polşalılara və qaraçılara yönəlmişdi. 14f13 əməliyyatının başlanğıc tarixi 1941-ci ilin dekabr ayı idi. Psixiatrlardan ibarət olan xüsusi komissiyalar T4 Berlin qrupuna əlavə olunmuşdu və həmin şəxslər xəstə və özlərinə görə istənməyən şəxsləri seçib tibbi bölmələrin və xəstə qərargahlarının təmizlənməsi məqsədi ilə toplama düşərgələrinə göndərmişdilər. Seçilən xəstələr, ümumiyyətlə, altı ölüm mərkəzindən birinə göndərilir və orada öldürülürdülər. Toplama düşərgələrindən seçilən insanlar, ümumiyyətlə, əmək qabiliyyətlərinə görə ayrılır, işləyə bilməyən vəziyyətdə olanlar ölümə göndərilirdi.




**Evtanazi proqramı daxilində öldürülənlərin xatirəsinə inşa edilən bir abidə.**

**Altda: Milliyyət qəzeti, 10 oktyabr 2003-cü il tarixli xəbər.**




1943-cü ildə öldürmə stansiyalarından biri olan Hadamarda uşaqlar da öldürülməyə başlandı. Ancaq bunların arasında iflic və ya zehni problemləri olanlardan başqa sığınacaqlarda, gənc evlərində və yetimxanalarda qalanlar da var idi.

(Bernhard Schreiber, *The Men Behind Hitler - A German Warning to the World*, http://www.toolan.com/hitler/Hitler, s. 40)

## QADINLARI AŞAĞI GÖRƏN NƏZƏRİYYƏ

Sosial darvinizmin irqçiliyə, faşizmə və imperializmə (və digər tərəfdən də kommunizmə) verdiyi sözdə elmi dəstək, ümumiyyətlə, bilinən və çox yazılan bir mövzudur. Çox bilinməyən həqiqət isə Ç. Darvin də daxil olmaqla, bir çox darvinistin qadınların həm bioloji, həm də əqli cəhətdən kişilərdən aşağı olduqları yalanına inanmasıdır. Darvinistlərin kişilərlə qadınların arasında mövcud olduğunu iddia etdikləri əqli fərq o qədər əhəmiyyətli ölçüdədir ki, bəzi təkamülçülər qadın və kişini iki fərqli fiziki növə ayırmışlar; onlara görə, kişilər homo frontalis, qadınlar isə homo parietalisdir. (Jerry Bergman, "The History of Evolution's Teaching of Women's Inferiority", http://www.rae.org/women.html, Birçok bilimsel dergi ve gazetede 400'den fazla yazısı yayınlanan, 20 kitabı olan ve Darwinizm'i eleştiren çalışmalarıyla tanınan Jerry Bergman, "The History of Evolution's Teaching of Women's Inferiority" adlı makalesinde, Darwin'in ve çağdaşı evrimcilerin kadınlara bakış açılarını incelemiş ve kadınları aşağılayan ifadelerinden bazılarını bir araya getirerek, Darwin'in ve Darwinizm'in bilinmeyen bir yönünü oldukça çarpıcı delillerle ortaya koymuştur.)

Darvinin qadınları özünə görə aşağı növ olaraq təyin etməsinin səbəbi təbii seleksiyaya əsaslanan dünyagörüşünə sahib olmasıdır. Darvinistlərin həmin bu elmdən və ağıldan xaric fikrinə görə, kişilər qadınlara nisbətən döyüşmək, yoldaş tapmaq, yemək və geyim əldə etmək üçün rəqabət aparmaq kimi mövzularda seçimə daha çox uğrayırlar; qadınlar isə tarix boyu bu cür seçimlərdən uzaq qalmışlar. Bu elmi dayağı olmayan mənfəətə görə, təbii seleksiya kişilərin üzərində böyük güc tətbiq etdiyi üçün kişilər hər sahədə daha üstün mövqeyə gəlmişlər, qadınlara görə daha çox təkmilləşmişlər. Növbəti səhifələrdə haqqında danışacağımız kimi, Darvinin bu mənfəəti elmi tapıntılara əsaslanmır, tamamilə təkamülçü ön mühakimələrin nəticəsində xəyali olaraq ortaya atılmışdır.

**Darvin evliliyi "bir itin dostluğundansa bir qadının dostluğu daha yaxşıdır" düşüncəsi ilə qəbul etdiyini ifadə etmişdir. Bu sözlər Darvinin qadınlara baxış yönünün xülasəsidir. Yandakı şəkildə Darvin və xanımı görünür.**



Bir çox tədqiqatçı Darvinin təbii seleksiya haqqındakı görüşlərinin cinsiyyət ayrı-seçkiliyini təşviq etdiyini ortaya qoyur. Məsələn, tarix və fəlsəfə professoru E. Riçards "Darvinin qadınların təbiəti haqqındakı görüşlərinin təkamül nəzəriyyəsinə də əks olunduğu və bu səbəbdən nəsillər boyu (sözdə) elmi qadın ayrı-seçkiliyini bəslədiyi" nəticəsinə gəlmişdir. (Evelleen Richards, "Will the Real Charles Darwin Please Stand Up?", *New Scientist*, (Dec. 22/29 1983): 887) Təkamülçü elmi yazıçı

E. Morqan isə Darvinin biologiya, etnologiya və digər bəzi elm sahələrindən istifadə etməklə kişiləri qadınların aşağı və dəyişə bilməz şəkildə ikinci sinif olduqlarını düşünmələri üçün təşviq etdiyini ifadə edir.

(Elaine Morgan, *The Descent of Woman*, New York: Stein and Day, 1972, s.1)

Təkamülçü elm adamı C. R. Durantın ifadə etdiyi kimi, irqi və cinsi ayrı-seçkilik təkamül nəzəriyyəsinin müəyyən nəticələrindən ikisidir:

*Darvin fikrini heyvan və insanların görünüşləri ilə əlaqədar bəzi müşahidələrə əsaslandırdı. Kiçik beyin və qavrayışı olan, daha qüvvətli qolları ilə məntiqdən çox instinktə malik həyat sürən vəhşilər təbiət və insan arasında orta mövqeyə yerləşdirilmişlər. Daha sonra Darvin bu sıralamanı uşaqları və doğuşdan əqli zəifləri və eyni zamanda, qadınları da daxil etmək məqsədi ilə genişləndirmişdir. Darvin qadınların hiss, sürətli qəbul etmə və bəlkə təqlid kimi güclərinin aşağı irqlərin, dolayısilə, qədim və aşağı mədəniyyət səviyyəsinə malik insanların xüsusiyyətlərinə bənzər olduğunu düşünürdü.*

(John R. Durant, *"The Ascent of Nature in Darwin's Descent of Man" in The Darwinian Heritage*, Ed. by David Kohn, (Princeton, NJ: Princeton University Press, 1985), s.295)



**İnsan Allahın yaratdığı və ona ruhundan üflədiyi bir varlıqdır. Buna görə də heyvanlardan fərqli olaraq sevgi, şəfqət, mərhəmət, hörmət kimi duyğulara malikdir.**

**... Sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir...**

(Rum surəsi, 21)

Durantın bəhs etdiyi Darvinin yalanları *"İnsanın törəməsi"* adlı kitabında belə keçir:

*Ümumiyyətlə, qadınlarda hiss, sürətli qavrayış və bəlkə təqlid gücü kimi xüsusiyyətlərin kişilərə nisbətən daha diqqəti cəlb edən olduğunu etiraf etmək olar. Ancaq bu qabiliyyətlərdən (heç olmasa) bəziləri aşağı irqlərə və bu səbəbdən də qədim və aşağı mədəniyyət səviyyəsinə aid xüsusiyyətlərdir.*

(Charles Darwin, *The Descent of Man and Selection in Relation to Sex*, New York: D. Appleton and Company, 1871 (1896 baskısı), s.326)

Darvinin qadınlar və evlilik haqqındakı ümumi düşüncələri də düşünüldüyündə qadınları ikinci sinif varlıqlar kimi gördüyü və onları kiçik hesab etdiyi açıq şəkildə görünür. Darvin bu elmdən kənar fikrini nəzəriyyəsinə də əks etdirmişdi. Evliliyin niyə faydalı olduğunu özünə görə belə açıqlayırdı:

*Uşaqlar, daimi dost, yaşlı vaxtlarda maraqlı birisi, sevilən və oyun*

*oynamağa bir nəfər... Hər şeyə baxmayaraq, itdən daha yaxşı bir şey. Ev və evlə maraqlanan bir adam. Musiqidən, havadan və sudan söhbətlər. Bunlar sağlamlıq üçün yaxşı şeylərdir.* (Charies Darwin, *The Autobiography of Charles Darwin 1809-1882* (Ed. by Nora Barlow), New York: W. W. Norton & Company, Inc., 1958, 232-233)

Qısası, Darvin evliliyi "bir qadının yoldaşlığı necə də olsa, bir itin yoldaşlığından daha yaxşıdır" məntiqi ilə lazımlı görürdü. Darvin evliliklə əlaqədar ifadələrində bütün həyatını birlikdə keçirən iki insanın arasındakı dostluq, sevgi, hörmət, bağlılıq, sədaqət, yaxınlıq, səmimiyyət və güvən kimi xüsusiyyətlərdən heç danışmırdı. Bundan başqa, Darvin evlilik haqqında bunları da deyirdi:

*Vaxt itkisi; axşamlar oxuya bilməzsən, köklük və tənbəllik, narahatlıq və məsuliyyət, kitablar və s. üçün daha az pul ayırmaq, əgər çox uşağınız varsa, dolanışıq çətinliyi... Bəlkə yoldaşım Londonu sevmədi, onda key və tənbəl bir axmaqla birlikdə sürgün həyatı yaşayıb cəzalanmış olaram.*

(Charies Darwin, *The Autobiography of Charles Darwin 1809-1882* (Ed. by Nora Barlow), New York: W. W. Norton & Company, Inc., 1958, 232-233)

İnsanların heyvanlardan əsaslı fərqinin olmadığını, xüsusilə qadınların və uşaqların heyvanlara daha yaxın varlıq olduğunu zənn edən bir insan üçün belə ağıl və vicdandan uzaq ifadələr son dərəcə təbiidir. Yoldaşını və uşaqlarını aşağı növ kimi görən insan, əlbəttə ki, onlara sevgi, hörmət göstərməz, onlar üçün fədakarlıq etmək və onlara qarşı hər hansı bir gözəlliyin olmasını istəməz, mənfəətinə uyğun olmadığı müddət boyu onlarla maraqlanmaz. Əslində, Darvinin ifadələri darvinist əxlaqda insan sevgisinin, yaxınlıq və dostluğun yaşana bilməyəcəyini bir daha göstərir.

Darvin özünə görə kişilərin qadınlardan daha üstün olduqları iddiasını isə belə ifadə etmişdi:

*İki cinsin əqli cəhətdən fərqlərini kişilərin dərin düşünmə, məntiq, təxəyyül və ya yalnız duyğu və əllərdən istifadəni tələb edən hər işdə qadınlardan daha yüksək mövqelərə çatmaları göstərir. Şeir, şəkil, heykəltəraşlıq, musiqi, tarix, elm və fəlsəfə mövzularında öndə gələn qadın və kişilərin siyahısı hazırlansaydı, iki siyahını müqayisə etmək mümkün olmazdı. Bay Qaltonun "Hereditary genius"* (İrsi dahi) adlı kitabında çox gözəl ifadə etdiyi kimi, əgər kişilər bir çox mövzuda qadınlar üzərində mübahisəsiz şəkildə üstünlüyə sahibdirlərsə, onda kişilərin orta hesabla zehin gücünün qadınlara nisbətən yüksək olması lazımlığının



**Allah qadınlarla kişiləri bərabər yaratmışdır. İmanın qazandırdığı ağıl ilə hərəkət edən hər bir insan qadın və kişi olmasından asılı olmayaraq nailiyyətlər qazana bilər.**

nəticəsini orta hesablardan kənarlaşma qanunundan çıxara bilərik. (Charles Darwin, *The Descent of Man and Selection in Relation to Sex*, New York: D. Appleton and Company, 1871 (1896 baskısı), s.564)

Şübhəsiz, Darvin bu yanlışlığı önə sürərkən heç bir elmi sübuta əsaslanmırdı. Darvinin qadınlar haqqındakı bu cür və ön mühakiməli iddiaları sürətlə öz dövründəki elm adamları arasında yayıldı.

Cenevrə Universitetində təbiət tarixi professoru olan materialist K. Voqt Darvinin gəldiyi bütün nəticələri (heç bir elmi qiymətləndirməyə qoymadan) qəbul edir və uşaq, qadın və qoca ağ dərilinin yetkin bir zənci ilə eyni zehni xüsusiyyətlərə və şəxsiyyətə sahib olduğunu, dolayısilə, onların aşağı sinifdən olduqlarını iddia edirdi. (Carl Vogt, *Lectures on Man: His Place in Creation, and the History of Earth*, edited by James Hunt, London: Paternoster Row, Longman, Green, Longman, and Roberts, 1864, xv, 192) Voqt daha da irəli getmiş və qadınların kişilərdən çox aşağı heyvanlara yaxın olduğu yalanını önə çəkmişdi. Voqtun səhv düşüncələrinə görə, qadın təkamülü erkən dayandığı üçün inkişafı əngəllənmiş adam idi. (Stephanie A. Shields, "Functionalism, Darwinism, and the Psychology of Women; A Study in Social Myth," *American Psychologist*, no. 1 (1975): 749) Voqtun bir başqa səhv iddiasına görə, mədəniyyət irəlilədikcə qadınla kişi arasındakı uçurum daha da böyüyürdü. Məsələn, Avropanın öndə gələn cəmiyyətlərində bu fərq daha böyük idi. (Evelleen Richards, "Darwin and the Descent of Women," in David Oldroyd and Ian Langham (Eds.), The Wider Domain of Evolutionary Thought (Holland: D. Reidel, 1983), 75) Darvin Voqtun hədyanlarından olduqca təsirlənmişdi və onu ən əhəmiyyətli tərəfdarlarından hesab etdiyinə görə qürur hissi duyurdu.

(Evelleen Richards, "Darwin and the Descent of Women," in David Oldroyd and Ian Langham (Eds.), The Wider Domain of Evolutionary Thought (Holland: D. Reidel, 1983), 74 49)

Tarixin bir çox dövründə və Darvinin yaşadığı dövrdə (cəmiyyətlərin cəhaləti və geri qalmışlığı səbəbi ilə) qadınların müxtəlif sahələrdə arxa planda saxlandığı və bunun böyük nisbətdə reallaşdığı doğrudur. Ancaq bu, tamamilə yerli mədəniyyətdən, cəmiyyətin və ətrafın təsirindən qaynaqlanan vəziyyətdir. Darvin və tərəfdarlarının iddia etdikləri kimi, əsla bioloji yöndən geridə qalma deyil. Allah qadını və kişini bərabər yaratmışdır. Kişinin qadından üstün olduğunu iddia edib qadınlara bu yolla təzyiq göstərməklə, onlara qarşı ikinci sinif insan davranışı göstərmək din əxlaqının yaşanmadığı cəmiyyətlərə xas vəhşilikdir. Dövrümüzdə bərabər fürsətlər verildiyində qadınların da kişilər qədər müvəffəqiyyətli, ağıllı və qabiliyyətli olduqları bilinir və bunun saysız nümunəsi vardır.

## KƏLLƏ ÖLÇÜLƏRİNƏ ƏSASLANAN CİNSİ AYRI-SEÇKİLİK

Bəzi təkamülçü elm adamları qadınların daha aşağı olduqlarını göstərmək üçün özlərinə görə qadınların beyin həcmlərinin daha kiçik olduğunu sübut etməyə çalışdılar. Əvvəlcə, qadınların kəllə ölçülərini götürmək kimi son dərəcə alçaldıcı və məntiq xarici üsullara əl atdılar. Beyin nə qədər böyük olarsa, zəkanın da o qədər inkişaf etdiyini zənn etdikləri üçün (bunun elmi baxımdan əsaslı müqayisə olmadığı bu gün dəqiq olaraq məlumdur), kəllələri müqayisə etməklə qadınların aşağı olduqlarını sübut edəcəklərini iddia etdilər. Bu, əslində, Darvinin kitabında bildirdiyi elmdən kənar üsullardan biriydi:

*Fərqli zehni qabiliyyətlər mərhələli şəkildə öz-özlərinə inkişaf etdikdə*

*beyinin böyüməsi demək olar ki, qətidir... İnsan beyninin vücuduna görə böyük nisbəti (eyni nisbət qorilla və oranqutanla müqayisə edildiyində) insanın inkişaf etmiş zehni gücləri ilə yaxından əlaqəlidir... İnsan beyninin böyüklüyü ilə zehni qabiliyyətlərin inkişafı arasında (vəhşilərin və mədəni irqlərin, qədim və indiki insanların kəllələrin müqayisə edilməsi və bütün onurğalı ardıcıllığının bənzərlikləri ilə dəstəklənən) bir növ yaxın əlaqə vardır.* (Charles Darwin, *The Descent of Man and Selection in Relation to Sex*, New York: D. Appleton and Company, 1871 (1896 baskısı), s.54)



**Ari olub-olmadıqlarının aydınlaşdırılması üçün pərgar və xətkeşdən istifadə edilərək kəllələri ölçülən almanlar.**

Darvinin dövründəki ibtidai elmi şərtlərdə önə sürdüyü iddiasına görə, kəllə ölçüləri və beyin həcmlərinə görə görülən işlərin nəticələri təkamül nəzəriyyəsini dəstəkləyən bilgilər ortaya qoyacaqdı. Necə ki, elmi bilik və araşdırmalar bu iddianın tam əksini ortaya qoydu. Fərqli kəllə ölçüləri və ya beyin həcmləri heç bir şəkildə təkamülü dəstəkləyən bir bilgi vermirdi. Necə ki, bu ölçülərin elmi baxımdan əsaslı müqayisə olmadığı bu gün artıq qəti şəkildə qəbul edilir.

Qadınların sözdə aşağı cins olduqlarını kraniologiyadan (kəllə elmini) istifadə etməklə özünə görə isbat edə biləcəyini zənn edən elm adamlarından biri də P. Broka idi. Fiziki antropologiyanın qurucularından sayılan Broka insan qruplarının kəllələrini ölçməklə onlara dəyər vermək kimi ibtidai üsullardan istifadə edirdi və bu ibtidailiyi həm də müdafiə edirdi. (Stephen Jay Gould, *The Mismeasure of Man*, s.83) Broka apardığı sözdə elmi ölçmələrin ardından bu yanlış məntiqi qarşıya qoymuşdu: ümumiyyətlə, beyin yaşlılara nisbətən yetkinlərdə, orta kişiyə görə seçmə bir kişidə və aşağı irqlərə görə üstün irqlərdə daha böyükdür... Digər şeylər bərabər olduğu vəziyyətdə zəkanın inkişafı ilə beyinin həcmi arasında əhəmiyyətli bir əlaqə vardır. (Stephen Jay Gould, *The Mismeasure of Man*, s. 83, 188)

Broka xüsusilə qadınlarla kişilərin arasındakı zehin və kəllə quruluşu fərqlilikləri ilə də maraqlanırdı. Topladığı kəllə ölçülərini ön mühakiməli şərhlərlə qiymətləndirmiş və qadınların zehni olaraq daha aşağı olduğu fərziyyəsini ortaya qoymuşdu. (Stephen Jay Gould, *The Mismeasure of Man*, s.104) Bundan başqa, Broka qadınlarla kişilərin arasındakı beyin fərqliliyinin öz dövründə getdikcə daha da böyüdüyünü iddia etmişdi. Halbuki, bu iddiasını əsaslandırmaq üçün elmi bilgisi yox idi. Bu iddiasını özünə görə dəstəkləmək üçün başqa bir elmdən kənar fərziyyə ortaya atmışdı: ona görə bu artan fərqliliyin səbəbi üstün kişi ilə passiv qadın üzərində fərqliləşən təkamüli təzyiq idi. (Stephen Jay Gould, *The Mismeasure of Man*, s.104)

Brokanın ortaya qoyduğu nəticələrin elmi dəyər daşımadığı günümüzdəki təkamülçülər tərəfindən də etiraf edilir. Quld, Brokanın elmi olmayan bu

nəticələri haqqında bu şərhi etmişdir:

*Brokanın məlumatları diqqətlə seçilib toplanmış və daha sonra əvvəlki nəticələr yönündə şüursuz şəkildə istifadə edilmişlər.*

(Stephen Jay Gould, *The Mismeasure of Man*, s.85)

Başqa sözlə, Broka əldə etdiyi məlumatları təkamül nəzəriyyəsinin yalanlarına görə şüursuz şəkildə və ön mühakimə ilə şərh etmişdi.

Kəllə ölçülərindən istifadə etməklə qadınları aşağı görən təkamülçülər arasında sosial psixologiyanın qurucularından Q. Bon da var idi. Bon belə deyirdi:

*Ən ağıllı irqlərdə... çoxlu sayda qadın beyninin böyüklüyü ən inkişaf etmiş kişi beynindən çox qorillaların beyninə daha yaxındır. Bu alçaqlıq diqqəti o qədər cəlb edir ki, heç kim bir anlıq belə buna qarşı çıxmır. Bu vəziyyətin yalnız dərəcəsini müzakirə etmək olar... Qadınlar... insan təkamülünün ən aşağı formalarını təmsil edirlər və... yetkin, mədəni bir kişidən çox uşaqlara və vəhşilərə daha yaxındırlar. Qərarsızlıq, əsassızlıq, düşüncəsizlik, məntiqsizlik və mühakimə çatışmazlığı kimi mövzularda üstünlük göstərirlər. Şübhəsiz ki, seçmə qadınlar da vardır... ancaq onlara cüt başlı bir qorilla kimi əcaiblərin doğulması qədər nadir rast gəlinir. Nəticədə, onları tamamilə görməzlikdən gələ bilərik.*

(Stephen Jay Gould, *The Mismeasure of Man*, s.104-105)

Darvinistlər digər bir çox iddialarında olduğu kimi, qadınlar haqqındakı iddialarında da yanılırlar. Qadınların şəfqətli, mehriban, mərhəmətli, incə düşüncəli olmaları onları təkamülçülərin zənn etdiyi kimi aşağı edən deyil, tam əksinə, daha da üstün edən xüsusiyyətlərdir. İnsanı bir növ heyvan kimi görməyə kodlaşmış təkamülçülər belə insani xüsusiyyətləri özlərinə görə geridə qalmışlıq kimi qiymətləndirə bilərlər. Ancaq bunlar insanın həyat keyfiyyətini artıran əhəmiyyətli və gözəl xüsusiyyətlərdir. Sənət, ədəbiyyat, texnologiya kimi bir çox sahədə inkişafı və irəliləyişi təmin edən, təkamülçülərin varlığını əsla qəbul etmək istəmədikləri söz mövzusu insani xüsusiyyətlərdir.

## ELM DARVİNİ BİR DAHA YENƏ YALANLAYIR

Darvin və bəzi müasirləri nə qədər kəllə ölçmələri aparıb insanları irq və cinsiyyətinə görə "aşağı" və ya "üstün" adı ilə təsnif etsələr də, Darvinin bir çox iddiası kimi, bu da indiki dövrdə elm tərəfindən əsassız edilmişdir. Kəllə və beyin böyüklüyünün zəka və ya zehni güclə müəyyən əlaqəsinin olmadığı aydın olmuşdur.

Beyin böyüklüyü ilə zəkanın düz mütənasib olmadığı, əslində, təbiətdə açıq şəkildə görünür. Məsələn, fillərin və balinaların beyni insan beyni ilə müqayisədə çox böyükdür. Ancaq insanın bütün bu canlılardan daha ağıllı olduğu aydındır. Bundan başqa, dövrümüzdə insanların kəllə həcmi 700 $sm^3$ ilə 2.200 $sm^3$ arasında dəyişir. (Wayne Jackson, *More Skull-Duggery*, 7 Ekim 2002, http://www.christiancourier.com/penpoints/skullDuggery.htm) Lakin bu fərqliliklər insan zəkalarının arasındakı fərqliliyi təyin edən xüsusiyyətlər deyil.

Kəllə ölçmələrindən başqa, genetika elmi də Darvinin qadın və kişi

arasındakı fərqliliklərlə əlaqədar iddialarının doğru olmadığını ortaya çıxarmışdır. İrsiyyət qanunlarına görə, kişi həm qız, həm də oğullarına genlərini köçürə bilir. Əgər kişi Darvinin iddia etdiyi kimi bioloji yöndən üstün xüsusiyyətlərə sahibdirsə, onda onun qız uşağı da bioloji olaraq eyni üstün xüsusiyyətlərə sahib olar, dolayısilə, həm qadın və həm də kişilər eyni xüsusiyyətləri paylaşa bilər. Ancaq Darvin və müasirləri genetika elmi haqqında heç bir şey bilmirdilər. Hətta Darvin bir növün qazandığı xüsusiyyətlərin yalnız bir cinsdən gəldiyini önə sürə biləcək qədər bu mövzuda bilgisiz idi. (John Hurrell Crook, "Sexual Selection, Dimorphism, and Social Organization in the Primates," in Campbell (Ed.), *Sexual Selection and the Descent of Man* 1871-1971 Chicago: Aldine Publishing Company, 1972) Darvin bundan başqa, dahilik, təxəyyül və məntiq kimi üstün xüsusiyyətlərin qızdan çox oğlana köçürüldüyünü qarşıya qoyacaq qədər cahil açıqlamalar vermişdir. (Charles Darwin, *The Descent of Man and Selection in Relation to Sex*, New York: D. Appleton and Company, 1871 (1896 baskısı), s.565)

## QURAN ƏXLAQINA GÖRƏ QADINLA KİŞİ BƏRABƏRDİR, ÜSTÜNLÜK ƏXLAQA GÖRƏDİR

Quran əxlaqında qadınla kişinin arasında heç bir fərq yoxdur. Allah Quranda qadınlara və kişilərə bərabər məsuliyyətlər vermiş, hamısını eyni mövzulardan məsul tutmuşdur. Bir insanı Allah qatında onun qadın və ya kişi olması üstün etmir. Onu üstün edən Allah qorxusu, Allaha olan dərin sevgisi, bağlılığı və gözəl əxlaqıdır. Rəbbimiz bir ayəsində qadın və ya kişi olmasından asılı olmayaraq, yaxşı və gözəl davrananların əxlaqlarının qarşılığını ən gözəl şəkildə alacağını belə xəbər vermişdir:

**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.** (Nisa surəsi, 124)

Allah Quranda kişi və qadın olmasından asılı olmayaraq, iman edən hər bir şəxsə xas olan xüsusiyyətləri belə açıqlamışdır:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar** *(insanlara)* **yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.** (Tövbə surəsi, 71)

Allahın ayədə bildirdiyi kimi, hər insanın cinsiyyəti nəzərdə tutulmadan məsuliyyətləri eynidir. Bu vəzifələri nöqsansız yerinə yetirən, yalnız Allaha yönələn və Allahdan qorxub çəkinən qadın və kişiləri Allah belə müjdələmişdir:

**Rəbbi onlara belə cavab verdi: “Mən, sizlərdən** *(yaxşı)* **işlər görən – istər kişi, istərsə də qadın olsun, – heç bir kəsin əməyini puç etmərəm....** (Ali-İmran surəsi, 195)

Darvinistlərin meyar kimi götürdüyü zehni xüsusiyyətlər Allahın insanlara cinsi ayrı-seçkilik olmadan verdiyi qabiliyyətlərdir. Allah bir ayədə **“Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər...”** (Ənfal surəsi, 29) buyurur. Allahın

Ayədə bildirdiyi kimi, mühakimə qabiliyyəti və dolayısilə ağıl cinsiyyətə görə deyil, Allah qorxusuna görə formalaşır.

İmanın qazandırdığı ağıl ilə hərəkət edən hər insan qadın və kişi olmasına baxmayaraq, bir çox mövzuda müvəffəqiyyət əldə edə bilər, üstün xüsusiyyətlər qazana bilər. Səmimi iman edən insan isə ən çox Allahın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün səy göstərər.

**İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik.** (Kəhf surəsi, 30)

## DARVİNİZM VƏ ƏXLAQİ POZUNTU

Əxlaqi degenerasiyada davamlı artım. Əvvəl ayıb sayılan, pislənən, qadağan edilən, təsdiqlənməyən davranışların zamanla və yavaş-yavaş qəbul edilməyə başlanması, hətta bir müddət sonra daha da maraq göstərilən və geniş yayılan davranışa çevrilməsi bir çoxlarının fərqində olmadığı, amma son dərəcə əhəmiyyətli olan bir problemdir. Cəmiyyətdə təcavüzkarlığın, saxtakarlığın artması, ər və arvadın bir-birlərini asan şəkildə aldatması, hətta bəzən hər iki tərəfin bunu qəbul etməsi, boşanmaların artması, yaxın vaxtlara qədər əxlaqsızlıq kimi bilinən həyat şəkillərinin və davranışların fərqli seçim, marginallıq adı altında sözdə qanuni görülüb yayılması, homoseksuallıq kimi pozğunluqların qəbul edilməsi, narkotik və spirtli içkilərdən asılılığın ciddi şəkildə artması, soyğun, fırıldaqçılıq, quldurluq kimi hadisələrin sayının artması, insanların daha asan cinayət törətmələri, cinayət nisbətlərinin və cinayətə meyilliyin artması, insanların bir-birlərinə sevgi və hörmətlərinin qalmaması, dedi-qodunun yayılması əxlaqi degenerasiyanın ortaya çıxma şəkillərindən yalnız bir neçəsidir. Xüsusilə bəzi qərb ölkələrinin içində olduğu vəziyyət söz mövzusu degenerasiyanın necə təhlükəli olduğunu açıq şəkildə göstərir.

Bütün bu mənfi halların mənşəyində insanların nə üçün var olduqları sualına verdikləri səhv cavablar durur. İnsan həqiqətdə özünü yoxdan yaradan uca Allahı tanımaq üçün vardır. İnsanın qəlbi ancaq Allahı xatırlamaqla rahatlıq tapar. Allah **... Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.** (Rəd surəsi, 28) buyurmaqla insanların səhv yerlərdə axtardığı hüzurun həqiqi qaynağını bildirir. İnsana dünyada xoşbəxtlik və hüzur verən həyat forması Allahın insanlara əmr etdiyi din əxlaqıdır.

Odur ki, bu həqiqəti görməzlikdən gəlmək əxlaqi degenerasiyanı və bu da öz növbəsində bədbəxt, ümidsiz və ruhi sıxıntı içində olan insanları meydana gətirir.

Bu əxlaqi tənəzzülü meydana gətirən ən böyük amillərdən biri də insanı Allahın qulu deyil, təsadüfən ortaya çıxmış eqoist heyvan kimi təyin edən darvinist ideologiyadır. Bu elm və ağıldan kənar iddiaya görə, insanın heyvanlardan fərqli qanunlara və əxlaqi dəyərlərə sahib olması gözlənilməməlidir. Həyat mübarizə yeridir və insan həyatda qalıb müvəffəqiyyət əldə edə bilmək üçün digər insanlara qarşı var gücü ilə mübarizə aparmalı, mərhəmətsiz olmalıdır. Bu isə gözəl əxlaqa dair xüsusiyyətlərin heçə sayılması deməkdir. Kaliforniya Berkeley

Universitetinin professoru F. E. Conson *“Defeating Darwinism”* (Darvinizmi məğlub etmək) adlı kitabında 1960-cı illərdən etibarən dini inancların zəifləməsi və materialist dünya görüşünün hakim olması ilə cəmiyyət həyatında ortaya çıxan mənfi hallardan belə bəhs edir:




**Filip E. Conson və kitabı "Darvinizmi məğlub etmək"**

*1960-cı illərin İkinci Amerika Müstəqillik Bəyannaməsini meydana gətirdiyini söyləmək haradasa doğru olar. Bu, bəzi insanların Allahdan qopub ayrılmalarının bəyannaməsidir. Bu cür elanın arxasından daha böyük ölçülərdə əxlaqi və hüquqi problemlərin yaranması gözlənilməlidir, həqiqətən də, belə oldu...* (Phillip E. Johnson, Defeating Darwinism, Intervarsity Press, 1997, s.103-104)

M. Denton 20-ci əsrə damğasını vuran bəlalara darvinizm nəzərdə tutulmadan qiymət verilə bilməyəcəyini ifadə edir və belə deyir:

*Darvinist inqilab olmadan iyirminci əsr aydın ola bilməz. Son səksən ildə dünyanı təsiri altına alan mənfi sosial və siyasi cərəyanlar darvinizmin intellektual sanksiyası olmadan reallaşa bilməzdi. On doqquzuncu əsrdə getdikcə artan dinsiz dünyagörüşünün başlanğıcda təkamülün qəbul edilməsini asanlaşdırdığını söyləyərkən, indiki dövrdə iyirminci əsrin aqnostik və skeptik dünyagörüşündən böyük ehtimalla hər şeydən çox darvinizmin məsul olduğunu xatırlamaq yerində olar. Bir zamanlar materializmin nəticəsi olan (nəzəriyyə), dövrümüzdə onun dayaq nöqtəsi halını almışdır.*

(Michael Denton, *Evolution: A Theory in Crisis*, 1988, s. 358)

Bu yerdə darvinizmin əxlaqi tənəzzülə və degenerasiyaya zəmin hazırlayan iddialarının maddələr halında araşdırılması yerinə düşər.

## DARVİNİZM ATEİZMƏ ƏSAS TƏŞKİL EDİR

Darvinizmin materialist çevrələr tərəfindən böyük qərarlılıqla müdafiə olunmasının ən əhəmiyyətli səbəbi darvinizmin ateist yönüdür.

Ateizm qədim dövrlərdən bəri mövcud olmuşdur. Ancaq darvinizmlə yanaşı, ateistlər əsrlərlə cavab verə bilmədikləri "canlılar və insan necə mövcud oldu" sualına sözdə elmi cavab tapdıqlarını zənn etdilər. Kainatdakı nizam və tarazlığın təsadüflərin nəticəsi olduğunu önə sürür, kainatda heç bir məqsədin olmadığını iddia edirdilər. Halbuki, bu görüşlərin hamısı 20-ci əsrdəki elmi, siyasi və ictimai inkişaflarla alt-üst oldu. Astronomiyadan biologiyaya, psixologiyadan ictimai əxlaqa qədər bir çox fərqli sahədə olan tapıntı, təsbit və nəticələr təkamül nəzəriyyəsinin tezislərini və ateizmin bütün fərziyyələrini təməlindən çökdürdü.

Darvinizmin qaçılmaz şəkildə ateizmlə nəticələndiyini bir çox təkamülçü və materialist də qəbul edir. Bunu ilk dəfə açıq şəkildə T. Haksli ifadə etmiş, bir insanın təkamül nəzəriyyəsini tamamilə qəbul etdiyində dinə



**Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə qəzəb, təcavüzkarlıq, zorakılıq artır. İnsanlar şəfqət, mərhəmət, səbir, tolerantlıq kimi Allah`ın əmri olan əxlaqi xüsusiyyətlərdən uzaqlaşırlar.**

inanmayacağını söyləmişdi.

"Cornell" Universitetində tarix professoru olan U. Provayn, eyni zamanda, təkamülçüdür. Provayn təkamül nəzəriyyəsinə inanan birisinin həyat görüşünün dinlə tamamilə ziddiyyət təşkil etdiyini açıqlayır.

(William Provine, "Evolution and the Foundation of Ethics", *MBL Science*, (A Publication of Marine Biological Laboratory at Woods Hole, Massachusetts), vol. 3, no. 1, s. 25-29; *The Scientist*, 5 Eylül 1988)

"American Association for the Advancement of Atheism"in (Ateizmin inkişafı üçün amerikan birliyi) rəhbəri Ç. Smit: "Təkamül ateizmdir", - deməklə eyni həqiqəti qəbul edir. (H. Epoch, *Evolution or Creation*, (1988), s. 148-149)

Berkeley Universiteti professorlarından F. Conson təkamül nəzəriyyəsinin ateist və din əxlaqına uyğun olmayan fikir cərəyanları üçün daşıdığı əhəmiyyəti belə açıqlayır:

*... Darvinizmin qəbul edilməsi Allahın varlığının inkar edilməsi mənasını verirdi və nəticədə, Allahın vəhyinə söykənən dinin yerinə təkamüli naturalizmə (materializmə) əsaslanan azğın bir inanc yaradıldı. Bu azğın inanc yalnız elmin deyil, hökumətlərin, hüququn və əxlaqın da təməl inancını meydana gətirdi və modernizmin təməl fəlsəfəsi sayıldı.*

(Phillip E. Johnson, *Defeating Darwinism*, Intervarsity Press, 1997, s.99)

Consonun ifadə etdiyi kimi, darvinizm və materializmə kor-koranə inanan bir çox elm adamı elmi özlərinə görə Allahı inkar vasitəsi kimi istifadə etməyi ən əhəmiyyətli hədəf təyin etmişlər. Halbuki, elm Allahın varlığının dəlillərini insanlara göstərən qiymətli bir vasitədir. Bunun ən əhəmiyyətli göstəricilərindən biri, xüsusilə son iyirmi il içində elm dünyasında yaradılış həqiqətini müdafiə edən elm adamlarının sayında artımın olmasıdır. Aparılan hər araşdırma, tədqiqat və tapıntı, əldə edilən hər yeni məlumat bütün kainatda son dərəcə həssas və bir o qədər də qüsursuz tarazlığın varlığını göstərir, kainatın üstün və uca ağılın əsəri olduğunu ortaya qoyur. Bu ağıl hər cür əskiklik və nöqsanlıqdan münəzzəh, üstün qüdrət sahibi uca Allahdır.

Molekulyar bioloq M. Denton darvinizmin dinsizliyi gətirdiyini və insanın özünə baxış yönündə böyük təxribata səbəb olduğunu belə açıqlayır:

Darvinist nəzəriyyə insanın Allahla əlaqəsini qopardığına görə və onu məqsədi və sonu olmayan kainatın içində başıboş buraxdığına görə, təsiri bu qədər dərin olmuşdur. Dövrümüzdə insanların insanlığa baxış yönlərinə və kainatdakı yerlərinə bu qədər dərindən və mənfi istiqamətdə təsir edən başqa bir fikir yoxdur.

Darvinin yeni və inqilabçı (eyni zamanda, ağıl və elmdən kənar) düşüncəsi dünya həyatındakı bütün müxtəlifliyin (insanların əvvəllər

inandığı kimi, Allahın yaratmasının deyil) təbii və təsadüfi proseslərin nəticəsində meydana gəldiyini önə sürür. (Allahı tənzih edirik.) Bu yanlış iddianın qəbulu... Qərb cəmiyyətinin dinsizləşdirilməsində qəti rol oynamışdır... (http://www.trufax.org/avoid/manifold.html)

Cəmiyyətlərin Allaha olan inanclarının itməsi və ya zəifləməsi o cəmiyyətlər üçün ən böyük mənəvi müsibətdir. Allah qorxusu olmayan, ölümdən sonra gerçək sonsuz həyata qovuşacağını, dünyada etdiklərinə görə cənnət və ya cəhənnəmlə qarşılıq görəcəyini inkar edən insanlar olduqca təhlükəli, etibarsız, təcavüzkar, cinayətə meyilli, mərhəmətsiz və mənfəətpərəst olurlar. Allahdan qorxmayan insan heç bir mövzuda sərhəd tanımaz. Qanunlara görə cəzalandırılmayacağını və ya müəyyən şəkildə belə cəzalardan xilas olacağını düşündüyü müddət boyu istənilən əxlaqsızlığı və qanunsuzluğu edə bilər, cəmiyyətdə hər cür narahatlığa səbəb ola bilər, insanları aldada və onlara zərər verə bilər və bunlara bənzər bir çox zülmü edə bilər.

Allah qorxusu və Allah sevgisi insanların gözəl əxlaqla yaşamasına, Allahın razı olacağı şəkildə davranmasına səbəb olur. Bu, həm cəmiyyətin inkişafına vasitə olur, həm də onu gücləndirir. Əksinə olduqda isə qarşıdurmalar, müharibə və döyüşlər, mərhəmətsizliklər, ədalətsizliklər davam edər.

Allah insanlara yaxşılığı, gözəlliyi, ədaləti, dürüstlüyü və nizamı əmr edir. Allah Quranda belə buyurur:

**Mədyən qövmünə də qardaşları Şueybi** *(göndərdik)*. **O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ilahınız yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir.** (Əraf surəsi, 85)

**Hər yolun başında oturub Allaha iman gətirənləri hədələyib Onun yolundan sapdırmayın və onu əyri göstərməyə çalışmayın. Xatırlayın ki, siz az idiniz, O sizi çoxaltdı. Bir görün fəsad törədənlərin aqibəti necə oldu.** (Əraf surəsi, 86)

## DARVİNİZM İNSANIN BAŞIBOŞ VƏ MƏQSƏDSİZ OLDUĞU YALANINI ÖNƏ SÜRÜR

Təkamülçü C. Q. Simpsonun aşağıdakı sözləri darvinizmin insan haqqındakı yanlışlığa əsaslanan dünyagörüşünü ən açıq şəkildə ifadə edir:

*İnsan kainatda anlayış qabiliyyətinə və potensialına malik olan yeganə varlıqdır. Amma şüursuz və ağılsız maddələrin məhsuludur. Beləliklə, dünyaya gəlişini özü bacaran insan yalnız özünə məsuldur.*

(George Gaylord Simpson, *Life of The Past:An Introduction to Paleontology*, New Haven: Yale University Press, 1953)

Klassik darvinist yalanlarından biri olan bu iddia ictimai çöküntünün əsasında yer alan əhəmiyyətli səbəblərdən biridir. Darvinistlər insanın dünyaya gəlişini özünün bacardığı yanılmasını önə sürərkən tək bir elmi sübut belə gətirə bilmir və ideoloji səbəblərlə bu yalanına dəstək verməyə çalışır. Bu həqiqətdən kənar iddiaya görə, insanın varlığının əvvəldən

müəyyən edilən heç bir məqsədi yoxdur. Bu sözdə məqsədsiz varlıq onsuz da bir gün ölüb yox olacaq. Halbuki, həqiqət belə deyildir. Allah insanı yoxdan yaratmışdır. İnsanın yaradılışının müəyyən məqsədi vardır və bu məqsəd Quranda bildirilmişdir. Allah insanları Özünə qulluq etmələri üçün yaratmışdır. Hər insan dünyada qədərində təyin olunan zaman qədər qalır və bu zaman bitib öldükdən sonra yenidən diriləcək. Hər insan axirət günündə dünyada etdiklərində görə sorğu-sual ediləcək. Təkamülçülərin var gücü ilə bu həqiqəti rədd etməyə, unutmağa və unutdurmağa çalışması bu həqiqəti heç bir şəkildə dəyişdirməz. Dünyada ikən bu səhvlərindən dönmədikləri müddət boyu Allahı və axirət gününü inkar edənlər və insanın məqsədsiz varlıq olduğunu qarşıya qoyanlar hesab günü gəldiyində böyük peşmanlıq hissi keçirəcəklər. Rəbbimiz bu peşmanlığı Quranda belə xəbər vermişdir:

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi** *(dünyaya)* **qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq"– dediklərini görəydin!** (Ənam surəsi, 27)

İnsanlara məqsədsiz olduqlarının təlqininin verilməsi onları ümidsizliyə və boşluğa sürüyür. Bu yalana inananlar həyatı çox mənasız və lazımsız görür, bu isə böyük bir mənəvi çöküntüyə səbəb olur. Dövrümüzün öndə gələn təkamül tərəfdarlarından R. Dokinzin ağıl və məntiq xarici iddiaları da söz mövzusu materialist dünyagörüşünün tipik bir nümunəsidir. Dokinz insanların bir gen maşını olduğunu və yaranmalarının tək məqsədinin bu genləri sonrakı nəslə köçürmək olduğunu iddia edir. Dokinzə görə, nə kainatın, nə də insanın yaranmasının başqa məqsədi yoxdur. Bu yanlış düşüncəyə görə, bütün kainat və insanlar təsadüflərin və xaosun məhsuludur. Bu batil inancın insanları ümidsizliyə və bədbəxtliyə sürüməsi məlum məsələdir. Ölümlə birlikdə yox olub gedəcəyini düşünən bir insan üçün dünyadakı heç bir şeyin mənası olmaz. Dostluğun, sevginin, etdiyi yaxşılıqların, yaşadıqlarının heç bir qarşılığı və davamı olmayacağını zənn edən insana heç bir gözəllik zövq verməz.

Bundan başqa, bu səhv məntiq səbəbi ilə insanlar işlədikləri pisliklərin qarşılığını almayacağını düşünürlər. Bu da insanların müəyyən şəkildə ört-basdır edəcəklərini düşündükləri və ya cəzalandırılmayacağını zənn etdikləri pislikləri heç çəkinmədən işləməsinə səbəb olur. Yalan danışmaqdan, ikiüzlü davranmaqdan, dedi-qodudan, haqsız qazancdan, mərhəmətsizlikdən, oğurluqdan və hətta cinayətdən belə çəkinməzlər. Belə yanlış düşüncəyə qapılan insanların sayının çoxaldığı cəmiyyətlərdə nizam və sabitlikdən danışmağın mümkün olmadığı hamıya məlumdur.

Darvinist təlqinlərin insan ruhuna verdiyi zərərin əsas nümunələrindən biri Dokinzin *"Unweaving The Rainbow"* (Göy qurşağını sökmək) adlı kitabının ön sözündə bu sözlərlə ifadə edilir:

*İlk kitabımın naşiri kitabı oxuduqdan sonra verdiyi ürəksıxan xəbərdən çox narahat olduğunu və üç gecə yata bilmədiyini etiraf etdi. Bəziləri də mənə səhərlər oyanmağa necə dözdüyümü soruşur. Uzaq bir ölkədən bir müəllim isə mənə giley dolu məktub göndərdi. Məktubunda eyni kitabı*

*oxuyan bir şagirdinin göz yaşları içində yanına gəldiyini və həyatın mənasız və məqsədsiz olduğu düşüncəsinin ona pis təsir etdiyini yazmışdı. Müəllim digərlərinin də eyni "heçlik pessimizm"indən təsirlənməməyi üçün, həmin şagirdə kitabı başqalarına göstərməməyini tövsiyə etmişdi.*

(Richard Dawkins, *Unweaving The Rainbow*, Houghton Mifflin Company Newyork, 1998, s. Ix)

Dokinzin bu etirafında da göründüyü kimi, darvinizmin insanlara təlqin etdiyi pessimizm və məqsədsizlik cəmiyyətlər üçün böyük təhlükədir. Bu təhlükənin ən əhəmiyyətli yönlərindən biri insanlara yalnız Dokinzin önə sürdüyü kimi, "ürəksıxan həqiqət"i təqdim etməsi deyil, əksinə, "ürəksıxan yalan" təqdim etməsi və onları "nəşəli həqiqət"dən ayırmağa çalışmasıdır. Bu nəşə, xoşbəxtlik və hüzur gətirən həqiqət insanın tək, başıboş, tərk edilmiş, məqsədsiz varlıq olmadığı və özünü yaradan Allahın təyin etdiyi məqsədə sahib olduğu həqiqətidir.

Allahın insanları müəyyən məqsədlə yaratdığını unudan cəmiyyətlər əxlaqi və mənəvi çöküntüyə düçar olmağa məhkumdurlar. Narkotik və spirtli içki aludəçilərinin, intihara cəhd edənlərin, içinə qapanıb sanki həyatdan küsənlərin, depressiya, stress kimi psixoloji problemləri olan insanların böyük hissəsi həyatın həqiqi məqsədini bilməyən insanlardır.

Prof. F. Hoyle təkamülçü olduğuna baxmayaraq, *"Növlərin mənşəyi"* kitabı ilə gələn nihilist (həyatın məqsədsiz və insani dəyərlərin əhəmiyyətsiz olduğu yanlışlığı) fəlsəfənin təhlükəsi haqqında belə deyir:

*"Növlərin mənşəyi" kitabının nəşrindən sonra, sözdə elmi görüşlərin mənimsəməyi tərcih etdiyi nihilist fəlsəfənin insanlığı avtomatik şəkildə özünü yox etmə prosesinə apardığı düşüncəsi heç ağlımdan çıxmır. Həmin vaxtlar fəlakətlər üçün geri sayma başlamışdı.*

(Sir Fred Hoyle, *The Intelligent Universe*, 1983, s. 9)

Allah hər insanı Özünə qulluq etməsi üçün yaratmış və ona Öz ruhundan üfləmişdir. İnsan cansız maddələrdən təsadüflər nəticəsində meydana gələn varlıq deyil. İnsan uca Allahın yaratdığı, ağıl və vicdan verdiyi, müxtəlif nemətlər bəxş etdiyi bir varlıqdır. Darvinistlərin və materialistlərin məqsədsiz və başıboş zənn etdiyi insanın, əslində, əhəmiyyətli, üstün və qiymətli məqsədi vardır: özünü yaradan, yoxdan var edən, yox ikən can və şüur verən uca Rəbbimizi həyatının hər anında razı etmək, Rəbbimizin əmrlərinə ciddiyyətlə və şövqlə tabe olmaq, bunun qarşılığında isə Allahın rəhmətini və sonsuzadək sürən cənnətini qazanmağı ümid etməkdir. İnsanın əsl həyatı ölümündən sonra başlayan axirət həyatıdır. İnsan dünyada cənnəti qazanmaq üçün yaşayır.

Allah insanların başıboş olmadığını Quran ayələrində belə bildirir:

**Bəlkə insan özbaşına qoyulacağını güman edir?** (Qiyamət surəsi, 36)

**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz** *(heç vaxt)* **Bizə qaytarılmayacaqsınız?"** (Muminun surəsi, 115)

## SOSİAL DARVİNİZMİN "İNSAN HEYVANDIR" YALANI

Darvinizmə görə insan bir heyvan növüdür. Bu ağıl və elmdən kənar iddiaya inananlar da insanın bütün xüsusiyyətlərinin "heyvan ataları"ndan

miras qaldığını qarşıya qoyurlar. Bunun insanın özünə və digər insanlara baxış yönünə təhlükəli təsirləri vardır. İnsan heyvan növü kimi gördüyü digər insanlara dəyər verməz, düşüncələrinə əhəmiyyət verməz, həyatlarını dəyərsiz görər. Bir insanın ölümünü ağcaqanadın və ya itin ölümündən daha əhəmiyyətli görməz. Bir insanın ac və ya möhtac olması onu heyvan kimi görən və heyvanların döyüş və rəqabət yolu ilə inkişaf etdiyini düşünən bir insanı narahat etməz. Belə qorxunc dünyagörüşü insanların bir-birlərinə olan sevgi və hörmətlərini tamamilə ortadan qaldırır. Odur ki, darvinizmin yalanlarına aldananların bir daha düşünməsi və bu yalanın nəyə başa gələcəyini görməzlikdən gəlməsi çox əhəmiyyətlidir.

C. Q. Simpson darvinizmin insan haqqındakı düşüncələrindən belə bəhs edir:

*Darvinin dünyasında insanın fərqli heyvan növü kimi təsvir olunmasından başqa xüsusi heç bir statusu yoxdur. Sözün tam mənası ilə təbiətin müəyyən parçasıdır və ondan ayrı deyil. Yaşayan hər cür canlı ilə (amöb, bağırsaq qurdu, birə, dəniz yosunu, palıd ağacı və ya meymun) əlaqə dərəcələri fərqli olsa da, bənzərlik təşkil edir. Müqayisə etmək lazım gələrsə, meymun kimi qardaşlara sahib olmaqdansa, bağırsaq qurdu kimi qırx iki əmioğluya sahib olmaq bizə daha az empati hiss etdirə bilər.*

(George Gaylord Simpson, "The World into Which Darwin Led Us," *Science* 131 (1960), s. 970)

Halbuki, bu həm elmdən, həm də ağıl və məntiqdən uzaq fikirdir. İnsan və heyvanlar Allahın yaratdığı iki fərqli varlıqdır. Heyvanlar heyvani instinktlərlə hərəkət edirlər və şüursuzdurlar. İnsan isə mühakimə qabiliyyətinə və şüura malik varlıqdır. İnsanın bir növ heyvan olduğunu iddia edənlərin məqsədi meşə qanunlarını insan cəmiyyətlərinə tətbiq etməyə çalışmalarıdır. Bu isə insanlara hüzur və rifah verən hər cür gözəlliyi ortadan qaldıran qorxunc xaosa səbəbdir.

Darvin məktublarından birində bu yanlış dünyagörüşünü ifadə etmiş və insanın heyvanlardan təkmilləşməsi yalanına əsaslanıb fikirlərinin hər hansı bir dəyərinin olub-olmadığını sorğu-sual etmişdir. Darvinin sözləri belədir:

*Aşağı heyvanlardan inkişaf edən insan zehninin inandığı şeylərin hər hansı bir dəyərinin və ya əsaslılığının olub-olmadığı mövzusunda ağlıma həmişə qorxunc şübhə gəlir. Bir meymunun zehnindəki inanclara (təbii ki, əgər varsa) kimsə güvənərdimi?*

(Francis Darwin (ed.), *Life and Letters of Charles Darwin* (1903; 1971 reprint), Volume 1, s. 285)

Darvinin sözləri təkamülçülərin insan haqqındakı dünyagörüşlərinin nə qədər dəhşətli olduğunun bir xülasəsi xüsusiyyətini daşıyır. Darvinin bu hədyanı qərb dünyasının əhəmiyyətli hissəsinə getdikcə hakim olmuşdur və indiki dövrdə bir çox ölkədə, hətta məktəblərdə oxudulan dərs kitablarında da insanlara heyvan olduqları təlqini verilir. Məsələn, 1994-cü il nəşrli *"Biology, visualizing life"* (Biologiya: həyatı təsvir etmək) adlı dərs kitabında deyilir:

*Siz bir heyvansınız, yer soxulcanları, dinozavrlar, kəpənəklər və dəniz ulduzları ilə ortaq bir mirası bölüşürsünüz.*

(George B. Johnson, *Biology: Visualizing Life*, Holt, Rinehart and Winston, Inc., 1994, s. 453)

Elm və teologiya mövzularında universitetdə dərs deyən və *“Moral darwinism: how we became hedonists?”* (Əxlaqi darvinizm: necə həzçi olduq?) adlı kitabın yazıçısı B. Viker Darvindən əvvəl və sonra insana baxış yönündə böyük səhvin olduğunu ifadə edir. İnsanlarla heyvanların arasındakı aşıla bilinməyən fərqliliklər görməzlikdən gəlinib insanların heyvanlarla bir tutulması yanlışlığının necə yayıldığını belə izah edir:

*... Ənənəvi əxlaqın hamısı olmasa belə, əksəriyyəti, insanların fərqli növ olduğu fərziyyəsinə əsaslandırılır. Buna görə, cinayətin qadağan edilməsi insan təbiəti baxımından xarakterizə olunur. Öldürməyin! Nəyi öldürməyin? Mənənələrimi? (kiçik böcək növü). Qarışqa yeyənlərimi? Oranqutanlarımı? Xeyr, başqa bir günahsız insanı öldürməyin. Ancaq darvinizmlə birlikdə insan və digər heyvanlar arasındakı növ ayrı-seçkiliyi tamamilə qarışır. Artıq çəkilməsi lazım olan əxlaqi bir cizgi yoxdur, çünki növlərin cizgisi silinmişdir.*




**Riçard Dokinzin "Blind Watchmaker" (Kor saatsaz) adlı kitabı**

R. Dokinz və P. Sinqer kimi darvinistlər bu azğınlığı bütün incəlikləri ilə etiraf edir və təbliğatını aparırlar. Dokinz “Blind watchmaker” (Kor saatsaz) adlı kitabında bunları deyir:

*Özümüzü təkamüli yelpikdə yer almış bir heyvan olaraq gördüyümüzdə artıq əxlaqımızın ya bütün canlılar üçün əsaslı olduğunu qəbul etməliyik, ya da əxlaqımızın hər hansı bir təməlinin olduğunu rədd etməliyik. Ümumiyyətlə, darvinistlər hər ikisi üçün əsassız bir vəziyyət deyirlər. Bəzi heyvanların insanlarla eyni əxlaqi səviyyədə olduqlarını düşünürlər. Bəzi yönlərdən isə insanı bir heyvan kimi göstərirlər. Bir tərəfdən heyvan haqları üçün mübarizə aparır, digər tərəfdən isə formasını dəyişmiş, yaşlı və gücsüz insanın evcil heyvanlara göstərdiyimiz şəfqətdən kənar tutulmasının lazım olduğunu iddia edirlər.* (http://www.touchstonemag.com/docs/issues/15.8docs/15-8pg43.html)

Göründüyü kimi, təkamül nəzəriyyəsinin insanı bir növ heyvan olaraq təqdim etmək istəməsinin əsas səbəblərindən biri bütün əxlaqi dəyərlərin ortadan qalxacağı bir dünya istəyidir. Əgər insan darvinizmin iddia etdiyi kimi, bir heyvan növüdürsə, hansı ki, bu heç bir şəkildə doğru deyil, onda əxlaqi heç bir dəyərin, hətta əxlaq anlayışının da insanlar üçün əhəmiyyəti qalmır. Bunun bir cəmiyyətə verəcəyi zərərin ölçüləri isə təxmin ediləndən

**Sosial darvinist fəlsəfəyə görə zərər çəkmiş xalqın yaşadıqlarına bir nümunə. Hal-hazırda yaşanan terror hadisələri də darvinist əxlaqın bir nəticəsidir. Ruh sahibi insanları heyvanlarla bərabər tutan darvinizm insanlığa qan, kədər və gözyaşından başqa bir şey gətirməmişdir.**



də artıq ola bilər. Bax, bu səbəbə görə, bütün insanlıq darvinizmə və bu elm saxtakarlığının yalanlarına qarşı son dərəcə diqqətli olmalıdır.

Darvinizm sözdə insanların heyvanlardan fərqsiz olduqlarını qarşıya qoyarkən bunu yalnız fiziki və bioloji mənada iddia etmir, insan və heyvan davranışlarının da bir-birindən fərqli olmadığını qəbul etdirməyə çalışır. Bu vəziyyətdə insana sözdə heyvan atalarından miras qaldığı iddia edilən şiddət, eqoizm, mərhəmətsiz rəqabət, təcavüzkarlıq, homoseksuallıq kimi pis xüsusiyyət və davranışlar insan üçün sanki təbii davranışlar statusuna gətirilir. Məsələn, təkamülçü elm adamı J. P. Darlinqton belə deyir:

*Birinci nöqtə, eqoizm və şiddət doğuşdandır, ən uzaq atalarımızdan bizə miras qalmışdır. Onda şiddət insanlar üçün təbiidir, təkamülün bir məhsuludur.* (P.J. Darlington, *Evolution for Naturalists*, 1980, s. 243-244)

Bu vəziyyətdə insanların hər cür cinayəti işləməsi normal qarşılanır, cinayət törətmək üzrlü hesab edilir, hətta çox vaxt cəzalandırılmamağının lazım olduğu iddia edilir. Quld *"Ever since Darvin"* (Darvindən bu yana) adlı kitabında italyan professor, kriminoloji mütəxəssis S. Lombrozo ilə başlayan bu görüş haqqında belə deyir:

*Günahkarlığa bağlı bioloji qaydalar elə də yeni sayılmazdı, amma S. Lombrozo (italyan həkim) bu müzakirəyə yeni, təkamüllü bir istiqamət verdi. Doğuşdan günahkarlar yalnız zehni tarazlığı anormal və ya xəstə deyildilər; daha əvvəlki bir təkamüllü mərhələyə geri düşmüş, sözün əsl mənası ilə nəslinə oxşamışdır. İbtidai və meymunabənzər atalarımızın irsi xüsusiyyətləri genetik repertuarımızda qorunur. Bəzi fərdlər normaldan çox irsi xüsusiyyətə sahib olaraq doğulur. Davranışları keçmişin bəzi vəhşi cəmiyyətlərinə uyğun olsa da, bu gün bu davranışlara cinayət deyirik. Doğuşdan günahkar olana acımaq olar, çünki özünə hakim ola bilməz.*

(Stephen Jay Gould, *Ever Since Darwin*, s. 223)

Lombrozonun fikrini açıqlayan təkamülçü Quldun ifadələrində açıq şəkildə göründüyü kimi, cinayət törətmək tamamilə insanın iradəsi xaricində olan, insanlara sözdə heyvan atalarından miras qalan davranış kimi qəbul

edilir. Halbuki, bu həqiqətdən kənar bir iddiadır. Allah hər insanı özünə davamlı pisliyi əmr edən nəfsi və o pislikdən qorunub çəkinməsini, yaxşılıq etməsini əmr edən vicdanı ilə birlikdə yaratmışdır. Ayələrdə belə buyurulmuşdur:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və** *(Allahdan)* **qorxmağı təlqin edənə! Nəfsini** *(günahdan)* **təmizləyən uğur qazanmışdır. Onu** *(günaha)* **batıran isə ziyana uğramışdır.** (Şəms surəsi, 7-10)

Dolayısılə, hər insan etdiyi hərəkətin yaxşı, yaxud pis və davranışının gözəl və ya çirkin olduğunu bilər. Hər insan pis olandan çəkinmək, yaxşı olanı etməklə məsuldur. Yaxşılıq edən insanlar gözəl rəftarlarının qarşılığını ən gözəl şəkildə alacaqları kimi, pislik edənlər də etdikləri pisliyin cəzasını mütləq çəkəcəklər. Hər cür cinayəti və əxlaqsızlığı qanuni göstərən təkamül nəzəriyyəsi isə insanları həm dünyada, həm də axirətdə böyük fəlakətin içinə sürüyür.

İnsan heyvan deyil. İnsan Allahın özünə ruhundan üflədiyi, ağıla, iradəyə, vicdana, sağlam düşüncəyə, doğrunu səhvdən ayırma anlayışına sahib olan və həmçinin düşünə bilən, qərar verə bilən, mühakimə edə bilən, cəza və mükafat verə bilən, yaşadıqlarından dərs ala bilən, Allahın sınadığı bir varlıqdır. Bu xüsusiyyətlərin heç biri digər canlılarda yoxdur və ola da bilməz. Çünki bunlar insanın fiziki quruluşu və genləri ilə əlaqədar xüsusiyyətlər deyil. Bütün bunlar insanın ruhuna aid xüsusiyyətlərdir.

Elə isə ruh və ağıl sahibi olan insan bu həqiqəti hiss etməli, ona görə, şərəfli, iradəli və vicdanına uyğun həyat sürməlidir.



**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara** *(haqqını)* **verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.** (Nəhl surəsi, 90)

## "HƏYAT MÜBARİZƏSİ" YALANININ GƏTİRDİYİ PİS ƏXLAQ

Daha əvvəl də ifadə etdiyimiz kimi, darvinizmin ən əsas səhvlərindən biri "həyat mübarizəsi" və "güclü olanın həyatda qalması" ifadələri ilə yekunlaşdırılan iddiadır. Təkamülçülərin həqiqətdən kənar iddialarına görə, həyat insan daxil bütün canlılar üçün bir mübarizə, döyüş və rəqabət yeridir. Belə bir dünyada sevgi, hörmət, əməkdaşlıq, fədakarlıq kimi gözəl əxlaq xüsusiyyətlərinə yer yoxdur.

Ç. Darvin *"İnsanın törəməsi"* adlı kitabında insanın bu günkü mövqeyinə mübarizə ilə gəldiyi və irəliləmək üçün mübarizəyə davam etməsinin şərt olduğu, heç bir qanunla bu irəliləmənin dayandırılmasının lazım olmadığı yalanını qarşıya qoymuşdur:

*İnsan digər bütün heyvanlar kimi, günümüzdəki yüksək səviyyəsinə, şübhəsiz ki, sürətli törəməsinin nəticəsində həyat mübarizəsi aparmaqla gəlmişdir və əgər daha yüksəyə doğru irəliləyəcəksə, çətin keçən mübarizədə iştirak etməlidir.*

*Əks halda, qısa müddət ərzində passivləşər və daha yüksək qabiliyyətlərə sahib olan insanlar bu mübarizədə kifayət qədər müvəffəqiyyətli ola bilməzlər. Buna görə, təbii çoxalma nisbətimiz heç bir üsulla yox edilməməlidir. Bu, bizi müxtəlif pisliklərə yönləndirsə də. Bütün insanlar üçün açıq rəqabət olmalıdır.* (Charles Darwin, *The Descent of Man and Selection in Relation to Sex*, New York: D. Appleton and Company, 1871 (1896 baskısı), s. 403)

Darvinizmin gətirdiyi qaranlıq dünyada əhəmiyyətli olan bir insanın həyatı boyu var gücü ilə mübarizə aparmasıdır. Halbuki, bu nə elmi əsası olan, nə də ağıl və məntiqə uyğun olan bir iddiadır. Bu, təhlükəli təlqinlərin tətbiq edilməsiylə meydana gələn mühitdə dürüstlük, qəhrəmanlıq, fədakarlıq və sədaqətin yerinə saxtakarlıq, eqoistlik, yalançılıq, vəfasızlıq kimi xüsusiyyətlər etibarlı olar və ancaq bu pis xüsusiyyətlərə sahib olanlar qazanar. Darvinizmin bu səhv dünya və əxlaq anlayışının əsaslandığı təməllər təkamülçülər tərəfindən sətirlərdə tez-tez yazılır və insanlara təlqin edilir.




**Soldakı qrafikdə 30 il içində işlənən cinayət dərəcələrində böyük artım görünür. Cəmiyyətlər din əxlaqından uzaqlaşdıqca əxlaqi çöküntü və günah işləmə səviyyəsi də artır.**

Məsələn, Yale Universitetindən həkim bioloq L. L. Kadmor *"The center of Life"* (Həyatın mərkəzi) adlı bir məqaləsində təkamülçü həyat görüşündə mərhəmət və acımağa yer olmadığını açıq şəkildə etiraf edir:

*Təkamül sərt və qaçılmazdır. Mərhəmətə və ya dürüst bir mübarizəyə yer yoxdur. Çoxlu orqanizm doğulur, buna görə də bunların bir çoxu ölməlidir. Əhəmiyyətli olan ayrılan bir sonrakı adamdan daha çox sizin genlərinizi daşıyan uşaq buraxıb-buraxmamağınızdır.*

(Lorraine Lee Larison Cudmore, "The Center of Life," in *Science Digest*, Kasım 1977, s. 46)

Kitabın digər hissələrində haqqında bəhsi keçən irqçilik, vəhşi kapitalizm, yevgeni kimi sosial darvinizmin gücləndirdiyi azğın və təhlükəli düşüncə və tətbiqlərin hamısı darvinizmin "həyatda qalma mübarizəsi və güclü olanın yaşayacağı" yalanının bir nəticəsidir. Halbuki, həyat mübarizə yeri deyil. İnsanın mübarizəsi yalnız öz nəfsi ilə və digər pisliklərlə olmalıdır. İnsan öz şəxsiyyətindəki və ətrafındakı pisliklərlə mübarizə aparıb həm özündə, həm də insanlar arasında sevgi, mərhəmət, şəfqət, sülh, güvən, hörmət, sədaqət, sevinc və hüzur kimi gözəllikləri hakim etməyə çalışmalıdır. Allahın razı olduğu və insanlar üçün seçdiyi din əxlaqı da bunu tələb edir.



**İnsanları bir heyvan növü olaraq görən darvinist anlayışa görə insanların heç bir dəyəri yoxdur. Sosial darvinist məntiqdə qəmgin olan, çətinlik və qorxu içində olan insanların qurtarılması üçün heç bir şey edilməz. Bu insanlar köməksiz və müdafiəsiz buraxılarlar. İslam əxlaqında isə hər mömin digər insanların rahatlığı, təhlükəsizliyi və rifahı üçün səy göstərməklə məsuldur.**

## SOSİAL DARVİNİZM İNSAN HƏYATINA DƏYƏR VERMƏZ

Darvinizmin "həyat mübarizəsi" doqmatı və insanların bir heyvan olduqları yalanı tətbiq edildiyində insan həyatı öz dəyərini itirir. Hər hansı bir səbəblə insan öldürmək, bir insanı aclığa, ölümə buraxmaq, müharibə və qırğın etmək, terror törətmək, əqli xəstə, üzrlü olduğu və ya başqa bir irqdən olduğu üçün insanları yox etmək məqbul sayılar və asanlaşar.

Bu azğın məntiqə tabe olub insan həyatına dəyər verməyənlərdən biri amerikalı sosial darvinist professor E. A. Rossdur. Rossun yanlış iddialarına görə, xristianlığın ortaya atdığı ictimai köməkləşmə və xeyriyyəçilik ayini

ağılsız və axmaqların törəmələrinə və çoxalmalarına yarayan qoruyucu bir qalxanın inkişafına səbəb olmuşdur. Yenə Rossa görə, dövlət şikəstləri, məsələn, kar və dilsizləri qoruyur, sonra da bunlar törəyib şikəst irq meydana gətirirlər. Bütün bunlara sözdə təbii təkamüllü inkişafa mane olduqları üçün qarşı çıxan Rossa görə, dünyanı düzəltməyin yeganə yolu bütün axmaqları, bacarıqsızları və şikəstləri öz hallarına buraxmaqla təbii seleksiya müddətində ayrılmalarını gözləməkdir.

(Thomas F. Gossett, *Race: The History of an Idea in America*, Dallas: Southern Methodist University Press, 1963, s. 170)

Bunun nə qədər mərhəmətsiz bir düşüncə olduğu açıq şəkildə ortadadır. İnsan vicdan sahibi olan varlıqdır və vicdanı zəifləri, düşkünləri, kasıbları, möhtacları qorumağı əmr edər. Əks halda, əgər insan insan kimi düşünmə qabiliyyətini itirərsə, bu dəfə, həqiqətən, heyvandan daha aşağı bir mövqeyə düşər. Çünki heyvanlar arasında da böyük həmrəylik və köməkləşmə vardır.

Ross insana dəyər verməyən yeganə sosial darvinist deyil. Onun dəhşət verici düşüncələrinə sahib çıxan bir çox darvinist var. Məsələn, Prinston Universitetində bioetika professoru olan təkamüli psixoloq Peter Sinqer ciddi fiziki əlilliyi olan insanların yaşamağa layiq görülməməklərinin lazım olduğunu söyləyəcək qədər irəli getmişdir. Bu zalımlığını mərhəmətsiz sözləri ilə belə ifadə etmişdir: *"Əgər ciddi şəkildə əlilliyi olan bir uşağı insan olmayan bir heyvanla, məsələn, it və ya donuzla müqayisə etsək... insan olmayanın həmişə daha üstün xüsusiyyətlərinin olduğunu görərik... Yalnız insan uşağın Homo sapiens növünə aid olması həqiqəti bu uşağın donuz və ya itdən daha fərqli rəftar görməsinə səbəb olur. Ancaq növün bir üzvü olmaq təkbaşına əxlaqla əlaqədar deyil".*

(Peter Singer, "Sanctity of Life or Quality of Life?, *Pediatrics*, Temmuz1983, s. 128-129)

Sinqer darvinist vəhşiliyini daha da artırmış və zehni əlillərin yemək məqsədi ilə və ya elmi təcrübələr üçün öldürülə biləcəyini söyləmişdir. Şübhəsiz, bu, çox qorxunc bir vəhşilikdir. Ancaq darvinist məntiqdə belə vəhşiliklər də müdafiə olunur. Sinqerin sözləri belədir:

*Zehni əlillərin yaşamaq haqları yoxdur və buna görə, (insan ətinə yönələn bir istək inkişaf etdirməyimiz lazım gəlsə) yemək üçün, yaxud elmi təcrübə məqsədi ilə onları öldürmək olar.*

(Martin Mawyer, "Death Act Dies in California", *Fundamentalist Journal*, 7 Haziran 1988:61)

*"Right To Die Society"*nin (Ölmə Haqqı Cəmiyyəti) keçmiş rəhbəri C. Fletçerin də zehni əlillər üçün bənzər iddiaları vardır:

*Ən aşağı səviyyədə zəka və yaxud zehni qabiliyyətə sahib olmayan insanlar neçə orqanının çalışmasından və həyat funksiyalarını avtomatik şəkildə yerinə yetirməsindən asılı olmayaraq insan deyildirlər... Əqli əlilliyi olanların hər hansı bir məsuliyyətləri yoxdur, heç olmamışdır və olmayacaq. Bu, əqli xəstələrin insan olmadığı mənasını verir.*

(Martin Mawyer, "Death Act Dies in California", *Fundamentalist Journal*, 7 Haziran 1988:61)

Yeni doğulan körpələrin öldürülməsi isə insan həyatına dəyər verməyən darvinizmin məqbul gördüyü mərhəmətsiz, vəhşi tətbiqlərdən bir başqasıdır. Darvinizmin müdafiə etdiyi azğın və vicdansız düşüncələrdən biri də budur ki, yeni doğulan körpə ata-anasına çətinlik törədirsə və onları həyat mübarizəsində geri salırsa, təkamül baxımından bu körpə öldürülməlidir

Məsələn, Darvin yeni doğulan körpələrin öldürülməsinin heyvanlarda tez-tez göründüyünü və bunun əhalini idarə etmək üçün əhəmiyyətli amil olduğunu iddia etmişdir. Təkamülçü B. Burke *"Science"* jurnalında bir yazısında bu mövzu haqqında belə deyir:

*Bəzi heyvan növləri içərisində uşaq öldürmə təbii davranış kimi görünür. Bu, insanlar üçün də primat atalarımızdan qalan xüsusiyyət olaraq təbii görülə bilərmi?... Ç. Darvin "İnsanın törəməsi" adlı kitabında yeni doğulan körpələrin öldürülməsinin insan tarixi boyunca əhali artımının önlənməsi üçün istifadə edilən ən əhəmiyyətli üsul olduğunu yazmışdır.*

(Barbara Burke, "Infanticide", *Science* 84, Mayıs 1984, s. 29)

Hekkel kimi darvinistlər isə yevgenidən bəhs edilən hissədə də danışıldığı kimi, intiharı təşviq etmiş və həyatın dözülməz olduğunu düşünənlərin intihar etməklə həyatlarını sona çatdırma haqqına sahib olduqlarını iddia etmişlər. Ancaq Allah insanlara canlarına qıymağı haram etmişdir.

Yevgeni, evtanazi və irqçilikdən bəhs edilən hissələrdə qeyd etdiyimiz bütün bu vəhşi tətbiq və inanclar darvinizmin insan həyatına heç əhəmiyyət verməyən bir ideologiya olduğunu göstərən nümunələrdir və elmi heç bir dəyəri olmayan hədyanlar üzərinə qurulmuşdur.

Halbuki, hər insanın həyatı böyük əhəmiyyət daşıyır. Quran əxlaqında insanlar bir-birlərini çox qiymətli və əhəmiyyətli görərlər və bir-birilərinə qarşı fədakar davranarlar. Bir mömin özünün ehtiyacı olsa da, yeməyini digərinə verər:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba,**
**yetimə və əsirə də verərlər.** (İnsan surəsi, 8)

Müsəlmanlar yoxsulları və yetimləri qorumaqla, onların mallarını ədalətlə onlara verməklə, yolda qalanlara kömək etməklə, zəif qadınları, kişiləri, uşaqları və yaşlıları qorumaqla vəzifəlidirlər. Allah, məsələn, bir ayəsində ata-anaya "of" belə deyilməməsini əmr etmiş (İsra surəsi, 23) və bütün insanlara bir-birlərinə sözün ən gözəlini söyləmələrini buyurmuşdur (İsra surəsi, 53). Bir başqa ayədə isə Allah: **"... kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar..."** (Maidə surəsi, 32) - buyurur.

Hər üzvünün bir-birini ruh və ağıl sahibi, qiymətli, əhəmiyyətli insan kimi gördüyü bir cəmiyyətin sülh, hüzur, təhlükəsizlik içində və sevgi və hörmət dolu həyat yaşayacağı açıq bir həqiqətdir.

## "TƏBİİ SELEKSİYA TƏTBİQ EDİRİK" DEMƏKLƏ TÖRƏDİLƏN QIRĞIN

1999-cu ildə ABŞ-ın Kolorado əyalətində Kolumbina liseyinin iki tələbəsi, 18 yaşındakı Erik Harris və 17 yaşındakı Dilan Klebold məktəbə silahlı və bombalı hücum etdilər; 12 tələbəni və 1 müəllimi 30 dəqiqə ərzində öldürdükdən sonra intihar etdilər.

Hadisədən dərhal sonra iki təcavüzkar tələbənin evlərində aparılan

araşdırmalarda çox qəribə sənəd və məlumatlar əldə edildi. İkisi də bu hücumu ən az bir il əvvəl planlamışdılar. Denverdəki *Westword* adlı bir internet qəzetində çıxan 26 aprel 1998 girişli yazılarından birində Erik Harris özünün və Kleboldun məktəbdə təbii seleksiya tətbiq edəcəklərini yazırdı:

*Aprel (1999-cu ilin) ayı ərzində bir gün mən və V (yoldaşı Kleboldu yazılarında Vodka deyə adlandırır) intiqam alacağıq və təbii seleksiyanı bir neçə mərhələ də yuxarı çəkəcəyik. Bu silahları istifadə edəcəyik; cırcırama böcəyi silahı, WD40 qalaylarına yapışdırılmış cırcırama böcəkləri, ilbizlə dolu boru bombaları, alov bombaları, xlor qazı bombaları və duman bombaları ilə dolu bir terrorist çantası.* (CNN, "Columbine Killer Envisioned Crashing Plane in NYC, 6 Aralık 2001, http://edition.cnn.com/2001/US/12/05/columbine.diary/)

*Bunlarla yanaşı, hücum vaxtı Harrisin geyindiyi köynəyin üzərində "TƏBİİ SELEKSİYA" yazılmışdı.* (Denver Rocky Mountain News, 25 Haziran 1999, s. 4A, 14A)

*Harris və Kleboldun yazdıqlarından aydın olduğu kimi, bu hücum Kolumbina liseyindəki daha aşağı gördükləri müəllim və tələbələrə yönəlmiş intiqam hücumu idi.*

(Antonio Mendoza, "High School Armageddon", http://www.mayhem.net/Crime/columbine.html)

*Yazılarının çoxunda Erik davamlı olaraq təbii seleksiya və üstünlük hisslərindən bəhs edirdi. Bu hücum üçün əvvəldən hazırlaşdıqları üç video çəkilişində isə ikisi də özlərinin digərlərinə görə daha təkmilləşmiş olduqlarından və üstün olmağın necə bir duyğu olduğundan bəhs edirdilər.*

(Antonio Mendoza, High School Armageddon, http://www.mayhem.net/Crime/columbine.html)







**"Təbii seleksiya edəcəyik", - deyərək yoldaşlarını qətl edən bu uşaqlar gündəliklərində özlərinin daha çox təkamül keçirdiklərini və buna görə də digərlərindən daha üstün olduqlarını qeyd ediblər.**

Həqiqətən də bunları etdikdən tam bir il sonra, Harris və Klebold bəhs etdiklərinə bənzər silahlarla birlikdə Kolumbina liseyinə girdilər və tələbələri öldürməyə başladılar. Hər ikisi də məktəbdə Hitlerə olan heyranlıqları ilə tanınırdılar, köynəklərinin üzərində isə svastika emblemləri (xaç) olurdu. Həmçinin hücumu reallaşdırdıqları gün Hitlerin 110-cu ad günü idi.

Burada bəhs edilən uşaqlar o günə qədər belə hücum təşkil edəcəkləri təxmin edilməyən, adi kimi görünən, yaxşı ailələrə mənsub iki lisey

tələbəsidir. Həmçinin gündəliklərindən aydın olduğu kimi, bu insanlar ailələri ilə yaxşı dolanırdılar, onlarla heç bir problemləri olmurdu.

Bu gəncləri belə hücum təşkil etməyə vadar edən şey xarakterlərindəki aqressiv və anormal xüsusiyyətləri aldıqları təlimlə dəstəkləmələridir. Özlərini kənarlaşdırdıqlarını düşünən yoldaşları ilə problemlərini həll etmək üçün məktəbdə öyrəndikləri "təbii seleksiya" məfhumuna əl atmışlar. Həyatın mübarizə meydanı olduğu, həyatda qalmaq üçün mübarizə aparmağın vacib olduğu, güclülərin zəifləri əzdiyi, insan həyatının bir dəyəri olmadığı, insanın heyvandan fərqlənmədiyi kimi həqiqətdən kənar təlqinlərlə təlim alan insanların belə hərəkətlər etmələri və bunu təbii seleksiya ilə əlaqələndirmələri təəccüb doğurmayan nəticədir.

Aldıqları təhsil nəticəsində qəbul etdikləri düşüncə tərzi darvinizmin insanlara təlqin etdiyi dünya görüşüdür. Dərs kitablarında və siniflərdə təbii seleksiyanı, mərhəmətsiz rəqabəti öyrənən və bunu həyatda qalmağın tək yolu zənn edənlər, kin, nifrət, qəddarlıq, düşmənçilik, insanları qorxutma kimi əxlaq və ağıl xarici hisslərini normal qəbul edirlər və buna görə də bu hisslərə təslim olaraq hərəkət edirlər.

"Təbii seleksiya" kimi doqmaların yerinə Quran əxlaqının öyrətdiyi dəyərlərlə təlim verdikdə isə gənclər və bütün cəmiyyət nifrət, kin, konflikt və müharibənin əvəzinə, bağışlayıcı olmağı, sevgi və şəfqət duymağı, dost olmağı, sülh və hüzuru özlərinə hədəf seçərlər. Əxlaqi degenerasiyanın həlli degenerasiyaya səbəb olan fəlsəfəni elmlə ortadan qaldırmaq və yerinə Quranın əmr etdiyi əxlaqi dəyərləri yerləşdirməkdir.

## TƏKAMÜLİ PSİXOLOGİYA YANILMASI

Darvinin "Növlərin mənşəyi və insanın törəməsi" adlı kitablarının nəşr olunmasının ardından bir çox təkamülçü insanın sosial davranışlarının, hisslərinin, mühakimələrinin, fikirlərinin, qısa olaraq insan ruhuna aid xüsusiyyətlərin təkamül tərəfindən necə şəkilləndirilməsi haqqında fərziyyələr qurmağa başladı. Darvin də bu təkamülçülər arasında idi. Ən məşhur yanılmaya görə, əgər vücudumuzun görünüşü və çalışması təkamüllə şəkilləndirilmişdirsə, onda bu vücudla göstərdiyimiz davranışlar da təkamüllə şəkilləndirilmiş olmalı idi. Beləliklə, canlıların bioloji strukturlarının da təkamüllə necə meydana gəldiyini açıqlaya bilməyən təkamülçülər insan ruhuna aid xüsusiyyətlərin sözdə təkamülünə dair hekayələr uydurmağa başladılar.

Darvin hələ *"Növlərin mənşəyi"*ndə gələcəkdə psixologiyanın təməlinin təkamülə əsaslanacağını iddia edir və bu xəyali iddiasını belə ifadə edirdi:

*Uzaq gələcəkdə daha əhəmiyyətli araşdırmalara açıq sahələr görürəm. Psixologiya yeni təməl üzərinə qurulacaq; zehni güc və istedadın addım-addım qazanılmasına əsaslanan bir təməl. İnsanın mənşəyi və tarixi işıqlanacaq.* (Charles Darwin, *On the Origin of Species*, 1859, s.449)

Heyvan və insan davranışlarının mənşəyini təkamüli şəkildə açıqlamaq üçün ilk əhatəli cəhd Harvard Universitetinin böcək tədqiqatçısı E. O. Uilsondan gəldi. Uilson bu cəhdi bütün müvəffəqiyyətsizliyinə baxmayaraq,

"sosiobiologiya" olaraq adlandırdı.

Uilson 1975-ci ildə nəşr etdiyi *"Sociobiology: The new synthesis"* (Sosiobiologiya: yeni sintez) adlı kitabında heyvani davranışların hamısının bioloji əsasının olduğunu iddia etdi. Bu yanılmasını bioloji təkamülə əsaslandıran Uilson heyvan və insanların davranışlarına nəzarət edən xüsusi genlərin olduğunu zənn edirdi. Uilsonun əsl ixtisası böcək mövzusu idi və kitabının ilk 26 hissəsində böcəklərdən danışırdı. Kitabın 27-ci hissəsində isə bu iddialarını insanlara uyğunlaşdırmağa cəhd etmişdi. 1978-ci ildə *"Human nature"* (İnsan təbiəti) adlı kitabında da kin, təcavüzkarlıq, özgə qorxusu, uyğunluq, homoseksuallıq, kişilərlə qadınlar arasında xarakterik fərqliliklər kimi insan davranışlarından məsul genlərin olduğuna dair fərziyyələrə geniş yer verdi. Uilsonun kitab və yazılarında ortaya qoyduğu bu iddialar heç bir zaman fərziyyə olmaqdan irəli gedə bilmədi. Uilson və təqibçilərinin iddiaları elmi tapıntılar tərəfindən heç vaxt dəstəklənmədi. Tam əksinə, elmi məlumat və tapıntıların hər biri Uilson və onunla eyni fikirdə olanların yanıldıqlarını




**E. O. Vilson və kitabı Sosiobiologiya: Yeni sintez**

Uilsonun bir başqa elmdən kənar iddiası da canlıların yalnız gen daşımaqla məsul vasitələr olduqları və ən əhəmiyyətli vəzifələrinin bu genləri daşıyıb gələcək nəsillərə köçürmək olduğu idi. Uilsonun elmdən kənar fikirlərinə görə, təkamül genlərin təkamülü idi, təbii seleksiya genləri seçirdi, dolayısılə, ən əhəmiyyətli şey genlər idi. Uilson *"Sociobiology: The new synthesis"* (Sosiobiologiya: yeni sintez) adlı kitabında heç bir elmi dəyər daşımayan bu iddiasını belə ifadə edirdi:

*Darvinist mənada canlı özü üçün yaşamaz. Təməl funksiyası başqa canlılar çoxaltmaq da deyil; genləri çoxaldar və genlərin keçici daşıyıcısı olaraq xidmət edər. Cinsi artımla meydana gələn hər canlı o növü meydana gətirən genlərin xüsusi və təsadüfi alt qrupudur. Təbii seleksiya bəzi genlərin eyni xromosomdakı digər genlərə üstün gəlib gələcək nəsillərdə nümayəndəlik qazandığı bir müddətdir. Bu vasitə mümkün olan ən az biokimyəvi qarışıqlıqla genləri qoruyan və yayan mühərrikin bir parçasıdır. S. Bulerin məşhur "bir toyuq yalnız bir yumurtanın başqa bir yumurta çıxarma yoludur" sözü yeniləşdirilmişdir: orqanizm yalnız DNT-nin daha çox DNT çıxarmasının bir yoludur.*

(E. O. Wilson, *Sociobiology: The New Synthesis*, Cambridge, 1975, s.3)

Uilsonun iddialarının heç bir elmi əsası yox idi. İddiaları təkamülçü ön mühakimələrinin yalnız bir nəticəsi idi. Təkamülçülər arasında da Uilsonun fərziyyələrinə etiraz edənlər oldu. Bunlardan biri S. C. Quld idi:

*Ancaq Uilsonun daha güclü iddiaları var. 27-ci hissə... insan davranışlarındakı (kindarlıq, təcavüzkarlıq, özgəyə düşmənlik, uyğunluq, homoseksuallıq və qərb cəmiyyətində qadın və kişi arasındakı xarakterik xüsusiyyətlər kimi) tipik və dəyişkən xüsusiyyətlər üçün genlərin olduğu haqqında əhatəli fərziyyədir.*

(Stephen Jay Gould, *Ever Since Darwin*, New York, W.W. Norton & Co., 1977)

Uilsonla başlayan insan davranışları haqqındakı təkamülçü fərziyyələr R. Dokinzlə ən ağıla sığmaz və məntiq xarici nöqtələrə qədər çatdı.

## DOKİNZ VƏ EQOİST GENLƏRİ DAŞIYAN ROBOTLAR

Sosiobiologiyanın və günümüzdəki davamı olan təkamüli psixologiyanın genlər haqqındakı elmdən kənar iddialarının nəticəsində Oksford Universitetindən təkamülçü zooloq Riçard Dokinz tərəfindən məşhurlaşdırılan "eqoist gen" yalanı ortaya çıxdı.

Dokinz kimi təkamülçülərə görə, bir canlının ən əhəmiyyətli hədəfi həyatda qalmaq, törəmək və beləliklə, genlərini qoruyaraq gələcək nəsillərə köçürə bilməkdir. Bu iddianın təməli isə tamamilə xəyali bir ssenariyə əsaslanır.

**Genlərin strukturu cansız və ağılsız atomlardan ibarətdir. Genlərdən qərar verən, seçim edən şüurlu varlıqlar kimi bəhs etmək məntiqə uyğun deyil. Təkamül psixologiyası isə bu məntiqsizlik üzərində qurulub.**

**Vəhşilik və təcavüzkarlıq insanlara sözdə heyvan atalarından miras qalan və genlərində kodlu olan davranışlar deyil. Bunlar vicdansızlığın və dinsizliyin gətirdiyi pis əxlaq xüsusiyyətləridir.**



Təkamül nəzəriyyəsinin bu ssenarisinə görə, bir zamanlar cansız kimyəvi maddələr necə oldusa, özlərini təşkil etdilər və öz-özünün üzünü çıxara bilən DNT əsaslı bir sistem meydana gətirdilər. Bu xəyali kimyəvi şorbadan çıxan ilk orqanizm isə çoxalmaq xaricində bir işə yaramayan bir gendir. Bu gen necə oldusa, özünün üzünü çıxarmağa "qərar vermiş", bu işə başlamış və yeni genlər çıxarmışdır. Bu nüsxə çıxarmalar əsnasında meydana gələn səhvlər nəticəsində fərqli xüsusiyyətlərə sahib genlər meydana gəlmişdir. Bir zaman sonra isə hər necə oldusa, bu genetik vəsaitlər müxtəlif bədənlər inkişaf etdirməyi "öyrəndilər" və beləliklə, özlərini daşıyan və daha təsirli şəkildə çoxalda bilən mühərriklər çıxardılar. Ən yaxşı bədəni kodlaşdıran genlərin bu sayədə digərlərinə görə daha təsirli şəkildə nüsxələri çıxarılmışdır. Təkamülçülər səbəbini və necə olduğunu heç bir şəkildə açıqlaya bilmədikləri bu nağılın nəticəsində bu bədənlərin zamanla şəkil və funksiya baxımından daha da inkişaf etdiyini iddia edirlər. Heç bir elmi dəlili

olmayan, reallaşması qeyri-mümkün olan bu hekayə müasir darvinizmin təməl iddialarından biridir. Halbuki, təkamülçülər də çox yaxşı bilir ki, insan bədəninin tək bir orqanı yox, heç bu orqanı meydana gətirən hüceyrələr və bu hüceyrələrin əsas elementləri belə öz-özünə meydana gələ bilməz.

Dokinz isə təkamül nəzəriyyəsinin bu nağılını əsas tutub təkamülün, əslində, genlər arasındakı rəqabət olduğunu iddia etmiş və buna bağlı olaraq insana qarşı olan azğın dünyagörüşünü *"The selfish gene"* (Eqoist gen) adlı kitabında belə yekunlaşdırmışdır:

*Bizlər genlər olaraq bilinən eqoist molekulları qorumaq üçün gözü bağlı şəkildə proqramlaşdırılmış həyatda qalan mühərrik və robot vasitələriyik. Bu, məni hələ heyrətləndirən bir həqiqətdir. Bunu illərdir bildiyimə baxmayaraq, heç vaxt bu fikrə tamamilə alışa bilmədim. Arzularımdan biri başqalarını da heyrətləndirməyi bacarmaqdır.*

(Richard Dawkins, *The Selfish Gene*, 1976 baskısının önsözü, Oxford: Oxford University Press)

Yuxarıda da göründüyü kimi, Dokinzin məntiq xarici iddiasına görə, insan yalnız gen daşıyan bir robotdur. Bu dünyadakı tək yaranma məqsədi isə daşıdığı genlərini çoxaltmaq, onu digər genlərlə rəqabətdə dəstəkləmək və sonrakı nəsillərə köçürməkdir. İnsan ruhunun varlığını görməzlikdən gəlib insanı mexaniki bir vasitəyə bənzədən bu iddianın heç bir həqiqi istiqamətinin olmadığı açıq şəkildə ortadadır.

Buna qarşı, insana materialist şərh gətirmək istəyən bir çox təkamülçü Dokinzin heç bir elmi əsası olmayan bu nəzəriyyəsini dəstəkləmişdir. Uilson da *"Human Nature"* adlı kitabında insanın yalnız genləri ilə əhəmiyyət və məqsəd qazandığını iddia edir:

*... Bizimki də daxil olmaqla, heç bir növ genetik tarixi (yəni təkamül) tərəfindən yaradılan zərurətlər xaricində bir məqsəd daşımır... Bir növ öz bioloji təbiəti xaricində hər hansı bir məqsədə sahib deyil.*

(E.O. Wilson, *On Human Nature*, Cambridge, Mass.: Harvard University Press, 1978, s. 2-3)

Elmi dayağı olmayan bu materialist inanca görə, əgər tək məqsəd genlərin davamıdırsa, genləri qorumaqla vəzifəli olan insanın heç bir əxlaqi dəyəri ola bilməz. Genlərinin mənfəətləri üçün mümkün qədər eqoist və mərhəmətsiz olmalıdır. Dokinz və tərəfdarlarına görə, bu rəqabətdə qazanan eqoist olanlardır. Dokinz bu azğın darvinist fikri "Eqoist gen" adlı kitabında belə bildirir:

*Biz və digər bütün heyvanlar genlərimiz tərəfindən yaradılan mühərrikik. Müvəffəqiyyətli Çikaqo qanqsterləri kimi genlərimiz bəzi durumlarda milyonlarla ildir ki, rəqabət dünyasında həyatda qaldılar... Bu, bizə genlərimizdən bəzi xüsusiyyətlər gözləmə haqqı qazandırır. Müvəffəqiyyətli bir gendən gözlənilən ən əhəmiyyətli xüsusiyyətin zalım eqoizm olduğunu iddia edirəm. Bu gen eqoizmi insanların davranışlarında da eyni şeyə səbəb olur. Yenə də gördüyümüz kimi, bir genin eqoist məqsədləri ilə məhdudlaşan fədakarlığı göstərib çatacağı bəzi xüsusi vəziyyətlər vardır. Son cümlədəki "xüsusi" və "məhdud" sözləri əhəmiyyətlidir. Hər nə qədər əksinə inanmaq istəsək də, növlərin universal sevgi və köməkləşməsi təkamüli baxımdan*

*mənə ifadə etməyən anlayışlardır.*

(Richard Dawkins, *The Selfish Gene*, İkinci Baskı,1989, Oxford: Oxford University Press., s.2)

Dokinzin cəhalət məhsulu olan bu nəzəriyyəsinə görə, insanın daşıdığı genlər eqoist olduğundan insan da eqoistdir. Bu vəziyyətdə "eqoist robotların" eqoist genlərini qorumaq və çoxaltmaq üçün hər cür yolu sınayacaqları gözlənilməlidir. Bu cür varlıqların mənfəətləri üçün cinayət işləməməklərinə, oğurluq etməməklərinə və ya təcavüz etməməklərinə heç bir səbəb qalmır. "Eqoist mühərriklər"in əxlaq qaydalarının olması, sağlamfikirli, vicdanlı davranmaları gözlənilə bilməz. Məsələn, bir insanın mənfəəti üçün bir başqasını öldürməsi bu vəziyyətdə cinayət və ya əxlaqsızlıq deyil, genetik bir zərurətdir. Genlər eqoist olduğu üçün davranışlar da eqoistdir. Göründüyü kimi, Dokinzin insana baxış yönü son dərəcə əhəmiyyətli təhlükələr, cəmiyyət əxlaqını parçalamağa istiqamətli qorxunc təlqinlər ehtiva edir.



**Təbiətdə sadəcə ölümünə rəqabət deyil, eyni zamanda, bir çox canlı həm balalarına, həm də digər heyvanlara qarşı son dərəcə fədakar davranış göstərir.**

Halbuki, eqoist gen iddiası son dərəcə məntiqsiz və cəfəngdir. Dokinz və bənzərləri genləri sanki şüur, iradə və gücə sahib olan varlıqlar kimi izah edirlər. Halbuki, genlər uzun DNT zəncirləridir. DNT isə fosfat və şəkərlə bir-birinə birləşdirilmiş uzun bir nükleik turşusu nərdivanıdır. Yəni uzun bir molekuldur. $H_2O$ və ya $H_2SO_4$ (sülfat turşusu) necə bir molekuldursa, DNT də elə bir molekuldur. "Eqoist su"dan, "eqoist duz"dan və ya "qısqanc sulfat turşusu"ndan bəhs edə bilmədiyimiz kimi, eqoist genlərdən də danışa bilmərik.

Təkamülçülər insanı bir maddə yığınından ibarət kimi göstərməyə və bu maddə yığınına müəyyən şəkildə şüur təyin etməyə çalışırlar. Genlərə şüur təyin edəcək qədər əsassız bir iddia irəli sürmələri isə təkamül nəzəriyyəsinin düşdüyü vəziyyəti göstərməsi baxımından ibrət vericidir. Keçmişdə taxta və ya daşdan düzələn bütlərin ağıl və şüura malik olduğunu zənn edən bütpərəstliyin yerini dövrümüzdə molekullarda, bu molekulları meydana gətirən cansız atomlarda ağıl və şüurun olduğunu iddia edən darvinizm almışdır.

## TƏKAMÜLÜN BAŞQA BİR ÇƏTİNLİYİ: FƏDAKAR GENLƏR

Təkamül nəzəriyyəsinin yalanlarına görə, təbiətdə yalnız güclülərin həyatda qaldığı mübarizə mühiti vardır. Ancaq təbiətdəki canlılar müşahidə edildiklərində bir çoxunun bir-birlərinə yardımçı olduğu, bir-birləri üçün fədakarlıq etdiyi, hətta digərlərinin yaxşılığı üçün öz həyatlarını belə təhlükəyə atdıqları görünür. Uilson təkamül nəzəriyyəsinin təməl iddiası ilə ziddiyyət təşkil edən bu həqiqəti açıqlamaq üçün bəzi əsassız fərziyyələr qarşıya qoymuş və sözdə bu şərhləri sosiobiologiyanın təməlini meydana gətirmişdi. Uilson şərhlərini U. D. Hamiltonun "qohum seçimi" adını verdiyi başqa bir yalana əsaslandırmışdı. Bu yalana görə, balasını və ya öz sürüsündən başqa canlını qoruyan, onun üçün fədakarlıq edən bir canlı, əslində, öz "eqoist genlərini" qoruyur. Məqsəd genləri sonrakı nəslə köçürmək olduğu üçün və bir ananın genlərinin balasında da olduğuna görə, balasını həyatı bahasına qoruyan ana, əslində, öz genlərini qorumuş olur. Yəni fədakarlığı, əslində, eqoistliyindəndir!

Bu, son dərəcə cəfəng bir iddiadır. Hər şeydən əvvəl, təbiətdəki heç bir heyvan genlərinin fərqində olduğu şüura sahib deyil, dolayısilə, onları qorumaq kimi bir fikrə də sahib ola bilməz. Bundan başqa, balasında və ya əmioğlularında da özünə aid genlərin olduğunu bilməsi mümkün deyil ki, bunun üçün həyatını fəda etsin. Genlərin bir canlını bu istiqamətdə yönləndirməsi əsla mümkün deyil. Genlər əvvəlki səhifələrdə də ifadə edildiyi kimi, şüursuz molekul zəncirləridir.

Ayrıca, heyvanlar yalnız öz genlərini daşıyan heyvanlara deyil, digərlərinə də kömək edirlər. Təbiətdə bunun bir çox nümunəsi var. Bu isə təkamülçü iddialarla açıqlana bilməyən bir davranışdır; çünki fədakarlıq edən canlının genlərini qoruduğu iddiası tamamilə mənasızdır.

Qaldı ki, genləri qoruma hissinin bu canlıların genetik quruluşlarında kodlu olduğunu iddia etmək təkamülçülərin problemlərini həll etməz. Çünki bu dəfə belə bir kompleks davranışın genlərə necə kodlaşdırıldığı sualı gəlir. Təkamül nəzəriyyəsi təsadüf mexanizmləri ilə tək bir genin belə necə meydana gəldiyini açıqlaya bilmədiyi halda, bu genlərə kodlaşdırılan məlumatların təsadüfən necə meydana gəldiyini açıqlaması qətiyyən mümkün deyil. Canlıların genlərində kodlaşdırılmış hər məlumat bir şüurun əsəridir. Bu, sonsuz elm və ağıl sahibi olan Allahın yaratmasıdır.

Sosiobioloqlar təbiətdəki canlıların fədakar davranışları ilə əlaqədar iddianın eynisini insanlara da tətbiq etməyə cəhd edirlər. Yəni təkamülçülərin xəyal məhsulu iddialarına görə, bir ana uşağını təhlükələrdən qoruduğunda, lazım olduğunda onun üçün canını heç düşünmədən fəda etdiyində bu ana, əslində, genlərini qoruma narahatlığı daşıyır. Təkamülçülərin insan ruhuna aid xüsusiyyətlərin varlığını qəbul etməməsi, bütün bunları təkamül nəzəriyyəsi ilə açıqlamağa çalışması heç bir elmi dəlilə əsaslanmır. Təkamülçülər bu məntiq xarici iddiaları ilə insan ruhunu, şüurunu və vicdanını yox sayır. Halbuki, insan ruha, ağıla, vicdana, düşünmə və mühakimə qabiliyyətlərinə sahib, doğru və səhvi bir-birindən ayırd edə

bilən şüurlu varlıqdır. Bir ana isə uşağı üçün fədakarlıq etdiyində bunu uşağını sevdiyi, ona şəfqət və mərhəmət duyduğu, onu zəif gördüyü və qoruma məsuliyyətini boynuna götürdüyü üçün edir. Məsələn, bir ana uşağı acı çəkdiyində özünü onun yerinə qoyar və bu, onu üzər, narahat edər, uşağını acıdan xilas etmək üçün hər cür fədakarlığa hazır olar. Bunlar (bəzi təkamülçülərin hekayələrində iddia etdikləri kimi) gen daşıyan bir mühərrikin və ya bir robotun sahib ola bilmədiyi xüsusiyyətlərdir.

**Analar təkamülçülərin iddia etdiyi kimi, genlərini qorumaq üçün deyil, sevgi, şəfqət və qorumaq duyğuları ilə övladları üçün fədakarlıq edərlər.**



Əslində, təkamülçülər də insan ruhuna aid xüsusiyyətləri təkamül nəzəriyyəsinin tezisləri ilə açıqlaya bilməyəcəklərinin fərqindədirlər. Məsələn, təkamülçü R. Uoles *"The genesis factor"* (Başlanğıc faktoru) adlı kitabının sonunda belə deyir:

*İnsanın yalnız genetik olaraq törəməyi hədəfləyən ağıllı bir eqoist olduğuna inanmıram. İnsan budur. Ancaq yalnız bu deyil. Açıq şəkildə daha çoxdur. Bunun dəlili çox sadə və boldur. İnsan ruhunun ölçülməz dərinliyinin olduğunu görmək üçün birinin Y. Paçelbelin "D Majör Canon" adlı bəstəsini dinləməsi kifayətdir...*

(Robert Wallace, *The Genesis Factor*, New York: Morrow and Co.,1979, s.217-218)

Uolesin diqqət çəkdiyi nöqtə son dərəcə əhəmiyyətlidir. Təkamülçülərin həqiqətdən kənar insan tərifinə görə, insan yalnız gen daşımaqla vəzifəli bir mühərrikdir. Belə bir varlığın dinlədiyi musiqidən zövq alması, bir film izlədiyində əylənməsi, hətta belə bir film meydana gətirməsi, kitab yazması, kitab oxuması, oxuduqlarını öyrənməsi, fikir mübadiləsi aparması qeyri-mümkündür. İnsanın təkamülçülərin izah etdiklərindən daha fərqli bir yaradılışda olduğu çox açıqdır və hər insan bunun dəlilini özündə görür. İnsan kimi dərin bir düşüncəyə sahib olan, ruhunda yüzlərlə duyğu və zövqü yaşaya bilən bir varlığın necə var olduğu və xüsusiyyətlərinin mənşəyinin nə olduğu təkamülçülərin elmdən kənar iddialarla əsla cavablandıra bilmədiyi suallardır.

## Təkamüli psixologiyanın müdafiə etdiyi vəhşilik: körpə cinayətləri

Qəzetlər 1996-1997-ci illərdə körpə cinayətləri ilə bağlı sarsıdıcı iki hadisəni bildirirdi. Birində on səkkiz yaşında iki kollecli gənc otel otağında körpələrini dünyaya gətirdilər, onu öldürdülər və sonra cəsədi zibilliyə atdılar. Digərində isə on səkkiz yaşındakı gənc qız məktəbdə şənliyi yarımçıq qoyaraq duşda uşaq dünyaya gətirdi, körpəni ölü olaraq bir zibil qutusuna atdı və rəqs salonuna geri qayıtdı. İki hadisə də cinayət mühakiməsi ilə məhkəməyə sövq edildi.

Əksəriyyət bu hadisələrin səbəbini əxlaqi çöküntüyə və ya zehni pozunutuya bağlayarkən *Massachussetts* İnstitutu Psixologiya kürsüsündə psixologiya professoru olan Stiven Pinkerin dəhşətli açıqlaması var idi: genetik zərurət. *"New York Times"*də məqaləsi nəşr olunan Pinker körpəni doğulduğu gündə öldürmənin zehni xəstəlik olmadığını, çünki tarix boyu bunun bir çox mədəniyyətdə tətbiq olunduğunu və qəbul edildiyini iddia etdi:

*Bir körpəni öldürmək əxlaq xarici bir hərəkətdir və ümumiyyətlə, əxlaqsızlığa qarşı mövqeyimizi ona xəstəlik deyərək ifadə edirik. Ancaq normal insan istəkləri hər zaman əxlaqi deyil. Körpə öldürmək sinirlərin normal olmamasının və ya pis yetişdirilmənin nəticəsi deyil...*

(Steven Pinker, "Why They Kill Their Newborns", *New York Times*, 2 Kasım 1997)

Pinkerin yuxarıdakı sözlərində ən çox diqqət çəkən şey "normal insan davranışı hər zaman əxlaqa uyğun olmalı deyil" (Michael Kelly, "Arguing for Infanticide", *Washington Post*, 6 Kasım 1997) ifadəsidir. Bu, Pinkerin hadisələrə baxışındakı anormallığı göstərir. Yəni Pinkerə görə, bəzi davranışlar əxlaq xarici olsalar da, insanlara xas normal davranış olduğu üçün üzrlü görülməlidir. Əlbəttə, bu, qəbul edilə bilən bir iddia deyil. Çünki bu vəziyyətdə, yeni doğulan körpənin öldürülməsi Pinkerə görə şərtlər tələb etdikdə normal insan davranışıdır. Təkamülçülərin tamamilə xəyal məhsulu olan iddialarına görə, ibtidai şərtlər altında anaların balalarına baxımı təmin etmək və yeni doğulan körpələrini bəsləmək arasında çətin seçim etmələri lazım idi. Buna görə, əgər körpə xəstə doğulubsa və həyatda qalması mümkün deyilsə, o zaman qüsurluları məhv edərək təkrar sınağa davam etmək olar. Halbuki, bu fərziyyə nə elmidir, nə də həqiqəti əks etdirir. Buna baxmayaraq, darvinist zehniyyət Pinkeri bu vəhşiliyi müdafiə etməyə vadar edirdi.

Pinker və bənzərlərinin qarşıya qoyduğu iddianın cəmiyyətdə necə böyük təxribata gətirib çıxaracağı aydındır. Əxlaqi hadisələrdə genetik zərurət anlayışı ortaya qoyulduqda, o zaman cinayət işləyən bir insan: "Bunu etmək məcburiyyətində idim, genlərim mənə bunu etdirdi", (Steven Pinker, "Arguing Against Infanticide", *Washington Post*, 21 Kasım 1997) - deyəcək. Belə vəziyyətdə isə genlərə cəza verilməyəcəyinə görə, ortada cinayət və cinayətkar qalmayacaq. Pinker iddialarında insan ağlını və vicdanını yox hesab edir, hər şeyi genlərə görə açıqlayacağını zənn edir. Cəmiyyətdən reaksiya aldıqda isə ifadələrində bəzi dəyişikliklər edir, ancaq bu dəfə özü özünə ziddiyyət təşkil edir. Pinkeri tənqid edən şəxslərdən biri olan Endryu Ferquson *"The Weekly Standart"* adlı qəzetdə belə yazır:

*Bizim bunu əxlaqi dəhşət olaraq deyil, ... genetik olaraq kodlaşdırılmış təkamüli adaptasiya kimi qəbul etməyimizi təmin edirlər.*

(Andrew Ferguson, "How Steven Pinker's Mind Works", *The Weekly Standard*, 12 Ocak 1998, s. 16)

Əhəmiyyətli olan Pinkerin həmin iddialarını heç bir elmi dəlilə əsaslanmamasına baxmayaraq, müdafiə edə bilməsidir. Bunlar yalnız təkamülçülərin batil dünya görüşlərinə əsaslanan fərziyyələrdir. Belə ki, Pinkerin iddialarına qarşı olan tənqidlərdən biri də budur. Məsələn, Endryu Ferquson, Pinkerin məntiqini tənqid etmiş və iddialarına heç bir dəlil verə bilmədiyini ifadə etmişdir. Əslində, təkamüli psixologiyanın hamısı dəlilsiz fərziyyələrə, təxəyyüə əsaslanan hekayələrdən meydana gəlir. Filip Conson *"The Wedge of Truth"* adlı kitabında belə deyir:

*Əsas olaraq, təkamüli psixologiya ibtidai mədəniyyətlər haqqındakı əsassız dəlilə əsaslanaraq irəli sürülən fərziyyə ilə davam etdirilir.*

(Philip Johnson, The Wedge of Truth, Intervarsity Press, Illinois, 2000, s. 113)

Endryu Ferquson isə tənqidində bu mövzu haqqında bunu deyir:

*Fərziyyə həqiqətə çevrilir; daha sonra həqiqət daha çox fərziyyədə olmaq üçün bir əsas təşkil edir, bu da başqa həqiqətə çevrilir və bu, belə davam edir.* (Andrew Ferguson, "How Steven Pinker's Mind Works", The Weekly Standard, 12 Ocak 1998, s. 16)

## GENETİK DETERMİNİZMİN SONU

İnsan genomunun düzülməsinin və analizinin yayımlanması ilə yanaşı, DNT-nin böyük gücə malik olduğuna və genlərin kim olduğumuzun təyin olunmasında əhəmiyyətli rolunun olduğuna dair geniş yayılmış fikir meydana gəldi. Demək olar ki, hər gün qəzetlərdə genlərimizin sözdə nəzarət etdiyi bir xüsusiyyətimizin xəbəri ilə qarşılaşmağa başladıq. "Elm adamları dahilik genini nişan alır"; "Kennedi tragediyaları risk geninə bağlandı"; "Elm adamları qardaşlar üzərindəki araşdırmaların "homoseksual geni" olduğunu sübut etdiyini deyir"... Şizofreniyadan qısqanclığa, alkoqolizmdən televiziya vərdişinə qədər hər şeyin geninin olduğuna dair xəbərlər tez-tez elmi və elmi olmayan nəşrlərdə yer alır.

Bütün bu xəbər başlıqlarına baxan insanlar isə insan genomu haqqında müəyyən şeylər öyrəndikcə insanın zəkasından xarakterinə, müvəffəqiyyətlərindən müvəffəqiyyətsizliklərinə qədər hər cür xüsusiyyətinin genlərində kodlu olduğunu görəcəyimizi sandılar. Bəziləri həyatımızın bir düsturdan ibarət olduğu səhvinə inanmağa başladı.

Bunu ifadə etmək lazımdır ki, insan genomu üzərinə görülən işlər son dərəcə qiymətlidir. Bundan başqa, insanın genetik quruluşu üzərində aparılan araşdırmalar bəzi fiziki xəstəliklər haqqında əhəmiyyətli məlumatların əldə edilməsinə də vasitəçi olmuşdur. Ancaq insan genomu layihəsini idarə edənlərin və mövzu ilə maraqlanan elm adamlarının da açıq şəkildə ifadə etdiyi kimi, bu vəziyyət genlərə həqiqətdən kənar bəzi rolları yükləməyə cəhd etməyi heç bir şəkildə açıqlaya bilməz. Aparılan araşdırmalar insanların xarakter, davranış və düşünmələrində genlərin diqqətə alınmayacaq qədər kiçik rolunun olduğunu, hər xarakter üçün bir genin olmasının isə qeyri-mümkün olduğunu ortaya qoyur. Məsələn, "Cəmiyyətdə elm" adlı

institutdan Mey-Van Ho "The human genoma map, the death of genetic determinism and beyond" (İnsanın genom xəritəsi, genetik determinizmin sonu və sonrası) başlıqlı məqaləsində belə deyir:

*Genlərin sayı son on ildir irəli sürüldüyü kimi, genlərin yalnız bədənimizin quruluşunu və hansı xəstəliklərə tutulacağımızı deyil, eyni zamanda, davranışlarımızı, zehni qabiliyyətlərimizi, cinsi seçimlərimizi və cinayətə meyili də təyin etdiyi yönündəki artıq dərəcədə məntiqsiz iddianı dəstəkləyə biləcək qədər kafi deyil.* (Mae-Wan Ho, The Human Genome Map, the Death of Genetic Determinism and Beyond, *ISIS Report*, 14 Şubat 2001; http://www.i-sis.org.uk/HumangenTWN-pr.php)

İnsan genomu layihəsini icra edən iki quruluşdan biri olan Milli İnsan Genomu Araşdırma İnstitutunun başçısı F. S. Kolins də insanı insan edənin genlərinin olmadığını çox açıq və qəti şəkildə açıqlayır. Kolins "Have no fear. Genes aren't everything" (Qorxmayın. Genlər hər şey deyil) başlıqlı yazısında bunları söyləyir:

*İnsan genomu üzərində aparılan on illik işlər genetik determinizmlə əlaqədar qorxuların yersiz olduğunu göstərən kifayət qədər dəlil təqdim etdi. Açıq olaraq göstərdi ki, biz insanlar genetik hissələrimizin cəmindən daha çoxuyuq. Söyləməyə ehtiyac yoxdur, genlərimiz insanın inkişafında və bir çox insan xəstəliyinin ortaya çıxmasında əhəmiyyətli rol oynayır. Ancaq zəif və güclü texnologiyanın vasitəsilə tək yumurta və cüt yumurta əkizləri üzərində aparılan molekulyar çalışmalar insan təcrübəsində genlərin hər şeyi təyin edən amil olmadığını dəqiqləşdirdi.* (Francis S. Collins, Lowell Weiss ve Kathy Hudson, "Have no fear. Genes aren't everything", *The New Republic*, 06/25/2001)

Kolins eyni məqaləsində genlərin insan davranışları üzərində də əhəmiyyətli təsirinin olmadığını ifadə edir. Bir cinayətkarın DNT-sinə baxıb "genetik olaraq cinayətə meyilli" olduğunu araşdırılmasının və buna görə cəza təyin olunmasının isə haqsız nəticələr ortaya çıxardığını açıqlayır:

*Bəs, zəka və təcavüzkar davranış kimi xəstəliklərlə əlaqədar olmayan xüsusiyyətlər?... Şiddətlə əlaqədar bir genin olmasının min illik azad iradə anlayışımız üzərində dərin təsiri ola bilərdi və ədalət tərəzisini iki təhlükəli yöndə əyə bilərdi. Əgər şiddət ehtiva edən bir cinayətkar bu genə sahibdirsə, vəkili DNT müdafiəsindən istifadə edə bilərdi. (Əgər bu cinayət genlərdədirsə, adam təmizdir!) Və müdafiə zamanı hakim və münsif heyəti onun hərəkətlərinə görə məsuliyyət daşımadığına qərar verə bilərdi. Bununla yanaşı, heç şiddətə yol verməyən, ancaq şiddət geni olan birisinin həyatının yerdə qalan hissəsində cinayət şübhəlisi kimi görüldüyü (hətta müasir cüzzamlılar düşərgəsinə göndərildiyi) bir ssenari də düşünülə bilər.*

*Əgər genlər, həqiqətən, davranışlara nəzarət etsəydi, itirdiyimiz təkcə ədalət sistemimiz və bu sistemin ən əhəmiyyətli qanunu olan bərabər qoruma olmayacaqdı. Bu vəziyyətdə bərabər fürsət anlayışımız necə qalardı? Bəs yaxşı, əxlaq düşüncəsi necə olardı? "Gattaca" adlı filmdə təsvir edilən qorxuducu "genotocracy"ni (bir insanın yaşca böyük olduğuna görə, fikirlərinin doğru qəbul edilməsi) düşünün. Uşaqların doğulduqdan dərhal sonra DNT-lərində yazılan zehni qabiliyyətlərinə və peşə potensiallarına*

*görə kastalara ayrıldığı bir dünya.* (Francis S. Collins, Lowell Weiss ve Kathy Hudson, "Have no fear. Genes aren't everything", *The New Republic*, 06/25/2001)

Kolins məqaləsində insanlara aid davranışların genlərdə kodlu olduğu iddiasının məntiqsizliyini bioloq C. C. Makfaddenə isnadən bir bənzətmə ilə belə izah edir:

*Bioloq C. C. Makfadden tərəfindən təqdim edilən bir bənzətmədən istifadə etsək, xüsusi davranışlarımızı və zehnimizin digər məhsullarını kodlaşdıran genləri axtarmaq "İmperator" konsertini tapmaq üçün bir skripkanın tellərini və ya pianonun düymələrini araşdırmağa bənzəyir. Əslində, insan genomu təxminən 30 min genimizdən hər birinin molekulyar biologiya kimi bilinən, fövqəladə və böyük konsertdə çalınan xüsusi bir aləti təmsil edən ən böyük orkestrlərdən biri olaraq düşünülə bilər. Hər alət əhəmiyyətlidir və hər biri doğru (və olduqca kompleks) səsi meydana gətirmək üçün ahəng içində olmalıdır. Bənzər şəkildə, genlər də beyinin inkişafı üçün son dərəcə əhəmiyyətlidir və funksional neyron və neyromediatorlar çoxaltmaq üçün "ahəng içində" olmalıdırlar. Ancaq bu qətiyyən genlərin ağıl meydana gətirdiyi mənasını vermir, eyni bir alt (musiqi aləti) və ya pikkolonun (kiçik fleyta) sonata yaza bilmədiyi kimi.*

(Francis S. Collins, Lowell Weiss ve Kathy Hudson, "Have no fear. Genes aren't everything", *The New Republic*, 06/25/2001)

Kolins yazısının sonunda isə çox əhəmiyyətli bir həqiqətə yer ayırır. İnsanı insan edən xüsusiyyətlərin DNT-dən qaynaqlanmadığını bilməyimizin başqa bir əhəmiyyətli səbəbinin olduğunu deyən Kolins Allahın üstün yaratmasına diqqət çəkir:

*Bir çoxumuz üçün DNT-nin insan olduğumuzun əsas maddəsi olduğu fikrini rədd etmək üçün elmin mexanizmindən kənar əlavə güclü bir səbəb var. Bu, çox böyük bir gücün varlığına olan inancdır... Bəzi elm adamları və yazıçılar mənəvi meyili tamamilə xurafat olaraq qəbul edirlər (şübhə yoxdur ki, bu onların böyük yanılmasıdır). Necə ki, R. Dokinz: "Bizlər DNT tərəfindən inşa edilmiş və məqsədi eyni DNT-nin nüsxələrini çıxarmaq olan mühərriklərik. Bu, hər canlı maddənin yaşamağı üçün tək səbəbidir", - demişdir. Həqiqətən, elədirmi? İnsan olmağı bir bakteriya və ya böcək olmaqdan ayıran bir şey yoxdurmu?*

*Genetik və molekulyar biologiya hər bir dövrdə və bütün insan mədəniyyətlərində ortaq olan ümumdünya doğru və səhv anlayışının necə ortaya çıxdığını açıqlaya bilərmi? Yunanca "agape" (mərhəmət-sevgi) deyilən eqoist olmayan sevginin səbəbini açıqlaya bilərmi? DNT-miz riskə girsə belə, başqaları üçün fədakarlıq etməsinin səbəbini açıqlaya bilərmi? Təkamüli psixoloqlar genlərin təsirli şəkildə yayılmasına mane olan insan davranışları üçün müxtəlif şərhlər önə sürərkən bu iddialar bizə doğru görünmür.*

*Elmin varlığımızın sirlərini təkbaşına əlində tutduğu fikri sərbəst şəkildə bir din halına gəldi... Elm, əlbəttə ki, təbiəti anlamağın doğru yoludur; ancaq elm bizə təbiətin və bununla yanaşı, elmi sahənin xaricində qalan insan şəxsiyyətinin başqa yönlərinin olduğunu inkar etməyimiz üçün heç bir*

*səbəb vermir.* (Francis S. Collins, Lowell Weiss ve Kathy Hudson, "Have no fear. Genes aren't everything", *The New Republic*, 06/25/2001)

Kolinsin də diqqət çəkdiyi kimi, şəkər, fosfat və karbon-hidrogen-azot-oksigen birləşmələrindən əmələ gələn molekul zəncirlərinin insana sevgi, bağlılıq, sənətdən zövq alma, sevinmə, analıq hissi, sahib çıxma, istək, fədakarlıq kimi hissləri qazandırmağı qeyri-mümkündür. İnsan ruhu yox sayıldığında yalnız ət və sümük yığınıdır. Bu ət və sümük yığınının düşünməyini, riyazi hesablar aparmağını, yediyi yeməyin ləzzətindən zövq almağını, görmədiyi bir dostundan ötrü darıxmağını, gördüyü gözəllikdən xoşlanmağını təmin edən və özləri də maddi varlıq olan genlər deyil. İnsan Allahın yaratdığı, bədənindən ayrı olaraq ruh verdiyi bir varlıqdır. İnsan, bədənindən, genlərindən, beynindən və hüceyrələrindən ayrı və fərqli bir varlıqdır. İnsanın ruh sahibi olan varlıq olduğu Quranda belə xəbər verilmişdir:

**Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz!** (Səcdə surəsi, 7-9)

İnsanın ruhu Allahın Özündən üflədiyi ruhdur. Allahın varlığını və insanın sahib olduğu metafizik xüsusiyyətləri qəbul etmək istəməyən təkamülçü materialistlər "hər şeyin genlərdə kodlu olduğu" yalanını qarşıya qoyub insanları bu həqiqətdən uzaq tutmaq istəyirlər. Halbuki, genlərin insan ruhunu yarada bilmədiyi hamıya məlumdur; buna kor-koranə inanmışlar.

Bu azğın inanc, əslində, yeni deyil. Tarix boyu bütpərəstlik olaraq bilinmişdir. Qədim bütpərəstlərin taxtadan oyduqları bütlərin öz ilahları olduğunu iddia etdiyi kimi, təkamül nəzəriyyəsi də genləri saxta ilahlar olaraq qəbul edir, hər şeyin məqsədi və yaradıcısı olduğunu iddia edirlər (Allahı tənzih edirik.) Ancaq bu son dərəcə ibtidai və doqmatik dünyagörüşünün səhv olduğu (təkamül nəzəriyyəsinə dayaq olduğu ümid edilən) elmi tapıntılarla sübut edilmişdir. Genlərlə əlaqədar ən əhəmiyyətli və tarixi araşdırmanın başında gələn elm adamı Kolins də təkamülçülərin sözdə ilah elan etdikləri genlərin heç bir güclərinin olmadığını və insanın genlərindən kənar metafizik bir varlığın olduğunu açıq şəkildə ifadə edir.

Bütpərəstlik, yəni heç bir gücü olmayan maddi varlıqlara ilahlıq ətf etmək, tarix boyunca davam edən bir inkarçı ənənəsidir. Dövrümüzdə bu ənənəni təkamülçü zehniyyətlə davam etdirirlər. Allah Quranda heç bir gücü olmayan varlıqları ilah qəbul edənlər haqqında belə buyurur:

*(Kafirlər)* **isə Onun əvəzinə heç nəyə fayda verməyən, həm də özləri yaradılan, özlərinə nə bir zərər, nə də bir xeyir verməyə qadir olmayan, öldürməyə, həyat verməyə və yenidən diriltməyə qüdrəti olmayanları özlərinə tanrı götürdülər.** (Furqan surəsi, 3)

Allah inkarçıların azğın inancını bir başqa ayədə belə açıqlayır:

**De: "Allahdan başqa tanrı saydıqlarınızı çağırın. Onlar bəlanı sizdən nə uzaqlaşdırmağa, nə də** *(onu başqasına)* **yönəltməyə qadir deyillər".**
(İsra surəsi, 56)

Allahın ağıl sahibi olan insanlara əmri isə budur:

**Allahı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan.**
(Yunus surəsi, 106)

## İSLAM ÜMMƏTİNİN VƏZİYYƏTİ

Son iki əsr müsəlmanların öz dinlərində süstləşməsi və xarici düşmənlərin onlara qarşı məkrli siyasəti faciələrə səbəb olmuşdur. Elmsizləşdirmə, mütiləşdirmə, dindən uzaqlaşdırılma, etnik ayrıseçkilik, təriqətbazlıq kimi siyasi oyunlar bu gün 2 milyarda yaxın müsəlmanı iflic etmiş və özünü qorumaq qüdrətindən məhrum etmişdir. Bu zəlilliyin yeganə çarəsi müsəlmanların vəhdəti və birliyidir. Bu bölümdə sizə İslam aləminin vəziyyətini və vəhdətin yoxluğunun nələrə səbəb olduğunu qısaca olaraq şərh etməyə çalışacağıq.

### Bosniya

1992-1995-ci illərdə bosniyalı müsəlmanlara qarşı soyqırım təşkil olunmuş və 200 000 müsəlman heç bir günahı olmadan vəhşicəsinə qətlə yetirilmişdir. Bu dünyanın gözü önündə, Avropanın "qulağının dibində" baş vermiş və heç kim bunun əleyhinə səsini yüksəltməmişdir. Beynəlxalq Haaqa Məhkəməsi də çıxardığı ədalətsiz qərarla bosniyalıların soyqırımında günahkarları ortaya çıxarmamış və bosniyalılara təzminat təyin etməmişdir.





### Myanma

Çin və Hindistanla sərhəddə yerləşən Myanma da müsəlmanların kütləvi qətl edildikləri yerlərdəndir. Myanmada müsəlmanların kompakt yaşadığı bölgə Arakan bölgəsidir. Arakan 1748-ci ildə Myanmanın (o zamankı Birma) tərkibinə birləşdirilmiş və o gündən qətliamlar başlamışdır. 1942-ci ildə buddistlər irimiqyaslı soyqrım törədərək 100 000-dən artıq müsəlmanı qırmışlar. 1962-2011-ci illərdə vətəndaş müharibəsi nəticəsində 1.5 milyon müsəlman Banqladeşə zorla köçürülmüş və 20 000 nəfər qətləyetirilmişdir. Bu zülmlər elə bir həddə çatmışdır ki, BMT Arakan müsəlmanlarınıdünyanın ən çox məruz qalan cəmiyyət kimi tanıyıb. 2011 - ci ildə parlament




seçkilərində 46 yer qazanan Arakan müsəlmanlarına yalnız 3 yer verilib. Gücünü hökümətdən alan buddist qruplar da zülmü gün keçdikcə daha da şiddətləndirir. Hökümətin 2012-ci ildə müsəlmanlara şəxsiyyət vəsiqəsi verəcəyi barədə vədlərindən sonra qəzəblənən buddistlər Ümrə ziyarətindən gələn zəvvar avtobusunu içindəkilərlə birlikdə yandırmışlar. Buna görə hakimiyyət müsəlmanların özlərini həbs etməyə başlamış, məscidlər mühasirəyə alınmışdır. Vəziyyətdən istifadə edən buddistlər evləri yağmalamağa və yandırmağa başlamışlar. Zülmdən qaçmaq istəyənlərə bu dəfə də Banqladeş sərhədlərini bağlamış, onları ölümə məhkum etmişdilər.







## Çeçenistan

Çeçenistan müsəlmanlarına rusların zülmü 18-ci əsrdən etibarən başlamışdır. Şeyx Həmzat və Şeyx Şamil kimi mücahidlərlə başlayan müqavimət bu günə kimi davam etmişdir. Çeçen xalqına dəyən ən böyük zərbə isə Sovet İmperiyasının dağılmasından sonra dəydi. 1994 - cü ildə yenidən müharibə vəziyyəti yarandı. Güclü rus ordusunun qarşısında dayanan çeçenlər 100 000 nəfərdən artıq qurban vermişlər. Rusiya federasiyasının dünya səviyyəsindəki gücü və nüfuzu nəticəsində bu qətliamlar minimum reaksiya ilə ört-basdır edilmişdir. 1996 - cı ildə bitən bu müharibə, 1999 - cu ildə rusların Dağıstan kəndlərinə hücumu nəticəsində yenidən alovlandı. 1500 nəfər əhalisi olan bu kəndlərdə demək olar ki, heç kim sağ qalmadı. Rus ordusu yenidən Çeçenistana girdi və qarşısına çıxan hər kəsi qırmağa başladı. Bu döyüşdə kimyəvi silahlardan belə istifadə edildi. Qaçqın düşərgələri, xəstəxanalar, bazarlar və s. Ictimai obyektlər məhv edildi. Minlərlə insan bu müharibənin acı nəticəsi olaraq qaçqınlıq, qürbət və səfalətə məhkum oldu. Çeçenistanın bu müharibənin verdiyi iqtisadi böhrandan hələ illərlə çıxması inandırıcı deyil.







## Fələstin

Fələstin 60 ildir ki, açıq-aydın zülm olunan müsəlman məmləkətidir. Buradakı zülmlər o səviyyəyə çatmışdır ki, dünyada bu ədalətsiz mövqeyi bilməyən qalmamış və İsrail terroruna hamı şahid olmuşdur. Dünyanın ədalətsiz quruluşu güclü və heç kimi saymayan zəngin İsrail qarşısında lal olmuşdur. Tarixi yurdları iddiası ilə sionistlər bu torpaqlarda çox iyrənc siyasətə əl atmışlar. 1900-cü illərdə əhalinin 10 %-i olan yəhudilər 1947 - ci ildə saylarını süni köçlərlə 630 000-ə çatdırmışlar. Ardıcıl qətliamlar sayəsində 1948-1949-cu illərdə 400 müsəlman kəndi xəritədən silinmişdir. İsrail qurulmamışdan əvvəl Yəhudilər torpaqların 6 %-ə sahib idilərsə, dövləti qurduqdan sonra bu göstərici 90 %-ə çatmışdır. Köçməyə məcbur edilən müsəlmanlar qonşu dövlətlərə üz tutdular. Hazırda Livan, İordaniya və başqa qonşu ölkələrdə 4 milyona qədər fələstinli qaçqın yaşayır. Ölkədə qalan camaat isə qaçqınlardan daha pis vəziyyətdədir. Heç bir səbəb göstərilmədən evlərinə hücumlar, basqınlar təşkil edilir, həbs olunur, təsərrüfatları dağıdılır, yandırılır, malları müsadirə olunur, fiziki işgəncələrə məruz qoyulur və ən yaxşı halda isə öldürülürlər. Bəli, səhv oxumadınız. Fələstində yaşamaq ölümdən qat-qat ağır və çətindir. Ona yaşamaq demək olmaz. Qadın, uşaq, qoca deyilmədən, eyni Xocalı soyqırımındakı kimi... yalnız bir fərqlə. Xocalı 26 fevral tarixində, bir gün baş verdisə, Fələstində 60 ildir hər an soyqırımdadır.









## Kəşmir

Son 50 ildə zülmə məruz qalan islam məmləkətlərindən biri də Kəşmirdir. Bu torpaqlar təbii sərvətlər baxımından zəngindir. Kəşmirdə zəngin yaqut, zümrüd və qızıl mədənləri var. Strateji mövqeyi, təbii sərvətləri və xalqının müsəlman olması bu məmləkəti Hindistanın düşməninə çevirmişdir. Kəşmirlilərin müstəqil islam dövləti qurmaq və ya Pakistana birləşmək arzuları bölgədəki Çin və Hindistanın qəzəbi qarşısında reallaşa bilmir. Kəşmir müsəlmanlarının iqtisadi və siyasi inkişafına mane olmaq üçün müxtəlif embarqolar, fiziki təzyiqlər, saysız-hesabsız həbslər və işgəncələr tətbiq olunur. Amma məsələnin tarixini araşdırdıqda ingilis siyasətini də qeyd etmədən keçməməliyik. İkinci dünya müharibəsindən sonra ingilislər bölgədən çəkilməyə başladılar. Ərazidə yaşayan müsəlmanlar müstəqil Pakistan dövlətini qurdular və hindlərdən ayrıldılar. İngilislərin dəstəyilə Hindistan Kəşmirin müstəqilliyinə mane oldu. Elə o gündən bu günə Kəşmirin müsəlman camaatı zülmdədir. Müstəqillik arzusu müsəlmanların 1947, 1965 və 1971-ci illərdə böyük qətliamlarına səbəb oldu. Bu qətliamlarda on minlərlə insan öldürüldü, 4000 nəfər qadına təcavüz edildi.


Yarım asırdır devam eden kanayan yara 'KEŞMİR'
Nükleer savaş tehlikesi
MİLLİ GAZETE, 4/3/01
AKİT, 2/3/01
Keşmir'de Müslüman kıyımı sürüyor
Hintliler, Müslüman evi yaktı
Dhadra Mura kesiminde ateşkese rağmen devamlı saldırıda bulunan Hind askerleri gerçekleştirdikleri son saldırıda 12'si ev olmak üzere 26 binayı yaktılar
AKİT, 28/3/01






## Elmsizləşdirmə siyasəti

İnsanları dinlərindən uzaqlaşdırmaq üçün elmdən uzaqlaşdırmaq siyasəti ortaya atıldı və islami məktəblər bağlandı. Diqqət etsəniz, elmsizləşdirmə bu və ya digər yollarla həmişə müsəlmanlara tətbiq olunub. Müsəlmanı əzməyin bundan səmərəli yolu yoxdur. Müsəlmanlar cəmiyyətlər də müstəqillik, güc və azadlıq əldə etməyin yalnız elmlə mümkünlüyünü qəbul etməlidirlər. Qərbin və qərb üçün çalışan şeytani din alimlərinin zəncirlərini qırmalı və azad təfəkkürlə elmə yönəlməlidirlər. Şeytani din alimləri "əsl din şəriətdir və qalan elmlər batildir" kimi sözlərlə müsəlman cəmiyyətləri cahiliyyətə məruz qoymuşlar. Eyni zamanda insanları Qurani-Kərimdən uzaqlaşdırmış, "bunu siz dərk edə bilməzsiniz", "bu alimlərin işidir" kimi təlqinlərlə Müqəddəs Kitabı bir parçaya bükdürmüş və rəflərdə qərib hala salmışlar. Ona görə də, Kəşmirdə açıq-aydın aparılmış elmsizləşdirmə siyasəti bizlərə ibrət olmalıdır. 1990-cı ildə Hindistanın artan zülmü bütün məktəblərin və mətbəələrin bağlanmasına gətirib çıxardı. Evlərə hücumlar, həbslər, qətliamlar.... Ən alçaq siyasət isə musson yağışları vaxtı bəndlərin ağzınadək su ilə doldurularaq birdəfəlik müsəlman ərazilərinə buraxılması oldu. Bununla da kənd təsərrüfatı iflic oldu və minlərlə insan suda boğularaq dünyasını dəyişdi.

1993-cü ildə Hazratbal məscidi mühasirəyə alınaraq 100-dən artıq mömin öldürüldü, 300 nəfəri isə həbs edildi, şəhərin elektrik və suyu kəsildi. Bu vəhşətlər üzündən vətənlərini tərk edən minlərlə müsəlman da çətinliklərlə qaçqın həyatı yaşayırlar. Ambor qaçqın şəhərciyindəki həyat tərzi vəziyyətin ciddiliyini bildirmək üçün kifayətdir. Birotaqlı kiçik torpaq evlər, içərisində isə budaqlardan düzəldilmiş bir yataq. Əgər burda neçə nəfər yaşadığını soruşsanız, ən azı 9 və ya 11 eşidərsiniz. Heç bir geyim və ərzaq əlamətləri görmürsünüz. Yalnız hər 5-10 evdən bir həyətdə qaynayan bir qazan...

Burda Hindistan dövlətindən əlavə də islam düşməni olan hindu silahlı dəstələr qeyd olunmalıdır. Bu dəstələr 1980-ci ildən sonra daha da aktivləşmişlər. Assimilyasiya siyasətinə xidmət edən bu qruplar bölgədəki bütün müsəlman izlərini yox etməyə çalışırlar. Bu cür dəhşətli cinayətlər isə demokratiya və insan hüquqlarının aşiqi olan qərb mətbuatında işıqlandırılmamaqla bərabər, vətəndaş müharibəsinin və üsyanın yatırılması kimi işıqlandırılır.

## Sintzyan-uyğur muxtar vilayəti

Sintzyan-Uyğur muxtar vilayəti Çin Xalq Respublikasının tərkibindədir və burada müsəlman türk tayfaları yaşayır. Komunizmin Çində tüğyan etdiyi dövrdə məscidlər və cəmiyyətlə edilən ibadətlər qadağan edildi, Quran tədrisi ləğv edildi və müsəlmanları daimi təcavüzdə saxlamaq üçün çinlilər bu əraziyə köçürülməyə başlanıldı. Hər vasitəylə din yasaqlandı və dinsizlik təbliğ olundu.






## Elmsizləşdirmə siyasəti

Çində müsəlmanlara qarşı bu siyasət daha dəhşətli aparılmışdır. Buna ilkin olaraq iqtisadi zərbə vurmaqla nail olmuşlar. Kasıbçılıq istər-istəməz təhsilin səviyyəsini aşağı salmışıdr. Təhsil həm Çin dilində, həm də uyğur (türk) dilində aparılır. Çin dilində fəaliyyət göstərən orta məktəblər ən son texnoloji avadanlıqlarla təchiz edildikləri halda, müsəlman məktəblərində adi parta belə tapılmır. Çincə fəaliyyət göstərən ali məktəblərdə isə müsəlman əhalinin cəmi 20 %-i təhsil ala bilir. Digər dərd isə uyğurların əlifbalarının son 30 ildə 4 dəfə dəyişməsidir. Elə Azərbaycan müsəlmanları da əlifba siyasətilə az zərbələr almayıb. Bu yolla nəsillər arasında elmi irs qırılır və millət "köksüzləşir". Yeni nəsillər öz əcdadlarının elmi irsindən yararlana bilmir və yeni əlifba ilə yazılmış 5-6 kitabdan asılı qalır. Bu 5-6 kitabı oxumuş tələbəyə ali məktəb diplomu verilsə nə olar, verilməsə nə olar?

1949-cu ildə Mao hökuməti 35 milyon müsəlmanı qətlə yetirdi. Canlarını qurtaranlar isə işgəncələrə məruz qaldı. Bəziləri diri-diri basdırıldı, öküzlərə bağlanaraq iki yerə parçalandı, çılpaq halda qar üstə işgəncələrlə üzləşdilər. 1995-1997-ci illərdə 560 000 müsəlman səbəb göstərilmədən həbs edildi, öldürülən və itkin düşənlərin sayı isə 5000 nəfərdən artıqdır.

1997-ci ildə daha bir mənəvi terror baş tutdu. Qədr gecəsi münasibətilə gecə məsciddə əhya saxlayan 30-dan artıq qadın döyülərək həbs olundu. Məhəllə sakinləri qadınların azad edilməsi xahişi ilə milis şöbəsinə müraciət etdikləri vaxt onlara qadınlardan üçünün meyitləri verildi. Bundan sonra əhali ilə çinlilər arasında qarşıdurma olmuş və iki gün ərzində 200 uyğur həlak olmuş, 3500-dən artıaq insan həbs edilərək düşərgələrə yola salınmışdır. Elə həmin il məscidlərdə bayram namazı qadağan edildiyi üçün yenidən qarşıdurma alovlanmış, düşərgələrdə işgəncəyə məruz qalan insanların sayı 70 000-ə çatmış, 100 nəfər gənc meydanlarda güllələnmişdir.

Bununla bərabər ərazidə aparılan nüvə sınaqları nəticəsində yaranmış radiasiyanın 210 000 insanın həyatına son qoyduğu bildirilir. Hər zamankı kimi qərb mətbuatı susur, müsəlmanların isə əllərindən bir iş gəlmir. Çünki müsəlmanlarda vəhdət yoxdur. Bu qətliamlar gedə-gedə müsəlmanlar 1400 il bundan əvvəl xilafətə Əlinin ya Ömərin daha layiqli olmasının davasını aparır. Bu başıboşluğun nəticsəində müsəlman qiymətsiz və dəyərsiz heyvan kimi öldürülür. Hətta 210 000 baş çöl heyvanı belə qətlə yetirilsə, bütün

dünya bir-birinə qarışar, mitinqlər keçirilər, beynəlxalq tribunal işə qarışar. Amma müsəlman öldürülsə, eybi yoxdur. Həqiqətənmi müsəlmanlar bunun səbəbinin vəhdətin yoxluğunda gizləndiyini bilmirlər?

## Əlcəzair

Osmanlı imperiyasının süqutundan sonra Fransa Əlcəzairi işğal etdi və 132 il əsarətdə saxladı. Bu illər ərzində azadlıq mübarizəsi bir nəticə vermədi. Bütün üsyanlar yatırıldı və müstəmləkə zor gücünə saxlanıldı.



## Elmsizləşdirmə siyasəti

Əlcəzairdə bu siyasət daha kəskin və yeknəsək olaraq yerinə yetirilib. Təhsil tamam ləğv edilib və ərəbcə danışmaq yasaqlanıb. Vətəndaşlara yalnız fransızca danışmağa icazə verilib. 132 il ərzində müsəlman xalqın təhsil baxımından nə vəziyyətə gəldiyini artıq özünüz düşünün.

İkinci dünya müharibəsində Fransa faşistlər tərəfindən işğal olundu və Əlcəzair faşistlərin hökmranlığına keçdi. Bunlar da öz növbəsində gözədəyən vətənpərvərləri bacardıqları qədər qırdılar. Faşizmin süqutundan sonra müstəqillik həvəsinə düşən müsəlmanlar 1945-ci il 8 may bayram tədbirlərində Cəzir bayrağı qaldırdılar və meydan fransız əsgərləri tərəfindən qətliam yerinə çevrildi. Bu hadisədən sonra hiddətlənən əhali müqavimətə başladı və 45 000 müsəlman qətl edildi. 1954-cü ildə bunun davamı olaraq yenidən xalq ayağa qalxdı. Nəticədə 1958-ci ildə Qahirədə Əlcəzairin müstəqilliyi elan olundu. Strateji cəhətdən əlverişli, neft və qaz yataqları baxımından zəngin olan bu torpaqları fransızlar belə asanlıqla tərk edə bilmədilər. Yeni kütləvi qırğınlar başladı. Fransız əsgərləri kəndləri tamamilə

yandırıb çıxırdılar. Nəhayət, 1962-ci ildə Fransa atəşkəs elan etdi və ölkə müstəqilliynə qovuşdu. Necə qovuşdu? 1.5 MILYON ŞƏHİD VERƏRƏK!

## Müstəqillik dövrü və Fransa zülmünün davamı

Fransanın Əlcəzairin müstəqilliyini tanıması əslində formal xarakter daşıyırdı. Milli Qurtuluş Cəbhəsi adlanan yerli hökümət əslində müstəmləkəçilik dövrünün modernləşmiş variantı idi. Fransaya kölə olan bu "hökümət" 1962-ci ildən əvvəlki rejimlə çox da fərqlənmədi. Qərblə əlbir olan yerli hökümət milli şəxsiyyətini satmaqla birlikdə, neft-qazı da sataraq varlandı və xalq səfil vəziyyətə düşdü. 1990-cı ilin statistikasına nəzər salanda işsizliyin 70%-ə çatdığını görürük. Xalqın səbri tükəndikcə etiraz dalğaları ölkəni bürüdü və xalqın təzyiqi nisbi nəticə verdi. Hökumət çoxpartiyalı sistemə keçdi və 1991-ci ildə seçkilər keçirildi. Seçkilərdə İslami Qurtuluş Cəbhəsi böyük üstünlük qazansa da kürsüyə otura bilmədi. Ölkədə ordunun əli ilə qarışıqlıq yaradıldı. Bununla da vətəndaş müharibəsinin bünövrəsi qoyuldu. İlk vaxtlarda güc tətbiqindən çəkinən İslami Qurtuluş Cəbhəsi sonsuz zülmlərdən və tərəfdarlarının qırğınlara və işgəncələrə məruz qalmasından sonra silaha əl atdı. Bu zaman ordu vəziyyəti pisləşdirmək üçün çox iyrənc üsullara keçdi. Məsələn, siyasi proseslərə heç bir dəxaləti olmayan vətəndaşların evlərinə hücumlar təşkil edilir və dinc sakinlər atəşə tutulurdu. Qərb mətbuatının (The Observer) məlumatına görə, generalların seçkini boykot etdikdən sonra 1997-ci ilə qədər qətlə yetirdikləri dinc sakinlərin sayı 80 000-dən artıq olmuşdur.

Qərbin qurduğu terror teatrı Əlcəzairdə bu gün də səhnələrdədir. Yalançı müstəqillik və şərəfini satmış bir qrup siyasi xadim hələ də qərbin aktyorlarıdır. Bir aktyor da səhnələrə təzə gəlib: özündən başqa hamını kafir bilən radikal "islami" qruplar. Onlar, bütün müsəlman ölkələrində olduğu kimi, Əl-cəzairdə də qərbin dəstəyi ilə formalaşmış və onların mənafeyinə qulluq edirlər. Dinc camaatın isə zülmdən xilas olmağı müsəlmanların güclənməsindən, yəni vəhdətindən asılıdır.

## Tunis

Tunis İslamın gəlişinin ilk vaxtlarında müsəlman olmuşdur. Osmanlı İmperiyasının dağılması ilə acgöz Avropa müstəmləkəçilərinin, hollandlar, portuqallar, ingilislər və nəhayət fransızların bura "cummasına" səbəb olmuşdur. Nəhayət, Tunis 1881-ci ildə Fransa tərəfindən işğal edildi. Lakin tunis Əlcəzair deyildi. Burada İslami maariflənmə və təhsil inkişaf etdiyi üçün idarəetmə o qədər də asan deyildi. Əvvəlki dövrlərdə "ali komissarlar" deyilən məmurların vasitəsilə idarə olundu. Bu dövrdə müsəlman dünyagörüşlü ziyalıların kəskin müqavimətilə üzləşdilər və hamısını qan bahasına yatızdırdılar. Bu gedişatla Tunis müsəlmanını sakitləşdirə bilməyən fransızlar müqəvva hökümət variantına əl atdılar. Müqavimət hərəkatında fəal olan partiyalardan birini öz tərəflərinə çəkərək iqtidara gətirdilər və 1956 -cı ildə özləri bölgədən çəkildilər. Xalqın gözündə qəhrəman halına gətirilən Bəbib Burgiba isə ölkə başına gəldi. Camaatın ümidləri puça çıxdı və Böyük

Fransa Lojasının ustad masonu olan Burgiba Fransanın dədəsinə rəhmət oxutdurdu.

## Elmsizləşdirmə siyasəti

Tunis elm və təhsil baxımından çox inkişaf etmiş bir müsəlman torpağı idi. Burada fəaliyyət göstərən təhsil ocaqlarının sayı-hesabı məlum deyildi. Burgiba hökuməti ələ alandan sonra bütün islam yönümlü təhsil mərkəzlərini bağlatdırdı. Hətta Misirin "Əl-Əzhər" Universiteti səviyyəsində olan və Tunisin remzi sayılan Zeytuno Universiteti də bu aqibəti yaşadı. Zeytuno Universiteti tak Tunisin deyil, bütün Şimali Afrikanın həyat mənbəyi idi və bundan sonra bölgə mənəvi ölümə sürükləndi. Bununla belə, məscidlərin də maarifləndirici fəaliyyətinə xitam verildi və yalnız namaz vaxtları girişə icazə verildi. İbadət əhli olan ziyalılar müxalif adı ilə həbslərə və işgəncələrə məruz qaldılar. Fransa Böyük Lojasınım tulası olan Burgiba Ramazan ayında mavi ekranlara çıxaraq içki içməyə başladı və orucun iş qabiliyyətinə zərər vurması bəhanəsilə oruc tutmağı yasaqladı. Eyni zamanda həcc ziyarətinə də bahalı olması adı ilə qadağa qoydu. Fələstin haqqında məlumat yayılmasını və fələstinlilər üçün dua edilməsini də yasaqladı.

## Zeynəlabidin bin Əli dövrü

Müsəlman dünyagörüşlü insanlara bəzi azadlıqlar verməklə onları tərəfinə çəkən Zeynəlabidin bin Əli qocalmış hökmdarı dinc yolla tarixə gömdü. Hökümətini mökəmlədən kimi yenə də islami kəsimin qara günü başladı. Dövləti polisləşdirən bin Əli hər yüz nəfər vətəndaşa bir polis məmuru təyin etdirdi. Lakin 1969-cu ildən formalaşan İslami Müqavimət Hərəkatı buranın özünəməxsus sərvətidir. Bu od sönən deyil. Tunisin özünəməxsusluğu nəticəsində bura ərəb baharının beşiyi oldu və bin Əli yekunda ölkədən qaçdı. Lakin reallıqları nəzərə alsaq, bu baharın də müsəlmanlara xeyir gətirəcəyinə inanmaq sadəlöhvlük olar. Müsəlmanlarda fikir və güc birliyi olmadıqdan sonra, islam düşmənləri bir teatra son verər, digərinin açılışı üçün bilet satmağa başlayarlar. Fikir birliyinin yaranması üçün bütün müsəlman məmləkətlərində olan ziyalılar yorulmadan fəaliyyət göstərməli və bədbinliyə qapılmamalıdırlar. Çünki düşmən güclüdür. Gözləmədiyin anda etibar etdiyin bir siyasi xadimi və ya bir islam alimini sənin əleyhinə qaldırar. Yolu isə sadədir: "Siyasi xadim səni asanlıqla vətən xaini, din xadimi isə, kafir, zındıq və ya münafiq elan edər. Ona görə də vəhdət fəlsəfəsi, qəlbimizdə haqdan kənar olan hər növ bütləri sındırmaqla və əzmlə islam cəmiyyətinə tətbiq olunmalıdır.

## Efiopiya və Eritreya

İki əsr müddətində Osmanlı imperiyasının tərkibində olan Eritreya imperiyanın dağılmasından sonra Avropanın istismarına məruz qalmışdır. İkinci dünya müharibəsindən sonra Avropa müstəmləkəçiləri tədricən bölgədən çəkilmiş və yenə Avropaya bağlı yerli hökumətlər qurulmuşdur.

Eritreya böyük iqtisadi və strateji əhəmiyyəti olan ərazidə yerləşir. Qırmızı dənizin sahilində yerləşən bu ölkə Babülməmdəb boğazına nəzarət

etmək, yəni Aralıq dənizi ilə Hind okeanı arasındakı bütün su yollarına sahiblik etmək iqtidarındadır. Bununla bərabər, qızıl və digər faydalı qazıntılarla zənginliyi Eritreyanı diqqət mərkəzində saxlayır. Eləcə də Efiopiyanın Qırmızı dənizə çıxışı yalnız Eritreya üzərindəndir. Digər xüsusiyyəti isə əhalisinin müsəlman olmasıdır. Artıq söhbətin nədən getdiyi hamıya məlum oldu. Əgər müsəlmansansa və ölkən belə zənginliklərlə məhşurdursa, deməli müstəqilliyə həsrət qalmalısan və daim zülmdə yaşamalısan. Bu iştaha heç bir islam düşməninin qursağında qalmayacaq. Çox təəssüf ki, sayının çoxluğuna baxmayaraq, müsəlmanı harda əzsən, heç bir müsəlman ona qeyrət çəkməyəcək. Çünki əziləcək bu müsəlman başqa məzhəblidir və ölümə məhkumdur. Çünki islam dininin alimləri minbərdən deyirlər ki, bizim məzhəbdən başqa məzhəbə məxsus müsəlmanlar cəhənnəmə gedəcək. 72 məzhəbin içərisində haqq məzhəb bizik, qalanı batildir. Şeytanın şəxsən öz dilindən olan bu hədis bu gün də İslam peyğəmbərinə istinad edilir. Islamda təriqətlərin yüzlərlə olması hələ bu müsəlmanlara bu hədisin uydurma olduğunu sübut etməyib. Bu gün və ya sabah yəqin ki, satanistlər bu hədisin yeni variantını qondaracaqlar: "Peyğəmbər 720 firqə deyibmiş, lakin ravi hədisi yazanda sıfır yadından çıxıb."

Elə bu cür xürafi hədislərin nəticəsində müsəlman öz din qardaşının qeyrətini çəkməmiş və tarix boyu ölümə məhkum etmişdir. Eritreyanın da misalı fərqli deyil. Osmanlıdan sonra ölkəni bir müddət italyanlar çapıb-taladı. Sonra isə BMT 1952-ci il qərarı ilə Eritreyanı Efiopiyanın tərkibinə verdi. Xalqın etirazları bu mədəni işğalı 10 il yubatdı, amma nəticə dəyişmədi. Efiopiya buranı işğal etdi və müsəlmanlar bir az da ağır vəziyyətə düşdülər. İmperator Hayle Selassie müsəlmanlara divan tudu. Ötən əsrin 70-ci illərinə qədər zülm əlindən qaçan müsəlmanların sayı yüz minlərlə ölçülürdü. Bundan sonra da 200 000 müsəlman aclıqdan qırıldı. 1974-cü ildə Selassie çevrilişə qurban getdi və yerinə Mengistu adında növbəti yezidsifət oturdu. Ölkə əhalisinin böyük hissəsini qırğına məruz qoyan Mengistu, 10 000 məscidi yerlə-yeksan etdirdi, 750 000-ə yaxın müsəlman Sudana və Somaliyə qaçdı. 1991-ci ildə Mengistunun da dövrü bitdi. Müsəlmanlardan isə aşağıdakı statistik göstəricilər qaldı:

1) 45 000 nəfər yetim uşaq
2) 60 000 əlil uşaq
3) 750 000-dən artıq qaçqın
4) 80% əhali aclıq səviyyəsində
5) Orta ömrü - 46 yaş

## Efiopiyanın bu cinayətlərdəki muttəfiqi

Çox maraqlıdır, Efiopiya bu qədər dəhşəti dünyanın gözü önündə necə gerçəkləşdirirdi və Efiopiyanın anti-islam müharibəsində çox güclü müttəfiqi kim idi? Bəli, əlbəttə ki, İsrail! Bunu biz demirik! İsrail Hayfa Universitetinin müəllimi Prof. Hallami "İsrail kimi və niyə silahlandırır"

kitabında İsrailin dəstəyini açıq-aydın sübutlarla qeyd etmişdir. Professor kitabının 52-ci səhifəsində yazır: "Bu ittifaqın arxasında yatan ideoloji əsas, efiopiyalıların israilliləri də özləri kimi müsəlman dənizinin içərisində özünü qorumaq istəyən cəsur xalq olaraq görmələri idi."

İsrail Efiopiyaya müsəlmanları qırmaq üçün hər növ köməyi göstərmişdir: ordunu silahlandırmış, ölkədə öz hərbi bazalarını yaratmış, lazımi kəşfiyyat məlumatları ilə təmin etmiş, hərbi təlimlər üçün İsraildən zabitlər cəlb etmiş, 3100 nəfərlik "təcili Yardım Polisi" adlı xüsusi təyinatlı dəstə təşkil etmiş və iki adaya İsrail donanmasının döyüş gəmilərini cəlb etmişdi. Bu birgə zülmlər 1993-cü ilə qədər davam etdi. Xalq güclü müqavimət göstərərək Efiopiyanın tərkibindən çıxdı. Lakin müstəqil ölkənin başına keçən növbəti yezidsifət Afevorqi dindar müsəlmanlara divan tutmağa başladı. Dağlara çəkilən dindarlar silahlanmağa məcbur oldular və vətəndaş müharibəsi başladı.






## Elmsizləşdirmə siyasəti

Afevoirqi bu siyasəti 3 istiqamətdə apardı:

1) Məktəblərin bağlanması
2) Olan-qalan məscidlərin dağıdılması
3) Rəsmi dil olan ərəb dilinin ləğv edilməsi

Bundan sonra bir az da "quduzlaşan" diktator Yəmən, Cibuti və Efiopiya ilə münasibətləri müharibə həddinə qədər gərginləşdirdi və nəhayət Efiopiya ilə müharibə başladı. 2000-ci ildə sülh bağlayan tərəflər on minlərlə insanın məhvinə səbəb oldular. Şəhərlərin infrastrukturu məhv oldu və insanlar aclığın qoynunda sahibsiz qaldılar. Maraqlıdır ki, hər iki tərəfin silah təminatını ABŞ və İsrailin şirkətləri ödəyirdi. Bu şirkətlərə hər iki ölkə 1 milyard dollardan artıq vəsait ödəmişdi, halbuki, əhali acından qırılırdı.

Bu gün də Eritreyada vəziyyət ürəkaçan deyil. Eyni represiyalar, aclıqlar, sorğu-sualsız edamlar davam edir. Biz dünyanın ədalətindən çoxdan əl üzmüşük. Bəs dinlərin ən gözəlinin İslam olmasilə fəxr edən müsəlmanlar hardadırlar? Namazın qolları bağlı və ya açıq, möhürlə və ya möhürsüz qılmağın davası "ya Allaaaaaah!" deyə fəryad edən məzlumların səsinə qarşı bizi kar edib. O qədər bədbəxt insanlarıq ki, siğənin halal və ya haram olmasına görə bir-birimizi qırdığımız halda, din qardaşlarımızın faciəsini eşitmək belə istəmirik. Biz hələ Cəməl, Siffeyn, Kərbəla kimi müharibələrin

günahkarlarını müəyyən edə bilməmiş və hələ ötən eranın mübahisələrini aparırıq. Öz zəmanəsində açıq-aydın islam düşmənləri tərəfindən öldürülən milyonlarla müsəlmanın qeyrətini çəkə bilməyənlər, 1400 il bundan əvvəlki və zəmanənin burulğanında yüz cür təhriflərə məruz qalan tarixi məsələlər üçün bir-birlərini kafir elan edirlər. Sanki, dünyada müsəlman qanı içən kafir azmış kimi.

## Çad

Çadın da vəziyyəti digər Afrika ölkələrindən geri qalmır. Eyni ssenari, eyni teatr. İllərlə davam edən fransız yağmalaması və bitib-tükənən sərvətlər. Bunun ardıyca yalançı müstəqilliklər və yağmanın davam etməsi, eləcə də, milli-dini-mənəvi dəyərlərin tapdalanması. Müstəmləkəçilikdən sonra “Müqəvva hökumətlər" və hakimiyyətə gələn "mason-müsəlman" liderlərin inanclı təbəqəyə divan tutması elə Çada da aiddir.

XI əsrdə İslamla şərəflənən Çad, XVI əsrdə bölgənin ən zəngin və inkişaf etmiş ölkələrindən idi. Fransızların işğalından sonra Çadın tənəzzülü başladı.



## Elmsizləşdirmə siyasəti

Fransa işğaldan sonra o zamanadək bütün Avropada məhşur olan müsəlman elmi ilə döyüşə çıxdı. Bütün kitabxanalar, mədrəsələr, digər tədris müəssisələri, dini cəmiyyətlər, Quran kursları və məscidlərin fəaliyyətinə xitam verildi və müəssisələr dağıdıldı. Müəllimlər, məscid imamları, tələbələr, ziyalılar represiyalara məruz qaldı: bəziləri şəhid oldu, bəziləri həbsə atıldı, digər qismi isə çöllərə və dağlara qaçdılar. Yeni məktəblər açıldı və yalnız fransızların uşaqlarına tədris olundu. Eləcə də səhiyyə müəssisələri yalnız fransızlara xidmət göstərirdi.

## Müstəqillik və əsarətin davamı

1960-cı ildə Çada müstəqillik verildi və xristian olan Tombalbaye ölkəni ələ aldı. Buna etiraz edən ziyalılara divan tutuldu. Misirli yazıçı İ. Xəlil "Afrika Dramı" adlı kitabında yazır: "...22 Mart 1963-cü ildə hökumətdə dəyişiklik edilərək bütün müsəlman nazirlər işdən çıxarıldı və yerlərinə qeyi-müsəlmanlar qoyuldu. Xarici işlər naziri sürgün edildi, eyni gün ölkə başçısı tərəfindən Baş hakim, Baş nazir, ədliyyə naziri, Vətən Dərnəyinin başçısı və bir çox tanınmış şəxsin həbsi üçün göstəriş verildi."

## Vətəndaş müharibəsi

1975 ci ildə Tombalbaye sui-qəsd nəticəsində öldü. Lakin vəziyyət gərginləşərək 5 il sonra vətəndaş müharibəsinə səbəb oldu. Bu müharibə müsəlmanlarla xristian və digər qeyri-musəlman qəbilələr arasında gedirdi. Lakin kənardan müdaxilə öz sözünü deyirdi. Qeyri-müsəlmanlar Sovet istehsalı olan silahlarla silahlandırılmışdı. 1983-cü ildə İsrail zabitləri Həbrə qüvvələrinə köməyə gəldilər. Həmin il Ariel Şaronun Çada gəlməsini prof. Hallahmi Çad müharibəsinə olan müdaxiləni gücləndirməsilə izah edir.

İllərlə davam edən bu müharibə və Fransa ilə İsrailin ədalətsiz müdaxiləsi ölkəni viran qoymuşdur. Hələ bundan neçə illər sonra da sərvətləri yağmalanmış, mənəvi dəyərləri sıradan çıxmış Çadın bərpası çətin ki, mümkün olsun. Oradakı müsəlmanların çəkdiyi işgəncələrin isə bir səbəbi var - onlar müsəlmandırlar.

İslam düşmənlərinə sizin hansı məzhəbə, təriqətə aid olmağınızın heç bir fərqi yoxdur. Onların düşməni İslam və müsəlmanlardır. İşin gülməli tərəfi isə budur ki, üzdə bir-birini müsəlman kimi tanıyan məzhəblər belə qəlbən yalnız öz məzhəblərinin ardıcıllarının cənnətə girəcəyinə inanırlar. İslam düşməni sənin din qardaşlarını müsəlman sayır, sən isə yox. Yəqin bilməliyik ki, islamın birliyini istəməyən yalnız İblis və onun nökərləridirlər. Hansı müsəlman da şeytanla həmfikir olub bu parçalanmaya rəvac vermək istəyirsə, buyursun.

## Somali

Somali deyildikdə, hamının gözü önünə gələn acından ölmüş uşaqların simasıdır.

İslamın yaranmasilə müsəlmanlığı qəbul edən Somalinin qara günləri 19-cu əsrdə ingilislərin və italyanların işğalı ilə başlamış oldu. Onlar Somalinin qanını acgöz vampirlər kimi bacardıqları qədər sorub, ölkəni xarabazara çevirdilər. 1960-cı ildə müstəqilliyini qazanan Somaliyə xaici güclər sabitliyin dadına baxmağa imkan vermədilər. 9 il sonra kommunist dövlət qurmaq istəyən "yezidsifət" general Barrə çevriliş edərək bütün partiyaları bağlatdırdı. Diktator komunizmə müxalif güc olaraq islami düşüncəni yox etmək qərarına gəldi. İslam yönümlü bütün mətbu orqanların fəaliyyətini dayandırdı və islam təfəkkürlü ziyalıları və alimləri məhv etdirdi.

1991-ci ildə vətəndaş müharibəsindən canını qurtaran Barrə aradan çıxdı. BMT Somalidə sabitliyi təmin etmək üçün ABŞ-a məxsus 30 000 nəfərlik



şəxsi heyəti olan bir hərbi baza qurdu. Lakin yerli xalqın müqavimәti nəticəsində 1994-cü ildə baza ləğv edildi. Bu baza 7000 nəfərin ölümünə səbəb olmaqla birlikdə, vəziyyəti bir az da gərginləşdirdi.

BMT-nin məlumatlarına əsasən, hazırda 8 milyon əhalinin 75%-i aclıq çəkir. Ədən körfəzi kimi strateji mövqeyi olan Somaliyə dəniz yolundan istifadə üçün heçnə ödənilmir. Gəmilərin yolunu kəsib haqlarını almaq istəyənlər isə "dəniz quldurları" adı ilə məhv edilir. Dünyanın müxtəlif yerlərindən göndərilən yardımlar barədə xəbərlər də ya kökündən yalandır, ya da müxtəlif təşkilatlar tərəfindən yeyilir. Çünki o insanları aclıqdan çıxarmaq dünyanın super gücləri üçün dondurmapulu səviyyəsindədir.

## Cibuti

Cibuti Efiopiya, Eritreya və Somali ilə qonşu olan kiçik bir ölkədir. Süveyş kanalının istifadəyə verilməsi və bölgənin geostrateji əhəmiyyətinin artması Cibutinin qara günlərinin başlamasına səbəb oldu. Buranın da digər Afrika ölkələri kimi ən böyük dərdi vətəndaş müharibələri olub. Amma Cibutida müsəlmanların İslama olan xəyanətlərindən çox vacibini görəcəksiniz. Belə ki, Somali əsilli müsəlmanlarla yerli müsəlmanlar arasında etnik zəmində olan müharibə hər iksinin bədbəxtliyinə səbəb olub. Somali əsillilər Somaliyə, digər etnik qrup olan afarlar isə Fransaya birləşmək istəyirdilər. Fransanın da dəstəyilə 1967-ci ildə referendumun nəticələri Fransanın xeyrinə oldu. Referendumdan sonra atışmalar başladı. Bu atışmaların qarşısını almaq adıyla Fransa ordusu ölkəyə daxil oldu və xalqın böyük bir hissəsi qətlə yetirildi, sürgün olundu.

1977-ci ildə növbəti referendum keçirildi və xalq müstəqilliyə səs verdi. Bax, bu yerdə Azərbaycanda məhşur olan "müsəlmanın sonrakı ağlı" məsəli yadıma düşdü. Əvvəlcə etnik mənsubiyyətinə görə öz din qardaşı ilə kəllə-kəlləyə gələrək ölkənin işğalına səbəb oldular və vətənləri xarabazara çevrildi. Hər şey məhv olandan sonra müstəqillik yadlarına düşdü. İslamda

etnik ayrıseçkilik haram olduğu halda, müsəlmanlar öz bədbəxtçiliklərinə səbəb olan bu tipli millətpərəstlik davalarından çox əziyyətlər çəkiblər. Etnik ayrıseçkiliyinin İslama nə qədər zərbələr vurduğunu sonrakı fəsillərdə qeyd edəcəyik. Yeri gəlmişkən Cibutini misal çəkdik.

Cibuti müstəqlliyini elan etsə də, firavan bir ölkə halına gələ bilmədi. Xalq aşağılayıcı işgəncələr və həbslərdən daim əziyyət çəkdi. Milli ordu olmadığı üçün Fransa ordusundan asılı vəziyyətdədirlər. Müstəmləkəçiliyin və vətəndaş müharibəsinin vurduğu zərbələr xalqın aclıq və səfalətdə yaşamasına səbəb olub. Amma əsl səbəb islami vəhdətin olmamasıdır. Əgər etnik ayrıseçkilik bir tərəfə atılsa və onlar "la ilahə illəllah" bayrağı altında birləşsəydilər, sözsüz ki, belə ağır vəziyyətə düşməyəcəkdilər. Eləcə də İslam aləmində vəhdət olsaydı, Fransanın siyasi oyunlar oynamağa cürəti belə çatmazdı.

## Sudan



"Parçala, hökm sür!" siyasətinin növbəti qurbanı Sudandır. Ölkə müsəlman ərəblərdən və xristian afrikalı tayfalardan ibarətdir. 1960-cı ildə bu iki qrup nədənsə bir-birlərinə düşmən oldular. Hansısa görünməz əl Sudanda vətəndaş müharibəsi başlatdı. Müsəlmanlara qarşı xristianların "Anya-nya" adlı qruplaşması mübarizə aparır. 1989-cu il müsəlmanların hökumətə gəlməsindən sonra bu mübarizə "gizli əlin" müdaxiləsilə bir az da şiddətləndi. Prof. Hallahmi "The İsraeli Connection" kitabına bu "gizli əlin" İsrail olduğunu bildirir. "Anya-nya" qruplaşmasına dəstək verən Mossad qonşu dövlətlərin ərazisindən silah yardımı və hərbi kadrların hazırlanması barədə kömək etmişdir. 1970-ci ildə Uqandanın Sudanla olan sərhəddindən silah keçirmək üçün Uqanda ilə razılıq əldə etdilər. 1989-cu il "Müsəlman Qardaşları" hökümətə gəldi və ölkəni İslam qanunları ilə idaretmə başladı. Buna müvafiq olaraq, "Anya-nya" Sudan Xalq Qurtuluş Ordusu adı altında yenidən formalaşdırıldı və fəliyyətə başladı. Sülh danışıqları üçün islam

qanunlarının qanunvericilikdən çıxarılmasını şərt olaraq irəli sürdülər. Bu qəbul edilməyincə, münasibətlər daha da gərginləşdi. Dünya müsəlmanları hələ də hansı məzhəbin haqq olması və kimin Cənnətə gedəcəyinin davasını apardığı halda, islam düşmənləri yekdilliklə Sudanı terrorçu ölkə elan etdilər. Halbuki, bütün müsəlman ölkələri terrordan əziyyət çəkdiyi halda heç kim təcavüzkarlara terrorçu demir. Məsələn, Azərbaycana olan terrora görə heç kim Ermənistanı terrorçu dövlət elan etmir. Qərbin hər yerdə insan haqları axtaran gözü, Qarabağdakı müsəlman qırğınına qarşı kordur. Sudan "Müsəlman qardaşları" partiyasının sədri, fransa Sorbon Universitetinin məzunu olan Əl-Turabi iqtidara gəldikdən sonra yeni islahatlara başladı. Nil çayından kanallar çəkildi, SES-lər inşa edildi və ölkə enerji ilə tam təmin olundu. Yeni kanalların hesabına 1.5 mln hektar sahə əkin yeri olaraq işlədilməyə başlandı. Lakin qərbin embarqosu nəticəsində əldə edilən məhsullar xarici bazara çıxarılmadı. Bu siyasət bu gün də Sudana tətbiq olunur. Bundan əlavə Qərbin şeytani siyasəti nəticəsində Əl-Turabidən sonra hökumətə gələnlər ərəb millətçiliyini önə çəkməyə başlamışlar. Bu da hökümətin islami yönünə zərər vermişdir.

## Əfqanıstan

Əfqanıstan barədə bir çoxumuzun məlumatı var. Əfqanıstanda bir ailəni xoşbəxt təsəvvür etmək mümkün deyil. Bu xalqa ilk zərbəni müasir dövrümüzdə 1979-cu ildə Sovet İmperiyasının "qızıl ordusu" vurdu. 10 il işğalda olan ölkədə kommunizm qurulmağa başlandı. Milli-mənəvi dəyərlər yükünü çiyinlərində daşıyan ziyalı təbəqə vəhşicəsinə məhv edildi. Bu faktı qeyd etdikdən sonra başqa sözə ehtiyac qalmır. Ziyalısı qətl edilmiş millətin gələcəyi barədə nə danışmaq olar? Belə xalq mənən ölür və insan yığınına çevrilməyə başlayır. Ona görə də bu bölümdə elmsizləşdirmə siyasətindən söz açmağa ehtiyac duymadıq.

Əhalisnin 99%-i müsəlman olan Əfqanıstan tarix boyu İslama olan yaxınlığı ilə seçilib. Hətta burda olan möminləri İslam Peyğəmbəri bir hədisində Allahın xəzinələri kimi təqdim edib. Bunu yaxşı bilən Sovet İmperiyası kommunizmi qurduğu ərəfədə qonşuluğunda belə bir ölkə istəmirdi. Bu müharibədə əlindən gələni əsirgəməyən Sovet İmperiyası əfqanlara sözün əsl mənasında, dağıdıcı zərbə vurdu. Sovet ordusunun tərkibində Əfqanıstanda qulluq etmiş azərbaycanlılar da, rusların törətdiyi vəhşiliklərin canlı şahidləridirlər. Bu döyüşlərdə xəritədən silinən kəndlərin sayı-hesabı bilinmir. Lağman vilayətinin bütün əhalisi öldürülmüşdü. Işğalçılara müqavimət göstərən dəstələri məhv etmək adı ilə kəndlərdə dinc əhali diri-diri tanklarla əzilir və ya yandırılır, qadınlar zorlanılır, su quyularına zəhər tökülür, kəndlərdə təsərrüfatlar dağıdılır, meyvə ağacları yandırılır və bütün mülkiyyət qəsb edilirdi.

SSRİ Əfqanıstanı həm maddi, həm də mənəvi baxımdan viran qoyduqdan sonra ölkədən çəkildi. Bura dünyada ən çox protez əl və ayaq istifadə edilən ölkəyə çevrildi. 1979-90-cı illərdə ölkəni tərk edən qaçqınların sayı 17 milyondan artıqdır.




İşğaldan sonra daimi xaos içərisində yaşayan Əfqanıstan qərbin kəşfiyyat orqanları tərəfindən yetişdirilən radikal “Taliban" qruplaşmasının hakimiyyətinə keçdi. İslam adı ilə zülmlər həyata keçirən və ağlasığmaz qanunlar tətbiq edən "Taliban" öz xalqının vəziyyətini pisləşdirdiyi kimi dünya xalqlarını da İslam dinindən iyrəndirməyə başladı. "Taliban" elə qərb dünyasının radikal islam layihəsindən başqa bir şey deyildi. Bu layihəyə əsasən, həm İslama dünyada mənfi imic qazandırmaqla yüz milyonlarla müsəlmanlıq həvəsində olan insanları fikrindən daşındırmaq və islama olan simpatiyanı antipatiyaya çevirmək, həm də müsəlman ölkələrini işğal etmək üçün süni bəhanələr yaratmaq nəzərdə tutulmuşdu. Bu süni bəhanələrlə qərbdə yetişdirilmiş sülhməramlı qüvvələr adlanan “adamyeyənlərin" antiterror əməliyyatları həyata keçiriləcəkdi.

Nəhayət, rus işğalından sonra "Taliban" layihəsi uğurla səhnəyə qoyuldu və istənilən effekt verdi. Həm islamı vəhşilik və terror dini kimi təqdim etdilər, həm də Əfqanistanı antiterror əməliyyatları adı ilə işğal etdilər.

2001-ci ilin oktyabr ayında ABŞ və Böyük Britaniyanın “ağsaqqallığı” ilə “Əl-Qaidə” və “Taliban”a qarşı antiterror əməliyyatı adı altında əfqan xalqına olan zülmün növbəti mərhələsi başladı. Əfqanıstan bombalanmağa başlandı. "Taliban" qüvvələri guya müqavimət göstərəcəkdi, amma işğalçıların hərbi hava qüvvələrinin bir “ağcaqanadını" belə vura bilmədilər. Qərb dünyasında istehsal olunan ən yeni silahlar sınaqdan keçirildi. Hərbi əməliyyatlarda ölən dinc sakinlərə gəldikdə isə, ən yaxşı halda ABŞ hərbiçiləri televiziya vasitəsilə üzr istəyirdilər. Minnətli bir tərzdə mütəmadi səslənən "səhvən olub" kəlməsi belə müsəlmanlarda təpər oyatmadı və din qeyrətində olan süstləşməni aradan qaldırmadı. Hər kəs bu müsibətlərin səbəbinin müsəlmanlar arasında olan pərakəndəlik olduğunu bildiyi halda,

yenə də İslami vəhdət mövzusu kinlə dolu qəlblərdən haqqı deməyə lal olmuş dillərə yansımadı. Yenə hamı özünü görməz və bilməz apardı. Lakin insanların fiziki məhvi, şəhərlərin viran qalması və iqtisadiyyatın çökməsi ziyanın az hissəsi idi. Əsl faciə ABŞ-ın Əfqanıstanı dünyanın bir nömrəli narkotik maddələr ixracatçısına çevirməsi oldu. BMT-nin açıqlamasına görə, narkotik və psixotrop maddələrin ticarətindən 1 il ərzində əldə edilən gəlir 2.7 milyard ABŞ dollarından artıqdır. Burda istehsal olunan “zəhər" Rusiyaya və Avropaya daşınaraq satılır. Sözügedən ticarət yolunun üstündə yerləşən vətənimiz də bundan sözün pis mənasında nəsibini alır və bunun qarşısını almaq da, praktik olaraq, qeyri-mümkündür.

Qərbin Əfqanıstanı işğalı 30 000-dən artıq dinc sakinin ölümü ilə nəticələnib və bu itkilər bu gün də davam etməkdədir. Xəstəliklər, səfalət və aclıq ölkəni başdan-başa bürüyüb. ABŞ-ın aclıq çəkən əhaliyə humanitar yardımlar paylaması da, siyasi təbirlə desək, "ikili standartlar", mənim ana dilimlə desək, "Başımı sındır, ətəyimə qoz tök" siyasətindən başqa bir şey deyil. Əfqan müsəlmanları işğal və qaçqınlıq içərisində normal insan kimi yaşamaqdan çox uzaqdırlar. Halbuki, Allah bizi yaratmış və hamımıza yaşamaq hüququ vermişdir. Müsəlmanların öz dinlərindən uzaqlaşmağı, vəhdət və din qeyrətini itirmələri, "yezidsifətlərin" onlara hakim olmalarına gətirib çıxarmışdır. Bu vəziyyətdən çıxışın yalnız islami vəhdət yolu ilə olduğunu dərk edən müsəlman ziyalılar isə, digər məzhəblərə rəğbət və sevgi bəslədiklərinə görə şeytani "din xadimləri" tərəfindən mürtəd elan olunaraq mənəvi cəhətdən təcrid edilmişlər. Fakt faktlığında qalır. Bu gün milyonlarla müsəlman fəryad edərək öz din qardaşlarının köməyini gözləyir. Köməyə gələcək müsəlmanın hansı firqə və ya məzhəbə aid olmağının acından səhərə qədər yatmayan yetim uşaqlar üçün heç bir fərqi yoxdur. İstər əmmamə-əbalı olsun, istər qalstuklu, istər möhürlə namaz qılsın, istərsə də namazda qollarını bağlasın, fərqi yoxdur! Yalnız din qeyrəti olsun və ümmət psixologiyasına sahib olsun. Bax, o zaman yer üzünə dalğa-dalğa yayılmış müsəlman naləsi susa bilər.

## İraq

İraq xalqının faciələri 1968-ci il çevrilişi ilə hakimiyyətə gələn yezidsifət lider Səddam Hüseyn Əl-Tikritinin hökmranlığı ilə başlamışdır. Məzhəb və etnik müxtəlifliyi olan müsəlmanlara zülmü ilə seçilən Səddam, ölkə daxilindəkilərlə kifayətlənməyib, İran və Küveytlə müharibə edərək qonşularına da zülmlər etmişdi. Ölkədəki kürdlər, türkmənlər onun zülmündən kifayət qədər nəsiblərini almışdılar. 5000 kürd müsəlmanı kimyəvi silahla birdəfəlik qırdırmış, İranla müharibədə isə 1 milyon vətəndaşının ölümünə və yaralanmasına gətirib çıxarmışdır. İraq vətəndaşları arasında zülmdən ən çox pay isə şiələrə düşmüşdür. Öldürülən şiələrin statistikasını əldə etmək hələ bu gün də mümkün olmayıb. Zülmdə həddi aşan Səddamın öz qohumlarından da 27 nəfəri öldürtdüyü deyilir. Onun fironsayağı siyasəti qərbdəkilərin İraqı işğalı üçün gözəl bəhanə idi. Ölkədəki kimyəvi silahları təmizləmək və İraq xalqına azadlıq və demokratik



dəyərlərin gətirilməsi adı altında qollar çırmandı. ABŞ və Birləmiş Krallığın ağsaqqallığı ilə çoxmillətli Koalisiya Qüvvələri 2003-cü ilin mart ayında İraqı işğal edərək, bura top-tüfənglə demokratiya ixrac etməyə başladılar. Tez müddətdə işğal başa çatdı və Səddam Hüseyn tutularaq məhkəməyə verildi. Məhkəmə edam cəzası çıxardı və həyata keçirdi. Ölkədə heç bir kütləvi qırğın silahına rast gəlinmədi. Ölkə işğalçılar tərəfindən xarabazara çevrildi. Səddam və ordusunun tez bir müddətdə zərərsizləşdirilməsinə baxmayaraq dinc əhalini qarışqa kimi qırdılar. 2011-ci il dekabrın 31-i son ABŞ əsgəri də ölkəni tərk etdi və müharibə rəsmən bitmiş oldu. Amma bu gözdən pərdə asmaq idi. Əslində İraqın işğalı davam edirdi. Burda oynanan şeytani oyunlar pik həddinə çatmış və bu səviyyədə iyrənc siyasət heç bir müsəlman ölkəsinə tətbiq olunmamışdır. Bu şeytani oyunlar əsas olaraq 3 istiqamətdə oynanmışdır:

1) Məzhəb savaşları. İşğal vaxtı ABŞ-a heç bir maneçilik törətməyən "ingilis istehsalı olan "Əl-Qaidə", "Ənsar əl-İslam" va bu kimi radikal terrorçu qruplar işğaldan sonra qərbin kəşfiyyat orqanları tarafindən kütləvi şəkildə ölkəyə gətirildi. Yaxşıca silahlandırılan bu qrupların əsas məqsədi məzhəb savaşları çıxarmaq idi. Özlərindən başqa bütün sünni və şiələri azğın və dindan çıxmış bilən bu qruplar hər iki tərəfdən qurğular törətməklə onlara tapşırılan işi layiqincə yerinə yetirdilər. Özlərini "Əhli-sünnə vəl camaat" adlandırmalarına baxmayaraq, özlərindən başqa sünnilərin bidətlərə və şirkə düşdüyü qənaətindədirlər. Bu qrupların əqidəsində övliyaların və din böyüklərinin türbələrini ziyarət və şəfaat istəmək şirkdir. Sünni aləminin də böyük əksəriyyəti övliyaullahın türbələrinə ziyarətə getdiyi ve bunu halal saydıqları üçün bunların nəzərində müşrik (Allaha şərik qoşan) sayılırlar. Beləliklə, "amerikanskiy" fətva ilə bütün müsəlmanları zındıq bilən bu qruplar doyunca partlayışlar törətdilər. Bu partlayışlar qərbin informasiya



vasitələrinin "dəyirmanında üyüdülərək" dünyaya təqdim olundu. Strategiya isə çox sadə idi: şiə məhəlləsində və ya məscidində partlayış törədildikdən sonra televiziya məlumat verir: "Bu gün şiələrin kompakt yaşadığı filan məhəllədə, filan məsciddə partlayış olub, ölənlər və yaralılar var. Partlayışı heç bir qruplaşma öz üzərinə götürməyib."

Növbəti gün isə xəbərlərdə deyilir: "Bu gün sünnilərin kompakt yaşadığı filan məhəllədə, filan məsciddə partlayış olub, ölənlər və yaralılar var. Partlayışı heç bir qruplaşma öz üzərinə götürməyib. Bu tip xəbərlər beyində hansı effekti oyadır? Sünnilər şiələri, şiələr də sünniləri öldürüb. Səddam kimi qəddar və yezidsifət liderin zamanında sünni-şiə davası olmayan İraqda birdən-birə intihar partlayışları ənənəsi necə yarandı? Axı, 1400 illik İslam tarixində bu iki qolun heç birində ictimai yerlərdə insanları mühakiməsiz kütləvi qırğına məruz qoymaq və üstəlik özünə də oradaca qəsd etmək ənənəsi olmayıb. Eyni zamanda müxtəlif müsəlman ölkələrində canlı yayımlara ağlaya-ağlaya zəng edən iraqlı "aktyorlar" çıxarıldı. Digər məzhəbin nümayəndələrindən zar-zar nalə çəkərək şikayət edərək insanların hissləri ilə oynamağa başladılar. "Sünnilər bizi qırır və toxumumuzu kəsir", "Şiələr bizim Aişə anamıza pozğun deyir", "Sünnilər bizim imamlarımızı söyür", "Şiələr bizim məscidlərimizi dağıdır" kimi pafoslu sözlərlə canlı yayımlara gözünün və burnunun suyunu axıdaraq çıxan şərəfsizlər bütün dünyanı İraqda məzhəb savaşının olduğuna inandırdılar və sonralar həqiqətən də bu yolla qardaş qanı axıtmağa başlatdılar. Əslində, burda qeyri-adi bir hiylə işlədilməmişdi. Sadəcə, biz müsəlmanlar belə ucuz oyunlara tez inanmış və səhnədə bu oyunların başıboş aktyorlarına çevrilmişik. İşğalçı islam düşməninin əleyhinə birləşmək əvəzinə öz içimizdə düşmən axtarışına çıxmışıq.

2) İraqın əsl işğalı - Geni Dəyişdirilmiş Orqanizmlərin toxumları ilə işğal!

İşğaldan sonra ABŞ-la İraq arasında Paul Bremer tərəfindən hazırlanan 100 maddəlik bir razılaşma imzalandı. Bu sənədin 81-ci maddəsinə əsasən, bitki sortlarının patent haqqı qanunla qorunur. Qanuna əsasən, fermerdən geni dəyişdirilmiş toxumlar almağı tələb olunur və fermer bu toxumları növbəti il istifadə edə bilmir. Növbəti əkin ili fermer toxum üçün yenidən həmin firmalara üz tutmalı olur və beləliklə onlardan asılı vəziyyətdə qalır. Bununla da İraq "Monsanto", "Cargill", "Singenta" kimi Amerikan bio-texnoloji şirkətlərinin azad müstəmləkəsinə çevrilmiş oldu. Geni dəyişdirilmiş orqanizmlərin necə silah kimi istifadə olunmasını növbəti mövzularda əhatə etməyə çalışacağıq.

3) İraqın müflisləşdirilməsi

Bu siyasət ərəb-kürd-türk və sünni-şiə kimi etnik və məzhəbi fərqliliklərlə camaatın başını qataraq neft quyularının ələ keçirilməsindən ibarətdir. Xalqın başını terrorla qatan və "parçala və hökm sür" siyasətini özünə peşə edən qərbin İraqın neftinə sahib çıxdığı artıq heç kimə sirr deyil. Bu yolla özünü varlandırdığı kimi, müsəlmanları da müflisləşdirməyə davam edir. Bunlara "yox" deməyə qeyrəti çatmayan müsəlmanlar da nəinki, daxili etirazla vəhdətə can atmır, digər məzhəblərlə mübarizəni öz dini vəzifəsi sayır. Bu da acizlik və bədbəxtliyin zirvə nöqtəsidir.



## Azərbaycan

Zülmə məruz qalan müsəlman ölkələri arasında Azərbaycanı qeyd etmədən keçmək mümkün deyil. Bu kitab Azərbaycan oxucusu üçün nəzərdə tutulduğu üçün, bu barədə çox da geniş və əhatəli yazmağa ehtiyac yoxdur. Çünki hər bir soydaşımız xalqımızın başına nə zülmlər gətirildiyindən xəbərdardır. Biz yalnız rus-erməni terrorunun bir neçə məqamını yadınıza salmaq istəyirik.




**Ermənistanın hərbi təcavüzü respublikanın 17 min kv.km ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 150 000 evin, 7000 ictimai binanın, 693 məktəbin, 855 uşaq bağçasının, 695 tibb müəssisələrinin, 927 kitabxananın, 44 məbədin, 9 məscidin, 473 tarixi abidələr, saraylar və muzeylərin, 40 000 muzey eksponatlarının, 6000 sənaye və kənd təsərrüfatı müəssisələrinin, 2670 km avtomobil yollarının, 160 körpünün, 2300 km su kommunikasiyalarının, 2000 km qaz kommunikasiyalarının, 15 000 km elektrik xətlərinin, 280 000 ha meşələrin, 1 000 000 ha kənd təsərrüfatı üçün yararlı torpaqların və 1 200 km irriqasiya sistemlərinin dağıdılmasına səbəb olmuşdur.** (http://shamkir-ih.gov.az/az/page/66.html)

Azarbaycan mühitində təbliğ olunmayan çox vacib bir məsələ var. Söhbət gücləndiyi gündən bu günə qədər xalqımıza urcah olan Rusiyadan gedir. Bu ölkə daim məmləkətimizdə gedən bütün proseslərə mütləq olaraq ya aşkar, ya gizlin müdaxilə edib. Son iki yüz ildə azərbaycanlılar arasında dəfələrlə irili-xırdalı represiyalar aparmış, xalqın ziyalılarını, alimlərini, şairlərini, başbilənlarini, canyandıranlarını dəfələrlə qətlə yetirərək mənəvi cəhətdən müflisləşdirmə siyasəti həyata keçirmişdir. Eləcə də İslamla mübarizəyə qalxaraq xalqın dinini əlindən almış və dini təhsili yasaqlamışdır. Çox təəssüf ki, dini tədrisə olan bu yasaq islami maarifçilik ənənələrnin məhv olmasına gətirib çıxarmış və 20 illik müstəqillik dövründə belə bərpası mümkün olmamışdır. 37-ci il represiyalarında ziyalıları tamamilə məhv edərək öz tərbiyəsi ilə yeni nəsil yetişdirməyə başlamışdır. Xalqın mənəvi dəyərlərinə zərbə vurmaqla yeni dəyərlər formalaşdırmağa start vermişdi. Xalqda milli və dini təəssübü yox etməklə, ana dilinə dırnaqarası baxma, rüşvətxorluq, saxtakarlıq, satqınlıq, yaltaqlıq, ruslara qarşı mütilik və ruslaşdırma kimi iyrənc siyasi proseslər altdan-altdan aparılmışdır. Xalqda milli qürur o dərəcədə süstləşdirilmişdir ki, Biləsuvar Puşkinə, Gəncə Kirovabada çevrilmiş, Şaumyan və Razin kimi düşmənlərin

adı yaşayış məntəqələrinə verilmiş, xalqın soyadı belə ruslaşdırılmışdır. Rus dilində danışmağı fəxr bilmək və Arazdan cənubdakı soydaşlara qarşı aşağılayıcı və xor baxışlar yaratmaq da məqsədyönlü olaraq təlqin olunmuşdur. Bu xüsusiyyətləri saymaq bir azərbaycanlı kimi mənə nə qədər ağır olsa da, reallığı qəbul etməli və bu problemlərin həlli üçün çalışmalıyıq. Bakı şəhəri elə bir dövrünü yaşamışdır ki, cəmiyyətdə ana dilində danışanlara aşağılayıcı baxışlarla baxılmış və ana dili kəndçi dili olaraq bilinmişdir. Uşaqları rus təmayüllü məktəblərdə oxutdurmaq fəxr sayılmış və ana dilində iki sözü bir-birinə calaya bilməyən bir neçə nəsil yaranmışdır. Bu gün iyirmi illik müstəqilliyimizi yaşamağımıza baxmayaraq, paytaxt rus dilinin əsarətindən qurtara bilməmişdir.

Xarici dil bilməyin öz-özlüyündə heç bir qəbahəti yoxdur, lakin burda çox vacib bir məqam var. Rus bu xalqın başına gətirdiyi oyunu heç kimin başına gətirməyib. Daim əlaltı tulası olan erməniləri bu xalqa urcah edərək dəfələrlə soyqırımlar törətmiş və tədricən bizim torpaqlarımız sayəsində qulağımızın dibində Ermənistan yaratmış və nəhayət də Qarabağı işğal edərək ermənilərə vermişdir. Rusların müsəlman xalqımıza etdiyi hansı zülmü deyim? Ölkəmizi dəfələrlə işğal etməyinimi, represiyalarımı, erməni soyqırımlarınımı, Xocalınımı, 20 Yanvarımı? Hansını deyim? Bu qədər zülmlərdən sonra Qarabağı da əlində saxlayaraq bizə mənəvi zülm verənlərin dilində danışmağın niyə görə fəxr sayılmağını mən hələ də başa düşə bilməmişəm. Niyə görə bütün bədbəxtçiliklərimizə səbəb olan bu millətin dilini bilməyənlər savadı az olanlar zümrəsində hesab edilsin?












## Qarabağın qaranlığı

Qarabağ müharibəsində azərbaycanlıların nə ziyanlar çəkməsi hamıya məlumdur. Ona görə bundan danışmırıq. Bu bəxtiqara diyarın əsl qaranlıq məqamını sizə açıb demək istəyirəm. O da Qarabağ müharibəsinin dünyada aparılan islamofob hərəkatın və müsəlmanların toxumunu kəsmək siyasətinin bir parçası olmasıdır. Daim erməni-türk savaşı adı altında kiçikləşdirilən bu dava əsl qiymətini ala bilməyib. Avropanın və Rusiyanın sülh danışıqlarında tutduğu ikiüzlü mövqe əslində bu məqamı çoxdan üzə çıxarıb. BMT Təhlükəsizlik Şurasının Ermənistan əleyhinə qəbul etdiyi 4 qətnamə rəflərdə toz basmış kağızdır. Müsəlman ölkəsinə qarşı bircə qətnamə qəbul olunan kimi aləm bir-birinə qarışır. Liviyada Qəddafi aleyhinə qəbul olunan bircə qatnamə NATO-nun, az qala bütün Avropanın silahlı qüvvələrinin ora cummasına səbəb oldu. Liviya kimi ölkəni az müddətdə viran qoyaraq Qəddafini öldürdülər. O bir qətnamə, bu da dörd qətnamə! Hər şey aydındır! Sonda ermənilər islamla yox, türkçülüklə vuruşur deyənlərə Ağdam məscidinin işğaldan sonrakı şəklini taqdim etməklə onları vicdanları ilə tək buraxırıq.





## ƏRZAQ TERRORU

Qida dünyanın ən effektiv silahıdır. Hətta ABŞ prezidenti Kennedi qidanı silah olaraq istifadə etmək barədə açıq çıxışlar etmişdir. Türk yazıçı Kamal Özərin "Daccal tabaqda" adlı kitabında bu məsələlər geniş əhatə edilmişdir. Saxta və öldürcü qidalara neft məhsullarında istehsal edilmiş yağlar, quru süd, şəkərli maddələr, uzun müddət xarab olmayan qənnadı məmulatları, meyvə şirəsi adlanan kimyəvi içkilər, kimyəvi maddələrlə inkişaf etdirilmiş heyvan və quş ətləri və ən vacibi geni dəyişdirilmiş canlılardır. Söhbət əsnasında, bunlardan daha vacibi sayılan uşaq qidalarını və müxtəlif peyvəndləri də unutmamalıyıq. Bunların hər biri ilə insanları, daha doğrusu, xalqları müalicəsi çox çətin olan xəstəliklərə tədricən yoluxdururlar. Bu yolla zəhərlənmələr gen səviyyəsində təsir qoyduğu üçün onları təsiri növbəti nasillərdə görünməyə başlayacaq. Araşdırmalara görə 40 ildən sonra hər yüz ailədən yalnız beşi normal yollarla uşaq sahibi ola biləcəklər. Artıq bu təsir Azərbaycanda hiss olunmağa başlayıb. Gənc ailələrin normal yollarla uşaq sahibi olması hiss olunacaq dərəcədə azalmışdır. Bu ictimaiyyət arasında tez-tez müazkirələrə səbəb olur.



## GMO təhlükəsi

1994-1996-cı illərdən başlayaraq genetika elmi bəşər övladına zahirən ideal olan kənd təsərrüfatı məhsulları taqdim etməyə başladı. Bir müddət insanlar bu məhsulları böyük məmnuniyyətlə istifadə etsə də, bəzi alimlərin işə müdaxiləsi fikir ayrılığına səbəb oldu. Son zamanlar Azərbaycanda da səthi olaraq gündəmə gələn bu məsələ elə səthi olaraq da qarşılanaraq məna dərinliyi qazanmadı.



## GMO nədir və nə məqsədlə yaradılmışdır?

Dilimizdə bunlara Geni Modifikasiya edilmiş Orqanizmlər deyilir. Əslində, İrsiyyəti Dəyişdirilmiş Canlılar (İDC) deyilsə, dilimizə daha uyğun olar. GMO-lar gen mühəndisliyinin məhsuludur. Canlılara Allah tərəfindən verilən proqramı dəyişərək məqsədəuyğun formaya salınması məsələnin mahiyyatini təşkil edir. Bir canlının "nöqsanlı" xüsusiyyətini dəyişmək məqsədilə ona başqa bir canlıdan gen köçürülür. Məsələn, quraqlığa qarşı davamlığı olmayan bir bitkiyə səhra canlılarından lazımi gen köçürülür və bununla da həmin bitki artıq suvarılmadan da məhsul verə bilir. Bir çox canlıların nəsilartırma qabiliyyəti, təbii mühit amillərinə qarşı davamlığı, məhsulvermə müddətinin qısaldılması genlərin dəyişdirilməsi ilə mümkündür. Bu isə iqtisadi cəhətdən böyük səmərə verir, Bunların istehsalına aclıq və qida qıtlığının tarixdan silinəcəyi adı altında başlamışlar. Amma bir xüsus nəzərə alınmadı. Əgər əqrəbin geni buğdaya köçürülürsə, artıq o buğda deyil, başqa bir canlıdır. Bir hüceyrə öz genlərində formulu həkk olunmuş maddələri sintez edir. Başqa gen köçürüldüyü təqdirdə başqa maddələr sintez edəcək. Bu yeni maddələr də özündə minlərlə fermenti əxz edən mürəkkəb hüceyrə mühitində hansı dəyişikliyə məruz qalacaq və insan orqanizminə necə təsir edəcək?

## İnsan orqanizminə ziyanı

Sadalanan səbəblərə görə insana ziyan verməyə bilməz. Dünyanın bir çox yerlərində alimlər tərəfindən aparılan onlarla tədqiqatda ziyanları ortaya çıxır. Artıq bu növ ərzaqların allergik reaksiyalara səbəb olması, antibiotiklərin təsirini, immuniteti va nəsilartırma qabiliyyatini zəiflətməsi şübhə doğurmur. Bəzi satılmış alimlar isə haqqı gizlədərək, hələ ki, ziyanının elmə malum olmadığını qeyd edirlər. Amma bu inkarolunmaz həqiqətdir ki, bu yolla hazırlanmış bitkilərlə həşəratlar belə qidalanmır.



Ziyanvericilər bu bitkilərlə qidalanmadığı üçün mahsuldarlıq bir az da artır. Ən qorxulusu odur ki, bu şeytani qidalar insanın öz genetikasına da xətər yetirə bilər. Elə buna görə da Avropanın 320 məntəqəsi başda olmaqla, İsrail, Avstraliya, Yeni Zelandiya, Kanada və bir çox ölkələr GMO-dan azad zona elan edilib. Qanunvericiliyə əsasən, sadalanan yerlərdə GMO-ların istehsalı və satışı ilə məşğul olmaq cinayatdir. Amma müsəlman ölkələrinə qarşı silah kimi istifadə olunmağına heçbir qadağa yoxdur. Müsəlmanların həm pulunu, həm canını, həm də gələcəyini bu mədəni silahlarla bombalamaq olar.

Nəzərinizə onu da çatdıraq ki, ötən əsrin 80-cı illərində Yaponiya GMO-dan ABŞ-a qarşı silah kimi istifadə edib. Yaponlar bir bakteriyanın genlərini dəyişməklə triptofanın biosontezinə nail olublar. Bu maddədən alınan qida məhsulu müxtəlif yollarla Amerikada satışa buraxılıb. Qısa müddətdə bu qidalardan istifadə insanların sinir sistemində, əzələlərdə və qan dövranında funksional pozğunluqlara səbəb olmuşdur. ABŞ bu böhranı 37 ölü, 155 əlil verməklə yola verdi. Aparılan elmi tadqiqatlar bu xəstəliyin sabəbini ortaya

qoyduğu üçün Yapon firmasının məhsullarının satışına qadağa qoyuldu və minimum itki ilə böhran sona yetdi.

Dünya həkimləri ən çox qarğıdalının təhlükəsi barədə xəbərdarlıq edirlər. Bundan bitki yağı, qənnadı mahsulları, ən çox isə uşaq qidaları hazırlanr. Uşaq qidalarının təhlükəsini BMT-nin Ümumdünya Səhiyyə Taşkilatı da etiraf edib. Körpəsi olan ailələrə xüsusi olaraq xabardarlıq edirik ki, əsas tərkibi zatıxarab qarğıdalı olan və xaricdən ölkəmizə gatirilən uşaq qidalarının əksər hissəsi çox təhlükəlidir. Bu qidalardan dünyanın heç bir sivil ölkəsində istifadə olunmur.

Laboratoriya şəraitində GMO ilə qidalanan siçovullarda isə 3 nəsildən sonra qısırlıq meydana galmişdir.




## Təbiətə ziyanı

Milyon hektarlarla əkin sahələrində becərilən bu bitkilərlə həşəratlar qidalana bilmədiyi üçün bir çox canlı növləri məhv olacaq və ekosistemdə tarazlıq pozulacaq. Eyni zamanda təbii bitkilər rəqabətə davam gətirməyərək səhnədən silinəcəklər. Bu isə təbiətin tədrici məhvi deməkdir.

## Siyasi və iqtisadi asılılıq

GMO-lar iqtisadi cəhətdən çox böyük səmərə verir. Ənənəvi üsuldan istifadə edən fermerin GMO istifadə edən fermerlə rəqabətindən söhbət belə

gedə bilməz. İflasa məruz qalmamaqdan ötrü fermer GMO istifadə etməyə məcbur qalır. Amma burda çox incə və vacib məsələ var. Bu növ canlıların nəsilartirma qabiliyyəti yoxdur. Məsələn, əgər əkinçi bir il insan geni köçürülmüş yüksək məhsuldarlığa malik düyü almışsa, becərdiyi düyülərdən növbəti toxum kimi istifadə edə bilməyəcək. O məcburdur ki, növbəti il yenə də gedib"lənətlənmiş" toxumluqdan satın alsın.

GMO toxumluq olaraq münasib qiymətə kasıb ölkələrə satılır. Ölkələrdə də fermerlər rəqabətə davam gətirmək və yaxud asan varlanmaq üçün kütlavi istehsalla məşğul olurlar. Təbii sort və cinslər isə bu ölkələrdə tədricən aradan çıxır. Çünki artıq onların becərilməsilə heç kim maşğul olmur və bu işdə heç kim maraqlı da deyil. 30-40 ildən sonra yerli sortları itirən və hər ildə yenidən toxumluq alan ölkələr asılı olduqlarını başa düşəcəklər.

Nəzərinizə çatdırırıq ki, genlərin dəyişdirilməsini dünyada ABŞ və İsrailin rəhbərliyi sionistlərdən ibarət 3-4 şirkəti mütəşəkkil formada yerinə yetirir. Daha doğrusu, 95%-i təkcə Amerikanın "Monsanto" şirkətinin payına düşür. Yerli cins və sortları çoxdan itirmiş olan xalqlar növbəti ilin istehsalı üçün ABŞ və İsraildən asılı düşəcəklər. Qida qıtlığından xilas olmaq üçün ya istənilən şərti qəbul etməli, ya da aclıqdan ölməlidirlər. Əgər bir xalqın məhvi nəzərdə tutulsa, elə də olacaq, Heç təsadüfi deyil ki, dünya mətbuatında "İraqın əsl işğalı” adı altında məlumatlar yayıldı. Bu ABŞ əsgərinin işğalı deyil, ABŞ-ın GMO firmalarının öz toxumluqları ilə ölkəyə daxil olması idi.




"Monsanto"nun zatıxarab toxumlarının İraqı işğalı ilə Mesopotamiya ərazisində 6000 illik tarixi olan kənd təsərrüfatı ənənləri məhv olmaq təhlükəsilə üz-üzədir. Məhv olan tək bu ənənələr deyil, sonra elə müsəlmanların özləri də məhv ola bilərlər.

## Çıxış yolu



Müsəlmanlar həm canlarını, həm gələcək nəsillərini, həm azadlıqlarını, həm də sərvətlərini qorumaq istəyirlərsə, ərzaq terrorundan özlərini qorumalıdırlar. Hər bir müsəlman ən azından öz ailəsini tərkibində onlarla kimyəvi maddələr və GMO olan qidalardan qorumalı və xırda da olsa kand təsərrüfatı yaratmaq barədə düşünməlidir. Müsəlman xalqların isə bu istiladan xilas olmalarının yeganə yolu birlik və vəhdətdir. İslami vəhdət olmayandan sonra qərbin "parçala və hökm sür" siyasəti nəticəsində təklənən ölkələr bu ərzaqlardan istifadəyə məcbur ediləcək və şeytan mətbəximizdəki qazanımızın içərisinədək nüfuz edəcək. Xatırlayın ki, bir zaman Adəm və Həvvanı da şeytan yeməklə aldatmışdı.

GMO-lar haqqında ətraflı məlumat əldə etmək üçün aşağıdakı saytlara müraciət edə bilərsiniz:

**www.gmo-net.info**

**www.ru-an. info**

**www.levashov.info**

**www.gdoyahahir.net**

**www.greenpeace.org**

**www.gidahareketi.org**

## MƏZHƏB PARÇALANMALARI




### Siyasi qüvvələrin səbəb olduğu parçalanmalar

İslam ədəbiyyatında məzhəblər yaranma səbəblərinə görə əqidəvi, siyasi və fiqhi məzhəblər olmaqla üçə bölünür. Əslində, bunların üçü də siyasiləşdirildiyi və müsəlman qardaşlar arasında bəzən ögeyliyə, bəzən əlaqələrin qırılmağına, bəzən isə dava-dalaşa səbəb olduğuna görə hamısına siyasi məzhəblər desək, yanılmarıq. Biz bu mövzunu izah edərkən siyasət elminə girib məsələni qəlizləşdirmək və mətləbdən uzaqlaşmaq istəmirik. Ona görə də sadə dillə tarixdən çıxan nəticələr əsasında siyasətin islama, müsəlmanlara və parçalanmalara göstərdiyi təsirdən səthi olaraq söz açacağıq. İlk dörd xəlifə dövründə, xüsusən də İmam Əli dövründə müsəlmanlar arasında siyasi çalxalanmalar olsa da, siyasət İslamın sütunlarında çatlar yaratmamış və dinin parçalanmaları rəsmiləşməmişdir. Muhəmməd peyğəmbərin də əvvəlcədən bildirdiyi kimi, sülalələr padşahlığa başlayandan sonra din davası un davasına döndü.

İstənilən siyasi rejimə, hökümətə gəlmək üçün bir ideoloji "Büt" lazımdır. Bu büt xalq arasında müqəddəsləşdirilməli, xalqı onun ətrafına toplamalı və hamılıqla ona səcdə olunmalıdır. Bu, ilahi rəhbərləri çıxmaq şərtilə, həmişə belə olmuşdur. Xalqı ideoloji büt dediyimiz hər hansısa bir ideya ətrafında toplamadan, siyasi iqtidarı ələ almaq və idarə etmək mümkün deyil. Bu bütləşdirilmiş obraz bir peyğəmbər, bir ilahi kitab, bir din alimi, bəzən bir xalq qəhrəmanı və ya dövlət başçısı, bəzən isə elə daşdan və ya taxtadan yonulmuş bir büt ola bilir. İşin maraqlı tərəfi odur ki, bu bütü populyarlaşdırıb xalqa təqdim edənlər ona ən az inanan və qəlbən ona istehza edən təbəqə olur. İslamdan əvvəlki ilahi dinlərin hamısı bu təhqiramiz və təhrifedici burulğana düşmüş və peyğəmbərlərin gətirdiyi ilahi kitabların təhrif olunmasına qədər cılızlaşmışlar. Siyasi xadimlər din adamlarını ələ alaraq cəmiyyəti idarə etmək üçün bu ideologiyaları öz məqsədlərinə uyğunlaşdırmış və dində öz siyasi versiyalarını yaradaraq xalqa təlqin etmişlər. Bəzi ziyalılar arasında din haqqında yayılmış mənfi fikir də bundan irəli gəlir. Onlar deyirlər ki, cənnət-cəhənnəm boş bir yalandır ki, siyasətçilər

xalqı idar etmək və mütiləşdirmək üçün qondarıblar. Əslində, bu ziyalıların fikrinin bir hissəsi doğrudur. Yəni siyasətçilər camaatı idarə etmək üçün dini daim bir vasitə kimi istifadə ediblər. Amma təkallahlıq peyğəmbərləri gətirdikləri sistemləri cəmiyyətə tətbiq edərkən siyasətçilərin yararlandqları kimi dindən yararlanmamış, şan-şöhrətə uymamış mal-dövlət toplamamış və həqiqətən də insanları tərbiyə üçün həyatlarını qurban vermişlər. Siyasətçilər isə peyğəmbərlərin ideyalarının mahiyyətində mahir dəyişiklik edərək, dinin zahirini saxlamış, transformasiyaya uğradılan mahiyyəti xalqa sırımışlar. Bu proses əvvəlki peyğəmbərlərin gətirdikləri ilahi kitabların və şəriətin kökündən təhrif olmasına gətirsə də, son peyğəmbər Muhəmmədin gətirdiyi kitabdan yan keçmişdir. Amma bu İslamın siyasətdə sui-istifadə olunmadığı demək deyil. Şeytani siyasət İslama Quranın təhrifi yönündən zərbə vura bilməsə də, başqa bir yöndən vurmuşdur. Bu da hədislərin təhrif edilməsi və məzhəb parçalanmalarıdır. Əslində, İslamda fikir məktəblərinin yaranması inkişafa gətirib çıxarmalı idi. İslamın ən böyük ibadəti təfəkkür etmək olduğu üçün fərqli fikirlərin qarşılıqlı müzakirəsi elmin dərinləşməsinə, yeni ideyaların yaranmasına və müsəlmanların elm yükünün zənginləşməsinə gətirib çıxarmalı, eləcə də Quranın göstərişinə əsasən, "Yaxşı işlərdə bir-birinizlə yarışın" mesajı şirin bir rəqabət mühiti formalaşdırmalı idi. Amma əslində isə müsəlmanların parça-parça olub bir-birlərini qırması, zəif düşməsi və düşmənlərin oyuncağına çevrilməsinə səbəb oldu. Bunun səbəbi isə nəzəri cəhətdən 3 mənbədən yaranmış məzhəblərin, praktiki cəhətdən bir mənbədən olmasına görədir. Bu da siyasi parçalanmalardır. İstər Əməvilər sülaləsi, istər Abbasilər, Osmanlılar, istərsə də Səfəvilər sülaləsinin İslama zidd olan minlərlə əməlləri əslində dinimizin hökmranlıq məqsədləri üçün bir alət kimi istifadə edildiyinin sübutudur. Bunların içərisində ən ədalətli görünən Osmanlılar sülaləsinin belə dindən qalxan kimi istifadə etdiyinin faktları var. Osmanlı idarələrindən birinə üz tutan dahi şairimiz Məhəmməd Füzulinin "Salam verdim rüşvət deyil deyə almadılar" kəlamı əslində hər şeyi əhatə edir. Eləcə də Şah İsmayıl Xətayi və Yavuz Sultan Səlimin arasındakı müharibələrin İslamı və türkçülüyü parçalamaq ittihamlarını hamınız eşitmisiniz. Amma nədənsə, eyni dövrdə hər ikisi türk və hər ikisi sünni müsəlmanı olan Əmir Teymur və İldırım Bəyazitin qarşıdurmasını heç kim dilə gətirmir. Çünki bu döyüşlərdə hegemoniya və dövlətçilik maraqlarından başqa nə isə axtarmaq sadəlöhvlərin işidir. Bəzi sadə inanmışlar və ya özünü aldanmş olaraq təqdim edənlər bu döyüşləri İslam dininin qayda-qanunlarına əsasən izah etməyə çalışırlar. Əslində isə dövlətçilik maraqları hər şeyin fövqündə olub. Bu saydığımız dövlətlərdə hər hansısa bir müxalifin din düşməni, münafiq və ya zındıq olaraq rəsmiləşdirilməsi və edamı saray şeyxləri üçün 5 dəqiqəlik bir iş olmuşdur. Bu məqamda Səfəvilər dövrünə aid bir əhvalatı nəzərinizə çatdırmaq istəyirik. Haqqı tapdalanmış bir vətəndaş məmurun yanına gələrək şikayətini bildirir. Şikayətçi tanınmış adam olur. Məmur şikayəti dinlədikdən sonra niyə indiyədək müraciət etmədiyini soruşur. Şikayətçi cavab verir: "Axı siz

iddia edirsiniz ki, İmam Əlinin ədalətini dirçəltmiş və onunla əməl edirsiniz. Tutaq ki, mənim işim həll olundu, bəs mənim kimi başqa insanlar nə olsun? Hanı Əlinin ədaləti?"

Məmur cavab verir: "Sənin işin düzəldi, daha başqaları ilə nə işin var? Əgər biz də Əlinin ədalətilə hökm etsəydik, onun kimi 5 ildən artıq işləyə bilməzdik"

Əslində arif insanlar üçün bu əhvalat hər şeyi ortaya qoyur. İslamın sülalələr dövründə idarəçiliyi dinin məqsəd yox, vasitə kimi istifadəsinə əsaslanmışdır. Bununla da bu siyasi burulğanlar özlərindən məzhəblər qondarmış, bu məzhəbləri bütləşdirərək hökmranlıqlarını sürdürmüşlər. Ona görə də İslam tarixində formalaşan məktəblər müsəlman elminin zənginləşməsi və müsəlmanların tərəqqisinə yox, dava-dalaş və qırğınlarla tənəzzülə gətirib çıxarmışdır.

## Siyasətin məzhəbləri bütləşdirməsi

Bir neçə misalla siz əzizlərin nəzərini siyasətin dini özünə necə alət etdiyini və məzhəb əsasında ayaq açaraq iqtidarı ələ aldığına yönəltmək istərdik:

**1) Zeydi Məzhəbi.** Bu məzhəb şiə məzhəblərindəndir. 4-cü Əhli-Beyt İmamı Əli Bin Hüseynin oğlu Zeydin adı ilə bağlıdır. Atasından və qardaşı İmam Muhəmməd Baqirdən dərs almışdır. Bütün islam alimləri onun təqvalı insan olduğunu qəbul edirlər. Din elmlərini gözəl bilən və hər kəs tərəfindən ziyalı və alicənab mömin kimi tanınan Zeyd imam olmaq və məzhəb yaratmaq iddiasında olmamışdır. İmam Əlini səhabələrin ən üstünü bilməklə yanaşı, Əbu Bəkrin müsəlmanların məsləhəti olaraq xilafəti ona həvalə etdiklərinin inacında olmuşdur.

Zalımlara qarşı çıxmağı dini vəzifə bilmiş və Əbu Hənifə tərəfindən bu sözünə görə təqdir olunmuşdur. Əbu Hənifə onun bu addımını Peyğəmbərin Bədr günü zalımlara qarşı çıxmasına bənzətmişdir. (Tarixi Təbəri, 8-ci cild) Bura qədər hər şey əladır və Zeyd ideal bir müsəlmandır. Bəs parçalanma hardan çıxdı?

- Zeydin kitablarından bəhrələnən Əl-Hadi bin Yəhya miladın 900-cü ilində Mədinədən Yəmənə gələrək xalqdan beət almış və Zeydi dövlətini qurmuşdur. Özü ictihada başlamış və "hadeviyyə" qolu quraraq fəaliyyət göstərmişdir. Bax, elə bu da Zeyd kimi gözəl insanı bütləşdirmək və onun adına siyasi qurum yaratmaqla nəticələndi. Ola bilər ki, belə qurumlar əvvəl təsis ediləndə xalis niyyətlə qurulur, amma sonra ziyandan başqa bir şey vermir.

**2) Hənəfi Məzhəbi.** Bu sünni məzhəbidir və tərəfdarlarının sayına görə birincidir. Bu məzhəb İmam Əzəm Əbu Hənifənin ideyaları əsasında yaradılıb. Əsl adı Numan bin Sabit bin Kavus bin Hörmüzdür. Milliyyətcə farsdır və İraqın Kufə şəhərində boya-başa çatmışdır: Savadlı və elm öyrənməyə həris bir insan olmuşdur. İmam Muhəmməd Baqir və İmam Cəfəri Sadiqdən də dərs almışdır. Əhli-beytə xüsusi məhəbbəti ilə seçilmişdi.

Hətta İmam Sadiqin dərslərində iştirakını özü üçün həlakətdən qurtuluş olaraq bildirdiyi məhşur bir kəlamı da vardır. Dində özünə məxsus fikirləri və ictihadları olsa da, camaatı özünə beətə çağırmamış və siyasi iqtidara can atmamışdır. "Mənim dəlilimi bilmədən çıxartdığım hökmlə fətva vermək yasaqdır" deyən alimin parçalanma yaratmaq niyyəti olmayıb. Yenə sual yaranır: Bəs nə oldu?

- Əməvilər dövründə müxtəlif dövlət işlərinə çağırılmasına baxmayaraq həmişə müxtəlif bəhanələrlə yayınmışdır. Sünni tarixçilərin fikrinə görə, bu əməvilərin Peyğəmbərin Əhli-beytinə olan düşmən münasibətinə görə olub. Əhli-beytə xüsusi məhəbbəti və onunla əlaqəsi olduğu üçün zalımlarla həmkarlıqdan yayınaraq Məkkəyə köçmüş və orda bir müddət qalmışdır. Abbasilər Kərbəla hadisəsinin intiqamını almaq və Əhli-beytə olan zülmləri bəhanə edərək çevriliş edəndən sonra həvəslənən Əbu Hənifə geri dönmüşdür. Lakin bir müddət sonra Abbasilərin də iç üzü ortaya çıxmış və bu, alimə aydın olmuşdur.

Əbu Hənifənin savadı sayəsində şöhrəti hər tərəfə yayılmışdı. Abbasi xəlifəsi Əbu Cəfər Abbasi siyasi gediş edərək Əbu Hənifəni Bağdada gətizdirərək ona qazı olmağı təklif edir. Abbasilərin ədalətsiz mövqeyini və xalqa olan zülmlərini xatırladan alim xəlifəyə rədd cavabı verir. Alimin rədd cavabı xəlifəyə şapalaq kimi dəyir. Xəlifə onun iradəsini sındırmaq üçün zindana atdırır və hər gün qamçılatdırır. Amma qətiyyəti ilə hər bir müsəlmana nümunə olan Əbu Hənifə, Abbasilər xilafətində qazı olmaqdansa, zindanda ölməyi üstün tutur. (M. Rəhim "İslamda Məzhəblərarası Yaxınlaşma Konsepsiyaları", səh: 47) Zindanda canını tapşıran alimin ideyalarını oğurlayan hökumət onun adına məzhəb inkişaf etdirir. Bir çox hənəfi məzhəbli qardaşımız bu Hənifəni Abbasilərin şəhid etdiyini bilmir. Alimi öldür və adına məzhəb inkişaf etdir. Budur reallıqlar və məsələlərə bu yöndən yanaşmaq lazımdır. Bir çox İslam tədqiqatçıları canlarından qorxaraq bu mötivlərə toxunmadan keçirlər. Biz burda hənəfi məzhəbinin batilliyini yox, siyasətçilərin iş prinsiplərini və alimlərin yaradıcılıqlarından öz məqsədləri üçün necə istifadə etdiklərini izah etməyə çalışırıq. Günümzün ziyalı müsəlmanlarının zehnlərinə xitab edən bu yazı məzhəb davalarında siyasət barmağını üzə çıxarmaq üçün yazılıb.

Üzümü sünnilərə tuturam: Əbu Hənifəni zindanlarda işgəncə ilə öldürən Abbasilər sizcə hənəfi məzhəbli sünni və İslam rəhbərləri idilər?

Üzümü şiələrə tuturam: İmam Cəfəri-Sadiqi zəhərlə öldürən Abbasilər elə Əbu Hənifənin də qatili deyillərmi?

Eyni cəbhədə olduqları halda bir-birlərinə düşmən olaraq göstərilən bu iki qrup siyasi oyuna gəldiklərini anlamamış və bir-birlərinə başları qarışdığı üçün Abbasilər də qərinələr boyu din pərdəsi altında hökumətlərini davam etdirmişlər.

**3) Maliki Məzhəbi.** Sünni məzhəbidir və Malik bin Ənəsin ideyaları əsasında yaradılmışdır. Malik Nafi, Zuhri, Rəbia və İmam Sadiq kimi alimlərdən dərs almışdır. Qədim alimlərə məxsus olan "bilmirəm" təbirini

daha çox işlətmişdir. Eləcə də özünün də bir insan olduğunu, dediklərinin doğru da, yanlış da ola biləcəyini bildirmişdir. Çox cəsur bir alim olmuş və Abbasilər hökuməti ilə açıq müxalifət etmişdir. Mənsur Abbasiyə camaatı məcburən beət etdirdikləri üçün bu beətin batil olduğunu açıqca bildirmişdir. Bunun müqabilində alimi qamçılatdırmışdılar: İncə məqam burasındadır ki, alim özü hökumətlə müxalif olduğu halda, hökumət ondan xəbərsiz onu siyasiləşdirir və əyalətlərdə camaatı ona təqlid etməyə məcbur edirdi. Xəlifələr onun "Muvatta" kitabını əyalətlərə yayır və yalnız bu kitaba əsasən hökm çıxarılmasını tələb edirdilər. Bunu eşidən Malik yenə qorxmadan hökumətə qarşı çıxır və məcburi təqlidin düzgün olmadığını bildirir. Vilayətlərə Peyğəmbər səhabələrinin təbliğ məqsədilə səpələndiyini və hədisləri camaata öyrətdiklərini irəli çəkən alim, yalnız onun kitablarından istifadəni düzgün saymırdı. (M. Rəhim "İslamda Məzhəblərarası Yaxınlaşma Konsepsiyaları", səh: 50) O, yalnız özünə təqlidə dəvət etmədiyi kimi, müridlərinə də başqa müsəlmanların azğın və ya cəhənnəmlik olmaları təlqinlərini etməmişdir. Başqa islam böyüklərinə də üz tutmağa təşviq etmiş və ardıcıllarını digər müsəlmanlara qarşı hər hansısa aqressivlik və ya konfliktə yönləndirməmişdir. Bununla belə, Malik bin Ənəs sağ ola-ola siyasiləşdirildi və onun adından istifadə edərək Abbasilər dövranlarını sürdülər. Yenə də qeyd edirik ki, biz bu faktları ortaya çıxarmaqla Malik bin Ənəsin nə fətvalarının, nə ideyalarının, nə də məzhəbinin haqq olub-olmaması barəsində heç bir fikir yürütmür və onun elmini və ya imanını şübhə altına almrıq. Sadəcə İslamda elmi görüşlərin, Quran və hədis araşdırmalarının heç bir halda konfliktlər səbəbi olmadığını, zamanımızdakı parçalanmaların yalnız şeytani siyasətin məhsulu olduğunu irəli sürürük. Siyasiləşməyən heç bir məzhəb islamda populyarlaşmayıb və dava-dalaş predmeti olmayıb. Əksinə, insanların qəlblərinə nüfuz edərək, həyatlarında onlara yön verib. Axı İslam sözünün ən bəsit izahı sülhdür və bu din heç bir ardıcılına Allaha iman gətirən insanlara qarşı pislik təbliğ etmir. Kin-küdurət, düşmənçilik və nifaq bu dinin tərəfdar olduğu yox, yox etmək istədiyi hissiyyatlardandır.

Bu siyahını daha da artırmaq olar. Tarixdə populyar olmuş və indiyədək siyasiləşmədən gəlib çatan məzhəb yoxdur. Əksər sünni yönümlü məzhəbləri tarixdə yaşadan dövlətlər olduğu kimi, günümüzə çatan şiə yönümlü məzhəbləri də Zeydilər, Fatimilər, Səfəvilər kimi dövlətlər məhşurlaşdırmışdır. Əbəs yerə bu sözlərimdən qəzəblənməyin. Çünki tarixdə bir çox məzhəblər batıb getmişdir ki, heç də elmi bazası indiki məzhəblərdən geri qalmamışdır. Bir məzhəbin məhşurlaşması üçün onun geniş təbliğ olunması lazımdır ki, bu da dövlət xəzinəsi istəyir. Ən geniş yayılmış məzhəb olan Hənəfi məzhəbinin elmi bazası digər 3 sünni məzhəbində olduğundan heç də zəngin deyil. Tarixin ən uzunömürlü imperiyası olan Osmanlıların Hənəfi məzhəbini rəsmi məzhəb seçməsi, bu məzhəbin geniş yayılmasına gətirib çıxarmışdır. Ona görə də bu gün ən çox ardıcılı olan məzhəb bu məzhəbdir.

## Xarici siyasat



İndiyə qədər müzakirə etdiyimiz məzhəbləri formalaşdıran siyasi təsirlər daxili siyasətə aiddir. Yəni islam aləminin daxilindəki proseslərlə əlaqədardır. Bu yolla siyasətçilər tərəfdar toplamaq, yeni iqtidar əldə etmək, xalqı idarə etmək və başqa məqsədlərlə yeni qruplaşmalar yaratmışlar. Amma islam xaricindən təsir edən qüvvələrin məqsədləri isə məzhəblər yaratmaq və qarşılıqlı münaqişələr qızışdırmaqla müsəlmanları zəiflətmək və beləliklə də İslam dininin təhrif edilərək tarixdən silinməsinə nail olmaqdır. Bu heç də birincisindən zəif effekt yaratmayıb. Əgər İslamın ilk dövrlərində daxili siyasətin dinimizə vurduğu zərbələr üstünlük təşkil edirdisə, orta əsrlərdən başlayaraq qərb dünyasının təsiri güclənməyə başladı. İlkin dövrlərə aid məzhəb parçalanmalarına sonrakı dövrdə yeni çalarlar qatan qərbin kəşfiyyat orqanları adi fərqliliklərdən dağlar boyda konfliktlər yaradaraq hər məzhəbi az qala fərqli bir din olaraq təqdim etməyə başladılar. Daxili çəkişmələrdən halsız düşən müsəlmanların da bu kəşfiyyatın qarşısında dura biləcək heç bir proqramı və ya müdafiə strategiyası olmadığı üçün, ayrıseçkilik üçün atılan hər toxum cücərdi, hər kiçicik münaqişə cəhdi böyük effektlərə səbəb oldu. Bununla da müsəlmanın tarixdəki tənəzzülü başladı və bu gün də davam edir.

Qərbin apardığı bu məxfi əməliyyatlarda müsəlmanların acizliyi iki məqamda daha aydın görünür.

## Birinci məqam

Hər hansısa bir müsəlman ölkəsində bir cavana yaxınlaşıb qərb kəşfiyyatnın müsəlmanlar arasında məzhəb davaları yaratmasını söyləsək, o müsəlman təəccüblənəcəkmi? –Gülümsəyərək deyəcək: "Sən hələ də bunu bilmirdin? Bəli, bunu bilməyən müsəlman yoxdur. Maraqlısı isə budur ki, bunu bilə-bilə də tərsliyimizdən dönməmiş, məzhəb davalarında yer almış, məzhəbbazlıq etmiş və dolayısı ilə qərb kəşfiyyatına işləmişik. Düz eşitdiniz! Müsəlmanların məzhəb davalarında iştirak etmiş qismi bir başa və ya dolayısı ilə İslam düşmənlərinin kəşfiyyat orqanları üçün çalışmışdır. Bu çalışanların böyük əksəriyyətinə kəşfiyyatçılar qara qəpik belə vermədən bir ömür öz niyyətləri üçün istifadə etmişlər. Əziz oxucu, bu acı həqiqətdir. Nə qədər də acı olsa, haqq tərəfdarısansa, bu həqiqəti qəbul etməlisən. Saqqalını İslam dini üçün ağartdığını zənn edən yüz minlərlə müsəlman özləri də bilmədən məzhəbbazlıq xəstəliyinə düçar olaraq qərbin xüsusi xidmət orqanlarına pulsuz-parasız nökərçilik etmişdir.

## İkinci məqam

Hamı bilir ki, qılınc götürüb üstümüzə xaç yürüşləri edan qərb dünyasının əlində olsa, islamda yüz min firqə yaradar və onları bir-birinə böyük məmnuniyyətlə qırdırar. Amma nə qədər bacarıblarsa, onu ediblər. Son 500 ili götürək. Bu dövrdə hər bir müsəlman qrupu az qala özünü ayrı bir din mənsubu kimi aparmasilə yadda qalıb. Məzhəblər arasında sileyi-rəhim kəsilmiş və dərin uçurumlar yaranmışdır. Bu prosesdə qərbin xüsusi xidmət orqanlarının rolunu hansı müsəlmandan soruşsaq, "şübhəsiz" cavabını alacağıq. Gələk ən ağrılı sualımıza: "Son 500 il müddətində hansı müsəlman dövləti öz ərazisində təriqət davası yaratmaq üçün təxribatlar təşkil edən bir casusu yaxalayb aşkar etmiş və olası qarşıdurmanın önünə keçə bilmişdir?"

Şəxsən Allahın bu həqir bəndəsi belə bir faktla rastlaşmayıb. Heç rastlaşacağıma da inanmıram. Çünki müsəlman hökumətlərin bu yöndə immuniteti o dərəcədə zəif olub ki, istənilən casus dini məktəblərə asanlıqla girərək orda müsəlman simasında tədris alaraq din xadimi səviyyəsinə qədər yüksələ bilib. İslam daxilindəki gözləri qızmış müsəlmanların acıqlı baxışları öz din qardaşlarına dikildiyi üçün qulaqlarına pıçıldayaraq vəsvəsə edənlərin kimliyini bilməmişlər. Onların bu qədər hiyləsi qarşısında, müsəlmanların əks-kəşfiyyatına dair bir fakta belə rast gələ bilmirik. Roma Katolik Kilsəsinin daxilində Casuslar yetişdirərək, islamı parçalamaq və Quranın təhrifi üçün aparılan çalışmaları üzə çıxarmaq cəhdi olubmu? Görünən odur ki, İslam dünyasında Fateh Sultan Məhmət xanın uğuru ilə daha da güclənən fatehlik ehtirası müsəlman rəhbərlərinə bunları düşünməyə macal vermayib, Eyni coğrafiyada ardıcıl olaraq yetişən qüdrətli müsəlman sərkərdələrinə bir-birinin varlığı fatehlik yolunda maneçilik törətdiyi üçün faciələrimiz daha da dərinləşdi Sultan İldırım Bəyazid, Sultan Səlim, Əmir Teymur, Şah İsmayıl, Sultan Süleyman, Şah Təhmasib, Ubeydulla Xan, Şah Abbas kimi şəxsiyyətlərin varlığı kənarda düşman axtarmağa macal vermirdi. Kim deyə bilər ki, bu şəxsiyyətlərin hegemoniya uğrunda apardığı dava, islama olan təəssübdən öndə dururdu? Partlamağa hazır barıt çəlləyini xatırladır o dövr. Bir neçə Allahın rəhmətindən uzaq düşmüş seytani din xadiminin dilucu verdiyi fətva minlərlə kəlimeyi-şəhadət gətirən müsəlmanın qanının axıdılmasına kifayət edirdi. Bu dövr Kilsəyə, ondan sonra isə islamofob satanist qruplara dinimizi içəridən dağıtmaq və müsəlman ölkələrində rahatca casusluq fəaliyyati ilə məşğul olmaq üçün münbit şərait yaratdı. Beləliklə, din və ümmət qeyrətini tamamilə itirən müsəlmanlar, məzhəb qeyrəti ilə kifayətlənməli oldular. Bu da heç bir effekt vermədi və verə də bilməzdi. Çünki Allahın Qurani-Kərimda müsəlmanların vəhdətinə dair verdiyi əmrlərə zidd idi. Gözünü kin-küdurət tutan, beyni qəzəbdən keyiyən müsəlman Allahın ayələrini unutdu.

**“Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir.”** (Ali İmran surəsi, 105)

Allahın Peyğəmbəri: **"Mənim ümmətim nə qədər ki, bir-birlərini sevir,** əmanəti (sahibinə) qaytarır, haramdan çəkinir, qonağı əziz tutur, namaz qılır və zəkat verir həmişə xeyir içində olacaqdır."

(Biharul-Ənvar, c.69, səh: 394, hədis 77.)

## Din xadimlərinin yaratdığı parçalanmalar

Din alimlərinin bütün dövrlərdəki və bütün cəmiyyətlərdəki mövqeyi çoxuna məlumdur. Din aliminin şəxsiyyətindən və öz dininə imanından asılı olmayaraq insanlar üzərindəki təsiri inkarolunmazdır. Bəzi cəmiyyətlərdə din alimi xalqın xilaskarıdırsa, bəzilərində qatili, digərlərində isə xalqı və imanı unudaraq şəxsi ləzzətlərin ardıycadır. Amma bütün alimlərə xas olan ümumi bir cəhət var. Üzərində durmaq istədiyimiz və müzakirə edəcəyimiz bu cəhət çox az adam üçün aydınlaşsa da, çoxları üçün qəbulolunmazdır. Din alimləri məhz bu cəhətlərindən istifadə edərək ya gözəllik üçün çalışır, ya da pislik üçün. Bu elə bir silahdır ki, bəzi hökmdarları öz kürsüsündən yerə çırpıb, bəzən də adi insanları hökmdar edib. Din alimlərinə xas olan və tarixin bütün dövrlərinə öz damğasını vuran gözəgörünməz silah nədir?

## Din alimlərinin silahı

İstər təktanrılı, istərsə də çoxtanrılı dinlərin alimləri adətən yaşadıqları cəmiyyətlərdə hörmət sahibi olurlar. Hətta cansız əşyaları ilahi qüvvə kimi qəbul edən, heç bir kitabı, məramı və nizamı olmayan primitiv dinlərin belə alimləri öz cəmiyyətlərində nüfuz sahibi olurlar. Nədir onlara bu məqamı verən? Ən batil dinləri belə əsrlərlə yaşadan din alimləri bu qüvvəni hardan alırlar? Bu hansı metoddur? Əgər bu böyük bir fırıldaqdırsa, nəyə görə ən məhşur fırıldaqçılar belə qısa bir müddətdən sonra ifşa olunduğu halda, heç bir elmi əsasa və dərin məntiqə sahib olmayan bəzi dinlər tarixdə əsrlərlə yaşamışlar? Bu cəhəti din alimlərinin metodikasında, hökmdarların siyasi səhvlərində, ziyalıların laqeydliyində və s. səbəblərdə axtaranların hamısı yanılmışlar. Çunki bu psixoloji faktor olduğu üçün ətraf aləmdə nə qədər araşdırılsa da tapılmayacaq. Bu amili insanların qəlbində axtarmaq lazımdır. İnsanların dinindən, dilindən, irqindən, maddi imkanlarından, yaşadıqları dövrdən, texnoloji imkanlarından asılı olmayaraq onların qəlblərində din alimlərinə qarşı yer alan mühüm bir hiss var. Məhz din alimlərinə sözügedən nüfuzu və gücü qazandıran silah da elə bu hissiyyatdır.

## Qəlblərdəki gizli silah

Əksər hallarda insan ağlı bu hissiyyatın, qarşısında acizdir. Cəmiyyətin həyatına yön verən, dərin biliyə və dünyagörüşünə malik insanların belə ağlı qəlbindəki bu hissiyyatla bacarmır və onların haqqı görməsini çox vaxt əngəlləyir. Bu ruhi vəziyyətin dilimizdə adı olmadığı üçün onu sizlərə təsvir etməyə çalışacağıq.

## Bütləşmiş ideallar

İstənilən dinin mənsubu öz din rəhbərinin onun kimi bir insan olduğunu ağlı ilə qəbul edir. Onun da əlinin, ayağının olduğunu, yemək yediyini, su

içdiyini, xətasız va ideal olmayan bir şəxs olduğunu bilir. Amma ağlı ilə bunları bilsə də, qəlbində bunların heç birinə məhəl qoymur. Simpatiya, sevgi, heyranlıq o dərəcədədir ki, alimin kobud səhvlərini belə görmür və ağlına bu prosesləri mühakimə etməyi qadağan edir. Qəribədir ki, bu halın özündə olduğundan da əksərən xəbərsiz olur. Din xadimi öz geyimi, davranışı, mimikası, jestləri ilə qəlbdə elə möhkəmlənir ki, bir növ "diplomatik toxunulmazlıq əldə edir. Ümumi olaraq din xadimi məsum deyil, səhv edə bilən bir insandır, amma dindar özünə və ətrafdakılarına alimin əməllərini mühakimə etməyi qadağan edib. Əgər məcburən bu mühakimənin içərisinə düşsə, faktları sonunadək dinləmədən rədd edəcək, bütün əsəbi və qəzəbi ilə faktların yalan olduğunu və sözügedən alimin deyilən səhvlərdən xali olduğuna təkid edəcək. Halbuki, soyuqqanlı düşünsə, alimin də bir insan olduğunu bilir. Ağılda o din xadimi bir insandırsa da, qəlbdə günahlardan xali, şeytandan və seytani hisslərdən tam izolə olunmuş, nəfsini tam islah etmiş, yalnız yaxşılıq düşünən, pislikləri ağlından belə keçirməyən, ürəyi ağ kağızdan da təmiz olan ideal və məsum bir zatdır. Çox vaxt uşaqlar öz ataları haqqında belə fikirdə olurlar. Uşaq təxəyyülündə ata bütün divlərlə belə döyüşə bilən bir qəhrəmandır. Nə qədər qərib olsa da, böyüdükdən sonra həmin hisslər dəyişərək din xadimlərinə yönəlir Əgər dindarın qulağına o zat haqqında mənfi informasiya çatsa, qəlbdəki həmin "məsumun' məhv olma təhlükəsi yaranır. Və beç kim qəlbində illər boyu qoruyub saxladığı o gözəl varlığı kiminsə sözlərilə öldürməsinə izin verməz. Bax, elə dindar qəlbində yaranmış bu obraz din xadimlərinin ən böyük silahıdır. Yəqin elə siz də öz məzhəb alimlərinizin digər din və məzhəb alimlərindən fərqli olaraq daha imanlı, daha təmiz, daha etibarlı, daha şücaətli olduğu fikrindəsiniz. Amma unutmayn ki, hamı sizin kimidir. Siz necə öz aliminizi əziz tutursunuzsa, bütün din və məzhəblərin ardıcılları da sizin vəziyyətinizdədirlər. Biz din alimlərinin hamısının pis və ya yaxşı olmasını müzakirə etmirik. Bu mövzuda məqsədimiz insanların qəlbindəki bütləşmiş, heykəlləşmiş din xadimi obrazının tarix boyu olduğunu və bu gözəgörünməz bütlərin də haqqı görməyə, reallığı qəbul etməyə böyük maneə olduğunu vurğulamaqdır.

Bu məqamda din xadimlərini şeytani (şeytana xidmət edən) və Rəbbani (Allaha xidmət edən) olaraq iki qismə bölmək daha anlaşıqlı olacaq. Rəbbani ruhanilər həmişə xalqın onları bütləşdirməsinə qarşı olur və bacardıqca bu işdən çəkindirməyə çalışırlar. Belə alimlər heç vaxt bu hissiyyatdan sui-istifadə etmirlər.

### "Bütləşmiş din xadimi" obrazından sui-istifadə

Tarix şeytani din alimlərinin xalqın onlara olan etimadından necə sui-istifadə etməsi faktları ilə doludur Bu halları araşdırmağımızın səbəbi dinlərin parçalanması, məzhəblərin yaranması və məzhəblərarası qarşıdurmalarda "bütləşmiş din xadimi" obrazından istifadəni insanlara çatdırmaq üçündür. Təbii ki, bizlər müsəlman olduğumuz üçün ilk əlimizə aldığımız ən mötəbər mənbə Qurani-Kərim olmalıdır. Sözsüz ki, əgər toxunduğumuz mövzu həqiqətən də bu qədər mühümdürsə, mütləq bu barədə

Quranda müyyən faktlar olmalıdı. Quranda rast gəldiyimiz məqamlar bizim bu barədə yanılmadığımıza işarədir. Seytani din xadimlərinin xalqın etimadından istifadə edərək hansı iyrənc cinayətlərə əl atdıqlarını Qurani-Kərim bizə açıq-aydın bildirir.

## Quranda çirkin din xadimləri

1) Nisa, 44:

**Kitabdan özlərinə pay verilmiş kəsləri görmürsənmi ki, onlar azğınlığı satın alıblar və sizi də** *(doğru)* **yoldan azdırmaq istəyirlər?**

2) Maida, 44:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır.** *(Allaha)* **təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar** *(hamısı)* **buna şahid oldular. İnsanlardan qorxmayın, Məndən qorxun! Ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir.**

3) Maida, 63:

**Nə üçün din xadimləri və baş keşişlər onlara günah sözləri və haram yeməyi qadağan etmirlər? Onların törətdikləri necə də pisdir!**

4) Tövba, 31:

**Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa tanrı yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır.**

5) Tövba, 34:

**Ey iman gətirənlər! Baş keşişlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və** *(onları)* **Allah yolundan döndərirlər. Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri üzücü bir əzabla müjdələ!**

Bunlar aləmlərin Rəbbi olan Allahın Qurani-Kərimdə əvvəlki ümmətlərdən olan din xadimləri barədə nazil etdiyi ayələrdir. Biz bu ayələri qeyd etməklə sırf alimlərin davranışını araşdırmırıq. Məqsəd həmin alimlərə tək olan Allahın dininə ziyan yetirmək üçün cəsarət verən qüvvəni ifşa etməkdir. O alimlər xalqın onları bütləşdirməsindən, onların əməllərini sorğulamamasından, kor-koranə təqlidlərindən həyasızcasına istifadə ediblər. Sizcə şeytani din xadimlərinin törətdiyi iyrənc cinayətlərdə, məsələn, Tövratın və İncilin təhrif edilməsində dindar xalqın günahı yox idimi? Əgər xalq din xadiminin "məsumluğunu" müdafiə etmək yerinə öz dinini müdafiə etsə, kor-koranə təqliddən qaçsa, alimlərin davranışlarına tənqidi yanaşsaydı, peyğəmbərlərin zəhməti aradan gedərdimi? Deməli, bu işdə dindar camaatın da rolu az deyil. Qurandan gətirilən bu nümunələrdə camaatın tələbakarlığının olmaması, kor-koranə təqlidi keçmiş ümmətlərə aid alimlərə Müqəddəs Kitabları təhrif etmək qədər cəsarət verib. Deməli, onlar dindar camaatın qınağından qəti çəkinməmiş və qorxmadan dinləri əsl həqiqətlərdən

uzaqlaşdırmışlar. Bəs, indi necə? Son din olan İslamda vəziyyət necədir? Əvvəlki dinlərdəki kimi din xadimlərinin ideallaşdırılması, bütləşdirilməsi, kor-koranə təqlid indi də varmı?

## Müsəlman aləmində alim anlayışı

Müsəlman alimləri arasında şeytani xislətlilər barəsində İslam peyğəmbəri əvvəlcədən məlumatlar vermişdir:

1) “Nə qədər ki, bu ümmətin Quran oxuyanları hakimlərlə əlbir olmayıblar, alimləri yaramaz və günahkarlara bəraət qazandıraraq onları təmizə çıxarıb günahsız kimi təqdim etməyiblər, yaxşıları pislərinə kömək etməyiblər, Allahın (rəhmət) əli bu ümmətin üzərində olacaq və Onun himayəsi sayəsində yaşayacaq. Amma bu işləri görəndən sonra Allah Öz qüdrət əlini onların başı üzərindən götürəcək və zülmkarlarını onlara hakim edəcəkdir." (Tənbihul-Xəvatir, c.1, səh: 84)

2) "Ümmətim barəsində hər şeydən çox narahatçılığa səbəb olan şey üçdür: Alimin büdrəməsi, münafiqin Quran vasitəsi ilə mübahisə etməsi və sizin boyunlarınızı vuran dünya. Buna görə də özünüz barəsində dünyadan qorxun.” (əl-Xisal, səh: 163, səh: 214.)

3) "Mən özümdən sonra alimlərin büdrəməsindən qorxuram." (Biharul-Ənvar, 70, 150)

4) "Mən özümdən sonra ümmətimin büdrəmiş alimə itaət etməsindən qorxuram. Mən nicat yolunu sizlərə göstərirəm. Nicat yolu ondadır ki, səbir edin, qoy yolunu azmış alim düz yola gəlsin. Onun səhvində ona itaət etməyin." (Şeyx Səduq, əl-Xisal, 1/164)

5) "Ümmətimdən iki sinif islah olarsa, onların qalanı da islah olacaq, yolunu azarsa, qalanı da yolunu azacaq.” Həzrətdən soruşdular: "Onlar hansılardır?" Buyurdu: "Ümmətin fəqihləri (din alimləri) və hakimləri." (Biharul-Ənvar, 2/49)

6) "Fasiq alim və cahil abiddən uzaq durun. Ey Əli, mənim ümmətimin həlakı ikiüzlü, şirin dilli və Qurandan istifadə edən münafiqin əli ilə olacaq.” (Biharul-Ənvar, 2/106)

7) "Camaatdan lazım olan elmi gizlədən və onlara yol göstərməyən şəxsin Qiyamət günü ağzına atəşdən yüyən vurulacaq." (Biharul-Ənvar, 2/78)

## Seytani ruhanilərin islama təsiri

Yuxarıda qeyd olunan kimi, seytani alim digər dinlərdə olduğu kimi İslamda da mövcuddur. İslam dininin Müqəddəs Kitabının digər dinlərdəki kimi təhrif olunması mümkün deyil. Çünki endirilən ayə ilə Allah tərəfindən buna təminat verilmişdir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.**
(Hicr surəsi, 9)

İslam dininə seytani alimlərin ziyanı başqa istiqamətlərdə olmuşdur. Quran ayələrinin öz məqsədlərinə uyğun olaraq təfsir və izahı, Muhəmməd peyğəmbərin adından yalançı hədislərin qondarılması və bunların zəminində yeni qruplaşmaların yaradılması, yəni parçalanmalar. Fikir ayrılıqlarına görə

parçalanmalar öz-özlüyündə böyük bir fəlakət deyil. Lakin islam tarixində şeytani alimlərin yaratdığı çox pis ənənə formalaşmışdır. Peyğəmbərimiz öz dövründə insanlara fikir azadlığı vermiş və o zamanın müsəlmanlarına öz fikrini sərbəst ifadə etmak üçün şərait yaratmışdır. Söz azadığı o səviyyədə olmuşdur ki, səhabələr söhbət əsnasında rahatca peyğəmbərin sözünü kəsərək suallarını vermiş, o həzrətin sözünə müdaxilə etmiş, bəzi məqamlarda sərbəstcə öz etirazlarını belə bildirmişlər. Müharibələrdən əvvəl keçirilmiş məşvərət-məsləhət məclislərinin tarixçələrini mütaliə etdikdə peyğəmbərin hüzurunda necə qızğın müzakirələrin getdiyini və o həzrətin necə demokratik abu-hava yaratdığının şahidi oluruq. Bu yolla müsəlmanların intellektual səviyyəsini, fikri ifadə imkanlarını, nitqlərinin bəlağətini inkişaf etdirən Allah Rəsulu o zaman üçün heç kimin ağlına gəlməyəcək səviyyədə şüurlu bir cəmiyyət formalaşdırmışdır. Lakin sonrakı dövrlərdə aparıcı təbəqə xalqı bu azadlıqdan məhrum etmiş və fikir fərqliliklərinə hörmət qoymamaqla yanaşı, buna görə təqib belə etmişlər. Artıq bu dövrlərdə "Sənin kimi düşünməyən sənin düşmənindir" anlayışı ortaya atılmış və yaranan hər firqə sanki düşmən olaraq qəbul edilmişdir. Bununla da təriqət parçalanmaları tədricən təriqətlərarası münaqişələrə dönüşmüşdür.



## Alimlər niyə belə edir?

Din alimlərinin öz təmsil etdikləri dini təhrif, parçalanmalar və münaqişələrə çəkməsinin səbəbləri nələrdir? Nəyə görə insanların qurtuluşu üçün gəlmiş dinlər sonradan münaqişə və müharibələrə səbəb olaraq öz ardıcıllarının bir-birini qırmasına gətirib çıxarır?

Əslində bunun bir neçə səbəbi ola bilər:

**1) Din aliminin özü casusdur və düşmənlər tərəfindən içəri sızdırılaraq fəaliyyət göstərir.** İslami ədəbiyyatda belələrinə münafiq deyirlər. Özünü müsəlman kimi təqdim edərək öz zəhərli təbliğini davam etdirir. Onun bu fəaliyyəti aşkara çıxmadıqca, verdiyi ziyanlar da gizli qalır. Xarici kəşfiyyatlar tərəfindən yönləndirilərək həm elmi zəmində təhriflər edir, həm də parçalanmalar yaradaraq din qardaşları arasında çaxnaşmalar yaradır.

**2) Din xadimi məqam və mənsəb sahibi olmaq istəyir.** Əksər insanların daxilində yatmış liderlik eşqi din xadimlərində daha qabarıq olur. Çünki şeytanın ruhani zümrəsi ilə apardığı mübariza, adi adamla olan mübarizəsindən qat-qat şiddətli olur. Nəfsi istəklərinə və şeytanın vəsvəsələrinə tab gətirmək üçün iman qüvvəsi az olanların içərisində yatmış fironları oyanaraq üzə çıxır. Bir məzhəbin içərisində özündən qat-qat savadlı və imanlı din xadimləri ola-ola heç bir məqam əldə edə bilməyəcəyini başa düşərək özü üçün yeni qruplaşma yaradır və ona başçılıq edir. Bu liderlik ehtirası ilə Allahdan dönərək şeytanın qoynuna girən din xadimi şəriət hüququnun mütəhərrikliyindən istifadə edərək yeniliklər qondarmağa başlayır. Mahir hüquqşünaslar 10 il azadlıqdan məhrumetmə cəzasını az miqdar pul cəzası ilə əvəz edə bildikləri kimi, şəriət hüququnda da eyni təzadları yaratmaq mümkündür. Hüququn bu xüsusiyyətindən istifadə edərək bundan sonra da minlərlə islam məzhəbi yaratmaq olar. Bu da nəfsinə yenik düşmüş din xadimlərinin zəhərli silahına çevrilir. Bəzən isə heç bu boyda çətinliklərə eytiyac olmur. Zamanın din dövlətləri öz çirkin işlərini "hüquq sabunu" ilə yumaq üçün belə din xadimlərinə böyük vəzifələr təklif edir və məsələ qapanır...

**3) Şantajlar.** Din xadimi ölüm, hər hansı bir nöqsanının ifşa olunması, həbs olunmağı, sürgün olunmağı, tutduğu postdan kanarlaşdırılması, ailə-uşağının qətli və ya bunların hamısı ilə təhdid edilir. Bu məqamda neçə din xadimi Allaha xatir hər şeyindən keçməyi qətiləşdirə bilər? Təbii ki, çox az adam. Bu yolla da dinimizə vurulan ziyanlar heç də az deyil.

**4) İqtisadi asılılıq.** Peyğəmbərlərin heç biri dini və axirət əməlini öz dolanışıq vasitəsi qərar verməyib. Hədisdə deyilir: "Alimlər peyğəmbərlərin varisləridir." (Sünəni İbni Macə, c.1, 17-ci bab, 223-cü hədis) Peyğəmbərlərin varisliyi kimi ağır vəzifəni insanın öhdəsinə götürməsi üçün o həzrətlərin həyat tərzindən ibrət götürməyi vacibdir. Din xadimləri dini dolanışıq vasitəsi kimi istifadə etdikdə iqtisadi cəhətdən asılı vəziyyətdə qalmış olurlar. Davud peyğəmbərin tarixçəsində yer alan çox maraqlı bir hədisi nəzərinizə çatdırırıq:

“Allah-taala Davuda vəhy edərək buyurur:

“Əgər, beytul-maldan (dini fond) istifadə etməsəydin, bəndələrimin ən yaxşısı olardın.

Davud ona nazil olmuş bu vəhyi eşitdikdən sonra qırx gün qəm-qüssəyə qərq olub, qırx gün göz yaşları tökdü. Allah-taala dəmirə Davud üçün yumşalmasını (dəmiri əritmə texnologiyasını ona öyrətdi) əmr etdi. O da hər gün bir zireh düzəldib min dirhəmə satdı. Bir il ərzində üç yüz altımış zireh

satıb üç yüz altımış min dirhəm qazandı. Beləliklə, "beytul-mala" heç bir ehtiyac duymadı." (Üsuli-Kafi, 5-ci cild)

Hədisdən görünür ki, beytül-mal deyilən dinə məxsus fonddan istifadə Allahın xoşlamadığı işdir. Bundan əlavə dinlər tarixini araşdırsaq, bu cür dolanışıq vasitəsinin həm din xadimlərinin öz imanına, həm də dinə mənfi təsir göstərdiyinin şahidi olarıq. Eyni zamanda kasıbçılığın imana çox böyük zərbə vurduğunu hədislərdən aydın bilmək olur. Hətta bir hədisdə bildirilir ki, kasıbçılıq qapıdan girdikdə, iman pəncərədən çıxmağa başlayır. Kasıbçılıq dünyada çox az Allah bəndəsinin tab gətirə biləcəyi bir bəladır. Peyğəmbərlərin müxtəlif peşələrlə məşğul olması, onları iqtisadi asılılıqdan qorumuşdur. Beləliklə, o həzrətlərin gündəlik dolanışıqları təbliğlərinə heç bir təsir qoya bilməmişdir. Çox təəssüf ki, zamanımızda da islam alimləri peyğənbərlərin sünnəsi olan əlavə peşə fəaliyyətindən əksər hallarda istifadə etmirlər. Beləliklə də, iqtisadi asılılıqda qalırlar. Bu asılılıq onları ya dini fonddan, ya camaatdan, ya da hökumətlərdən asılı vəziyyətdə saxlayır. Bəzi hallarda isə kasıbçılığın şiddəti və ya sadəcə dəb-dəbəli həyat eşqi xarici ölkələrin kəşfiyyat orqanlarının parıldayan təkliflərinin qəbul edilməsinə səbəb olur.

Beləliklə, iqtisadi asılılıq da din xadimlərinin fəaliyyətindəki böyük nöqsanlardan biridir. Bu faktor məzhəb parçalanmaları və qarşıdurmaların tüğyan etməsinin səbəblərindəndir. İqtisadi vəziyyətə görə imanı zaif olan ruhanilər, ya daxildəki siyasətçilərin, ya xarici kəşfiyyatların, ya da şəxsən özünün ortaya qoyduğu təşəbbüs əsasında yeni qruplaşmalar yaratmışlar. Bu qruplaşmalar gələcəkdə məzhəbə də, təriqətə də və ya sadəcə bir camaata da çevrilə bilir. Artıq çörəkverənlərin diqtəsi ilə din qardaşları arasında qarşılıqlı nifrət yaratmaq, dava-dalaş salmaq da qaçılmaz olur.

## Elmə olan münasibət

Bu fəsildə müsəlman dünyasının zəifləməsində elmi geriliyin rolunu dəyərləndirməyə çalışacağıq:

1) Müsəlman tarixində elmə olan münasibətin dəyişilməsi

2) Yad fəlsəfələrin islama daxil olması və orijinal islam fəlsəfəsində təhriflərə yol açması.

3) Hədis yasağı və hədislərin saxtalaşdırılması

## Elmə olan münasibətin dəyişilməsi

İslam dini qədər elmə yüksək dəyər verən ikinci bir din yoxdur. Bunu həm Qurani-Kərimin ayələrindən, həm də Peyğəmbərimizin hədislərində aydın müşahidə edə bilərik. Qurandakı nümunələrdən söz açdıqda əvvəla onu deməliyik ki, Allahın elçisinə Qurandan birinci nazil etdiyi söz "OXU!" sözüdür Müqəddəs kitabda altı yüzə yaxın yerdə elmə bu və ya digər yolla işarə edilmişdir. Mücadilə surəsinin 11-ci ayəsində hətta Allah Özü elm əhlinə xeyir-dua etmişdir: **“...Allah da sizdən iman gətirənlərin və** *(xüsusilə)* **elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın..”**

Peyğəmbərimizdən sünni və şiə hədis kitablarında elmin üstünlüyü



barədə nəql olunmuş hədislərdən bəzilərini qeyd edirik:

1) "Elm öyrənmək hər bir müsəlmana vacibdir." (Sünəni ibni Macə, c.1, 17-ci bab, 224-cü hədis)

2) "Göylərdə və yerdə olanların hamısı alimlərin bağışlanmasını istəyər." (Sünəni Əbu Davud, 2-ci cild, səh: 285)

3) "Qiyamət günü alimlərin mürəkkəbi şəhidlərin qanı ilə ölçülər." (Ehyaul-Ülum, Ğəzzali, Elm kitabı)

4) "Həqiqətən yer üzünün alimləri göydəki ulduzlara bənzəyərlər. Onların gecənin qaranlığında dəniz və quruda saçdıqları işıqla insanlar öz yollarına davam edər, söndükdə isə yolu azmaq təhlükəsi ilə qarşılaşarlar." (Kənzül-ümmal, 28769-cu hədis)

5) "Allah-taala İbrahimə vəhy edərək buyurdu: "Ey İbrahim! Həqiqətən Mən Özüm aliməm, alimləri də sevirəm."" (Ehyaul-Ülum, Ğəzzali, Elm kitabı. Əsqəlanidən nəql olunur)

6) "Bir alimin ölümü bir qəbilənin ölümündən daha ağırdır." (Ehyaul-Ülum, Ğəzzali, Elm kitabı. Təbəranidən nəql olunur)

7) "Alimlərin məqamı abid və pəhrizkarların məqamından yetmiş dəfə ucadır. Onlar arasındakı məsafə o qədər böyükdür ki, çapar atlar bu iki məqamın arasını yetmiş ilə qət edərlər. Alimlərin onlardan üstün olmaları bundan irəli gəlir ki, abidlər ibadətlə məşğul olduqları bir halda Şeytan bidətçilik məqsədilə onları haqq yoldan azdırmaq istərkən, yayılmaqda olan bidətin qarşısını məhz alimlər alarlar." (Əttərğib-Vəttərhib, c.1, səh: 102, 36-cı hədis)

8) "Min abidin mövcud olmasına dözmək, Şeytan üçün bir alimin mövcud olmasına dözməkdən daha asandır." (Sünəni Tirmizi, Elm kitabı, 11-ci bab, 2681-ci hədis)

9) "Qiyamət günü üç dəstəyə şəfaəat edərlər: Peyğəmbərlər, alimlər və şəhidlər." (Sünəni ibni Macə, 1209-cu hədis)

10) "Ən gözəl sədəqə odur ki, insan elm öyrənib onu müsəlman bacı-qardaşlarına da təlim etsin." (Sünəni ibni Macə, 20-ci bab, 243-cü hədis)

11) "Alimlərin üzlərinə nəzər salmaq ibadətdir." (Biharul-ənvar, c.1, Elm kitabı)

12) "Elm Çində olsa belə öyrənin. Çünki elm öyrənmək hər bir müsəlmana vacibdir." (Kənzül-ümmal, 28697-ci hədis; Biharul-ənvar, c.1, Elm kitabı)

13) "Elm məqsədilə evindən xaric olan şəxs qayıdanadək Allah yolunda olar." (Sünəni Tirmizi, 1647-ci hədis)

14) "Elm öyrənərkən dünyasını dəyişən tələbə şəhadətə nail olmuş olar." (Əttərğib-Vəttərhib, c.1, səh: 97)

15) "Mələklər tələbələrin əldə etdikləri elmə razılıq əlaməti olaraq öz qanadlarını onların ayaqları altına salarlar." (Kənzül-ümmal, 28725-ci hədis)

16) "Elm və agahlıq ilə yatmaq, cəhl və nadanlıqla namaz qılmaqdan

daha yaxşıdır." (Kənzül-ümmal, 28711-ci hədis)

17) "Allah-taala elmə yiyələnməyi namaz, oruc, həcc və Onun yolunda cihad etməkdən daha üstün tutur." (Kənzül-ümmal, 28655-ci hədis)

18) "Bir saat elm ilə məşğul olmaq, gecəni sübhədək ibadətlə keçirməkdən daha yaxşıdır." (Biharul-ənvar, c.1, Elm kitabı)

19) "Öz elmindən bəhrələnən alim yetmiş min abiddən daha üstündür." (Biharul-ənvar, c.2, Elm kitabı)

Bütün bu faktlar göstərir ki, İslamın elmə verdiyi yüksək dəyəri heç bir sözlə tərif etmək mümkün deyil. Bir halda ki, dinimiz elmə bu qədər əhəmiyyət verir, bəs nə üçün müsəlmanlar elmi-texnoloji cəhətdən inkişaf etməyib və əcnəbilərin tapdağı altında qalır?

Bu sualın ən doğru cavabı müsəlmanlara qarşı aparılmış elmsizləşdirmə siyasətinin olmasıdır. Bu siyasət müsəlmanların güclü olduqları vaxtlarda təbliğat üsulları ilə aparılsa da, zəiflədikdən sonra fiziki güc tətbiq etməklə həyata keçirilmişdir. Elə müsəlman dövlətləri bəzən özləri də bu siyasəti öz xalqlarına qarşı aparmışlar. Çünki savadsız və nadan insanları mütiləşdirmək və köləyə çevirmək daha asan olur. Elmsizləşdirmə siyasətinin nə vaxtdan tətbiq olunmasını tam dəqiq deyə bilməsək də, 12-ci əsrdən etibarən efektini göstərməsini söyləmək mümkündür. Bu siyasət ilkin olaraq müsəlmanlarda elm anlayışına xələl gətirməkdən və elmi ikiləşdirməkdən ibarət olub.

## Müsəlman elminin ikiyə parçalanması

Müsəlman elmi, dəqiq tarixini müəyyən edə bilmədiyimiz vaxtdan, ikiyə bölünüb:

1) Həqiqi elmlər (Şəriət elmləri)

2) Dünyəvi elmlər

Bu parçalanmanın İslam tarixində başladığı an elmin tənəzzülünün start nöqtəsi olmuşdur. Çox təəssüflər olsun ki, həmin dövrü tarixi mənbələrdən araşdırıb üzə çıxara bilmədik. Amma əziz oxucularımızın bu araşdırmanı apararaq xalqa bu həqiqəti çatdırmaları bizim sevincimizə də səbəb olardı.

## Elmin ikiləşdirilməsi Kilsədən gəlir

Elmin ikiləşdirilməsi və bunlara fərqli baxışın ortaya çıxmasında xristianlığın və xüsusilə də Roma kilsəsinin “iyini” hiss etməmək mümkün deyil. Çünki "dini dövlət və dünyəvi dövlət”, “din elmi və dünyəvi elm" kimi anlayışlar xristianlığa məxsusdur və kilsənin də nüfuzdan düşərək qüdrətini itirməsinə elə bunlar səbəb olmuşdur. Ancaq həmin anlayışların xristianlıqdan islama inteqrasiyası və müsəlmanlar arasında kök salmasının tarixçəsini aydınlaşdıra bilmirik. Çox güman ki, bu anlayışların müsəlmanlara sırınması məqsədyönlü olaraq həyata keçirilmişdir. Kilsə şəriət və dünyəvi elm siyasətini xristianlara qarşı irəli sürərək əsrlərlə hökmranlıq etmişdir. Onlar din elmlərindən başqa bütün elmləri haram saymış və bu elmlərin ardıcıllarını edam etdirmişlər. Onu da qeyd etməliyik ki, qərbdəki yetişən alimlər ittiham olunarkən, müsəlman olmaqla ittiham olunur və edam edilirdilər. Bu da həmin dövrdə müsəlmanlarda elmi

inkişafın hansı səviyyədə olmasını sübut edir. İnkvizisiya dövründə dünyəvi elm tərəfdarları çoxlu qurbanlar vermiş və nəhayət insan fitrətinin elmə olan sonsuz marağı renessans dövrünün başlamasına və kilsənin uduzmasına gətirib çıxarmışdır.

## İslamda "inkvizisiya"



Müsəlmanlarda isə belə bir anlayış olmayıb. İslamın ilkin dövrlərində "Allaha yaxınlaşdıran hər bir elm savabdır" anlayışı olmuş və insanlar oxumağı ibadət olaraq bilirmişlər. Heç vaxt elm qadağan edilməyib və günah olaraq təqdim olunmayıb. Bizdəki inkvizisiya Kilsənin inkvizisiyasından kəskin fərqlənir. Keşiş və rahiblərdən fərqli olaraq bizdəki şeytani ruhanilər məsələni ayrı metodlarla xalqa təlqin etmişlər. Bu metodlardan ortaya çıxara bildiklərimizi sizə təqdim edirik:

**1) Elm öyrənməyə təşviq edən onlarla ayə və səhih hədislər geniş təbliğ olunmamışdır.** Hətta Rəsulallahdan nəql olunmuş səhih hədisə əsasən elm öyrənməyin vacib, yəni fərz əməl olmağı xalqdan gizlədilmişdir. Şəriət hökmlərinə aid kitabların böyük əksəriyyətində elm öyrənməyi vacib hökmlərin arasında görə bilməzsiniz. Gül ləçəyini qoparmaq, gecə ayaq üstə su içmək, tualetdə danışmaq kimi xırda məkruh əməllərin belə kitablarda dəfələrlə qeyd edilməsinə baxmayaraq, elm öyrənmək kimi vacib əməl qeyd olunmayb. Dəstəmaz alarkən ən xırda səhvlər üçün qəzəblənərək gözlərini hədəqəsindən bərəldib çıxaranlar, elmin vacibliyi kimi həyati qanunun üstündən ölü sakitliyi ilə keçmişlər. Elmin müsəlmanlar arasında zəifləməsinin ilkin və ən böyük faktoru budur.

**2) Dünyəvi elmlərin ümumən elmdən ayrı olması.** Elmi dini və dünyəvi olaraq iki hissəyə ayırdıqdan sonra dünyəvi elmlərin qeyri-ciddi olması və öyrənilmədiyi təqdirdə heç bir günah gəlməyəcəyi barədə təbliğat aparılmışdır. Həqiqi elmin yalnız şəriət elmləri olduğu xalqa diqtə olunmuşdur. Halbuki, islamda ilk açılmış irimiqyaslı təhsil ocağı olan 6-cı Əhli-beyt imamı Cəfəri-Sadiqin evində təşkil etdiyi məktəbə nəzər salsaq, əksini müşahidə edərik. Əbu Hənifə, Malik bin Ənəs, İmam Şafii kimi sünni

müctəhidlərinin də təhsil aldığı həmin məktəbdə dinilik və dünyəvilik anlayışları ayırd edilmədən tədris aparılmışdır. Heç təsadüfi deyil ki, ilk kimya kitabının müəllifi də elə bu məktəbin məzunu olan Cabir bin Həyyan (Geber) olmuşdur. Onun bir neçə elmi əsəri latıncaya tərcümə edilib. Cabirin kitablarından ən məşhuru isə 1672-ci ildə fransız dilinə çevrilib. Distillə, kristallaşma, ərimə, analiz və reaksiya kimi anlayışları ilk dəfə elmi şəkildə xəbər verən məhz Cabir olub. O, bir sıra kimyəvi maddələri kəşf edib və onların üzərində elmi tədqiqatlar aparıb.



Aşağıda sadaladığımız bəzi faktlar da dünyəvi elm ayrıseçkiliyi edilmədən müsəlman ölkələrində tədrisin aparıldığını subut edir:

a) İbn əl-Heysəm (965-1037) - optikanın atası. Platon və Evklidin işıq şüalarının gözlə əlaqəsi haqqında nəzəriyyəsinin səhv olduğunu sübut edib. Avropada Alhazen kimi maşhur olan İbn əl-Heysəm dördüncü qüvvənin tənliklərinin həlli üsullarını göstərib. Bu məsələ ilə 550 il sonra italyan riyaziyyatçısı Kardano (1501-1576) maraqlanıb. Fotoaparatn ilkin olaraq sxemini insan gözündən ilham alaraq əsərlərində yazmışdır.

b) Abbas bin Firnas (810-887). Rayt (Wright) qardaşlarından min il əvvəl təyyarəni kəşf etmişdir. Lakin onun kəşfinin bir nöqsanı var idi. Quyruq hissəsini dizayn etmədiyi üçün təyyarəsi yerə enərkən qəzaya uğrayırdı. Rəngsiz şüşə, su saatı, eynək linzaları (oxuma daşları) kimi ixtiralar da ona məxsusdur.

c) Cərrahiyyənin atası Əbül-qasim əl-Zəhrəvi (936-1013), "Kitab əl-Təsrif"in müəllifi. Bu gün xəstaxanalarda cərrahlar tərəfindən işlədilən bir çox alətin və sorulan cərrahi sap olan ketqutun ixtiraçısıdır. Hemofiliyanın

irsi olması ideyasını irəli sürmüşdür. Cərrahi əməliyyat zamanı termokoaqulyasiya və damarların liqaturaya alınması metodu da ona məxsusdur.

d) əl- Cəzəri (1136-1206), fizik və mühəndis. Mühərriklərdə porşeni və fil saatı kəşf edən alim.

e) Məhəmməd Xarəzmi (IX əsr), cəbr (əl-cəbr) elminin əsasını qoyub.

f) Yerin Günəş ətrafında hərəkət etdiyini Əbu Reyhan Biruni (X-XI əsr) Kopernikdən 500 il əvvəl bildirib.

g) Əl-Uqlidisi adlı riyaziyyatçı alim 950-ci ildə yazdığı bir əsərində onluq kəsr təlimlərinin əsaslarını verəndən 635 il sonra holland riyaziyyatçısı Stevin (1548-1620) onluq kəsri elmə gətirib.

h) İlk coğrafi qlobusu Marağa Rəsədxanasının mühəndisi Kəriməddin Səlmasi 1266-cı ildə hazırlayıb - alman alimi Martin Bahayından 226 il əvvəl.

Sadaladığımız bu faktların sayını dəfələrlə artırmaq da olar. Lakin kitabın mövzusundan uzaqlaşmamaq üçün bu nümunələr İslamn ilkin dövrlərində dünyəvi elmin şəriət elmindən ayrılmadığını bildirməyə kifayətdir. Dünyəvi elmlərin tədrisinin mədrəsələrdən yığışması gələcək siyasi və iqtisadi problemlərin başlanğıcı idi. Artıq bir sıra təbiət elmlərindən uzaqlaşma Qurani-Kərimin və elmi yükü zəngin olan hədislərin dərki və tətbiqinə də maneə idi. Bu elmsizləşdirmə ilə müsəlmanların kasıblamasına da start verildi. Lakin problemlər bununla da bitmədi. Bundan sonra şəriət elmlərinə də təcavüz başladı.

**3) Şəriət sahəsində elmsizləşdirmə.** Təbiət elmlərinin ayrılması ilə təkqanadlı qalan elm quşuna növbəti zərbə endirildi. Dünyəvi elmləri xalqın gözündən salan və bu fənnlərə qarşı müsəlmanların marağını öldürən bəzi din xadimlərinin növbəti həmləsi şəriət elmlərinə oldu. Geniş xalq kütləri arasında növbəti təbliğat kampaniyası başladıldı. Bu kampaniyanın əsas olaraq iki istiqamətdə yürüdüldüyünün şahidi oluruq.

a) Quranın bütləşdirilməsi və xalqın Qurandan uzaqlaşdırılması. Bu yolla xarici kəşfiyyatn bilərək və ya bilmədən sifarişini yerinə yetirən şeytani ruhanilər Quranı qəbiristan kitabı, qoruyucu rəmz və rəflərdə suvenir halına gətirdilər. Minbərlərdə Quran barədə xübələr konkretdir: ***"Quran çox qəliz kitabdır! Oxuyaraq başa düşə bilməzsiniz! Səhv oxusanız böyük günaha batarsınız! Quranı anlamaq böyük təfsir alimlərinin işidir! Siz hara, Quranı anlamaq hara?! Oxuma! Oxusan, öz beynində səhv təfsir edərsan!"*** Bu kimi təlqinlərlə müsəlman camaat öz müqəddəs kitablarından mənən təcrid oldu. Heç təsadüfi deyil ki, əksər müsəlman ölkələrində vəziyyət eynidir. Quran ancaq öpmək və ya qəbir üstündə oxumaq üçündür. Bu gün müsəlman aləminin böyük əksəriyyəti Quranda yazılanlardan xəbərsizdir. Peyğəmbərimizin ən avam adama belə Quranı tədris etməsinə baxmayaraq, bu gün Müqəddəs Kitab yalnz müəyyən zümrənin anlaya biləcəyi bir kitab halına gəlmişdir. Peyğəmbərimizin ətrafındakıların da ərəb olması bizi çaşdırmasın. Çünki ərəb olanlar da bu kitabı oxuyan kimi başa düşmürlər. Quranın üslubu fərqli olduğu üçün ərəblər də onu öyrəndikdən

sonra anlayırlar. Və bu kitabı hər bir müsəlman rahatlıqla öyrənib öz payına çatan qədərini ordan götürməlidir. Quranda hər kəsin öz payı var və bu payı əldə etmək üçün bir az çalışmalıylq. Müsəlmanlar bu barədə o qədər qorxudulublar ki, heç Quranı öyrənmək barədə düşüncəyə belə qapılmaqdan çəkinirlər. Allah-taala isə bizi öyrənməyə təşviq edir:

**“Bu, açıq-aydın Kitabın ayələridir. Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, başa düşə biləsiniz.”** (Yusuf surəsi, 1-2)

Aydın məsələdir ki, Quran təkcə ərəblər üçün nazil olmayıb. Ona görə də, Quranı orijinaldan oxuyaraq öyrənməkdən heç bir mömin qorxmasın. Rəbbimiz özü deyir ki, “açıq-aydın kitabın ayələridir”, "qəliz" və "anlaşılmaz" ifadələri işlədilməyib! ... Ona görə də, şeytana və şeytansifətlərə lənət oxuyub müqəddəs Quranı bacardığımız qədər öyrənək.

b) Hədislərdən uzaqlaşdırma. İslam iki mənbədən öyrənilir: biri Quran, digəri isə Peyğəmbərə istinad edilən hədislər. Hədislər siyasətin iyrənc burulğanına düşdüyü üçün bəziləri təhrif olunmuş, bəziləri isə sonradan uydurulmuşdur. Hədislərin yalanlarını səhihlərindən ayırmaq üçün rical elmi deyilən bir elm mövcuddur. Ən sadə yolunu isə Rəsulallah özü buyurub: *"Mənim hədislərimi Quranla tutuşdurun. Düz gələnlərini qəbul edin, düz gəlməyənlərini divara çırpın."* Buna görə də İslam ümmətinin Qurandan uzaq düşməsi hədisləri dərk etməkdə də problem yaradır. Digər tərəfdən, Quranla düz gələn hədisləri də şeytani təlqinlərlə gözdən salırlar. ***"Hədisləri araşdırmaq sizin işiniz deyil", "Bunun üçün hədis araşdıran alimlər var"*** kimi təlqinlər hər ziyalı möminin qulağına pıçıldanıb. Heç tasadüfi deyil ki, Qurandan xəbərsiz qalan müsəlman hədisi də dərk etməkdə aciz qalacaq. İslamın iki əsas elm bulağından məhrum olandan sonra kiminsə sizə "fincanda" gətirdiyinə qane olmalısınız. Yəni atalar demişkən: "Qonağın qabağına nə qoysalar, onu yeyər". Bu məqamda əziz din qardaşlarımı bir yöndə xəbərdar etmək istəyirik.

## XƏBƏRDARLIQ

**UNUTMAYIN!** Sizi Quran və hədisləri müstəqil oxumaqdan çəkindirmək məqsədyönlü siyasətin bir parçasıdır. Bu gün İslam ölkələrində dinimizin düşmənləri müsəlmanlardan daha güclüdürlər. Telekanallardan tutmuş dini kitabxanalarımıza, mətbəələrimizə qədər bütün təsisatlarımıza nüfuz etmişlər. Bu gün dünyada bəzi müsəlman hökmdarlar islam düşmənlərinin səsini eşidəndə titrəməyə düşürlər. Məscidlərimizin memarlıq üslubundan tutmuş namaz səccadələrinə qədər mason simvolikasına, xaç şəkillərinə, satanistlərin işarələrinə rast gəlirik. Düşmənlər belə izlər buraxmaqla möminlərin qəlbinə şəkk və tərəddüd salmağa, İslama olan inamlarını sarsıtmağa çalışırlar. Onların bu hərəkatı dediyimiz elmsizləşdirmə siyasətində öz pik nöqtəsinə çatmışdır. Öz axirətinizi əldən verməmək üçün daim elm öyrənməli və müstəqil araşdırmaçı olmalısınız. Heç vaxt unutmayın ki, müsəlman dövlətlərini lərzəyə salmaq qüdrəti olanlar üçün kitabxanalardakı dini ədəbiyyata müdaxilə etmək uşaq oyunudur.

"Mənim sevdiyim din aliminin kitabına təsir edə bilməzlər" deyib özünüzü sadəlöhvlüklə aldatmayın. Quran və hədis külliyyatı ilə sizin aranızda uçurumlar yaratmışlar. Aldığınız kitablarda yalnız öz seçdikləri ayə və hədisləri, öz şərhləri ilə sizə çatdırır, sizi öz istədikləri istiqamətə yönləndirirlər. Dini kitabları hazırlayb sizə təqdim edirlər, siz də öz istədiklərinizi deyil, pərdə arxasındakıların sizin üçün istədiklərini oxuyursunuz. Pərdə arxasından müsəlmanları öz istədikləri kimi tərbiyə etmək istəyənlar İslam maarifinin böyük bir hissəsini gizlətməklə, yalnız özlərinə sərfəli hissəsini sizə çatdırırlar. Öz çatdırmaq istədikləri ayə və hədisləri də oxucunun ağıl süzgəcindən keçirməyə imkan vermədən şərh edərək beyinlərə yükləyirlər. Bununla da dindar kütlə yalnız onlar üçün işarələnniş yolla gedir. Dindarın bu yolda heç bir iradəsi və seçin hüququ yoxdur. Mömin Quran və hədis oxumaqdan çəkindirilmişdir. Gözəgörünməz "əl" onun qarşısına bir neçə kitab qoyub. O kitablardan başqasını oxumağa imkan vermirlər. Başqa məzhəblərin kitablarını da müəllifləri “cəhənnəmlik" olduğu üçün din xadimləri oxumağa qoymurlar. Öz məzhəbindən də yalnız məhdud sayda və bir neçə alimin yazdıqlarını oxuya bilirlər. İstər sünni camaat olsun, istərsə də şiə, farqi yoxdur. Hamısı ilə bu oyun oynanır. Hər bir camaat və ya firqə ilə rastlaşanda dünya və axirəti özündə birləşdirən İslam dininin yalnız bir qəlpəsini onda görürsən. Bir camaatda yalnız səxavat, bir camaatda yalnız radikallıq, digərində yalnız xoş əxlaq, başqa birində yalnız alicənablıq, birində yalnız müharibə əhval- ruhiyyəsi, digərində yalnız sevgi və şəfqət, başqa bir camaatda isə yalnız zalımla mübarizə ruhiyyəsi yaradıblar. Əslində bu sayılan dəyərlərin hamısından müəyyən qədər müsəlmanda olmalıdır. İslam dinini böyük tort kimi kəsərək hər kəsə bir dilim veriblər. Beləliklə, dinin hamısını dərk etməyə və yaşamağa mədəni surətdə mane olurlar. Dəhşətlisi odur ki, qıraqdan baxanda gülməli görünən bu oyuna heç bir müsəlmanda etiraz hissi görmürsən. Müsəlman qeyrət kəmərini taxaraq ayağa qalxmalı və Quranı öyrənməlidir. Bundan sonra peyğəmbərin hədislərinə üz tutmalı və hərtərəfli mütaliə etməlidir. Mütaliə əhli olmayan müsəlmanın qurtuluşa çatması heç ağlabatan deyil. Çünki lazımi mövzulardan tam təcrid edilmiş müsəlman tablosu var gözlərimizin önündə. Fikrimizi daha aydan izah etmək üçün sünni və şiə aləmində təbliğ olunmayan və üzərindən səssizcə keçilən mövzulardan bəzilərini qeyd edak.

## Şiə müsəlmanları və elmi blokada

Bu gün bir sıra siyasi səbəblərə görə şiə camaatlar arasında təbliğ olunmayan aşağıdakı faktlarla rastlaşırıq:

- İmam Əlinin siyasətdən uzaqlaşdığı və özündən əvvəlki xəlifələr və onların tərəfdarları ilə vəhdət yaratdığı dövr;
- İmam Hüseynin Kərbəla hadisəsindən əvvəlki həyat və yaradıcılığı;
- İmam Zeynul-Abidin, İmam Kazım, İmam Təqi, İmam Hadi və İmam Həsən Əsgəri kimi Əhli-beyt imamlarının həyat və yaradıcılıqları;
- Cəməl müharibəsində ummul - möminin Aişəyə İmam Əlinin

münasibəti;

-İslamdan əvvəlki peyğəmbərlərin həyat tərzi və təbliğ metodikası

Bu deyilənlər haqqında təbliğ ya çox zəif gedir, yaxud da heç getmir. Amma bunlardan agah olmayan mömin zamanımızın şərtlərində öz dinini necə yaşamasını və təbliğ etməsini bilməyəcək. Bu gün şiə ədəbiyyatı öz ardıcıllarını zülm və zalımla kəskin mübarizəyə və fəal təbliğə dəvət edir. Bəzən şiəyönümlü mediada “əmr be məruf” və “nəhy əz münkər” məsələsi o dərəcədə qabardılır və sıravi şiə mūsəlmanına cəmiyyətdə ədalətin bərpası üçün elə tələblər qoyulur ki, adam mat-məəttəl qalır Halbuki, bu tələb edilənləri tarixdə bir çox peyğəmbərlər belə bacarmayıb. Allahın elçiləri belə bəzi cəmiyyətlərdə ədaləti bərpa edə bilməyib və o cəmiyyətlər əzaba mübtəla olublar.

Şiələr arasında tez-tez indiki zamanın hansı əhli-beyt imamının dövrünə uyğun gəlməsi haqqında elmi mübahisələr olur. Bəziləri İmam Hüseynin zülmlə mübarizə dövrünə uyğunluq axtarır, bəziləri isə İmam Cəfərin elmi tərəqqi dövrünə. Əslində, bunların heç biri deyil. Bu gün heç bir şiəyə ya filan rəhbərə "islamın imamı kimi beət et, ya da bu yolda Hüseyn kimi şəhid ol” deyilmir. İmam Hüseynin qarşısında bu iki şərtdən birini qəbul etmək qoyulmuşdu. Ya Yezidə beət et, ya da bu yolda öl! Üçüncü variant yox idi. Peyğəmbərimizin nəvəsi də Yezidə beət etmədi və heç edə də bilməzdi. Bu gün Hüseyn bin Əlinin qarşısında qoyulan şərt heç bir şiə mūsəlmanına diqtə olunmur. Eləcə də heç bir şiənin dünyanın hər hansısa bir yerində İmam Cəfərin məktəbinin formasında məktəb açması real deyil. Demokratiyadan dəm vuran dünyamızda belə bir məktəb görmürəm və görəcəyimə də inanmıram. Çünki dünyada İslama və İslam maarifinə qarşı qeyri-konstruktiv mövqe var. Deməli, İmam Cəfərin də dövrünə uyğunluq yoxdur. Bəs təbliğ necə olmalıdır?

Şiə müsəlmanları 10 və 11-ci Əhli-beyt imamlarının həyat tərzini mütləq bilməlidirlər. Çünki günümüzdə texnologiya insanların evlərinin içərisində nə yediklərini, nə danışdıqlarını, nə vaxt yatdıqlarını, hətta ər-arvadın gizlində bir-birlərinə nə pıçıldadıqlarını belə izləməyə imkan verir. Bu texnologiyaların da kimlərin icadı olduğunu deməyə ehtiyac yoxdur. İcad edənlər müsəlmanların rəqibləridir və ciblərimizə (telefon) qədər təsir dairələri var. Dediyim imamlar da ciddi təqiblərdə yaşamışlar Həsən-Əsgərini tam nəzarətdə saxlamaq istəyən xəlifə ona qarşı iki taktiki gediş edir:

1) İmamı qızı ilə məcburi olaraq evləndirir. Bu evlilik vasitəsilə onun bütün sirlərini bilmək, fəaliyyətindən xəbərdar olmaq və onu tam nəzarətdə saxlamaq istəyir.

2) İmamı İraqın Samirə şəhərində ev dustağı edir və hərbi qarnizonun ərazisindən uzaqlaşmağa yasaq qoyur. Bu imam Həcc ziyarətinə belə gedə bilməyib. Hərbi hissənin ərazisində saxlanıldığı üçün ona "Əsgəri" ləqəbi verilmişdir.

Artıq düşüncəli insanlar bizim nə demək istədiyimizi bildilər. Ciddi

təqiblər zamanında nə etməli olduğunuzu bilmək istəyirsinizsə, bu imamın hansı metodikadan istifadə edərək dini təbliğat aparmasını öyrənməlisiniz. Amma düşmənləriniz bunu bilməyinizi istəmədikləri üçün siz kitabxanalardan İmam Həsən Əsgərinin həyatına dair ətraflı və əhatəli bir əsər tapa bilmirsiniz. Heç şiə müsəlmanlarına elə kitabın yaxın zamanlarda qismət olacağını da düşünmürəm.

Eləcə də, şiələrin İmam Əlinin özündən əvvəlki üç xəlifə ilə necə və niyə vəhdət yaratdığını, həmin zamanın şərtlərini, o həzrətin islam vəhdəti uğrunda apardığı çalışmalar və səylər, elacə də siyasətdən və müharibələrdən uzaqlaşdığı dövr haqqında əhatəli bir kitab əldə edəcəkləri mənə heç inandırıcı gəlmir. Çünki o kitab yazılsa, islam düşmənlərinin onurğa sütununda çatlar yaranar və İslam vəhdəti qaçılmaz reallığa dönüşər. Sünni müsəlmanlar da bu cümləıəri oxuyarkən təəccüb etməsinlər. Çünki sünnilər də elə şiələrin günündədirlər. Əhli-sünnə camaatları da bir-birindən təcrid olunmuş və hamısı bir və ya iki şeyxdən asılı vəziyyətə düşmüşlər. Bu yolla islam külliyyatından təcrid olunmuş və İslam şəriəti və tarixi barədə blokadaya salınmışlar.

### Əhli-sünnə müsəlmanları və elmi blokada

Şiələrin zülm və haqsızlıqlara qarşı etiraza dəvətinin ifrat həddə çatdığını qeyd etməklə yanaşı, sünni müsəlmanların mütilik barədə ifratda olduqlarını qeyd etməliyik. Hökm və hökmdar qarşısında mütiliyə dəvət sünni aləmində hökumətlərin qərbyönümlü olmasına gətirib çıxarmışdır. Hətta Səudiyyə Ərabistanı kimi İslamın qibləsi olan bir ölkənin müsəlman qanına boyanmış əlləri dost kimi sıxması bu yanlış təbliğin nəticəsidir. Hər il milyonlarla müsəlmanın qətlinə, qaçqın düşməsina, yurd-yuvasının dağılmasına səbəb olanlarla dostluq, sünni ədəbiyyatında zalımla mübarizənin təbliğ olunmamasından irəli gəlir. Hər şeyin əvvəli oxuduğumuz dini ədəbiyyata və dinlədiyimiz çıxışlara və moizələrə gəlib çıxır. Əhli-sünnə ədəbiyyatında təbliğ olunmayan və sünni müsəlmanların məhrum edildiyi bəzi mövzuları qeyd edək:

- Peyğəmbərimizin öz düşmənləri ilə mübarizə əhval-ruhiyyəsi və islam düşmənlərinə qarşı taktikası;
- Peyğəmbərimizin kəşfiyyat sistemi qurması və o həzrətin Əbu Taliblə əlaqəsi; Əbu-Talibin həyatı;
- Cəməl müharibəsində ummul-möminin Aişəyə İmam Əlinin münasibəti;
- Siffeyn müharibəsinin ətraflı tarixçəsi;
- İmam Həsənlə Muaviyyə arasındakı münaqişə; sülh və sülhün şərtləri:
- Peyğəmbərin müsəlmanlara əmanət qoyduğu nəslinin aqibəti və tarixdə bu əmanətə olan münasibət;
- Kərbəla hadisəsinə hansı siyasi proseslərin zəmin yaratması və Yezidin xəlifəliyə iddiasının səbəbləri.

İnanın ki, İslam düşmənləri sünni müsəlmanların bu qeyd etdiyimiz mövzuları dərindən bilmələrini qəti istəmirlər və bu mövzuların işıq üzü

görməsi düşmənlərin sonunu yaxınlaşdırır. Götürək peyğəmbərin qurduğu kəşfiyyat və əks-kəşfiyyat siyasətini. Sünni mənbələrində peyğəmbərin əmisi Əbu-Talibin uşaqlıqda o həzrəti himayə etməsi, dini elan etdikdən sonra kafirlər arasında onu qoruması və nəhayət, islamı qəbul etməyərək kafir olaraq ölməsi səthi olaraq qeyd edilmişdir. Amma bu deyilənlərin öz aralarında ziddiyyət yaratması elə ilkin təəssüratdır. O əzəmətdə peyğəmbərin və o əzəmətdə İslam dininin bir kafirin himayəsi sayəsində ayağa qalxdığını düşünmək nə dərəcədə ağlabatandır? Allahın öz dinini və peyğəmbərini qorumaq üçün bir Məkkə müşrikinə ehtiyacımı var idi? İslamın ən böyük düşmənlərindən biri olan Məkkə müşriki Əbu-Ləhəb də peyğəmbərin əmisi idi. Lakin onun müsəlmanlar tərəfindən cəhənnəmə vasil olması hadisəsində o həzrət “uf” demədi və "bu firondan da pis idi" buyurdu. Niyə Rəsulallahın gizli qurduğu kəşfiyyat barədə heç kim fikir yürütmür? Müsəlmanlar qəflət yuxusundan ayılmasın deyə bu faktlar gizlədilir və Əbu-Talibin Əlinin atası olduğu üçün məzhəblərarası problem pərdəsinə salınır. Açıq görüşlü sünni müsəlmanlar Muhəmməd peyğəmbərin Əbu-Talib siyasətini araşdırsalar və tətbiq etsələr, nə nəticə verər? Bu gün İslam aləminə kafirlərin içində müsəlmanları himayə edəcək Əbu-Taliblərə ehtiyac yoxdurmu? Elə peyğəmbərimizin dərin siyasətinə dırnaqarası yanaşdığımız və "o həzrəti bir kafir qorudu" dediyimiz üçün pis günə qalmışıq. Bizim bütün islamofob parlamentlərdə əbu-taliblərimiz olmalıdır. Onları yetişdirmək üçün isə bizim qarşımıza şeytani alimlərin yazıb atdığı broşura bənzəyən kitablar kifayət edə bilməz. Bir çox ziyalı möminlərdən dini ədəbiyyatlar haqqında eşitdiyim bir fikir var: "200-300 səhifəlik dini kitabı oxudum və gördüm ki, mahiyyətində çox olsa, 30-40 səhifəlik məna yatır. Eyni mətləblər manasız yerə ayrı cümlələrlə dəfələrlə qeyd olunur. Nəhayət, günlərlə davam edən mütaliədən sonra analiz edib görürük ki, bu boyda kitabda yazılanları bir broşurda əhatə etmək olar." Şübhəsiz ki, bu sözlər bütün kitablara aid olmasa da, əksəriyyətinə aiddir. Eyni sözləri islam dinində xətalar və eyblər axtarmaq istəyən islam düşmənlərindən də daha sərt formada eşidirik. Düşmənlər də dövrümüzdə dərc olunan İslam ədəbiyyatının heç bir elmi yükünün olmamasını və avamları elm adı ilə aldatmaq üçün dərc olunduğunu deyirlər.

## Çıxış yolu

Zamanımızın əbu-təliblərini yetişdirmək üçün rəbbani alimlərin və ziyalı möminlərin birgə səy göstərməsi lazımdır. Bu gün əbu-taliblərə islamofob parlamentlərdən katolik kilsəsinə, oradan da mason lojalarına qədər hər yerdə ehtiyac var. Bütün bu problemlərin həlli elmi-maariflənmədə və məzhəbbazlıq divarlarını yıxaraq ümmət okeanına yelkən açmaqdadır. Özümüzü bir-iki şeyxin təfəkkür ağacından asmaqdan və kor-koranə təqliddən imtina edərək dərin elmi araşdırmalara başlamalıyıq. Başda Quran və hədislər olmaqla bütün İslam aləmində yazılmış kitablardan istifadə etmək və digər firqələr və camaatlarla qaynayıb qarışmaq lazımdır. Bununla hər bir müsəlman İslam düşmənlərinin onlar üçün qazdığı və istiqamətini təyin etdiyi arxlardan çıxıb, okeana – yəni ümmətə çıxmaq şansı qazanacaqdır.

(Səhifə 209-264-də, Elvin Tanrıyarın “İslamda Vəhdətin Genetik Kodu” adlı əsərindən istifadə olunub.)

## YANLIŞ BİLİNƏN İSLAM

"Ya mənim dinimə dön, ya da öl!" – bu, xurafatçıların şüarıdır. Xurafat dinində demokratiya, fikir azadlığı, sevgi, hörmət, şəfqət, fədakarlıq və s. kimi anlayışlar yoxdur. Bəzi insanlar xurafatın və bundan irəli gələn radikalizmin hər hansı bir haqq dinin tərkibində olduğunu zənn edirlər. Halbuki xurafatın özü ayrıca bir dindir. Hər düşüncədə xurafat dininin təmsilçiləri vardır. İslam, musəvilik və xristianlıq dinlərində olduğu kimi, marksizm, faşizm və ateizmdə də xurafatçılar çoxdur. Onların hamısı eyni batil dini müdafiə edirlər: "sənin fikrini qəbul etmirəm, ya mənim fikrimi qəbul et, ya da məhv ol get!"

Xüsusilə son dövrlərdə bu azğın din ən çox İslam dini kimi tanınmağa başlanmışdır. Bir çoxları xurafata İslam adını qoyublar və bu dinə qarşı münasibətlərini İslama yönəldiblər. Belə ki, İbrahimi din qorxu kəlməsi ilə birlikdə anılmağa başlamışdır. Dünyanın hər yerində islamofobiyadan danışırlar. İnsanlar qorxularının İslamdan deyil, xurafatdan qaynaqlandığını anlamırlar. Xurafatçıların qurduqları dinin İslam adından ortaya çıxdığını görmürlər. Çünki heç kim İslam dininin belə olmadığından bəhs etmir. İslam adından ortaya çıxan radikallar da, onlardan qorxanlar da həqiqi İslamın bu sevgisiz və nifrət dolu dinlə heç bir əlaqəsinin olmadığını göstərmirlər. İslamçı radikallar bütün dünyaya, ən çox isə müsəlmanlara zərər verməyə davam edirlər.



**İslamofobiyanın əsas səbəblərindən biri radikalizmdir. Radikalizmi İslam zənn edənlər əslində İslama qarşı çıxmaqla ən böyük xətanı edirlər və radikalizmin yeganə həll yolu ilə mücadiləyə girmiş olurlar.**

Tolerantlıq anlayışı da buna görə ortaya atılmışdır. Sanki həm vəhşiliyə əsaslanan, həm də tolerant olan İslam modeli varmış kimi, radikalizmə qarşı çıxan dindarlar tolerant müsəlmanlar kimi tanınmağa başladı. İslam əleyhdarları tolerant dini müdafiə edənləri təqdir etdilər, lakin onların radikallara nisbətən çox zəif olduqlarının şahidi oldular. Elə zənn etdilər ki, bir qisim sülh tərəfdarı olan insanlar vəhşilik dinini yumşaltmağa çalışırlar (İslamı tənzih edirik). Hətta buna İslamda islahat deməyə başladılar və

tolerant dindarları da islahatçı adlandırdılar. Halbuki bunun islahat deyil, gerçək İslam olduğunu göstərən olmadı. İslam əleyhdarları islahatçıları tərifləsələr də, radikalların şiddət əməllərinə və onların İslamı təmsil etdiklərinə daha çox inandılar.

Sülhsevər müsəlmanlar İslam dinini yumşaltmağa, islah etməyə və ya tolerant hala gətirməyə çalışmırlar. Sülhsevər müsəlmanlar olaraq əsas məqsədimiz illərdir İslam adı altında dünyaya yayılan yalanı yox etməkdir. Buna görə də uzun illər boyu İslam adından təmsil edilən radikalizmi, fanatizmi və xurafatı ortadan qaldırmağa çalışırıq və Qurandan dəlillər gətirməklə İslamın həqiqətini göstəririk. Bununla da indiyə kimi xurafatçılar tərəfindən İslama atılan ən böyük iftiraya son verməyi düşünürük.

Bu kitabda radikalizmə qarşı tənqidləri ilə önə çıxan bəzi qərbli İslam əleyhdarlarının iddialarına və xurafatçıların qorxunc məntiqlərinə cavablar verilir. Eyni zamanda həmin saxta dinin müxtəlif qaynaqlarındakı iddialarının əsassızlığı Qurandan nümunələr göstərilməklə izah olunur. Xüsusilə bu iddialara qarşı çalışma işlərinin görülməsinin səbəbi odur ki, İslama atılan iftiraların hamısı bir-biri ilə bənzərlik təşkil edir və radikalizm özü yanlışlıqla İslam dini zənn edilir. Odur ki, məqsədimiz İslam dini haqqında yanlış bilinənləri Qurandan dəlillər gətirməklə açıqlamaq və bunları ortadan qaldırmaqdır.

Xurafatçıların problemi odur ki, onlar dini xurafatdan öyrənirlər. Belə ki, xurafatçıların saxta dinini tənqid edənlər də bəzən onlar qədər radikal davranır və xurafatçıların inancına onlar qədər inanırlar. Biz Qurandan dəlil gətirdikcə onlar xurafatçıların inancından sübut gətirməyə çalışırlar. Baxın, elə ən böyük xətaya da burada yol verirlər. Əgər gerçək İslamı tanıyıb xurafatçılıq problemini həll etmək istəyirlərsə, burda izah olunanları diqqətlə oxumalıdırlar. Əgər bunu etməsələr, radikalizm böyük bəla kimi dünyanı bürüməyə davam edəcək.

## İSLAMI VƏHŞİLİK DİNİ KİMİ GÖSTƏRƏNLƏRİN YANLIŞ İSTİFADƏ ETDİKLƏRİ İKİ ƏSAS ANLAYIŞ: ŞƏRİƏT VƏ CİHAD

Allah bir ayədə Quranı belə təsvir edir:

**...** *(Bu Quran)* **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusuf surəsi, 111)

Allahın ayədə açıq şəkildə bildirdiyi kimi, hər şeyi müfəssəl izah edən Quranı xurafatçılar əsla kifayət hesab etməyiblər. Çünki onlar Quranın göstərdiyi yolu öz batil dini inanclarına uyğun görmürlər. Elə buna görə də tarix boyu bir çoxları iddia ediblər ki, Quranın hökmləri kafi deyil və şərhə ehtiyacı var (Quranı tənzih edirik). Buradan da belə bir fikir formalaşdırıblar ki, Quranı yalnız hədislər vasitəsilə anlamaq mümkündür.

Belə bir açıqlama verək: hədislər Peyğəmbərimizin sözləri olaraq bu günə qədər gələn izahlardır. Bir qismi səhihdir, yəni Peyğəmbərin dediyi

həqiqi sözlərdir. Bir qismi zamanla uydurulmuş, bir qisminin isə mənası dəyişdirilmişdir. Bir hədisin, həqiqətən, Peyğəmbərimizin sözü və ya əməli olduğunu anlamağın iki yolu var: Quranla üst-üstə düşməsi və gerçəkləşməsi. Qurana zidd olan söz və ya əməlin Peyğəmbərimizə aid olduğunu iddia etmək isə birbaşa ona böhtan atmaq deməkdir. Çünki Peyğəmbərimiz yalnız Qurana tabe olmuşdur.

Quranı ancaq hədislərlə anlamaq məntiqi İslam dünyasına böyük zərərlər vermişdir. Çünki bu məntiqlə hərəkət edən müsəlmanların çoxu din adından uydurulan hədislərə tabe olmağa başlamışdılar. Hətta müəyyən müddət sonra Quranı kənara qoyub ancaq həmin hədisləri dinlərinin qaynağına çevirmişdilər. Uydurma hədislər Quran ayələrinə uyğun gəlməyəndə isə o hədislərin ayələrin hökmlərini nəsh etdiyini (hökmdən qaldırdığını) deməyə belə cürət etmişdilər. Beləliklə, yüzlərlə uydurma hədisdən qaynaqlanan müxtəlif dinlər inkişaf etmiş, İslam dinində bir çox mövzuda bir-birindən fərqlənən dörd ayrı məzhəb ortaya çıxmışdır. Məzhəb alimləri isə özlərinə müsəlman demiş, fəqət hamısı fərqli şeyləri müdafiə etmişdilər. Hətta bir-birilərinin dindən çıxdığını belə düşünmüşdülər. İslam alimlərinin düşdüyü bu vəziyyəti Peyğəmbərimiz Quranda uca Allaha belə şikayət edir:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!"– deyəcək.** (Furqan surəsi, 30)

Həqiqətən də, bu gün Quranı bir kənara qoymaq İslam aləminin böyük hissəsinin əsas problemidir.

Quran tərk edildikdən sonra sıra icmaya gəldi (icma hər hansı dövrdə yaşayan din böyüklərinin qiyasa, yəni müqayisəli dəlillərə əsaslanaraq verdikləri şəriət hökmləridir). Həmin adamlar Qurana tabe olmadıqlarına görə minlərlə hədisin içində çaşbaş qalıb bu dəfə belə qənaətə gəldilər ki, hökmləri nə Quran açıqlaya bilir, nə də hədislər. Bundan sonra isə özləri İslam adından qanunlar çıxarmağa başladılar. Məzhəblər bir-birinə zidd olduğu halda, bu dəfə məzhəblərin içindəki icmalar fərqliləşməyə başladı. Hər din böyüyünün öz izahı hökm kimi qəbul edildi və hər camaat fərqli yöndəmləri əsas aldı. Bu minvalla böyük İslam cəmiyyəti məzhəblərə, siniflərə və sonda isə kiçik qruplara bölünməyə başladı. Quranı isə öz qabında bəzək əşyası kimi divardan asdılar. Bütün bu proseslərdən sonra



**Bu gün İslam dünyasının əksəriyyətinin problemi Quranı tərk etmələridir. Hər "din ağsaqqalı" kimi dəyərləndirilən şəxsin öz izahı qayda olaraq qəbul edilmiş, dolayısı ilə hər camaat fərqli bir təcrübəni əsas almışdır.**

İslam cəmiyyətlərinin böyük qismi Quranı tərk etdi.

İslam əleyhdarlarının bir qisminə nəzər salsaq, görərik ki, onların da problemləri xurafatçılarla eynidir. Onlar da İslamı Qurandan öyrənmirlər. Eyni xurafatçıların etdiyi kimi, onlar da İslamı uydurma hədislər, ənənələr və bir neçə din adamının Qurana uyğun olmayan icmaları əsasında dəyərləndirirlər. Onlara görə, İslam xurafatçıların həyatı və əməlləridir və yenə onlara görə, İslam Qurandakı din deyil, tarixçilərin xəyal gücüdür. Onlar Quranın deyil, həmin uydurma dinin əmrlərinə şəriət kimi baxırlar. Quranın ehtiva etdiyi dəyər və anlayışlardan xəbərləri yoxdur, lakin xurafatçıların saxta dinlərinin bütün qaydalarını çox yaxşı bilirlər. Bu saxta dinin qaydalarını tənqid edərkən elə zənn edirlər ki, İslamı tənqid edirlər. Xurafatçıların dininə elə sahib çıxırlar ki, bunun İslam olmadığını deyəndə heç inanmırlar. Bu da həddindən artıq böyük xətadır.

Həmin şəxslər əgər ideoloji din əleyhdarı kimi İslama qarşı deyillərsə və xurafatçı zehniyyətin qaranlığından, doğurdan da, çıxış yolu axtarırlarsa, buna inanmaq məcburiyyətindədirlər. Onların dini İslam deyil. Bir müsəlman üçün Quran təkbaşına kifayətdir. Qurana uyğun olan hədislər səhihdir. Qurana zidd olan hədisin İslamda yeri ola bilməz. Əgər bir müsəlman Quranda İslamı tapa bilmirsə, deməli, başqa din axtarır. O dinin şəriəti isə İslam deyil.

## QURANDAKI GERÇƏK ŞƏRİƏT

"Şəriət" sözünün mənası yol deməkdir. Bir müsəlman Qurana baxmaqla hansı yolu gedəcəyini müəyyən edə bilər. Quranda haramlar olduqca azdır və qəti hökmlərlə bildirilmişdir. Mübahisə və şərhə açıq deyildir. Məsələn, adam öldürmək, zina etmək, faiz almaq, donuz əti yemək Quranda qəti ifadələrlə bildirilmiş haramlardır. Bu, Quranın əhəmiyyətli xüsusiyyətidir. Ayələri öz istəklərinə görə şərh edərək haram çıxarmağa çalışanlar daima öz bildiklərini ediblər. Halbuki Allah haramları qəti hökmlərlə qadağan etmişdir. Aşağıdakı ayədə olduğu kimi:

**O sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir...** (Bəqərə surəsi, 173)

Allah həm də Quranda İslam adından halal-haram anlayışları çıxaran şəxslərin olacağını xəbər verir:

**Dilinizin uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!”– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.** (Nəhl surəsi, 116)

Peyğəmbərimizin dövründən sonra ayənin təsviri ilə Allaha qarşı yalan uyduran topluluqlar ortaya çıxmışdır. Bu topluluqlar Qurana tabe olmadıqlarına görə istədikləri şeylərə halal və ya haram deyiblər. Lakin elə topluluq da vardır ki, Allah onların bu xüsusiyyətlərini ayrıca vurğulayır. Onlar halal olan gözəllikləri haram edirlər. Quranda belə buyurulur:

**Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu təmiz ruziləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevmir.** (Maidə surəsi, 87)

Belə ki, dünyada şəriət adı altında tətbiq olunan, halbuki İslama tamamilə zidd olan sistemdən danışarkən halal olan şeyləri haram edən və Qurandan tamamilə uzaq olan cəmiyyətlərdən bəhs edəcəyik.

Əvvəlcə, Quran ayələrində açıqlanan gerçək şəriəti, yəni Quranın doğru yolunu təsvir edək:

Quran şəriəti sevgi və hörmət deməkdir; başqa düşüncəyə malik olanlara qarşı şəfqətli olmaqdır. Quran şəriəti demokratiyanı əsas götürür və fikir azadlığını dəstəkləyir. Quran şəriətində insanlar bilgili və təhsillidirlər, qarşı fikirlərə hörmətlə yanaşırlar. Eyni zamanda müasir, keyfiyyətli, ümid dolu həyat yaşayırlar, birlik, dostluq və sevgi kimi dəyərlərə əhəmiyyət verirlər. Quran şəriətində nifrət, dözümsüzlük, münaqişə, qovğa, kobudluq, təhdid və təzyiq kimi mənfi xüsusiyyətlər yoxdur. Qurana dair bu təsvirləri kitabın növbəti səhifələrində ayələr göstərməklə açıqlayacağıq.

Hal-hazırda bu təsvirlər əsasındakı Quran şəriətinə uyğun İslam ölkəsi varmı? Əlbəttə, yoxdur. Bu şəriət Peyğəmbərimizin dövründən bəri tətbiq olunmamışdır. İndiki dövrdə şəriətlə idarə olunduğunu deyən ölkələr və ya şəriət gətirmək istəyən bir çox vəhşi qruplaşmalar İslamın əvəzinə, xurafat dininin əsaslarını tətbiq edirlər. Bir qisim uydurma hədisləri rəhbər tutub Quranı tərk edirlər.

Sonrakı hissələrdə şəriət iddiası ilə ortaya çıxan, lakin nifrət və qəzəb saçan qrupların bu şəriətin qaynağını haradan aldıqlarını görəcəyik. Özlərinə rəhbər tutduqları bütün saxta hədisləri və onların əsassızlıqlarını bir-bir təhlil edəcəyik. Bu topluluqların tabe olduqları şəriətin Qurandan nə qədər uzaq olduğunu və qətiyyən İslam şəriəti kimi göstərilə bilinməyəcəyini aşkar dəlillərlə gözlər önünə sərəcəyik.



**Quranın şəriəti, müsəlmanın müasir, baxımlı, nəcib, ağıllı, mədəni, demokratik, açıq fikirli, bütün fikirlərə hörmətli və sevgi dolu olmasını tələb edir. Quran şəriətində qardaşlıq, sülh və sevgi vacibdir. Quran, Müsəlmanlara savaşı, zülmü, kin, qəzəb və qarşıdurmanı qadağan etmişdir. Əsl şəriəti bilmək istəyənlər, ancaq Qurana müraciət etməlidirlər.**

## Gerçək Quran Şəriəti Bir Ölkəyə Nə Verir?

Dünyada, həqiqətən, İslam şəriətini tətbiq edən ölkə olsa idi, necə olardı? Həmin ölkədə elm və sənət çox inkişaf edərdi, təhsil və yaşayış səviyyəsi yüksək olardı. Bu ölkə sülh tərəfdarı olardı və bütün dünya xalqları ilə birləşmək istərdi. Musəviləri, xristianları və ateistləri qoynuna alardı, hər düşüncə sahibi ilə dost olardı. Özündən çox ehtiyacı olanı düşünərdi, dünyaya asayiş və güvənlik gətirməyə çalışardı. Bununla belə, bütün problemləri həll etməyə çalışan, sevgi dolu və sevincli ölkə olardı. Bu ölkənin əhalisi keyfiyyət anlayışına sahib olmaqla yanaşı, ultra modern və ultra demokratik həyat tərzinə malik olardı. Hər fikir rahatlıqla söylənə bilər, hər görüş sərbəst şəkildə açıqlana bilərdi. Lakin eyni zamanda təhqir, hücum, dözümsüzlük və şiddət qətiyyən olmazdı. Mal bir tərəfə yığılmazdı, Quranda yoxsulun qorunmasına, yəni öz nəfsindən əvvəl qardaşının nəfsini düşünməyə əsaslanan həyat forması hakim olardı. Elə buna görə də yoxsul qalmazdı. Belə bir sistem dünyadakı bütün insanların rahat yaşadığı, hər kəsin xoşbəxt olduğu mükəmməl sistem olardı.

Bu təsvir indiki zamanda İslam dövləti adını alan ölkələrlə müqayisə olunarsa, aradakı fərq o dəqiqə anlaşılar. Hal-hazırda şəriət adından yaşanan sistemlər qəti şəkildə İslam şəriəti deyil. İslam şəriətinin yaşanması üçün din xurafatlardan tamamilə təmizlənməli və yuxarıda bildirdiyimiz kimi, Quranda təriflənən bütün təsvirlərə uyğun olmalıdır.

Bunun həyata keçməsi üçün isə İslam adı ilə idarə olunan ölkənin rəhbəri xurafata görə deyil, tam mənası ilə Qurana görə hərəkət etməlidir. Qurana tabe olan müsəlman liderin üç əsas xüsusiyyəti olur: şəfqətli, demokratik və ədalətli olmaq. Bu xüsusiyyətlərə görə həmin lider daima etibarlı olur. Quran əxlaqını tam şəkildə tətbiq edən müsəlman liderin himayəsindəki insanlar azadlığın yer üzündə daha əvvəl görünməmiş ən mükəmməl formasına şahid olarlar. Heç kimə dini məsuliyyət yüklənməz, hər kəs öz inancına görə hərəkət edər. Hər kəs istədiyi sözü demək haqqına sahib olar. Heç kəsə qarşı ayrı-seçkilik edilməz. Ədalət hər kəs üçün bərabər şəkildə ayaqda saxlanılar. Bəzən vəziyyət müsəlmanların əleyhinə olsa da, **Ey iman gətirənlər!** *(Şahidliyiniz)* **özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun...** (Nisa surəsi, 135) ayəsinə əsasən, ədalət mütləq yerini tapar.



Müsəlman lider daim sevgi yaratmağa çalışar və hamıdan bunu tələb edər. Çünki dinlərin nazil olma səbəbi, insanın və cənnətin yaradılış məqsədi sevgidir. Sevginin hakim olduğu, heç kimin inanc azadlığının əlindən alınmadığı, hər kəsin bolluq-bərəkətlilik içində yaşadığı cəmiyyətdə artıq qarışıqlığın da mənası qalmaz. Ədalətsizlik, sevgisizlik və düşmənlik ortadan qalxdığı üçün münaqişələr də yox olub gedər.

Beləliklə, şəriəti anlamaq üçün İslam şəriətinə əməl etdiyini deyən ölkələrə deyil, Qurana nəzər yetirmək lazımdır. İslam Quranla gəlmişdir. Buna görə də İslam şəriəti yalnız Qurandadır və açıq-aşkardır. Qurandakı ədalət, demokratiya və azadlıq sistemlərini tətbiq etməyən ölkənin şəriət mövzusuna nümunə göstərilməsi mümkün deyil. Belə ki, heç kimin "axı bu ölkədə belə tətbiq edilir, İslam bizə vəhşilik gətirir" şəklində iddia etməsi doğru deyil. Burada günah o ölkə rəhbərinin İslam adından tətbiq etdiyi yanlış sistemdədir, Quranda deyil (Quranı tənzih edirik).

Yuxarıda bəhs etdiyimiz gözəllikləri ehtiva edən Qurandakı gerçək şəriətin tətbiq olunmaması və bunun yerinə vəhşiliyin İslam şəriəti kimi tanıdılması, əlbəttə, çox vahiməlidir. Lakin bunun həll yolu Quranı günahkar çıxarmaq deyil. İslamı günahkar sayanlar, ümumiyyətlə, radikalizmin, vəhşiliyin və şiddətin yeganə həll yolunu əngəlləməklə daha da zərər gətirirlər. Gerçək İslamın gücünü qırmağa çalışaraq radikallara daha çox yol açırlar. Radikalizmin və yanlış inancların ortadan qaldırılmasının tək yolu doğru İslam anlayışının təbliğidir. Yəni ortada yanlış inanc problemi var. Yanlış inancların ortadan qalxması üçün yerinə mütləq doğru inanclar qoyulmalıdır.



## QURANDAKI GERÇƏK CİHAD

"Cihad" sözünün kökü "cəhd" kəlməsidir. Ərəbcə çalışmaq, cəhd göstərmək, əzm, fədakarlıq göstərmək kimi mənalar ifadə edir. Bununla belə, insanın öz nəfsinə hakim olması kimi mənası da var. Bu təriflərdən belə başa düşürük ki, İslamda cəhd qarşı tərəfi məlumatlandırmaq, gözəl əxlaqı öyrətmək, insanları pislikdən uzaqlaşdırmaq deməkdir. Bunları etməklə yanaşı, insan həm də öz nəfsini tərbiyə etməli, kin və qəzəbdən uzaq durmağa çalışmalıdır. Yəni cəhd edən müsəlman özünü tərbiyə etməklə yanaşı, yaxşı və gözəl olan əməlləri başqa insanlara da öyrətməlidir. Sevgini, sülhü, şəfqəti yayıb insanları pislikdən çəkindirmək üçün onlara fədakarlıqla təbliğ etməli və öz əxlaqı ilə də nümunə olmalıdır.

Quranın heç bir yerində "cəhd" kəlməsi bunlardan başqa mənalarda istifadə olunmamışdır. Odur ki, Qurana isnad etdiklərini deyib cihad adından qətliam törədənlər ya yalan danışırlar, ya da səhv yöndə təlim-tərbiyə alıblar.

Hazırda cihad adı altında insanları qətlə yetirənlər, intihar hücumu ilə öz canına qıyanlar, müharibəyə təşviq edənlər Qurana görə, haram iş görürlər. Lakin həmin insanların böyük qismi Qurana zidd davrandıqlarını bilmirlər. Çünki onlar din adından aldadılıblar. Onlara inandırılan dində sevginin yerinə nifrət, şəfqətin yerinə qəzəb, qardaşlığın yerinə düşmənlik, gözəlliyin yerinə kabus, sənət və elmin yerinə isə cəhalət hakimdir. Belə bir dinə inanan adama silah verib: "Bu topluluq sənin düşmənindir, onlara hücum etməlisən", –deyərək onu qızışdırmaq çox asandır. Qəzəb və kin cəmiyyətləri meydana gətirmək o qədər çətin iş deyil.

Sonrakı hissələrdə həmin insanların müharibə adına yanlış şərh etdikləri Quran ayələri və aqressivliyə əsas kimi qəbul etdikləri uydurma hədislər ətraflı şəkildə açıqlanacaq. Burada bir şeyi vurğulamaq lazımdır. Radikalların böyük qismi öz əməllərini cahillik üzündən edirlər. Gerçək dindən xəbərləri yoxdur. Hətta bir çoxları Quranı, ümumiyyətlə, oxumayıblar. Buna görə də adam öldürməklə cihad etdiyini düşünənləri qınamaq, lənətləmək, təhdid etmək, hətta həbs etmək belə heç bir işə yaramır. Belə bir problem qarşısında yanlış təlim-tərbiyə davam etdiyi müddət boyu əməllərindən bixəbər olan radikalların mövcud olacağını qəbul etmək məcburiyyətindəyik. Problemin bu olduğu qəbul edilərsə, cihad adı altında vəhşilik edənlərin yeganə ehtiyacının doğru təlim-tərbiyə olduğu da başa düşülər.

## İSLAMDA MÜHARİBƏ MÖVZUSUNDA YANLIŞ BİLİNƏNLƏR

### Hər Bir Müsəlman Qurandakı Bütün Ayələrə Ayırd Etmədən İnanmalıdır

Belə bir başlıq qoyulmasının səbəbi İslama xurafat əlavə etməyə çalışan xurafatçıların və onların çirkin məntiqindən istifadə edən İslam əleyhdarlarının Quranda bəzi ayələrin digər ayələr tərəfindən nəsh edildiyinə dair iddialarının səhv olduğunu göstərmək üçündür. Həmin çevrələr öz iddialarına dəlil olaraq aşağıdakı ayədən istifadə edirlər:

**Biz** *(hər hansı)* **bir ayəni dəyişdirir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, və ya ona bənzərini gətiririk. Məgər bilmirsən ki, Allah hər şeyə qadirdir?** (Bəqərə surəsi, 106)

Qurana dil uzadanlar öz xurafatlarını Quranın yerinə din kimi hakim etmək üçün bu ayənin yanlış izahından dəlil kimi istifadə ediblər. Bu ayəni istədikləri kimi şərh edərək bir neçə ayəni hökmdən qaldırıb yerinə uydurma hədisləri daxil edəcəklərini zənn ediblər. Bir çoxları isə iddia edir ki, sərxoşedici içkilər və ya müharibə ilə bağlı nəsh edilmiş ayələr mövcuddur. Buradan yola çıxaraq müsəlmanları nəshə inanan və inanmayan olaraq iki yerə ayırmağa çalışıblar.

Burada həmin şəxslərin barəsində son dərəcə yanıldıqları ayənin açıqlaması belədir:

"Biz bir ayəni dəyişdirir" ifadəsində işlənən "ayə" sözü qrammatik yöndən tək halda verilib. "Ayə" sözünün dəlil, möcüzə kimi mənaları da var. Lakin Quran ayələrinə işarə edən "ayə" sözü Quranın heç bir yerində tək halda verilməyib. Tək halda işlənən yerlərin hamısında dəlil mənasında istifadə olunmuş, başqa ayələrin hamısında belə tərcümə edilmişdir.

Belə ki, buradakı məna Quran ayələri mənasında deyil, daha əvvəl gələn dəlil, qanun və şəriət mənasındadır. Ayəyə əsasən, haqq kitab göndərilən keçmiş ümmətlərin, yəni musəvi və xristianların tabe olduqları bir qisim hökmlər zamanla unudulubsa, bunlar Quran vasitəsilə xatırladılır və ya ortadan qaldırılır. Bunun əvəzinə isə bənzəri və ya daha xeyirlisi Quranla gətirilmiş olur.

Burada ayədə işlənən "unutdurmaq" kəlməsinin üzərində xüsusilə dayanmaq lazımdır. Bir hökmün digərini nəsh etməsi üçün o biri hökm unudulmalıdır. Quranda ayələrin hamısı 1400 il boyu dəyişmədən qaldığına görə bir ayənin digərini nəsh etməsi düşünülə bilməz. Xurafatçıların nəsh edildiyini iddia etdikləri hökmlər unudulmamışdır, Quranda hələ də mövcuddur. Açıq şəkildə başa düşülür ki, burada bəhs edilən nəsh mövzusu keçmiş ümmətlərə aiddir və zamanla unudulan hökmlər üçündür. Keçmiş ümmətlərə endirilən, lakin unutdurulan hökmlər bunların daha xeyirlisi və ya bənzəri şəklində Quran vasitəsilə həmin cəmiyyətlərə göndərilmişdir.

## Quran Qorunan Kitabdır

Quran Rəbbimizin ayədə açıq şəkildə bildirdiyi kimi, qorunan kitabdır:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.** (Hicr surəsi, 9)

Qorunan bir kitabda hökmləri bütün müsəlmanlara şərt olan ayələrin bir qisminin əsaslı qəbul edilib, digər qisminin heçə sayılması mümkün deyil. Belə ki, Quranın mükəmməlliyi, riyazi və elmi möcüzələri, yol göstərici xüsusiyyəti və Quranın qorunduğuna dair bir çox ayə xurafatçıların və İslam əleyhdarlarının bu iddiasını aradan qaldırır:

**Şübhə yox ki, Zikr onlara gəldiyi zaman onu yalan sayanlar** *(cəzalandırılacaqlar)*. **Həqiqətən, bu, <u>əzəmətli bir Kitabdır.</u> Nə önündən, nə də**

**arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq** *(Allah)* **tərəfindən nazil edilmişdir.** (Fussilət surəsi, 41-42)

**Şübhəsiz ki,** *(sənin qəlbində)* **onun qərar tutması və** *(dilinlə)* **onun oxunması Bizə aiddir. Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə. Sonra, sözsüz ki, onu izah etmək də Bizə aiddir.** (Qiyamət surəsi, 17-19)

Quran ayədə açıq şəkildə bildirildiyi kimi, bənzərsiz kitabdır və batil ona önündən və arxasından girişə bilməz. Bu kitab Rəbbimizin qorumasındadır. Odur ki, bəzi hökmlərin Quran ayələrinin hökmünü ortadan qaldırdığı iddiası tamamilə iftiradır.

Burada bunu vurğulamaq lazımdır ki, Qurana həmin iftiranı atan din adamları nəsh edilən ayələrin sayında da ixtilaf içindədirlər. Hər biri ayrılıqda nəsh edilmiş kimi qəbul etdikləri ayə üçün özlərindən hökm çıxarır və beləliklə, qanunları fərqli olan dinlər meydana gətirirlər. Bəzi din adamları isə hədislərin ayələri nəsh etdiyini düşünəcək qədər irəli gediblər. Allahın **...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq...** (Ənam surəsi, 38) ayəsini bu insanlar bir növ görməzlikdən gəlirlər. Quran ayələrini qəbul etməməklə yerinə bir hissəsi tamamilə uydurma olan hədisləri qoyurlar. Belə bir məntiqsizlik İslam adından həyata keçirilən radikal fəaliyyətlərin təməlini əmələ gətirir. Növbəti səhifələrdə bu mövzu haqqında ətraflı bəhs edəcəyik.

Eyni xurafatçılar kimi, İslam əleyhdarları da bu ayə haqqındakı yanlış şərhi bir çox dini hökmlərə tətbiq etməyə çalışıblar. Bu adamların harada xəta etdiklərinin daha yaxşı başa düşülməsi üçün bu iddiaları araşdıraq:

## MƏKKƏ DÖVRÜ MÜSƏLMANLARI VƏ MƏDİNƏ DÖVRÜ MÜSƏLMANLARI AYRI-SEÇKİLİYİNİN YANLIŞLIĞI

Bir qisim İslam əleyhdarları mülayim müsəlmanları "Məkkə dövrü müsəlmanları" kimi təsvir edirlər. Onlara görə, Peyğəmbərimizin Məkkədə olduğu dövr müharibələrin baş vermədiyi sülh dövrüdür. Peyğəmbərimiz Mədinəyə hicrət etdikdən dərhal sonra müharibələr başlamışdır. Bir qisim şəxslər də bunu nəzərdə tutub İslamda müharibəni müdafiə edənlərin yalnız Mədinə dövründə vəhy olunan ayələri qəbul etdiklərini, sülhdən yana olanların isə ancaq Məkkə dövrü ayələrini qəbul etdiklərini iddia edirlər. Bu, çox yanlış və məntiqsiz iddiadır.

Daha əvvəl də müəyyən etdiyimiz kimi, bir adam Quran ayələrinin heç birini digərindən ayırd etmədən hamısına inanırsa, deməli, o şəxs müsəlman xüsusiyyətini daşıyır. Tək bir ayənin hökmünü qəbul etməzsə, müsəlman xüsusiyyətini itirir. Odur ki, müsəlman olduğunu deyən adam ayırd etmədən bütün ayələri qəbul etməlidir.

Peyğəmbərimizin dövründə Məkkə dövründə müharibənin olmadığı, lakin Mədinə dövründə baş verdiyi və bu müharibələrə dair ayələrin nazil olduğu xəbəri doğrudur. Bunun səbəbini başa düşmək üçün o dövrün çətin mühitini qavramaq lazımdır.

## Məkkə Dövründə Müsəlmanların Çətin İmtahanı

Quranın Peyğəmbərimizə vəhyi tam olaraq 23 il davam etdi. Bu dövrün ilk 13 ilində müsəlmanlar Məkkədə azlıq halında yaşadılar və güclü təzyiqlərə məruz qaldılar. Müsəlmanların bir çoxuna fiziki işgəncələr verildi, bəziləri şəhid edildi və çoxunun isə evi-eşiyi talan edildi. Davamlı şəkildə təhqir və təhdidlərlə üzləşdilər. Buna baxmayaraq, müsəlmanlar şiddətə əl atmadan yaşamağa davam etdilər. Sadəcə bütpərəstlərdən uzaq durub onları sülhə dəvət etdilər.

Lakin həmin bütpərəstlərin hücumları dayanmadı.

Qüreyşlilər, əvvəlcə, Hz. Muhəmmədin peyğəmbərliyinə əhəmiyyət vermirmiş kimi görünürdülər. İman etməməklə yanaşı, bütlərə bir söz demədikcə Hz. Muhəmmədin dəvətinə səs çıxarmırdılar. Təkcə Peyğəmbərimizi görəndə ona söz atırdılar. Müsəlmanlara etina ilə yanaşırdılar. Beləliklə, qüreyşlilərin sözlü hücumları başlamış oldu.

Quranda həmin vəziyyət bizə belə xəbər verilir:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər, öz ailələrinin yanına fərəhlə qayıdırdılar, möminləri gördükdə isə deyirdilər: "Həqiqətən, bunlar azmışlardır!"** (Mutəffifin surəsi, 29-32)



**Müsəlmanlar Məkkədəki bütpərəst nizamın içində azlıq olaraq yaşadılar və çox böyük təziqlərlə qarşılaşdılar. Bir çox Müsəlmana fiziki işgəncələr edildi, bəziləri şəhid edildi, çoxunun evi və malları yağmalandı, sürəkli təhqir və təhdidlərlə qarşılaşdılar. Buna rəğmən Müsəlmanlar şiddətə əl atmadan yaşamağa davam etdilər, bütpərəstlərdən sadəcə uzaqlaşdılar və onları daim sülhə çağırdılar.**

*Məkkə bütpərəstlərin mərkəzi sayılırdı. Şəhər hər gün Kəbə və ətrafındakı bütləri ziyarət etməyə gələnlərlə dolub-daşırdı. Buna görə də Qüreyş həm pul, həm də etibar qazanırdı. Qüreyşlilər Məkkədə müsəlmanlığın yayılmasını təhdid kimi görürdülər. Çünki elə düşünürdülər ki, bu, gerçəkləşərsə, mənfəətlərinə zərər toxunacaq və digər qəbilələr onlara düşmən kəsiləcək. Eyni zamanda yaxşı bilirdilər ki, müsəlmanlıq hər kəsi bərabər görür, soy və varlı-kasıb ayrı-seçkiliyi aparmırdı. Buna görə də Qüreyşin öndə gələnləri belə qənaətə gəldilər ki, müsəlmanlığın yayılmasına mütləq mane olmaq lazımdır. Buna müsəlmanlara qarşı işgəncə, hətta cinayətlər də daxil idi.* (İbn Hişam, 1/287)

Dövrün müşrikləri Əbu Bəkr və Osman kimi güclü və etibarlı ailələrdən olan müsəlmanlara çox toxuna bilmirdilər. Lakin kimsəsiz və yoxsul müsəlmanlara tarixdə bənzəri görülməmiş işgəncələr verirdilər. Əbu Füheyqə, Həbbab, Bilal, Süheyb, Əmmar, Yasir və Süməyya bu ağır işgəncələrə məruz qalan dəyərli müsəlmanlardan idilər. Səfvan bin Üməyyanın köləsi Əbu Füheyqə müşrik olan sahibi tərəfindən hər gün ayağına ip bağlanıb qızmar qumun üstündə sürüklənirdi. Dəmirçi Həbbaba isə qızarmış kömürlərlə işgəncə verilmişdi. Kömürlər soyuyub qaralana qədər sinəsinə basılmışdı.



**Dövrün müşrikləri Hz. Əbu Bəkr, Hz. Osman kimi qüvvətli və etibarlı ailələrə mənsub olan müsəlmanlara toxuna bilmirdilər. Fəqət kimsəsiz və fəqir Müsəlmanlara, tarixdə görünməmiş dərəcədə, hətta vəhşilik səviyyəsinə qədər işgəncələr verirdilər.**

*Əmmarın atası Yasirin ayaqlarını iki ayrı dəvəyə bağlayıb parça-parça etmişdilər. Ərinin vəhşicəsinə şəhid edilməsinə dözməyib müşriklərə acı söz deyən Süməyya, Əbu Cəhlin atdığı oxla qətlə yetirilmişdi.*

(Zadül-Məad, 2/116, Əsri-Səadət, 1/254)

*Xələf oğlu Üməyya köləsi həbəşli Bilalı hər gün çılpaq vəziyyətdə qızmar qumun üzərinə uzadır, sinəsinə böyük daş qoyub günəşin altında saxlayırdı. İslamdan və Peyğəmbərdən üz döndərməsi üçün ona davamlı əziyyət verirdi. Hətta bir gün əl və ayaqlarını möhkəm bağlayıb boynuna ip keçirmişdi. Bu görkəmdə Məkkə küçələrində qumun üstündə süründürmüşdü.*

(Zadül-Məad, 2/116, Əsri-Səadət, 1/253)

Haşimilərdən çəkindiklərinə və əsas olaraq Əbu Talibin himayəsində olduğuna görə Peyğəmbərimizə heç nə edə bilmirdilər. Zaman keçdikcə ona məcnun, falçı, şair və sehrbaz deməyə başladılar. Axırda isə fürsət tapanda Peyğəmbərimizi təhqir etməkdən, ona hər cür pisliyi etməkdən çəkinmədilər.

Bunların hamısını müsəlmanların iman etdiklərinə və insanlara İslamdan danışdıqlarına görə edirdilər. Bu təzyiq, işgəncə və şiddət mühiti içində müsəlmanlar İslamın şərti olduğu üçün onlara zərər toxunduranlara qarşılıq verməmiş, ən insani haqları kimi özlərini müdafiə belə etməmişdilər. Müsəlmanların qarşılıq vermədiyini görən Qüreyş müşrikləri azğınlığı və işgəncəni daha da artırdılar. Ta ki qüreyşlilər müsəlmanları elə gördükləri yerdəcə şəhid etməyə başladılar.

Əzab-əziyyətə heç bir şəkildə qarşılıq verməyən, Quranda qan tökməyə izin verilmədiyi üçün müdafiə belə olunmayan müsəlmanlar artıq özlərini qoruya bilmədilər. Bu vəziyyət Mədinəyə köçməyi labüd edirdi.

## Mədinə Dövrü və Müharibələr

Məkkədə bütpərəstlərin təzyiqlərinin çoxalması ilə yanaşı, müsəlmanlar daha azad və dostyana mühitin olduğu Yəsrib şəhərinə (sonrakı adı- Mədinə) hicrət edərək burada öz idarə sistemlərini qurdular. Belə ki, öz siyasi quruluşlarını bu şəkildə təşkil edəndən sonra da məkkəli bütpərəstlərin hücumları sona yetmədi. Qüreyşlilər getdikləri yerə qədər müsəlmanları təqib edib şiddət əməllərinə davam etdilər. Peyğəmbərimiz və çevrəsindəki müsəlmanlar isə Məkkənin təcavüzkar bütpərəstlərinə qarşı əsla müharibə ilə qarşılıq vermədilər.

Dünyada heç kim və heç bir ölkə hücum qarşısında susmaz. Mütləq nəfsi müdafiə ilə hücum edənlərə qarşılıq verər və ya ən azından özünü müdafiə edər. Bunun qarşılığında həmin adamları məhkəmələr, ölkələri isə beynəlxalq hüquq daima haqlı görər. Çünki qarşı tərəfdən haqsız hücum var və şəxsin həyatı, ailəsi və sevdikləri, bir ölkənin isə milləti, namusu və torpaqları təhlükədədir.

Normal şərtlərdə eyni vəziyyət Məkkə dövründə Peyğəmbərimiz və müsəlmanlar üçün də əsaslıdır. Buna baxmayaraq, tamamilə haqsız və birbaşa həyati təhlükə törədən hücumlar davam edincə belə Allahın öldürməyi haram edən hökmünə görə Peyğəmbərimiz və müsəlmanlar qəti şəkildə onlara qarşılıq verməmişdilər. Bunun əvəzində ayənin hökmünə əsasən, qarşı tərəfi davamlı sülhə çağırmış, bunun bir nəticəsi olmayanda isə zülm edən topluluqdan –öz şəhərlərini, evlərini arxada qoyub– uzaqlaşmışdılar. 13 ilə yaxınlaşan Məkkə dövründə və Mədinə dövrünün ilk illərində müşriklərdən bu qədər zülm, işgəncə gördüklərinə baxmayaraq,

müsəlmanlara səbirli olmaları əmr edilmişdir.

*(İnsanları)* **Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et...** (Nəhl surəsi, 125) ayəsi əsasında möminlərə əmr edilmişdir ki, dini gözəlliklə təbliğ etsinlər. Buna görə də müharibəyə izin verilməmişdir. Müsəlmanlardan həmin zülmlərə qarşı çıxmaq istəyənlərə Peyğəmbərimiz belə cavab vermişdir:

*"Hələ müharibəyə izin yoxdur, səbirli olun. Allahın yardımı yaxındır, çəkdiyiniz müsibətlərin mükafatını görəcəksiniz..."*

Peyğəmbərimizin özünü və topluluğu müdafiə etmək izni Mədinəyə köçdükdən sonra bu ayələrlə verilmişdir:

*(Kafirlərin)* **vuruşa başladığı insanlara,** *(o kafirlərlə) (vuruşmağa)* **icazə verilmişdir. Çünki onlar zülmə məruz qalmışlar. Şübhəsiz ki, Allah onlara kömək etməyə qadirdir Onlar ancaq "Rəbbimiz Allahdır"– dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar...** (Həcc surəsi, 39-40)

Bu ayələrlə yalnız: "Rəbbimiz Allahdır", –dediklərinə görə haqsız yerə yurdlarından sürgün edilib çıxarılan müsəlman topluluq müdafiə hazırlıqlarına başlamışdır. Ayədə açıq şəkildə bildirildiyi kimi, hücuma məruz qalan müsəlman topluluğa müdafiə izni verilmişdir, hücum əmri deyil. Bu ayədən sonra müsəlmanlar özlərini qorumağa başlamış, onlara hücum edən azğın topluluğa qarşı müdafiə hücumları həyata keçirmişdilər. Bundan sonra müharibə və müdafiəyə dair nazil olan ayələr müharibələrdəki tətbiqlərə dair təsvirlər ehtiva edir. Başqa sözlə desək, yalnız o müharibədəki o vəziyyətə aid təsvirlər verilir. Belə ki, Quranda müharibə ilə əlaqədar ayələrin hamısı o dövrün çətin şərtlərini və Peyğəmbərimizin ədalətini anlamağımız üçün təkcə o dövrdəki hücumlara aid endirilən xüsusi ayələrdir.



## Müharibələr Kimlərə Qarşı Aparılıb?

Quranda təsvir edilən müharibələr mövzusunda "qarşı tərəf" anlayışını xüsusilə qeyd etmək lazımdır. Bir çox dini və tarixi qaynaqlar Peyğəmbərimizin dövründə baş verən müharibələrin dövrün musəvilərinə qarşı aparıldığını yazırlar. Həmin qaynaqları oxuyan bəzi insanlar Quranda həmin xüsusi müharibələrə dair endirilən ayələrin musəvilərin əleyhinə olduğunu iddia edərək Quranda bir növ antisemitizm axtarmağa başlayırlar. Halbuki bu, tamamilə yanlışdır.

Peyğəmbərimizə və müsəlmanlara qarşı həmin zülmü edənlər müşriklər olub. Onların böyük qismi bütpərəst idi. Məqsədləri isə bütlərinə və azğın inanclarına zərər gəlməsinin qarşısını almaq olmuşdur. Bir qismi isə musəvi topluluqların arasından çıxan münafiq və müşriklərdir. Onların musəvi adlandırılması çox böyük xətadır. Müsəlman topluluqların arasından çıxan bir müşrik və ya münafiq müsəlman olmadığı kimi, musəvilərin arasından çıxan və vəhşilik edən müşrik və münafiqlər də musəvi adlandırıla bilməz. Heç bir zaman həqiqi musəvilər müharibəyə qatılıb dindar insanları öldürməzlər.

Quran antisemitizmi lənətləyir. Buna görə də Quranda musəvi düşmənliyinə dair ifadə axtarmağa çalışanlar heç bir şey tapa bilməyəcəklər. Həmin ayələri musəvilərə qarşı müharibə ayələri kimi izah etməyə çalışanlar bunu yaxşı anlamalıdırlar. Peyğəmbərimiz dövrün musəviləri ilə daim xoş münasibət qurmuş, onlara sevgi və şəfqət göstərmişdir. Eyni şəkildə gerçək dindar musəvilər də Peyğəmbərimizə sevgi və hörmət göstəriblər.

Peyğəmbərimizin musəvilərə, Tövrata və musəviliyə qarşı xoş rəftarı ilə əlaqədar məlumatlar kitabın növbəti səhifələrində "Kitab əhli" başlığı ilə geniş açıqlanmışdır.

## Quranda Müharibənin Tərifi

Quranda müharibənin nə zaman və necə aparılacağı açıq şəkildə göstərilir:

**Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir.** (Bəqərə surəsi, 190)

Müharibə ancaq **MÜSƏLMANLARLA SAVAŞANLARA** qarşı aparılmalıdır. Yəni müharibə yalnız müdafiə məqsədi daşımalıdır. Müsəlmanların qarşı tərəfə səbəbsiz yerə hücum etmələri qəti şəkildə **QADAĞAN EDİLMİŞDİR.**

Allah müsəlmanlara Quranda əmr edir ki, onlar bir topluluğa etdikləri haqsızlıq və təcavüzkarlıq üzündən kin duysalar da, daim ədalətli olmalıdırlar. Allah bir ayədə belə buyurur:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun.** *(Hər hansı bir)* **camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.** (Maidə surəsi, 8)



**Quranda tərif edilən bütün döyüşlər, o bölgədə bəlli şərtlər altında gerçəkləşmiş müdafiə döyüşləridir. Müdafiəyə yönəlik ayələr də bu xüsusi şərtlərlə əlaqəli olaraq nazil edilmişdir.**

Məsələn, Allah ayədə müsəlmanların Kəbəyə girməyini qadağan edən topluluqlara qarşı həddi aşmağı qadağan etmiş, onlara və hər kəsə yaxşılıq etməyi nəsihət etmişdir:

**... Sizi Məscidulharama daxil olmağa qoymayan camaata qarşı olan kin-küdurət sizi təcavüz etməyə sövq etməsin. Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun...** (Maidə surəsi, 2)

Müsəlmanlar həcc ibadətləri qəsdən əngəllənsə də və haqsızlıq görsələr də, həddi aşmaq mövzusunda uca Rəbbimiz tərəfindən xəbərdar edilirlər. Allah müsəlmanlara bu şərtlərdə belə ədalətli davranmağı və yaxşılıq etməyi əmr edir. Müsəlman bütün hallarda Quranın hökmlərinə tabe olmalıdır.

Quranda müharibənin tək səbəbinin (müdafiə savaşının) təsvir edildiyi ayədə müsəlmanlara başqa bir şərt də qoyulur: həddi aşmamaq.

Bunun mənası odur ki, hücum zamanı müsəlmanlar ancaq özlərini qorumalı, müdafiədən başqa heç bir şey etməməlidirlər. Yəni Quranda hücum, vəhşilik, şiddət və həddi aşmaq qadağan edilmişdir.

Yalnız və yalnız özlərinə hücum edənlərə qarşı müdafiə savaşı haqqında başqa ayələrdə belə buyurulur:

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir...** (Mumtəhinə surəsi, 8-9)

Burada əhəmiyyətli fərq var. Müsəlmanlara fikrən qarşı olduğu halda, onlara hücum edib təcavüzkar davranmayanlara qarşı savaşmaq müsəlmanlar üçün haramdır. Müsəlman onlara hörmət göstərməlidir. Bu ayədəki tərifə

görə, yalnız müsəlmanlara inancları üzündən zülm edən və onlara feili şəkildə hücum edən, yəni müharibəni başladan tərəfin hücumuna qarşı müdafiə izni verilmişdir. Daha əvvəl də qeyd etdiyimiz kimi, əlbəttə, hər insan hücum zamanı özünü qorumalıdır. Bu hər insanın, hər millətin və hər dövlətin haqqıdır.

Peyğəmbərimizin savaş izni verilən ayə gələnə qədər heç bir şəkildə müdafiə olunmaması möhtəşəm fədakarlıq və dindarlıq əlamətidir. O ana qədər **...onlarla ən gözəl tərzdə mübahisə et...** (Nəhl surəsi, 125) ayəsinin hökmünə əsasən, Peyğəmbərimiz yalnız uzlaşdırıcı üsullardan istifadə etmişdir. Bütpərəst qüreyşlilərin məqsədi yalnız qətliam törətmək olsa da...

Bu əhəmiyyətli vurğunu qeyd edəndən sonra xurafatçıların və İslam əleyhdarlarının İslamın adından istifadə edib törədilən vəhşiliklərə dəlil kimi göstərməyə çalışdıqları Quran ayələrinin hamısını araşdıracağıq və bu mövzuda yanlış olanları bir-bir ortaya qoyacağıq.

İlk öncə, onu qeyd etməliyik ki, Quranda təsvir edilən bütün müharibələrin o bölgədəki topluluğa qarşı aparıldığını, müəyyən şərtlər altında baş verdiyini və bu şərtlərin ayələrdə müəyyən edildiyini bilmək lazımdır. Bu topluluq özləri ilə müqavilə bağlanan müşrik topluluqdur. Beləliklə də, bu müharibələrin hamısı həmin topluluğun qarşılıqlı sülh və dostluq müqavilələrini pozaraq etdikləri hücumlara, hal və hərəkətlərinə görə formalaşmışdır. Belə ki, nazil olan ayələr tam olaraq o dövrkü vəziyyətlə əlaqədardır və o mühiti təsvir edir.

Bu həqiqətin daha yaxşı başa düşülməsi üçün o dövrdəki müşriklərin tərifinə və bağlanan müqavilələrə yaxından nəzər salaq:

## MÜŞRİKLƏRLƏ BAĞLANAN MÜQAVİLƏ

"Müşrik" kəlməsi həmin dövrdən bəhs edən müxtəlif təfsirlərdə yalnız **şərik qoşan** mənasında verilsə də, termin olaraq bütlərə tapan, açıq-aşkar Allaha ortaq qoşan, çoxlu ilahlara inanan və müsəlman, sabii, xristian və məcusi **OLMAYAN** bütpərəstlərdir.

Quranda İslamın zühuru əsnasında Ərəbistandakı mövcud dinlərdən bəhs edilərkən müşriklər daima ayrı bir qrup olaraq bildirilmişdir. Peyğəmbərimizin dövrünə diqqət edilirsə, kitab əhli olan musəvi və xristianlarla evlənmək və kəsdiklərini yemək halal olduğu halda, məcusi və sabiilərin və xüsusilə də bütpərsətlərin qadınları ilə evlənmək və kəsdiklərini yemək qadağan edilmişdir.

Daha əvvəl də müəyyən etdiyimiz kimi, Peyğəmbərimiz müşriklərin güclü təzyiqi altında Mədinəyə köç etməyə məcbur qalmış və hicrətinin ilk günlərindən etibarən ənsar (mədinəli müsəlmanlar) ilə mühacir (Məkkədən Mədinəyə köçən müsəlmanlar) arasında qardaşlıq bağını təsis etmişdir. Müşrik topluluqlarla və o bölgədə yaşayanlarla bir çox müqavilə bağlamış və müşriklərin ifrat hərəkətlərinə baxmayaraq, sülhü təmin etmək üçün daima onları birliyə dəvət etmişdir.

Peyğəmbərimizin Mədinədə sevgi və qardaşlığı hakim etməsi sübut edir ki, fərqli irq, din və dinlərə mənsub insanlar bir yerdə sülh içində yaşaya

bilərlər. Onun sülh və sevgi dəvətçisi olduğunun ən böyük dəlillərindən biri özünün yazdırdığı ilk mətnin sülh müqaviləsi olmasıdır. Hz. Muhəmməd Məkkəni fəth edəndən sonra daha əvvəl müsəlmanlara işgəncə verən müşrikləri belə sərbəst buraxmış, onlara böyük mərhəmət göstərmişdir. Peyğəmbərimiz Hz. Muhəmmədin göstərdiyi bu üstün əxlaqa daha əvvəl ərəb cəmiyyətlərində heç rast gəlinməmişdi və bunu insanlar təqdirlə qarşılamışdılar.

O dövrdə fəth edilən əcnəbi ölkələrdə həqiqi ədalətin tətbiq edilməsində Hz. Muhəmməd bütün müsəlmanlara nümunə olmuşdur. Peyğəmbərimiz ələ keçirilən ölkələrin yerli əhalisinə qarşı Quranda bildirilən ədaləti göstərmiş, onlarla hər iki tərəfin razı qaldığı və heç kimin ən xırda belə problem yaşamadığı müqavilələr bağlamışdı. Buna görə də hansı dinə və ya irqə mənsub olmasından asılı olmayaraq, fəth edilən ölkələrin xalqları İslamın gətirdiyi ədalətdən daima razı qalmışdır. Peyğəmbərimiz və ətrafındakı səhabələr **Yaratdıqlarımız içərisində elə bir ümmət də vardır ki, haqq ilə doğru yola aparır və bunun sayəsində ədalətlə hökm edirlər.** (Əraf surəsi, 181) ayəsində deyildiyi kimi insanlar arasında ədaləti təmin edən ümmət olmuşdur.



Ərəb yarımadasının cənub hissəsindəki xristian nəcran xalqı ilə bağlanan müqavilə də Peyğəmbərimizin ədalət anlayışının ən gözəl nümunələrindən biridir. Həmin müqavilənin maddələrindən biri belədir:

*"Nəcranlıların və idarəsində olanların canları, malları, dinləri, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Elçisinin himayəsi altındadır".* (Məcid Xoduri, İslamda müharibə və sülh, "Fener" Nəşriyyatı, İstanbul, 1998, səh.209-210)

Həmin bölgədə bütün topluluqlarla müqavilə bağlanandan sonra Peyğəmbərimiz İslam tarixində ilk qanun olan Mədinə müqaviləsini hazırlayıb Mədinə dövlətini qurmuşdur. Mədinə müqaviləsi tarixin ilk demokratik və mükəmməl nümunəsidir. Dövrümüzdə heç bir demokratik sistem Peyğəmbərimizin qoyduğu qanun qədər nizam gətirə bilməmişdir və heç kim qanunları Peyğəmbərimiz qədər tətbiq edə bilməmişdir.

## Tarixin İlk Hərtərəfli və Ən Demokratik Qanunu: Mədinə Müqaviləsi

Peyğəmbərimiz yazılı şəkildə Mədinə dövlətinin ilk qanunu olan Mədinə müqaviləsi ilə müxtəlif irq, din və qəbilələrdən ibarət şəhərə Ərəbistan yarımadasında daha əvvəl heç görünməmiş demokratik quruluşu və sülh mühitini gətirmişdir.

Həmin qanuna görə, Mədinədə mövcud olan bütün topluluqlar sülh

içində bir yerdə yaşayacaqlar. Yaşayışlarını öz din və inancları əsasında quracaqlar. Öz quruluş və qanunlarına fayda gətirməklə bunları tətbiq edəcək gücə sahib olacaqlar.

Mədinə müqaviləsi bundan təqribən 1400 il əvvəl, 622-ci ildə fərqli inanclara sahib xalqların tələblərinə cavab verməklə Hz. Muhəmmədin liderliyi ilə qələmə alınıb və yazılı hüquqi müqavilə kimi həyata keçib. Bunun nəticəsində 120 il boyunca bir-birinə düşmən olan fərqli din və irqlərə sahib cəmiyyətlər bu müqavilədə yer tutdular. Hz. Muhəmməd bu müqavilə vasitəsilə hər fürsətdə bir-birilərinə hücum edən və heç cür uzlaşmayan cəmiyyətlərin münaqişələrə son verib rahat şəkildə bir yerdə yaşaya biləcəyini göstərdi.

Mədinə müqaviləsinə əsasən, hər kəs heç bir təzyiq olmadan istədiyi inancı, yaxud siyasi və ya fəlsəfi düşüncəni mənimsəməkdə azad idi. Öz düşüncələrinə sahib insanlarla topluluq qurub öz hüquqlarını tətbiq edə bilərdi. Lakin cinayət törədənləri heç kim qorumayacaqdı. Müqaviləyə razılıq verən qruplar öz aralarında yardımlaşıb bir-birilərinə dəstək verəcəkdilər. Bununla belə, Peyğəmbərimizin himayəsi altında olacaqdılar. Qarşılıqlı tərəflər arasındakı anlaşılmazlıqlara görə Allahın Rəsuluna müraciət edəcəkdilər. Belə ki, müşriklər belə, daima ən ədalətli şəxs kimi Peyğəmbərimizin hakimliyinə üstünlük vermişdilər.

Peyğəmbərimizin hazırlatdığı həmin müqavilə mərhələli şəkildə 622-ci ildən 632-ci ilə qədər tətbiq edilmişdir. Bu müqavilə ilə qan və qohumluq bağına əsaslanan qəbilə quruluşu sona çatmış, coğrafi, mədəni və etnik kökləri tamamilə fərqli olan insanlar bir araya gələrək birlik qurmuşdular. Mədinə müqaviləsində ətraflı olaraq din və inanc azadlığı təmin edilmişdir. Bu azadlığı ifadə edən maddələrdən biri bu şəkildədir:

*"Bəni-Əfv musəviləri möminlərlə bərabər eyni ümmətdirlər. Musəvilərin dini özlərinə, müsəlmanların dini də özlərinədir".*

(Muhəmməd Həmidulla, İslam müəssisələrinə giriş, "Düşünce" Nəşriyyatı, İstanbul, 1981, səh.128)

Mədinə müqaviləsi 47 maddədən ibarət idi. Maddələrin 1-23 arası müsəlmanlara, 24-47 arası isə Mədinədə yaşayan musəvi qəbilələrə aid idi. Say baxımından az da olsa xristianlardan bəhs edilməsi fərqli din mənsublarına görə əhəmiyyətlidir.

Professor Leonard Svidlerin (L.Swidler) "Çoxfikirlilik perspektivində Mədinə müqaviləsinin yenidən dəyərləndirilməsi" adlı hesabatında həmin müqavilə ilə əlaqədar aşağıdakı izahlar diqqəti cəlb edir:

*"Fikrimizcə, müqavilə Hz. Peyğəmbərin şəhəri birləşdirmə və xalqa tamamilə açıq olan hüquq ətrafında toplamaq cəhdlərini göstərməsi baxımından əhəmiyyətli sənəddir. Bu hüquqa görə, hər bir fərd bərabər haqlara, din seçmək azadlığına və müsəlmanlarla birlikdə müharibəyə qatılıb-qatılmamaq azadlığına sahibdir. Ancaq hər ehtimala şəhərin düşmənləri ilə müqavilə bağlamaqları qadağan idi ki, bu da Mədinə qruplarının bir-birinə möhkəm bağlılıqlarını təsis etmək cəhdini göstərir. Bu siyasi və dini yazı bərabərlik və azadlıq dəyərləri ətrafında yeni cəmiyyət*

*qurmaq məqsədi güdürdü. Müqavilədə qeyd edildiyi kimi, hüququn hər fərd üzərindəki üstünlüyü dialoq və bərabər yaşamaq mühiti yaratmaq məqsədilə atılan təməl addım idi. Müqavilədəki maddələr ümumi mənada Mədinədəki hər fərdin şəhəri qorumasındakı bərabər məsuliyyətini də müəyyən edir. Buna bərabər şəkildə əxlaqi xüsusiyyətini göstərən maddələrdəki paralel ifadələrin çoxluğunu da görürük. Son olaraq şəhərin müxtəlif qruplarının adlarının maddələrdə bir-bir qeyd olunduğunu düşünsək, müqavilənin, yəni Hz. Peyğəmbərin şəhərin bu qruplarını leqal cəmiyyətlər olaraq qəbul etdiyini və onları diqqətdə saxladığını görürük.*

(Məcid Xoduri, İslamda müharibə və sülh, "Fener" Nəşriyyatı, İstanbul 1998, səh.209-210)

Həmin qanunda musəvilərlə əlaqədar çoxlu maddə olsa da, bu qanunun orada yaşayan bütpərəst topluluqları da ehtiva etdiyini xüsusi vurğulamaq lazımdır. Məkkə müşrikləri Hz. Muhəmmədə və müsəlmanlara qarşı düşmənliklərini açıq şəkildə göstərib onları yurdlarından çıxarsalar da, Hz. Peyğəmbərin Mədinədəki bütpərəstlərə həddindən artıq şəfqətli davrandığını görürük. Mədinə müqaviləsi müsəlmanların müşriklərin haqlarını qoruduğunu göstərir və onların da Mədinəni müdafiəsində müsəlmanlarla birlikdə hərəkət etmələrini istəyir. Müşriklərə qarşı belə bir münasibət heç təəccüblü deyildi. Çünki Qurana əsasən, müsəlmanlar müqavilə bağladıqları müşrikləri öz canları bahasına qorumalı idilər.



**Mədinə nizamnaməsi, Müsəlmanların, digər dinlərin bütün mənsublarının və müşriklərin hüquq və qanunlarına qarşı qoruyucu bir mövqe tutduqlarını göstərən tarixdə ilk plüralist və ən demokratik konstitusiyasıdır.**

Nəticə etibarilə, həmin müqavilə birlik və bərabərliyi, şəfqət və sevgini, dostluq və sülhü özündə əks etdirən əhəmiyyətli tarixi sənəddir. Xüsusilə musəvilərlə müsəlmanlar arasında, ümumi olaraq qeyri-müsəlmanlarla dialoq

qurmaqda nümunə təşkil edir. Peyğəmbərimizin o dövrdəki sevgi və sülh anlayışı Qurana uyğun olandır, lakin hazırda bunu yaşayan müsəlman cəmiyyət görmək çətindir. Bu vəziyyət tarixin ən demokratik qanununun Peyğəmbərimiz tərəfindən yazılıb tətbiq edildiyinin və dövrümüzdəki cəmiyyətlərin Qurandan və Peyğəmbərimizin tətbiqlərindən uzaqlaşdıqlarının qəti və əhəmiyyətli dəlilidir.

Odur ki, kitabın bundan sonrakı hissələrini bu məlumatlar əsasında qiymətləndirmək lazımdır. Müşrikləri belə qorumağı əmr edən, kitab əhlinin (xristian və musəvilərin) isə müsəlmanlar üçün xüsusi yerinin olduğunu müəyyən edən Qurani-Kərimin nəsihətləri, həmçinin sülh və demokratiyanı hədəf alan Hz. Muhəmmədin həyat tərzi dövrümüzün xurafatçılarından tamamilə fərqlidir. Onlar Qurandan sürəkli müharibəyə dair dəlil tapmağa çalışdıqları halda, Quran daima sülhü nəsihət edir. Belə ki, mövzu ilə əlaqədar müharibə ayələri açıqlanarkən bu əhəmiyyətli həqiqət mütləq diqqətdə saxlanmalıdır.

## MÜHARİBƏ İLƏ ƏLAQƏDAR AYƏLƏR VƏ AÇIQLAMALARI

Quranda müharibənin təsvirini gördük. İndi isə bir qisim radikallar tərəfindən istismar edilən və bir qisim İslam əleyhdarları tərəfindən də İslama qarşı tənqid üçün istifadə edilən müharibə ayələrini araşdıraq:

**"Bəqərə" surəsi, 191:**

*(Müşriklərə)* **harada rast gəlsəniz öldürün və sizi çıxartdıqları yerdən siz də onları çıxardın! Fitnə qətldən daha pisdir. Onlar sizinlə Məscidulharamın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir.** (Bəqərə surəsi, 191)

Bu ayə müsəlmanların təzyiq və şiddətə məruz qalmasından və Məkkədən çıxarılıb Mədinəyə hicrətə məcbur edilməsindən sonra endirilmişdir. Yuxarıda ətraflı təsvir etdiyimiz şərtlər yaranmış və müşriklərin zülmünə və birbaşa hücumlarına qarşı müsəlmanlar özlərini müdafiə etmək əmrini almışdılar. Zülm etməyə davam edən, gözəl sözdən anlamayan və sülh çağırışlarına qulaq asmayan bu topluluğa onların öz üsulu ilə qarşı çıxmaq söz mövzusu olmuşdur.

Fəqət ayədə Qurandakı müharibə hüququna dair xatırlatma da mövcuddur: "Onlar sizinlə Məscidül-haram yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın! Əgər sizinlə vuruşsalar, siz də onları öldürün".

Göründüyü kimi, müharibənin yeganə şərti qarşı tərəfin hücum etməsidir. Onlar müharibə etmədikcə və ya hər hansı hücuma yol vermədikcə müsəlmanlara müharibə etmək qətiyyən halal deyil. Bu ayəni öz istəklərinə uyğun izah edən radikalların və İslam əleyhdarlarının ayədəki hökmü görməzlikdən gəlməsi, əlbəttə, çox şübhəli məqamdır. Ayə açıq şəkildə müsəlmanlara yalnız müdafiə azadlığı verir. Beləliklə də, bu ayənin hökmü müharibə və hücum deyil. Ayədə başqa bir əhəmiyyətli mövzudan da bəhs edilir: fitnə öldürməkdən betərdir. Topluluqları qızışdırmaq, nifrəti

körükləmək, dedi-qodu ilə anarxiya və terroru yaymaq və düşmən kütlələri yaratmaq fitnə sayılır və ayənin ifadəsinə görə, belə bir fitnə adam öldürməkdən betərdir. Odur ki, müsəlmanlara hücum edənlər həm feili, həm psixoloji, həm də hiylə yönündən fitnə çıxaran topluluqlardır. Verdikləri zərər daha böyükdür. Onlar hücum etdikdə isə müsəlmanlar təbii şəkildə özlərini müdafiə edirlər.




***BU NİFRƏT DOLU GÖRÜNTÜLƏR İSLAMI TƏMSİL ETMƏMƏKDƏDİR***

***Bəqərə surəsinin 191-ci ayəsində, Müsəlmanlara sadəcə özlərini müdafiə etmək azadlığı verilməkdədir. Dolayısı ilə Qurana görə müharibə, ancaq hücuma qarşı bir müdafiə şəklindədir.***

Hal-hazırda bir qisim xurafatçıların ağızdan-ağıza dolaşan məlumatlara və ya xurafatlara inanaraq şəxsləri, topluluqları, dinləri və ya ölkələri fitnəkar elan etmələri və bu hərəkətlərinə Quran ayəsini dəlil göstərmələri isə böyük təxribatdır. Fitnə müsəlmanlar arasında ayrı-seçkilik salmaq, müxtəlif çətinliklər yaradaraq onları zərərə və günaha sürükləmək, ardından da kütləvi üsyanların təməlini qurmaq, həmçinin müsəlmanlara qarşı feili və sözlü hücumlar təşkil etmək kimi hərəkətlər ehtiva edir. Odur ki, bir şəxs fitnəkar olmaq üçün təsvir etdiyimiz əməllərin bir və ya bir neçəsini yerinə yetirməlidir. Hazırda fitnəkar damğası vuraraq xüsusilə musəviləri və ya İsraili günahlandırmağa çalışanlar bu ayəyə qəti surətdə müxalif davranırlar.

Qurana əsasən, musəviləri və ya İsraili bütöv olaraq fitnəkar elan etmək haramdır. Hər dindən və ya hər ölkədən fitnə çıxaran şəxslər ola bilər. Lakin ərəb, türk və ya müsəlmanlardan fitnə çıxaranlara görə onların hamısına fitnəkar deyilmədiyi kimi, musəvi və israillilərin də hamısının fitnəkar adlandırılması doğru iş deyil. Qurana görə, müsəlman musəvinin evinə gedə bilər, orada yemək yeyə bilər. Eyni zamanda onunla dostluq edib və hətta evlənə də bilər. Belə olduğu təqdirdə bir müsəlmanın bir musəvini heç bir səbəb olmadan fitnəkar adlandırması mümkün deyil. Bu iddia ilə ortalığa çıxanlar əvvəl də müəyyən etdiyimiz kimi, Quranı heç bilməyən, fitnə mövzusunda musəvilərlə əlaqədar bir çox hədisin təsiri ilə yetişən cahil insanlardır.



**Quranda Musəvilər və Xristianlar kitab əhli olaraq təqdim edilmişdir. Müsəlmanlar kitab əhlinə sevgi, şəfqət və mərhəmətlə yaxınlaşmaqla məsuliyyətlidir.**

**"Nisa" surəsi, 89, 90, 91:**

**Onlar özləri küfr etdikləri kimi, sizin də küfr edib** *(onlarla)* **eyni olmanızı istəyərlər. Onlar Allah yolunda hicrət etməyincə onlardan** *(özünüzə)* **dost tutmayın. Əgər üz çevirsələr, onları harada görsəniz, tutub öldürün. Onlardan nə bir dost, nə də bir köməkçi tutun.** (Nisa surəsi, 89)

**Ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır. Əgər Allah istəsəydi, onları sizə qarşı qaldırardı və onlar da sizinlə vuruşardılar. Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı** *(vuruşmanıza)* **yol verməz.** (Nisa surəsi, 90)

**Siz bir başqalarına da rast gələcəksiniz ki, onlar həm sizdən, həm də öz camaatından arxayın olmaq istəyərlər. Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar. Əgər onlar sizdən aralanıb geri çəkilməsələr, sizə sülh təklif etməsələr və sizdən əl çəkməsələr, onlara harada rast gəlsəniz, tutub öldürün. Biz onlara qarşı sizə açıq-aydın dəlil verdik.** (Nisa surəsi, 91)

Yuxarıdakı ayələrdə münafiqlərdən bəhs edilir. Münafiq elə varlıqdır ki, müsəlman olduğunu deyir, müsəlmanların aralarında yaşayır və özlərini onlardan olduğunu göstərir. Lakin həqiqətdə Allaha və İslama qarşı düşmənlik edib müsəlmanları arxadan vurmağa çalışır. Allah münafiq olaraq ölənlərin cəhənnəmin ən aşağı təbəqəsində olacaqlarını bildirir və onları alçaldır. Məlum olduğu kimi, münafiq ikiüzlülüyü üzündən nə inkarçılara bənzəyir, nə də müşriklərə. Olduqca təhlükəli və alçaq insan modelidir.

Müsəlmanları yarı yolda qoyan və onların da özləri kimi inkar etmələri üçün çalışan münafiqlərlə dost olmaq "Nisa" surəsinin 89-cu ayəsində qadağan edilmişdir. Onlarla müharibə etməyin qanuni olduğu vəziyyət **"əgər üz çevirsələr"** ifadəsindən də anladığımız kimi, münafiqlərin artıq müsəlmanlara qarşı feili hücumudur. Bunu sonrakı ayədən də anlamaq mümkündür. 90-cı ayədə **"əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr"** ifadəsindən məlum olduğu kimi, hücum etməyən topluluğa qarşı müharibə edilməz. Açıq-aydındır ki, öldürmə izni verilən topluluq müsəlmanlara müharibə elan edən topluluqdur. Yenə də buradan başa düşürük ki, müsəlmanlara hücum qarşısında özlərini müdafiə haqqı verilir.

Bununla yanaşı, "Nisa" surəsinin 90-cı ayəsi Quranın adil, şəfqətli və daima sülhü qoruyan üslubunun başqa göstəricisidir. O vaxta kimi müsəlmanları hiyləgərliklə arxadan vurub xainlik etsələr də, münafiqlərin bir qismi sülh istədikləri üçün **"ancaq sizinlə aralarında müqavilə olan bir camaata qoşulanlar, ya da sizinlə və ya öz camaatı ilə vuruşacaqlarından köksləri sıxıldığı üçün sizin yanınıza gələn kimsələr istisnadır"** hökmünə əsasən, toxunulmazdırlar. Allah eyni ayədə: **"Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı** *(vuruşmanıza)* **yol verməz"**, –buyurmaqla

onların toxunulmazlığını təkrar xatırladır. Bu isə ədalətin tam özüdür.

Belə ki, 91-ci ayədə vəziyyət yenə eyni şərtlər əsasında təsvir edilir. Həmin mühitdə müharibə istəmədiyini və peşman olduğunu deyən münafiqlərin bir qismi fitnəyə təkrar dönüb müsəlmanlara hücum etməyə başlamışdılar. Bu vəziyyətdə Qurandakı savaş hökmü bir daha xatırladılır və deyilir ki, hücum etmədikdə onlara toxunmasınlar, lakin hücum etdikdə özlərini müdafiə etsinlər. Burada qeyd etməliyik ki, ayədə Uhud döyüşü əsnasında baş verən xüsusi hadisədən və həmin döyüşdə ikiüzlülük edib savaşdan yayınan münafiqlərdən bəhs edilir.



**Tövbə surəsinin 6-cı ayəsində Müsəlmanlara, özlərinə sığınan və onlardan kömək istəyən bir müşrikə "öz canlarını təhlükəyə ataraq" belə olsa yardım etmələri tövsiyə edilməkdədir.**

**"Tövbə" surəsi, 5:**

**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, öldürün, onları əsir tutun, onları mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir.** (Tövbə surəsi, 5)

Bu ayədəki şərtləri başa düşmək üçün "Tövbə" surəsinin 1-ci ayəsindən başlayaraq oxumaq lazımdır. Belə oxunanda məlum olur ki, söhbət bütün müşriklərə qarşı hücumdan getmir, müsəlmanlara vəhşicəsinə hücum edən və

daha sonra haram aylarda savaşmamaq üçün razılıq əldə olunan müşriklərdən gedir. Burada bəhs olunan müşriklər o kəslərdir ki, **müsəlmanlarla müqavilə bağlasalar da və haram aylar boyunca müharibə etməyəcəklərini çox yaxşı bilsələr də,** yenə də hiyləgərliklə və qəfildən müsəlmanlara hücum edirdilər. Odur ki, ayədə belə hallarda müsəlmanlara özlərini müdafiə haqqı verilmişdir. Ayədə göründüyü kimi, müşriklər haram aylarda hücum etməyə davam etsələr də, müsəlmanlar Allahın əmrinə əsasən, bu dövrdə səbirli davranmış, haram aylar bitəndən sonra müdafiə olunmuşdular. Yenə ayədə təsvir olunur ki, müdafiə zamanı nə etmək lazımdır: həbs etmək, mühasirəyə almaq və bütün keçid yerlərinin zəbt edilməsi. Beynəlxalq hüquqa əsaslanan müharibələrdə ilk şərt mühasirə və həbs etməkdir. Mühasirə üçün keçid nöqtələri tutulur və beləliklə, qarşı tərəfin irəliləməsi əngəllənir. Buna görə də, bu ayədə hal-hazırda beynəlxalq hüquqda tətbiq olunan və haqlı sayılan üsul təsvir olunur. Aradakı yeganə fərq odur ki, burada müsəlmanlar hücum etmir, yalnız özlərini müdafiə edirlər. Bundan başqa, eyni ayəyə əsasən, hücumdan vaz keçib tövbə edənlərə qarşı savaşmaq qadağan olunmuşdur. Onlar sərbəst buraxılırlar.

Həmin ayədən sonrakı ayəyə nəzər saldıqda Quranın gerçək sevgi və qoruyucu ruhundan bəhs edildiyini görürük. Belə ki, bu ayə İslam əleyhdarlarının bu mövzuda müsəlmanlara qarşı bütün iddialarını ortadan qaldırır:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar** *(haqqı)* **bilməyən bir camaatdır.** (Tövbə surəsi, 6)

Bu ayədə müsəlmanlara nəsihət olunur ki, öz canlarını təhlükəyə atsalar da, onlardan kömək və sığınacaq istəyən müşriklərə yardım etsinlər. Ayəyə əsasən, həmin müsəlmanlar müşrikəri qorumaq üçün **ÖZLƏRİNİ SİPƏR EDİRLƏR.** Başqa sözlə desək, müsəlman Allahı inkar edən birinin canını qorumaq üçün həyatına risk edib onu təhlükəsiz yerə çatdırmalıdır.

Bu, Quranın hökmüdür. Quranın hökmünə görə, bir insan Allaha inanmadığı üçün öldürülmür. Tam əksinə, müsəlmanların canı bahasına qorunur. Buna görə də, qarşı tərəfin Allaha inanıb-inanmadığı və ya başqa dindən olub-olmadığı savaşa əsas vermir. Savaşa əsas verən şey qarşı tərəfin hücum, işgəncə və ya qətlə yetirmək kimi hərəkətlərə yol verməsidir.

Ayənin işarə etdiyi həqiqətlərdən biri də budur ki, hücum edib azğınlığa yol vermədikləri müddət boyu din, dil, millət və inanc ayrı-seçkiliyi edilmədən bütün insanlar müsəlmanlar tərəfindən qorunmalıdır. Müsəlman müsəlmanı qoruduğu kimi, kitab əhlini, hətta ateist və kommunisti də qorumalıdır. Bu, müsəlman olmağın şərtidir və Qurandakı müsəlmanın tərifidir. Bir insan müsəlman olduğunu deyirsə, mütləq qoruyucu olmalıdır.

"Tövbə" surəsi, 13:

**Məgər siz andlarını pozan, Peyğəmbəri** *(öz yurdundan)* **qovmaq fikrində olan, özləri də sizinlə** *(döyüşü)* **birinci başlayan bir camaatla vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər möminsinizsə, daha çox Allahdan qorxmalısınız.** (Tövbə surəsi, 13)

Bu ayə Quranda müharibənin hökmünü göstərən ayələrdən bir başqasıdır. Müsəlmanlarla müqavilə bağlayan, yəni buna əsasən sülh içində yaşayan müşrik topluluq şərtləri pozub təxribata və hücuma yol verirsə, yaxud Peyğəmbərimizi yaşadığı yerdən sürgün etməyə cəhd göstərirsə, deməli, onlar savaşı ilk başladan tərəf olurlar və buna görə də müsəlmanların onlarla savaşmaq haqqı vardır.

"Maidə" surəsi, 33:

**Allaha və Onun Elçisinə qarşı müharibə edənlərin və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək, və ya çarmıxa çəkilmək, ya əl və ayaqlarını çarpazvari kəsmək və yaxud da yaşadıqları yerdən sürgün edilməkdir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir.** (Maidə surəsi, 33)

Bütün müharibə ilə əlaqəli ayələrdə müəyyən etdiyimiz mövzu bu ayədə də diqqəti cəlb edir. Burada müharibə aparılacaq topluluğun xüsusiyyətləri ətraflı izah olunmuşdur: Allaha və elçisinə birbaşa müharibə elan etmələri və yer üzündə fitnə çıxarmaları. Göründüyü kimi, bu adamlar təkcə müsəlmanlara qarşı feili hücuma yol vermirlər. Eyni zamanda bütün yer üzündə fitnə çıxarırlar. Yəni ayədə bütün dünyada problem çıxaran və hər kəsin təxribatçı kimi gördüyü azğın topluluqdan bəhs edilir.

Müsəlmanlara qarşı müharibə elan edən topluluq qarşısında müdafiə zamanı –bütün savaşlarda olduğu kimi– məcbur qaldıqda öldürmək olduğu kimi, onları olduqları yerdən sürgün etmək də vardır. Başqa sözlə, Quranda müsəlmanlara adi vaxtlarda haram olan hərəkətlərə (cana qıymaq, sürgün etmək) yalnız belə hallarda izin verilmişdir.

"Ənfal" surəsi, 57:

**Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olan kimsələri də dağıt ki, bəlkə ibrət alsınlar.** (Ənfal surəsi, 57)

Bu ayəni də yenə yuxarıda ətraflı şəkildə izah etdiyimiz və dəlillərini verdiyimiz məntiqlə dəyərləndirmək lazımdır. Unutmaq olmaz ki, Peyğəmbərimizə bir qisim ayələrin nazil olduğu Mədinə dövründə şiddətli savaşlar olurdu. Həmin mühit yalnız **Onlar ancaq "Rəbbimiz Allahdır"– dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar...** (Həcc surəsi, 40) ayəsində bildirildiyi kimi, müsəlmanlara qarşı haqsız zülmün nəticəsində meydana gələn savaşlar idi. Bundan başqa, yenə də xatırladaq ki, müsəlmanlar **"Əgər onlar sizdən aralanıb geri çəkilsələr, sizinlə vuruşmasalar və sizə sülh təklif etsələr, Allah sizə onlara qarşı** *(vuruşmanıza)*

**yol verməz"** ayəsinə əsasən, qarşı tərəf müharibəyə son verdikdə savaşı dayandırmalı, onların əleyhində heç bir hərəkətə yol verməməlidirlər.

"Ənfal" surəsinin 57-ci ayəsindən bir neçə ayə əvvələ baxanda görürük ki, həmin dövrdə müsəlmanlarla müqavilə bağlayan topluluqdan bəhs edilir. Müdafiəyə izin verən bütün Quran ayələrində həmin topluluğun davamlı müqaviləni pozub hücuma keçdiyi xüsusilə vurğulanır. Dayanmadan hücum edən, heç bir sözü dinləməyən, həmçinin sözünə əməl etməyib fitnə çıxaran topluluğa yayındırmaq məqsədilə güc göstərmək lazımdır. Çünki belə vəziyyətdə fitnəni alışqanlığa çevirən həmin topluluqların eyni şeyi etməyə bir daha gücü çatmaz və onların arxasından hücuma hazırlaşıb fitnə çıxarmaq istəyən müşrik dəstələr də buna cəsarət etməzlər. Bu, hər bağlanan müqaviləni pozub savaşa başlayan topluluğa qarşı əhəmiyyətli tədbirdir. Demək olar ki, bütün dünya dövlətlərinin qanununda və beynəlxalq hüquqda bütün cəzaların yayındırıcı olmasına əhəmiyyət verilir. Məqsəd odur ki, cinayət eyni şəxs və başqa şəxslər tərəfindən təkrar işlənməsin. Bu tədbiri beynəlxalq hüquqda normal qarşılayanlar, lakin İslam üçün uyğun görməyənlər ədalətli davranmırlar.

**"Muhəmməd" surəsi, 4:**

*(Döyüşdə)* **kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə** *(əsirlərə bağladığınız)* **kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək** *(kafirlərlə belə rəftar edin)*. **Bax belə! Əgər Allah istəsəydi, onlardan** *(döyüşsüz də)* **intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün (belə etdi). Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz.** (Muhəmməd surəsi, 4)

Başqa ayələrdə olduğu kimi, bu ayədə də savaş mühiti diqqəti cəlb edir. Müqavilə şərtləri pozulmuş, müşriklər hücuma keçmiş, bu hücuma cavab verməkdən başqa çıxış yolu qalmamışdır. Bu ayədə təsvir edilənlər beynəlxalq savaş hüquqlarıdır. Üstəlik, burada beynəlxalq hüquqda tətbiq olunmayan şey də vardır və belə ki, müharibədən sonra əsirlər sərbəst buraxılır. Halbuki hal-hazırda Əfqanıstana hərbi müdaxilə bitsə də, Quantanamoda savaş əsirləri hələ də həbsdə saxlanılır və BMT, NATO kimi təşkilatlar bunu məqbul hesab edirlər. Halbuki Quran bunu normal qarşılamır. İslama görə, müharibənin sona çatması üçün əsirlər mütləq sərbəst buraxılmalıdır.

Müharibə ilə əlaqəli ayələr həmin dövrün şərtlərinə uyğun müdafiə savaşlarına aiddir və məlumdur ki, müharibə hücuma ilk başlayan fitnəkar müşrik və münafiqlərə qarşı aparılmışdır. Bu ayələrin mənasının dəyişdirilib radikalların nifrət və qəzəb siyasəti üçün istifadə olunmasının ən böyük səbəbi yüzlərlə saxta hədisin İslama daxil edilməsi və bir çox təfsirçilərin yanlış şərhləridir. Halbuki Quran İslama sonradan əlavə edilən saxta hədislərdən və xurafatlardan təmizlənərək açıq zehinlə oxunmalıdır. Dövrün müharibə mühiti nəzərə alınarsa, ayələrin mənaları olduqca açıq-aydındır.

## İSLAMDA MÜHARİBƏ ÜÇÜN ƏSAS YOXDUR

İslamın savaş dini olduğunu iddia edənlər başa düşməlidirlər ki, müharibə anlayışı İslam təlim-tərbiyəsinə tamamilə ziddir. Quranda qarşı tərəfə hücum etmək üçün heç bir əsas yoxdur. Quran demokratiya və azadlığın ən mükəmməl tərifini verir. Demokratiya və azadlığın hakim olduğu mühitdə qarşı tərəfi düşmən elan etməkdən və ya susdurmağa çalışmaqdan söhbət gedə bilməz. Çünki belə bir mühit hər kəsə hörmət edilən və hər kəsin rahat danışdığı azad mühitdir. İslam şəriətində, əslində, belə mühitdən bəhs edilir. Beləliklə də, Quranda müharibəyə heç bir əsas yoxdur. Bu həqiqəti Quran ayələri ilə izah edək:

### Müharibə İslamı Zorla Qəbul Etdirmək Üçündür?

İslamı savaş, güc və təzyiq yolu ilə bir insana qəbul etdirmək istəyənlər Qurana xəyanət edirlər. Quranda ən açıq hökmlərdən biri dində məcburiyyətin qətiyyən olmamasıdır:

**Dində məcburiyyət yoxdur...** (Bəqərə surəsi, 256)

Bu açıq ayə Quranın hökmüdür. Heç bir müsəlman bu hökmdən kənara çıxıb başqalarına dindar olmaq üçün təzyiq göstərə bilməz. Bu, Quranda qadağan edilmişdir.

Peyğəmbərimiz yalnız nəsihətçidir. Təbliğ edib son gələn haqq dini insanlara tanıtmaq məsuliyyəti daşıyır. O dövrdə İslam dinini Peyğəmbərimizin və digər müsəlmanların dilindən eşidənlərin bəziləri iman etmiş, bəziləri isə etməmişdir. Quranın açıq-aşkar hökmünə əsasən, Peyğəmbərimiz və yanındakı müsəlmanlar qəti şəkildə təzyiqə əl atmamışdılar. Quranda Peyğəmbərimiz *(Onlara)* **nəsihət ver! Sən yalnız nəsihətçisən. Onları məcbur edən deyilsən,** –deyə xəbərdar edilmiş və məcbur etmə qəti surətdə qadağan edilmişdir. Qurana əsasən, bütün müsəlmanlar İslam əxlaqını təbliğ etməlidir. Lakin heç kimə dindar olmaq üçün təzyiq göstərilməməlidir. Quranın məqsədi dünyaya sevgi və hüzur gətirməkdir. Odur ki, təzyiq və gücdən istifadə etmək Qurana heç bir şəkildə uyğun deyil.

Quranda məcbur etmənin açıq şəkildə qadağan edildiyi ayələrdən bəziləri aşağıdakılardır:

**De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın"...** (Kəhf surəsi, 29)

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?** (Yunus surəsi, 99)

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!** (Qaf surəsi, 45)

*(Onlara)* **nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən.** (Ğaşiyə surəsi, 21-22)

**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"**
(Kafirun surəsi, 1-6)

Məcbur etmə və zor tətbiqi Quranda qadağan edildiyinə görə savaş, hücum, düşmənlik və qəzəb üçün heç bir əsas qalmır. Əgər dinin qəbul etdirilməsi təzyiq ilə haramdırsa, müsəlmanlar müşrik cəmiyyətləri nəyə məcbur edə bilərlər? Beləliklə, Qurandakı İslama görə, İslamı qəbul etdirmək qətiyyən müharibəyə əsas ola bilməz.



## Müharibə İdeoloji və ya Etnik Üstünlük Üçündür?

İslamda hər ideologiyaya, hər millətə, hər etnik qrupa və hər düşüncəyə hörmətlə yanaşılır. İslamda fikir azadlığı vardır və bütün fikirlər dinlənilir. **Belə bir demokratiya anlayışının və hürriyyətin mövcud olduğu dində fikir ayrılığı və ya etnik fərqlilik üzündən müharibə etmək mümkün deyil.**

## Müharibə Müsəlman Liderin Gətirəcəyi İslam Qanunlarını Yaymaq Üçündür?

Daha əvvəl də ətraflı şəkildə açıqladığımız kimi, Qurana əsasən, müsəlman lider başçılıq etdiyi cəmiyyətdəki xristian, musəvi, ateist, kommunist, aqnostik, buddist və s. kimi digər fərqli düşüncələrə malik insanları qucaqlamalıdır. Belə ki, fikir azadlığını tamamilə mənimsəyib insanlara hürriyyət verməlidir. Azadlığın olmadığı yerdə qarşıdurmalar, qovğalar və iki üzlü insanlar ortaya çıxır. Bunların hamısının qarşısını alıb Quranın əmrini yerinə yetirməlidir. Müsəlman **Ey iman gətirənlər!** *(Şahidliyiniz)* **özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun.** (Nisa surəsi, 135) ayəsinə əsasən, inanc və etnik ayrı-seçkilik etmədən ədaləti ayaqda tutmalıdır. Öz əleyhinə olsa da.

## Müharibə Düşmənlərin Aradan Götürülməsi Üçündür?

İslamda düşmən necə ola bilər ki? İslam dini bütün insanların bərabər və qardaş olmasının tərəfdarıdır. İslam dininə əsasən, insan rəngindən, dilindən, irqindən, dinindən və sosial vəziyyətindən asılı olmayaraq, sırf insan olduğu üçün hörmətə layiqdir. Bütün haqq dinlərin bildirdiyi şəkildə insanlar Hz. Adəmin uşaqları olaraq qardaşdırlar. Bu qardaşlıq prinsipi dindar olmağın şərtlərindəndir. İslam irq üstünlüyü fikrinə əsaslanan, insanları təkmil və ibtidai olaraq iki yerə bölən bütün faşist ideologiyalara, həmçinin materialist və darvinist düşüncələrə qarşıdır. Bu səbəbdən, həmin azğın ideologiyaların bərabərində gətirdiyi qarşıdurma və savaş anlayışlarını özündə ehtiva etməməklə yanaşı, bunlara qarşı elmi mübarizə aparır.

İslamda hər insanın hörmətə layiq olduğuna dair qanun insanlar arasında hər cür münasibətin təməlini yaradır. Davranışları yanlış olan şəxs belə İslama görə daima potensial yaxşılığa yönələn insandır. Odur ki, həqiqi müsəlmanın düşməni ola bilməz. Hər müsəlman başqalarına şəfqətlə yanaşmalı, gözəl əxlaq nümunəsi göstərməlidir. Düşmən qazanıb onu itirməməlidir.

Quranda insanlara xitab edilərkən üstünlük mövzusunda hər hansı ayrı-seçkilik edilmədən "Adəm oğulları" ifadəsindən istifadə olunması bu mövzuda bütün insanların bərabər yaradıldıqlarını göstərir:

**Biz, Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə** *(minik üstündə)* **daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik.** (İsra surəsi, 70)

Müharibə üçün əsası olmayan dinin savaş dini kimi tanıdılması yalnız xurafatçıların əməllərindən qaynaqlanır. Dünyada bir çox insan İslamla əlaqədar bu açıqlamaları bilmədiklərinə və radikalların etdiklərinə şahid olduqlarına görə İslam haqqında çox yanılırlar. Onlar radikal düşüncəyə mənsub şəxslərin Qurandan kənar hökmləri tətbiq etdiklərinin və tamamilə fərqli din mənimsədiklərinin fərqində deyildirlər. Bu kitabda izah etmək istədiyimiz mövzu da elə budur.



**Müharibəyə təşviq edilənlər əsasən radikal qruplardır; fəqət müharibəyə öz zalım əməlləri üçün ehtiyac duyanlar, bütün bunları idarə edənlərdir.**

## MÜHARİBƏNİ İSTƏYƏN KİMLƏRDİR?

İslam adından böyük cəmiyyətləri yönləndirən bir çox din adamlarından bəhs edərkən bunu qeyd etmək yerinə düşər: silah sektorunu bir çox mərkəzlər daima canlı tutmağa çalışırlar. Silah sektoru yeganə sektordur ki, iqtisadi böhrandan təsirlənmir, tələbat olur və davamlı olaraq satışa yeniləri çıxarılır. Silaha niyə tələbat çox olur? Çünki müharibələri canlı tutmağa çalışırlar. Bunun üsullarından biri budur: öz dinini müharibə dini zənn edən, buna görə də ölüb-öldürməyə hazır olan cahil xalq kütləsini təhrik etmək. Bu təsvirə ən çox kimlərin uyğun gəldiyini təxmin etmək heç də çətin deyil: İslam adından ortaya çıxan radikal qruplaşmalar.

Bir qisim neokonlar və Qərbdəki digər İslam əleyhdarları vəhşiliyin həmin radikallar tərəfindən dünyaya yayıldığı mövzusunda haqlıdırlar. Lakin bu insanlar Üsamə bin Laden kimi bəzi liderlər barəsində yanılırlar. Ümumiyyətlə, belə liderlər İslam və müsəlmanlıqla əlaqəsi olmayan, lakin müxtəlif kəşfiyyat orqanlarının nəzarətində saxlanılan şəxslərdir. Müəyyən yerlərdə qarışıqlıq və ya müharibə çıxarmaq istədikdə həmin şəxsləri dərhal işə qarışdırırlar. Qərb ölkələrində bar və kafelərdə vaxt keçirdikləri halda, əmr gələn kimi saqqal buraxır, geyim tərzini və üslubunu dəyişdirir və tipik Yaxın Şərq görünüşünə bürünməklə illərlə öyrəndikləri xurafatları tətbiq etmək üçün hərəkətə keçirlər.




**Bəzi qondarma dini liderlər doğru zamanda müharibə və xaosa səbəb olmaq üçün istifadə edilən piyonlardır. Onlar müxtəlif kəşfiyyat bölmələri tərəfindən idarə olunur və onlara tapşırılan döyüş planını həyata keçirmək üçün fəaliyyət göstərirlər.**

Dünyada belə üsuldan çox istifadə olunub. Üsamə bin Laden bunlardan yalnız biri idi. Peyğəmbərimizin axırzamandakı ən böyük müjdəsi olan Hz. Mehdinin gəlişi və müsəlmanların buna səmimi inanmalarından sui-istifadə etdilər. Belə ki, Üsamə bin Ladeni Hz. Mehdi kimi qələmə verdilər. Bir çoxlarını buna inandırmağa çalışdılar. Bin Laden ilə başlayan proses tək Əfqanıstanı deyil, bütün müsəlman aləminə öz təsirini göstərdi. Ssenarinin sonunda bin Ladenin ölmüş görüntüləri qalacaqdı. Bu, qurulan bütün planın, bəlkə də, ən əhəmiyyətli hissəsi idi. Plana görə, İslam aləmi Mehdilərinin öldüyünü görüb bütün ümidlərini itirəcəkdilər. Bu, İslam aləminin gücdən düşməsi və daha çox istismar edilməsi üçün sistemli şəkildə qurulan plan idi.

Radikal fikir sahibləri, əlbəttə, buna görə günahkardırlar. Lakin onlara dəstək verən çevrələri də görməzdən gəlmək olmaz. Silah sənayesi bu qədər güclü və mənfəətli ikən müharibə daima onların işinə yarayır. Demək olar ki, ən çox radikal qruplaşmalar savaşa təşviq edilirlər. Lakin savaşa zalım əməlləri üçün ehtiyac duyanlar bütün bunları yönləndirənlərdir. Onlar üçün müharibəyə hazır olan cahil qruplar asan şəkildə idarə olunacaq piondurlar.

## XURAFATÇILARIN SAXTA DİNİ

Quranın əmrlərini ən mükəmməl şəkildə həyata keçirən Peyğəmbərimizdir. Peyğəmbərimiz bütün həyatı boyu Qurana uyğun yaşamışdır və müsəlmanlar üçün ən mükəmməl nümunə olmuşdur. Bütün əməlləri və sözləri Qurana uyğundur və bunların bir qismi dövrümüzə qədər gəlib çatmışdır. Hədis adı verilən bu sözlərin bir qismi Quranın göstərişlərini əks etdirir. Buna görə də onların Peyğəmbərimizə aid olduğu məlumdur və səhihdir. Xüsusilə axırzamana işarə edən bir çox hədis heç dəyişmədən qalmış, həmin hədislərdə gələcəkdə baş verəcək fövqəladə hadisələrdən bəhs edilmişdir. Beləliklə, Peyğəmbərimizin müjdələri bizim üçün çox qiymətlidir. Bu da öz növbəsində onu göstərir ki, hədislərin hamısını rədd etməməliyik, səhih olanlarını müjdə və nemət olaraq görməliyik.

Ancaq bu, bir həqiqətdir ki, hədis kitablarına sonradan əlavə edilən, Peyğəmbərimizin sözlərinə və əməllərinə heç uyğun gəlməyən bir qisim açıqlamalar dövrümüzdə hədis kitablarında yer alır. Bu sözlərin səhih hədislərdən ayırd edən xüsusiyyəti Qurana tamamilə zidd olmasıdır. Qurana zidd olan söz və əməllərin Peyğəmbərimizə aid olması mümkün deyil.

Belə ki, İslam dinindən tam fərqli olan xurafatçıların dinini araşdırdıqda hədislər mövzusunda bəzi həqiqətləri bilməliyik. Çünki xurafatçıların dini İslamın yeganə kitabı olan Quranda yoxdur. Bəs bu batil din haradan gəlir? Bu din adət-ənənələrdən, ağızdan-ağıza yayılan xurafatlardan, ən çoxu isə guya Peyğəmbərimizə aid olan uydurma hədislərdən gəlir.

Quranın nazil olmasından sonrakı əsrlərdə Peyğəmbərimizin bəzi əməlləri və sözləri hədis olaraq bir yerə toplanmışdır. Hədislərin hicri 2-ci əsrdən etibarən yazılmağa başlandığı zənn edilir. Həmin hədislərin bir qismi qorunmuşdur. Bir qismi isə uydurulmuş və sonrakı dövrlərə tamamilə yanlış ötürülmüşdür. Daha əvvəl də açıqladığımız kimi, bir hədisin, həqiqətən,

Peyğəmbərimizin sözü və ya əməli olub-olmadığını bilmək üçün Qurana baxmalıyıq. Əgər bir hədis Qurana uyğun gəlirsə, deməli, doğrudur. Əgər gələcəyə işarə edən bir hədis gerçəkləşərsə, yenə də doğrudur. Lakin həmin hədis Qurana ziddirsə, tərəddüd etməyə gərək yoxdur və hədis heç cür doğru qəbul edilə bilməz.

Bəs yaxşı, hədislər müsəlmana lazımdırmı? İlk öncə, müsəlmanların əvəzolunmaz yeganə qaynağı Qurandır və Quran bir müsəlman üçün təkbaşına kifayətdir. Uca Rəbbimizin hökmünə əsasən, müsəlman yalnız Qurandan hesaba çəkiləcək. Bununla belə, Peyğəmbərimizin Qurana əsaslanan əməllərini və ya möcüzələrini bilmək böyük nemətdir. Hədislərə tabe olmaq müsəlmana fərz deyil, lakin Peyğəmbərimizin söz və əməlləri, gələcəyə dair verdiyi müjdələr əhəmiyyətli yol göstəricidir. Elə buna görə də doğru sözü səhv olandan ayırmaq və dövrümüzə qədər gəlib çatan hədisləri aydınlaşdırmaq çox əhəmiyyətlidir. İslam cəmiyyətlərinin bir çoxunun problemi isə budur ki, Quranı tamamilə tərk edib yerinə uydurma hədisləri yol göstərici kimi qəbul edirlər. Həmin hədisləri "saxta hədislər" adı altında nəzərdən keçirəcəyik.

## XURAFATÇILARIN DİNİNƏ İSTİQAMƏT VERƏN MƏVZU (SAXTA) HƏDİSLƏR

Saxta hədislər dini qaynaqlarda "məvzu" hədislər kimi də adlandırılır və bu terminin mənası budur: Hz. Muhəmmədin demədiyi sözü yalan və iftira yolu ilə ona aid etmək. Yəni saxta hədis Hz. Muhəmmədə aid olmadığı halda, qəsdən onun hədisi kimi qələmə verilir.



Saxta hədislər kitabın bundan sonrakı hissəsinin əsas mövzusu olacaq. Çünki bu hədislər hal-hazırda bir çox İslam cəmiyyətlərində Quranı əvəz edən və yeni saxta dinin formalaşmasına səbəb olan əsas qaynaqlardır. Həmin saxta, yəni iftira xüsusiyyəti daşıyan hədislərin ən diqqəti cəlb edənlərini bir-bir izah edib gözlər önünə sərəcəyik. Səbəbi isə budur ki, hər kəsə sözügedən batil İslam anlayışının hansı xurafatlardan qaynaqlandığı məlum olsun və bunun yanlış olduğu Qurandan dəlilləri ilə göstərilsin. Ümid

edirik ki, beləliklə, İslamı yanlış anlayanlar xurafatçıların dininin təkcə yanlış anlaşılmadan ibarət olmadığını, tamamilə saxta sistem üzərinə qurulduğunu başa düşərlər. Eyni zamanda İslamı və Quranı tənqid etməyə çalışanlar da yanıldıqlarını görər və müsəlman adını daşıyan bir çoxları gerçək İslam və Quranla heç bir əlaqələrinin olmadığının şahidi olarlar. Yenə ümid edirik ki, buradakı açıqlamalar xurafatçı zehniyyət içində yaşamağa məcbur qalan, yeganə sistem kimi onu doğru zənn edən səmimi insanların Quranın doğru yolunu görmələrinə vəsilə olacaq.

## SAXTA HƏDİSLƏR ORTAYA NECƏ ÇIXIB?

Peyğəmbərimizdən nəql edildiyi iddia edilən hədislər və Peyğəmbərimizin əməlləri olaraq qəbul edilən rəvayətlər ilk dəfə onun vəfatından bir neçə əsr sonra qələmə alınmışdır. Məşhur altı hədis kitabından ibarət Kutubi-sittənin müəlliflərindən Buxari hicri 256-cı ildə, Müslim 261-ci ildə, Tirmizi 279-cu ildə, Əbu Davud 275-ci ildə, Nəsai 303-cü ildə, İbn Macə isə 273-cü ildə vəfat etmişdir. Şiələrin hədis kitabları isə fərqlidir. Sünni və şiələrin bir çoxu bir-birilərinin hədis kitablarını qəbul etmirlər. Şiələrin hədis kitablarının yaranması daha irəli tarixlərlə üst-üstə düşür. Məşhur şiə hədisçilərindən Qulani hicri 329-cu ildə, Babuvay 381-ci ildə, Cəfər Muhəmməd Tusi 411-ci ildə, əl-Mürtəza isə 436-cı ildə vəfat etmişdir.



Tarixi qaynaqlardan və bizə çatan ilk hədislərdən məlum olur ki, Peyğəmbərimizin və dörd xəlifənin dövründə heç bir yazılı hədis olmayıb. Xarəvi mövzu ilə bağlı belə deyir: "Nə səhabələr (Peyğəmbəri görənlər), nə də tabiyyun (Peyğəmbəri görməyən, lakin səhabə görən) hədisləri yazırdılar. Lakin söz kimi rəvayət edirdilər. Bəsit yazılı bir neçə mətndən başqa bunun istisnası yoxdur. Bu mövzuda nəql edilənlərin itməməsi üçün Ömər bin Əbdüləziz, Əbu Bəkr əl-Xəzmə bir məktubda əmr etdi ki, hədisləri araşdırıb yazsın". Yezid bin Əbdülməlik isə Ömər bin Əbdüləziz öləndən sonra Əbu Bəkr əl-Xəzmi bu vəzifədən uzaqlaşdırdı. Sonra gələn Xəlifə Hişam, əz-Zöhri hədislərini ilk toplayan şəxs kimi qəbul edilir. Bu da Peyğəmbərimizin şəhadətindən 2-3 əsr sonraya düşür.

Buxaridən əvvəl hədislərin nə qədər doğru olub-olmadığını heç kim araşdırmamışdır. Hədisləri səhih və ya zəif olaraq adlandırmaq Buxari ilə başlayır. Hədislər araşdırılanda isə bundan bir nəticə almaq mümkün olmur. Zəif olmaq bir tərəfə, tamamilə uydurma olan hədislər İslam adından yayılmış və sayı getdikcə çoxalmağa başlamışdır.

O dövrdə bunun qabağını almaq mümkün olmamışdı. Çünki Peyğəmbərimizin vəfatından hədis kitablarının yazılmasına qədər 6-7 nəsil keçmişdi. Bu hədislərin yazıldığı məşhur hədis kitablarında qeyd olunur ki, bunları 6-7 nəfər bir-birilərinə deyərək növbəti nəslə ötürmüşdür. Həmin hədislər nəql ediləndə Peyğəmbərimizdən sonrakı halqadan bir sonrakı halqa belə vəfat etmişdi. Yəni hədisçilərin hədis nəql edən şəxslərin doğru danışıb-danışmadıqlarını tədqiq edəcəkləri şəxslər həyatda deyildi. Hədis alimləri də bunun fərqində idilər. Müslim səhih olan, yəni qəti doğru olduğu qənaətinə gəldiyi hər hədisi kitabına yazmadığını deyir (Müslim, 1-ci cild). Hədislərin dinin qaynağı olduğunu deyən Buxari 600 min hədisdən 6-7 minini, yəni 1%-ini kitabına yazmışdır. Yerdə qalan 99%-inin isə əsaslı olmadığını düşünüb qeyd etməmişdir. Buradan belə nəticəyə gəlirik ki, İslam aləmi üçün hədislər bir neçə şəxsin qənaətinə görə müəyyən olunur ki, bu da hədisləri dinin qaynağı olaraq görənlər üçün çox dəhşətli vəziyyətdir. Çünki başqaları üçün səhih hökmündə olan, lakin Müslimin lazım bilmədiyi üçün kitabına yazmadığı digər hədislərdəki məlumatı heç bir zaman əldə etmək mümkün olmayacaq. Bu arada xatırladaq ki, bütün bunlar nəzərdən keçirildiyi halda, İslamın səhih, qorunan və heç dəyişməyən kitabı– Qurani-Kərim bir kənara qoyulmuşdur.

Misirli mütəfəkkir Əhməd Əmin uydurma hədislər barəsində belə bir ağıllı təsbit irəli sürür:

*"Maraqlıdır ki, əgər hədisləri açıqlayıcı formada nəzərdən keçirsək, piramida formasında olduğunu görərik. Piramidanın təpəsi Allahın elçisinin dövrüdür, aşağı endikcə piramidanın eni çoxalır. Piramidanın təməlinə çatanda görürük ki, Peyğəmbərimizin dövründən çox genişdir. Halbuki bunun əksi doğru olmalıdır. Çünki Peyğəmbərin yanında olanlar hədisləri ən çox bilənlərdir. Sonra onların ölümü ilə hədisləri bilənlərin sayı azalır, bu minvalla yuxarıda misal verdiyimiz piramida tərsinə formalaşır. Lakin biz Əməvi dövründəki hədislərin bu dövrdəkilərdən daha qabarıq olduğunu görürük".* (Əhməd Əmin, Dühaül-İslam)

Belə olduğu halda, bir-birindən fərqli, hətta bəziləri bir-birinə zidd olan yüz minlərlə hədisin varlığı və səhihliyi bir çox hədis alimləri arasında da müxalifətə səbəb olmuşdur. Məsələn, İkrimə, Buxari və bir çox məşhur hədisçiyə görə, mötəbər ravi ikən, Müslim onu yalan danışmaqda günahlandırmışdır. Belə nümunələr çoxdur. Bunlardan ən maraqlısı İslamın məşhur hədis kitabının müəllifi Buxarinin Hənəfi məzhəbinin banisi Əbu Hənifəni etibarsız elan edib ondan tək bir hədis belə nəql etməməsidir. Ən məşhur hədisçiyə görə, ən məşhur məzhəbin qurucusu etibarsız adamdır. Lakin müsəlman aləminin böyük qismi onları ən etibarlı iki hədis alimi kimi qəbul edir. Bu, həqiqətdir ki, hədis nəql edənlərin etibarlılığı haqqında müzakirələrdə ziddiyyətli izahlar hədislərdəki ziddiyyətlər qədər çoxdur.

Peyğəmbərimizdən nəql edilən və Quranın ruhunu əks etdirən hədislərə uydurma hədislərin qarışmasından savayı başqa bir problem isə hədislərin rəvayət şəkilləridir. Bir çoxları elə zənn edir ki, hədislər birbaşa

Peyğəmbərimizin ağzından çıxan sözlərdir. Halbuki bu, doğru deyil. Bunların birbaşa rəvayət edilən sözlər olduğunu hədis alimləri belə iddia edə bilməzlər. Buxari başda olmaqla, bir çox hədis ravisi belə qəbul ediblər ki, hədisin təkcə mənasının nəql edilməsi kifayətdir və mətnin özünü əzbərləmək şərt deyil. Bu da rəvayət edilən sözlərə çoxlu izahın əlavə olunmasına, yanlış anlaşılan məlumatların doğru kimi ötürülməsinə və mövzunu tam başa düşməyənlərin də nəql etməsinə səbəb olmuşdur.

Məna ilə hədis nəqli normal qəbul edildikdə bəzən hədisin əvvəlini və sonunu eşitməmək əhəmiyyətli dərəcədə məna itkisinə gətirib çıxarmışdır. Məsələn, Əbu Hüreyrənin "Uğursuzluq üç şeydə olur: ev, qadın və at", -deyərək bunu Peyğəmbərimizin söylədiyini iddia etdiyini eşidən Hz. Aişə buna cavab olaraq demişdir ki, Allaha and içirəm ki, Allahın Elçisi qətiyyən belə söz deməyib. O, deyib ki, cahil camaat belə deyirdi ki, uğursuzluq üç şeydə olur: ev, qadın və at.

Dörd məzhəbin qurucuları, şübhəsiz, olduqca dəyərli müsəlmanlardır və qiymətli İslam alimləridir. Lakin bunu bilmək lazımdır ki, dörd məzhəbin qurulmasında əsas rolu həmin hədislər oynayıb. Dörd məzhəbin qurucuları da öz seçdikləri hədisləri öz məzhəbləri üçün əsas qəbul ediblər. Dörd imam Kutubi-sittəni, yəni altı məşhur hədis kitabını yazan hədis imamlarının ölçülərindən kənara çıxaraq öz məzhəblərini qurublar. Daha əvvəl də qeyd etdiyimiz kimi, bunların ən böyüyü olan Hənəfi məzhəbinin qurucusu Əbu Hənifə hədis bilgisi zəifliyi və öz düşüncələrini önə sürməsi iddiası ilə başda Buxari olmaqla, digər hədis imamları tərəfindən tənqid olunmuşdur.

Hədis alimləri və məzhəblərin səhih saydığı hədislər arasında bu qədər ziddiyyət var ikən, hədislərin rədd edilməz olduğunu iddia edənlər də ortaya çıxmışdır. Həmin adamların dəstəyi ilə, məsələn, Buxarı və Müslimdəki tək bir hədisi inkar edənin kafir olduğu qəbul edilmişdir. Kitabın növbəti səhifələrində ətraflı bəhs edəcəyimiz kimi, hələ hədislərin Quran ayələrinin hökmünü qaldırdığını belə iddia edənlər olmuşdur. Bax belə, xurafatçıların meydana gətirdiyi cahil cəmiyyətlərin formalaşmasının əsil səbəbi bu qorxunc məntiqlərdir.

**Dörd məzhəbin qurucuları təbii ki, dəyərli İslam alimləridir. Ancaq, dörd məzhəbin quruluşu, təməldə bir-biri ilə ziddiyyət təşkil edən hədislər ilə yaranmışdır. Hər məzhəb öz seçdiyi hədisləri təməl qəbul etmişdir.**

## QURANDAN XARİC HÖKM AXTARANLAR DİNİN HƏQİQƏTİNƏ YÖNƏLMƏLİDİRLƏR

Uydurulan, səhv nəql edilən və şəxsi istəklərə görə açıqlanan minlərlə hədis hal-hazırda İslam dininin ən əhəmiyyətli qaynağı kimi qəbul edilməkdədir. İslam dinini dörd yerə bölüb dörd ayrı məzhəb, daha doğrusu bir-birinə zidd olan dörd ayrı din meydana gətiriblər.

Bir çox müsəlman qardaşımız bunun əsil din olduğunu zənn edib qaydalarına əməl edir, səhih olmayan bir çox hədisi gerçək zənn edirlər. Bu gün bir çox müharibənin əsas səbəbini meydana gətirən həmin xurafatlar

hədislər mövzusunda ortaq məxrəcə gələ bilməyən zehniyyətin məhsuludur. Daha əvvəl müəyyən etdiyimiz və kitabda tez-tez təkrarlayacağımız əhəmiyyətli həqiqəti bir daha xatırladaq: Quranda xəbər verilir ki, Peyğəmbərimizin Rəbbimizə bircə şikayəti olacaq, bu şikayət də Quranın tərk edilməsi ilə bağlıdır:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!"– deyəcək.** (Furqan surəsi, 30)

Əgər Rəbbimiz istəsə idi, Peyğəmbərimizin bütün sözlərini qoruyar və 1400 illik bu sözlər –eynilə Quran ayələri kimi– heç bir dəyişikliyə məruz qalmadan bu günə kimi gəlib çatardı. Lakin Quran təkbaşına İslam dininin mükəmməl şəkildə tətbiq olunması üçün kifayətdir. Onsuz da Peyğəmbərimizin etdiklərinin hamısı Quranda vardır.

Buna görə də Rəbbimiz Quranı qorumuşdur və bu, müsəlmanlar üçün kifayətdir. Quran qorunub dəyişmədiyi üçün xurafatçılar çətinləşdirməyə çalışdıqları İslam dininə Qurandan heç bir dəlil gətirə bilməyiblər. Odur ki, xurafatlarına dəlil kimi saxta hədisləri əsas kimi göstərməyə çalışıblar. Çünki Quranda bütün müsəlmanların birləşəcəyi tək yol, tək təsvir və tək ağıl vardır.

Quran müsəlmanlara həm bələdçi, həm də rəhmət olaraq endirilmişdir:

**...** *(Bu Quran)* **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusuf surəsi, 111)

Quranda Allahın ayələrini kifayət hesab etməyib uydurma sözlərə inananlardan da bəhs edilmişdir:

**Bunlar Allahın ayələridir. Biz onları sənə bir həqiqət kimi oxuyuruq. Onlar Allaha və Onun dəlillərinə dair sözə inanmadıqdan sonra hansı sözə daha inanacaqlar?!** (Casiyə surəsi, 6)

Allah ziddiyyətlərlə dolu olan izahlara qarşı Allahın dəyişməyən hökmü və İslam dininin haqq kitabı olan Quran üzərində düşünməyə dəvət edir:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.** (Nisa surəsi, 82)

Quranın tərk edilməsi, Qurandakı İslamın kafi görülməməsi və yeni din axtarışının başlanması bərabərində qarışıqlığı, anlaşılmazlığı və ədavəti də gətirir. Quranı tənqid edib uydurduqları dini yaymaq istəyənlər yenə xurafatdan istifadə edərək gələcək nəsilləri Qurandan uzaqlaşdırmaq üçün müəyyən tədbir alıblar.



## İSLAM ALƏMİNİN QURANI TƏRK ETMƏSİ

Müsəlmanların bir qismi illər boyu saxta hədislərə və bir çox din adamlarının dinə əlavə etdikləri xurafatlara əsaslanaraq Qurandan sistemli şəkildə uzaqlaşıblar. Həmin saxta hədis və icmalara (bəzi din adamlarının ortaq şəriət hökmləri) əsasən, Quranda olmayan bir çox əməl din adından yayılmışdır. Həmin əməllər o qədər çətindir ki, bir çoxları Quranı toxunulmaz hala gətirmişdir. Məsələn:

- *"Qurana dəstəmazsız toxunmaq olmaz" xurafatı Quran oxumağı çətinləşdirib.*
- *Dəstəmazın Quranda təkcə bir ayədə olduqca açıq şəkildə açıqlanmasına və çox asan olduğuna baxmayaraq, xurafatçılara görə, dəstəmazı pozan (cildlərlə kitaba sığan) minlərlə səbəb var. Buna görə də Qurana toxunmaq, demək olar ki, imkansız hala gətirilib.*
- *Quranı, ümumiyyətlə, oxumaq lazım deyil. Quranı qabın içində yüksək yerdən asıb aşağı endirmək olmaz.*
- *Quran müsəlmanın həyatının ən əhəmiyyətli hissəsi olduğu halda, xurafata görə, təkcə Ramazan ayında, qəndil gecələrində və bir də yaslarda ancaq ərəbcə oxuna bilər. Bir insanın Quranı öz dilində oxuması qəti qadağan edilmişdir. Xurafat inancında bir çoxları elə düşünür ki, Quranı öz dillərində oxusalar, günaha girəcəklər. Buna görə də ərəbcə bilməyən cəmiyyətlərin böyük qisminin Quranın içindəkilərdən xəbəri yoxdur.*
- *Xurafatçı zehniyyətin ucbatından dünyada milyonlarla müsəlmanın Quranda nə yazıldığından xəbəri yoxdur.*
- *Quranda baş örtüyünə dair hər hansı bir məlumat verilməsə də, (bu barədə növbəti səhifələrdə geniş məlumat veriləcək) və Qurana dəstəmazlı toxunmaq kimi müəyyən şərt olmasa da, xurafat dinində qadının baş örtüyü olmadan və dəstəmazsız Qurana toxunması qadağan edilmişdir. Eyni şəkildə, kişilərin də Qurana toxunmasında bir çox süni çətinliklər yaradılıb.*
- *Quran oxumağı əngəlləmək üçün ortaya atılan məşhur hekayələrdən biri də budur ki, guya, Quranı təkbaşına oxumaqla başa düşmək mümkün deyil və mütləq alimlərin izah və təfsirlərinə ehtiyac var. Bu təlimi alan müsəlmanların bir qismi Allahın* **"... Biz hər şeyi təfsilatı ilə izah etdik."** (İsra surəsi, 12) *ayəsinə baxmayaraq, elə inanıblar ki, Quranda təfsilatlı açıqlama tapa bilməyəcəklər. Buna görə də beyinlərinə yeridilən saxta hədisləri gerçək yol kimi qəbul ediblər.*

## QURAN ƏSAS YOL GÖSTƏRİCİMİZDİR VƏ DAİM ƏLİMİZİN ALTINDA OLMALIDIR

Quran həyatın hər anında və hər yerdə oxunmalıdır. Lakin mövcud qanunlara görə, bir müsəlmanın Qurana toxunması belə mümkün deyil.

Halbuki **Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın...**




(Əhzab surəsi, 34) ayəsi ilə daima oxunan və hikməti yadda saxlanılan Quran təsvir edilir. Yenə başqa bir Quran ayəsində buyurulur ki, **Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır.** (Bəqərə surəsi, 2). Bir kitabın yol göstərici olması üçün içindəki yol göstərən hikmətlər bilinməlidir. Eyni zamanda ayələrdə Quran barəsində aşağıdakı xüsusiyyətlər sadalanır:

Quran:

- *yolu aydınladan işıqdır,*
- *doğrunu yanlışdan ayıran ölçüdür,*
- *ixtilaf içində olanlara dəlil və möcüzədir,*
- *qəlblərində mənəvi mənada xəstəlik olanlara dərmandır,*
- *sıxıntı içində olan inanc sahiblərinə müjdədir,*
- *bütün insanlar üçün nəsihət və xatırlatmadır,*
- *hər mövzunu ətraflı açıqlayan qanundur,*
- *düşünməyi dərinləşdirən yol göstəricidir,*
- *hər şeyi müxtəlif formalarda açıqlayandır,*
- *Ağıllı davrananlar üçün xəbərdarlıqdır,*
- *Anlaşılmazlıq içində olan insanları bir araya gətirəndir.*

Bütün bunların gerçəkləşməsi üçün ancaq Quranı oxuyub içindəki öyüdləri anlamaq lazımdır. Lakin xurafatı yaymağa çalışanlar ilk növbədə Quran oxumağın qarşısını alıblar. Quran oxumaq əngəlləndikdə müsəlman doğrunu yanlışdan ayıra bilmir. Bununla yanaşı, hədislərin doğru olub-olmadığını da Qurana görə anlamaq mümkün olmur. Bunun yerinə saxta hədislər qoyulanda isə Qurandan ayrı yeni din ortaya çıxır. Xurafat dini bu minvalla İslam dünyasına hakim edilmişdir.



**"ONLARA OXUNAN KİTABI SƏNƏ NAZİL ETMƏYİMİZ ONLAR ÜÇÜN KİFAYƏT DEYİLMİ? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır."** (Ənkəbut surəsi, 51)

**"EY İMAN GƏTİRƏNLƏR! ALLAHIN SİZƏ HALAL BUYURDUĞU TƏMİZ RUZİLƏRİ HARAM ETMƏYİN VƏ HƏDDİ AŞMAYIN. Həqiqətən, Allah həddi aşanları sevmir."** (Maidə surəsi, 87)

## BÖYÜK BİR PROBLEM:
## HƏDİSLƏRİN AYƏLƏRİ NƏSH ETMƏSİ İFTİRASI

Nəsh haqqında əvvəlki bölmələrdə məlumat vermişdik. Bir ayənin başqa bir ayənin hökmünü ortadan qaldırması iddiasının məntiqsiz olduğunu bütün dəlilləri ilə açıqlamışdıq. Buradakı əsas problem isə odur ki, bir neçə din adamı və alimlər hədislərin bir qisminin ayələrin hökmünü qaldırdığını deyəcək qədər irəli gedirlər.

Belə bir iddia ilə çıxış edənlər, əslində, Peyğəmbərimizə iftira atırlar. İnsanları aldadaraq inandırmağa çalışırlar ki, Peyğəmbərimiz söz və əməlləri ilə Qurandan kənara çıxmışdır və Quranda olmayan şeyləri etmişdir. (Peyğəmbərimizi tənzih edirik)

Peyğəmbərimiz Qurana görə hökm etmiş və yalnız Quran əsasında yaşamışdır. Peyğəmbərimizin Qurandan kənar halal və ya haram gətirmək səlahiyyəti qətiyyən yoxdur. Onsuz da həm peyğəmbər olduğuna, həm də Allahdan çox qorxduğuna görə əsla belə bir şey etməz. Uca Allah bunun qəzəbə səbəb olduğunu ayələrdə belə xəbər verir:

**Bu, möhtərəm bir Elçinin sözüdür. O, şair sözü deyildir! Necə də az inanırsınız! O, kahin sözü də deyildir! Necə də az düşünürsünüz! O, aləmlərin Rəbbi tərəfindən vəhy edilmişdir! Əgər** *(Muhəmməd)* **bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi.** (Haqqə surəsi, 40-47)

Quran ayədə müəyyən edildiyi şəkildə hər şeyin müxtəlif formalarda açıqlamasıdır. Allah ayədə belə buyurur:

**...** *(Bu Quran)* **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusuf surəsi, 111)

Quranın **Ey Peyğəmbər! Zövcələrini razı salmağa çalışaraq Allahın sənə halal etdiyi şeyi nə üçün özünə qadağan edirsən? Allah Bağışlayandır, Rəhmlidir.** (Təhrim surəsi, 1) ayəsində açıq şəkildə göründüyü kimi, Peyğəmbər öz şəxsi həyatında belə halal olan şeyləri haram edə bilmir. Bundan başqa, Allah ayələrdə **Hökm yalnız Allaha məxsusdur.** (Ənam surəsi, 57) və **O, heç kəsi öz hökmünə şərik etməz!** (Kəhf surəsi, 26) kimi buyurur və hökm edənin yalnız Özü olduğunu xəbər verir. Allahın hökmləri isə Qurandadır.

Beləliklə də, Allahın vermədiyi hökmü Peyğəmbərimiz verə bilməz.

Quran oxumaq əngəllənəndə və hədislərin Quran hökmlərini nəsh etdiyi cürət edilib deyiləndə yeni din ortaya çıxarmaq və kütlələri həmin dinə sürükləmək çox asan olmuşdur. İslamdan tamamilə fərqli olan bu dini anlamaq üçün saxta hədislərin bəzilərini araşdıraq.



**QURAN MÜSƏLMANLIĞI YAŞANDIĞINDA BELƏ QORXUNC VƏ SEVGİSİZ GÖRÜNTÜLƏR ORTAYA ÇIXMAZ ...**

***İslam adına vəhşətin qaynağı bəzi məvzu, yəni uydurma hədislərdir. Bu hədis və tətbiqlər Quranın məzmununa və ruhuna tamamilə ziddir. Məhz bu səbəbdən xurafatların mənbəyi olan bu hədislər deşifrə edilməli və görüləcək tədbirlər ağıllı şəkildə müəyyən edilməlidir.***

## XURAFATÇI DÜŞÜNCƏNİN HƏDLƏRİNİ YAXŞI ANLAMAQ

Xurafatçı düşüncəni tənqid edən qərblilər, əslində, bu zehniyyətin sərhədlərini çox yaxşı bilmirlər. Saxta sözlər, saxta din adamları və xurafatlarla inkişaf etdirilən bu dinin qanunları onların bildiklərindən daha betərdir. Bir radikalın ifratçılığı belinə bomba bağlamaqla bitmir, qorxunc zehniyyət həyatının hər anında özünü büruzə verir. Yaşadığı mühitdən tutmuş ailə həyatına, qadından tutmuş bütün canlılara baxış formasına və təmizlikdən tutmuş ta xoşbəxtlik anlayışına qədər hər şeyi zülmət qaranlıq içindədir.

Burada radikalların baxış formasından bəhs edərkən onların qaynaq kimi istifadə etdikləri saxta hədisləri nəzərdən keçirəcəyik və bunlara Quran ayələri ilə cavab verəcəyik. Bunun səbəbi odur ki, radikalizmin qaynağını göstərib bunun İslam dini ilə heç bir əlaqəsinin olmadığını göstərmək lazımdır. Hər mərhələdə etdiyimiz xəbərdarlığı başdan müəyyən edək:

**Burada bəhs edəcəyimiz xurafatların heç biri Quranda yoxdur. Həmin hədis və əməllər Quranın içindəkilərə və Quranın ruhuna tamamilə ziddir. Belə ki, heç biri İslam dininə aid deyil. Bu uydurma əməllər müsəlmanlara daima zərər vermişdir. Elə buna görə də xurafatlar ifşa edilməli və beləliklə, bu təhlükəyə qarşı necə tədbir alacağımız müəyyən edilməlidir.**

## İÇKİ İÇƏNLƏRİN ÖLDÜRÜLMƏSİ

*İçki içməkdə beşinci dəfə israr edənləri öldürün.* (1643-Əbu Davud-Tirmizi)

Quranda əsla olmayan bu hökm yuxarıdakı xurafatla İslama daxil edilmişdir. Halbuki Quran ayələrində içki içsə də, müsəlman olan, hətta ibadətləri yerinə yetirən şəxslərin varlığından bəhs edilir. Ayədə belə bildirilir:

**Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və** *(cinsiəlaqədən sonra)* **natəmiz olduğunuz halda, – yolda olan** *(müsafirlər)***istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın...** (Nisa surəsi, 43)

Bu ayədə əhəmiyyətli hökm mövcuddur. Bir müsəlman içki içərək günaha girir, amma İslamdan çıxıb kafir olmur. Ayədəki aydın bildirilən ifadəyə əsasən, müsəlmanların arasında kimsə xəta edib içki içə bilər, lakin onlara tövsiyə edilir ki, namaz qılarkən ayıq olsunlar. Namaz kimi diqqət tələb edən bir ibadətdə sərxoş birinin diqqəti dağınıq olduğu üçün Allah onun həmin vaxt namaz qılmağını qadağan etmişdir. Lakin ayənin bildirdiyinə görə, sərxoşluq halı keçəndən sonra, yəni adam ayılanda təkrar namaz ibadətini yerini yetirə bilər. Belə ki, hər vəziyyətdə həmin adam müsəlmandır.

Quranın bu açıq hökmlə insanlara xəta edəndə də dindən çıxmadıqları mesajı verdiyi halda, uydurma hədisin saxta hökmü bir cinayəti təsvir edir. Problem budur ki, radikal aləmin nümayəndələri bu hədisi əzbər bilsələr də, onların Qurandakı gerçək hökmdən heç xəbərləri də yoxdur.




K. el-Hudûd (37) Bab 35, 36 — 191

...uygulanır.
...katı uyuşturucuları kullanmak da haramdır. An-
...d uygulanmaz, tazir cezası verilir.
...en daha hafif, kazif haddinden daha şiddetlice
...ulur. Şafiilere göre değnek ve kırbaçla uygula-
... el ile ve elbise ile de olabilir.

٣٦ ـ باب إذا تتابع فى شرب الخمر

**36. (HAD VURULDUKTAN SONRA) İÇKİ İÇMEYE DEVAM EDENE AİT HÜKÜMLER**

٤٤٨٢ ـ حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ أَخْبَرَنَا أَبَانٌ عَنْ عَاصِمٍ عَنْ أَبِى صَالِحٍ ذَكْوَانَ عَنْ مُعَاوِيَةَ بْنِ أَبِى سُفْيَانَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : «إِذَا شَرِبُوا الْخَمْرَ فَاجْلِدُوهُمْ، ثُمَّ إِنْ شَرِبُوا فَاجْلِدُوهُمْ، ثُمَّ إِنْ شَرِبُوا فَاجْلِدُوهُمْ، ثُمَّ إِنْ شَرِبُوا فَاقْتُلُوهُمْ».

4482... Muaviye b. Ebi Süfyan (r.a) demiştir ki:
Rasûlullah (s.a): **"İçki içtikleri zaman onlara dayak atınız. Sonra yine içerlerse dövünüz, sonra tekrar içerlerse, yine dövünüz, sonra yine içerlerse öldürünüz."** 200 buyurdu.

٤٤٨٣ ـ حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ أَخْبَرَنَا حَمَّادٌ عَنْ حُمَيْدِ بْنِ يَزِيدَ عَنْ نَافِعٍ عَنِ ابْنِ عُمَرَ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: بِهَذَا الْمَعْنَى، قَالَ: وَأَحْسِبُهُ قَالَ فِى الْخَامِسَةِ: «إِنْ شَرِبَهَا فَاقْتُلُوهُ».

قَالَ أَبُو دَاوُدَ: وَكَذَا فِى حَدِيثِ أَبِى غُطَيْفٍ فِى الْخَامِسَةِ.

4483... Nafi, İbn Ömer radıyallahümâ vasıtasıyla Rasûlullah (s.a) 'dan bu (önceki) hadisi manası ile rivayet etmiştir. Ravi (bu rivayette) şöyle demiştir:
-Zannediyorum, (şeyhim) beşincisinde: **"Eğer (yine) içerse onu öldürünüz"** buyurdu.
*Ebu Davud der ki:*
*"Ebu Gutayf ın hadisinde de; **"beşincisinde"** şeklindedir."*

200. Tirmizi, hudud 15; İbn Mace, hudud 17; Nesai, eşribe 42.

1 - **İçki içənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**




...BABLARI 49

...n en hafifi gibi seksen (olması görüşündeyim)!» ...bul edilmesi üzerine) Ömer bunu emretti.» ... hasen-sahih'tir. ...S.A.V.) ih ashabından ve sonrakilerden ilim ... bu minval üzredir; yani sarhoşun cezası sek-...

BAB : 15
MEVZU : ŞARAP İÇENİN KAMÇILANMASI VE DEVAM EDERSE DÖRDÜNCÜ DEFADA ÖLDÜRÜLMESİ HAKKINDA

١٤٧٠ — حدثنا أبو كريب . حدثنا أبو بكر بن عياش ، عن عاصم عن أبي صالح ، عن معاوية قال : قال رسول الله صلى الله عليه وسلم « من شرب الخمر فاجلدوه فإن عاد في الرابعة فاقتلوه » .

1470 — Muaviye (R.A.) den rivayet edilmiştir; dedi ki: Rasûlüllah (S.A.V.) şöyle buyurdu: «Her kim şarap içerse onu kamçılayın; şayet (şaraba) dönerse, dördüncüsünde öldürün!»

Bu babda Ebu Hüreyre, Eş-Şerid, Şurahbil bin Evs, Cerir, Ebur-Ramed El-Belevi ve Abdullah bin Amr (R. Anhüm) den hadis rivayet edilmiştir.

Muaviye'nin hadisini Süfyan Es-Sevri de, Âsım'dan—Ebu Salih'den—Muaviye'den—Rasûlüllah (S.A.V.) den böylece rivayet etti. İbn-i Cerir ve Ma'mer, Sühel bin Ebû Salih'den—babasından—Ebu Hüreyre'den—Rasûlüllah (S.A.V.) den rivayet ettiler. Muhammed (Buhari) den şöyle dediğini işittim: «Ebu Salih'in Muaviye tarikiyle Rasûlüllah (S.A.V.) den rivayeti, Ebu Hüreyre tarikiyle Rasûlüllah (S.A.V.) den rivayetinden daha sa-... ...sadece başlangıçta idi ve sonra neshedil-... ... Muhammed bin İshak, Muhammed bin ...r bin Abdullah'dan—Rasûlüllah (S.A.V.) ... «Rasûl-i Ekrem, «her kim şarap içerse ...ayın ve şayet (şaraba) dönerse, dördün-...

(F: 4 — Sünen-i Tirmizi — C. III)

2 - İçki içənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ



C

*İçki İçenin Öldürülmesi ile ilgili*
*HADİS KAYNAKLARI*

4

**KURAN İSLAMI'NDA İÇKİ İÇENİN ÖLDÜRÜLMESİ HÜKMÜ YOKTUR.**

5

Ebû Dâvûd Süleyman b. Eş'as b. es-Sicistânî
(H. 202-275)

**SÜNEN-İ EBÛ DÂVÛD TERCEME VE ŞERHİ**
Cild 15

Hazırlayanlar
Necati YENİEL   Hüseyin KAYAPINAR

Redaksiyon
Mehdi Ali Seçkin

YAYINCILIK

SÜNEN-İ EBÛ DAVÛ D

٤٤٨٤ ـ حَدَّثَنَا نَصْرُ بْنُ عَاصِمٍ الْأَنْطَاكِيُّ [illegible]
الْوَاسِطِيُّ أَخْبَرَنَا ابْنُ أَبِي ذِئْبٍ عَنِ الْحَارِثِ [illegible]
سَلَمَةَ عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ [illegible]
ثُمَّ إِنْ سَكِرَ فَاجْلِدُوهُ، ثُمَّ إِنْ سَكِرَ فَاجْلِدُوهُ [illegible]

قَالَ أَبُو دَاوُدَ: وَكَذَا حَدِيثُ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ عَنْ أَبِيهِ عَنْ
أَبِي هُرَيْرَةَ عَنِ النَّبِيِّ ﷺ: «إِذَا شَرِبَ الْخَمْرَ فَاجْلِدُوهُ، فَإِنْ عَادَ
الرَّابِعَةَ فَاقْتُلُوهُ».

قَالَ أَبُو دَاوُدَ: وَكَذَا حَدِيثُ سُهَيْلٍ عَنْ أَبِي صَالِحٍ عَنْ أَبِي
هُرَيْرَةَ عَنِ النَّبِيِّ ﷺ: «إِنْ شَرِبُوا الرَّابِعَةَ فَاقْتُلُوهُمْ».

وَكَذَا حَدِيثُ ابْنِ أَبِي نُعْمٍ عَنِ ابْنِ عُمَرَ عَنِ النَّبِيِّ ﷺ.

وَكَذَا حَدِيثُ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو عَنِ النَّبِيِّ ﷺ وَالشَّرِيدِ عَنِ
النَّبِيِّ ﷺ.

وَفِي حَدِيثِ الْجَدَلِيِّ عَنْ مُعَاوِيَةَ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «فَإِنْ عَادَ
فِي الثَّالِثَةِ أَوِ الرَّابِعَةِ فَاقْتُلُوهُ».

4484... Ebu Hureyre (r.a)'den, Rasûlullah (s.a) 'in şöyle buyurduğu rivayet edilmiştir:

"(Bir kimse) **sarhoş olduğu zaman ona dayak atınız, sonra** (yine) **sarhoş olursa** (yine) **dayak atınız, sonra sarhoş olursa yine dövünüz, dördüncü defa tekrarlarsa onu öldürünüz.**"[201]

*Ebu Davud şöyle demiştir:*

*"Ömer b. Ebi Seleme'nin babasından, onun da Ebu hureyre (r.a) vasıtasıyla Rasûlullah (s.a) 'den rivayet ettiği hadis te aynıdır. (Bu rivayette) Rasûlullah şöyle buyurmuştur:* ***"Şarap içtiği zaman ona dayak atınız.***

201. İbn Mace, hudud 17; Nesai, eşribe 42.

**3 - İçki içənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

D



K. el-Hudûd (37) Bab 36 293

**Dördüncü kez tekrarlarsa öldürünüz"**

*Yine Ebu Davud şöyle der:*

*Süheyl'in Ebu Salih'ten onun da Ebu Hureyre vasıtasıyla Rasûlullah (s.a)'den rivayeti aynı şekilde söyledir:*

***"Dördüncü defa içerlerse onları öldürünüz."*** *İbn Ebi Num'un İbn Ömer vasıtasıyla Rasûlullah'tan, Abdullah b. Amr'ın Rasûlullah (s.a) 'den ve Şerid'in Rasûlullah'tan rivayet ettikleri hadisler de aynıdır.*

*el-Cedelî (Abd b. Abd)'nin Muaviye vasıtasıyla Rasûlullah (s.a) 'den rivayet ettiği hadiste ise Efendimiz:*

***"Üçüncü veya dördüncüde tekrarlarsa onu öldürünüz"*** *buyurdu.*

٤٤٨٥ ـ حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدَةَ الضَّبِّيُّ أَخْبَرَنَا سُفْيَانُ قَالَ: الزُّهْرِيُّ أَخْبَرَنَا عَنْ قَبِيصَةَ بْنِ ذُؤَيْبٍ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ شَرِبَ الْخَمْرَ فَاجْلِدُوهُ، فَإِنْ عَادَ فَاجْلِدُوهُ، فَإِنْ عَادَ فَاجْلِدُوهُ، فَإِنْ عَادَ فِي الثَّالِثَةِ أَوِ الرَّابِعَةِ فَاقْتُلُوهُ» فَأُتِيَ بِرَجُلٍ قَدْ شَرِبَ الْخَمْرَ فَجَلَدَهُ، ثُمَّ أُتِيَ بِهِ فَجَلَدَهُ ثُمَّ أُتِيَ بِهِ فَجَلَدَهُ ثُمَّ أُتِيَ بِهِ فَجَلَدَهُ وَرَفَعَ الْقَتْلَ، فَكَانَتْ رُخْصَةً.

قَالَ سُفْيَانُ: حَدَّثَ الزُّهْرِيُّ بِهَذَا الْحَدِيثِ وَعِنْدَهُ مَنْصُورُ بْنُ الْمُعْتَمِرِ وَمُخَوَّلُ بْنُ رَاشِدٍ فَقَالَ لَهُمَا: كُونَا وَافِدَيْ أَهْلِ الْعِرَاقِ بِهَذَا الْحَدِيثِ.

قَالَ أَبُو دَاوُدَ: رَوَى هَذَا الْحَدِيثَ الشَّرِيدُ بْنُ سُوَيْدٍ وَشُرَحْبِيلُ بْنُ أَوْسٍ وَعَبْدُاللَّهِ بْنُ عَمْرٍو وَعَبْدُاللَّهِ بْنُ عُمَرَ وَأَبُو غُطَيْفٍ الْكِنْدِيُّ وَأَبُو سَلَمَةَ بْنُ عَبْدِالرَّحْمَنِ عَنْ أَبِي هُرَيْرَةَ.

4485_ Kabisa b. Züeyb (r.a)'den rivayet edildi ki: Rasûlullah (s.a):

**"Bir kimse şarap içerse ona dayak atınız, tekrarlarsa yine dayak atınız. Yine tekrarlarsa üçüncüsünde veya dördüncüsünde onu öldürünüz"** buyurdu.



Ebû Dâvûd Süleyman b. Eş'as b. es-Sicistânî
(H. 202-275)

**SÜNEN-İ EBÛ DÂVÛD TERCEME VE ŞERHİ**

Cild 15

Hazırlayanlar
Necati YENİEL Hüseyin KAYAPINAR

Redaksiyon
Mehdi Ali Seçkin

YAYINCILIK

6

**4 - İçki içənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

## TARAŞ OLANLARIN ÖLDÜRÜLMƏSİ

*"Quran oxuduqları halda, taraş olanları öldürün".*

(4816- Buxari Müslim- Müvətta-Nəsai-Əbu Davud)

Bu hədislərin Buxari və Müslim kimi etibar qazanmış və səhih hədislərin də mövcud olduğu qaynaqlarda olması saxta hədisləri xurafatçıların dünyasında daha təsirli etmişdir. İlk öncə, Quran təmiz və baxımlı olmağı tərifləyir. Odur ki, saqqalın -uzun və ya qısa- müxtəlif formalarda taraş edilməsi Qurana tamamilə uyğun təmizlik anlayışıdır. Lakin bununla yanaşı, saqqalın taraş edilməsi mövzusunda Quranda tək bir hökm keçmədiyi halda, uydurma hədis yolu ilə belə bir hökm çıxarmaq çox təəccüblüdür.

**...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür...** (Maidə surəsi, 32) – deyən gözəl dinimizdə saqqalını kəsdiyi üçün bir insanın öldürülməsi mümkün deyil. Bu mövzuda Quranda bircə ayə belə olmadığı halda, adam öldürməyi haqlı göstərmək necə mümkün ola bilər?

Əlbəttə, gerçək İslam anlayışında belə bir şey mümkün deyil. Burada bunu da qeyd etmək lazımdır ki, müsəlman dünyasının böyük qismi saqqalını taraş edir və ya baxımlı saxlayır. Bu hökmə görə, müsəlman kişilərin haradasa 80%-indən çoxunu öldürmək lazımdır. Problem burasındadır ki, bu hökmə inanan çoxlu radikal müsəlman var və onlar taraş olunanların öldürülməsinin vacib olduğunu deyirlər. Belə şəxslər Qurana baxmayaraq, qorxulu fikirlərə sahibdirlər.

## ZİNA EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ

*Zina edənləri öldürün.* (1623-Tirmizi 1601)

*Evli olduğu halda, zina edənləri daşlayaraq (rəcm edərək) öldürün.*

(1111 Buxari) (1606-Buxari-Müslim-Tirmizi-Əbu Davud-Nəsai-İbn Macə)

Bu saxta hədislər Tövratdakı zina edənlərin daşlanaraq öldürülməsi hökmünü müsəlmanlığa daxil etmək və rəcm (daşlamaq) kimi vəhşiliyi məqbul göstərməyə çalışmaq üçün uydurulmuşdur. Həmin bu saxta hökmü hədis ədəbiyyatına daxil etmək üçün bir qisim din adamları başqa yalan hədisləri uydurmaqdan geri qalmamışdır. Aşağıda bir neçə nümunəsini göstərdiyimiz həmin hədislər rəcm cəzasını məqbul göstərmək üçün Peyğəmbərimizə, xəlifələrə və səhabələrə atılan iftiralarla doludur:

*"Zina edən evlilərin daşlanaraq öldürülmələrini əmr edən ayənin yazıldığı səhifə Hz. Aişənin döşəyinin altında idi. Peyğəmbər vəfat edəndə Hz. Aişə onun dəfn işləri ilə məşğul idi. Bu əsnada evin açıq qapısından içəri girən bir keçi həmin səhifəni yedi. Beləliklə, daşlanaraq öldürmə cəzası Qurandan çıxdı. Lakin hökmü davam edir".* (İbni-Macə 36/194; Hənbəl 3/61, 5/131)

*"Keçi yediyinə görə Qurandan çıxan daşlamaq ayəsini Ömər Qurana təkrar əlavə etmək istədi, amma camaatın dedi-qodusundan çəkindiyi üçün buna cəsarət etmədi".*

(Buxari, 53/5; 54/9; 83/3; 93/21; Müslim, Hüdud 8/1431; Əbu Davud 41/1; İtqan 2/34)

*"Cənabi-Allah Muhəmmədi haqq ilə göndərmiş və ona kitabı endirmişdir. Rəcm ayəsi də ona endirilən ayələrdən biri idi. Biz bu ayəni oxuyub əzbərlədik və anladıq. Rəsulullah rəcm hökmünü tətbiq etdi, ondan sonra biz*

*də etdik. Qorxuram ki, zaman keçincə birisi çıxıb desin ki, biz Allahın kitabında rəcmi tapa bilmirik. Beləcə, Allahın endirdiyi fərzi tərk edib sapqınlığa düşərlər. Şübhəsiz ki, rəcm Allahın kitabında evli olmaq, şahidin olması, hamilə qalmaq və ya etiraf etmək şərtləri daxilində zina edənin əleyhinə haqdır".* (Müslim, Hüdud, 15)

*Xəlifə Ömərin rəcmi Mədinə minbərindən elan etməsi və aralarında səhabələrin də olduğu camaatdan heç birinin buna qarşı çıxmaması rəcmin sabit olduğunu göstərir.*

(Səhihi-Müslim tərcümə və şərhi, Əhməd Davudoğlu, İstanbul 1978, VIII, 350; Sərahsi 490/1097)





**Rəcm ilə əlaqəli saxta hədislər, Tövratda keçən zina edənin daşlanaraq öldürülməsi hökmünü Müsəlmanlığa daxil etmək və rəcm (daşlama) kimi bir vəhşəti ağlauyğun göstərməyə çalışmaq üçün uydurulmuşdur.**

İslama, Qurana, Peyğəmbərimizə və səhabələrə qarşı iftiralarla dolu olan yuxarıdakı uydurma hədisləri ətraflı araşdıraq:

İlk öncə, Allah ayələrdə Quranın İlahi qoruma altında olduğunu açıq şəkildə ifadə etmişdir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.**
(Hicr surəsi, 9)

**Həqiqətən, bu, ehtirama layiq Qurandır, qorunub saxlanılan Yazıdadır.** (Vaqiə surəsi, 77-78)

**Şübhəsiz ki,** *(sənin qəlbində)* **onun qərar tutması və** *(dilinlə)* **onun oxunması Bizə aiddir.** (Qiyamət surəsi, 17)

Allah açıq şəkildə Quranı qoruduğunu, ayələri bir araya gətirib onları mühafizə etdiyini ayələrdə bildirmişdir. Son endirilmiş vəhy olan Quranın

İlahi qoruma altında olduğunu yenə Qurandan öyrənirik. Çünki Quran son kitab olduğu üçün Qiyamətə qədər insanların hidayət tapmasına vəsilə olacaq. Buna görə də son vəhy Allah tərəfindən qoruma altına alınmışdır. Necə ki, bunu uca Rəbbimiz Peyğəmbərimizə **Biz sənə** *(Quranı) (elə)* **oxumaq imkanı verəcəyik ki, o, yadından çıxmayacaq.** (Əla surəsi, 6) ayəsi ilə vəhy etmişdir. Bu ayənin xəbər verdiyi kimi, Allah Peyğəmbərimizə oxudulan heç bir ayəni unutdurmamışdır.

Zina ilə əlaqədar ayəni keçinin yediyi mövzusunda iddia edirlər ki, Allah ayədə qorunan kitabdan bəhs etsə də, Qurandan bir ayə çıxmışdır, yəni (haşa) Allah ayəni qoruya bilməmişdir.

Bundan başqa, uydurma hədislərdə Hz. Ömərə açıq-aşkar iftira yaxırlar. Bu iftiraya görə, Hz. Ömər Quranda olmayan bir hökmü bilir; Quranda olmadığına baxmayaraq, Mədinə minbərində bunu bir ayə olaraq açıqlayır; buna heç bir səhabə qarşı çıxmır; Hz. Ömər də dedi-qodudan qorxduğu üçün bunu Qurana daxil edə bilmir...

Şübhəsiz ki, Peyğəmbərimizin xəlifəsi Quranda olmayan bir hökmü, əslində, Quranda olduğunu deyə bilməz. Bu, o mənaya gəlir ki, Hz. Ömər Quranın qorunan kitab olduğunu rədd edir və Allahın hökmünə qarşı çıxır (Hz. Öməri tənzih edirik). Əlbəttə, bu da saxta hədislərlə Hz. Ömərə atılan çox çirkin iftiradır.

Bununla yanaşı, minbərdə Quranın bir ayəsinin qorunmadığına dair açıqlamaya heç bir səhabənin səs çıxarmadığı deyilməklə onlara da də eyni iftira atılır. Məlum məsələdir ki, səhabələr belə sapqın açıqlama qarşısında həmin an Qurandan dəlil göstərərək şiddətlə qarşı çıxardılar. Hz. Ömərə atılan çirkin iftiralardan biri də budur ki, guya o, Quranda olduğunu bildiyi bir hökmü dedi-qodudan çəkinib açıqlamamışdır. Bu, həmin hədisi uyduran saxta alimlərin Allaha, Peyğəmbərimizə, xəlifələrə və səhabələrə münasibətinin nə qədər qorxunc olduğunu göstərir. Hz. Ömər Peyğəmbərimizi nümunə götürməklə bütün həyatını Allah üçün yaşamışdır və bu yolda çoxlu çətinliklərlə qarşılaşmışdır. Bununla belə, Allaha, Peyğəmbərə və Qurana iman barəsində ölümü gözə alan saleh müsəlmandır. Həyatı boyu qınayanın qınamasından qorxmayan üstün və mübarək insanın dedi-qodudan qorxduğu üçün Qurandan çıxarılan ayəni açıqlamaqdan çəkindiyini demək İslamla əlaqəsi olmayan xəstə beyinin məhsuludur.

Bütün bunlarla yanaşı, zina mövzusunun hökmü Quranda olduqca açıq şəkildə açıqlanmışdır. Rəcm adı verilən vəhşilik isə Quranda, ümumiyyətlə, yoxdur. Əgər rəcm həmin saxta alimlərə görə Quranda vardırsa, zina mövzusunda iki fərqli hökm necə mümkün olmuşdur? Əlbəttə, belə bir şey ola bilməz. Bu da saxtakarlığın başqa bir sübutudur. İndi isə zina barəsində Quranda bildirilən yeganə hökmü açıqlayaq:



**Mövhumatçıların məvzu (saxta) hədislərlə uydurduğu zina ilə əlaqəli ayəni keçinin yeməsi iddiasında, -Haşa- Allahın ayəni qoruya bilmədiyi iddia edilməkdədir (Allahı tənzih edirik). Bu, sözügedən ayələri rədd etmək, Allahın sözündən şübhə etmək və dindən çıxmaq mənalarına gəlir.**

**QURANDA ZİNA EDƏNİN ÖLDÜRÜLMƏSİNƏ YA DA RƏCM EDİLMƏSİNƏ (DAŞLANARAQ ÖLDÜRÜLMƏSİNƏ) DAİR HÖKM YOXDUR.**

## QURANA ƏSASƏN, ZİNANIN HÖKMÜ

Zina ilə əlaqədar Quranda verilən hökm budur:

**Zinakar qadının və zinakar kişinin hər birinə yüz çubuq vurun...**
(Nur surəsi, 2)

Ayədə istifadə olunana "cəldə" qalın dəyənək deyil, incə çubuqdur. Peyğəmbərimizin dövründə həmin hökm yüz çubuğun bağlanıb bir yerdə bir dəfə vurulması ilə həyata keçirilmişdir. Bundan başqa, əhəmiyyətli bir həqiqəti qeyd etmək lazımdır ki, Quranda mövzu ilə əlaqədar digər açıqlamalara nəzər saldıqda məlum olur ki, həmin cəza yayındırma məqsədi daşıyır və onu praktik yöndən tətbiq etmək mümkün deyildir:

**İsmətli qadınları** *(zinada)* **günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsil fasiqlərdir.** (Nur surəsi, 4)



**Vasili Polenovun "Zina ilə ittiham olunan qadın və Hz. İsanın verdiyi qərar" adlı yağlı boya tablosu, 1888**

Ayədən aydın olduğu kimi, bir qadını zinada günahlandırmaq üçün onu zina edərkən dörd nəfər eyni anda görməlidir. Bu dörd nəfər zinanın əvvəlini və ya sonrasını deyil, tam olaraq zina anını görməlidir. Çünki əvvəl və ya sonra belə bir iddia etmək yenə zənn sayılır. Təcrübədə zinaya şahid olan dörd nəfərin varlığı mümkün olmadığından bunun sadəcə yayındırıcı cəza olduğu asanlıqla başa düşülür.

Ayədə bundan başqa, birisini zinada günahlandırıb dörd şahid gətirməyənlərə səksən dəyənəyin vurulması cəzası bu mövzuda iftiranı əngəlləyən yayındırıcı hökmdür. Yenə başqa bir ayədə qadını zinada günahlandıran, lakin şahid gətirməyən şəxslərin Allah qatında yalançı sayıldığı müəyyən edilir:



*RECM QURANDA OLMAYAN, QEYRİ-İSLAMİ, BÜTPƏRƏST BİR TƏTBİQDİR.*

**Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsil yalançıdırlar.** (Nur surəsi, 13)

Göründüyü kimi, şahid gətirməyən bu adam iftira atmaqla və yalan danışmaqla günahlandırılır. Belə ki, həmin adamın doğru danışıb-danışmadığını anlamaq üçün onunla birlikdə zinaya şahid olan 4 nəfərin varlığına ehtiyac var. Bunun xaricində onun sözünə etibar edilməməlidir.

Qurana görə, zinanın hökmü bu formadadır. Bu hökm son dərəcə detallı və açıqdır. Bundan başqa, rəcmdən tamamilə fərqli üsuldan bəhs edilir. Ayənin açıq hökmünə baxmayaraq, İslama müxtəlif saxtakarlıqlarla rəcm vəhşiliyini əlavə etmək istəyənlər böyük məsuliyyət daşıyırlar. Hal-hazırda İslam şəriəti adı altında İran, Əfqanıstan, Səudiyyə Ərəbistanı kimi ölkələrdə tətbiq olunan rəcm cəzası həm İslama və Qurana ziddir, həm də cinayətdir. Bu ölkələrdə həmin cəza ilə açıq şəkildə İslamın adından istifadə olunaraq cinayət işlənilir.




الجامع الصحيح

SAHÎH-İ MUSLİM VE TERCEMESİ

CİLD 5

İstanbul

KİTÂBU'L-HUDÛD 287

(5) KENDİ NEFSİ ALEYHİNE ZİNÂ İ'TİRÂF EDEN KİMSE BÂBI

16 — ( ) ........ : Ebû Hureyre (R) şöyle demişdir: Rasûlullah ... kimse yanına geldi ve ona nidâ ... dedi. Peygamber ondan yüz çevir- ... döndürdüğü tarafa geçib yine: ... dedi. Peygamber ondan yüzünü ... aleyhine dört kere tekrarladı. ... şehâdet edince Rasûlullah onu ça- ğırıb:

— Sende delilik var mı? diye sordu. O zât:

— Hayır, dedi. Rasûlullah:

— Sen evli misin? diye sordu. O zât:

— Evet, dedi. Bunun üzerine Rasûlullah oradakilere:

— Bunu götürünüz ve taşlayınız emrini verdi.

İbn Şihâb şöyle dedi: Bana Câbir'den işiten kimse haber verdi ki Câbir şöyle diyordu: Ben o zâtı taşlıyanların içinde bulundum. Hepimiz onu (cenâzelere namaz kılınan) musallâda taşladık. Taşlar ona isâbet edib ızdırab verince kaçtı. Biz de onu Harre'de yetiştik ve recm ettik.

( ) Bu hadisi yine Leys, Abdurrahmân ibn Hâlid ibn Musâfir'den, o da İbn Şihâb'dan bu isnâd ile yukarıki hadisin benzeri olarak rivâyet etti.

( ) ........ : Buradaki râvîler de İbn Şihâb'ın: Bana Câbir ibn Abdullah'dan işiden kimse haber verdi dediğini (16 rakamlı hadisde) Ukayl'ın zikrettiği gibi rivâyet ettiler.

**1 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

B




3

SAHÎH-İ MUSLİM

...NÂ ETTİĞİNDE RECM OLUNMASI BÂBI

... İbn Şihâb şöyle dedi: Bana Ubeydullah ibn ...erdi ki kendisi Abdullah ibn Abbâs'dan şöyle ...nu'l-Hattâb, Rasûlullah'ın minberi üzerine çık... şöyle dedi: Hiç şüphe yok ki Allah, Muhammed'i hak peygamber olarak gönderdi ve ona KİTÂB'ı indirdi. Ona indirilen bu kitâbın içinde **recm âyeti** de vardı[9]. Biz bu âyeti okuduk, ezberledik ve onu anlayıb belledik ve Rasûlullah (S) recm etti, biz de ondan sonra recm ettik. Böyle olduğu halde insanlara zaman uzayıb da onlardan birinin: Biz Allah'ın Kitâbında recmi bulamıyoruz demesi ve böylece Allah'ın indirmiş olduğu bir farizayı terk sûretiyle dalâlete gitmelerinden korkarım. Hiç şüphesiz ki Allah'ın Kitâbında evli erkek ve kadınlardan olub da zinâ eden, zinâsına da beyyine bulunan yahut da gebelik ve i'tirâf bulunmasıyle zinâsı sâbit görünen kimse üzerine recm bir hakdır[10].

( ) .........: Buradaki râviler de: Bize Sufyân, Zuhrî'den bu isnâdla tahdîs etti demişlerdir.

(٥) باب من اعترف على نفسه بالزنى

١٦ — (...) وحدثني عبد الملك بن شعيب بن الليث بن سعد . حدثني أبي عن جدي . قال : حدثني عقيل عن ابن شهاب ، عن أبي سلمة بن عبد الرحمن بن عوف وسعيد بن المسيب ، عن أبي هريرة ؛ أنه قال : أتى رجل من المسلمين رسول الله ﷺ وهو في المسجد . فناداه . فقال : يا رسول الله ! إني زنيت . فأعرض عنه . فتنحى تلقاء وجهه . فقال له : يا رسول الله ! إني زنيت . فأعرض عنه . حتى ثنى ذلك عليه أربع مرات . فلما شهد على نفسه أربع شهادات ، دعاه رسول الله ﷺ . فقال « أبك جنون ؟ » قال : لا . قال « فهل أحصنت ؟ » قال : نعم . فقال رسول الله ﷺ « اذهبوا به فارجموه » .

قال ابن شهاب : فأخبرني من سمع جابر بن عبد الله يقول : فكنت فيمن رجمه . فرجمناه بالمصلى . فلما أذلقته الحجارة هرب . فأدركناه بالحرة فرجمناه .

9. Recm âyeti sözü ile kasdedilen Kur'ân olma şartlarını hâiz olmadığı için Kur'ân'a girmiyen fakat sünnette sâbit olan şu lâfızlardır:

الشيخ والشيخة اذا زنيا فارجموهما البتة نكالاً من الله والله عزيز حكيم

= «Yaşlı bir erkek ve yaşlı bir kadın zinâ ederlerse (zinâ da beyyine ile veya gebelikle veya ikrâr ile sâbit olursa) bunları Allah'dan bir tenkil olmak üzere mutlaka taşlayın. Allah Azîz ve Hakîm'dir».

10. İbn Abbâs'ın bu hadîsi, Buhârî, Muhâribîn, recmu'l-hublâ mine'z-zinâ bâbında rivâyet edilen uzun hutbe hadîsinin bir kısmıdır.

**2 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**


الجامع الصحيح

Ebu'l-Hüseyin Muslimu'bnu'l-Haccâc el-Kuşeyri en-Nîsâbûrî (206-261)

SAHÎH-İ MUSLİM VE TERCEMESİ

CİLD 5

Mütercim: MEHMED SOFUOĞLU

İstanbul — 1968 /1969

C

SAHÎH-İ MUSLİM

........ : Imrân ibn Husayn (R) dan (şöyle demişdir): Cüheyne kabilesinden bir kadın zinâdan hâmile olarak Allah'ın Peygamberine geldi ve:

— Ey Allah'ın Peygamber'i! Ben hadd vurulmayı icâb ettiren bir günâh işledim, binâenaleyh bunun cezâsı olan haddi bana tatbik et dedi. Bunun üzerine Allah'ın Peygamber'i (S) bu kadının velisini çağırıb ona: «Bu kadına iyi muâmele et, çocuğu doğurduğu zaman onu bana getir» emrini verdi. Velisi de bu emri yerine getirdi. Nihâyet Allah'ın Peygamber'i kadınla ilgili emrini verdi kadının elbiseleri vücûduna bağlandı. Sonra Peygamber emretti ve kadın recm edildi. Sonra Peygamber kadının cenâze namazını bizzât kendisi kıldırdı. Hz. Umer:

— Ey Allâh'ın Peygamberi! Zinâ etmiş bir kadın olduğu halde sen onun namazını nasıl kılarsın? dedi. Bunun üzerine Peygamber:

— Vallâhi, o öyle bir tevbe etti ki Medine halkından yetmiş kişi arasında taksim edilmiş olsaydı muhakkak onlara fazla gelirdi yâ Umer! Sen, kendi canını Allâh'a cömertce fedâ eden bir kadının tevbesinden daha kıymetlisini bulabilir misin? buyurdu.

...ir'in, bu isnâdla yu-...şlerdir.

4

298 SAHÎH-İ MUSLİM

Yâ Uneys! Haydi bu adamın karısının yanına git, eğer i'tirâf ederse onu recm et buyurdu [21].

Râvi der ki: Uneys o kadının yanına gitti kadın da zinâyı i'tirâf etti. Müteâkiben Rasûlullah onun recm edilmesini emir buyurdu ve emri yerine getirildi.

( ) ........ : Buradaki üç tarik râvilerinin hepsi de Zuhri'den bu isnâd ile o hadis tarzında rivâyet etmişlerdir.

3 - Zina edənin öldürülməsi ilə bağlı **HƏDİS MƏNBƏLƏRİ**


D

Zina Edenin Öldürülmesi ile ilgili
HADİS KAYNAKLARI

5

الجامع الصحيح
للإمام أبي الحسين مسلم بن الحجاج القشيري النيسابوري

Ebu'l-Hüseyin Muslim ibnu'l-Haccâc
el-Kuşeyri en-Nîsâbûrî
(206-261)

SAHÎH-İ MUSLİM
VE
TERCEMESİ

CİLD
5

Mütercim :
MEHMED SOFUOĞLU

İstanbul — 1388 /1969

KİTÂBU'L-HUDÛD 290

...zerine Tevrât'da ne cezâ buluyorsunuz? diye

KURAN'DA ZİNA EDENİN ÖLDÜRÜLME-
SİNE DAİR HİÇBİR HÜKÜM YOKTUR.
RECM HADİSLERİ UYDURMADIR.

6

...lâm [12], Peygamber'e :

— Ona emret de elini kaldırsın dedi. Genç elini kaldırdı. Bir de baktılar ki recm âyeti elinin altındadır. Rasûlullah zinâ eden erkek ve dişi Yahûdîlerin recm edilmelerini emretti. Onlar da recm olundular.

Râvî Abdullah ibn Umer : Ben bu iki zinâkârı recm edenlerin arasında bulundum. Erkek Yahûdî'nin, o kadını atılan taşlardan kendi nefsi ile korumağa çalıştığını gördüm dedi.

٢٧ – (...) وحدثنا زهير بن حرب. حدثنا إسماعيل (يعني ابن علية) عن أيوب. ح وحدثني أبو الطاهر. أخبرنا عبد الله بن وهب. أخبرني رجال من أهل العلم. منهم مالك بن أنس؛ أن نافعا أخبرهم عن ابن عمر؛ أن رسول الله ﷺ رجم في الزنى يهوديين. رجلا وامرأة زنيا. فأتت اليهود إلى رسول الله ﷺ بهما. وساقوا الحديث بنحوه.

(...) وحدثنا أحمد بن يونس. حدثنا زهير. حدثنا موسى بن عقبة عن نافع، عن ابن عمر؛ أن اليهود جاءوا إلى رسول الله ﷺ برجل منهم وامرأة قد زنيا. وساق الحديث بنحو حديث عبيد الله عن نافع.

27 — ( ) .......... : Abdullah ibn Vehb haber verib şöyle dedi : Bana, aralarında Mâlik ibn Enes'in de bulunduğu ilim ehlinden birçok kimseler haber verdi. Onlara da Nâfi', İbn Umer'den şöyle haber vermişdir : Rasulullah (S) biribirleriyle zina eden bir erkek ve bir kadın iki Yahûdî'yi zinâ suçunun subûtunda recm etti. Şöyle ki Yahûdîler bu iki kişiyi Rasûlullah'a getirdiler... râvîler hadisin bundan sonrasını yukarıki hadis tarzında rivâyet etmişlerdir.

( ) .......... : Burada da Mûsa ibn Ukbe, Nâfi'den, o da İbn Umer'-

12. Abdullah ibn Selâm, aslında İsrâîl oğulları neslinden ve Yahûdî dininde iken Peygamber'in Medîne'ye hicretinde müslüman olmuştu. Bu cihetle Tevrât hakkında derin bilgisi vardı.

**4 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**




**5 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**




...-Hudûd (37) Bab 25 — 149

...n bir çift hakkında hüküm vermesi için Ra-...h önce onlara, kendilerinin zinâ suçunu iş-...sormuş, onlar da yüzünü karaya boyayıp ...teşhir ettiklerini ve yüz deynek vurduklarını söylemişler. Peygamber (s.a.v) *Allah* adına yemin vererek bu konuda Tevrat'ta bir hüküm olup olmadığını sormakta ısrâr etmesi üzerine, zinanın dört şâhit tarafından ve erkeğin âleti, kadının âleti içinde görülmesi halinde recm cezası olduğunu söylemişler. Rasûlullah'ın recmi nasıl terkettiklerine dâir sorusunu da, kırallarının bir yakını ve eşraftan olanların zinâ etmeleri üzerine onları öldürmemek için terkettiklerini söylemişlerdir.

Hz. Peygamber (s.av.) Yahûdilere recm cezası vermiş ve cezâyı infâz etmiştir.

Hz. Peygamberin onlara, recmin Tevrattaki hükmünü sorması, onu öğrenmek için değil, kendi kitap ve inançları ile ilzâm etmek içindir. Muhtemedir ki, efendimiz Yahûdilerin Tevrat'taki recm ayetini değiştirmediklerini, ama onu gizlediklerini vahiy yoluyla öğrenmiş ve açığa çıkarmak istemiştir.

Rivâyetler... şehâdeti ile s... mı yoksa yah... vi, bu konuya... madığını yah... nın zinâkâria...

Nevevi'nin belirttiği müşkil, Şafi ve Malik... dir. Ama Hanefi mezhebine göre böyle bir müşkil yoktur. Çünkü Hanefilere göre zimmilerin biribirleri hakkındaki şahitlikleri makbuldür. Rasûlullah'ın bazı hristiyanların biribirleri aleyhindeki şahitlikleri kabûl etmesi, Hanefilerin delilidir.

Hadislerin, ihtivâ ettikleri hükümleri de şöylece özetleyebiliriz:

**BAZI HÜKÜMLER**

1- Ehli kitâbın biribirleri ile olan evlilikleri sahihtir. Dolayısıyla boşanmaları da geçerlidir.

2- Ehl-i Kitâbın evlilikleri, ihsân'a sebeptir.

İmam Şaifi, İmam Ahmed ve Hanefilerden İmam Ebû Yûsuf'un görüşü bu istikâmettedir. Hanefilerden İmam Muhammed'e göre gayri müslim evli olsa bile muhsan olamaz.

Ehl-i kitaptan bir kadın, bir müslüman erkekle evlendiği takdirde, kocayı muhsan yapıp yapmayacağı konusu âlimler arasında ihtilaflıdır.

6 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ

G




10



SÜNEN-İ TİRMİZİ

بَعْدَهُ وَإِنِّى خَائِفٌ أَنْ يَطُولَ بِالنَّاسِ زَمَانٌ فَيَقُول

فِى كِتَابِ اللهِ فَيَضِلُّوا بِتَرْكِهِ فَرِيضَةً أَنْزَلَهَا اللهُ

عَلَى مَنْ زَنَى إِذَا أَحْصَنَ وَقَامَتِ الْبَيِّنَةُ أَوْ كَانَ

... Ömer bin El-Hattab (R.A.) den rivayet edilmiştir; dedi ki: «Allah, Muhammed'i hak din ile gönderdi ve O'na Kitap indirdi ve kendisine indirdiği kitapta recm âyeti vardı.[16] İmdi Rasûlüllah (S.A.V.) recm yaptı ve kendisinden sonra biz de recm yaptık. İnsanların üzerinde zaman uzayınca içlerinden birinin, «Allah'ın kitabında recm bulamıyoruz!» diyeceğinden ve Allah'ın indirmiş olduğu bir farzı terketmek suretiyle delâlete düşeceklerinden korkmaktayım. Dikkat! Evlendiği halde zina işleyen kişiye, delil bulunduğu veya gebelik olduğu veya itirafda bulunduğu takdirde recm haktır!»

Bu hadis sahih'tir.

١٤٥٦ — حدثنا أحمد بن منيع . حدثنا إسحاق بن يوسف الأزرق ، عن داود بن أبى هند ، عن سعيد بن المسيب ، عن عمر بن الخطاب . قال : رجم رسول الله صلى الله عليه وسلم ورجم أبو بكر ورجمت . ولولا أنى أكره أن أزيد فى كتاب الله لكتبته فى المصحف فإنى قد خشيت أن يجيء أقوام فلا يجدونه فى كتاب الله فيكفرون به .

1456 — Ömer bin El-Hattab (R.A.) den rivayet edilmiştir; dedi ki: «Rasûlüllah (S.A.V.) recmetti; Ebu Bekir recmetti; ben de recmettim. Allah'ın kitabına ilave etmiş olmaktan çekinmesem onu (recmi) behemehal Mushaf'a yazardım. Çünkü ileride

(16) Kur'an-ı Kerim'den tilâveti kaldırılmış, hükmü baki olan bu âyet-i kerime şöyledir: «Yaşlı erkek ve yaşlı kadın zina işledikleri vakit, Allah tarafından tayin edilmiş bir tenkil olarak behemehal onları recmedin (taşlayın)! Allah aziz ve hakim'dir.» Malik, El-Müvatta' kitabında, burada varit olan «yaşlı erkek ve yaşlı kadın» ı dul erkek ve dul kadın olarak tefsir etmektedir. El-Kaari ise, evli erkek ve evli kadın olarak tefsir edilmesini daha uygun buluyor.

7 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ




**8 - Zina edənin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

## OĞURLUQ EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ

*Oğurluqda israr edənləri öldürün.* (1631-Əbu Davud-Nəsai)

Oğurluqda israr edənlərin öldürülməsi hökmü Quranda qətiyyən mövcud deyil və başqa bir uydurma hədisdən irəli gələn qorxunc cinayətdir. Quranda oğurluq edənlərlə bağlı hökm belədir:

**Etdikləri əməlin əvəzində Allahın cəzası olaraq oğru kişinin və oğru qadının əllərini kəsin! Allah Qüdrətlidir, Müdrikdir.** (Maidə surəsi, 38)

Bu ayədəki kəsmək feili üçün istifadə olunan terminin ərəbcəsi "iqtauu" kəlməsidir. Bu kəlmə "qətəa", yəni kəsmək feilinin cəm halıdır. Quranda "qətəa" feilinin hansı kəsmək formasını təsvir etdiyini bu feilin işləndiyi aşağıdakı ayədən anlamaq mümkündür:

**Qadın onların dedi-qodularından xəbər tutduqda** *(qonaqlığa gəlmək üçün)* **onlara xəbər göndərdi və onlar üçün mütəkkələr hazırladı** *(məclis qurdu)*, **onların hər birinə bir bıçaq verdi və** *(Yusufa)*: **"Onların qarşısına çıx!"– dedi.** *(Qadınlar) (Yusufu)* **gördükdə onu o qədər tərif lədilər ki,** *(unudub meyvə əvəzinə)* **öz əllərini kəsdilər və dedilər: "Allah saxlasın! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!"** (Yusuf surəsi, 31)

Burada xəbər verilir ki, qadınlar təəccübdən meyvə soymağın yerinə öz əllərini kəsib qoparmırlar. Məlum məsələdir ki, təsvir edilən mühitdə bıçaq sürüşüb əlin dərisini cızır. Odur ki, kəlmənin mənasına diqqət etdikdə aydın olur ki, "kəsmək" feili kəsib qoparmaq mənasını ifadə etmir. Sadəcə yayındırmaq məqsədi daşıyır və o adamın oğurluq etdiyini göstərən və beləliklə, əməlin təkrar olunmasının qarşısını alan cızığı ifadə edir.

Oğurluq hökmü ilə əlaqədar Qurana baxanda görürük ki, hər günah işdə olduğu kimi, burada da bağışlamaq ön plana çıxır. Quranda oğurluq hökmünün təsvir edildiyi "Maidə" surəsinin 38-ci ayəsindən bir sonrakı ayə göstərir ki, bu əməli işləyən adam, əsasən, əfv edilir. Əlbəttə, bunun üçün əsas şərt odur ki, bu əmələ yol verən adam tövbə etməli və davranışını düzəltməlidir. Bu, ayədə açıq şəkildə belə ifadə olunur:

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib** *(əməllərini)* **islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.** (Maidə surəsi, 39)

Burada bunu qeyd etməliyik ki, oğurluğun hər hansısa bir səbəbi olmalıdır. Oğurluq hökmünün tətbiq olunduğu topluluqlar, əlbəttə, Quran şəriətinə bağlı olan İslam cəmiyyətləridir. Quran şəriətinə bağlı olan İslam cəmiyyətlərində bir tərəfdə zənginlərin, digər tərəfdə isə yoxsulların mövcud olması mümkün deyil. Çünki Quranı əsas götürən topluluqlarda infaq (nəfəqə, maddi köməklik) sistemi mükəmməl şəkildə tətbiq olunur. Yəni maddi imkanı yaxşı olanlar yoxsulları daim qoruyub malı onlara verməklə məsuliyyət daşıyırlar. Bu barədə Quranda belə bildirilir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl** *(sahibləri)* **Allaha, Axirət gününə, mələklərə, kitablara,**

**peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbr edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.** (Bəqərə surəsi, 177)

**Səndən** *(Allah yolunda)* **nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir".** (Bəqərə surəsi, 215)

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər** *(və deyərlər)*: **"Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik!** (İnsan surəsi, 8-9)

**Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin** *(malını)* **lazım olmayan yerə sərf etmə.** (İsra surəsi, 26)

Bu ümumi məlumatdan sonra belə bir sual verək: oğurluğun səbəbi nədir? Başlıca səbəb ehtiyacdır. Bir adam çətin vəziyyətdə qalanda, borcu olanda və ya yoxsullaşanda yanlış yol kimi oğurluq edə bilər. Halbuki Quranın himayəsindəki cəmiyyətlərdə belə çətin vəziyyət təsəvvür edilə bilinməz. İlk növbədə yoxsullar maddi vəziyyəti yaxşı olanlar tərəfindən qorunurlar. Çətin vəziyyətdə olanların borcları barədə isə Quranda belə deyilir:

**... Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir.** (Bəqərə surəsi, 280)

Oğurluğun başqa səbəbi psixoloji problemlər də ola bilər. Belə vəziyyətdə onsuz da həmin adam müalicə olunmalıdır, yəni həmin adam artıq cinayətkar deyil, ruhi xəstə sayılır. Bu ikisindən başqa, insanları oğurluğa vadar edən hər hansı bir səbəb yoxdur. Beləliklə də, bu səbəblər aradan qaldırıldıqda İslam cəmiyyətlərində oğurluq cinayəti tamamilə ortadan qalxar.

Bütün bunları görməzlikdən gələn xurafatçılar İslamı ölüm və vəhşilik dini kimi tanıtmağa çalışdıqlarına görə bu mövzuda da Qurana tamamilə zidd hökm çıxarıblar. Oğurluq etmək haramdır, amma buna yol verən adamın ehtiyac içində və ya xəstə olub-olmadığı onları qətiyyən maraqlandırmır. Halbuki ehtiyacı və ruhi problemləri olanlardan müsəlmanlar məsuliyyət daşıyırlar. Bu məsuliyyəti hiss etmədiklərinə görə təqsirkarlığa yol vermiş olurlar. Həmin saxta hökmü çıxaranlar Quranı (haşa) bəyənməyib özlərinə uyğun görmürlər. Quranın ədalət anlayışının əvəzinə öz bildiklərini ölçü olaraq qəbul edirlər. Qurana nəzər saldıqda isə vəhşiliyi deyil, sevgi və bağışlayıcılıq kimi məziyyətləri görürük.

## DİNDƏN DÖNƏNLƏRİN ÖLDÜRÜLMƏSİ

*Dindən dönənləri öldürün.*

(1585-Müvətta; 1558-Əbu Davud-Nəsai; 676-Nəsai; 1586-Əbu Davud-Nəsai)

*İslamı kim tərk etsə, onu dinə təkrar dəvət elə. Dönməsə, boynunu vur.* (Təərani)

Bax budur, Qurandan kənar saxta şəriət sistemi ilə idarə olunan ölkələrin qəzəb və kinlərinin əsas qaynaqlarından biri həmin bu uydurma hədislərdir. İslamın hökmü kimi ortaya atılan belə bir qayda Quranda qətiyyən mövcud deyildir və Quran bu cür düşüncəni tamamilə qadağan edir. Quranda fikir və inanc azadlığını ifadə edən ayələrdən bəziləri belədir:

**Dində məcburiyyət yoxdur...** (Bəqərə surəsi, 256)

**Sizin dininiz sizə, mənim dinim də mənədir!** (Kafirun surəsi, 6)

**... Sən onları məcbur edən deyilsən...** (Qaf surəsi, 45)

**De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın"...** (Kəhf surəsi, 29)

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?** (Yunus surəsi, 99)

*(Onlara)* **nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən.** (Ğaşiyə surəsi, 21-22)

Quranda təsvir edilən İslam dinində hər kəs istədiyi inancı qəbul etmək azadlığına malikdir. Qurandakı dində müsəlman yalnız gözəl əxlaqı təbliğ etməklə məsuliyyət daşıyır. Hidayət Allahın əlindədir. Müsəlmanın vəzifəsi odur ki, insanlar inanıb-inanmasalar da, onlara qarşı şəfqətlə yanaşmalıdır. Müsəlmanı bir qatil kimi göstərməyə çalışanlar Qurandakı bu həqiqətin üstünü örtməyə çalışırlar.




**Quranda izah edilən İslam dinində hər kəs istədiyi kimi inanmaq və inanmamaq azadlığına malikdir. Ancaq fanatizmin əks etdirdiyi yanlış İslam anlayışı səbəbindən Qərb jurnalları tez-tez islamofobiya ilə bağlı xəbərlər dərc edirlər.**

Bundan başqa, Quranda təsvir edilən dində bir müsəlman özünün, ata-anasının və yaxınlarının əleyhinə olsa da, ədaləti ayaqda tutmalıdır (Nisa surəsi, 135). Bu ayəyə əsasən, dinindən asılı olmayaraq, hamının hüququnu müdafiə etməli, hər kəsə qarşı ədalətli davranmalıdır. Bu kitabda əvvəl də xatırlatdığımız kimi, bir ayədə Allah müsəlmanlara özlərini sipər edib bir müşriki, yəni iman etməyən insanı qorumağı əmr edir:

**Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar** *(haqqı)* **bilməyən bir camaatdır.** (Tövbə surəsi, 6)

Bir inkarçını qorumaq məsuliyyəti daşıyan müsəlmanların mənimsəməli olduqları din anlayışı açıq-aydındır. Belə ki, Allah Peyğəmbərimizə kafirlərə belə bir xitabı Quranda xəbər vermiş və açıq demokratik sistemi təsvir etmişdir:

**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"**
(Kafirun surəsi, 6)

"De" əmri ilə başlayan bu ayələr Peyğəmbərimizə ən mükəmməl demokratik sistemi və bu demokratik sistemin üsulunu təsvir edir. Surə **"Sizin dininiz sizə, mənim dinim də mənədir!"** hökmü ilə bitir. Yəni müsəlman başqalarının inancına qarışmamalı, təzyiq göstərməməli və müsəlman olmadığı üçün birinə zülm etməməlidir. Təzyiq və şiddəti qəti qadağan edən, müşrikləri can bahasına qoruyan, inkarçılar haqqında ədalətlə hökm verən və demokratiyanı tam və mükəmməl şəkildə təsvir edən Quran həqiqi müsəlmanların yol göstəricisidir.



A

KURAN'DA İNANÇ ÖZGÜRLÜĞÜ VARDIR. DİNDEN ÇIKANLARIN ÖLDÜRÜLMESİNE DAİR BU HADİSLER UYDURMADIR.

1

10 SÜNEN-İ EBÛ DAVÛ D

**B) Tâzir cezası:** Tazir, tedib etmek, yola getirmek demektir. Ist ise dinin yasakladığı ama karşılığında ceza belirlemeyip, devlet yet nin takdirine bıraktığı cezadır. Ta'zir cezası kırbaçlama, hapis, sözl ve tenbih (uyarı) şekillerinde verilir.

١ ـ باب الحكم فيمن ارتدّ

**I. DİNDEN ÇIKAN KİŞİ (MÜRTED) HAKKINDAKİ HÜ**

٤ ـ حدّثنا أحمد بن [محمّد بن] حنبل أخبرنا إسماعيل بن
أنبأنا أيوب عن عكرمة أنّ عليًا أحرق ناسًا ارتدّوا عن
فبلغ ذلك ابن عبّاس فقال: لم أكن لأحرقهم بالنّار، إنّ
رسول الله ﷺ قال: «لا تعذّبوا بعذاب الله» وكنت قاتلهم
رسول الله ﷺ، فإنّ رسول الله ﷺ قال: «من بدّل دينه
فبلغ ذلك عليًا فقال: ويح [أمّ] ابن عبّاس.

4351... İkrime (r.a)'den rivayet edildiğine göre:

Hz. Ali (r.a) dinden çıkan bir takım insanları ateşte yaktı. Bu (haber) Abdullah b. Abbas'a ulaştığında Abdullah (r.a) şöyle dedi:

-(Ben olsaydım) Onları ateşte yakmazdım. Çünkü Rasûlullah (s.a) **"Allah'ın azabı ile cezalandırmayınız"** buyurdu. Ama, Rasûlullah'ın sözü sebebiyle onları öldürürdüm. Çünkü Rasûlullah (s.a) **"Kim dinini değiştirirse onu hemen öldürünüz"** buyurdu.

Bu sözler Hz. Ali'ye ulaşınca: "Vah İbn Abbas!" dedi. [1]

**AÇIKLAMA** Hadisten Hz. Ali (r.a)'nın dinden dönen bazı insanları ateşte yaktığını öğreniyoruz. Ateşte yakılanlar, Hz. Ali'nin Allah olduğunu sö... be'nin saptırdığı kişilerdir.

Metinde görüldüğü üzere ... mürtedleri yaktığını duyunca ... düm" dediğini ve bu konuda ...

1. Buhari, cihad 145; Tirmizi, ... dûd 2: Ahmed b. Hanbel, I, 217, 2...

Ebû Dâvûd Süleyman b. Eş'as b. es-Sicistânî
(H. 202-275)

SÜNEN-İ EBÛ DÂVÛD TERCEME VE ŞERHİ
Cild 15

Hazırlayanlar
Necati YENİEL Hüseyin KAYAPINAR

Redaksiyon
Mehdi Ali Seçkin

2

...lah b. Sebe... Nitekim Buhari bu hadisi, "Allah'ın azabı ile cezalandırılmaz" adını taşıyan bab içerisinde vermiştir. Aynı babda, Buhari'nin Ebû Hureyre'den rivayet ettiği bir başka hadis de şu şekildedir: *"Rasûlullah bizi bir grup içinde gönderip falan ve falanı bulursanız ateşte yakınız, buyurdu. Tam biz çıkmak istediğimizde, ben size falanı ve falanı bulursanız ateşte yakmanızı emretmiştim. Ama ateşte ancak Allah cezalandırır. Eğer onları bulursanız, öldürünüz, buyurdu."*

II İslam dininden çıkan birisi öldürülür. Dinden çıkmaya **İrtidâd**, dinden çıkan kişiye de **mürted** denilir. Kur'an-ı Kerim'de İslamdan çıkan kişiye verilecek uhrevî ceza sözkonusu edilmiştir Bir ayet-i kerimede cenab-ı Hak meâlen şöyle buyurmaktadır: **"İçinizden kim dininden döner ve kafir olarak ölürse, işte onların yaptıkları dünyada ve âhirette boşa gider. Bunlar cehennemliktirler ve orada kalıcıdırlar."** (el-Bakara, 218)

Mürted'in dünyevi cezasının ölüm olduğu, hadisler ve İslam ulemasının icmaı ile tesbit edilmiştir. Bu babtaki hadisler, dinden dönene verilecek cezayı net bir şekilde ortaya koyuyor. İslam müctehidleri, İslam dininden çıkan bir erkeğin öldürülmesi konusunda fikir birliğine varmışlardır. Ancak aynı cezânın İslamdan çıkan kadına da uygulanıp uygulanma-

1 - Dindən dönənlərin öldürülməsi ilə bağlı **HƏDİS MƏNBƏLƏRİ**



B

12 SÜNEN-İ EBÛ DAVÛ D

yacağı tartışmalıdır. Hanefilere göre, bu durumdaki bir kadın öldürülmez. Çünkü fahr-i kâinat efendimiz, bir hadisinde, savaş esnasında kadınları öldürmeyi men etmiştir. Cumhura göre ise İslam'dan çıkan kadınlar da öldürülür. Bunlar Muâz b. Cebel (r.a) Yemen'e gönderilirken, Rasûlul-lah'ın kendisine söylediği şu sözlere dayanırlar: **"Hangi erkek İslamdan çıkarsa onu İslama davet et. Dönerse ne ala, aksi halde boynunu vur. Hangi kadın da İslamdan çıkarsa onu tekrar davet et. Dönerse ne ala, aksi halde boynunu vur."**

Cumhur, Hanefilerin dayandıkları hadisteki yasaklamayı, İslam'dan dönen değil de aslen kâfir olan kadının öldürülmemesine hamletmişlerdir.

Yukarıda naklettiğimiz Muaz hadisinden de anlaşılacağı üzere, mürted öldürülmeden önce tekrar dine davet edilir. Mürtede karşı uygulanacak esaslar şunlardır:

1- İrtidad bir şüphe neticesi olmuşsa, mürteddin bu şüphesi izâle edilir, gerçek anlatılır.

2- Tekrar İslama dönmesi teklif edilir. Bazı alimlere göre, mürtedde düşünme fırsatı verilir. Düşünme müddeti konusunda üç gün ile bir yıl arasında değişen rivayetler vardır. Mürted bundan sonra yine İslama girmezse öldürülür. Dinden dönen şahıs bir yabancı ülkeye kaçar ve oraya sığınırsa malı ve ailesi konusunda özel hükümler vardır. Konu fıkıh kitaplarının ilgili bölümlerindedir.

٤٣٥٢ ـ حَدَّثَنَا عَمْرُو بْنُ عَوْنٍ أَنْبَأَنَا أَبُو مُعَاوِيَةَ عَنِ الْأَعْمَشِ عَنْ عَبْدِاللّٰهِ بْنِ مُرَّةَ عَنْ مَسْرُوقٍ عَنْ عَبْدِاللّٰهِ قَالَ: قَالَ رَسُولُ اللّٰهِ ﷺ: «لَايَحِلُّ دَمُ رَجُلٍ مُسْلِمٍ يَشْهَدُ أَنْ لَاإِلٰهَ إِلاَّ اللّٰهُ وَأَنِّى رَسُولُ اللّٰهِ إِلاَّ بِإِحْدَى ثَلَاثٍ: اَلثَّيِّبُ الزَّانِى، وَالنَّفْسُ بِالنَّفْسِ، وَالتَّارِكُ لِدِينِهِ، الْمُفَارِقُ لِلْجَمَاعَةِ».

... Mes'ud) (r.a) şöyle demiştir : ... yle buyurdu: **"Allah'tan başka ilah olmadığına, ... u olduğuma şehadet eden müslüman bir kişinin ... birisi ile helal olur; Zina eden Seyyib, cana kar- ... lip cemaatten ayrılan."** 2

... n, kasâme 25; Tirmizi, diyât 10; hudûd 15; Nesai, tahrimu'd- ... Dârimi, hudûd 2, siyer 11; Ahmed b. Hanbel I, 282, 428.

Ebû Dâvûd Süleyman b. Eş'as b. es-Sicistânî
(H. 202-275)

SÜNEN-İ EBÛ DÂVÛD TERCEME VE ŞERHİ
Cilt 15

Hazırlayanlar
Necati YENİEL Hüseyin KAYAPINAR

Redaksiyon
Mehdi Ali Seçkin

YAYINCILIK

3

Dinden Dönenin Öldürülmesi ile ilgili
HADİS KAYNAKLARI

**2 - Dindən dönənlərin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**



50 SÜNEN-İ TİRMİZİ

cüsünde öldürün!» buyurdu. Sonra bu hadisi müteakıp Peygamber (S.A.V.) e, dördüncü defa şarap içen bir adam getirildi ve (fakat) onu öldürmedi.» Ez-Zühri de, Kabisa bin Züveyb tarikiyle Rasûlüllah (S.A.V.) den, buna yakın bir hadis rivayet etmekte ve «bunun üzerine ölüm cezası kaldırıldı ve ruhsat kondu!» demektedir. İlim adamlarının kâffesinin ameli bu husus üzeredir. Bu meselede ilim adamları arasında geçmişte ve bugün ihtilaf olduğunu bilmiyoruz. Bu hususu takviye eden delillerden biri de, mütteaddit vecihlerden Rasûlüllah (S.A.V.) den rivayet edilen hadisdir ki, Rasûl-i Ekrem, (bu hadisde) şöyle buyurdu: «Allah'dan başka ma'bûd-i hakiki olmadığına ve benim Allah'ın Rasûlü olduğuma şehadet eden bir müslüman kişinin kanı, ancak üç şeyden biri ile helâl olur: Cana can, zina işleyen dul ve dinini terkeden.»

BAB : 16
MEVZU : HIRSIZ (IN ELİ) NE MİKTAR (MAL) DA KESİLİR?

١٤٧١ — حدثنا علي بن حجر، حدثنا سفيان بن عيينة عن الزهري،
أخبرته عمرة عن عائشة: «أن النبي صلى الله عليه وسلم كان يقطع في ربع
دينار فصاعداً».

1471 — Aişe (R. Anha) dan rivayet edilmiştir: «Rasûlüllah (S.A.V.), çeyrek dinâr'da ve yukarısında (el) kesti.»[22]



3 - Dindən dönənlərin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ



D

62 SÜNEN-İ TİRMİZİ

lahu Vechehu), İslâm'dan irtidad eden (dönen) bir kavmı yaktı ve bu haber İbn-i Abbas (R. Anhuma) nın kulağına varınca şöyle dedi: «Ben olsaydım Rasûlüllah (S.A.V.) in kavli ile (amel ederek) onları öldürürdüm; nitekim Rasûlüllah (S.A.V.), «her kim dinini değiştirirse onu öldürün!» buyurmuştur ve onları yakmazdım; çünkü Rasûlüllah (S.A.V.), «Allah'ın azâbı ile azâbetmeyin!» buyurdu.» Bu söz, Ali (Kerremellahu Vechehû) nun kulağına ulaşınca, «İbn-i Abbas doğru söyledi!» dedi.

Bu hadis hasen-sahih'tir. Mürtedd hakkında ilim adamlarının ameli bu hadis ... n hakkın- ... El-Evzâî, ... dürülmez»

5

KURAN'DA İNANÇ ÖZGÜRLÜĞÜ VARDIR.
DİNDEN ÇIKANLARIN ÖLDÜRÜLMESİNE
DAİR BU HADİSLER UYDURMADIR.

١٤٨٦ — حدثنا أبو كُرَيْبٍ وأبو السائب ، قال حدثنا أبو أسامة عن
بُرَيْدِ ابنِ عبدِ اللهِ بنِ أبي بُرْدَةَ عن جَدِّهِ أبي بردة عن أبي موسى عن النبي
صلى الله عليه وسلم قال : « مَنْ حَمَلَ علينا السِّلَاحَ فَلَيْسَ مِنَّا » .

1486 — Ebu Musa (R.A.) den rivayet edilmiştir: Rasûlüllah (S.A.V.) buyurdu ki: «Bize karşı silah taşıyan bizden değildir.»

Bu babda İbn-i Ömer, İbnüz-Zübeyr, Ebu Hüreyre ve Seleme bin El-Ekva' (R. Anhüm) den hadis rivayet edilmiştir.

... sen-sahih'tir.

... N HADDİ (ŞER'İ CEZASI)

١٤٨٧ — حدثنا أحمدُ بنُ مَنِيعٍ ،
مُسْلِمٍ عن الحسنِ عن جُنْدُبٍ قال : قال رس...
الساحِرِ ضَرْبَةٌ بالسَّيْفِ »

سُنَنُ التِّرْمِذِي

SÜNEN-İ TİRMİZÎ
TERCEMESİ

CİLT: III

Osman Zeki MOLLAMEHMETOĞLU

6

**4 - Dindən dönənlərin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

## NAMAZI TƏRK EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ

*Namazı tərk edənlər öldürülür.* (2117-Əbu Davud)

İslamı tərk edənlərin qətlə yetirilməsini hökm edən uydurma hədisin başqa bir bənzəri də bu hədisdir. İbadətlərdə və ümumiyyətlə, heç bir mövzuda məcburiyyətin olmadığını açıq şəkildə ifadə edən bir dində insan namaz qılmağa məcbur edilə bilməz. **...Sən onları məcbur edən deyilsən...** (Qaf surəsi, 45) –deyə əmr edən dində hansı hökmə əsasən belə təzyiq ola bilər? Əlbəttə, edilə bilməz. Qurana baxdıqda açıq-aşkar görürük ki, müsəlman namaz qılıb-qılmayan hər kəsə hörmətlə yanaşmalıdır.

Zorla edilən ibadətin heç bir əhəmiyyəti yoxdur. Eyni zamanda bu, nifrət və qəzəbin qaynağını təşkil edir. Namazı tərk edincə öldürüləcəyini düşünən insan ölüm riskini gözə almaqdansa, dindar təqlidi ilə ikiüzlü davranar və daima yaşadığı həyatdan, yəni məcbur edildiyi dindən nifrət edər. Münafiq yetişdirmək İslam üçün ən böyük zərərdir. Odur ki, şiddət, zülm və ölüm təhdidi ilə ayaqda tutulan dindarlıq heç bir zaman gerçək dindarlıq ola bilməz. Bu, İslama yalnız zərər verər.

**Heç bir mövzuda məcburiyyətin olmayacağı açıq şəkildə vurğulanan bir dində insanın təzyiqlə namaz qılmağa məcbur edilməyəcəyi çox açıqdır.**

Əgər bir insan hər hansı səbəbə görə namazı tərk edirsə, bunun müxtəlif səbəbləri ola bilər. Həmin adam kifayət qədər dindar olmaya bilər, bununla yanaşı, Allah ona güclü iman verməyə bilər, yaxud o adam Allahdan daha çox qorxmaya bilər. Hidayət Allahın əlindədir və insan heç bir zaman hidayəti təmin edə bilməz. Bir insan namaz qılmadığına görə dindən çıxmaz. Namazı tərk edən adam bir gün yenə namaz qılmağa başlaya bilər. Bu, onun üçün böyük qazancdır. Yaxud da namaz qılmağa başlamaz, amma yaxşı və faydalı insan olar. Bunların heç biri olmasa da, yəni o adam dini tam tərk etsə belə, müsəlmanlar onunla şəfqətli davranmalıdır. Qurana uyğun olan budur. Hər kəsin hökmü Allah qatındadır. Bu səbəblərdən dolayı bir insanı öldürmək tam mənada cinayətdir və bunun qətiyyən Quranda yeri yoxdur.

Zaman ərzində hədislərə və müxtəlif etiqadlara görə ortaya çıxarılan və İslam dininə daxil edilən dörd məzhəb bir çox şeydə bir-birinə zidd olan dörd ayrı din kimidir. Dörd məzhəb tənbəllik üzündən namazı tərk edənlərə müxtəlif cəzalar təyin etsə də, həmin hökmün özündə belə bir-biriləri ilə ixtilaf içindədirlər. Məsələn, hənbəli məzhəbinə görə, namazı tənbəllik üzündən tərk edənin hökmü ölümdür. Hənəfilərə görə, həmin adam küfrə girməz və öldürülməz. Fəqət namaz qılana qədər həbs edilər və qan axanadək döyülər (Rəddül-Muxtar haşiyəsi 1/62). Halbuki bunların heç biri Quranda yoxdur.

Qurandan başqa din axtaranda ortalığa belə ziddiyyətlər, dəhşətli hökmlər və dindən kənar əməllər çıxır. Eyni zamanda insanlar qəzəb və nifrətə meyilli olurlar. Xurafatçıların dini Quranın hökmlərini rədd edən və kafi görməyən insanların dinidir (Quranı tənzih edirik).

A


Ebû Dâvûd Süleyman b. Eş'as b. es-Sicistânî
(H. 202-275)

SÜNEN-İ EBÛ DÂVÛD TERCEME VE ŞERHİ
Cild 15

Hazırlayanlar
Necati YENİEL Hüseyin KAYAPINAR

Redaksiyon
Mehdi Ali Seçkin

YAYINCILIK

Namazı Terk Edenlerin Öldürülmesi ile ilgili HADİS KAYNAKLARI

1

K. el-Hudûd (37) Bab 1 — 13

...u hadisteki "Üç şeyden biri" cümlesi İbn Ma ce'nin
...vayetinde "üç kişiden birisi..." şeklinde varid ol-
...im'in rivâyetleri ise aynen buradaki gibidir.
...u üç gruptan birisine giren bir müslümanın öldürü-
...akilerin kanlarının helal olmadığı bildirilmektedir.

**1- Zina eden Seyyib:** Şeyyib sözlükte "dul" demektir. Bu hadiste sahih bir nikahla evlenip bir kerre bile olsa karı koca ilişkisi yaşamış olan erkek veya kadındır. Bu durumdaki erkeğe **"muhsan"** kadına **muhsana"** denir. Bu durumda olan bir erkek veya kadın ister evlilikleri devam etsin ister ayrılmış olsunlar veya taraflardan birisi ölmüş olsun zina ederse recmedilerek öldürülür. Recm cezasının uygulanması için zina eden kişinin o esnada evli bulunma...dır. Dul bile olsa recm uygulanır. Hiç ...ise zina etmeleri halinde yüz sopa vu...şekilde gelecektir.)

...amden (kasden) ve öldürücü bir alet...ın kısas talebi durumunda öldürülür. ...man, hür bir müslümana karşı kısas ...tebea) ya ve köleye karşı da kısasen ... Yani bir köleyi veya zimmiyi öldüren hür bir müslüman öldürülür. İmam malik, Şafii, Ahmed ve Leys'in de içinde bulunduğu Cumhura göre ise, hür bir müslüman köleye veya zimmiye karşı öldürülmez. Bu hadisin mutlak oluşu Hanefilerin görüşüne delildir.

**3- Dini terkedip cemaatten ayrılan kişi:** Yani İslamdan çıkıp İslam toplumundan ayrılan mürted; hadisin üzerinde durduğumuz konu ile ilgisi bu bölümüdür. İmam Nevevi bu hükmün, tüm mürtedlere şamil olduğunu söyler.

Bazı alimler: "Cemaatten ayrılan" ifadesinden hareketle, hükmün bid'at ve isyanla cemaatten ayrılan herkese şamil olduğunu, Haricilerin (İslâmî ahkâm ile hükmeden İslâm Devleti yöneticilerine karşı başkaldıranların) da buna girdiğini söylerler.

Hadis-i şerif, müslümanlardan kanı helal olanları bu üç gruba hasretmiştir. Ancak alimler daha başka delillere de dayanarak bu sayıyı arttırmışlardır. Mesela İmam Şafii'ye göre namaz kılmayan birisi tevbe etmezse öldürülür. İmam-ı Azam'a göre ise öldürülmez. Şafii ulemasından Müzeni ve İmamü'l-Harameyn de İmam-ı Azam'ın görüşündedirler. Ayrıca bazı alimlere göre sihirbaz, bazılarına göre alenen silah çekip saldıran kişi (sâil) de öldürülür. Hz. Peygamber (s.a)'e küfredenin öldürüleceği de ittifakla sâbittir.

DİNDE ZORLAMA YOKTUR. NAMAZ KILMAYANIN ÖLDÜRÜLMESİ HÜKMÜ KURAN'DA YOKTUR.

2

**1 - Namazı tərk edənlərin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

B

294 SÜNEN'ÜN NESEİ NAMAZ BÖLÜMÜ BAB 9

وبينهم الصلاة فمن تركها فقد كفر

Büreyde (r.a.) den: Resûlüllah (s.a.v.): «Onlarla (kâfirlerle aramızdaki fark (**) kılmayı taahhüd ettiğimiz namazdır. Kim namazı terk ederse kâfir olur» (***) buyurdu.

Hâfız der ki, bu hadis namaz kılmayanları tehdid etmekte ve küfürden sakındırmaktadır. Namazı önemsememek küfür sebebi olur, denilmektedir.

Beyhakî Şuab'ül-İmân'da der ki: Burada «küfr» den maksat dinden çıkaran küfür değil de, ölüm cezası gerektiren küfür olsa gerek. Resûlüllah'dan, namaz kılmanın kişiye masuniyet kazandıran sebeplerden biri olduğu rivâyet edilir.

Nihâye'de: Bu hadiste namazı inkâr ederek terk eden, yahud gösteriş için namaz kılan münâfıklar kastolunuyor denilmiştir. Bazıları da bir kimse namazın farziyyetini kabûl ederek terketse, hatta vaktini geçirse kâfir olur, demiştir.

İmam Ahmed de: Hadisin zâhirine bakarak namaz kılmayanın küfrüne hüküm vermiştir.

«Ahd» Müslümanların Allah'a söz vererek kabûllendikleri amellerdir. Nitekim eshab namaz kılmak üzere Resûlüllah'a biat etmişlerdi. İşte bu Allah'ın ahdidir. «Onlarla aramızı ayıran» müslümanlar ile kâfirlerin arasını ayıran ve her zaman zâhirde müslümanlarla kâfirleri ayıran amel «namaz» dır, demektir. Namaz kadar iki gurubu birbirinden ayıran hiçbir amel yoktur. «Kâfir olur» sözü, kâfirlere benzeyerek, sûreta kâfir olur demektir. Zira ancak namaz kılanlar kâfirlerden ayırdedilebilir. Kâfir olur demek, küfre sebep olur, kanı helâl olur, inkâr ederek terk eder manâlarına gelir diyenler ol-

«Bu hadisin zâhirine bakıldığında namaz demiştir.

AZDAN SORULACAK

manların arasını ayıran şey Allah'a verilen söz,

shada şu ilâve vardır: Câbir (r.a.) den: Resûl-i tan kurtaran amel namazdır (Kul namazı terk rur.




3

**2 - Namazı tərk edənlərin öldürülməsi ilə bağlı HƏDİS MƏNBƏLƏRİ**

Növbəti səhifələrdə xurafat dinində mövcud olan namaz qılmayan uşaqların döyülməsi, zəkat verməyənin və ya sərxoşun öldürülməsi kimi dəhşətli hökmlərdən bəhs edəcəyik. İslam adından tətbiq edilən bu vəhşilikləri araşdıranda bir həqiqətin şahidi oluruq: Quranda bunların heç biri yoxdur. Xurafatçıların dini uydurma dindir.

## NAMAZI TƏRK EDƏN UŞAQLARIN DÖYÜLMƏSİ

*10 yaşında namazı tərk edən uşaqlarınızı döyün.* (2336-Əbu Davud, Tirmizi)

İbadət Allaha olan sevginin təzahürü kimi istəyərək və şövqlə edilir. Zorla və məcburən edilməz. Bu saxta hədisdən isə belə başa düşürük ki, bir uşaq hələ on yaşına çatmamış namaza məcbur edilir. Hələ Allahı tanımayan, dünyaya niyə gəldiyini bilməyən, Yaradıcının və yaradılışın sirlərinin fərqində olmayan bir uşağın fərz olduğunu bilmədiyi bir hökmə məcbur etmək necə faydalı ola bilər? Bir uşağın dindar olması üçün onu ibadətə məcbur etmək doğru yol deyil. Ona Allahın varlığını və birliyini göstərən dəlillərdən danışmaq, onun Allahı anlayıb sevməsinə və dinə məhəbbət bəsləməsinə çalışmaq lazımdır. Uşaq bunları anladıqca onsuz da Allaha qarşı məsuliyyət daşıdığını hiss edər, şükür etməyə başlayar və Allaha ibadəti də zövqlə yerinə yetirər. O zaman ibadət həm qəlbdən, həm də şövq və sevgi ilə edilmiş olar.

Lakin hələ Allahı tanımayan uşaq tanımadığı bir dinin hikmətini bilmədiyi ibadətlərini yerinə yetirməyə məcbur edilib sonra da bunu etmədiyi üçün döyülərsə, çox güman, həmin uşaq həyatının geridə qalan hissəsində də o dinə və ibadətlərə gizli nifrət duyar. Bəlkə də, ömrünü bu qorxunc ön mühakimə ilə keçirəcəyi üçün Allahı da yanlış tanıyar və doğru hökmləri görüb anlamağa çalışmaz. Hələ bir çox şeydən ağlı kəsməyən uşağı Allaha sevgi və gözəlliklə yaxınlaşdırmağın yerinə döyərək ibadət etməyə məcbur etmək İslam dünyasına zərərdən başqa bir şey gətirməz. Lakin Qurandan uzaqlaşan xurafatçılar bunu başa düşmürlər.

Bu bəhs etdiyimiz nifrət, əslində, praktikada da yaşanır. Bir çox qatı xurafatçı ailələrin uşaqları irəli yaşlarda ya din əleyhdarına çevrilir, ya da cəmiyyətdə az rast gəlinən degenerasiya bataqlığına düşürlər. Bununla belə, dindən ya lətifə kimi bəhs edirlər, ya da nifrətlə danışırlar. Hətta bir çox dinsiz dinə hörmətlə yanaşdığı halda, onlar hörmət etməyib kin bəsləyirlər. Bunun əsas səbəbi Quranda olmayan ibadətə məcbur etmə hökmünün uşaqlara qarşı tətbiq olunmasıdır.

## ZƏKAT VERMƏYƏNİN ÖLDÜRÜLMƏSİ

***Zəkat verməyəndən zorla almaq, qarşı çıxdıqda savaş açmaq və öldürmək:*** *Əbu Bəkr buyurdu ki, Vallahi hər kim namazla zəkatı eyni görməzsə, onunla savaşaram. Çünki zəkat malın haqqıdır. Allaha and içirəm ki, onlar Rəsulullaha verdikləri bir keçi balasını mənə çox görsələr, onların* ***boyunlarını vuraram****.* (Buxari, Müslim)

Zəkat Quranda xəbər verilən bir ibadətdir. Hər ibadət kimi müsəlmanlara

zəkat da fərz edilib və bu ibadət Allaha olan sevgidən dolayı ürəkdən edilir. Buna görə də bir müsəlman başqa birisinin çətin vəziyyətdə qalmasına izin verməyərək öz malından ona da verir. Bu, onsuz da könül xoşluğu ilə edilir.

İbadəti ibadət edən onun istək və şövqlə edilməsidir. Allah bütün insanları dilədiyi kimi varlandırmağa, onlara istədiyi zaman ruzi verməyə qadirdir, lakin zəngin olanları imtahan etmək üçün bəzi adamlara kasıblıq verir. Yoxsul öz vəziyyətinə səbir etməklə və istənilən halda Allaha yönəlib şükür etməklə, zəngin isə verilən nemət üçün yoxsulun ehtiyaclarını ödəməklə məsuliyyət daşıyır.

Allah Quranda Allaha və axirət gününə inananların zəkat verdiyindən bəhs edir. Belə ki, zəkat bütün ibadətlər kimi Allaha qarşı könül xoşluğu ilə edilir, ölüm təhdidi ilə deyil:

**... Namaz qılır, zəkat verir, Allaha və Axirət gününə iman gətirirlər. Biz onlara böyük bir mükafat verəcəyik.** (Nisa surəsi, 162)

Yoxsulu doydurmaq Quranda müsəlmanın ən böyük vəzifələrindən biridir. Lakin bunu yerinə yetirməyən barədə verilən hökm uydurma hədisdəki kimi deyil:

Hədisdəki ifadəyə görə, hər hansı səbəbdən zəkat vermək istəməyən bir adama bu ibadət məcbur etdirilir və malının yarısı əlindən zorla alınır. İlk öncə malı əlindən zorla alınan adam ibadət etmiş sayılmır. İnsanın vicdanla yerinə yetirmədiyi əməl ibadət deyil. Ondan bir ibadəti etməyi məcbur istəmək Qurana tamamilə ziddir. Bu hərəkət eyni zamanda onun dinə və dindarlara nifrət bəsləməsinə vəsilə olur və dindar cəmiyyətlərə zərər verir.

Lakin əsil vəhşilik zəkat verməməkdə israr edən adamın öldürülməsidir. Quranda qətiyyən olmayan bu hökm yenə bir cinayətdir. Quran dində gücdən istifadə etməyi qadağan etmişdir. Bundan başqa, Quran bir insanı öldürməyi də –müdafiə məqsədi istisna olmaqla– qadağan etmişdir. Quranda bu barədə belə bildirilir:

**... Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür...** (Maidə surəsi, 32)

Göründüyü kimi, cinayət İslama görə, böyük günahdır. Belə bir vəziyyətdə cinayət kimi bir günahı dinin hökmünə çevirmək həm İslama, həm də Peyğəmbərimizə qarşı böyük iftira atmaqdır. Bunu edənlər böyük harama girirlər. Beləliklə, bu saxta hədis xurafatlarla Qurandakı gerçək hökmlərin nə qədər ziddiyyət təşkil etdiyinin əhəmiyyətli sübutudur.

## ORUCU TƏRK EDƏNİN HƏBS RDİLMƏSİ VƏ YA AC SAXLANILMASI

*Orucu qəsdən tərk edən adam kafir olmaz, lakin həbs edilər, yemək və su verilməz.* (Əş-şərhis-Səğir 1/239), (Kifəyətit-Tafib 2/252), (Əl-Müğni 2/408)

Bu saxta hədis də yuxarıda anlatdığımız məntiqlər səbəbindən din və vicdana tamam ziddir:

1. Könül xoşluğu ilə yerinə yetirilməli olan ibadət zorla etdirilir.
2. "Dində məcburiyyət yoxdur" ayəsinə qarşı çıxılır.

3. Dinin şəfqət və mərhəmət əsasının tam əksinə olaraq vəhşilik tətbiq olunur.

4. Dinin əsas məqsədi olan Allahı və ibadəti sevdirməyin yerinə dinə qəzəb və nifrət oyadır.



Bütün bunlarla yanaşı, oruc bəzi insanların çətinliklə yerinə yetirdiyi və xəstə insanların isə məsuliyyət daşımadığı ibadətdir. Allah Quranda oruc hökmü ilə əlaqədar əhəmiyyətli bir şərt müəyyən edir:

**Müəyyən sayda olan günləri** *(oruc tutmalısınız)*. **Sizlərdən xəstə və ya səfərdə olanlar başqa günlərdə eyni sayda** *(oruc tutmalıdırlar)*. **Buna taqəti olmayanlar isə** *(buraxdığı hər gününün əvəzinə)* **bir kasıbı yedirtməklə fidyə verməlidirlər. Kim könüllü olaraq yaxşılıq etsə, bu onun üçün daha xeyirli olar. Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir.** (Bəqərə surəsi, 184)

**... Sizlərdən bu aya çatan şəxslər** *(həmin ayı)* **oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda** *(oruc tutmalıdır)*. **Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir...** (Bəqərə surəsi, 185)

Bu iki ayədə oruc hökmü açıq şəkildə izah olunur və deyilir ki, Ramazan ayında xəstə və ya səfərdə olanlar tuta bilmədikləri günlərin sayı qədər başqa günlərdə oruc tuta bilərlər. Əgər xəstəlik üzündən və ya çox çətin olduğuna görə oruc ibadətini heç yerinə yetirə bilmirlərsə, əvəzində bir yoxsulu doydursunlar. Allah ayədə: **"Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir"**, –deyə buyurur.

Xəstə və çətin dözənlər üçün asan hökm var ikən, bu adamlar oruc tutmağa israr etməklə öz nəfslərinə zülm edirlər. Qurana görə, müsəlmanların bədənə zərərli olan şeyləri etmələri qadağan edilmişdir. Qurandakı açıq bir hökmün tam dəyişdirilib saxta hədislərlə zülm sisteminin qurulması xurafatçı zehniyyətin ifşa edilməsi baxımından əhəmiyyətlidir. Həmin adamlar Quranın şəfqətli üslubunu bəyənmirlər (Allahı və Quranı tənzih edirik). Buna görə də öz qaranlıq dünyalarında bir din formalaşdırmağa çalışırlar. Həmin xurafatları dinə əlavə etmələrinin səbəbi də budur.

İnsan xəstələnə də bilər, dözümsüz də ola bilər. Əlbəttə, heç kimin vücudu eyni ola bilməz. İnsanların çoxu dünya həyatında müxtəlif xəstəliklərlə imtahan olunur. Allah üstün şəfqəti ilə xəstə və çətin dayana bilənləri ayrı tutduğu halda, hal-hazırda hələ də bəzi ölkələrdə saxta hədislərə əsaslanıb insanları oruc tutmağa məcbur edirlər. Xəstə olduğuna görə oruc

tutmayan adamın həbs edilib su və yemək verilmədən saxlanıldığı mühiti təsəvvür etmək çətin deyil. Belə vəziyyətdə o adamın xəstəliyi şiddətlənə və qısa müddət içində ölə bilər. Diqqət edin, xurafat düşüncəsi insanlara belə zülm edir və cana qıymaqdan belə çəkinmir.

## SƏRXOŞUN ÖLDÜRÜLMƏSİ

*"Sərxoşun mürtəd olması (dini tərk etməsi) əsaslı sayılır. Fəqət sərxoş özünə gəlmədən və tövbəyə çağırılmadan öldürülməz".*

(İmam Şəfii əl-Um cild 6, səh.148, ən-İnsaf, cild 10, səh 331-332; Muğni, Möhtac 4/137 – Haşiyətül-Desuki 4/363 – İbn Qudamə əl-Muğni 9/25-26)

Bu hədisə görə, içki içib sərxoş olan adam dindən çıxdığını deyərsə, dini tərk etmiş sayılır. Bu, çox qorxuludur. Məlum məsələdir ki, sərxoş olan adam nə dediyini bilmir və şüuru da yerində olmur. Bu adam dediklərinə görə məsuliyyət daşıya bilməz. Lakin xurafatçılar həmin bu uydurma hədisi əsas götürüb sərxoşun öldürülməsinə hökm çıxarır. Yenə də Quranda qəti olmayan əməli hökmə çevirməklə cinayətə əl atmış olur.

Bu saxta və qorxulu fikir Quranda təkzib olunmuşdur. Allah **Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və** *(cinsiəlaqədən sonra)* **natəmiz olduğunuz halda, – yolda olan** *(müsafirlər)* **istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın...** (Nisa surəsi, 43) ayəsində iman edənlərə səslənir. Məlumdur ki, həmin adamların arasında içki içib sərxoş olan da olmuşdur. Bu adamlar namaz qılan insanlar olub. Bütün bunlar ayədən açıq şəkildə başa düşülür. Namazda insanın şüuru açıq olmalıdır, nə dediyini anlamalıdır və Allah ilə dərin əlaqədə olmalıdır. Sərxoş olan adam isə diqqətini toplaya bilmir. Belə bir adam etdiklərinə və dediklərinə görə məsuliyyət daşımır, buna görə də Allah sərxoş olduğu müddət ərzində bir insana namaz qılmağı qadağan etmişdir. Ayədə işlənən "nə dediyinizi anlayana qədər" ifadəsi ilə insanın şüursuz olduğunun və nə dediyinin fərqində olmadığına diqqət çəkilir. Buradan da başa düşülür ki, ancaq şüursuzluq bitəndə namaz qılına bilər.

Sərxoş durumda insan dindən çıxdığını iddia edə bilər və çox məntiqsiz sözlər də işlədə bilər. İnsanın ayılanda etdikləri və dedikləri əsas götürülməlidir. Bundan başqa, bir adam, həqiqətən də, dindən çıxıb bunu açıq şəkildə ifadə edə bilər. Yenə də bu adamı din adından öldürmək Qurana böyük iftira atmaq sayılır və adından da məlum olduğu kimi xurafatdır. Quran belə bir vəhşiliyi lənətləyir. Uca Allah Quranda sərxoşluqla əlaqədar belə hökm verməklə müəyyən edir ki, bir insanın haram işləməsi onun müsəlman olaraq Allahı sevib ibadət etməsinə mane olmur. Bu ayə İslamın hər insana şəfqətlə yanaşdığının ayrı göstəricisidir. Fəqət hər fürsətdə ölüm axtaran zehniyyət Qurandakı hökmə baxmayaraq, özündən saxta hökmlər çıxarmışdır.

## PEYĞƏMBƏRƏ HÖRMƏTƏ UĞUN OLMAYAN SÖZ DEYƏNLƏRİN TÖVBƏYƏ ÇAĞIRILMADAM ÖLDÜRÜLMƏSİ

*Peyğəmbərə söyən adam tövbəyə çağırılmadan öldürülür.* (İbn Teymiyyə)

*İbn Münzir dedi ki, elm əhlinin hamısı Rəsulullaha söyən adamın*

*öldürülməsi mövzusunda ittifaq ediblər.* (Ənvərşah, əl-Kəşmiri, "İqfarül-Mülhidin, səh.64. "Tənbihül-Ğafilin ila Hukmi-Şatimillahi vəd-din" adlı əsərdən nəql edilir. Baxın: səh.14)

*Abdullahın rəvayətində belə deyilir: "Tövbəyə çağırılmadan öldürülür. Xalid bin Vəlid, Nəbiyə söyən bir adamı öldürdü və tövbəyə çağırmadı".*

(İbn Teymiyyə)

Bir adamın Allaha, peyğəmbərlərə və mənəvi dəyərlərə qarşı nalayiq sözlər işlətməsi təqdir oluna bilməz. Lakin bütün insanlar eyni deyil. Bir çoxu imansızdır, bir çoxu müəyyən səbəblərdən dolayı ön mühakiməlidir və bir çoxu da dinə nifrət bəsləyir. Bununla belə, bəziləri də cahildir və Quran haqqında heç bir şey bilmirlər. Odur ki, müxtəlif səbəblərə görə insanlar dinə qarşı ön mühakiməli davrana bilirlər. Xüsusilə dövrümüzdə belə insanların sayı daha çoxdur.

İmtahana gəldiyimiz bu dünyada hər düşüncə və hər fikirdə olan insanlar vardır. İmtahanımız da elə bunlarla birlikdə davam edəcək. İnsanlar nə qədər ön mühakiməli və qəzəbli olursa olsunlar, müsəlmanlar onlara Quran əxlaqını gözəl üslubda anlatmalı, qərarı onların özünə buraxmalıdırlar. Bəzən bu gözəl davranış insanlara təsir edir və onlar xətalarını görüb dəyişilirlər. Belə ki, bu barədə Quranda belə buyurulur:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən** *(pisliyi)* **yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar.**

(Fussilət surəsi, 34)

Ayədə müsəlmanlara əmr edilir ki, pis davranan insanlara gözəl qarşılıq versinlər. Bunun nəticəsinin belə olacağı xəbər verilir: **o zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar…**

Bunlara baxmayaraq, həmin adam eyni hərəkətlərə davam edərsə, bu vəziyyətdə yenə Quranda nə etməli olduğumuz barədə belə buyurulur:

**Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara** *(xoşagəlməz)* **bir söz dedikdə: "Salam!"- deyərlər.** (Furqan surəsi, 63)

*(Allah)* **Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman,** *(günahkarlar)* **başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın...** (Nisa surəsi, 140)

Göründüyü kimi, Quranda hökm olaraq bildirilir ki, belə cahillərlə birlikdə oturmamaq və onlara sadəcə salam verib ayrılmaq lazımdır. Yəni onlara sülhü xatırlatmaq lazımdır.

Ayələrdə iki xüsusiyyətə diqqət çəkilir. Həmin adamlar ünsiyyət qurulmayacaq qədər cahildirlər və bəlkə də, onlara dəfələrlə xəbərdarlıq edilib. Onlar isə doğrunu qəbul etməyiblər. Çünki vəzifəsi təbliğ olan və davamlı doğru olanı xatırladan müsəlman bu dəfə həmin insanlarla ünsiyyət qurmayıb onlardan ayrılır.

Ayədə diqqət çəkilən başqa bir cəhət budur ki, onlar başqa sözə keçənə qədər onlarla oturmaq olmaz. Yəni həmin adamlar daim müsəlmanın ətrafında olub onunla münasibət qura bilərlər. Belə ki, başqa sözə keçəndən sonra onlarla ünsiyyət davam edə bilər.

Bütün bunlar onu göstərir ki, müsəlman yuxarıda qeyd etdiyimiz uydurma hədisdəki vəhşiliyə əl atmamalıdır. Bəzi adamlar nalayiq sözlər işlədəndə onlardan uzaqlaşmaq, lakin öyüd aldıqları müddət boyu onlara doğru olanları anlatmaq lazımdır.

Bu barədə uydurma hədislərin Quranla ziddiyyət təşkil etdiyini görməyin əsas dəlili **tövbəyə mane olmasıdır.** Quranda insanlar tövbəyə çağırıldığı və ayələrdə Rəbbimizin bağışlayıcı olduğu xəbər verildiyi halda, həmçinin tövbə edənlər təriflənərkən bir adamın tövbə etməsinə necə mane olmaq olar? Bir insanın Allahdan bağışlanma diləməsinə necə əngəl olmaq olar? Allahın **"… tövbələri qəbul edəndir, Rəhmlidir."** (Bəqərə surəsi, 37) ayəsini görməzlikdən gələrək bir adamın peşmanlıq duyub Allahdan əfv diləmək haqqını necə əlindən ala bilər? Əlbəttə, heç kimin belə bir haqqı qətiyyən ola bilməz.

Rəbbimiz başqa bir ayədə belə xəbər verir:

**Yalnız tövbə edənlər** *(əməllərini)* **islah edənlər və** *(haqqı)* **bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, Rəhmliyəm!** (Bəqərə surəsi, 160)

Allahın **"...tövbələri qəbul edəndir, rəhmlidir"** hökmünü heçə sayıb yanlış əməllərini uydurma hədislərə əsaslandırmağa çalışanlar Qurana açıq şəkildə müxalif davranırlar.

## XURAFATÇILARIN DİNİNDƏ “LƏNƏTLİ HEYVANLAR” UYDURMASI

*Ov, qoyun və çoban itindən savayı digər itləri öldürün.* (4949-Buxari-Müslim-Müvətta-Tirmizi-Nəsai)

*Qara itlərin hamısını öldürün. Çünki onlar şeytandır.* (Hənbəli 4/85, 5/54)

*Deyirlər ki, eşşək şeytan gördüyü üçün anqırır.* (Müslim)

*Siçanın, əslində, yəhudi olduğu, buna görə də dəvə südü içmədiyi başqa bir hədisdir.* (Müslim, Zöhd)

*Qarğanın azğın (fasiq) olduğu hədisdir.* (Buxari, 59/16; Hənbəli, Müsnəd 2/52)

*Göyərçin şeytandır.* (5331-Əbu Davud, İbni Macə)

*Kərtənkələ fasiqdir (günahkardır).* (Müslim 2239-145, İbni Macə 3230, Əbu Davud 5262)

*Kərtənkələni ilk vuruşda öldürən adama yüz savab yazılır.* (Əbu Davud 5264, Müslim 2240/147)

*"Zina" edən meymunların daşlanıb öldürülməsi...* (Buxari 63/27)

(Zina edən bir meymunun daşlanması və səhabələrdən birinin meymunu rəcm etmə mərasiminə qatılması başqa bir hədisdir)

Şeytan görən eşşək, yəhudi siçan, azğın qarğa, şeytan göyərçin, zina edən meymun, öldürülməli olan zavallı qara itlər və kərtənkələlər...

Yuxarıda qeyd olunanlar xurafatçı zehniyyətin insanlara Qurandan nə qədər uzaq və qorxunc həyat verdiyinin xülasəsidir. Bu qəribə zehniyyət ov və çoban itlərindən başqa itləri öldürməyi əmr edən dinə aiddir. Bu din Allahın möhtəşəm sevimli yaratdığı ev itlərinin, süslü itlərin, qoruyucu itlərin hamısının öldürülməsini əmr edir. Halbuki Quranda **Yeddi göy, yer**

**və onlarda olanlar Ona tariflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır.** (İsra surəsi, 44) ayəsində bildirildiyi kimi, bizim başa düşmədiyimiz şəkildə Allahı təsbih edən və cənnət üçün xüsusi yaradılan bu sevimli canlılar necə şeytan və ya fasiq ola bilər? Bir siçan necə yəhudi ola bilər? Yaxud da yəhudi olmaq niyə günah sayılır?

Bundan başqa, bir meymun necə zina edə bilər? Bəyəm bir meymunun əxlaqi dəyərləri, sadiq olmalı olduğu evlilik anlayışı var? Yaxud da bunları dərk edəcək şüuru var ki, zina ilə günahlandırılsın? Bu, tamamilə cəhalət dolu iddiadır. Lakin xurafatçılar belə bir yalanı səhabələrə də aid edib onlara iftira atırlar.

Əlbəttə, bu hədislərin hamısı uydurmadır və Quranda belə hökmlər ola bilməz. Quranda Allahın təriflədiyi Kəhf və Rəqim əhlinin itlərindən bəhs edilir:

**Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb** *(yatmışdı)***...** (Kəhf surəsi, 18)



*(Bəziləri:)* **"***(Onlar)* **üçdür, dördüncüsü köpəkləridir!"– deyəcəklər.** *(Digərləri isə)* **"***(Onlar)* **beşdir, altıncısı köpəkləridir!"– deyəcəklər.** *(Bununla da)* **qeyb haqqında təxmini fikir yürüdəcəklər.** *(Bəziləri də:)* **"Onlar yeddidir, səkkizincisi köpəkləridir!"– deyəcəklər. De: "Onların sayını Rəbbim daha yaxşı bilir.** *(İnsanlardan)* **bunu bilən çox azdır!"...** (Kəhf surəsi, 22)

Ayələrdə açıq şəkildə göründüyü kimi, müsəlmanların yanında qorumaq üçün və ya dost olaraq it ola bilər. İtlərlə yanaşı, Quranda başqa heyvanlardan da bəhs olunur:

## 1. Qurana Əsasən, Heyvanlara Sevgi və Şəfqət Göstərmək Lazımdır:

**O dedi: "Mən gözəlliyi** *(bu atları)* **Rəbbimin zikrindən dolayı. Nəhayət,** *(o atlar Süleymanın gözündən)* **qeyb olub gizləndi.** *(Süleyman dedi:)* **"Onları mənə qaytarın!"** *(Sonra)* **onların ayaqlarını və boyunlarını sığallamağa başladı.** (Sad surəsi, 32-33)

**Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və qoşunu özləri də hiss etmədən sizi tapdayıb məhv etməsinlər".** *(Süleyman)* **qarışqanın bu sözünə gülümsədi və dedi: "Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** (Nəml surəsi, 18-19)

## 2. Quranda Heyvanlar Allahın Əsəri Kimi və Üzərində Düşünülməsi Gərəkən İman Həqiqəti Olaraq Nümunə Verilir:

**Məgər onlar <u>dəvənin</u> necə yaradıldığını görmürlər?** (Ğaşiyə surəsi, 17)
**Həqiqətən, Allah <u>ağcaqanadı</u> və** *(istər böyüklükdə, istərsə də kiçiklikdə)* **ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən** *(gələn)* **haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə** *(demək)* **istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır.** (Bəqərə surəsi, 26)

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir <u>milçək</u> belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər <u>milçək</u> onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər.** *(Bunu etmək)* **istəyən də aciz qalar, istənilən də!** (Həcc surəsi, 73)



**Allah Quranda növbənöv heyvanları, Onu təsbih edən ağıllı, möhtəşəm bir yaradılış nümunəsi kimi vermiş, peyğəmbərlərin heyvanlara olan sevgi və şəfqətlə yanaşmalarını tərifləyərək açıqlamışdır.**

**3. Quranda Heyvanların Ağıllı Olduqlarına Diqqət Çəkilir:**

**Allah, yeri eşələyən bir qarğa göndərdi ki,** *(ölmüş digər bir qarğanı basdırmaqla)* **ona qardaşının cəsədini necə basdırmağı göstərsin. O dedi: "Vay halıma! Doğrudanmı mən, qardaşımın cəsədini basdırmaqda bu qarğa kimi olmaqdan da acizəm?" Beləliklə, o, peşmançılıq çəkənlərdən oldu.** (Maidə surəsi, 31)

**4. Allah Quranda Heyvanların Vəhy İlə Hərəkət Etdiklərini Xəbər Verir:**

**Rəbbin bal arısına belə təlqin etdi: "Dağlarda, ağaclarda və** *(insanların)* **düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin** *(səndən ötrü)* **asanlaşdırdığı yollarla get".** *(O arıların)* **qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.**

(Nəhl surəsi, 68-69)

**5. Quranda Heyvanlarda Yaradılış Dəlillərinin Olduğundan Bəhs Edilir:**

**Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə, onların qarınlarındakı ifrazat və qan arasından çıxan, içənlərin boğazından rahat keçən təmiz süd içirdirik.** (Nəhl surəsi, 66)

**6. Heyvanların Gözəllik Olaraq Çeşid-Çeşid Yaradıldığı Xəbər Verilir:**

**İnsanlar, heyvanlar və mal-qara arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır.** (Fatir surəsi, 28)

**Məgər onlar görmürlər ki,** *(Biz)* **onlardan ötrü sahib olduqları mal-qaranı Öz əllərimizlə yaratmışıq?** (Ya Sin surəsi, 71)

**7. Heyvanların Allaha Səcdə Etdikləri və Onu Təsbih Etdikləri Bildirilir:**

**Məgər göylərdə və yerdə olanların, günəşin, ayın, ulduzların, dağların, ağacların, heyvanların və insanların xeyli hissəsinin Allaha səcdə etdiyini görmürsənmi? Onların əksəriyyəti isə əzab çəkməyə layiq olanlardır. Allahın alçaltdığı kimsəyə heç kəs hörmət qoymaz. Həqiqətən, Allah istədiyini edər.** (Həcc surəsi, 18)

**Məgər göylərdə və yerdə olanların, həm də qanad açıb uçan quşların Allaha təriflər dediklərini görmürsənmi? Hər biri öz duasını və həmd-sənasını bilir. Allah onların nə etdiklərini bilir.** (Nur surəsi, 41)

Göründüyü kimi, Quranda Allah müxtəlif heyvanları yaradılış nümunəsi kimi göstərmiş, onların Özünü təsbih edən, ağıllı və möhtəşəm canlılar olduğunu bildirmişdir. Eyni zamanda Quranda peyğəmbərlərin heyvanlara sevgi və şəfqətlə yanaşdıqlarından bəhs olunur. Xurafatçıların heyvan nifrətini üzə çıxaran azğın din anlayışı Quranın heç bir yerində yoxdur.

Quranın tətbiqçisi olan Peyğəmbərimizin həyatında heyvana dəyərin və sevginin nümunələrini görürük. Peyğəmbərimiz heyvanlara qarşı xurafatçı

zehniyyətin iftiralarını alt-üst edəcək şəkildə şəfqətli olmuşdur. Bu dərin şəfqətin bir neçə nümunəsinə nəzər salaq:

## PEYĞƏMBƏRİMİZİN HEYVAN SEVGİSİ

### Peyğəmbərimiz Heyvanlara Zülm Edən Çirkin Adətləri Ortadan Qaldırmışdı

Peyğəmbərimizin təbliğə başladığı dövrlərdə cəmiyyətin cahilliyi heyvanlara qarşı rəftara da təsir edirdi. Ox atmaq üçün hədəf kimi heyvanları qoyurdular. Bundan başqa, öz heyvanlarını digərlərindən ayırmaq üçün onların quyruq və qulaqlarını kəsirdilər, hətta onları dağlayırdılar. Səhrada acanda canlı dəvənin hörgücünü yarıb bir az yağ çıxarır, sonra həmin yeri tikirdilər. Peyğəmbərimiz cahil cəmiyyətin həmin adətlərini tamamilə ortadan qaldırdı. Heyvanlara qarşı zülmü ortadan qaldırmaqla insanlara onların da mərhəmətə möhtac olduqlarını öyrətdi.

### Peyğəmbərimiz Heyvanların Çox İşlədilməsini Qadağan Edib

Peyğəmbərimiz heyvanların həddən artıq işlədilməsinə izin vermirdi. Heyvanların belində oturub qarşılıqlı şəkildə şeir məclisi qurmaq qadağan edilmişdi, hansı ki bu, əsrlərlə davam edirdi. Heyvanların belində getmək sahiblərinə ancaq ehtiyac olan müddət qədər izin verilirdi. Peyğəmbərimiz bu barədə belə buyurub:

*"Heyvanlarınızın belini minbərə çevirməyin. Bu, bir həqiqətdir ki, Allah onları sizə yalnız getməyə çətinlik çəkdiyiniz yerə qədər aparmaq üçün xidmətçi etmişdir..."* (Əbu Davud, cihad 61, (2667))

Başqa bir hədisdə belə deyilir:

*"Heyvanlarınıza gözəl şəkildə və onları yormadan minin. (Sizə lazım olmayanda isə) gözəl şəkildə ötürün ki, istirahət etsinlər! Onlardan yolda, küçədə dayanıb danışmaq üçün kürsü kimi istifadə etməyin".* (Əhməd III, 439)

### İşlədilən Heyvanların Dincəlmək Haqqı

Peyğəmbərimiz işlədilən heyvanlara insanlar kimi istirahət haqqı vermiş, səfər müddətində heyvanların ehtiyac və istirahətlərini diqqətdə saxlamağı buyurmuşdur.

### Peyğəmbərimiz Heyvanlara Əziyyət və ya İşgəncə Verməyi Qadağan Edib

*Peyğəmbərimiz Rəbbimizin haqsız yerə sərçəni öldürəni hesaba çəkəcəyini bildirmiş* (Əbu Davud, 2/11), *quşların yuvalarının dağıdılmamağını əmr etmişdir.* (Buxari, Ədəbül-müfrəd, 139)

*Peyğəmbərimiz bir dəfə mindiyi heyvanın üzünə möhkəm vuran birini saxlayıb ona dedi ki, onun bu hərəkəti Allahın qanunlarını heçə saymaqdır. Sonra qeyd etdi ki, Allah heyvanları onlara bunu etmək üçün yaratmayıb.* (Əhməd, Müsnəd, 4/131)

## Peyğəmbərimizin Ana İtə və Balalarına Şəfqəti



Peyğəmbərimiz savaş vaxtı on min nəfərlik ordu ilə gedirdi. Yolun üstündə yeni doğmuş bir it gördü. İtin balaları da yanında idi. P*eyğəmbərimiz Süraqənin oğlu Cueyli çağırıb tapşırdı ki, ordu tam keçib gedənə qədər itlərin yanında dayansın və onları əzilməkdən qorusun.* (Əş-Şami, Sübulül-xüda vər-rəşad, VII, 51) Peyğəmbərimizin göstərişi ilə itlər narahat olmasın deyə, on min nəfərlik ordu istiqamətini dəyişmişdi.

## Peyğəmbərimizin Heyvan Sevgisini Göstərən İfadəsi: "Bütün İtlərin Canı Möhtərəmdir"

*Təkcə faydalı olan itlər deyil, zərər verməyən və hücum etməyən bütün itlərin canı möhtərəmdir, onlara toxunmaq olmaz.*

(Haşyətül-Beycərmi, ələl-mənhəcəl-məktəbətüş-şamilə, I/474)

## Peyğəmbərimizin Müəzza Adlı Pişiyi



Peyğəmbərimizin Müəzza adlı pişiyi var idi və onu çox sevirdi. Bir gün Peyğəmbərimiz divanda oturmuşdu. Müəzza da Peyğəmbərimizin paltarının ucunda yatmışdı. Peyğəmbərimiz ayağa qalxanda pişiyə qıymamışdı, paltarını kəsib qalxmışdı.

Əlavə məlumat: Peyğəmbərimizdən hədislər rəvayət edən Əbu Hüreyrənin mənası **pişik balasıdır.**

## Peyğəmbərimizin Ana Quş və Balalarına Şəfqəti

*Allahın Rəsulu ilə birlikdə idik. Yanında iki balası olan sərçəyə bənzər quşa rast gəldik. Balalarını tutduq. Anaları bunu görüb fəryadla qanadlarını çırpmağa başladı. Bunu görən Rəsulullah: "Bunu balalarından kim ayırdı? Balalarını yerinə qoyun", –dedi. Biz də onları sərbəst buraxdıq.*

(Əbu Davud, Ədəb, 163-164)

## Keçi Balası

*Peyğəmbərimiz bir dəfə keçi sağan birisinə belə demişdi: "Sağanda balası üçün süd saxla".* (Məcmüaz-zəvaid, 8:196)

## Ac Saxlanılan Dəvə və Sahibi

Peyğəmbərimiz mədinəli müsəlmanlardan birinin bağında dəvənin acından bağırdığını görüb narahat olmuşdu. Dəvənin yanına gəlib, onu sığallayaraq sahibinin kim olduğunu soruşmuşdu. Sonra: *"Heyvanlara qarşı*

*belə davranmaqla Allahdan qorxmursunuz?"* –deyərək dəvənin sahibinə xəbərdarlıq etmişdi. Başqa bir hədisdə isə Peyğəmbərimiz: *"Danışa bilməyən bu heyvanlara görə Allahdan qorxun!"* –buyurmuşdur. (Əbu Davud, Cihad, 44/2548)

## Yatmış Ceyran

*Peyğəmbərimiz bir dəfə səfər zamanı istidən kölgədə qıvrılıb yatan ceyran gördü. Səhabələrindən birinə tapşırdı ki, hamı keçib gedənə qədər ceyranın yanında dursun və heç kimin heyvanı narahat etməyinə imkan verməsin.* (Müvətta, Həcc 79; Nəsai, Həcc, 78)

## Üzü Dağlanmış Ulaq

*Peyğəmbərimiz bir gün yolda üzü dağlanan ulaq gördü və belə dedi: "Allahın lənəti onu dağlayanların üzərinə olsun!" Tövsiyə etdi ki, işarə qoymaq üçün heyvanın acı verməyən yerini dağlasınlar.* (Müslim, Libas, 107)

## Heyvanlara Yaxşılıq Etmək

*Bir nəfər səfər vaxtı susadı və tapdığı bir quyuya enib su içdi. Çıxanda gördü ki, bir it susuzluqdan dilini çıxarıb ləhləyir. Həmin adam: "Bu it də mənim kimi möhkəm susayıb", –deyərək təkrar quyuya endi və it üçün ordan su çıxardı. Buna görə Allah onu bağışladı. Səhabələr: "Ey Allahın Rəsulu, heyvanlara görə bizə savab yazılırmı?" –deyə soruşdular. Rəsulullah: "Hər canlıya edilən yaxşılığın savabı mütləq var", –deyə cavab verdi.*

(Buxari, Şürb, 9; Məzalim, 23, Salam, 153)

*Dostları: "Heyvanlara su verəndə də savab yazılır?", – deyə soruşanda Rəsulullah belə cavab verdi: "Yaşayan hər canlıya su vermək savabdır".* (Təcrid, cild vii, səh.223)

Yuxarıdakı hədislər Qurana uyğun olduqları üçün səhih sayılır və buna görə də dəlil kimi veririk. Peyğəmbərimizin heyvanlara qarşı bu cür şəfqətli davranmağının səbəbi Quranın verdiyi təlim-tərbiyədir. Peyğəmbərimiz Allahın bir-birindən gözəl və bir-birindən bacarıqlı canlıları rəhmət olaraq yaratmasını ən yaxşı təqdir edən şəxsdir. Eyni zamanda Allahın Rəhman və Rəhim isimlərinin, Allahın munis sənətinin canlılarda təzahür etdiyini də açıq şəkildə görmüşdür. Bunu Peyğəmbərimizin mərhəmət barədə nəsihətlərində də görmək mümkündür:

*Yer üzündəkilərə mərhəmət edin ki, göy üzündəkilər də sizlərə mərhəmət etsin!*

*Rifqdən (yaxşı rəftardan) məhrum olan bütün xeyirlərdən məhrum qalar.* (Müslim, Birr, 76)

Beləliklə, xurafatçılar boş yerə İslam dinində və ya Peyğəmbərimizin əməllərində heyvanlara qarşı şiddət axtarmaqla saxtakarlıq edirlər. Quran insana, heyvana və bitkiyə qarşı sevginin ən mükəmməl təsvir edildiyi kitabdır. Peyğəmbərimiz də həyatı boyu Qurana tabe olmuşdur.

## XURAFATIN İYRƏNCLİYİ

*Üreynə və Üqeylə qəbilələrindən bir qrup şəxs Mədinəyə gələrək müsəlman oldular. Mədinənin havası onlara pis təsir edəndə Peyğəmbərimiz onlara dəvə sidiyi içməyi məsləhət gördü.* (Buxari, Tibb 5/1; Hənbəl 3/107, 163)

*Sizdən birinizin yeməyinin və ya suyunun içində milçək düşəndə, onun hər tərəfini batırıb çıxarsın. Çünki milçəyin bir qanadında xəstəlik, o birində isə şəfa var...* ("Diyanet" nəşrləri, cild 9, səh.70 və d. Hədis no: 1365)

*İbn Abbas rəvayət edir: Rəsulullah buyurdu ki, biriniz yemək yeyəndə yalamadıqca və ya yalatmadıqca əlini silməsin.*

(Buxari, Ətimə 52, Müslim, Əşribə 129, (2031); Əbu Davud, Ətimə, 52, (3847))

*Rəsulullahdan yağa düşən siçan haqqında soruşdular.*
*O buyurdu: "Onu və ətrafındakı qismi atın, yağı yeyin!"*

(Buxari, Vüdu, 67, Zəbaih, 34; Müvətta, İstizan 20, (2, 971, 972); Əbu Davud, Ətimə 48, (3841, 3843))

Burada yalnız bir neçə nümunəsi verilən saxta hədislər xurafatçı zehniyyətin insanlara nə qədər rəzalətli həyat verdiyinin əhəmiyyətli dəlillərindəndir. Xurafatçılar bu cür uydurma hədislərlə Peyğəmbərimizə belə iftira atacaq qədər cəsarət ediblər. Bu və buna bənzər uydurma hədislər eyni zamanda xurafatçıların təmizlik anlayışlarının necə olduğundan xəbər verir. Allah belə bir iyrəncliyə əsla izin verməmişdir. Qurana əsasən, müsəlmanlar təmizkar olmalı, evlərini səliqəli saxlamalı, gözəl geyinməli və təmiz yeməklər yeməlidirlər. Qurana əsasən, müsəlmanlar təmiz, müşriklər isə murdardırlar. Qurandan xaric həyat sürən, Allahın nazil etdiyindən fərqli din uyduran və buna görə də şirk içində olan xurafatçılar bu təsvirə tam uyğundurlar. Allah belə xəbər verir:



**Qurana görə, müsəlmanlar təmiz olmaqla, evlərini təmiz saxlamaqla, təmiz paltar geyinməklə və təmiz yeməklər yeməklə məsuldurlar. Qurana görə müsəlmanlar təmizdirlər, fəqət müşriklər isə murdardır. Qurandan kənar bir həyat yaşayan, Allahın nazil etdiyindən başqa bir din gətirən və buna görə də şirk içində olan mövhümatçılar, şübhəsiz ki, bu tərifə daxildir.**

**Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar...** (Tövbə surəsi, 28)

**... Allah anlamayanları kəsafətə düçar edər.** (Yunus surəsi, 100)

Göründüyü kimi, Allah ayələrdə anlamayan topluluqdan bəhs edir. Bu ifadə xurafatçıları çox yaxşı təsvir edir. Quran kitabı əllərində olduğu halda, ortaya başqa din çıxaran və bunun saxta olduğunu bilərək ağıllı davranmayanlara Allah iyrənclik nəsib edir. Bu, doğrudan da, belədir; xurafatçılar ağılsızlıqları ucbatından yuxarıda verdiyimiz hədislərə inanır və beləcə, murdar həyat yaşayırlar.

Əlbəttə, aralarında məlumatsızlıqdan dolayı buna inanan adamlar da vardır, hansı ki onlar çoxluq təşkil edirlər. Onları həmin ağılsız xurafatçılarla eyni tutmaq olmaz. Onların doğru olanları öyrənmələri üçün bu kitabda ətraflı şəkildə izah olunan məlumatlara, yəni Qurandan gətirilən dəlillərə daim ehtiyac vardır.

Qurana əsasən, Allah müsəlmanlardan qüsursuz şəkildə təmizlik anlayışına malik olmalarını istəyir. Quranda müsəlmanları təmizliyə çağıran ayələrdən bir neçəsini qeyd edirik:



**Geyimini təmiz saxla! Pis şeyləri tərk et!** (Müddəssir surəsi, 4-5)

**Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir.** (Bəqərə surəsi, 168)

**... İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada pak olmağı sevən kişilər vardır. Allah da pak olanları sevir.** (Tövbə surəsi, 108)

**Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və**

**əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin!** (Bəqərə surəsi, 172)

**İman gətirib saleh əməllər işləyənləri isə** *(ağacları)* **altından çaylar axan, içində əbədi məskunlaşacaqları Cənnət bağlarına daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır...** (Nisa surəsi, 57)

**Səndən onlara nəyin halal edildiyini soruşurlar. De: "Təmiz nemətlər və Allahın sizə öyrətdiyindən öyrədib əhliləşdirdiyiniz yırtıcı heyvanların ovladıqları sizə halal edildi...** (Maidə surəsi, 5)

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında** *(hamıya)*, **Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə- izah edirik.** (Əraf surəsi, 32)

**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O** *(peyğəmbər)* **onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər...** (Əraf surəsi, 157)

**Bir zaman Biz İbrahimə evin** *(Kəbənin)* **yerini nişan verib: "Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!"** *(– demişdik.)* (Həcc surəsi, 26)



Quranda çox yerdə müsəlmanlara təmiz olmaq əmr edilir. Burada yalnız bir neçə ayə yazdıq. "Əraf" surəsinin 32-ci ayəsində xüsusi diqqət çəkilən məqam var. Yəni müsəlmanlara zinətləri haram edənlər kimi, təmiz ruziləri də haram edənlərin olması. Həqiqətən də, xurafatçıların həyat tərzinə diqqətlə baxdıqda görürük ki, təmizliyi müsəlmanlara yenə də onlar haram edir.

Qurana əsasən, müsəlman ən təmiz, ən baxımlı və ən modern şəkildə geyinməli, təmiz yeməklər yeməli və yaşadığı yeri təmiz saxlamalıdır. Yəni hər yerdə və hər zaman təmiz olmalıdır. Peyğəmbərimiz bu barədə çox ciddi idi. Təmizliyə belə ciddi yanaşan peyğəmbərə yuxarıda bəhs edilən formada uydurma hədislərlə iftira atmaq Allah qatında böyük günahdır. Fəqət xurafatçılar bu həqiqətdən tamamilə xəbərsizdirlər.

Saxta hədislərin yanlış olduğunu göstərmək üçün Peyğəmbərimizin sözlərinə nəzər salaq. Peyğəmbərimizin təmizlik barədə bəzi səhih hədisləri aşağıdakılardır: (Bu hədislər Quran ilə uyğun gəldiyi üçün səhih qəbul edilir)

*Müsəlmanlıq təmizdir, kirsizdir. Siz də təmiz olun, təmizlənin. Çünki cənnətə təmizlər girər.* (Əhməd Ziyaüddin, Ramuz əl-əhadis, I cild; Deyləmi)

*Mömin pis olmaz.* *(Buxari, Qüsl, 276)*

*Hər şeyi yaxşı təmizləyin! Təmizlik imana, iman da cənnətə aparır.* (Təbərani)

*Təmizlik imanın yarısıdır.* (Müslim)

*Salman rəvayət edir: "Tövratda oxudum ki, yeməyin bərəkəti yeməkdən sonra əl-ağızı yumaqdadır. Bunu Rəsulullahdan soruşdum. Buyurdu ki, yeməyin bərəkəti yeməkdən əvvəl və sonra əl-ağızı yumaqdadır".*

(Əbu Davud, Ətimə 12, (3761); Tirmizi, Ətimə 39, 1847)



*Sarımsaq yeyən qoxusu getmədən məscidə yaxın durmasın. Adamın narahat olduğu şeylərdən mələklər də narahat olur.* (Təbərani)

*Paltarlarınızı yuyun. Tüklərinizi təmizləyin, dişlərinizi yuyun; təmiz və gözəl geyinin! Nəzafət sahibi olun!* (İbn Əsakir)

*Sarımsaq və ya soğan yeyən adam bizdən və məscidlərimizdən uzaq dursun!* (Buxari, Ədəb, 76)

*Namazın açarı təmizlikdir.* (Tirmizi)

*Gözəl geyinin ki, Allahın verdiyi nemətlərin əsəri üzərinizdə görünsün!* (Təbərani)

*"Bəhrül-raiq"də buyurulur ki, camal çirkinliyi aparıb vüqarlıolmaq və*

*şükür etmək üçün neməti göstərmək deməkdir. Allah-Təala camal sahibi olmağı tərifləyir. Camal üçün təmiz və gözəl geyinmək mübahdır.* (Oruc mövzusu)

*Allah bir quluna nemət verdikdə o nemətin əsərinin qulunun üzərində görünməsini sevər.* (Təbərani)

*Əbu Süfyan rəvayət edir: "Mənə Əbu Əyyub əl-Ənsari, Cabir ibn Abdullah və Ənəs bin Malik xəbər verdi ki, "Tövbə" surəsinin 108-ci ayəsi (Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları sevər!) nazil olanda Rəsulullah: "Ey ənsar camaatı, Allah sizi təmizlik barəsində tərifləyir, (buna) səbəb olan təmizliyiniz nədir?" –deyə soruşdu. Onlar da dedilər ki, biz namaz üçün dəstəmaz alırıq, cünub olanda yuyunuruq. Rəsulullah: "Tərif elə buna görədir, davam edin buna!" –buyurdu.*

*(Kutubi-sittə, 6066)*

*Ənəs bin Malik rəvayət edir: "Mənə qadın və gözəl qoxu sevdirildi, namaz gözümün nuru edildi".* (Nəsai, İşrətün-Nisa 1, (7, 61))

## XURAFATIN KEYFİYYƏTSİZ MÜSƏLMANLIQ ANLAYIŞI

Xurafatçıların müxtəlif uydurma hədislərin təsiri ilə hər növ iyrəncliyi mənimsəyən həyat tərzləri bərabərində keyfiyyətsizliyi də gətirir. Elə buna görə də, ümumiyyətlə, İslam cəmiyyətlərinin bir qisminə keyfiyyətsizlik anlayışı hakimdir. Bu keyfiyyətsizlik üzündən ortaya baxımsız, estetika anlayışı olmayan, nəzakətli olmağa əhəmiyyət verməyən və kobud bir müsəlman modeli çıxır. Diqqət yetirdikdə görünür ki, həmin cəmiyyətlərdə müsəlman dedikdə belə bir görünüşün hakim edilməsinə çalışılır.

Xurafatçıların keyfiyyətsiz və qorxunc həyat forması heç də sürpriz sayılmır. Qadınların qaş almağını qadağan edən, yeməkdən sonra əlini yumağın yerinə yalayan, içinə milçək düşən yeməyin şəfa olduğunu iddia edən insanlardan keyfiyyət gözləmək mümkün deyil. Saxta hədislərin formalaşdırdığı saxta din anlayışı o qədər geniş yayılıb ki, gözəl və kübar görünən bir müsəlman xurafatçılardan mənfi reaksiya görür.

İslam adından oynanılan bu oyun bütün İslam topluluqlarını əhatə edir və bu da öz növbəsində digər cəmiyyətlərin narahatlığına zəmin yaradır.

Halbuki Quranda möhtəşəm keyfiyyət anlayışı vardır. Peyğəmbərimiz Quranın mükəmməl tətbiqçisi kimi dövrünün ən keyfiyyətli və ağıllı adamı idi. Daim təmiz idi və geyimləri göz oxşayırdı. Eyni zamanda çox nəzakətli idi. Peyğəmbərimiz əgər bu gün yaşasa idi, sözsüz ki, yenə də dövrün ən keyfiyyətli insanı olardı. Çünki Peyğəmbərimizin rəhbəri Quran idi və Quran hər dövrdə ən üstün keyfiyyətə xitab edir.

Bunu xüsusi vurğulamaq lazımdır ki, keyfiyyət pul, mal-mülk və ya marka kimi şeylərlə ölçülmür. Keyfiyyət təmizlik, diqqət, gözəlliyə dəyər vermək, hörmət, gözəl əxlaq və s. kimi dəyərlərlə ölçülür.

İnsan hər gün eyni geyimdən istifadə edə bilər, lakin onu hər gün təmiz saxlayarsa, buna keyfiyyət deyilir. İnsan başqasının fikri ilə razılaşmaya bilər, amma onun düşüncələrinə hörmətlə yanaşarsa, o adam keyfiyyətli olar. İnsanın keyfiyyətli olduğunu göstərən ən əhəmiyyətli şeylərdən biri onun hərəkətləridir. Pisliyə, tamahkarlığa, düşüncəsiz hərəkətlərə yol

verməyən adam onsuz da təbii olaraq keyfiyyətlidir.

Belə ki, keyfiyyəti zəruri edən bütün xüsusiyyətlər İslam cəmiyyətlərində əksərən unudulmuşdur. Bunun başlıca səbəbi İslam topluluqlarının Quranı tərk etməsidir ki, bu da ən böyük xətadır. Keyfiyyətə deyil, çoxalmağa, sevgiyə deyil, nifrətə, həmçinin təmizliyə deyil, kirlilik və diqqətsizliyə əhəmiyyət verən cəmiyyətlər meydana gəlmişdir. Bunun yeganə çarəsi Qurandır.

Müsəlmanın üstün keyfiyyətini Qurandan dəlillərlə həmin cəmiyyətlərə göstərmək hal-hazırda ən təcili ehtiyaclardan biridir. Qurandan dəlil göstərmədikcə həmin cəmiyyətlər demokratiyadan uzaqlaşıb qəzəb topluluqları meydana gətirməyə, keyfiyyətsizliyi yaymağa və sənətə, təmizliyə əhəmiyyət verməməyə davam edəcəklər. Bu isə hər keçən gün daha da şiddətlənən böyük bəladır.



**Keyfiyyət; Pulla, malla və ya brend paltarlarla təmin ediləcək bir şərt deyil. Keyfiyyət; Təmizlik, qayğıkeşlik, gözəllik və estetikaya dəyər vermək, rəftar və davranışda mükəmməllik, şəfqət və ağıl, hörmət və gözəl əxlaqla təmin edilə biləcək bir xüsusiyyətdir. Gerçək Quran Müsəlmanlığı bu keyfiyyət anlayışını şərt qoyar. Mövhümatçıların dünyası isə olduqca kirli və keyfiyyətsizdir. Bu, Qurana qarşı çıxmağın nəticəsidir.**

# XURAFATÇILARIN QADIN NİFRƏTİ

## QADINLAR BU DÜNANIN ƏN GÖZƏL NEMƏTLƏRİNDƏN BİRİDİR

Xurafatçı zehniyyətin sevgisiz və kobud olduğunu göstərən xüsusiyyətlərdən biri də onların qadınlara baxış formalarıdır. Qadına dəyərsiz varlıq kimi yanaşan xurafatçılar müxtəlif xurafatlarla onları cəmiyyətdən uzaqlaşdırır, hətta küçədə görməyə belə təhəmmül edə bilmirlər. Növbəti səhifələrdə bu barədə uydurma hədislərdən nümunələr verməklə xurafatçıların qadına qarşı münasibətlərinin Qurana və Peyğəmbərimizin buyurduqlarına tamamilə zidd olduğunu göstərəcəyik. Həmin saxta hədislər bir çox müsəlman ölkədə qadınların niyə hələ də əxlaqsız şəkildə əzildiyinin daha yaxşı başa düşülməsinə vəsilə olacaq.



Xurafatçılar qadınların iman və ağlının naqis olduğuna inanırlar və bu, onların qadına münasibətlərinin əsasını təşkil edir. Buna görə də qadınların yarım görülməsində və onların idarə olunmasında israrlıdırlar. Xurafatçılar üçün qadının varlığı belə təhlükə və qəzəbə bir səbəbdir. Bu səbəbə görə mümkün qədər onu qapalı şəraitdə saxlamaqla, cəmiyyətdən soyutmaqla və bütün haqlarını əlindən almaqla sanki yox kimi elan etməyə çalışırlar. Qadını ikinci sinif varlığa çevirib onun qərar verməsini əngəlləməklə və sosial məsələlərdə rolunu azaltmaqla özlərinin hakim olduğu cəmiyyət meydana gətirməyi hədəfə alıblar. Çünki yaxşı bilirlər ki, qadınlar, ümumiyyətlə, hər şeyi detallı düşünürlər və hadisələrin incə məqamlarına diqqət yetirməklə qəti nəticələr çıxara bilirlər. Onları müəyyən qərarlar verməkdən saxta üsullarla kənarlaşdırmaq xurafatçıların saxtakarlıqlarını rahat yaymaqlarına şərait yaratmışdır.

Halbuki Allah təqvada qadın və kişini ayırmır. Rəbbimiz saleh əməllərin və gözəl əxlaqın yayılması üçün aparılan fikri mübarizədə qadına da, kişiyə də eyni vəzifə vermişdir. Qadın və kişi Qurana əsasən, məsuliyyət

baxımından bərabərdirlər. Lakin diqqət, qayğı və dəyər baxımından qadın Quranda kişidən üstün tutulur. İndiyə kimi bir qisim xurafatçılar və İslam düşmənləri tərəfindən qadınların əleyhində dəlil kimi göstərilən ayələr, əslində, qadının üstünlüyünü və Allahın qadına verdiyi dəyəri göstərir. Bunu növbəti sətirlərdə ətraflı şəkildə izah edəcəyik.

Quranda Rəbbimizin qadın üçün təsvir etdiyi bənzətmə onun dəyərini də göstərir. Quranda qadın zərif bitkiyə bənzədilir. Hz. Məryəm üçün verilən bu təsvir qadına verilən dəyərin açıq izahıdır:

**Rəbbi onu yaxşı tərzdə qəbul etdi, onu gözəl bir bitki kimi yetişdirdi...**
(Ali-İmran surəsi, 37)

Gözəl bir bitki xüsusi qayğı tələb edir, buna görə də çox dəyərlidir və gərək ona qarşı diqqətli olasan. Çiçəyin gözəlliyi, həssaslığı, xüsusi diqqət tələb etməsi və əhəmiyyəti qadının İslamdakı yerini mükəmməl şəkildə izah edir. Bu, bir həqiqətdir ki, Allah yer üzündəki bütün çiçəkləri və bitkiləri gözəllik ünsürü olaraq təmizlik simvolu kimi və möhtəşəm yaradılış həqiqəti kimi yaratmışdır. Gözəlliyin ifadəsi olan bu yaradılışın qadına ithaf edilərək istifadə olunması, Allahın gözəllik simvolunu qadına bənzətməsi qadına verilən dəyəri çox gözəl izah edir.

## QURANDA QADIN

Quranda qadından bəhs olunan ayələrdə qadına böyük dəyər verilir, qadın bütün çətin şərtlərdə xüsusi himayə altına alınır. Lakin digər tərəfdən də məsuliyyət baxımından kişi ilə eyni tutulur. Odur ki, qadının qorunması ehtiyacdan dolayı deyil, xüsusi dəyərə malik olduğu üçündür.

Qurana əsasən, qadın istədiyi yerdə işləyə bilər, lakin belə bir məcburiyyəti yoxdur. Quranda Səba məlikəsinin qadın olaraq dövlət başçısı olduğunu görürük. Eyni zamanda Hz. Məryəm nümunəsində görürük ki, qadın çətinlik anlarında daha səbirli və qərarlılıqda daha üstündür. Hz. Məryəm bu xüsusiyyətləri ilə aləmlərin qadınlarına nümunə təşkil edir. Qurana əsasən, qadın sultandır və hər zaman əl üstündə saxlanmalıdır. Buna görə də, bütün dünya qadına münasibətdə Qurana əsaslanaraq davranmalıdır.

Peyğəmbərimizin dövründə qadınlar kişilərlə birlikdə həyatın hər sahəsində yer tutmuşdular. Peyğəmbərimizin xanımı Hz. Xədicənin bölgənin ən əhəmiyyətli iş adamlarından biri olması qadının sosial həyatdakı aktivliyini göstərən önəmli ünsürdür. Bundan başqa, Peyğəmbərimizin dövründə istər İslamla yeni tanış olanların təlim almasında, istərsə də cəmiyyətin formalaşmasında, hətta müharibələrdə belə qadın və kişi səhabələr bərabər vəzifə daşımışdılar. Peyğəmbərimizin xanımlarına göstərdiyi nəzakət və sevgi isə bütün dünya üçün ən gözəl nümunə təşkil etmişdir. Xanımları ilə qaçış yarışına girən, xanımının dəvəyə minməyi üçün əyilib yardımçı olan, hər fürsətdə qadınların üstünlüklərini tərifləyən və təşkil olunan əyləncələrdə başını xanımının çiyninə qoyan gözəl Peyğəmbərimizin xurafatçıların qorxunc əməllərinə əsla izin vermədiyi açıq-aşkardır. Xurafatçılar Rəsulullahın adından belə hədislər uydurararaq

səhabələri töhmət altında buraxırlar. Belə ki, həm Peyğəmbərimizə, həm də səhabələrə iftira atmaqla böyük məsuliyyət daşıyırlar. Xurafat dinindəki qadının Quranda açıqlanan qadından niyə bu qədər fərqli olduğu bəzi uydurma hədislər araşdırıldıqda o dəqiqə müəyyənləşir. Həmin uydurma hədislərin hamısına Qurandan qəti cavablar verilmişdir.

## XURAFATÇILARIN QADINLARA QARŞI İFTİRALARI

### Qadının Ağlının və Dininin Qüsurlu Olduğu İddiası

*Çox lənət edir və ərinizə qarşı nankorluq edirsiniz. Ağlı başında olan bir kişinin ağlını sizin qədər alan və dini qüsurlu olan bir varlıq görmədim.* (Müslim, İman, 34/132, İbni Macə, Fitən 19/4003)

*Allah: "...Mən onu mükəmməl və ağıllı olaraq yaratmışdım. İndi isə ağıllarını azaldacağam, o, iyrənərək və istəməyərək yüklü olacaq, övladını çətinliklə dünyaya gətirəcək", –dedi.* (Təbəri, Təfsir I 235 vd; İbnül-əsir əl-Kamil 34)

Quranın heç bir ayəsində qadınların ağıl baxımından kişilərdən daha zəif olduğu barədə məlumat yoxdur. Əksinə olaraq, bir çox ayədə "mömin qadınlar və mömin kişilər" ifadəsi ilə Allah qatında bərabər məsuliyyət daşıdıqları, yəni eyni ağıl və vicdana sahib olduqları xəbər verilir. Bundan başqa, Səba məlikəsi nümunəsində olduğu kimi, qadın əhəmiyyətli məsələlərdə qərar verən dövlət başçısı ola bilər. Üstəlik, bir insanı ağıllı edən fərqli fiziki quruluşa malik olması deyil, sahib olduğu Allah qorxusu, Allah sevgisi, iman dərinliyi və vicdanıdır. Allah qadın və kişi olmasından asılı olmayaraq, hər insanın vicdanına doğru və yanlışı mütləq ilham edir. Belə ki, insanın ağıllı və dindar olması onun cinsiyyətindən asılı deyil. Onun vicdanına vəhy edilənə ən mükəmməl şəkildə tabe olmasından və **"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər..."** (Ənfal surəsi, 29) ayəsində bildirildiyi kimi, Allahdan qorxmasından asılıdır. Ağıl üçün Qurandakı yeganə ölçü budur. Odur ki, insan kişi olduğu üçün üstün olmadığı kimi, qadın olduğu üçün də iman və ağıl baxımından zəif olmaz. Lakin hər dəfə xatırlatdığımız kimi, xurafatçıların dini Qurandan tamamilə fərqlidir və iftiralarla doludur.

Həmin saxta hədislərlə Allaha qarşı iftira atmaqları onların nə qədər həddi aşdıqlarını göstərir. Quranın heç bir yerində *"indi isə ağıllarını azaldacağam, o, iyrənərək və istəməyərək yüklü olacaq, övladını çətinliklə dünyaya gətirəcək"* ifadəsi yoxdur. Allahın sözü olaraq iddia edilən bu ifadə Quranda yoxdursa, bəs haradadır? Yalan danışmaq xurafatçıların ən böyük fitnələrindən biri olduğuna görə belə bir iftira ata bilirlər.

Qadın hamiləliyi Quranda müqəddəs sayılır və buna görə də Quranda ana da müqəddəs sayılmışdır. Uca Rəbbimiz ayədə belə buyurur:

**Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu** *(bətnində)* **gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir.** (Loğman surəsi, 14)

**Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik. Anası onu** *(bətnində)* **əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun** *(bətndə )***daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir. Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər: "Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işlər görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et. Mən Sənə tövbə etdim. Həqiqətən, mən müsəlmanlardanam!**
(Əhqaf surəsi, 15)

Hz. Məryəm Allahın istəyi ilə hamilə qalmış, hamiləliyi boyu bütün çətinliklərə səbir etmiş, göstərdiyi səbir və Allaha bağlılığına görə bütün aləmlərin qadınlarından üstün edilmişdir.

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi."** (Ali-İmran surəsi, 42)

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə** *(Allaha)* **sidq ürəkdən inanan bir qadın idi...** (Maidə surəsi, 75)

Xurafatçılar qadınlar haqqındakı çirkin sözlərlə öz qorxunc düşüncələrini nümayiş etdirirlər, eyni zamanda Hz. Məryəmə, səhabələrə və üstünlükləri ilə təriflənən bütün imanlı qadınlara həqarət edirlər.

Hamiləliyin ağır keçməsi və uşağın əziyyətlə doğulması dünya həyatının çətinliklərindən biridir və səbir, güc, iradə tələb edir. Allah böyük çətinliyə səbir edən ananın Öz qatında çox dəyərli olduğunu xəbər verir. Buna görə də Allaha təvəkkül edərək Ona sevgisi çox olduğuna görə çətinliklərə səbir edən ana üstün varlıqdır. Anaya verilən bu dəyər Qurandakı əxlaq xüsusiyyətlərindən biridir.



**Sassoferratonun "The Virgin in Prayer" ("Duadakı bakirə") adlı yağlı boya tablosu**

**Hz. Məryəm Allahın izni ilə möcüzəvi şəkildə hamilə qalmış, hamiləliyi boyunca bütün çətinliklərə səbr etmişdir. Göstərdiyi bu səbr və Allaha bağlılığı sayəsində bütün aləmlərin qadınlarından üstün edilmişdir.**

Göründüyü kimi, Quranda qadının kişiyə görə üstünlükləri də vardır və belə ki, ağlının və imanının az olması ilə bağlı bənzətmə xurafatçıların dininə aiddir. Allah məsuliyyət baxımından kişi və qadına bərabər şəkildə xitab edir. Bir çox ayədə eyni anda mömin kişi və mömin qadınlara xitab edilməsinin səbəblərindən biri də budur. Bu barədəki ayələrdən biri belədir:

**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və**

**doğru danışan qadınlar, səbrli kişilər və səbrli qadınlar,** *(Allaha)* **baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və** *(ismətlərini)* **qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.** (Əhzab surəsi, 35)

Ayədə göründüyü kimi, Allahdan qorxmaq, Allahı zikr etmək, Allaha sadiq olmaq, səbirli olmaq və sədəqə vermək kimi müsəlmanların əsas vəsflərinin heç birində qadın-kişi ayrı-seçkiliyi yoxdur. Quranda qadınların möminlik vəsflərindən hər hansı birinə daha az sahib olduğuna dair ən kiçik işarə belə mövcud deyil. Bir insan qadın və ya kişi olmasından asılı olmayaraq, gücünün yetdiyi qədər Allahdan qorxmalı, dərin məhəbbətlə Allahı sevməli və Allahın rizasının ən çoxunu qazanmağa çalışmalıdır.



**Uilyam-Adolf Buqeronun "Mother and children" ("Ana və uşaqlar") adlı yağlı boya tablosu, 1879**

**Qadınların "ağlı və imanı əskik" bənzətməsi xurafatçı dinə aid bir iftiradır. Allah, məsuliyyət baxımından kişi və qadına eyni şəkildə xitab edir. Bir çox ayədə eyni anda "mömin kişi və mömin qadınlara" xitab edilməsinin səbəblərindən biri də budur.**

## Qadının Əyri Olduğu İddiası

*"Qadın qabırğa sümüyü kimidir. Qadın qabırğa sümüyündən, əyri sümükdən yaradılıb. Onu düzəltməyə çalışsan, qırarsan. Qırılması da boşanmasıdır".* (Müslim, Rəda 64; Nəsai, Nikah 15; Əhməd bin Hənbəl, II 168)

Quranda insanın yaradılışı detallı şəkildə açıqlanır və belə təsvir olunur:

**Həqiqətən, Biz, insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Daha sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq tək xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!** (Muminun surəsi, 12-14)

Quranın heç bir yerində qadının qabırğa sümüyündən yaradıldığını və əyri olduğunu bildirən ifadə mövcud deyil. Xurafatçılarının dediklərinin



**Frederik Leytonun**
**"Light of the Harem" ("Hərəmin işığı")**
**adlı yağlı boya tablosu, 1880**

**Qurana görə, insanların yanlışları gözəl və nəzakətli bir dillə öyüd verilərək, yanlış və doğru göstərilərək, insanın vicdanına xitab edərək düzəldilir.**

əksinə olaraq, uca Rəbbimiz kişi və qadını ən gözəl surətdə yaratdığını bildirir:

**Sizin üçün yeri məskən, göyü də tavan edən, sizə surət verib surətlərinizi gözəl şəklə salan, sizə pak nemətlərdən ruzi verən Allahdır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır!**
(Mumin surəsi, 64)

Bəhs etdiyimiz saxta hədisdə işlənən *"düzəltməyə çalışsan, qırarsan"* ifadəsində qadının həm görünüş, həm də düşüncə yönü ilə əyri olduğuna və əsla düzəlməyəcəyinə işarə edilir. Quranda belə bir ifadə yoxdur. Bu ifadə xurafatçıların qadına nifrətini göstərir.

Qurandan isə öyrəndiyimiz bunlardır: qadın və ya kişi olmasından asılı olmayaraq, hər kəsin çatışmaz xüsusiyyətləri ola bilər. Qurana əsasən, həmin çatışmazlıqlar mülayim üslubla düzəldilir. Heç kimin başqa birinin düzəlməyəcəyini deyib onu kənara atmaq haqqı yoxdur. Bunu edib özünü üstün görənlər axirətdə həmin "düzəlməz" adamın yüksək məqamda olduğunu görə bilərlər. Kimin doğru yolda olduğunu yalnız Allah bilir.

Xurafatçıların batil inanclarına görə, guya qadınlar əvvəldən naqisdirlər və sonradan dəyişə bilməzlər. Buna görə də saxta hədislərin çoxunda qadınların arasında yaxşılarının az olduğuna və çoxunun cənnətə layiq olmadığına dair məlumatlar var.

## QADINLARI ALÇALTMAQ ÜÇÜN UYDURULAN HƏDİS VƏ BAŞQA İDDİALAR

*Qadınların arasında yaxşı qadın yüz dənə qarğa arasında alaqarğa kimidir.* (Səhih Buxari)

*Doxsan doqquz qadından biri cənnətdə, digərləri cəhənnəmdədir.*
(Səhih Buxari)

*Ey qadın topluluğu! Sədəqə verin və çox istiğfar edin. Çünki mən cəhənnəm xalqının çoxunun sizlər olduğunu gördüm.*
(Müslim, İman 34/132; İbni Macə, Fitən 19/4003)

Xurafatçılardan ibarət cəmiyyətlərdə qadının alçaldılmasının və ikinci dərəcəli insan kimi qəbul edilməsinin səbəbini saxta hədislər çox açıq şəkildə göstərir. Belə hədislərin uydurulmasından sonra bir çox İslam cəmiyyətləri qadınları evə qatmağa və onlara dəyər verməməyə başladılar. Qadınların ikinci dərəcəli varlıq kimi görülməsi cəmiyyətləri müdhiş mədəniyyətsizliyə, zövqsüzlüyə və boşluğa sürüklədi. Həmin xurafatçı zehniyyəti təmsil edənlər əsla inkişaf edə bilmədilər. Hal-hazırda Yaxın Şərqdəki ölkələrin çoxu bu qorxunc zehniyyətin səbəb olduğu keyfiyyətsizliyin mərkəzi halına gəlmişdir. Halbuki Qurandakı din son dərəcə gözəl, sadə və keyfiyyətlidir.

Xurafatçılar cənnətin gözəl süsü olan qadınlara dünyada da, axirətdə də Allahın çox dəyər verdiyini düşünə bilməyiblər. Ən əhəmiyyətlisi isə Qurana heç baxmayıblar. Məlum olduğu kimi, saxta hədislərdə işlənən ifadələrin heç biri Quranda yoxdur. Əxlaqı pozulan, pislik edən və harama girən insanları Allah Quranda ətraflı şəkildə təsvir etmişdir və bu təsvirlərin heç birində bu insanların xüsusilə qadınlar olduğuna dair açıqlama yoxdur.

Məsələn, Allah Quranda insanların böyük qisminin iman etməyəcəyini, iman etdiklərini deyənlərin çoxunun da şərik qoşduqlarını bildirmişdir:

**Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu** *(buna)* **inanmır.** (Rəd surəsi, 1)

**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.** (Yusuf surəsi, 106)

Başqa bir ayədə isə xəbər verilir ki, Allah insanlara öyüd almaq üçün lazımi imkanı versə də, insanların çoxu ibrət almayıb əxlaqsızlığa davam edirlər:

**Biz düşünüb ibrət alsınlar deyə** *(o suyu)* **onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədilər.** (Furqan surəsi, 50)

Göründüyü kimi, yuxarıdakı ayələrdə və Quranın digər ayələrində əxlaqsızlığa və yanlışlığa yol verən insanların çoxunun qadınlar olduğuna dair heç bir ifadə yoxdur. Heç bir ayədə əxlaqsızlıq edənlər cinsiyyətinə görə ayırd edilməmişdir. Eyni zamanda heç bir ayədə qadınların daha əxlaqsız olduğu və cənnətə daha az qadın girəcəyi barədə hər hansı bir məlumat yoxdur. Uydurulmuş hədislərdəki məlumatlar xüsusilə qadın düşmənliyini yaymaq üçün ortaya atılan saxtakarlıqlardan biridir. Quran ayələri həmin saxta hədisləri qəti şəkildə təkzib edir.

## Qadınların Dini Yaşamağa Əngəl Olduğu İddiası

*Qadınlar olmasa idi, Allaha haqqı ilə ibadət edilərdi.*

(Suyuti, Buxarı, İbn Ədiy, Əbu Xətim, İbn Cəvzi, Muhəmməd Nasuriddin, İbn Hibban hədisi saxta qəbul edirlər)
(Silsilətul-əhadisuz-zəif: 74, Tənzihuş-şəriə: 1/62, Əl-ləali: 2/59)

*Qadınlar olmasa idi, kişilər cənnətə girərdi.*

(İbni-Ərrak, əs-Səqafi hədisi qəbul etmirlər)(Camius-səqir: 2/113)

İlk növbədə təkrar qeyd edək ki, saxta hədislərdə verilən məlumatlar Quranda qətiyyən yoxdur.

Yuxarıda göstərdiyimiz saxta hədislərdəki deyilənlərə gəldikdə isə imanı

zəif və ya inancsız insanları din əxlaqını yaşamaqdan uzaq tutan qadınlar və ya dünyanın başqa bir neməti deyil. Onları dindən öz vicdanları, ağıl və iradə zəiflikləri uzaq tutur. Allah bu dünyanı imtahan olaraq yaratmışdır. İnsan həyatı boyu çətinlik, xəstəlik və ya hər hansı bir acizliklə imtahan olunduğu kimi, nemət və gözəlliklə də imtahan oluna bilər.

Qadın da bu dünyanın nemət və bəzəklərindən biridir. Neməti dəyərləndirmək ona sahib olan insanın əxlaqından asılıdır. Allah Quranda dünya nemətlərinin insanlar üçün imtahan olaraq yaradıldığını belə bildirir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır.** (Ali-İmran surəsi, 14)

Qadın kimi, övlad, qızıl, gümüş, ehtişamlı heyvanlar, əkin yerləri, yəni zənginlik də dünya nemətidir və insana bəzək olaraq göstərilmişdir. Lakin imanlı insan bütün bu nemətlərin əsl sahibinin Allah olduğunu bilir. Eyni zamanda dünyadakı hər nemətin keçici olduğunun və bütün nemətlərin ən gözəl şəklinin və daha çoxunun cənnətdə olacağının fərqindədir. Buna görə də bu nemətlərin heç biri onu Allahdan və Allah yolunda cəhd etməkdən uzaqlaşdıra bilməz. Əgər bir insan bu nemətlərin hər hansısa birindən dolayı qəflətə düşüb Allah rizasının ən çoxunu axtarmaqdan uzaq durursa, bu, onun iman zəifliyindən qaynaqlanır. Bunun səbəbkarı nemətlər deyil, onun özüdür. Odur ki, –özünü dəyişmədiyi təqdirdə– qarşılığını yenə də özü alacaq. Bu məsələdə başqasını günahlandırmaq axirətdə ona heç bir fayda verməz.

Bu saxta hədislərə əsaslanıb xətalarına və gördüyü pis işlərə görə qadınları günahlandıran kişi ancaq özünü aldadır. Qurana əsasən, iman etmək şərtlərdən asılı olmayaraq, Allah qarşısındakı vəzifəni tam yerinə yetirməkdir. Heç bir insan axirətdə Allaha qadınlar üzündən ibadət edə bilmədiyini deyə bilməyəcək. Ayədə bu həqiqət belə bildirilir: **Əslində, insan öz əleyhinə şahidlik edəcəkdir; üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da.** (Qiyamət surəsi, 14-15) Yəni insanlar nə qədər bəhanə gətirsələr də, doğru olanı mütləq görürlər. Həmin saxta hədislərdən yapışıb öz zəifliyi üzündən qadınları günahlandıranlar ikiüzlü olduqlarını çox gözəl bilirlər. Dünyada bunu görməzlikdən gəlmək heç bir şeyi dəyişdirməyəcək. Allahın hüzurunda **...hər kəsə qazandığının əvəzi ödəniləcəyi, özlərinə də heç bir haqsızlıq edilməyəcəyi zaman** *(onların halı)* **necə olacaq?** (Ali-İmran surəsi, 25)

## Qadınların Ağlına Güvənməmək İddiası

*Bir qadını özlərinə rəhbər seçən qövmün vəziyyəti qətiyyən yaxşı olmaz.* (İbn Hənbəl, Müsnəd 5/43, 50; Tirmizi, Fitən 75; Nəsai, Xudat 8; Buxari, Fitən 18)

*Qadınlara itaət peşmanlıqdır.* (Təzkirətul-məvzuat 128, Kitabul-məvzuat 2, 272)

*Qadınlarla müzakirə edib məsləhətləşin və dediklərinin əksini edin.* (Əl-məqasidul-həsənə 248; Təzkirətul-məvzuat 128; Tənzihus-şəriə 2-204; Silsilətul-əhadis 432)

*Qadınlarla məsləhətləşməyin, onlara müxalif olun. Qadınlara qarşı*

*müxalif olun, çünki onlara müxalifət bərəkətdir.* (Qadınlara dini bilgilər 44-45; Suyuti, Ləali II, 147; İbn Ərrak, Tənzihus-şəriə II, 210)

*Allah zövcəsinə itaət edəni üzü üstə cəhənnəmə atar.* (İbn Ərrak II, 215)

Göründüyü kimi, xurafatçılar qadınları əhəmiyyətli mövqelərdə görmək istəmirlər və bu da onların qadınları dəyərsiz gördüklərinin əsas dəlillərindən biridir. Buna görə də qadınların rəhbər olmasına əsla razı olmazlar, hətta onlarla məsləhətləşməyi belə qəbul etmirlər. Qadınların düşündükləri hər şeyin yanlış olduğunu, gördükləri hər işin xətalı olduğunu güman edirlər. Bu, qadınları cəmiyyətdən tamamilə təcrid etmək üçün qurulan oyunlardan biridir. Yuxarıdakı saxta hədislər həmin oyuna xidmət etmiş, nəticədə, bir çox ölkədə azğın fikirlərin hakim olduğu xurafatçı cəmiyyətlər meydana gəlmişdir. Halbuki bu məntiq Qurana və Peyğəmbərimizin əməllərinə tamamilə ziddir və İslamda qətiyyən belə bir şey yoxdur.

Məsələn, saxta xurafatçılar "Qadını özlərinə rəhbər seçən bir xalq əsla iflah olmaz" uydurmasını öz düşüncələrinə görə yaymağa çalışarkən, Allah Quranda dövlət idarəçisi olan bir qadını örnək verir: Səba Məlikəsi...

"Qadınlarla məsləhətləşməyin" deyən xurafatlara rəğmən, Səba Məlikəsi, iş mövzusunda bütün qərarları verən yeganə liderdir. Ayələrdə Səba Məlikəsinin liderlik vəsfi belə bildirilir:

**Çox keçmədən** *(hüdhüd)* **gəlib dedi: "Mən sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm.** (Nəml surəsi, 22-23)

Qövmünə hökm edən Səba məlikəsi Hz. Süleymana belə tanıdılmışdır. Hz. Süleyman Səba məlikəsinə İslama dəvət məktubu göndərəndən sonra o, qövmün irəli gələnləri ilə məsləhət etmişdir. Onlar Səba məlikəsinə belə cavab vermişdir:

**Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Buyuruq isə sənindir. Nə buyuracağını özün fikirləş!"** (Nəml surəsi, 33)

Göründüyü kimi, Qurandakı qadın dövlət başçısı, yəni hökmdar olur və iş məsələsində özü qərar alıb əmr verir. Xurafat dinindəki qadın ilə Qurandakı qadının xüsusiyyətləri tamamilə fərqlidir

**Qurandakı qadın, dövlətlərə başçılıq etməkdə, hökmdar olmaqda və iş mövzusunda qərar verib əmrini yerinə yetizdirməkdədir. Mövhümatçıların dinindəki qadın ilə Qurandakı qadının vəsfi tamamilə bir-birinə ziddir.**

**və Quran oxuyum!" Kim doğru yolda olsa, yalnız özü üçün doğru yolda olmuş olar.** *(Haqq yoldan)* **azana isə** *(belə)* **de: "Mən ancaq xəbərdar edənlərdənəm!"** (Nəml surəsi, 92)

Xurafatçılar sözügedən saxta hədislərdə qadınları təhqir etməklə, əslində, Hz. Məryəmi, Quranda bəhs edilən mömin qadınları, Peyğəmbərimizin zövcələrini və s. hədəf aldıqlarını düşünmürlər. Qadını bu qədər alçaldan qəribə zehniyyətin bütün qadınlara qarşı çıxdığını unutmaq

olmaz. Xurafatçıların Qurandan nə qədər uzaq olduqlarını Peyğəmbərimizin dövrünə nəzər salmaqla açıq şəkildə görə bilərik:

Məsələn, Peyğəmbərimizin zövcəsi Hz. Xədicə Məkkənin ən imkanlı tacirlərindən biri idi. Şama ticarət karvanları göndərirdi. Buna görə yanında bir çox işçisi vardı. Mədinə dövründə də qadınlar dəri, ip, dərman istehsalında, toxuculuq və dərzilikdə, həmçinin ətir satışında alış-veriş işləri görür, bütün sahələrdə aktiv davranırdılar. Müharibələrdə qadın səhabələr kişilərlə birlikdə savaşa qatılır, lazım gəldikdə ön cəbhəyə belə keçirdilər.

*Bir gün Reyta binti Abdullah Peyğəmbərimizə: "Ya Rəsulullah, mən sənətkaram, ərimin (Abdulla bin Məsud) və uşağımın heç nəyi yoxdur. Sənətimlə düzəltdiyim məhsulları satıram", –deyir və ailəsi üçün xərclədiyi şeylərin savabının olub-olmadığını soruşur. Peyğəmbərimiz ona: "Onlar üçün xərclədiyin şeylərdə, əlbəttə, sənə savab vardır", –deyə cavab verir.*

(İbn Sad, ət-Təbəqat, VIII, 290; Nuaym, Hilyə, II, 69; İbnül-Əsir, Üsdul-Qabə, VII, 121)

Göründüyü kimi, Peyğəmbərimizin dövründə qadınlar ailələrini dolandırırdılar və ailə daxilində söz sahibi idilər. Peyğəmbərimiz də onların bu çalışqanlıqlarını tərifləyirdi.

Peyğəmbərimizin dövründə Əşləm qəbiləsindən Queybə binti Sadın xəstə və yaralıları müalicə etdiyi barədə məlumat vardır. Yəni qadınlar o dövrdə həkimlik edirdilər. Belə ki, Həbəşistana hicrət edən, zəkalı və təcrübəli bir qadın olan Əsma binti Ümeysin də yaxşı həkim olduğu məlumdur. Ümmü Sələmə, Əsma binti Ümeysin Peyğəmbərimizə Hindistan və Yəməndən gətirilən bitkilərlə və zeytun yağı ilə dərman hazırladığını deyir. Bir rəvayətdə Əsmanın bu dərmanı düzəltməyi Həbəşistanda öyrəndiyi deyilir. (İbn Sad II, 236)

Peyğəmbərimizin dövründə Mədinədə ətir ticarəti ilə məşğul olan qadınlardan bəzilərinin adları çəkilir. Bunlardan biri Müleykə Ümmus-Səib əl-Səqafiyyə ətir satmaq üçün Peyğəmbərimizin yanına gəlirdi. Yəni o dövrün qadınları satış işi ilə də məşğul olurdular.

Başqa müsəlmanlarla birlikdə savaşa qatılan qadın səhabələrdən ən mükəmməl bəhs edən rəvayətlərdən birində belə deyilir:

*"Möminlərin qəflətindən sui-istifadə edən müşriklər savaş meydanına elə girdilər ki, Rəsulun ətrafında onu qoruyan 10-12 nəfərlik qrup da savaşa girməyə məcbur oldu. Bir anda tək qalan Peyğəmbərimizin yanında təkcə Hz. Nəsibə var idi. Bu durum 40-50 saniyə davam etdi. Müşriklərdən biri fürsət bilib Peyğəmbərimizə hücum çəksə də, Nəsibə onu qılıncla vurub öldürdü. Ardınca ikinci müşrik də Rəsulullaha hücum çəkdi. İkiqat zireh geyinmişdi əyninə. Nə qədər vursa da, öldürə bilmirdi. Öz çiynindən belinə qədər ağır qılınc zərbəsi aldı. O əsnada möminlər yetişib kafiri zərərsizləşdirdilər. Bu bir neçə saniyə o qədər vacib idi ki!.. Ühüd döyüşündə Nəsibə on bir yara almışdı. Buna baxmayaraq, sona qədər savaşdı.*

Göründüyü kimi, saxta hədislərin əksinə olaraq, Peyğəmbərimizin dövründə qadınlar savaş meydanına belə çıxırdılar. Savaşda Peyğəmbərimizin mühafizəsində qadın səhabələr də yer tuturdular. Belə təhlükəli vəziyyətlərdə Peyğəmbərimizin qadınların onu qorumasına izin

verməsi qadın səhabələrə nə qədər güvəndiyini göstərir.

Quranda **Ey iman gətirənlər!** *(Peyğəmbərə:)* **“Bizə qayğı göstər!”– deməyin; “Bizə nəzər yetir!”– deyin...** (Bəqərə surəsi, 104) ayəsində təkcə iman edən kişilərə deyil, eyni zamanda qadınlara da xitab edilir. Ayədə qadınlara da nəsihət edilir ki, **"bizə qayğı göstər"** deməsinlər. Deməli, Quranda qadına qayğı göstərilən, ağlı az olduğu üçün kişi tərəfindən idarə olunan varlıq kimi baxılmır. Bunun əksinə olaraq, ağıllı, güclü, etibar edilən, zəkalı varlıq kimi baxılır. Lakin əsrlər boyu saxta hədislərə inandırılan bəzi İslam ölkələrində bu anlayışdan xəbərsiz olan insanların sayı çoxdur. Buna görə də Quranda qadının kişilərlə eyni hüquqlara malik olduğunu deyəndə buna şiddətlə qarşı çıxan kişilər bilib-bilmədən Allahın ayələrinə qarşı çıxmış olurlar.



**Quranda qadın, şəxsiyyətli, güclü, ağıllı, vicdanına tam güvənilən zəkalı bir varlıq olaraq tərif edilməkdədir.**

## Qadınların İkinci Dərəcəli Olduqları və Allahın Onları Geridə Qoyduğu İftirası

*Qadınları Allah geridə qoyduğu kimi, siz də geridə qoyun.* (Təbərani)

*Əgər bir adamın başqasına səcdə etməyini əmr etsə idim, kişilərin qadınlar üzərindəki haqlarından dolayı, qadınların kişilərə səcdə etmələrini əmr edərdim.* (Səhihi-Buxari)

Xurafatçı zehniyyətin əsrlər boyu davam edən qadın düşmənliyi böyük bir kütlənin Allaha və Peyğəmbərimizə iftira atmasına şərait yaratmışdır. Saxta hədislərdə Quranda bildirildiyi kimi, qadınlarla kişilərin eyni hüquqlara malik olduğuna, üstünlüyün ancaq ağıl, vicdan və Allah qorxusundan qaynaqlandığına dair heç bir məlumat yoxdur. Saxta hədislərdə Quranda qadın haqlarının qorunduğuna dair ayələrin mövcudluğundan da bəhs edilmir.

Bu hökm və izahlardan xüsusi şəkildə yan keçib qadınların Quranda tərifləndiyinə dair heç bir açıqlama verilməmişdir. Bu minvalla, əsrlər boyu müsəlmanları İslam dini adı altında batil inanclarla aldadıb Peyğəmbərimizə və dinimizə iftira atıblar. Halbuki qadınların Allah tərəfindən geridə qoyulduğu anlayışı Quranın bir ayəsində belə yoxdur. Əksinə, Quranda qadın



-kişi fərqi olmadan "möminlər", "iman edənlər", "qadın və ya kişi olsun" kimi xitablardan istifadə olunur və hər ikisinin eyni məsuliyyəti daşıdığı qeyd olunur. Məsələn, Allah bir ayədə belə buyurur:

**Möminlərdən – üzürlülər istisna olmaqla –** *(evdə)* **oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri** *(evdə)* **oturanlardan dərəcə etibarilə üstün etdi. Allah** *(onların)* **hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri** *(evdə)* **oturanlardan böyük bir mükafatla üstün etmişdir.** (Nisa surəsi, 95)

Göründüyü kimi, ayədə müsəlmanların həyatı boyu Allah yolunda fikri mübarizə aparmaqla məsuliyyət daşıdıqları ifadə edilir. Özü də bu məsuliyyət kişilərə də, qadınlara da bərabər verilmişdir. Allah "möminlər" xitabı ilə həm qadın, həm də kişi müsəlmanlara bu ibadəti yerinə yetirmək vəzifəsi vermişdir. Əgər müsəlman bir qadın müsəlman kişilərə nisbətdə bu vəzifənin öhdəsindən layiqincə gələrsə, o, Allah qatında kişilərdən daha üstün mövqedə olar. Əgər müsəlman kişi layiqincə gələrsə, bu dəfə o Allah qatında digərlərinə görə daha üstün duruma gələr. Göründüyü kimi, burada heç bir cinsi ayrı-seçkilik yoxdur. Əksinə, vicdan, ağıl və səmimiyyət əsas alınır.

Beləliklə, qadın mövzusundakı saxta hədislər digərləri kimi Quran hökmləri ilə və Quranda qadına verilən dəyərlə tamamilə ziddiyyət təşkil edir. Birincisi, müsəlmanlar Allahdan başqa heç kimə səcdə etməzlər. Müsəlman yalnız Allaha boyun əyər və yalnız Allahın və Elçisinin əmrinə tabe olar.

Müsəlman bir qadın həyat yoldaşını Allah rizası üçün sevir və müsəlmanlığı nisbətində ona hörmət və mərhəmət göstərir. Yoxsa xurafatçıların yanlış düşüncəsində olduğu kimi, ərinə sırf kişi olduğu üçün kor-koranə hörmət bəsləmir. Çünki müsəlman qadın və kişi üçün evlilik eyni zamanda axirət üçün atılan addımdır. Müsəlman qadın ancaq axirətdə Allahın razı olacağını umduğu insana sevgi və şəfqət göstərə bilər.

Əksinə olduqda isə o sevgi və hörməti əsla hiss etməz. Belə bir şeyi təxəyyül etmək, yaxud bənzətmə olaraq cümlədə istifadə etmək müsəlmanlar üçün uyğun deyil.

## Qadınların Bəzənməyini Qadağan Edən İddialar



*Döymədən istifadə edənə və etdirənə, üzündəki tükləri aldıran və dişlərini estetik əməliyyat etdirən qadınlara Allah lənət etsin.* (Səhihi-Buxari)

*Parik saç taxan, taxdıran, qaşlarını alan və aldıran, döymə vuran və vurduran lənətlənmişdir.* (Əbu Davud, Tərəccül, 5)

Xurafatçı zehniyyətin müsəlman qadınları çirkin və baxımsız kimi göstərməyə çalışmasının əsas səbəbi bu cür saxta hədislərdir. Bütün dünyada müsəlman qadınların ümumi mənada təmizlik və gözəllikdən uzaq baxımsız varlıq kimi tanınmasına xurafatçıların yanlış düşüncələri səbəb olmuşdur.

Yuxarıdakı saxta hədislərin formalaşdırdığı müsəlman qadın görüntüsü qadının sosial həyatda fəallığını imkansız hala gətirir. Belə bir modeldə bir qadın əgər müsəlmandırsa, gözəl, təmiz və baxımlı ola bilməz və bu, qətiyyən qəbul edilməz. Beləliklə, bu modeli təqva əlaməti kimi göstərən xurafatçı zehniyyət qadını xarici görünüşündən dolayı həm cəmiyyətin içinə çıxmasına mane olmuş, həm də eyni səbəblərə görə dindən bəhs etməyə izin verməmişdir.

Bir az düşünün: özünə baxmayan, təmizliyə əhəmiyyət verməyən, üzündəki tükləri belə almayan müsəlman qadın modelini yaşamağa kim razı olar? Yaxud da kim razı olar ki, ona belə bir qadın dindən danışsın? Dinin gözəlliyi, baxımlı və cazibədar olmağı qadağan etdiyinə inanan, əksinə olduqda isə Allahın lənətinə düçar olacağını düşünən bir qadın belə bir dinə necə yanaşa bilər?

Belə ki, xüsusilə qərb cəmiyyətlərində İslamın uzaq durulmalı qaranlıq din kimi qəbul edilməsinin əsas səbəblərindən biri budur. Xurafatçılar bəzi müsəlman qadınları Quranda qəti olmayan, tamamilə uydurma modelə həbs ediblər. Beləcə, gerçək İslamı yaşayıb təbliğ etməklərinə əngəl olublar. Halbuki müsəlman qadın Qurandakı gözəl əxlaqı, sülhü və sevgini sözlə anlatmalı olduğu kimi, bunu hal və hərəkətlə də göstərməlidir. İslamın gözəllik dini olduğundan bəhs edərkən gözəl görünməli, müsəlmanlığın sevgi olduğundan danışarkən sevgini həqiqətən yaşamalıdır. Beləliklə, həqiqətən, dinin gözəlliklərini anlamağa ehtiyacı olan adam bu dinin insana

bütün gözəllikləri bəxş edəcəyini bilməli, öz gözləri ilə bunu görməlidir. Onsuz da Qurandakı təsvir bu şəkildədir. Quranda müsəlmanların geyiminin təmiz olduğundan, bir yerə yığışanda gözəl şəkildə geyinib zinətlərdən istifadə etdiklərindən bəhs edilir:



**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik...** (Əraf surəsi, 26)

**Ey Adəm oğulları! Məscidlərə** *(gedəndə)* **zinətlərinizi taxın...** (Əraf surəsi, 31)

Bundan başqa, Quranda cənnət əhalisinin, xüsusilə cənnət qadınlarının təmizliyi, baxımlı olması və gözəlliyi ayələrdə ətraflı olaraq izah olunur:

**Özü də qorunub saxlanılmış yumurta kimi** *(hurilər)*. (Saffat surəsi, 49)

**...Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər...** (Kəhf surəsi, 31)

**... Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır.** (Həcc surəsi, 23)

**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların** *(qoluna)* **gümüş bilərziklər bağlanacaq...** (İnsan surəsi, 21)

Yuxarıdakı ayələrdən başa düşüldüyü kimi, Allah "saxlanılmış yumurta kimi" ifadəsi ilə qadının təmiz və tüksüz cildinə diqqət çəkmiş, cənnət qadınlarının belə olacaqlarını buyurmuşdur. Deməli, Allah təmiz cildi gözəl görür. Allah gözəlliyi, bəzəyi və gözəl geyimi sevir və qullarını da belə görmək istəyir. Allahın gözəl gördüyü şeyləri Peyğəmbərimizin də gözəl görüb müsəlman qadınları bu istiqamətdə təşviq etdiyi qətiyyən şübhə doğurmaz.



Estetik görünüşdən başqa, qadınlar zərurətdən dolayı da bir çox üsullardan istifadə edə bilərlər. Məsələn, bəzən kimyaterapiya kimi ağır müalicədən sonra parik qoya bilərlər. Bu, çox normal, hətta lazımlıdır. Lakin xurafatçılar bu asanlıq və gözəlliyi sözügedən saxta hədislərlə aradan götürməyə çalışırlar.

Eyni şəkildə, Quranın heç bir ayəsində tatudan istifadə etmək, döymə qaş və üzdəki tüklərin təmizlənməsi qadağan olunmur. Belə bir qadağa Qurana onsuz da uyğun gəlmir. Gözəl və gənc bir qızı üzündəki tüklərlə çölə çıxmağa məcbur edən, onu insanların arasında utandıran və çirkinləşdirən xurafatçılar bu səbəbdən dolayı gözəlliyi təmsil edə bilmirlər. Halbuki Allah ayələrdə inananların baxımlı, gözəl və təmiz olmasına diqqət çəkib müsəlmanları bu yöndə təşviq edir.



**Müsəlmanların hər zaman baxımlı, gözəl, qəşəng və təmiz olmaları ayələrdə xüsusilə vurğulanan mövzulardandır.**

## Xurafatçılara Görə, Müsəlman Qadınların Ərlərinə Olan Münasibətləri

*Kişi qadınını yatağa dəvət etdikdə, o gəlmədiyinə görə gecəni əsəbi halda keçirərsə, mələklər o qadına səhərə kimi lənət edər.* (Səhihi-Buxari, 9/36)

*Bir qadın ərinin yatağını (haqlı səbəb olmadan) tərk edib (başqa yerdə) yatarsa, mələklər səhərə qədər ona lənət edər.* (Nəhcül-Fəsahə, səh.36, hədis: 187)

*Ey qadınlar! Əgər ərlərinizin sizə olan haqlarını bilsə idiniz, ayaqlarının tozunu üzünüzlə silərdiniz.* (Hafiz Zəhəbi, Böyük günahlar, səh.187)

*Ərin vücudu irinlə dolu olsa və zövcəsi onu yalayaraq təmizləsə, yenə də ərinin haqqını ödəmiş olmaz.* (İbni Həcər əl-Hiytəmi 2/121, Əhməd bin Hənbəl, Müsnəd, V, 239)

*Bir qadın ərindən boşanarsa, o qadına cənnət qoxusu haram olar.*
(Qadınlar üçün dini məlumatlar, səh.61)

*Bir qadın dili ilə ərinə əziyyət verərsə, onu özündən razı edənədək Allah onun heç bir tövbəsini, kəffarəsini və yaxşı əməlini qəbul etməz, hətta gündüzlər oruc tutub, gecələr ibadətlə məşğul olsa belə.*
(Biharul-ənvar, cild 103, səh. 244)

*Bir qadın ərinin haqqını ödəmədiyi müddət boyu Allahın da haqqını ödəmiş olmaz.* (Məkarimul-əxlaq, səh. 247)

*İmam Musa Kazıma ərini hirsləndirən qadından danışdılar. O da belə buyurdu: "Əri ondan razı olana qədər günahkar sayılır".*
(Qisarul-Cuməl, cild 2, səh. 258)



**Con Uilyam Qodvardın "A Souvenir" ("Suvenir") adlı yağlı boya tablosu, 1920**

**Xurafatçı zehniyyətə görə qadınlar; Onlara olan davranış və əxlaqlarından razı olmasalar da ərlərinə qarşı "qadınlıq görəvi" deyilən cahil məntiqi yerinə yetirməyə məcbur tutulmuşlar.**

Bu hədisləri ayrı-ayrı araşdıraq:

*Ey qadınlar! Əgər ərlərinizin sizə olan haqlarını bilsə idiniz, ayaqlarının tozunu üzünüzlə silərdiniz.* (Hafiz Zəhəbi, Böyük günahlar, səh.187)

*Ərin vücudu irinlə dolu olsa və zövcəsi onu yalayaraq təmizləsə, yenə də ərinin haqqını ödəmiş olmaz.* (İbni Həcər əl-Hiytəmi 2/121, Əhməd bin Hənbəl, Müsnəd, V, 239)

Yuxarıdakı bu iki saxta hədisdə –uca Allahı, Quranı və İslam dinini

tənzih edirik– dinimizin qadını guya ikinci dərəcəli və ərinin boyunduruğu altında yaşayan varlıq kimi gördüyü vurğulanır. Bu şeytani məntiqə əsasən, ərinin qadın üzərində haqqı o qədərdir ki, qadın ərinin ayaqlarının tozunu üzünə çəkib irinli dərisini yalasa da, borcunu ödəyə bilməz. Bu qəribə məntiqə baxmayaraq, heç kim kişinin xanımı üzərində niyə bu qədər böyük haqq sahibi olduğunu əsrlər boyu araşdırmamış, bu batil inancın kor-koranə kök salmasına vəsilə olmuşdur. Belə ki, bir çox müsəlman bu yanlış məntiqi normal qəbul etmişdir.

Bu axmaq zehniyyətin hakim olduğu cəmiyyətlərdə qadınlar onlara qarşı hərəkət və davranışlardan razı olmasalar da, ərlərinə qarşı "qadınlıq vəzifəsi" deyilən cəhalət dolu bir məntiqi yerinə yetirməyə məcbur ediliblər. Bunu yerinə yetirməyənlərlə pis davranıb olan-qalan haqlarını da əllərindən alıblar. Bu minvalla qadınları gücsüz və əzilməyə məhkum varlıq kimi qələmə verib, bu zehniyyəti bütün İslam cəmiyyətlərinə köklü şəkildə hakim ediblər.



**Con Uilyam Qodvardın "A Tryst" ("Bir Sınaq") adlı yağlı boyası, 1912**

Yüz illər boyu bir adam çıxıb Quranda belə bir anlayışın olmadığını, qadın və kişinin bərabər hüquqa malik olduğunu və Allahın qadınlara istənilən azadlığı verdiyini deyə bilməmişdir. Bunun əksinə olaraq xurafatçı düşüncə "din belə əmr edir, bunu etməyənə Allah və mələkləri lənət edər, Allahın rizasını qazanıb cənnətə girə bilməz" kimi yalanlarla bəzi cahil müsəlmanları Qurana uyğun gəlməyən hərəkətlərə yönəldiblər. Müsəlman qadınların çoxunun şəxsiyyəti xurafat təlimi almış ərləri tərəfindən yox edilmişdir. Çünki xurafatçıların dinində qadın ərinin istəklərini mütləq yerinə yetirməlidir. Qadınların böyük qisminin oxumağına, işləməyinə, sosial həyatda iştirakına, hətta pəncərədən belə baxmağına icazə verilmir. Beləliklə, maddi və mənəvi baxımdan ərlərinə bağlı hala gətirildiklərinə görə (eyni zamanda cəmiyyətin adət-ənənələri də xurafata təsir etdiyinə görə) qadınlar bu təzyiqdən demək olar ki, xilas ola bilməmişdir.

Burada belə bir sual ortaya çıxır: xurafatçı cəmiyyətlərdə kişi hansı xüsusiyyətinə görə bu qədər üstündür ki, qadın onun haqqını heç ödəyə

bilmir? Qurana görə, üstünlük yalnız təqvaya görədir və bunun qarşılığını ancaq Allah verir. Bir kişi qadın üzərində hansı haqqa sahibdir ki, qadın onun üzərindəki murdar irini yalasa belə, o haqqı ödəyə bilməz? Onu bu qədər haqqı ödənilməz edən nədir və ya kimdir? Ona bu üstünlüyü təqvasından başqa nə verə bilər? Allah ona belə bir özəllik verməyib, yəni Quranda belə bir şey yoxdur. Bu halda, bu haqq üstünlüyünü haradan əldə edib? Dindar və ya dinsiz, müşrik və ya münafiq, günahkar, yaxud da zalım olmasına baxmayaraq, istisnasız bütün ərlər nəyə əsasən bu mərtəbəyə çatıblar?

Onları belə bir saxta dərəcəyə yüksəldən xurafatın İslama əlavə etdiyi saxta hədislərdir. Xurafatçılar Quranda olmayan, Allahın lənət etdiyi bu düşüncəni din adından uydurub cəmiyyətlərə hakim ediblər. Hal-hazırda İslam cəmiyyətlərinin böyük qismi, hətta bu cəmiyyətlərin eyni təlqinlə böyümüş zərif nümayəndələri belə bundan fərqli düşüncə tərzi tanımırlar. Xurafatın dünyaya gətirdiyi ən böyük bəlalardan biri də budur.

## Quranda Qadına Verilən Haqq və Üstünlüklər Xurafat Dinində Yoxdur

Quranda qadınlara verilən haqlar xurafatçı cəmiyyətlərdə qətiyyən yoxdur. Hətta belə cəmiyyətlərdə yaşayan qadınların bu haqq və azadlıqların mövcudluğundan belə xəbərləri yoxdur. Onlar Quran əxlaqından tamamilə uzaq şəkildə tərbiyə edilirlər. Bunun nəticəsində də bir çoxu yazıb-oxumağı bacarmır. Bundan dolayı, xurafat dinində yaşadıqlarının fərqində belə deyillər. Təkcə bu zavallı qadınlar deyil, dünya ölkələri də əsrlər boyu davam edən xurafatın qaynağının Quran olduğunu zənn edir. Quranın (haşa) qadını dəyərsiz görən, onları ərinin köləsi olduğunu deyən və bütün haqlarını əlindən alan dindən bəhs etdiyini güman edirlər. Halbuki bu iftiraların heç biri Quranda yoxdur.

İslam dininin bir hissəsi kimi qəbul edilən, lakin Quranda olmayan iftiralara saxta hədislərdən misal gətirməklə cavab verməyə davam edək:

### Ərindən Boşanan Qadının Vəziyyəti

*Bir qadın ərindən boşanarsa, cənnət qoxusu ona haram olar.*

(Qadınlar üçün dini məlumatlar, səh.61)

İlk öncə, cütlərin bir-birilərindən boşanması və boşanmanın bütün şərtləri Quranda açıq şəkildə izah olunur. Allah boşanmağı hər iki tərəfə haqq olaraq tanımışdır. Halbuki yuxarıdakı hədisdə boşanan qadının cənnətə girə bilməyəcəyinə dair konkret açıqlama verilir. Belə ki, bu açıqlama hədisin tamamilə uydurma olduğunu göstərir. Peyğəmbərimiz qətiyyən Allahın halal buyurduğu bir şeyi haram etməz və Allahın hökmünə zidd olan hökm çıxarmaz. Odur ki, Allah Quranda qadına boşanmaq hüququ tanımışdır. Boşanmadan əvvəl və sonra qadının maddi-mənəvi qorunmasından bəhs edən ayələrdə boşanmanın şərtləri bildirilir. Buna görə də saxta hədisdə boşanmaq istəyən qadın üçün deyilən "qadına cənnət qoxusu haram olar" ifadəsi tamamilə yalan və iftiradır. Bu söz İslam dini ilə heç bir əlaqəsi olmayan şeytani məntiqin məhsuludur.



Frederik Leightonun "Wedded" ("Nikah") adlı yağlı boya tablosu, 1882

Bunu qeyd etmək çox əhəmiyyətlidir ki, İslam dini insanın fitrətinə və ruhuna tam xitab edən İlahi hökmlərdən ibarətdir. Allahın Qurandakı hökmləri insanları çətinliklərdən qurtarır və onlara azad iradə və ağıl qazandırır. Allahın hökmləri qadın və kişiləri çətinliyə salmaz. Əksinə, insanların arasındakı anlaşılmazlıq və ədalətsizliyi ortadan qaldırmaqla onlara rahatlıq verər. Tərəflər arasında düşmənlik və nifrət deyil, dostluq və sevgi bağı qurar. Bütün bunlarla yanaşı, Allaha qarşı itaətkar, gözəl əxlaqlı və dərin imanlı insan modeli yaradar.

Halbuki saxta hədislərdə bəhs edilən evlilik modeli Quran əxlaqından tamamilə uzaq anlayışı əks etdirir. Qurana əsasən, evli cütlüklər arasında heç bir zaman məcbur etmə və təzyiq ola bilməz. Əgər hər hansı bir uyğunsuzluq və anlaşılmazlıq varsa, bu, yenə Quran hökmləri əsasında həll olunur. Hər şeydən əvvəl, evlilikdə hər iki tərəf mömin olaraq Qurandakı əxlaqı tam mənimsəməli, mümkün qədər aranı düzəltməyə çalışmalıdırlar. Amma buna baxmayaraq, anlaşılmazlıq davam edirsə, boşanmaq iki tərəfin də haqqıdır.

Ayrılanda hər iki tərəfin Allahın qoruması altında olacaqları ayədə belə bildirilir:

**Əgər** *(ər-arvad)* **ayrılsalar, Allah hər birini Öz lütfündən zəngin edər. Allah** *(hərşeyi)* **Əhatəedəndir, Müdrikdir.** (Nisa surəsi, 130)

Göründüyü kimi, Quranda qadın və kişi boşanmağa özləri qərar verir, daha sonra azad şəkildə yaşamağa davam edirlər. Quranda qadının boşandığı təqdirdə cənnətə girə bilməyəcəyi barədə heç bir məlumat yoxdur.

## Qadının Əri Ondan Razı Olana Qədər Günahkar Sayılması

*İmam Museyi-Kazıma ərini hirsləndirən qadından danışdılar. O da belə buyurdu: "Əri ondan razı olana qədər günahkar sayılır".*

(Qisarul-cuməl, cild 2, səh.258)

*Rəsulullah belə buyurub: "Bir qadın ərinin haqqını ödəmədiyi müddət boyu, Allahın da haqqını ödəmiş olmaz".* (Məkarimul-əxlaq, səh.247)

*Bir qadın ərinə dili ilə əziyyət verərsə, onu özündən razı edənə qədər Allah onun heç bir tövbəsini, kəffarəsini və yaxşı əməlini qəbul etməz. Hətta gündüzlər oruc tutub, gecələri ibadətlə keçirsə belə.* (Biharul-ənvar, cild 103, səh.244)

Yuxarıda verilən ərini razı etməməsi və ya haqqını ödəməməsi kimi şeylər Quran ayələrinə tamamilə ziddir. Müsəlman qadın ərinə qarşı Quran əxlaqına uyğun olmayan formada davranırsa, ərinin deyil, Allahın rizasını itirir. Bir müsəlman üçün Allahın rizasını qazanmaq əsasdır. Buna görə də ərinin razı olması deyil, Allahın razılığı əhəmiyyətlidir. Bu səbəbdən də, Qurana əsasən, müsəlman qadın səhvini düzəldib Allahın razılığını qazandıqdan sonra nə ərinin, nə də başqa insanların ondan razı olub-olmaması əhəmiyyətli deyil. Onsuz da əri mömindirsə, Allahı razı edən nəticədən o da razı qalar.

Göründüyü kimi, saxta hədislərin ümumi məntiqi Allahı və Quran hökmlərini əsas almayan və tamamilə şirkin üzərinə qurulan cahiliyyə evliliklərini xatırladır. Halbuki Qurana əsasən, evlilikdə qadın və kişinin hər ikisi Allahdan qorxan üstün əxlaqlı şəxslər olmalıdır. Qurandakı evlilik buna əsaslanır. Evli olduqları müddət boyu bir-birilərinə qarşı hörmət, mərhəmət, sədaqət və vəfa hissləri daha da güclənir.

Allah Quranda evliliyin sevgi, mərhəmət və mülayimliyə əsaslandığını belə buyurur:

**Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.** (Rum surəsi, 21)

Beləliklə, yuxarıdakı saxta hədislərdə haqqında bəhs edilən dava-dalaşın və anlaşılmazlığın baş alıb getdiyi evlilik modeli ilə Qurandakı evlilik modeli arasında böyük fərqlər var. Bunu unutmaq olmaz ki, İslam dinində yaxşılıq insanlardan qarşılıq görmək üçün deyil, Allah rizası üçün edilir. Müsəlman gördüyü xeyirli işlərin qarşılığını ancaq Allahdan umar. Ayədə Allah bu barədə belə buyurur:

**Əvəzi veriləcək nemət üçün onun heç kəsə minnəti olmaz.** *(O bunu)* **ancaq Ən Uca Rəbbinin Üzünü dilədiyindən** *(edər)*. **O, mütləq razı qalacaqdır!** (Leyl surəsi, 19-21)

Belə ki, Qurana görə, qadın yalnız Allahın razılığını qazanıb Ona şükür etməlidir. Onun tək sahibi uca Rəbbimizdir, əri deyil. Buna görə də qadının ərinin haqqını ödəmədiyi üçün iyrənc hərəkətlərə yol verməli olduğunu deyən bu məntiq Qurana tamamilə müxalifdir.

## Qadınların Çölə Çıxmamaları və Şeytanın Oyununa Açıq Olduqları İddiası

*Rəsuli-Əkrəmdən belə rəvayət edilir ki, qadın zərər görməyə açıq varlıqdır; şeytan onun başının üstünü kəsər. (Buna görə də çölə çıxmamalı, yaxud da çıxanda diqqətli olmalıdır).* (Mizanul-hikmə, cild 2, səh.259)

Qadın cəmiyyətin dayağı, süsü və gözəlliyidir. Qadının varlığı, cəmiyyətdə söz və fikir sahibi olması böyük nemətdir. Buna görə də Allahın ağıllı yaratdığı qadın hər şeyi təfərrüatlı şəkildə görə bilir, mükəmməl qərarlar verir və hər cür tədbiri öncədən almağı bacarır. Belə ki, İslam dinində qadına verilən dəyər çox yüksəkdir. Bu, tam başa düşüləndə İslam dini dünyada haqqı ilə anlaşılacaq.

Bütün bu səbəblərdən dolayı İslam düşmənləri əsrlər əvvəl xüsusilə qadın mövzusu üzərindən dinimizdə təxribat törətməyə çalışıblar. Bunun üçün istər uydurma hədis və batil inanclardan, istərsə də cəmiyyətin (Qurana tamamilə zidd) adət-ənənələrindən qalxan kimi istifadə ediblər. İslamda qadının hər cür günaha açıq, dəyər verilməyən və ikinci dərəcəli varlıq kimi tanınmasına çalışıblar.

Məsələn, yuxarıda verilən hədisdə qadının iradəsinin zəifliyindən, həmçinin əxlaqsızlığa və şeytanın vəsvəsəsinə açıq olduğundan bəhs edilir. Eyni zamanda kişilərə tövsiyə edilir ki, qadından göz-qulaq olub əxlaqsızlıq etmə ehtimalının çox olduğuna görə onu mümkün qədər çölə çıxmağa qoymasınlar.

Halbuki açıq-aydındır ki, bu sözləri Peyğəmbərimiz deməyib. Qadınlarla məsləhətləşən, savaşlarda onlara qoruma vəzifəsi verən, məclislərdə geniş yer ayıran, vaxtının çox hissəsini onlarla söhbət edərək keçirən, qadınlara dərin hörmət bəsləyən Peyğəmbərimizin adından yalan uyduranlar qadın düşməni olan xurafatçılardır.

Peyğəmbərimizin dövründə daha əvvəl də ətraflı bəhs etdiyimiz kimi, qadınlar müharibələrə və hər cür ictimai mühitə qatılır, ticarətlə məşğul olur və dini təbliğ edirdilər. Quran ayələrində qadının evdən çölə çıxarılmayacaq qədər təhlükəli və zəif varlıq olduğunu ifadə edən bir işarə belə yoxdur. Əksinə, Quranda xurafatçıların qadınlar haqqındakı anormal düşüncələrindən və onların Peyğəmbərimizin dövründə də şeytani fəaliyyətlər apardığından bəhs olunur:

**Onlardan birinə, Mərhəmətli** *(Allaha)* **aid etdikləri** *(qız uşağı)* **ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar.** (Zuxruf surəsi, 17)

**Diri-diri** *(torpağa)* **basdırılmış qız** *(uşağı)* **soruşulacağı zaman – hansı günaha görə öldürülmüşdür.** (Təkvir surəsi, 8-9)

**Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir.** *(Bilmir nə etsin,)* **körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir!**
(Nəhl surəsi, 58-59)

Həmin ayələr xurafatçıların qadına müdhiş baxışını təsvir edir və Allahın bu zehniyyətə nə qədər lənət etdiyini bizə göstərir. Uşağı qız olacaq deyə qəzəbdən üzü qaralan, qadına bu qədər nifrət edən və daha da irəli gedib onu diri-diri torpağa basdıran zehniyyət tarixdə mövcud olub. Onların hamısı yuxarıdakı "Təkvir" surəsinin 8 və 9-cu ayələrində bildirildiyi kimi, axirətdə

etdiklərinin hesabını verəcəklər. Qadına düşmənlik hissi Allah qatında qəzəbə səbəb olur.




**QURANDA QADINLARA ZÜLÜM YOXDUR. BU DƏHŞƏTLİ GÖRÜNTÜLƏR QURANA TABE OLUNMADIĞINDA ORTAYA ÇIXAR**

**Qadın düşmənçiliyi və nifrəti ilə dolub-daşan xurafatçı zehniyyət əsrlərdir qadınlara qarşı şeytani yanaşmalarını heç vaxt dəyişdirməmişdir.**

Göründüyü kimi, qadına nifrət bəsləyən xurafatçılar bu düşüncələrini əsrlər boyu davam etdiriblər. Quranın onların yanlış məntiqini əsla dəstəkləmədiyini bildiklərinə görə pis niyyətlərini saxta hədislər yolu ilə həyata keçiriblər. Xüsusilə qadınlara qarşı qorxunc hədislərin çoxluq təşkil etməsinin əsas səbəbi elə budur.

Başqa bir saxta hədisə əsasən, xurafatçılar qadınları ölməyəcək dərəcədə ac qoyub onlara gözəl geyimləri qadağan etməklə tərbiyə etməyi düşünürlər. Onlara görə, qadını ac saxladıqda və ona pis geyimlər verdikdə onun çölə çıxmağa da həvəsi olmayacaq. Həmin hədis belədir:

*Qadınları zərər verməyəcək qədər ac saxlayın və çılpaq qalmayacaqları qədər də paltarsız buraxın. Çünki qadınlar doyunca yesələr və gözəl geyinsələr, çölə çıxıb gəzməkdən çox həzz alarlar. Fəqət onlar bir az ac, bir az da çılpaq qalsalar, onlar üçün evdə oturmaqdan yaxşı şey yoxdur.*
(İbnul-Cəvzi, Məvzuat, II/282283; Suyuti, Ləali, II/154 İbn Ərrak, Tənzihuş-şəriə, II/212213)

*Evin qabağında oturmasınlar deyə qadınlarınıza yeni paltar almayın, çünki geyimləri təzə və qəşəng olsa, çölə çıxıb gəzmək arzusuna düşərlər.* (İmam Qəzali, Kimyayi-səadət, səh.178; İbn Əbi Şeybə, Müsənnəf, IV/II, 420)

*Sizdən biri yaşlı, dişləri tökülmüş və çirkin ola bilər. Eyni zamanda xanımı da cavan və gözəl ola bilər. Bu cavan və gözəl qadın bazara çıxanda və ya toyda gedəndə gördüyü yaraşıqlı kişilərlə ərini müqayisə edib ərinin üzünə belə baxmaq istəməz. Bəlkə də, ərinin onu öpməyini və cinsi əlaqədə olmağını belə istəməz. Belə ki, qadının kişilərin çox olduğu yerlərə getməsi ona ən azından belə təsir edəcək.* (İmam Şarani, Uhudül-kübra)

Sözügedən saxta hədislərdə getdiyi yerlərdə özünə hakim ola bilməyən, Allah qorxusu və imanı ilə deyil, instinktləri ilə hərəkət edən, buna görə də qapalı yerdə saxlanmalı olan məxluqdan bəhs olunur. Belə bir təsvir tam

olaraq xurafatın qadına baxış formasıdır.

Bizi isə xurafatın deyil, Quranın baxış forması maraqlandırır. Quranda təsvir edilən müsəlman qadın Allahdan qorxur. Buna görə də, harada necə geyinəcəyini, iffətini necə qoruyacağını və ictimai yerlərdə özünü necə aparacağını çox yaxşı bilir. Bunları bilmək üçün ona Quran kifayət edir və bunun üçün bir kişinin ona yol göstərməsinə ehtiyacı yoxdur. Qadının hərəkətlərinə qərar verən kişi deyil, Allahdır. Quranın heç bir yerində kişiyə belə bir hüquq verilməyib.

Allah Quranda mömin kişilərə xitab etdiyi kimi, mömin qadınlara da xitab edir. Buna görə qadın Allahın ona xitabını gözəl görür və bunu ən mükəmməl şəkildə yerinə yetirmək üçün çalışır. Qurandakı əxlaqı mənimsəmək üçün qadının Allahdan qorxması yetərlidir. Kişinin ona göz qoyması ilə bunun baş tutacağını zənn edənlər sadəcə saxta hədislərin əsirinə çevrilən xurafatçılardır.

Bundan başqa, Allah Quranda müsəlmanların kişi və ya qadın olmasından asılı olmayaraq, israf etmədən halal nemətlərdən yeyib-içmələrini, məscidlərə gözəl geyinmələrini, zinət əşyalarından istifadə etmələrini və baxımlı olmalarını buyurur:

**Ey Adəm oğulları! Məscidlərə** *(gedəndə)* **zinətlərinizi taxın. Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki,** *(Allah)* **israf edənləri sevmir.**

(Əraf surəsi, 31)

Qadınlara küçəyə çıxmağı qadağan edən heç bir ayə yoxdur. Tam əksinə, ayələrdən açıq şəkildə başa düşülür ki, Allahın əmrinə əsasən, aktiv sosial həyata malikdirlər. Bundan dolayı, həmin saxta hədislərdəki ifadələr Quran ayələri ilə ziddiyyət təşkil edirlər.

**Bir qadın necə yaşamağı, necə geyinməsi lazım olduğunu Qurandan öyrənir; bir kişidən deyil.**

## Qadının Guya Namazı Pozacağı və Uğursuz Olduğu İddiası

*Rəsulullah buyurdu ki, sizdən biriniz sütrəsiz (səccadənin önünə qoyulan maneə) namaz qılarsa, (önündən keçdiyi təqdirdə) bunlar namazını pozar: eşşək, donuz, yəhudi, məcusi və qadın...*

(Buxari, Salat 90, Elm 18, Azan 161, Cəzaüs-Sayd 25; Müslim, Salat 254 (504); Müvətta, Qəsrüs-Sala)

*Namazı qara it, eşşək, donuz və qadın pozur.*

(Səhihi-Müslim, Salat 265; Tirmizi, Salat 253/338; Əbu Davud, Salat, 110/720)

*Üç şeydə uğursuzluq var: qadında, evdə və atda.*

(Əbu Davud, Tibb 24/3922; Müslim, Salam 34/115; Buxari, Nikah 17/4805)

*Bir şeydə (uğursuzluq) olsa idi, qadın və məskəndə olardı.*

(Buxari, Cihad 47, Nikah 1, Tibb 43, 54; Müslim, Salam 119, Müslim, Tibb 117-120, (2226); Müvətta, İstizan 21)

Bu hədisləri də yuxarıdakı açıqlamalara uyğun dəyərləndirmək lazımdır. Allahın gözəl surətdə yaratdığı dediyi qadınları qara it, eşşək, donuz kimi bənzətmələrlə alçaltmaq, uğursuz adlandırmaq Quran əxlaqına əsla uyğun gəlmir. Müsəlman qadınlar Quranda təriflənən, nümunə göstərilən, hörmət və sevgi bəslənən mübarək insanlardır.

Eyni zamanda çox sevimli və insanlar üçün faydalı olan canlıların uğursuz varlıq kimi ibadəti pozduğunun deyilməsi bu qorxunc məntiqin təzahürüdür.

Ümumiyyətlə, İslamda uğurluluq və ya uğursuzluq anlayışı yoxdur. Bu sözlər tamamilə şirkə əsaslanır. Xeyir də, şər də Allahdandır. Yaradılmış heç bir şeyin insana uğur və ya uğursuzluq gətirməsi mümkün deyil və müstəqil gücü də yoxdur. Uğursuzluğa inanmaq müşrik xüsusiyyətidir və Allah, əslində, onların uğursuz olduğunu bildirir:

**... Agah olun ki, Allah qatında uğursuz olanlar özləridir, lakin onların əksəriyyəti bilməz!** (Əraf surəsi, 131)

Bu hədislər əvvəlki bölmələrdə ətraflı şəkildə bəhs edilən sözdən fərqli mənaların çıxarılmasına nümunə təşkil edir. Bundan başqa, əvvəl də qeyd etdiyimiz kimi, əvvəlini və sonun eşitməmək sözün müxtəlif mənalarda yozulmasına səbəb olmuşdur. Əbu Hüreyrədən rəvayət edilən bu hədisi təkrar yazırıq:



**Con Uilyam Qodvardın "Nerissa" adlı yağlı boya tablosu , 1906**

*"Üç şeydə uğursuzluq var: qadında, evdə və atda" sözünün peyğəmbərimizə aid edildiyini eşidən Hz. Aişə belə demişdir: "Allaha and içirəm ki, Allahın elçisi əsla belə bir söz deməyib. O ancaq belə deyib: "Cahiliyyə əhli belə deyərdi: üç şeydə uğursuzluq var: qadında, evdə və atda".*

Bu məsələdə Hz. Aişədən rəvayət edilən Buxariyə aid başqa səhih hədis isə belədir:

*"Yanımda namazı pozan şeyləri saydılar. Dedilər ki, it, eşşək və qadın namaz qılanın önündən keçərsə, namaz pozulur. Mən də dedim ki, bizi (qadınları) niyə itin yerinə qoyursunuz? Halbuki mən onun yatağında onunla qiblə arasında yatarkən namaz qılardı".*

Göründüyü kimi, Peyğəmbərimiz önündə Hz. Aişə var ikən namaz qılır. Burdan da başa düşürük ki, həmin xurafat Peyğəmbərimizə atılan böyük iftiradır və onun vəfatından sonra bu, Hz. Aişə tərəfindən rədd edilmişdir.

## Qadınları Heyvanlara Bənzədən Xurafatçı Zehniyyətdən Nümunələr

*Qadının yeddi sifəti var:  üst-baş həvəsinə görə meymun kimi, kasıb olmağa razı olmadığına görə köpək kimi, ərinə və digərlərinə qarşı*

*kibrindən yana ilan kimi, gecə-gündüz dedi-qodu etdiyinə görə əqrəb kimi, evindən əşya satdığına görə siçan kimi, kişilərə hiylə qurduğuna görə tülkü kimi və ərinə itaət etdiyinə görə qoyun kimidir.* (İmam Qəzali, İhyayi-ülumud-din)

Bu yerdə belə sual yaranır: yuxarıdakı iyrənc ifadələrə inanan bir kişi qadına hansı gözlə baxar? Xanımını necə sevə bilər? Belə bir adam dünyada ən yaxın olmalı olduğu insana nifrət hissindən başqa nə duyar? Öz xanımını heyvan kimi gördüyü halda, Quranda üzərində çox durulan sevgi və məhəbbəti necə əldə edə bilər? Əlbəttə, əldə edə bilməz. Halbuki Allah Quranda cütlüklərin arasındakı xüsusi sevgi və mərhəmətdən bəhs edir:

**Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.** (Rum surəsi, 21)

Bunu nəzərdə saxlayıb mövzunu bir az ətraflı izah edək:

Ümumiyyətlə, qadına belə baxan adam öz anasına, bacısına və qızına da elə baxar. Onlara normal münasibət bəsləməyib alçaldıcı üslubda yanaşar.

Məlum məsələdir ki, saxta hədislər sevgini deyil, nifrəti təsvir edir. Həmin hədislərdəki təsvirə əsasən, bir qadını sevmək mümkün deyil. Onsuz da saxta hədislərdə sevgidən heç bəhs olunmur. Allahın Quranda əsas şərt olaraq buyurduğu möhtəşəm hiss və Allahın kainatı yaratma məqsədi olan sevgi sanki unudulmuşdur. Bu, necə dindir ki, bu qədər çox düşməni var və demək olar ki, bunların əksəriyyəti qadınlardır? Belə bir din qətiyyən Qurandakı din deyil.

Bundan başqa, bunu da qeyd etmək lazımdır ki, Quranda hüsnü-zənlə, yəni gözəl zənlə baxmaq əsasdır. Dəlil və şahidlər olmadan sui-zənn etmək haramdır. Odur ki, qarşı tərəf qadın olduğuna görə ona olumsuz düşüncə ilə yanaşmaq Qurana əsasən, sui-zənn, yəni pis zəndir. Bu da öz növbəsində yalan və haramdır. Bir adama hiyləgər deyə bilmək üçün onun saxtakar və səmimiyyətsiz olduğunun şahidi olmaq lazımdır. Bir adamı oğurluqda ittiham etmək üçün onun oğurluq etdiyini görmək lazımdır. Dəlil və şahidləri olmadan bir adama qarşı sırf qadın olduğu üçün belə ittihamlar irəli sürmək Qurana görə iftira sayılır. İftiranı atan da zalımlıq etmiş olur. Xurafatçılar batil dinin içində Quran hökmlərindən xəbərsiz halda yaşadıqlarına görə saxta hədislərdəki azğın düşüncələri görə bilmirlər. Sonrakı bölmədə qadınları alçaltmaq üçün Qurandan dəlillər gətirməyə çalışanların iddialarına cavab veriləcək.

## PEYĞƏMBƏRİN XANIMLARINA DAİR ENDİRİLƏN AYƏLƏR

Bunu mütləq vurğulamaq lazımdır: Quranda Peyğəmbərimizin xanımlarına dair endirilən ayələr mövcuddur. Peyğəmbərimizin yaşadığı dövrdə fitnənin və ehtimal olunan yanlış anlaşılmaların qarşısını almaq üçün Allah Peyğəmbərimizin xanımlarını digər qadınlardan ayrı tutmuşdur. Quranda bu barədə belə buyurulur:

**Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər** *(Allahdan)* **qorxursunuzsa,** *(yad kişilərlə)* **nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər.** *(Şəriətə)* **müvafiq qaydada danışın. Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin. Namaz qılın, zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir.** (Əhzab surəsi, 32-33)

Yuxarıdakı ayələrdə Peyğəmbərimizin xanımları həyat tərzi, danışıq və geyim şəkli kimi məsələlərdə ayrı vəzifələrə sahibdir. Quran ayələrini şərh edənlər bəzən bu ayələrin bütün müsəlman qadınlara xitab etdiyini qeyd edirlər. Halbuki həmin ayələr bütün müsəlman qadınlara deyil, yalnız Peyğəmbərimizin xanımlarına aiddir.

**Qurana görə, evlilikdə həm kişi, həm də qadın Allahdan qorxan, sayılıb-seçilən, alicənab və yüksək əxlaqlı insanlar olmalıdır. Quranda evlilik bu prinsipə əsaslanır.**

## NƏTİCƏ: QADINA ƏN ÇOX DƏYƏR QURANDA VERİLİR



Qadınlarla bağlı saxta hədislərdən bu bölmədə bəhs etməklə göstərmək istəyirik ki, bir çox İslam cəmiyyətlərində yanlış inanc şəkli formalaşıb, beləliklə, istədik ki, bu yanlışlığın mənbəyini göstərək. Bu minvalla, İslam adından belə şeylərə inananlar və ya bunlardan dolayı İslama cəbhə açanlar qadınlara zülm edən bu sistemin həqiqətdə Quranda qətiyyən olmadığını görə bilərlər.

Lakin bəzi insanlar qadınların alçaldılmasına Qurandan dəlil göstərməyə çalışırlar. Bu isə müxtəlif Quran ayələrinin yanlış təfsir olunmasından, mötərizələrdə şəxsi fikirlərin verilməsindən və bəzən də ayələrin saxta hədislər əsasında şərh olunmasından qaynaqlanır. Halbuki yalnız Qurana nəzər yetirdikdə görürük ki, xurafatçıların şəxsi açıqlamalarının heç birini Quranda tapmaq mümkün deyil.

Bunu daha yaxşı başa düşmək üçün illərlə qadınların evdən çölə buraxılmaması, döyülməsi, yarım varlıq kimi sayılması kimi məsələlərdə dəlil gətirməyə çalışdıqları ayələri araşdıracağıq. Ayələr bir xurafatçının deyil, dindar bir müsəlmanın baxışı ilə açıqlananda, yəni xurafatçıların saxta dini işə qarışmayanda açıq şəkildə görünür ki, qadına yer üzündə ən çox dəyər verən elə Qurandakı sistemin özüdür.

## QADINLARI SIXIŞDIRMAQ VƏ ALÇALTMAQ ÜÇÜN QURANDAN DƏLİL GƏTİRMƏYƏ ÇALIŞANLARA CAVABLAR

### Qadını Sıxışdırmaq Üsulu Olaraq Quran Tərcümələrinə "Baş Örtüyü" Kəlməsinin Əlavə Edilməsi

Məlum olduğu üzrə, xurafat dininin ən çox gündəliyə gətirdiyi mövzunun başında qadınların örtünməsi gəlir. Dinin bir çox hökmünə ciddi yanaşmayan, amma sünnə (hədislərin icrası) mövzusunda çox ciddi olduğunu iddia edənlərin din anlayışı, ümumiyyətlə, "baş örtüyü=din" şəklindədir. Bəs yaxşı, bu adamların dinin simvolu kimi gördükləri baş örtüyü Quranda, həqiqətən, varmı?

Bir çox alim baş örtüyü və örtünmə barədə açıqlamalarını Qurandan götürdüklərini deyirlər. Bəzi ayələri də iddialarına dəlil kimi göstərirlər. Halbuki Quranda baş örtüyü haqqında bir ayə olsun belə yoxdur. Beləliklə, əvvəlcə, Quranın təfsir və məallarda necə şərh olunduğunu bilmək lazımdır.

### "Nur" Surəsinin 31-ci Ayəsinin Açıqlaması – I Hissə

**Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər, ayıb yerlərini qorusunlar; öz-özlüyündə görünən istisna olmaqla, zinətlərini göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər; zinətlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz** *(müsəlman)* **qadınlarından, yaxud sahib olduqları cariyələrdən, yaxud kişiliyi qalmamış xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək şeylərini göstərmək üçün ayaqlarını** *(yerə)* **vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!** (Nur surəsi, 31)

Bu ayədə məallarda **"baş örtüklərini yaxalarının üstünə çəksinlər"** şəklində tərcümə olunan cümlənin ərəbcəsində, əslində, "baş örtüyü" kəlməsi işlənmir. Burada "örtük" kəlməsi işlənir. Ayədəki sözlərin ərəbcə mənalarını araşdıranda bunu açıq şəkildə görürük:

**...baş örtüklərini yaxalarının üstünə çəksinlər...** (Nur surəsi, 31)

*Və qul lilmuminati yəğzuznə min əbsarihinnə və yəhfəznə furucəhunnə və la yubdinə zinətəhunnə illa ma zəhəra minha vəl yəzribnə bi xumurihinnə əla cuyubihinnə, və la yubdinə zinətəhunnə illa libuulətihinnə əv abaihinnə əv abai buulətihinnə əv əbnaihinnə əv əbnai buulətihinnə əv ixvanihinnə əv bəni ixvanihinnə əv bəni əxəvatihinnə əv nisaihinnə əv ma mələkət əymanuhunnə əvit-tabiinə ğəyri ulil-irbəti minər-ricali əvit-tiflil-ləzinə ləm yəzhəru əla əvratin-nisai və la yəzribnə bi ərculihinnə li yuləmə ma yuxfinə min zinətihinnə və tubu iləllahi cəmiən əyyuhəl muminunə ləəlləkum tuflihunə.*

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ
مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَى جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ أَوْ آبَائِهِنَّ أَوْ آبَاء
بُعُولَتِهِنَّ أَوْ أَبْنَائِهِنَّ أَوْ أَبْنَاء بُعُولَتِهِنَّ أَوْ إِخْوَانِهِنَّ أَوْ بَنِي إِخْوَانِهِنَّ أَوْ بَنِي أَخَوَاتِهِنَّ أَوْ
نِسَائِهِنَّ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُنَّ أَوِ التَّابِعِينَ غَيْرِ أُوْلِي الْإِرْبَةِ مِنَ الرِّجَالِ أَوِ الطِّفْلِ الَّذِينَ لَمْ
يَظْهَرُوا عَلَى عَوْرَاتِ النِّسَاء وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى
اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ

***Yəzribnə:*** "zərəbə" felindən törəyib "vurmaq", "döymək", "buraxmaq", "örtmək", "bağlamaq" kimi mənalar ifadə edir.

***Xumurihinnə:*** "Xamara" sözündən törəyib. "Xamru" "şərab", "sərxoşluq verən" mənasındadır. Kəlmə bu ayədə örtük mənasını verir. Ümumiyyətlə, hər cür örtük, pərdə, sipər kimi mənaları var.

***Cuyubihinnə:*** Cuyub kəlməsinin cəmidir. Döş, yaxa, cib, sinə, bağır, oyuq kimi mənalar daşıyır.

İndi ayənin *"baş örtüklərini yaxalarının üstünə çəksinlər"* şəklində tərcümə edilən *"vəl yəzribnə bi xumurihinnə əla cuyubihinnə"* B hissəsini kəlmə-kəlmə araşdıraq:

## "Xumur" / "Örtmək" Kəlməsinin Açıqlaması

Baş örtüyünə dəlil kimi göstərilən "xumur" sözü çox geniş məna ifadə edir və ümumiyyətlə, örtük mənasına gələn "ximar" kəlməsinin cəmidir. Bu kəlmə "örtmək" mənasını daşıyan "xamr" sözünün kökündən törəyib.

Lüğətlərdə "ximar" sözü ümumi mənada örtük kimi tərcümə olunur. Kəlmə hər hansı bir şeyi örtmək mənasını ifadə edir. Buna görə də ayədə "baş örtüklərini" şəklində tərcümə olunan sözün həqiqətdə yalnız örtük olduğu və "baş" kəlməsinin ayənin heç bir yerində işlənmədiyi görünür.

## "Yəzribnə" / "Vurmaq" Felinin Açıqlaması

Ayədə işlənən bu fel baş örtüyünü Quranın hökmü kimi göstərməyə çalışanlar tərəfindən "endirsinlər, salsınlar" şəklində tərcümə edilir. Bunun səbəbi odur ki, başda onsuz da bir baş örtüyünün olduğunu sübut etmək üçün "baş örtüyünü sinələrinin üstünə çəksinlər" ifadəsindən istifadə edə bilməkdir. Halbuki felin belə bir mənası yoxdur və ondan belə istifadə olunur:

"Yəzribnə" feli "zərəbə" kökündən əmələ gəlib. "Zərəbə" vurmaq, döymək, buraxmaq, örtmək və bağlamaq mənalarında işlənir. Ayədəki mənası, yəni "örtüklərini (bi xumurihinnə) sinələrinə (əla cuyubihinnə) vursunlar (liyəzribnə)" ifadəsi sinə bölgəsinin örtülməsini bildirir. Quranda "salsınlar, endirsinlər" mənasında "fəlyudninə" kəlməsindən istifadə olunur. Bu fel isə ayənin heç bir yerində işlənmir.

## "Cuyub" / "Sinə" Kəlməsinin Açıqlaması

"Cuyub" sözü bizə məlum olan "cib" kəlməsinin cəm formasıdır. (Köynəkdə cib açmaq, cibinə qoymaq, cibindən çıxarmaq kimi mənalarda işlənir). Bundan başqa, döş, yaxa, qoyun, sinə, bağır, oyuq, xırda pul qabı, yarıq, boyun kimi mənaları var. Bu söz Quranda üç yerdə işlənir. "Cuyub" sözündən "Nur" surəsinin 31-ci ayəsində istifadə olunur; kəlmənin tək halı, yəni "ceyb" sözü isə Hz. Musa qissəsində bildirilən iki ayədə işlənir. Kəlmədən bu iki ayədə belə istifadə olunur:

**Əlini qoynuna *(fi cəybikə)* sal ki, ləkəsiz, ağappaq çıxsın...** (Nəml surəsi, 12)

**Əlini qoynuna *(fi cəybikə)* sal ki, ləkəsiz, ağappaq çıxsın...** (Qəsəs surəsi, 32)

Göründüyü kimi, yuxarıdakı iki ayədə də "cuyub" kəlməsi Hz. Musanın sinəsi və ya qoynu mənasında işlənmişdir. Bütün bunlar onu göstərir ki, "cuyub" kəlməsi "ximar", yəni örtmək sözü ilə birlikdə istifadə olunanda sinənin örtünməsi mənasına gəlir. Başı örtmək deyə bir söz ayənin heç bir yerində yoxdur.




**Nur surəsinin 31-ci ayəsində keçən cuyub kəlməsi döş, xumur kəlməsi isə örtmək mənasındadır. Ayədə sinənin örtülməsi tərif edilməkdədir. Başın örtülməsinə dair isə, ayədə heç bir ifadə keçmir.**

## Saxta Hədislərdən Qaynaqlanan Xətalı Tərcümələr

Quranda baş örtüyünün olduğunu müdafiə etmək istəyən bəzi təfsirçilər "Nur" surəsinin 31-ci ayəsini tərcümə edərkən köməkçi izahlardan istifadə ediblər. Buradakı məqsəd ayəni bir azdan haqqında danışacağımız baş örtüyünə dair saxta hədislərə uyğunlaşdırmağa çalışmaqdır (ayəni tənzih edirik). Bu isə "baş örtüklərini çəksinlər" yanlış tərcüməsi ilə həyata keçirilir.



**Quranın heç bir yerində baş örtüyü ifadəsi keçmir. Buna rəğmən, bəzi təfsirçilər, bəzi saxta hədislərə uymaq üçün Qurandan zorla baş örtüyü hökmü çıxarmağa çalışımışlar.**

## Yanlış Təfsir: "Baş Örtüklərini Çəksinlər"

Bəzi məallarda ayənin "baş örtüklərini yaxalarının üstünə çəksinlər" şəklində təfsir edilən hissəsində yuxarıda izahını verdiyimiz kimi, nə "baş örtüyü", nə də "çəksinlər" ifadəsi keçir. Buna baxmayaraq, ayəni belə təfsir etmək istəyənlər Qurana zidd düşündükləri üçün ciddi şəkildə təzada düşürlər. Bir çoxu "onsuz da başlarında var olan baş örtüyünü yaxalarının üstünə saldılar" kimi təəccüblü izah verərək iddia edirlər ki, qadınların başlarında ayə nazil olanda örtük var idi. Dövrün müsəlman qadınlarının başlarında onsuz da örtüyün ola bilməsi üçün bu barədə Quranla gəlmiş olan şərt və hökm lazımdır. Halbuki Quranın heç bir yerində baş örtüyü ilə bağlı açıqlama keçmir. Belə ki, o dövrün qadınlarının dini hökm olaraq başlarını örtmələri mümkün deyil. Buna görə də bəzi təfsirlərdəki "zatən var olan baş örtüyü" izahı ciddi şəkildə məntiq pozuntusudur. İndi də bu məntiq yanlışlığını açıqlayaq:

**1-** ***Bəzi təfsirçilər onsuz da başda var olan örtük iddiasına açıqlama gətirmək üçün "Əhzab" surəsinin 59-cu ayəsində işlənən "cilbab", yəni çarşab ilə əlaqəli ayənin "Nur" surəsinin 31-ci ayəsindən əvvəl endirildiyini və belə ki, müsəlman qadınların başlarında onsuz da örtük olduğunu iddia edirlər. Məntiq boşluğunun biri elə burda ortaya çıxır. Cilbab bir azdan ətraflı***

*izah edəcəyimiz kimi, bütün vücudu başdan ayağa örtən bir geyim, yəni çarşabdır. İstifadə etməkdə məqsəd bütün bədəni örtməkdir. "Nur" surəsinin 31-ci ayəsinin qadınların sinələrinin örtmələri barədə hökm olduğunu xatırlasaq, cilbab, yəni çarşabla gəzən qadının sinəsinin açıq olmaq ehtimalının olmadığını, buna görə də ayənin bütün vücudunu və başını çarşabla örtən qadınlara xitab etmədiyini başa düşürük. Belə görünür ki, həmin iddianı ortaya atanlar bu əhəmiyyətli və əsas məsələni unudurlar.*

2- *Dövrün ərəb cəmiyyətlərində qadınlar çılpaq dolaşırdılar. Ayə bunun üzərinə nazil olmuşdur. Bu ayədən sonra müsəlman qadınlar açıqda olan sinələrini örtməyə başlamışdılar. Ayədə işlənən "cuyub" kəlməsinin sinə mənasını ifadə etdiyini və bu ayədəki həmin cümlənin həqiqi mənasının "örtüklərini sinələrinin üzərinə vursunlar" şəklində olduğunu təkrar xatırladaq.*

3- *"Onsuz da var olan baş örtüyü" iddiasını israrla müdafiə edən təfsirçilərə görə, həmin qadınların başları baş örtüyü ilə onsuz da bağlı idi, fəqət bu məntiqə görə, hər necə isə sinələri açıq gəzirdilər! Belə ki, qadınlar başlarını örtməyi düşünmüş, lakin sinələrini unutmuşdular (müsəlmanları tənzih edirik). Başlarını örtməyə ciddi yanaşmış, amma vücudlarını açıqda saxlayırdılar. Həmin təfsirçilərin "onsuz da var olan baş örtüyü" iddiası bu nəticəni ortaya çıxarır. Bu adamlar öz izahları ilə iddia edirlər ki, sinələri açıq, ancaq başları örtülü olan qadınlara öyüd verilirdi ki, başlarındakı örtüyü sinələrinə çəksinlər. Belə bir yanlış məntiq baş örtüyü hökmünü zorla Qurana daxil etməyə çalışmağın vahiməli nəticəsidir.*

4- *Bu qəribə izaha görə, başda var olan baş örtüyü o qədər uzundur ki, sinəni iki tərəfdən tamamilə örtəcək qədər aşağı enə bilir. Belə ki, bu məntiqə görə, çılpaq gəzən dövrün qadınlarının hər birinin başında onsuz da bir baş örtüyü var və o da çarşab kimi uzundur. Odur ki, ayəni yanlışlıqla "baş örtüklərini çəksinlər" şəklində təfsir etmək bunu müdafiə edənləri məntiq boşluğuna sürükləyir. Bu vəziyyət mənası olduqca açıq olan bu ayəyə başqa məna verməyə çalışmağın gətirdiyi nəticədir.*

Ayəyə baş örtüyü izahı əlavə etmək üçün uydurulan saxta hədislər isə daha böyük xətalar ehtiva edir. Bu barədə növbəti səhifələrdə məlumat veriləcək.

## AYƏLƏRİN ƏRƏBCƏDƏKİ MƏNALARI VƏ TƏFSİRLƏRİN DOĞRULUĞU İLƏ BAĞLI BİLİNMƏSİ VACİB OLAN MƏLUMATLAR

Ərəbcə bir mətnin tam başa düşülməsi üçün, yəni tərcüməsinin doğru edilməsi üçün bəzi şeylərə diqqət etmək lazımdır:

### 1-Kəlmələrin Ərəbcə İstifadəsinə Diqqət Etmək

Xanımlara aid təsəttür meyarlarının tam müəyyən olunması üçün "örtük" kəlməsinin ərəbcə necə istifadə olunmasına diqqət edilməlidir. Ümumiyyətlə, ərəbcədə **"örtük"** kəlməsi örtüləcək əşya ilə birlikdə vurğulanaraq işlənilir. Məsələn, bu kəlmənin yanına **"masa"** sözü yazdıqda **"masa örtüyü"** olur. Bunun kimi, **"örtmək (ximar)"** kəlməsinin yanına **"baş (rəs)"** kəlməsi əlavə olunmaqla **"ximaru-rəs"**, yəni **"baş örtüyü"** kəlməsi əmələ gəlir. Əgər Quranda qadınların başlarını örtməyi əmr olunsa idi, **"ximaru-rəs"** kəlməsindən istifadə olunardı. Lakin Quranda belə bir ifadə yoxdur.

Belə ki, Quranda dəstəmazla bağlı "Maidə" surəsinin 6-cı ayəsində başın məsh edilməsi məsələsində **"baş"** kəlməsi **"rəs"** ilə vurğulanmışdır.

**Ey iman gətirənlər! Namaza durarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlara qədər ayaqlarınızı** *(yuyun)*. (Maidə surəsi, 6)

Ərəbcə oxunuşu: **Ya əyyuhəl-ləziynə amənu iza qumtum iləs-səlati fəğsilu vucuhəkum və əydiyəkum iləl-mərafiqi vəmsəhu bi ruusikum.**

Aydın görünür ki, Quranda Allah qadınlar üçün baş örtüyü əmrini versə idi, bu, Quranda açıq şəkildə müəyyən edilərdi. Lakin qadınların geyimi ilə əlaqəli ayələrə nəzər saldıqda Quranda baş ilə bağlı belə bir vurğunun olmadığını görürük.

### 2-Quranda Kəlmələrin Başqa Ayələrdəki Mənalarına Baxmaq

Quranda tərcümə ilə bağlı araşdırma aparan zaman müəyyən sözün ayədəki digər kəlmələrlə necə istifadə olunmasına və başqa ayələrdə bu kəlmənin necə işləndiyinə baxmaq lazımdır.

"Nur" surəsinin 31-ci ayəsində "ximar" **(örtük)** kəlməsinin yanında "**cuyub**" kəlməsi işlədilir və mövzu bu sözlə vurğulanır ki, yuxarıda da bəhs etdiyimiz kimi, kəlmənin işləndiyi bütün başqa ayələrdə də bu sözdən sinə üçün istifadə olunur**.** Beləliklə, ayəyə əsasən, örtünməli olan yerə baş deyil, sinədir.

### 3-Ərəbcə Sözlərə Mötərizədə Məna Verərkən Diqqətli Olmaq

Başqa dillərə nisbətən ərəb dilində daha çox söz ehtiyatı vardır və bu dildə cümlələr daha zəngin mənalar ehtiva edə bilir. Çox az sözlə çox şey demək mümkündür. Bir sözün fərqli istifadəsi və bundan dolayı, fərqli mənaları ola bilər. Elə buna görə də ayədəki məna çox açıq olsa da, bir çox təfsirdə mötərizədə əlavələrdən istifadə olunur və tərcüməçinin şəxsi izahlarına yer verilir.

Burada xatırladaq ki, Quran tərcüməçilərinin çoxu, ümumiyyətlə, hədisləri dinin təməli kimi görən ənənəvi İslam anlayışına malik şəxslərdir.

Eyni zamanda bu şəxslərin tərcümələrinə çox etibar edirlər və tərcümələrdəki şəxsi fikirlər çox vaxt həmin adamların klassik düşüncələrinə və saxta hədislərə əsaslanır. Həmin tərcüməçilər mötərizələrdə (bilərək və ya bilməyərək) saxta hədislərin mənalarına uyğun şəkildə ayənin mənasını dəyişdirməyə meyil göstərirlər.

Məallarda "Nur" surəsinin 31-ci ayəsini araşdırdıqda görürük ki, ayənin heç bir yerində **"baş örtüyü"** kəlməsi keçməsə də, təfsirçilər mötərizə daxilində və ya birbaşa mətnin özündə **"baş örtüyü"** sözündən istifadə etmişdir. Ayədə "baş", yəni "rəs" kəlməsi qəti şəkildə olmamasına, həmçinin "örtük" kəlməsi sinə kəlməsi ilə birlikdə işlənməsinə, yəni örtülməli olan yer açıq şəkildə göstərilməsinə baxmayaraq, hər hansısa bir örtük mənasını ifadə edən **"ximar"** kəlməsi sanki yanında **"baş"** kəlməsi işlənibmiş kimi **"baş örtüyü"** kimi tərcümə olunur. Buna görə də ayədəki hökm dəyişdirilmişdir. Bu hökm öz növbəsində ənənə halını almış və qadınların baş örtüyündən istifadə etməli olduqları inancını ortaya çıxarmışdır.

Halbuki təfsirçilər tərəfindən sonradan əlavə edilən bu izah məaldan çıxarılanda açıq-aydın görünür ki, ayə sinənin örtülməsini əmr edir. Ayəni birbaşa belə oxuyan hər kəs yalnız bu məna ilə rastlaşar.

## "NUR" SURƏSİNİN 31-Cİ AYƏSİNİN AÇIQLAMASI – II HİSSƏ

**Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər, ayıb yerlərini qorusunlar; öz-özlüyündə görünən istisna olmaqla, zinətlərini göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər; zinətlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz** *(müsəlman)* **qadınlarından, yaxud sahib olduqları cariyələrdən, yaxud kişiliyi qalmamış xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək şeylərini göstərmək üçün ayaqlarını** *(yerə)* **vurmasınlar. Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız!** (Nur surəsi, 31)

### Qadınların Zinəti Mövzusundakı İzahlar

"Nur" surəsinin 31-ci ayəsində Allahın diqqət çəkdiyi başqa bir məsələ qadınların zinətləridir. Ayədə işlənən həmçinin "gizlətdikləri bəzək şeylərini göstərmək üçün" ifadəsi ilə qadının baş hissəsinin deyil, sinəsinin gizlənməli olduğu başa düşülür.

Lakin bəzi hədis və Quran təfsirlərində yenə mötərizə daxilindəki əlavələrlə və ya sözlərdəki məna dəyişikliyi ilə bu həqiqət fərqli şəkildə göstərilir. Bunları araşdıraq:

### Qadınların Fitnə Vəsiləsi Olduğu İddiası

Bu ayədə istifadə olunan **"ziynətəhunnə"** kəlməsinin gerçək mənası azərbaycanca işlətdiyimiz kimi, zinət, yəni süs deməkdir. Kəlmənin sonundakı **"hunnə"** əvəzliyi sözün xanımlara xitab etdiyini göstərir.

Bəzi alimlərin öz qənaətlərinə görə, qadın vücudu süslü və cəlbedicidir, buna görə də ayədə bütün vücud nəzərdə tutulur. Buradan yola çıxaraq iddia edirlər ki, qadınlar bütün vücudlarını örtməlidirlər. Halbuki ayədə qətiyyən belə bir məna yoxdur.

Bəziləri isə yenə Qurandan tam fərqli şərh irəli sürür və iddia edirlər ki, zinətlər dedikdə boyunbağı yeri nəzərdə tutulur, buna görə də zinətlərin taxıldığı yerə baxmaq haramdır. Bir qismi isə daha da irəli gedib iddia edir ki, qadının kəsilmiş saçına və dırnağına baxmaq haramdır. Beləliklə, bəziləri bunu diqqətdə saxlayıb çox qəribə bir məntiq ortaya atırlar ki, bəs bir qisminə baxmaq adamı hamısına baxmağa sürükləyir. (İbn Həcər, Zəvacir)



***Bəzi insanlar ayədə keçən zinət kəlməsinin muncuq və zinət əşyaları kimi süs əşyaları olduğunu iddia edəcək qədər irəli gedərlər. Bu izah, hədislərə əsaslanaraq edilən şərhlərin yanlışlığını və qəribəliyini anlamaq baxımından əhəmiyyətlidir. Ayədə keçən "gizli süslər" açıq bir şəkildə cinsiyyət orqanlarına və döşlərə işarə edir.***

Diqqət edildikdə görünür ki, bunların hamısı ayə son dərəcə açıq olsa da, "gizlətdikləri zinətləri bilinsin deyə" ifadəsinin fərqli və qəribə izahlarıdır. İzahlar həmişə şərhçinin qadına baxışını büruzə verən şəxsi düşüncələrdən ibarət olur. Qadını örtməyə, passivləşdirməyə və çirkinləşdirib cəmiyyət və insanlardan uzaqlaşdırmağa, həmçinin onu ikinci sinif vətəndaş kimi göstərib (haşa) Allah üçün deyil, kişi üçün yaşamağa layiq varlıq halına gətirməyə çalışan zehniyyətlər ayədəki bir tək zinət sözü ilə qadını tamamilə yox etməyə çalışıblar. Beləliklə, bir çoxları Quran ayələrini yanlış şərh etməklə Qurandan ayrılmış, Quranı anlaşılmaz kitab kimi qələmə vermiş və edilən əlavələr də saxta hədislərlə birlikdə şərh olunanda ortaya Qurandan fərqli din anlayışı çıxmışdır.

Halbuki ayədə işlənən "gizlənən zinətlər" ifadəsinin mənası açıq-aşkardır və gizlənən iki yerə– cinsi orqan və döşlərə xitab edir.

## Zinət Əşyaları və Muncuqları Haram Etmə Yanılması

Bəzi insanlar isə ayədə işlənən "zinət" kəlməsinin muncuq, boyunbağı kimi bəzək əşyaları olduğunu iddia edirlər. Belə bir yanaşma tərzi hədislərə əsaslanan izahların yanlış və qəribə olduğunu göstərir. Bu təəccüblü iddiaya görə, kişilər elə bir vəhşi instinktə malikdirlər ki, bir muncuğa baxanda belə özlərini idarə edə bilmirlər. Ona görə də muncuqları tələm-tələsik qadağan edirlər ki, vəhşi varlıq olan "kişi" özünə gələ bilsin!

Bu qorxunc məntiq xurafatçıların müsəlman kişiyə nə cür baxdığını göstərir. Halbuki müsəlman kişi Allahdan qorxan varlıqdır. Haram olan hərəkətləri ətrafda qadağan edildiyi üçün deyil, Allah istəmədiyi üçün etməz. Müsəlman kişi açıq qadın, yaxud bir ovuc muncuq gördüyü üçün özünü itirən, nəzarətdən çıxan və ya heyvani instinktlərlə yaşayan varlıq deyil. Bunu iddia etmək müsəlman kişilərə qarşı təhqirdir.

Bu izahlar xurafatçıların yanlış düşüncələrinin başa düşülməsi baxımından zəruridir. Xurafatçıların izahlarını bir kənara qoyub yalnız Qurana nəzər yetirdikdə isə "zinət" kəlməsinin nə məna daşıdığını açıq şəkildə görə bilərik.

## Zinət kəlməsi Quranda necə işlənir?

Xurafatçıların boyunbağı və sırğa kimi bəzək əşyalarını qadağan etmələrinin əksinə olaraq, Allah Quranda buyurur ki, zinət əşyaları iman edənlər üçündür, hətta məscidlərə baxımlı və gözəl geyimdə getmək lazımdır:

**Ey Adəm oğulları! Məscidlərə** *(gedərkən)* **zinətlərinizi taxın...** (Əraf surəsi, 31)

Allah bir ayədə **De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?"...** (Əraf surəsi, 32) –deyə buyuraraq halal edilən zinətləri belə haram edəcək zehniyyətin ortaya çıxacağını xəbər verir. Ayənin davamında **De: "Bunlar dünya həyatında** *(hamıya)*, **Qiyamət günü isə yalnız möminlərə məxsusdur"...** (Əraf surəsi, 32) ifadəsi ilə zinətlərin müsəlmanlara dünyada verilən gözəl nemət olduğu qeyd olunur. Bununla yanaşı, axirətdə yalnız onlara aid olacağı deyilərək bu gözəlliklərə

ən çox iman edənlərin layiq olduğu vurğulanır. Allah iman sahiblərinə bu gözəllikləri layiq görmüşkən xurafatçıların müsəlmanlara bunu qadağan etməyə çalışması Qurana nə qədər zidd davrandıqlarının başqa bir dəlilidir.

"Zinət" kəlməsindən süs kimi istifadə edilən başqa bir ayə isə belədir:

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb** *(onlardan)* **ibrət alasınız.** (Əraf surəsi, 26)

## "Nur" Surəsinin 31-ci Ayəsində Müəyyən Edilən Bəzək Yerləri

Yuxarıda süs ifadəsindən istifadə edilən həmin ayələrdə Allah zinət əşyalarını nəzərdə tutur. Lakin ətraflı şəkildə açıqlandığı kimi, "Nur" surəsinin 31-ci ayəsində bəhs edilən "zinətlər" kəlməsinin boyunbağı, muncuq və sırğa kimi şeylərlə heç bir əlaqəsi yoxdur. Burada qadınların ailədaxili yaşayışlarından söz edilir və qadınlara necə azadlıq verildiyini göstərir. İndi ayənin zinətlərə aid olan hissəsini kəlmə-kəlmə araşdıraq:

**... Zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz** *(müsəlman)* **qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirən kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını** *(yerə)* **vura-vura yeriməsinlər. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə, nicat tapasınız.** (Nur surəsi, 31)

Ayənin bəhsindən görünür ki, burada işlənən "zinət" kəlməsi boyunbağı və ya muncuğa deyil, açıq şəkildə naməhrəm yerlərə işarə edir. Ayədə zinətlərin göstərilə biləcəyi şəxslər sayılmışdır. Bu şəxslərin arasında qadına ehtiyacı olmayan (arzusuz və ya ehtiyacsız) xidmətçilər və qadınların məhrəm yerlərini hələ tanımayan uşaqlar da vardır. Xüsusilə, qadınların məhrəm yerlərini tanımayan uşaqlardan söz edilməsinin özü tək başına "zinət" kəlməsinin məhrəm yerləri olduğunu göstərir.

Quranın üslubu çox mükəmməldir. Buna görə də kəlmələr çox tərtibli və səlisdir. Ətraflı şəkildə araşdırıldıqda bunu o dəqiqə başa düşmək olur. Məhrəm yerləri Qurandakı möhtəşəm nəzakət və ədəbi sənətə uyğun şəkildə təsvir edilmiş və zinət olaraq ifadə edilmişdir.

Bir çox təfsirçilər "Nur" surəsinin 31-ci ayəsindən zorla baş örtüyü mənası çıxarmaq üçün buna dair saxta hədislərə baş vururlar. Həmin saxta hədislər ayə ilə o qədər ziddiyyətlər təşkil edir ki, azacıq diqqət etdikdə bu, o dəqiqə anlaşılır. İndi isə həmin saxta hədislərin Quranla necə ziddiyyət təşkil etdiyini, İslam cəmiyyətlərini baş örtüyü mövzusunda necə yanlış yönləndirdiyini və hansı məntiqsizliyə malik olduğunu araşdıraq:



**Quran tərcümələrini edən ənənəvi İslam anlayışına sahib bəzi insanlar, mötərizədə və ya birbaşa mətnin özündə məna dəyişikliyinə meyl etməkdədirlər. "Nur" surəsinin 31-ci ayəsində heç bir şəkildə baş örtüyü kəlməsi keçməməsinə rəğmən mötərizədə və ya birbaşa mətnin özündə baş örtüyü kəlməsini işlətməkdən çəkinməmişlər. Halbuki bu izah qaldırıldıqda, ayənin sinə nahiyəsinin örtülməsinə işarə etdiyi aydın olur.**

## BAŞ ÖRTÜYÜ MÖVZUSUNDA İSTİFADƏ EDİLƏN SAXTA HƏDİSLƏR VƏ DAŞIDIQLARI ZİDDİYYƏTLƏR

Bütün dəlilləri ilə göründüyü kimi, Quranda baş örtüyü mövzusuna sübut kimi göstərilən "Nur" surəsinin 31-ci ayəsində qəti şəkildə "baş örtüyü" kəlməsi işlənmir. Lakin bu yanlışlıq bir çox saxta hədislərin İslam ədəbiyyatına daxil edilməsi ilə yayılmış və bu günə kimi gəlib çıxmışdır. Xurafatçıların ortaya atdıqları saxta hədislərdə çoxlu məntiqsizliklər var. İndi bunlardan bəzi nümunələr göstərək:

*Hz. Aişə deyir ki, Allah ilk mühacir qadınlara rəhmət eləsin, uca Allah "Mömin qadınlar baş örtüklərini yaxalarının üstünə çəksinlər" ayəsini nazil edəndə* ***onlar ətəklərindən bir parça kəsib onunla başlarını örtdülər.***

(Buxari, Təfsir, Təfsiri-surətin-Nur, 13 (V, 13); Əbu Davud, Libas, 33(IV, 3577; Beyhəki, VII, 88)

*Hz. Aişə validəmiz buyurub ki, ilk mühacir qadınlara Allah rəhmət eləsin!* ***Təsəttür ayəsi enincə, dərhal bel örtüklərini yırtıb başlarını örtdülər.*** (Buxari, Nəsai)

*Səfiyyə binti Şeybə rəvayət edir: "Aişə ilə birlikdə idik. Qüreyş qadınlarından və onların üstünlüklərindən danışırdıq. Hz. Aişə dedi ki, şübhəsiz, Qüreyş qadınlarının bir çox üstünlükləri var. Ancaq mən Allaha and olsun ki, Allahın kitabını daha çox təsdiq edən və bu kitaba daha çox inanan ənsar qadınlarından daha fəzilətlisini görmədim. Belə ki, "Nur" surəsindəki "qadınlar baş örtüklərini yaxalarının üstünə çəksinlər" əmri nazil olanda onların ərləri bu ayəni oxuyub evlərinə qayıtdılar. Onlar bunu zövcələrinə, qızlarına, bacılarına və qohumlarına oxudular. O qadınlardan hər biri ətək parçalarından, Allahın kitabını təsdiqləyib, ona iman edərək baş örtüyü hazırladılar. Ertəsi gün Hz. Peyğəmbərin arxasında baş örtükləri ilə sübh namazı qıldılar.* ***Onların başında sanki qarğa var idi.*** (Buxari, Təfsiri-surə 24/12; Əbu Davud, Libas 29; Əhməd bin Hənbəl VI 188) (İbni Kəsir, Hədislərlə Quran təfsiri, cild 11, səh.5880)

Göründüyü kimi, bu hədislərin hamısında iddia edilir ki, "Nur" surəsinin 31-ci ayəsinin nazil olması ilə qadınlar dərhal öz ətəklərindən bir parça kəsib **başlarına sarımışdır.** Elə ən çox məntiqsizlik burada başlayır. Saxta hədislərdəki məntiq boşluqlarını və Quranla necə ziddiyyət təşkil etdiklərini araşdıraq:

-Ayədə *"örtüklərini yaxalarının üstünə vursunlar"* ifadəsi ilə daha əvvəl ətraflı qeyd etdiyimiz kimi, qadınların sinələrinin örtülməsi əmr edilir. Ancaq həmin hədislərdə deyilir ki, bu ayə nazil olandan sonra müsəlman qadınlar paltarlarını kəsib sinələrini deyil, başlarını örtdülər. Halbuki ayədə başın örtülməsinə dair heç bir ifadə yoxdur. Həmin hədislərdə qadınların ayənin hökmünü yerinə yetirmələrinə, yəni sinələrini örtmələrinə dair açıqlama yoxdur.

Buradakı izaha görə, qadınlar öz ətəklərindən bir parça kəsib ayənin hökmü olan sinələrini örtməyin yerinə başlarına bağlayıblar. Daha əvvəl də açıqladığımız kimi, "baş örtüklərini çəksinlər" şəklindəki səhv təfsiri haqlı çıxarmaq üçün hədisə əlavə edilən bu əmələ görə ətəkdən kəsilən parça o qədər böyük olmalıdır ki, həm başı, həm də sinəni örtəcək qədər aşağı enməlidir.

Burada ağıla, əlbəttə, kəsilən ətəyin vəziyyəti gəlir. Ətəkdən başı və sinəni örtəcək qədər böyük parçanın kəsilməsi ətəyi mini yubkaya çevirəcək və bundan dolayı, qadının ayaqları açıq qalacaq. Bu izaha görə, həmin qadının sinəsi və ayaqları açıqdır, fəqət başı örtülüdür. Halbuki bu hissənin əvvəlindən bəri dəlillərlə anlatdığımız kimi, **"Nur" surəsinin 31-ci ayəsi qadınların yalnız sinələrini örtmələri üçün endirilmişdir.**

"Baş örtüklərini çəksinlər" izahının tərəfdarları öz iddialarını haqlı çıxarmaq üçün "başda onsuz da var olan bir baş örtüyü" düşüncəsindən yola çıxdıqlarını qeyd etmişdik. Onlar ayədə "baş örtüyü" ifadəsinin işləndiyini sübut etmək üçün ortaya belə bir iddia ilə çıxırlar və deyirlər ki, ayənin xitab etdiyi qadınların onsuz da baş örtükləri var idi. Halbuki həmin saxta hədislərdə bu ayə nazil olanda qadınların öz ətəklərini kəsib baş örtüyü düzəltdikləri iddiası var. Həmin təfsirçilərin ən böyük dayaq qəbul etdikləri saxta hədislər necə olur ki, onların bu iddiası ilə ziddiyyət təşkil edir?

Ziddiyyət təşkil edir, çünki İslama Qurandan başqa saxta hökmlər gətirməyə çalışanların dinləri belə məntiq boşluqları ilə doludur. Hər batil izah və açıqlama məntiqsizliklərlə doludur və Quranla ziddiyyət təşkil edir. "Nur" surəsinin 31-ci ayəsi asan başa düşülən və açıq ayə olsa da, bu ayədən sırf baş örtüyü mənası çıxarmaq üçün verilən aldadıcı izahlar məsələnin ciddiliyini ortaya qoyur. Saxta hədislər əsasındakı açıqlamalar və bunların nəticəsi isə dəhşət doğurur.

Şəfii və Hənbəli məzhəblərində qadının bütün vücudu istisnasız hər zaman örtülməlidir (üz və əllər də daxil). Hənəfi və Maliki məzhəblərində əllər və üz fitnə olmayan şərtlərdə açıq ola bilər. (Səbuni, Təfsirül-ayətil-əhkam 2/154, 155). Əs Suddi: "Qadın gözlərindən birini və üzünün açıq qalan göz qismindəki tərəfini örtməlidir, yalnız bir gözü açıq qala bilər". Əbu Həyyan: "Əndəlusda adət belə idi. Qadının bir gözündən başqa heç bir yeri görünməzdi". (Əbu Həyyan, Əl-bəhrül-mühit). Şəfii imamları qadının kəsilən dırnaqlarına belə baxmağı qadağan ediblər. (İbn Həcər əl-Hiytəmi, İslamda halal və haramlar 2). Yayılmış izahlardan birinə görə, İslamın qadına fərz etdiyi örtünmək qadının üzünə də aiddir. (Fiqhüs-Siyrə). Başqa bir qaynaqda qadının kişiyə necə baxmalı olduğu belə açıqlanmışdır: *"Qadının yad kişinin sinəsinə, kürəyinə, ayağına şəhvət qorxusu olmasa belə, baxmağı caiz deyil. Üz isə fitnə baxımından saç və ayaqlardan daha öndədir. Bu yerlərə baxmaq ittifaqla haram olduğuna görə üzə baxmaq da öncədən haram olması lazım olan feldir".* (Səbuni, Rəvai 2/156).

Qorxunc səviyyəyə çatan xurafatçı düşüncə ancaq qadını tamamilə örtəndə rahat ola bilir. Bəziləri üçün isə bu belə kifayət etmir. Onlara görə, qadın həm hər yerini örtməli, həm də evdə oturmalıdır. Quranda qadına azadlıq verib onun kimlərin yanında rahat gəzə biləcəyini və kimlərin yanında məhrəm yerlərini örtməli olduğunu izah edən açıq ayədən xurafatçı və qorxunc izahların çıxarılması həqiqətdə mümkün deyil. Lakin nümunələrini verdiyimiz saxta hədislər onlara bu yolu açmışdır. Xurafatçılar ayəyə öz izahlarını əlavə edəcək qədər irəli gedib qadını başdan ayağa örtünən, kəsilən dırnaqları belə haram olan kabusa döndərə biliblər. Xurafatın dərəcəsini görmək üçün bu, son dərəcə açıq nümunədir.

*Burada əlavə olaraq xatırladaq ki, hədis külliyyatında Peyğəmbərimizin dövründə qadın və kişilərin eyni qabdan dəstəmaz aldıqları da yazılır.* (Buxari, Vüdu 42; Əbu Davud, Təharət 39; İbni Macə, Təharət 36; Nəsai, Təharət 56). Ayaqlar, dirsəklərə qədər qollar, üz və baş dəstəmaza aid olan yerlər olduğuna görə hədis qadınların kişilərin yanında başları açıq gəzdiyini göstərir. Lakin işlərinə yaramayan hədisləri diqqətə almamaq xurafatçıların xüsusiyyətidir.

Bizim ölçümüz Qurandır, Qurandakı izahlar isə çox açıqdır və buna görə də qadınların kişilərin yanında başı açıq dolaşmağı Qurana uyğun davranışdır.

## Quranda Haramlardan Üstü Örtülü Bəhs Edilmir

"Qadının kəsilən tükləri belə haramdır" hökmünü çıxaran xurafatçı düşüncədən bəhs edərkən bunu mütləq qeyd etmək lazımdır ki, Allah Quranda haram və halalları qəti və dəqiq izahlarla bildirib. Müsəlmanlar,

məsələn, donuz əti yeməyin haram olduğunu **O sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir.** (Bəqərə surəsi, 173) ayəsi ilə öyrəniblər. "Haram etmişdir" hökmünə əsasən, müsəlman tərəddüd edə bilməz, izah və təfsirlərə ehtiyac duymaz. Məsələn, başqa bir nümunə olaraq faizdən bəhs edək. **...Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir...** (Bəqərə surəsi, 275) ayəsi ilə faiz açıq və qəti olaraq müsəlmanlara qadağan edilmişdir. Bu ayəyə görə heç kim bunu müzakirə edib faizin alverdən fərqli olmadığını deyə bilməz.

Beləliklə, biz haramları bir qisim təfsirçilərin izahlarından, ayələrə əlavə etdikləri mötərizə daxili açıqlamalardan və ya saxta hədislərdən deyil, birbaşa ayənin özündən öyrənməliyik. "Nur" surəsinin 31-ci ayəsində də bu mənada yuxarıda dediyimiz kimi, dəqiq izah vardır. Lakin bir çox təfsirçilərin ayələrin içinə mötərizədə öz izahlarını əlavə etmələri bu ayədən də yan keçməmişdir. Məsələn, təfsirçilər məzhəb imamlarının təsiri ilə bu ayəyə mötərizə daxilində "üz və əl kimi görünən qisimlər xaric" şəklində əlavə veriblər. Halbuki İslama görə, qadınlar əl və üzündən başqa hər yerlərini örtməli olsaydılar, şübhəsiz ki, belə bir əhəmiyyətli mövzu bütün detalları ilə Quranda verilərdi. Donuz əti, faiz və zinanın haram olduğunu qəti bildiyimiz kimi, bu mövzunu da Quranda açıq şəkildə görərdik. Lakin Quranda belə bir geyim təsvir edilməmişdir. Bu, ancaq bəzi təfsirçilərin izahlarında verilmişdir.

## Yalnız Qadını və Qadın Bədənini Örtmək Məqsədi



Çox maraqlıdır, nədənsə xurafatçılar Quranı daima saxta hədislərin də təsiri ilə qadını evə qatmaq və ya vücudunu tam örtmək üzərindən şərh etməyə çalışırlar. Təhrik etmək ünsürünü isə ən böyük əsas kimi göstərirlər. Halbuki qadın vücudu kişilər üçün nə qədər çəkicidirsə, kişi vücudu da qadın üçün o qədər çəkicidir. Qurana əsasən, iki cinsin arasında ayrı-seçkilik olmadığına görə kişilərin təhrik olmaq qorxusu üzündən qadınları örtməyə və ya yox etməyə çalışmağın mənası yoxdur. Əgər problem kişilərin təhrik olmasıdırsa, onda kişilərin ya evdə oturmağı, ya da çöldə üzlərini örtüb gəzməyi daha məntiqlidir. Özlərinin təhrik olması ehtimalı ilə qadınları örtməyin yerinə, bu riski kökündən həll etməyi seçməlidirlər.

Bu vəziyyət məsələ ilə bağlı hər şeydə tətbiq oluna bilər. Məsələn, qadının səsini bəziləri təhrikedici kimi görə bilər, buna görə də qadına danışmaq qadağan edilirsə, eyni şey kişilərə də aid olmalıdır. Əgər qadının danışığına və oxuduğu mahnılara qulaq asmağa izin yoxdursa, eyni zamanda

qadınların da kişi səsindən təhrik olacağı diqqətə alınmalı və bu qadağa kişilərə də şamil edilməlidir. Əgər xurafatçı məntiqin saxta qanunlarını əsaslı göstərmək istəyirlərsə, eyni şeyi kişilərə qarşı da etməlidirlər.

Lakin İslamda Quranın məntiqi əsaslıdır və Quranda belə bir qadağa yoxdur. Xurafatçıların özlərindən çıxardığı bu qadağalar insanların əlindən azadlığı alır, cəmiyyətləri içindən çıxılmaz vəziyyətə salır və özləri kimi başqalarına da fəlakət gətirir.

Qadın və kişi hər məsələdə olduğu kimi, iffət məsələsində də bərabərdir. Zina qadın və kişinin hər ikisinə haramdır. "Əhzab" surəsinin 35-ci ayəsində **...ismətlərini qoruyan kişilər və** *(ismətlərini)* **qoruyan qadınlar...** ifadəsi ilə açıq şəkildə bildirildiyi üzrə, qadın əxlaqlı və iffətli olub ismətini qorumalı olduğu kimi, kişi də eyni məsuliyyəti daşıyır. Yəni o da ismətini qorumalıdır. Lakin bunun çarəsi insanları örtmək, çölə çıxmağa qoymamaq, görüşdürməmək və s. deyil. Bunun yolu Quran əxlaqını əxlaq ölçüsü olaraq mənimsətməkdir. İnsan instinktlə hərəkət edən, hisslərinə tabe olan vəhşi varlıq deyil. İnsan ağıllı və şüurlu şəkildə, ən əhəmiyyətlisi isə Allahın ona öyrətdiyi əxlaq və Allah qorxusu ilə doğrunu yanlışdan ayıran varlıqdır.

Beləliklə, bir insanın iffətli davranmasını qarşı tərəfin açıq-saçıq geyinməsi və ya saç telinin çöldə qalması müəyyən etmir, bunu müəyyən edən onun Allah qorxusu və əxlaqıdır. Allah bir ayədə **...Allah, gizlində kimin Ondan qorxduğunu üzə çıxarsın...** (Maidə surəsi, 94) –deyə buyuraraq insanları heç kimin görmədiyi yerlərdə imtahan edəcəyini bildirir. Buna görə də insanların zorakılıqla və ya evə həbs etməklə dini yaşamaqları və halal-harama diqqət etmələri təmin edilə bilinməz. İman, əxlaq və ibadət yalnız könüllü surətdə yerinə yetirilir.

## Quranda Baş Örtüyü Deyil, Cilbab Təsvir Edilir

Yuxarıdakı bütün izahlardan anlaşıldığı kimi, "Nur" surəsinin 31-ci ayəsi müxtəlif təfsirçilərin yanlış izahları və saxta hədislərin təsiri ilə haradasa toxunulmaz hala gətirilən baş örtüyü mövzusu üçün dəlil kimi istifadə olunur. İçində "baş örtüyü" kəlməsi işlənməyən, başla əlaqədar heç bir məlumat verilməyən və açıq şəkildə sinənin örtülməsindən bəhs edilən ayənin bu qədər fərqli şərh olunması çox təəccüblüdür. Başqa bir təəccüb doğuran şey isə Quranda baş örtüyünü sanki dinin tək şərti kimi görən bir çoxlarının "Əhzab" surəsinin 59-cu ayəsində bəhs edilən çarşabdan heç bəhs etməməsidir. Quranda olmayan baş örtüyünü hökm halına çevirib, Quranda mövcud olan çarşabı görməzlikdən gəliblər.

İndi isə "Əhzab" surəsində çarşab hökmünün necə verildiyini və baş örtüyünü müdafiə edənlərin ayəni niyə görməzlikdən gəldiyini araşdıraq:

## "Əhzab" Surəsinin 59-cu Ayəsinin Açıqlaması

**Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, cilbabları** *(Çarşabları)* **ilə** *(çöl geyimləri ilə)* **örtünsünlər. Bu, onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir.** (Əhzab surəsi, 59)

"Cilbab" kəlməsinin mənası başdan ayağa qədər örtən hər cür örtük, paltar deməkdir. Belə ki, "Əhzab" surəsinin bu ayəsində açıq şəkildə başı və vücudu örtən çarşabdan bəhs olunur. Belə paltarı geyinmək üçün ayədə mühüm şərt qoyulur: müsəlman qadınların azad və iffətli tanınmaları.

Bunun mənası belədir: bəzi mühitlər qadınların rahat davranmağı və rahat geyinməyi üçün uyğun olmur. Ümumi cəmiyyət quruluşu və oradakı insanların əxlaq anlayışı bəzən mədəni səviyyədən geri qalır. Bir çox cəmiyyətlər hər açıq qadına müəyyən baxışla bir növ damğa vurur və onlara qarşı söz, yaxud fiziki baxımdan təcavüz edəcək qədər irəli gedirlər. Normal şərtlərdə müsəlman qadınlar məcbur olmadıqca onsuz da belə yerlərə getməzlər. Fəqət getmək lazım gəldikdə tədbir almalı, ətrafdakı insanlara müsəlman və iffətli qadın olduğunu göstərərək ehtimal əziyyətdən çəkinməlidir. Belə yerlərdə müsəlman qadınlar çarşab vasitəsilə tədbir almış olurlar.

Bu vəziyyət qadının öz qənaətinə qalır. Ümumiyyətlə, dövrümüzdə demokratik və modern cəmiyyətlər təhlükəli mühit təsvirinə uyğun gəlmir. Qərb cəmiyyətlərində qadınlar özlərini güvənlikdə görür, çarşab geyinməyə ehtiyac hiss etmirlər. Lakin bəzi qadınlar üçün bu cəmiyyətlərdə də təhlükəli şəxslər ola bilər. Belə ki, müsəlman qadın özünü güvənlikdə görmürsə, qərb ölkələrində də çarşab geyinər. Çünki ayədəki şərt müsəlman qadının geyimi üzündən yanlış yerə əziyyət görməyinin qarşısını almaqdır.

## Baş Örtüyünü Müdafiə Etmək, Lakin Cilbabdan (Çarşabdan) Heç Bəhs Etməmək

Bir qadın istədikdə: "Baş örtüyü əmri Quranda var və mən bunu "Əhzab" surəsinin 59-cu ayəsində görürəm", –deyərək baş örtüyü taxa bilər. Belə ki, çarşabın yerinə baş örtüyü tərcih edib, örtünməni bu şəkildə başa düşmüş ola bilər. Lakin bir insan: "Baş örtüyü əmri Quranda var və mən bunu "Nur" surəsinin 31-ci ayəsində görürəm" –deyirsə, o zaman doğru danışmır və bu özü təhlükəlidir. Çünki Rəbbimiz halalları haram sayan və ya Quran ayələrinə qarşı dillərini əyib bükənlərin hökmünü açıqlamışdır. Quran ayəsində olmayan bir hökmün (doğrunu bildiyinə baxmayaraq) mövcudluğunu iddia etmək Allah qatında günahdır.

Təəccüblüsü odur ki, bəzi şəxslər baş örtüyünü qətiyyətlə müdafiə etməklə bunu sanki dinin əsas simvolu kimi qələmə verirlər, eyni zamanda isə Qurandakı cilbab hökmündən heç bəhs etmirlər. Həqiqətən də, Rəbbimizin təqvanı üstün tutduğu halda, dindarlığın ölçüsünü baş örtüyündə görüb üstünlüyü bunda axtaranlar nədənsə Qurandakı cilbab mövzusundan heç bəhs etmirlər. Quranda baş örtüyünə dair heç bir hökm olmadığına və cilbab barədə açıq hökm olduğuna baxmayaraq, Quranda olmayan hökmü müdafiə etməyə çalışırlar. Baş örtüyünün gündəmdə saxlanılması və dünya miqyasında, ümumiyyətlə, cilbabdan heç bəhs edilməməsi doğurdan da təəccüb doğurur.



**Qadın istəsə, "baş örtüyü tətbiqi Quranda var və mən bunu Əhzab surəsinin 59-cu ayəsində görürəm" deyərək baş örtüyü taxa bilər. O, çarşab yerinə baş örtüyünü seçmişdir və örtünməni bu formada qəbul etmişdir. Amma "Nur" surəsinin 31-ci ayəsinin hökmü budur" deyərsə, doğru söyləməmişdir. Çünki Quranda baş örtüyü ilə bağlı açıq bir müddəa yoxdur.**

**Əhzab surəsinin 59-cu ayəsində qeyd olunan cilbabın geyinilməsi ilə bağlı qərar tamamilə müsəlman qadının öz qənaətinə buraxılmışdır. Demokratik və sivil cəmiyyətlərdə qadınlar özlərini təhlükədə hiss etmədiklərinə görə əksəriyyəti cilbab (çarşab) geyinməyi seçməzlər. Fəqət bəzi qadınlar bu cəmiyyətlərdə də özlərini təhlükəsiz hiss etməyə bilər və cilbabı (çarşabı) seçə bilərlər. Ölçü, qadının geyim tərzinə görə yanlış mühakimə olunmalarının və əziyyətə məruz qalmasının qarşısını almaqdır.**

## Müsəlman Qadın Qurana Görə Necə Geyinməli Olduğunu Bilir

Burada bir şeyi qeyd etmək lazımdır ki, müsəlman qadın Qurana görə necə geyinməli olduğunu çox yaxşı bilir. Bunun üçün kişinin qadına nəyi necə geyinəcəyini deməyinə ehtiyac yoxdur. Bir kişinin qadının geyiminə qarışmaq və onu yönləndirmək haqqı da yoxdur. Allah ona belə bir haqq verməmişdir. Bu gün müsəlman cəmiyyətlərində bu əhəmiyyətli həqiqət dilə gətirilməlidir.

Bir qadın baş örtüyü də taxa bilər, çarşab da geyinə bilər. Yaxud da açıq və ya dekolte də ola bilər. Müsəlman olduğunu dedikdən sonra heç kimin onu mühakimə etmək hüququ yoxdur. Hansının daha təqvalı olduğu ancaq Allah qatında bəllidir. Dində ölçü geyim deyil, səmimiyyətdir. Çarşablı bir adam səmimiyyətsiz olub cəhənnəmə gedə bilər, eyni zamanda dekolteli bir qadın da cənnətə layiq ola bilər. Bunun hökmünü ancaq Allah verir.

Qurandan başqa yol göstəricilərə tabe olduqda bunlar insanı maddi-mənəvi yöndən çətinliklərə salır və insan fitrətinə uyğun olmayan müxtəlif problemlər ortaya çıxarır. Üstəlik, bu şeylər fərdilikdən çıxıb sosial



problemlərə çevrilə bilir. Kitabın bu hissəsinin əsas mövzusu olan, həmçinin açıq-saçıq və ya örtülü kimi müqayisə edilən geyim ayrı-seçkiliyi Quranda olmayan yanlış düşüncədir və cəmiyyətlərdə narahatlıqlara yol açır.

Allah Qurana görə üstünlüyün xarici görünüş və ya geyimdə deyil, təqvada (Allah qorxusu ilə davranmaqda) olduğunu ayədə belə bildirir:

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb** *(onlardan)* **ibrət alasınız.** (Əraf surəsi, 26)

İman qəlbən yaşanır. İman bir insanın gözəl əxlaqı, mədəniyyəti, keyfiyyəti, elm və incəsənət anlayışı, bir sözlə, hər şeyi ilə özünü göstərir. Buna görə də insanları xarici görünüşü ilə deyil, əxlaqı ilə dəyərləndirmək əsasdır.

Xarici görünüşün heç bir fərqi yoxdur, müsəlman olduğunu deyənlərin hamısı nur kimi dəyərli müsəlmandır. Heç birinin arasında ayrı-seçkilik etmək doğru deyil. Heç kimin ayrı-seçkilik etməyə haqqı yoxdur.

## 2 QADIN = 1 KİŞİ YALANI

Bir qisim insanlar tərəfindən İslama qarşı dəlil kimi istifadə edilən və yanlış bilinən mövzulardan biri də qadının kişiyə görə yarım haqqının olduğu iddiasıdır. Bir kişinin şahidliyinin və haqqının iki qadına bərabər olduğunu İslam əleyhdarları ortaya atmışdır. Xurafatçılar da fürsətdən istifadə edib qadına "yarım" damğası vurublar. Halbuki İslam əleyhdarları da, xurafatçılar da başqa mövzularda olduğu kimi, bunda da yanılırlar.

Allah Quranda kişi və qadının şahidliyindən bəhs edir. Quranın heç bir yerində bir kişinin şahidliyinin iki qadına bərabər olduğu barədə ifadə yoxdur. Məsələn, zinanın təsbit edilməsində dörd şahidə ehtiyac vardır. Quranda bu şahidlər dörd qadın və ya iki kişi, dörd kişi və ya səkkiz qadın kimi ifadələrdən istifadə edilmədən dörd şahid kimi müəyyən edilir. Yəni qadın və ya kişidən hər hansı dörd nəfər kifayət edir, kişi və qadın ayrı-seçkiliyi edilmir.

Şahidliyin zidd olduğu durumlarda hər şeydə olduğu kimi, yenə Quranda qadın üstün tutulur, onun sözünə etibar edilir. Məsələn, qadınlara qarşı zina iddiasında qadınla kişinin şahidliyi bir-birinə zidd olarsa, qadının şahidliyinə üstünlük verilir. Belə ki, qadın öz şahidliyinə uyğun olaraq günahsız qəbul edilir. Məsələ ilə bağlı ayələr belədir:

**Arvadlarını** *(zinada)* **günahlandırıb özlərindən başqa şahidləri olmayanların hər birinin şahidliyi, özünün doğru danışanlardan**

**olmasına dair dörd dəfə Allahı şahid tutması, beşinci dəfə isə: "Əgər yalan danışanlardandırsa, Allah ona lənət eləsin!"** *(- deməsidir)*. **Qadının da ərinin yalan danışanlardan olduğuna dair dörd dəfə Allahı şahid tutması cəzanı ondan dəf edər.** (Nur surəsi, 6-8)

Qadının Quranda şahidlik baxımından kişidən üstün tutulması çox az bilinən həqiqətdir. Bu, Quranın mahiyyətini və qadına baxışını göstərir. Lakin İslam əleyhdarları və xurafatçılar bundan fərqli şəkildə düşünürlər. Qadının şahidliyi və miras hüququ mövzusunda qadını yarım görən xurafatçıların dəlil kimi istifadə etdikləri ayələri araşdırıb bu hökmlərin həqiqi mənalarına diqqət yetirək:

## QADIN VƏ MÜVƏQQƏTİ BORCDA ŞAHİDLİK

Qadının şahidliyində Quranda istisna edilən yeganə mövzu müvəqqəti borc məsələsidir. Buradakı istisna vəziyyəti başa düşmək üçün borcdan bəhs edilən "Bəqərə" surəsinin 282-ci ayəsinə nəzər yetirək:

**Ey iman gətirənlər! Müəyyən bir müddətədək bir-birinizə borc verdikdə onu yazın. Qoy bunu aranızda bir katib ədalətlə qeyd etsin. Katib Allahın onu öyrətdiyi kimi yazmaqdan boyun qaçırmamalıdır. Qoy o yazsın, borc alan da yazdırsın, Rəbbi olan Allahdan qorxsun və borcdan heç nə əskiltməsin. Əgər borc alan ağıldan zəif və ya acizdirsə və yaxud özü yazdırmağa qadir deyilsə, qoy onun yaxın adamı ədalətlə yazdırsın. Aranızdakı kişilərdən iki nəfəri şahid tutun. Əgər iki kişi olmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını şahid tutun ki, qadınlardan biri unutduqda, o birisi onun yadına salsın. Şahidlər** *(şahidlik etməyə)* **çağırıldıqda boyun qaçırmasınlar. Az da olsa, çox da olsa,** *(həmin məbləği və)* **onun vaxtını yazmaqdan usanmayın. Bu, Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməyiniz üçün daha münasibdir. Yalnız aranızda gedən nağd ticarət istisnadır. Bunu yazmamağınız isə sizin üçün günah deyildir. Alver etdikdə şahid tutun. Amma katibə və şahidə zərər verilməməlidir. Əgər** *(zərər)* **yetirsəniz, şübhəsiz ki, bu, sizin üçün günahdır. Allahdan qorxun, Allah da sizi öyrətsin. Allah hər şeyi bilir.** (Bəqərə surəsi, 282)

Borc hökmünü təsvir edən bu ayədə borcların yazılmağından və katiblə şahidlərin bu vəzifədən boyun qaçırmamağından danışılır. Bundan başqa, ayənin sonunda qeyd olunur ki, katibə və şahidlərə zərər verilməməlidir. Göründüyü kimi, maddi mənfəətlərə aid olan şeylərdə insanlar şahidlik etməkdən çəkinirlər. Allah isə bu məsuliyyəti tamamilə kişilərə yükləyir və bu işdə iki kişinin şahid olmağını istəyir. Diqqət edildikdə görünür ki, ayədə **"iki kişi və ya dörd qadın şahid tapın"** ifadəsi işlənmir, birbaşa iki kişi şahid istənilir. Hamının çəkindiyi bu məsuliyyət birbaşa kişilərə verilmişdir. Beləliklə, təzyiqlərə daha həssas olan qadın bu riskli işdən qorunmuşdur.

Ayənin hökmünə görə, iki kişi deyil, bir kişi tapılarsa, o zaman bir kişi və iki qadın şərti var. Beləliklə, borc kimi riskli hesablaşmada qadın yalnız



**Pul öhdəlikləri, xüsusən də indiki cəmiyyətlərdə, bir şəxsin digərinə asanlıqla iftira ata biləcəyi, qarşı tərəfi naəlaclıqdan suçlaya biləcəyi və şübhə altında buraxa biləcəyi çox riskli məsələlərdir.**

buraxılmır. Olumsuz vəziyyətin yaranması ehtimalında bir kişi ilə bir qadının üz-üzə gəlməsinin qarşısı əvvəldən alınır və qadın qorunur.

Məsələn, fərz edək ki, borcun miqdarı və ya ödəmə forması ilə bağlı anlaşılmazlıq yaranıb. Belə olduqda iki nəfərin fərqli şahidliyi qarşısında qadın kişi ilə üz-üzə gələ bilər. Bu vəziyyətdə iki tərəfdən biri yalançı çıxarsa, qadın stress keçirə bilər. Allah Quranda hər vəziyyətdə qoruduğu qadının belə bir duruma düşməyinin qarşısını almışdır. Belə ki, qadının yanında ikinci şahidin varlığı ona dəstək vermiş olur. Bir kişi və iki qadın şahid olanda şahidlərin sayı üçə çatır. Bu minvalla, məsuliyyət bir nəfərin deyil, üç nəfərin üzərinə paylanılır. Beləliklə, pis niyyətli insanlar üç nəfərdən ikisini aldatmalı olduqlarına görə işləri çətinə düşür.

Məlum məsələdir ki, pul ilə bağlı şeylər iftira atmağa, başqa birini günahlandırmağa və şübhə yaratmağa səbəb ola bilir. Dolayısilə, burada qadını qorumaq üçün görülən tədbir qadını bir çox yöndən qoruyur. Bəzi insanlara görə, qadınları gücsüz görüb onlara iftira atmaq çox asandır. İşə pulun qarışdığı vəziyyətlər həmin insanların qadına iftira atıb onu günahlandırmaq üçün istifadə edəcəyi mühitlərdən biridir. Lakin verilən borca iki qadının şahidlik etməsi bu iftira riskini aradan qaldırır.

Bu, eyni zamanda qadın üçün psixoloji yöndən də rahatlıq deməkdir. Borc məsələsində pulun miqdarı, işin digər xırda detalları unutmaq baxımından həssas məsələdir. Müsəlmanlar ədalətli olmaq üçün borcla bağlı

hər şeyi bilməyə və bu işdə nəyi isə unutmamağa görə məsuliyyət daşıyırlar. Belə ki, bu zaman qadına düşən məsuliyyət iki yerə bölünür. Qadın güclü yaddaşa malik olsa da və unutmamaq üçün lazımi tədbirləri alsa da, (hansı ki, bu işdə qadınlar kişilərdən həmişə dəqiq və ehtiyatlıdırlar) başqa bir qadının varlığı ona psixoloji yöndən dəstək verir.

Bunlar, əlbəttə, kişilər üçün də əsaslıdır. Lakin Quran belə mövzularda daima qadına üstünlük verir. Rəbbimiz qadınları xırdalıqlara əhəmiyyət verən, ən adi vəzifəyə belə ciddi yanaşan, ehtiyatkar və məsuliyyətli varlıq olaraq yaratmışdır. Buna görə də borc məsələsində qadının üzərində hiss etdiyi yük yaradılışı etibarilə çox böyük olur. Odur ki, bu yükü azaltmaq və onu psixoloji təsirdən qorumaq üçün uca Allah belə bir tədbir almışdır. Bu həm də Rəbbimizin qadına verdiyi üstün dəyərin təzahürüdür.

Bunu unutmaq olmaz ki, Quranda qadın dövlət başçısı (Səba məlikəsi) kimi nümunə verilir və onun qərarları alan güclü şəxs olduğu vurğulanır. Bunun mənası odur ki, Qurana görə, qadınlar dövləti idarə edə biləcək qədər ağıllı və güclü şəxsiyyətə sahibdirlər. Buna görə də borc məsələsində qadınları açıq şəkildə qoruyan ayəni qadınların əskik olduqları şəklində şərh edənlər Quran hökmünü görməzlikdən gəlirlər. Bizim ölçümüz isə yalnız Qurandır.



## QADINLARIN MİRAS HAQQI

Miras məsələsində qadının kişinin yarısı qədər pay alması da bir çoxlarının yanlış başa düşdüyü mövzudur. Quranın ruhunu, İslamın təməl əsaslarını və Rəbbimizin qadınlara şəfqətini qavramayan bəzi insanlar mirasın bölünməyindən bəhs edən ayəni Quranın bütünü ilə deyil, tək olaraq şərh etməklə öz iddialarını əsaslandırmağa çalışırlar. Halbuki miras hüququ yenə Quranda qadının qorunduğunu göstərən mövzulardan biridir.

Quranda qadının miras payından bəhs edən ayələr belədir:

**Valideynlərin və yaxın qohumların qoyub getdikləri** *(maldan)* **kişilərə pay düşür; valideynlərin və yaxın qohumların qoyub getdikləri** *(maldan)* **qadınlara da pay düşür. Bu** *(mal)* **istər az olsun, istərsə də çox,** *(onlar üçün)* **müəyyən edilmiş bir paydır.** (Nisa surəsi, 7)

**Allah övladlarınız haqqında sizə tövsiyə edir; kişiyə, iki qadının payı qədər** *(pay)* **düşür. Əgər ikidən artıq sayda qadındırlarsa,** *(vəfat edənin)* **qoyub getdiyi** *(malın)* **üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir qadındırsa, yarısı ona çatır. Əgər** *(ölənin)* **bir övladı varsa, onun valideynlərinin hər birinə qoyub getdiyi** *(malının)* **altıda bir hissəsi çatır. Əgər onun övladı yoxdursa, varisi də valideynləridirsə, onun anasına üçdə bir hissəsi düşür. Əgər** *(ölənin)* **qardaş-bacıları varsa, onun anasına altıda bir hissəsi düşür.** *(Bu bölgü)* **ölənin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra** *(aparılır)*. **Valideynlərinizdən və övladlarınızdan hansının fayda baxımından sizə daha yaxın olduğunu siz bilmirsiniz.** *(Bunlar)* **Allah tərəfindən buyurulmuş fərz əməllərdir. Həqiqətən, Allah biləndir, müdrikdir.** (Nisa surəsi, 11)

İlk ayədə göründüyü kimi, İslamda miras həm kişinin, həm də qadının haqqıdır. İkinci ayədə isə mirasın şəkli açıqlanır. Buradakı tərifə görə, miras şəxslərin ehtiyacına və daşıdıqları məsuliyyətə görə bölünür.

Ümumi Qurana nəzər saldıqda görürük ki, həyat yoldaşı, ana, bacı və qızın dolanışığı oğul, ər, ata və qardaşa həvalə edilir. Bu qadının bütün həyatı boyu əsaslı olan hökmdür. Yəni oğul, ər, ata və ya qardaş himayəsindəki qadına ömrünün sonuna kimi baxmalıdır.

Məsələn, kişi evlənəndə qadına mehr verir. Qurana əsasən, mehr qadının ailəsinə deyil, birbaşa qadının özünə verilir. Evlənəndən sonra qadının və uşaqların bütün maddi ehtiyaclarını kişi ödəyir. Növbəti səhifələrdə ətraflı şəkildə izahını verəcəyimiz kimi, boşandıqda belə bu qayğı və dəstək davam edir. Dolayısilə, qadının bütün xərclərini kişi ödəyir.

Qadının maddi xərclərinin kişiyə həvalə edilməsi qadını sıxışdırmaq anlamında deyil. Bu, qadının möhtac olduğunu da göstərmir. Burada görülən tədbir qadına dəyərin simvoludur və qadının həyatı boyu hər hansı bir şəkildə zərər görməsinin qarşısını almaq üçündür. Qadın istədiyi kimi yaşamaqda, çalışmaq və ya çalışmamaqda, pul qazanmaq və ya qazanmamaqda, iş qurmaqda, şirkət və hətta dövlət idarə etməkdə azaddır. Qadının maddi baxımdan bir kişinin himayəsində olması onu sosial həyatdan təcrid etmək və ya evə qatmaq demək deyil. Bu, eyni zamanda kişinin qadın üzərində söz

haqqı olduğunu da göstərmir. Quranın heç bir yerində kişinin qadına hökm edəcəyinə dair məlumat yoxdur. Maddi məsuliyyətin kişiyə verilməsi Quranda xüsusi qorunan qadının həyatı boyu zərər görməməsi üçündür.

Lakin Qurana görə, qadının heç kimə qarşı belə bir məsuliyyəti yoxdur. Başqalarının dolanışığını təmin etmək kimi vəzifəsi yoxdur və eyni zamanda öz ehtiyaclarını belə ödəmək məcburiyyətində deyil. Əgər istəməzsə, işləməz; qadın buna məcbur deyil.

Bundan başqa, qadın öz malını istədiyi kimi xərcləmək haqqına sahibdir. Qadın zəngin olsa da, ailəsinin xərclərinə qatılmağa məcbur deyil. Həmçinin uşaqların tələbatını üzərinə götürməyə borclu da deyil. Qadın kişidən varlı olsa da, kişinin maddi məsuliyyəti davam edər.

Qadın mirasdan aldığı payı istərsə, xərcləyər; istərsə də özü üçün saxlayar. Lakin kişi mirasdan aldığı payı qadının dolanışığı üçün xərcləmək məcburiyyətindədir. Həm həyat yoldaşının, həm uşaqlarının, həm də bacılarının dolanışığı və rahat yaşamağı onun üzərinə düşür. Təkrar qeyd edək ki, bu, qadının ehtiyacı üzündən deyil, onun həyatı boyu zərər görməyini əngəlləmək üçündür.

Qurandakı gerçəklərə əsaslandıqda açıq həqiqətlə üzləşirik: əgər miras hüququnda qadınla kişiyə eyni pay verilsə idi, o zaman hissələri eyni olduğu halda, kişi ailəni dolandırdığı və qadının belə məsuliyyəti olmadığı üçün ölçü kişinin əleyhində pozulmuş olacaqdı. Ayədə həmçinin vurğulanır ki, bu bölgü ölənin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Əgər ölən şəxs miras qoyub gedibsə, ilk öncə, mirasa görə hərəkət etmək lazımdır. Bu mirasda ölən adam bütün malını qadına vəsiyyət edə bilər və ailənin oğlanlarına pay ayırmaya bilər. Belə vəziyyətdə ayənin hökmünə görə, vəsiyyət əsaslı sayılır və bütün miras qadına qalır.



**Qadının maddi mənada qayğısının kişinin üzərinə düşməsi, qadını məhdudlaşdırmaq demək deyil. Burada həyata keçirilən tədbir, qadına verilən dəyərin bir simvoludur.**

Allahın kişiyə qadının maddi xərcləri ilə bağlı məsuliyyət verməsinin müəyyən hikmətləri var. Əgər Allah istəsə idi, kişiyə belə məsuliyyət verməzdi və qadın heç bir maddi güvənliyi olmadan özünün, hətta uşaqlarının dolanışığını təmin etməli olardı. Lakin bu, bir qadın üçün böyük bir yük, psixoloji təzyiq və ağır bir məsuliyyətdir. Maddi mənada belə bir yük Quranda heç bir şəkildə qadının üzərinə yüklənməmişdir.

## QADININ BOŞANMA HÜQUQU

Boşanma ilə əlaqədar ilk bunu qeyd etmək lazımdır ki, bir qisim xurafatçılar böyük yanlışlıqla qadına boşanma haqqı vermirlər. Bu zehniyyətə əsasən, qadın nə qədər bədbəxt olub əziyyət çəksə də, kişidən boşanma ehtimalı yoxdur. Qadınları əzməyə, kişiləri üstün görməyə çalışan xurafatçı zehniyyətin bu qorxunc əməli İran və Səudiyyə Ərəbistanı kimi ölkələrdə faktiki olaraq yaşanır.

Halbuki belə bir düşüncə Quranda olmamaqla yanaşı, eyni zamanda Qurana ziddir. Quranın heç bir yerində yalnız kişinin qadını boşaya biləcəyi hökmü yoxdur. "Bəqərə" surəsinin 228 və 241-ci ayəsində boşanmış qadınlardan bəhs olunur. Boşanmaq kişilər kimi qadınların da haqqıdır.

Çox maraqlıdır ki, bəzi Quran təfsirlərinə və məallarına baxanda görürük ki, "boşanmış qadınlar" ifadəsindən əvvəl mötərizədə "əri tərəfindən" sözü əlavə olunub. Bax bu xəta təfsirçilərin xurafatdan asılılığın nəticəsində Quranın açıqlamasını kifayət hesab etməyib ayələri xurafatçı zehniyyətə uyğunlaşdırmağa çalışmağından qaynaqlanır. Əvvəlki qisimlərdə mötərizə daxilində verilən şərhlərin Quranı xurafata uyğunlaşdırmanın bir hissəsi olduğundan bəhs etmişdik. Belə hallarda ayəni öz istəklərinə uyğun dəyişə bilməyəcəklərini bilən bəzi şəxslər bunu mötərizə daxilində etməyə çalışıblar. Halbuki mötərizələri bir kənara qoyanda görürük ki, Quran ayələri çox açıq mesajlar ehtiva edir.



**Xurafatçı zehniyyətə görə qadınlar; Bağlanmalı və həbs edilməli olan ikinci dərəcəli bir varlıq olaraq dəyərləndirilir. Qadınları alçaltmağa, kişiləri də üstün göstərməyə çalışan xurafatçı zehniyyətin qorxulu əməlləri hazırda bir çox İslam ölkəsində feli olaraq yaşadılmaqdadır. Halbuki bu qorxunc zehniyyət Qurana tamamilə ziddir və həqiqi İslama uyğun gəlmir.**

## BOŞANMA VƏ BOŞANMADAN SONRA QADININ QORUNMASI

Quranda qadın üstünlüyünün başqa bir nümunəsi qadının boşanmağından sonra onun himayə olunmasıdır. Uca Allah qadının boşanandan sonra zərər görməməyi üçün haqlarını qorumuş, həyatı boyu onu güvənliyə almışdır. Kişi boşansa da, qadını həyatının sonuna qədər qorumalı və ona baxmalıdır; qadının buna ehtiyacı olmasa da.

### Boşanarkən Qadınların Könlünü Almaq və Onları Razı Salmaq

Boşanma bəzi nəfsi istəklərinə tabe olanlar üçün cütlərin bir-biri ilə bütün maddi əlaqələrinin kəsilməsi mənasına gəlir. Onlara elə gəlir ki, maddi əlaqələr kəsiləndən sonra artıq qarşı tərəfi qoruyub qayğı göstərmək üçün heç bir səbəb qalmır. Əksər hallarda ayrılandan sonra sevgi və hörmət hissini itirdiklərinə görə yalnız öz mənfəətlərini düşünür, qarşı tərəfin düşəcəyi çətinliyi və sıxıntını görməzlikdən gəlirlər. Bu, əlbəttə ki, Quran əxlaqını yaşamayan insanlarda görünən anormal xarakterdir. Uca Rəbbimiz Quranda boşanandan sonra qadınlara şəfqət və mərhəmət göstərilməli olduğunu belə buyurur:

**Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti başa çatdığı zaman onları ya xoşluqla saxlayın, ya da xoşluqla buraxın...**
(Bəqərə surəsi, 231)

**Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan əvvəl talaqlarını versəniz, artıq onlar üçün gözləmə müddətini saymağa haqqınız yoxdur. Belə olduğu təqdirdə <u>onlara haqlarını verin və gözəl tərzdə sərbəst buraxın.</u>** (Əhzab surəsi, 49)

Diqqət edildikdə görünür ki, hər iki ayədə yaxşı münasibətdən bəhs edilir. Bundan başqa, boşanandan sonra belə əgər lazımdırsa, qadını xoşluqla saxlamaq yenə kişiyə aid məsuliyyətdir. Qadın işləməyə bilər və maddi imkanı, qalacaq yeri olmaya bilər. Bu durumda ayədə iki ehtimal göstərilir; ya kişi qadını himayəsində saxlayacaq, ya da qadın özü getmək istədikdə kişi ondan gözəl tərzdə ayrılacaq. Hər iki vəziyyətdə kişinin vəzifəsi qadına yaxşı davranmaqdır.

### Boşanandan Sonra Qadınlara Maddi Yöndən Dəstək Olmaq

Boşanan qadını atıb getməklə onu himayəsiz və köməksiz buraxmaq Quranda qadağan edilmişdir. Boşanandan sonra qadın istər varlı olsun, istər olmasın, mütləq maddi yöndən qorunmalıdır. Bunu təmin etmək boşandığı ərinin vəzifəsidir.

Quranda boşanan qadının maddi yöndən qorunmalı olduğunu göstərən ayələr bunlardır:

**<u>Boşanmış qadınlara  müvafiq qayda üzrə yaxşılıq etmək lazımdır.</u>** *(Bu,)* **müttəqilər üçün bir borcdur.** (Bəqərə surəsi, 241)

**... <u>Onlara</u> müvafiq qayda üzrə <u>yaxşılıq edin</u>. Varlı öz imkanı daxilində, kasıb da öz imkanı daxilində.** *(Bu isə)* **yaxşılıq edənlər üçün bir borcdur.** (Bəqərə surəsi, 236)

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi** *(nemətdən)* **artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir.** (Talaq surəsi, 7)

Ayələrdə göründüyü kimi, varlı olan da, olmayan da boşandığı qadını qorumalıdır. Həyatı boyu o adamı heç görməsə də və maddi-mənəvi heç bir mənfəət əldə etməsə də, boşandığı həyat yoldaşını maddi mənada qorumalı, ona nəzakətlə davranmalıdır. Uca Rəbbimiz qadınlara maddi güvənliyin mütləq könül xoşluğu ilə və istəyərək edilməli olduğunu ayələrdə belə xəbər verir:

**Qadınlara öz mehrlərini <u>könül xoşluğu ilə</u> verin! Əgər onlar öz xoşları ilə bundan sizə bir pay versələr, onu nuşcanlıqla və halallıqla yeyin!** (Nisa surəsi, 4)



## Qadınlara Verilən Malın Boşanandan Sonra Geri Alınmaması

Uca Rəbbimiz ayələrdə buyurur ki, kişi boşanarkən evli olduğu müddət boyu həyat yoldaşına verdiyi heç bir şeyi geri almamalıdır:

**Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan <u>birinə yığın-yığın mal vermiş olsanız belə, heç bir şey geri almayın!</u> Məgər** *(verdiyinizi)* **böhtan atmaq və açıq-aşkar günah işlətməklə mi geri alacaqsınız? Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar da sizdən möhkəm əhd-peyman almışdılar?** (Nisa surəsi, 20-21)

**<u>...Onlara verdiklərinizdən bir şeyi geri götürmək sizə halal olmaz...</u>** (Bəqərə surəsi, 229)

Allah ayələrdə kişiyə evlilik bağı ilə qadına söz və güvənlik verdiyini xatırladır. Bu sözə görə, qadına yığın-yığın mal və ya pul vermiş olsa da, bunları geri almamalıdır. Qurana tabe olan müsəlman bu sözünü Allaha vermiş olduğunu bilir. Buna görə də verdiyi sözə gözəl şəkildə əməl edər. **"Onlara verdiklərinizdən bir şey götürmək sizə halal olmaz"** ayəsinə əsasən, fərqli davranmağın Allah tərəfindən haram edildiyi isə açıq-aşkardır.

## Boşanandan Sonra Qadınlara Sığınacaq Vermək

Uca Allah qadının boşanandan sonra çətin vəziyyətə düşməməsi və himayə olunması üçün kişiyə onu özünə yaxın yerdə saxlamağını əmr edir. Hətta o qədər yaxın olmalıdır ki, təhlükə zamanı ondan göz-qulaq ola bilsin. Boşanandan sonra qadının özünə uyğun yer tapana qədər ona şərait yaratmaq və zərər görməsinə izin verməmək mömin üçün vicdani məsuliyyətdir:

**Onlara imkanınız daxilində öz yaşadığınız yerdə qalmağa yer verin. Sıxışdırmaq məqsədilə onlara zərər yetirməyin. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara** *(malınızdan)* **xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. Öz aranızda xoşluqla görüşüb danışın. Bir-birinizi çətinliyə salsanız, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin.** (Talaq surəsi, 6)

Burada əhəmiyyətli olduğuna görə təkrar qeyd edək ki, ayələrdə müəyyən edilən qadını qoruma tədbirləri qadının özünə baxa bilmədiyindən irəli gəlmir. Bu, bəzi ön mühakiməli şəxslərin İslama iftira atmaq üçün ortaya çıxardığı hədyandır.

Ayələrdə nəzakətdən, üstün əxlaqdan və dəyər verməkdən söhbət gedir. Qadına sahib çıxmaq ona çox dəyərli və hörmətli varlıq olduğunu hiss etdirməkdir. Allahın qadına verdiyi əhəmiyyətin təzahürüdür. **"Öz aranızda xoşluqla görüşüb danışın."** ayəsində müəyyən edildiyi kimi, Allah boşanan cütlüklərin arasında gözəl münasibəti əsas alır. Bu gün ümumi mənada bütün cəmiyyətlərdə qadının sosial həyatda və daha sonra düşdüyü çətinliklər nəzərə alınarsa, Qurandakı nəsihətlərin nə qədər vacib və əhəmiyyətli olduğu daha yaxşı görünür.

## Qadınlara Zorla Varis Olmamaq

Quranda qadının qorunması ilə bağlı məsələlərdən biri onlara zorla varis olmamaqdır. Allah ayədə belə buyurur:

**Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir.** *(Qadınlar)* **açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun.**
(Nisa surəsi, 19)

Allah bu ayədə də qadına təzyiq göstərib onu maddi yöndən sıxışdırmağı qadağan edir.

## Anaya Verilən Dəyər

Quranda analıq məqamı təriflənir. Ata-anaya hörmət etmək, onlarla yaxşı davranmaq və onları hər zaman olduğu kimi, qocalanda da qorumaq Quranda saleh möminlərin vəzifəsi kimi göstərilmişdir və bununla bağlı çoxlu ayə var. Bu ayələrdən bəziləri bunlardır:

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq...** (Ənkəbut surəsi, 8)

**Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!** (İsra surəsi, 23)

Quranda müsəlmanlara ata-anaya hörmət və yaxşılıq etmək tövsiyə edilir. Lakin anaya xüsusi bir dəyər verilir. Allah ayələrdə belə buyurur:

**Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu** *(bətnində)* **gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir.** (Loğman surəsi, 14)

Həqiqətən də, hər ana uşağını dünyaya gətirməmişdən qabaq aylarla fədakarlıq göstərir. Allahın ayədə bildirdiyi kimi, bətnində uşağını günü-gündən zəiflədiyinə baxmayaraq daşıyır və daha sonra onu çox çətinliklə dünyaya gətirir. Dünyaya gətirəndən sonra da onu qorumağa davam edir və uşağın rahatlığı üçün ona bütünlüklə sahib çıxır. Üstəlik, bunları edərkən heç bir qarşılıq gözləmir, hətta öz ehtiyaclarını belə ikinci plana salır. Allah bu həqiqətləri bizə xatırladır və analarımızın dəyərli varlıq olduğuna diqqət çəkir.



## KİŞİNİN ÜSTÜN OLMASI YALANI VƏ QADIN DÖYMƏK XURAFATI

Bir çoxları kişilərin qadınlardan üstün olduğuna və qadınların döyülməsinə Qurandan dəlil gətirməyə çalışır və bu ayələri nümunə göstərirlər:

**Allahın onlardan bəzilərini bəzilərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün! Əgər sizə itaət etsələr, onlara** *(əziyyət vermək üçün başqa)* **yol axtarmayın. Həqiqətən, Allah ucadır, böyükdür. Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar. Həqiqətən, Allah biləndir, xəbərdardır.** (Nisa surəsi, 34-35)

### Kişilərin Üstünlüyü İddiası:

Nisa" surəsinin 34-cü ayəsində **"Allahın onlardan bəzilərini bəzilərindən üstün etdiyinə"** ifadəsində işlənən **"bəədhum"** kəlməsini araşdıranda görünür ki, burada kişi və qadınlardan ibarət qarışıq topluluğa xitab edilir. Belə ki, buradakı məna *"Allah kişi və qadınların bəzilərini bəzilərinə üstün etmişdir"* şəklindədir. Buradan belə bir məna çıxır ki, Allah onların hər birinə fərqli bacarıq və xüsusiyyətlər vermişdir. **"Allahın onlardan bəzilərini bəzilərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər"** şəklində tərcümə edilən hissədə isə kişilərin qadınlardan üstünlüyü deyil, yalnız fiziki fərqlilikləri vurğulanır və **"öz mallarından xərclədiklərinə görə"** ifadəsi ilə daha əvvəl detallı şəkildə anlatdığımız kimi, maddi mənada qadına baxmaq vəzifəsi xatırladılır. **"Kişilər qadınlar üzərində himayəçidirlər"** kimi tərcümə edilən hissənin ərəbcəsi **"ərricalu qəvvamunə ələnnisai"** şəklindədir.

Bu ərəbcə ifadənin həqiqi tərcüməsi belədir: **"kişilər qadınlardan muğayat olur"** və ya **"kişilər qadınların dolanışığından məsuliyyət daşıyır".**

Ayədə verilən "qəvvam" kəlməsi tərcüməçilər tərəfindən **"idarə edici"**, "hakim" olaraq çevrilir. Halbuki bu kəlmənin işləndiyi digər bütün ayələrdə **"qəvvam"** kəlməsinin tək bir mənası var, o da muğayat olmaq, qorumaqdır. Yadınızdadırsa, əvvəlki hissələrdə qeyd etmişdik ki, olduqca zəngin dil olan ərəb dilinin ayələrdə işlənmə formasını və mənalarını anlamaq üçün o kəlmənin ümumi şəkildə digər ayələrdəki istifadəsinə baxmaq lazımdır. Bu, **"qəvvam"** kəlməsinə də aiddir.

**"Qəvvam"** sözü "qvm" kökündən törəyib. Bu kökün törəmələrinin işləndiyi bütün ayələrə baxdıqda görürük ki, heç birində "idarəçi", "hakim" mənaları yoxdur. Belə ki, Quranda idarəçi və hakimlər üçün "hükkam"

sözündən istifadə olunur. Buradan yola çıxıb rahat şəkildə deyə bilərik ki, sözün həmin ayədəki mənası "muğayat olmaq", "qorumaq" deməkdir.

Qurana ümumi şəkildə baxanda bunu daha yaxşı başa düşə bilərik. Əvvəl də qeyd etdiyimiz kimi, Quranda, ümumiyyətlə, qadınlar azad olmaqla yanaşı, həm də üstün tutulurlar. Lakin eyni zamanda hər hansı çətinlik ehtimalına qarşı qorunurlar. Qadınları qorumaq, maddi mənada himayə etmək və çətinliyə düşməmələri üçün tədbir almaq vəzifəsi isə kişilərə həvalə olunur (bundan əvvəlki hissələrdə ətraflı bəhs olunub). Dolayısilə, həmin ayədə "qəvvam" kəlməsi ilə açıq şəkildə ifadə edildiyi kimi, kişilər qadınları daima və bütün şərtlər daxilində qorumaqla vəzifəlidirlər. Bir çox xurafatçılar tərəfindən kişilərin üstünlüyünə dəlil olaraq gətirilməyə çalışılan bu ayə, əslində, qadınların üstünlüyünü açıqlayır.

## "Qadınları Döyün" İddiası

"Nisa" surəsinin 34-cü ayəsində "onları döyün" şəklində tərcümə olunan ifadənin ərəbcə qarşılığı "izribuhunnə" kəlməsidir. Kökü isə "zərəbə" felidir.

**"Zərəbə"** kəlməsi ərəb dilində, bəlkə də, ən çox məna ifadə edən sözdür. "Zərəbə" döymək mənasında işləndiyi kimi, eyni zamanda "pul kəsmək" mənasına da gəlir. "Tətilə çıxmaq" ifadəsi də ərəb dilinə "zərəbə" feli ilə tərcümə olunur. Bunu azərbaycanca, məsələn, "döymək" sözü ilə müqayisə edə bilərik. Bir nəfər bizə desə ki, qapı döyülür, bir oğrunun qapını söküb apardığını heç vaxt düşünmərik. Bu, bir qonağın qapını açmağımızı gözlədiyi mənasına gəlir. Dolayısilə, çoxmənalı sözlərin işləndiyi cümlələrdə mənaya və sözün istifadə şəklinə diqqətli yanaşmaq lazımdır.



**Hər nə qədər mətbuat və yayım orqanlarında qadınlara qarşı zorakılıqla bağlı maarifləndirmə işləri aparılsa da, bu gün qadına qarşı zorakılığın qarşısı dünya səviyyəsində alınmamışdır. Bunun səbəbi, qadına qarşı zorakılığın əsl əsasını təşkil edən zehniyyətə qarşı Quran ilə elmi bir fəaliyyət aparılmamasıdır.**

"Zərəbə" kəlməsinin geniş yayılmış mənalarından biri isə səyahət etmək və çölə çıxmaqdır. Necə ki Quranda səyahətdən, səfərə çıxmaqdan, bir yerdən müvəqqəti ayrılmaqdan bəhs edən ayələrdə "zərəbə" felindən istifadə olunmuşdur. Məsələn:

**Yer üzündə <u>səfərə çıxdığınız</u> zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmanıza görə sizə günah gəlməz...** (Nisa surəsi, 101)




**Talibanın xalqına etdiyi zülmü anlatdığı bloqu səbəbilə hədəf halına gələn 16 yaşlı Malala Yousafzai məktəbdən qayıdarkən başından və boynundan vuruldu. Uzun müalicədən sonra həyata qayıdan pakistanlı Malala hələ də gənc qızların təhsil hüquqları uğrunda mübarizəsini davam etdirir. 2014-cü ildə Nobel Sülh Mükafatına layiq görülmüşdür.**

**Biz Musaya: "Qullarımla birlikdə gecə yola çıx, onlar üçün dənizdə quru yol aç".** *(Düşmənin)* **sizə çatmasından qorxma, çəkinmə!"** *(– deyə)* **vəhy etdik.** (Taha surəsi, 77)

**Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür...** (Bəqərə surəsi, 273)

**Ey iman gətirənlər! Səfərə çıxmış.. və ya müharibəyə getmiş qardaşları barəsində...** (Ali-İmran surəsi, 156)

**Yer üzündə səfərə çıxdığınız zaman...** (Nisa surəsi, 101)

Yuxarıdakı ayələrdə "zərəbə" heç bir şəkildə döymək mənasında istifadə olunmamışdır. Eyni şey bəhs etdiyimiz "Nisa" surəsinin 34-cü ayəsi üçün də əsaslıdır. "Zərəbə" kəlməsini bu ayəyə əsasən dəyərləndirdikdə kəlmənin üç fərqli mənası üzərində durmaq lazımdır:

*1- Onları evdən çıxarın,*
*2- Onları olduqları yerdən kənara getməyə vadar edin,*
*3- Onları döyün*

Bu kəlmənin "Nisa" surəsinin 34-cü ayəsindəki mənasını anlamaq üçün ayənin əvvəlindəki *"Özbaşınalıq etmələrindən (nüşuzundan) qorxduğunuz qadınlara"* ifadəsinə nəzər salmaq lazımdır. "Nüşuz" kəlməsi məallarda "özbaşınalıq" olaraq tərcümə edilmişdir. Qadını alçaltmağı hər fürsətdə ayələrə əlavə etmək istəyən xurafatçılar kişiyə itaəti ya mötərizə daxilində, ya da tərcümənin özündə verməyə çalışıblar. Halbuki "nüşuz" kəlməsi bir qadının öz ərindən başqası ilə yaxın münasibət qurub qeyri-qanuni cinsi əlaqəyə qədər davam edən sədaqətsizliyi mənasını ifadə edir. Dolayısilə, ayənin davamında ərinə sədaqətsizlik edən qadına ərinin necə davranmalı olduğu təsvir edilir.

Kişiyə əvvəlcə deyilir ki, qadına bu sədaqətsizliyə davam etməməsi üçün nəsihət versin. Bunun nəticəsi olmayanda kişi qadından yatağını ayırsın. Lakin qadın buna baxmayaraq, qeyri-qanuni münasibətə davam edib zinaya qədər gedib çıxarsa, bu vəziyyətdə ən yaxşı tədbir onu evdən uzaqlaşdırmağı yoxlamaqdır.

Heç şübhə yoxdur ki, qadının qayğı ilə qorunduğu Quranda onun döyülməsinə qəti izin verilmir. Məntiqlə baxanda görərik ki, bütün xəbərdarlıqlara baxmayaraq, ərini aldadan qadını döymək onsuz da artıq sədaqət göstərməyən qadını qəzəbləndirməkdən başqa işə yaramaz və işi həll etməkdən çox çətinlik yaradar. Lakin uzaqlaşdırmaq həll yoludur. Qadın uzaq qaldığı müddət ərzində məntiqli düşünə bilər. Belə ki, peşman olub baş verənlərə daha ağıllı yanaşa bilər. Bundan başqa, xətalarından vaz keçdikləri təqdirdə ərinin artıq onların əleyhində yol axtarmamağı ayədə müəyyən edilən gözəllikdir.

*"Əgər sizə itaət etsələr, onlara (əziyyət vermək üçün başqa) yol axtarmayın"* şəklində tərcümə edilən ifadədə yenə də kişiyə itaət edən qadın düşüncəsindən yola çıxaraq bir növ yönləndirici üsluba əl atılır. Halbuki həqiqi tərcüməyə görə, "verdiyiniz öyüdü dinləyib sədaqətli

davransalar" şəklində açıqlama mövcuddur. Burada söhbət qadının kişiyə itaət etməyindən getmir. Əsas məsələ evlilikdə hər iki tərəfin məsuliyyət daşıdığı sədaqətdir.







**Quranda qadının döyülməsi ilə bağlı heç bir hökm yoxdur.**
**Peyğəmbərimizin dövründə də qadınlara qarşı heç bir zorakılıq olmamışdır.**

## QADINLAR HAQQINDA BAŞQA YANLIŞ MƏLUMATLAR

Quranda qadınlar haqqında bilinən başqa yanlış məlumatlardan biri də Hz. Adəm və onun zövcəsi barəsindəki məlumatlardır. Quranda zövcəsinin Hz. Adəmi aldadıb günaha sürüklədiyi barədə heç bir açıqlama yoxdur. "Əraf" surəsini 11-ci ayədən 28-ci ayəyə qədər oxuyanda görürük ki, Hz. Adəmi və zövcəsini birlikdə aldadan şeytandır.

Eyni şəkildə, Quranda qadının kişinin qabırğa sümüyündən yaradıldığına da dair hər hansı məlumat yoxdur. Bu iftiranın qaynağı olan saxta hədisdən əvvəlki qisimlərdə bəhs etmişdik.

Yanlış bilinən mövzulardan bir başqası isə Quranın yalnız kişilərə xitab etməsi barədədir. Halbuki Quranın 90 faizindən çoxunda kişi və qadınlara birlikdə xitab edilir. Belə ki, "Adəm oğulları" ifadəsi ilə bütün insanlara və "iman edənlər" ifadəsi ilə inananlara xitab edilir. Tək kişilərə xitab edən ayələr kimi, yalnız qadınlara xitab edən ayələr də vardır. Quranda bəzi ayələr isə birbaşa Peyğəmbərimizə xitab edir.

## PEYĞƏMBƏRİMİZİN QADINLAR HAQQINDAKI XOŞ SÖZLƏRİ

Əlbəttə, bir qadının İslamdakı dəyərini anlamağımız üçün bizim rəhbərimiz Qurandır. Peyğəmbərimiz yalnız Quranın tətbiqçisi olduğuna görə Qurana uyğun əməllərindən bəhs edən hədislərin doğru olduğundan əminik. Belə ki, həmin səhih hədislər qadınlara qarşı qorxunc fikirlər əks etdirən və Qurandan tamamilə uzaq olan saxta hədislərlə zidd mənalar ehtiva edir. Qurana uyğun gəldiyi üçün tam səhih olduğu ehtimal olunan hədislərdən bəziləri belədir:

*Dünyanızdan mənə üç şey sevdirildi: gözəl qoxu, saləhə qadın, gözümün nuru namaz.* (Nəsai, İşrətül-Nisa 1, (7,61))

*Qadınlara ancaq ləyaqətli və şərəfli adamlar dəyər verər. Onları ancaq pis və alçaq adamlar xor görər...* (İbn Əsakir)

*Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı davrananlarınızdır.* (İbn Əsakir)

*Xanımlarınızı üzməyin. Onlar Allah-Taalanın sizə əmanətidir. Onlara xoş davranın yaxşılıq edin!* (Müslim)

*Xanımı ilə yaxşı keçinib zarafat edəni Allah sevər, ruzisini artırar.* (İ.Lal)

*Ən üstün mömin xanımına qarşı ən yaxşı, ən lütfkar davranan gözəl əxlaqlı kimsədir.* (Tirmizi)

*Ən yaxşı müsəlman xanımına qarşı ən yaxşı davranandır. Aranızda xanımına ən yaxşı davranan mənəm.* (Nəsai)

*Xanımına gülər üzlə baxan kişinin dəftərinə bir kölə azad etmiş savabı yazılar.* (R.Nasihin)

*Xanımını döyən Allaha və Rəsuluna asi olar. Qiyamətdə o adama qarşı çıxaram.* (R.Nasihin)

## XURAFATÇILARIN SƏNƏTDƏN NİFRƏT ETMƏSİ

Əvvəlki hissədə gördüyümüz kimi, dinin əsası olan Quranı deyil, yalnız öz qaranlıq düşüncə və məntiqlərini qəbul edən xurafatçılar xüsusilə qadınları Qurandan, ibadətdən, fikri mübarizədən və təbliğdən uzaq tutmaq üçün minlərlə yalan uydurublar. İslam cəmiyyətlərinin Peyğəmbərimizin dövründən qısa zaman sonra pozulmağa başlamağının ən əsas səbəblərindən biri odur ki, həmin cəmiyyətlər Qurandan uzaqlaşdılar və bunun təzahürü olaraq da qadına qarşı müxtəlif həqarətlər formalaşdırdılar. Bu yanlış düşüncə üzündən İslam toplulukları geriləməyə başladı. Buna ikinci bir təsir daim iş başında olmuşdur: xurafatçıların sənətdən nifrət etməsi.

Xurafatçıların sənət nifrətindən bəhs etməzdən əvvəl xurafatçı düşüncənin əsasını əmələ gətirən həqiqəti təkrar xatırladaq. Ayədə Rəbbimiz halalları haram edənlərin mövcudluğundan bəhs edir:

**Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!"– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.** (Nəhl surəsi, 116)

Əlbəttə, dövrümüzdə haramlara əhəmiyyət verməyib Allahdan qorxmayan insanlar vardır. Lakin ayədə bildirilən və Allahın halal etdiklərini din adından haram edənlər başqa kateqoriyanın mənsubudurlar. Bu adamlar Quranın izin verdiyi şeyləri qadağan edir, insanların əllərindən azadlığını almağa çalışırlar. Kitabın əvvəlindən bəri dəlilləri ilə qeyd etdiyimiz kimi, əslində, Qurandakı dini bəyənməyib yeni din yaratmaq niyyətindədirlər.

Bu adamlar Quranda təriflənən və bəyənilən sənət, sevinc və yumor kimi anlayışları da haram ediblər:

### ZARAFATDAN, MƏZHƏKƏ VƏ GÜLMƏKDƏN ÇƏKİNMƏYİN LAZIM OLDUĞU İDDİASI

*Əbu Abdulla belə buyurub: "Qəhqəhə şeytandandır".*

(İman və küfr kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1068)

*Əbu Abdulla belə buyurub: "Həddindən artıq zarafatdan və məzhəkədən çəkinin; çünki bunlar insanın üzünün suyunu aparır".*

(İman və küfr kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1068)

*İmam belə deyərdi: "Elə gülün ki, dişləriniz görünməsin".*

(İman və küfür kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1067)

*Əbu Abdulla belə buyurub: "Çox gülmək qəlbi öldürür".*

(İman və küfür kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1067)

*İbrahim bin Mihzəm ona danışan birinin vasitəsilə rəvayət edir. Əbül-Həsən əl-Əvvəl (Musa bin Cəfər) belə buyurub: "Yəhya bin Zəkəriyyə ağlayardı, amma gülməzdi. Məryəm oğlu İsa isə bəzən gülər, bəzən isə ağlayardı. İsanın etdiyi Yəhyanın etdiyindən daha üstündür.*

(İman və küfür kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1070)

*Həsən bin Kuleyb rəvayət edir: Əbu Abdulla belə buyurub: "Möminin gülməyi təbəssümdən ibarətdir".* (İman və küfür kitabı / Üsuli-kafi kitabı / əl-Kuleyni, səh.1067)

Bu saxta hədislər xurafatçıların nə qədər qorxunc və soyuq bir dünyaya malik olduqlarını göstərir. Yadınızdadırsa, kitabın əvvəlində xurafatçıların

qaranlıq dünyasının hər yerdə büruzə verməyindən, həmçinin qadına, çiçəyə, hətta pişiyə baxışlarında belə özünü göstərməyindən bəhs etmişdik. Yuxarıdakı saxta hədislər xurafatçıların xoşbəxtlikdən və insanın ən təbii və ən böyük ehtiyaclarından biri olan gülüş və yumor kimi nemətdən nə qədər uzaq olduqlarını açıq şəkildə ifadə edir. Həyatda gülməyi qadağan edən sistem mövcud ikən və saxta hədislərdən peyğəmbərlərin belə gülmədiyini öyrəndiyi halda, xurafatın içində yaşayan insanların hansı hala düşdüyünü düşünmək çətin deyil.

Halbuki Qurandakı din müsəlmanlara hüznü qadağan edir. Müsəlman dünyanın ən xoşbəxt adamıdır. Çünki müsəlman səbirli olmaqla və təvəkkül etməklə Allaha itaət edir. Gələcəkdə baş verəcək şeylərə görə narahat olmaz və başına gələn çətinliklərin xeyirlə yaradıldığını bilir. Belə ki, hər şeyin qədərdə olduğunun fərqindədir və ölüm onun üçün son deyil, Allaha və sonsuz həyata qovuşmaq anıdır. Quranda Allah iman edənlərə cənnətlə müjdə verir. Bütün bunlar onsuz da möminlərin sevinci üçündür. Allah bizim dünyada da cənnət əxlaqı göstərməyimizi istəyir. Çünki bəyəndiyi əxlaq budur.



**Kədərin yayılması və normal göstərilməsi üçün hal-hazırda böyük bir səy var ikən, iman edənlərin öhdəsinə düşən, hüzur və sükunətlə yanaşı sevinci hakim etməkdir.**

## Qurana Görə, Hüzn və Bədbəxtlik Yalnız İnkarçıların Xüsusiyyətidir

**Qoy onlar etdikləri** *(günahların)* **cəzası olaraq az gülüb çox ağlasınlar.** (Tövbə surəsi, 82)

**Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq.** (Muminun surəsi, 106)

Göründüyü kimi, Quranda bədbəxtlik inkarçılara yaraşdırılır. Ayəyə əsasən, bu adamlar axirətdə azğınlıqlarının səbəbi kimi bədbəxtliyə yenildiklərini deyirlər. Dolayısilə, bədbəxtlik Allahın istədiyi şey deyil. Quranda bədbəxtlik inkarçılar, xoşbəxtlik isə iman edənlərə layiq görülür.

Yenə ayələrdə Allah bədbəxtlikləri üzündən Quranın verdiyi nəsihətlərdən qaçanlar haqqında xəbər verir:

*(Allahdan)* **qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar.** (Əla surəsi, 10-11)

Uca Allah qəm-kədəri bütün müsəlmanlara qadağan edir:

**Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.** (Ali-İmran surəsi, 139)

Xurafatçılar Allahın bu ayələrini saxta hədisləri bəhanə gətirərək hökmdən qaldırmağa çalışırlar. Müsəlmanlara Allahın inkarçılara layiq gördüyü hüznü uyğun görürlər. Ruhun və bədənin ən böyük ehtiyacı olan sevinci yox etmək istəyirlər. Halbuki Allah bunu istəmir. Allah cənnəti sevinc yurdu olaraq yaratmışdır.

## Cənnətdə Sevinc və Hüznün Həqiqi Mənası

Allah bəyəndiyi və sevdiyi həyat formasını sonsuz yurdumuz olan cənnətdə yaratmışdır. Dolayısilə, cənnətdə Rəbbimizin təriflədiyi və bəyəndiyi həyat bizim üçün ideal həyatdır. Allah cənnətdəki insanların sevinc içində olduqlarını bildirir:

**İman gətirib yaxşı işlər görənlərə gəlincə isə, onlar Cənnət bağçalarında şadlıq içində olacaqlar.** (Rum surəsi, 15)

Xurafatçılar saxta hədislər vasitəsilə cənnətdə sevinc içində olan müsəlmanları dünyada həmin sevinci yaşamaqdan məhrum etmək istəyirlər. Hüznlü olmağın həqiqi mənasını bilmirlər. Baş verən hər hansı hadisəyə görə üzülmək "kaş, olmasa idi" deməklə eyni şeydir. Bu isə öz növbəsində (insan bunu qəbul edib-etməsə də) qədərə qarşı üsyandır. Xurafatçılar başa düşməlidirlər ki, qəm-kədəri halala çevirməklə Allahın hökmünə və Allahın yaratdığı qədərə qarşı çıxırlar.

Allahın insana verdiyi ən böyük nemətlərdən biri imandır. İmanlı insan dünyanın bütün nemətlərindən uzaq olsa da, ən böyük çətinliklərlə imtahan olunsa da və baş verənlər əleyhində imiş kimi görünsə də, imanın qəlbində yaratdığı xoşbəxtlik hissi bütün bunların hamısından üstündür. Allah Ona üz tutan insanların qəlbinə rahatlıq, ruhuna da xoşbəxtlik verir. Allaha yönəlməyən insan -bunu təkzib etsə də- həqiqi mənada xoşbəxt ola bilməz. Allah imtahandan dolayı ona dünya nemətlərindən verə bilər. Həmin adamın

kənardan nemət və gözəllik içində olduğu görünə bilər. Keçici həvəs və xoşbəxtlik yaşaya bilər. Lakin ruhu daimi xoşbəxtliyi, yəni daxili rahatlığı yaşamaz. Allah Quranın "Rəd" surəsinin 28-ci ayəsində: **"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır."** –buyurur. Qəlbin rahatlığı yalnız Allahı yada salmaqla mümkündür.

Dolayısılə, Allaha, həqiqətən, iman edən insan gerçək mənada xoşbəxtdir. Onsuz da xoşbəxt olmaq insanın fitrətinə ən uyğun olan, insanı sağlam və zində tutan gizli sirdir. Hüceyrələr xoşbəxt olmaqla sağlam qalır. Bu müsbət təsirin səbəbi fitrətə uyğun olan şeylərin Allahın insanlara nəsihət etdiyi gözəlliklər olmasıdır. Allah gülməyi və sevinməyi gözəllik üçün yaratmışdır. Hüznün isə psixoloji və fiziki yöndən insanı ölümə qədər sürükləyən mənfi təsirləri vardır.

## "MƏZHƏKƏDƏN ÇƏKİNİN" İDDİASI

Məzhəkə mövzusundakı qadağalar haqqında ayrıca danışmaq lazımdır. Müvəffəqiyyətli yumor bir sənətdir. Bu işi mükəmməl görən insanlar, ümumiyyətlə, ağıl ilə sənəti birləşdirib möhtəşəm əsərlər ərsəyə gətirirlər. Məzhəkə bəzən mühitə xoş ab-hava gətirir, bəzən də açıq deyilə bilinməyən mövzuların üstü örtülü şəkildə zarafatyana ifadə olunmasına yardımçı olur. İnsanlara onları güldürməklə nəsihət verməsi, eyni zamanda qəlbə xitab edəcək şəkildə istifadə olunması məzhəkəni böyük nemətə çevirir. Sənətin hər növü kimi, məzhəkə də cəmiyyətlərə zəriflik gətirir və insanların dünya görüşlərini artırır. Məzhəkə həm də demokratiyanın gözəl tərəfidir. Xurafatçılar özlərini bu cür gözəl nemətdən uzaqlaşdırıb ruhsuz həyatın dərinliyinə sürüklənirlər.

Onların sevinc, qəhqəhə və yumora dair olumsuz düşüncələri yuxarıda qeyd etdiyimiz kimi, Quran tərəfindən təkzib olunur. Peyğəmbərimiz və səhabələri Quranın bu ruhuna uyğun hərəkət etmiş və imanın gətirdiyi sevinci yaşamışdılar:

*Hz. Aişə rəvayət edir: "Səfərlərindən birinə Rəsulullahla çıxdım. Rəsulullah səhabələrə: "İrəliləyin", –dedi. Onlar da irəlilədilər. Daha sonra: "Gəl səninlə yarışaq", –dedi. Onunla qaçış yarışına çıxdım və onu keçdim. Mənə bu barədə heç nə demədi... Bir gün yenə onunla səfərə çıxdım. O, səhabələrə yenə: "İrəliləyin", –deyə buyurdu. Onlar da irəlilədilər. Mənə: "Di gəl, yarışaq", –dedi. Yarışdıq, amma bu dəfə o məni keçdi. Gülməyə başladı və dedi ki, elə uduzmalı idin".*

(Beyhəki, Sünənül-Kübra, X/18; İmam Əhməd, Müsnəd, VI/264)

*Əbu Üsamə: "Onunla zarafatlaşırdı", –demişdi.* (Əbu Davud, Sünən, Kitabülədəb, bab 91; Tirmizi, Sünən, 192, 1992, 3828; İmam Əhməd, Təbərani, Tirmizi, İbn Əsakir)

*Əbu Hüreyrə deyir ki, Rəsulullah Hz. Əlinin oğlu Hüseynə dil çıxarır, uşaq da bunu görüb sevincdən çırpınırdı.*

*Abdullah ibnül-Haris bin Cəz belə buyurub: "Rəsulullahdan daha zarafatcıl birini görmədim".*

*Hz. Aişədən: Rəsulullah: "Mən zarafat edirəm, amma ancaq haqqı deyirəm", –buyurub.*
(Təbərani, Mücəmül-kəbir, XII-391; Heysəmi, Məcmaüz-zəvaid, IX-17; Əcluni, Kəşfül-xəfa, I/572)

*İbn Abbas belə buyurub: "Peyğəmbərin zarafatı var idi".*

*Ənəs: "Peyğəmbər insanların ən zarafatcılı və gözəl sözlüsü idi".*



**Mövhümatçıların sevinc, gülüş və zarafatla bağlı bütün mənfi iddiaları Quranla təkzib olunur. Peyğəmbərimiz və səhabələri də Quranın ruhuna uyğun olaraq xoşbəxt halda yaşamışlar.**

## MUSİQİ VƏ ŞEİRİN HARAM OLDUĞU İDDİASI

***Qadi Əbu Bəkir ibnül-Ərəbi "Əhkamil-Quran"ında Abdullah bin Mübarək və İmam Malikin Hz. Ənəsdən rəvayət etdiyi bir hədisi nəql edir: "Hər kim musiqi məclisində bir müğənni qızın söylədiyi mahnıya qulaq asarsa, axirət günü onun qulaqlarına ərimiş qurğuşun töküləcək".***

*Sizdən birinizin içinizin qusacağı şeylə və qanla dolu olması şeirlə dolu olmasından daha xeyirlidir.* (M.Məsabih, 4/4809)

*Musiqi dinləyən bir adama cənnətdə ruhaniləri dinləmək izni verilməz.* (Qurtubi, 14/53)

*Mahnı qəlbə nifaq salır.* (Əbu Davud)

*Allah mahnını, onun alış-verişini, pulunu, öyrətməyi və dinləməyi haram edib.* (Muhəmməd Qəzali, Nəbəvi sünnə)

Bütün bu saxta hədislərin əksinə olaraq, Quranda musiqinin, rəqs və əyləncənin qadağan olunmasına dair bircə hökm belə yoxdur. Allah xoşbəxtliyi, zövqü və sevinci müsəlmanlara halal edib. Rəqs ritm və ahəngdir. Allah bütün kainatı ritmlə yaradıb. Quşlar, böcəklər, kəpənəklər belə rəqs edirlər. Quşlar inanılmaz səs və ritmlə zümzümə edirlər. Onları dinləmək insana zövq verir. Dənizin səsi, təbiətin xışıltısı və ağac budaqlarının dalğalanması ritmdən ibarətdir. Allah ritmi, rəqsi, musiqini və gözəl səsi sevir. Cənnət də ritmlə yaradılıb. Cənnətdə bütün ağaclar, çiçəklər və heyvanlar rəqs edəcəklər. Bu barədəki hədislərdən biri belədir:

***Əbu Musa əl-Əşaridən nəql edilən rəvayət belədir: O, Bəsrə minbərində belə deyib: "Allah cənnət əhlinə xəbər göndərib soruşacaq ki, Allah sizə verdiyi sözü yerinə yetirdimi? Onlar özlərinə verilən zinətlərə, geyimlərə, tərtəmiz zövcələrə, meyvələrə və çaylara nəzər salacaq, sonra özlərini saxlaya bilməyib belə deyəcəklər: "Allah bizə verdiyi sözü yerinə yetirib". Mələk üç dəfə: "Allah sizə verdiyi sözü yerinə yetirdimi", –deyə soruşacaq. Onlar da vəd edilən hər şeyin qüsursuz olaraq yerinə yetirildiyini görüncə: "Bəli", –deyə cavab verəcəklər. Mələk qarşılıq verərək deyəcək ki, bir şey də qalıb. Çünki Allah-Taala qullarına təcəlli edib gözlərindən pərdəni qaldıranda və onlar da Allahı görəndə bütün çaylar coşacaq, ağaclar yellənib səslər çıxaracaq, bütün köşklər od qığılcımları avaz edəcək. Bulaqlar şırıl-şırıl daha da sürətli axacaq, gözəl qoxular saray və köşkləri bürüyəcək. Hər tərəfdə gözəl ətirli müşk və kafur hiss ediləcək. Quşlar ötüşəcək, hurilər bütün gözəllikləri ilə göz qamaşdıracaq.*** (Ölüm, Qiyamət, diriliş, İmam Şarani, səh.370)



## Zarafatdan, Məzhəkə və Gülməkdən Çəkinməyin Lazım Olduğu İddiası

Allah cənnətin gözəlliyini və cənnətdəki ahəngli musiqinin coşqusunu Peyğəmbərimizə belə ilham etmişdir. Allahın cənnətdə yaratdığı və təriflədiyi gözəllik insanlara necə haram ola bilər? Əlbəttə ki, haram deyildir.

Dünyanın hər yerində insanlar rəqs edirlər. Musiqinin və rəqsin qadağan olduğu bir dünya insan fitrətinə uyğun deyil. Bu, böyük boşluq və nemət çatışmazlığıdır. Uca Rəbbimizin təriflədiyi və gözəl gördüyü neməti haram etməyə çalışmaq Allahı və uca sənətini anlamamaq deməkdir.

## Musiqini Qadağan Etməyə Çalışan Xurafatçıların Qeyri-Səmimiliyi

Bütün bunlardan bəhs edərkən xurafatçıların gerçək dünyasını araşdırmaq lazımdır. Özlərindən Quranda olmayan saxta haramlar çıxardıqlarına görə onların böyük əksəriyyəti gündəlik həyatda davamlı ziddiyyət və saxtakarlıqla iç-içədirlər. (Səmimi olanları tənzih edirik). Belə ki:

–Musiqinin haram olduğunu deyənlər, ümumiyyətlə, musiqi kanallarına baxan, hətta musiqi ilə əylənən adamlardır.

- *Həmin adamlar gerçək həyatda toylara gedir, halay çəkir, xına gecələrində mahnı oxuyurlar.*

–Bu adamların avtomobillərində, adətən, musiqi kanalları qurulmuş durumdadır.

Sürəkli olaraq musiqi dinləmək, toylara gedib halay çəkmək zərərli vərdiş deyil, əksinə, bunlar onsuz da gözəl şeylərdir və nemətdir. Burada onların qeyri-səmimi olduqlarını tənqid etməklə bildiririk ki, bu adamların dindən istifadə edib musiqini qadağan etmələri yalnız nümayiş xarakterlidir. Din adından qadağa qoyanların gerçək simasını tanımaq əhəmiyyətlidir. Onların vəziyyəti haqqında Quranda xəbər verilir. Özləri üçün Qurandan kənar din çıxaranlar haqqında Rəbbimiz belə buyurur:

**... Rahibliyi isə onlar özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir.**
(Hədid surəsi, 27)

Allah bu ayədə bidət kimi ortaya çıxarılan saxta dinin Allahın kitabında olmadığını və bu dini çıxaranların özlərinin də həmin dinə riayət etmədiklərini xəbər verir. Bu ayələr vasitəsilə həmin insanların ikiüzlü olduqlarını Qurandan öyrənirik. Şəxsi həyatları isə Qurandakı həqiqəti təsdiq edir. Bir çoxları elə zənn edə bilər ki, həmin şəxslər bu məhdudiyyətlər içində çox təqvalı həyat yaşayırlar. Aralarında səmimi şəkildə buna inananlar olsa da, həqiqətdə belə deyildir. Onsuz da səmimi olanlar gec-tez doğrunu görüb Quran müsəlmanlığını yaşamağa başlayırlar. Bir insanın səmimi olub saxta dini yaşaması mümkün deyil. Çünki Allahın vədi vardır:

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.**
(Ənfal surəsi, 29)

Ayədə deyildiyi kimi, səmimi olan hər kəs doğrunu yanlışdan ayırd edəcək anlayışa mütləq yiyələnir.



**Rəqs bütün dünyada lazım olan bir əyləncə növüdür. Musiqinin və rəqsin qadağan olduğu bir dünya insan təbiətinə uyğun deyil.**




## Allah Musiqini Sevər, Bunu Qullarına da Sevdirmişdir

Musiqi və rəqs İslamda halal edilən cənnət nemətlərindəndir. Musiqini, mahnıları, musiqi alətlərini, gözəl geyimləri, zinət əşyalarını, rəqsi və gözəl olan hər şeyi Allah yaradır. Allah bunların hamısını insanlara sevdirmişdir və ruhu bu gözəlliklərdən zövq alacaq şəkildə yaratmışdır.

Tövratda Hz.Davudun lir, dəf, zil və zəng bərabərində mahnı oxuyub Allahın hüzurunda rəqs etdiyindən bəhs olunur. Hətta Hz. Davudun rəqs etməsinə həsəd aparanların olduğu da deyilir. Eynilə bu gün müsəlman

cəmiyyətlərində halalı haram edənlərin olduğu kimi, o dövrdə də musəvilərin arasında rəqs və musiqini haram etməyə çalışanların varlığını Tövratdan öyrənirik. Bu adamlar Hz. Davud kimi bir peyğəmbərin hərəkətlərini tənqid edirdilər.

*... Bu arada Davudla bütün İsrail xalqı Rəbbin önündə lira, çəng, qaval, zınqırov və sinc sədaları altında mahnı oxuyub bu hadisəni var gücləri ilə qeyd edirdilər...* (Tövrat, II Samuel, 6:5)

*Kətan efod geyinən Davud Rəbbin önündə var gücü ilə oynayırdı. Davudla bütün İsrail xalqı sevinc və boru sədaları altında Rəbbin sandığını gətirirdilər. Rəbbin sandığı Davud şəhərinə çatanda Saulun qızı Mikal pəncərədən baxdı. Rəbbin önündə RƏQS EDƏN Kral Davudu görüncə ona əhəmiyyət vermədi.* (Tövrat, II Samuel, 6:14-16)

*Saulun qızı Mikal Hz.Davudun zövcələrindəndir.

*Davud ailəsinə xeyir-dua vermək üçün evə qayıtdıqda Saulun qızı Mikal onu qarşılamağa çıxdı. Davuda belə dedi: "İsrail kralı bu gün özünə necə də gözəl ad-san qazandırdı! Dəyərsiz biri kimi qullarının cariyələri qarşısında soyundun". Davud ona: "Atan və bütün nəslinin yerinə məni seçən və İsrail xalqına başçı təyin edən Rəbbin qarşısında oynadım!" –deyə cavab verdi: "Bəli, Rəbbin qarşısında oynayacağam. Üstəlik, özümü bundan daha da biabır edəcəyəm, heçə sayacağam. Amma dediyin o cariyələr məni şərəfləndirəcəklər".* (Tövrat, 2. II Samuel, 6:20-22)

*Tanrının sandığını Avinadavın evindən götürüb yeni bir arabaya qoydular. Arabanı Uzza ilə Ahyo sürürdü. Bu zaman Davud və bütün İsrail xalqı Allahın qarşısında lira, çəng, qaval, zil və şeypurun sədaları altında nəğmələr oxuyaraq, var gücləri ilə bu hadisəni qeyd edirdilər.* (Tövrat, I tarixlər 13:7-8)

*Beləliklə, israillilər sevinc səsləri ilə boru, şeypur, zil, çəng və liralar çalaraq Rəbbin Əhd sandığını gətirirdilər. Rəbbin Əhd sandığı Davud şəhərinə çatanda Saulun qızı Mikal pəncərədən baxdı. Oynayıb tullanan kral Davudu görəndə ona içində xor baxdı.* (Tövrat, I tarixlər 15:28-29)

Göründüyü kimi, o dövrdə Hz. Davudun zövcəsi belə onun insanların arasında rəqs edib sevinc içində əylənməsinə qarşı çıxmış, bu hərəkətini bəyənməmişdir. Halbuki Allah bu əyləncəli mühiti Tövratda tərifləmişdir. Şübhəsiz, Hz. Davud da Allahın musiqi və rəqsə dair hökmlərinə tabe olaraq ən gözəl şəkildə davranmışdır. Lakin kənardan baxanlar, Hz. Davudun peyğəmbərliyinə güvənməyənlər və öz-özlərinə təəssüb dini yaratmağa çalışanlar onu mühakimə edirlər.

Peyğəmbərlərə qarşı irəli sürülən bu mühakimələr hazırda dövrümüzdə gerçək Quran müsəlmanlarına qarşı irəli sürülür. Qurandakı dinin yerinə təəssübü seçmək onsuz da tarix boyu ən böyük bəlalardan biri olmuşdur. Qadın, musiqi və rəqs bunun ən bariz nümunələrindən biridir.

Halbuki Hz. Davud misalında olduğu kimi, Peyğəmbərimizin də Allahın neməti olan musiqi və rəqsdən çox xoşu gəlirdi. Belə ki, Peyğəmbərimizin

hədislərində rəqs edən səhabələrdən bəhs edilir, hətta Peyğəmbərimizin oynayıb əylənən insanları təşviq edən sözləri vardır. Qurana uyğun olduqlarına görə aşağıda bir neçə nümunəsi verilən hədislər böyük ehtimalla səhihdir:

*Amir bin Səddən nəql edilib:*

*Bir gün düyün münasibətilə Karaza bin Kab və Əbu Məsud əl-Ənsarinin yanına getdim. Kiçik bir qız uşağı mahnı oxuyurdu. Mən: "Siz Rəsulullahın dostları və Bədir əshabından olduğunuz halda, yanınızda necə belə şeylər edə bilirlər?" –deyə soruşdum. Onlar: "İstəyirsən bizimlə qal, istəyirsənsə də get. Bizə düyündə əylənməyə izin verilib", –dedilər.*

(İbn Həcər, Mətalib, II, 54; Cüdey, Əhadisi-zəmmil-qina, səh.50)

*Sələmə bin Əqvadan rəvayət edilib:*

*Peyğəmbərlə birlikdə Xeybərə yola çıxmışdıq. Gecə vaxtı idi. Karvandan bir nəfər Amir bin Əqvaya: (şairliyi ilə tanınan adam idi) "Bizə bildiyin şeylərdən oxu, dinləyək", –dedi. Amir dəvədən enib bu türkünü oxumağa başladı: "Ey Allahım, Sən olmasa idin, biz hidayət tapmazdıq; sədəqə verib namaz qılmazdıq; hər şeyimiz Sənə fəda olsun, bizi bağışla; düşmənlə qarşılaşanda bizi sabitqədəm eylə; bizə təskinlik və güvən hissi ver; biz çağırılanda gedərik; səslənəndə yardıma çatarıq". Peyğəmbərimiz soruşdu ki, bu adam kimdir? Dedilər ki, Amir bin Əqvadır. Peyğəmbərimiz buyurdu ki, Allah onu əsirgəsin.* (Beyhəki, Şuab, 5112)

*Aişə rəvayət edir: Rəsulullah bir düyündə ənsarın xanımlarına baş çəkdi. Onlar mahnı oxuyurdular...* (İbn Macə, Nikah: 21; Buxari, Nikah: 48; Məqazi: 12)

*...Müəvviz bin Əfranın qızı ər-Rubey gəlin olanda düyün məclisinə Peyğəmbərimiz də getmişdi və yanında oturmuşdu. Bu zaman bəzi qızlar dəf çalıb Bədir günü şəhid olanların dastanını mahnı kimi oxumağa başladılar...* (Buxari, Nikah, 49/1, VII/25, Tirmizi, Nikah, III-399)

*Yenə Hz. Aişə bir qadını ənsardan birisi ilə evləndirmişdi. Peyğəmbərimiz: "Ey Aişə, yanınızda dəf çalan, mahnı oxuyan yoxdurmu? Çünki ənsarın oyun və əyləncədən xoşu gəlir", –dedi.* (Buxari, Nikah 64/1, VII/28)

*Rəsulullah Mədinədə bir yerə getmişdi. Gördü ki, gənc qızlar dəf çalıb mahnı oxuyurlar: "Biz Bəni-Nəccar qızlarıyıq; Muhəmməd nə sevimli qonşudur". Rəsulullah bunu eşidib: "Allah şahiddir ki, mən də sizi sevirəm", –buyurdu.* (İbn Macə, Nikah, 21/1899, I/612)

## RƏSM VƏ HEYKƏLTƏRAŞLIĞIN HARAM OLDUĞU İDDİASI

*Cəhənnəmdə ən şiddətli əzaba düçar olanlar rəssamlardır.* (Buxari, Təsavir, 89)

*Rəsulullah buyurub ki, kim şəkil çəkərsə, Allah onu Qiyamət günü çəkdiyi rəsmdən ötrü, ruh üfləyənə qədər əzab verər. Heç bir zaman da ruh üfürən deyil.* (Buxari, Təbir)

*Allahın yanında əzabı ən şiddətli əzaba düçar olacaq insanlar rəssamlardır.* (Müslim, 6:369)

*Bu surətləri çəkənlər qiyamət günündə əzaba düçar olarlar və onlara*

*deyiləcək ki, çəkdiyiniz üzlərə can verin.* (Müslim, 6:368)

*İçində surətlər olan evə mələklər girməz.* (Buxari, Libas 91)

*Bütün müsəvvirlər cəhənnəmdədir. Musəvvirin təsvir etdiyi hər surətə Qiyamət günündə Allah həyat verər; o canlı surət cəhənnəmdə onu çəkənə əzab verər.* (Müslim, 6:370)

Bu saxta hədislər vasitəsilə xurafatçılar müsəlmanlara rəsm və heykəl sənətini də haram etmişdir. Hətta uydurulan bəzi hədislərə görə, rəssamlar axirətdə ən böyük əzab görən insanlardan sayılırlar. Bu anlayışa əsasən, həmin şəxslər Allahın yaratdıqlarını təqlid edərək (haşa) ilahlıq iddiasına girirlər. Çox maraqlıdır, bir rəssamın və ya heykəltəraşın sənət əsəri meydana gətirməsinin ilahlıq iddiası ilə nə cür əlaqəsi ola bilər? Bir rəssam və ya heykəltəraş əgər belə bir iddia ilə ortaya çıxırsa, bu, onun əsəri üzündən deyildir. Ancaq əqli və ruhi problemi üzündən ola bilər. Bu isə hər məslək sahibi üçün əsaslı ehtimaldır.



Təbiətdəki bütün gözəlliklər uca Rəbbimizin sənət əsəridir. Biz sənətin möhtəşəmliyini Rəbbimizin əsərlərinə baxmaqla anlaya bilərik. Belə ki, yer üzündə haradasa bütün texnoloji alətlər Allahın yaratdıqlarının təqlid edilməsi ilə inkişaf etdirilmişdir. Texnologiya üçün yaradılan gözəlliklərin varlığı bir nemətdir. Məsələn, təyyarə istehsalında insanlar Allahın yaratdığı quşları və bəzi milçək növlərini təqlid edirlər. Bu təyyarələr canlılardan ilham alınmaqla inkişaf etdirildiyi üçün mükəmməl uçuş və manevr qabiliyyətinə malikdir. Bu, üstünlükdür; çünki təbiətdə onsuz da yaradılan və mükəmməl işləyən nümunə vardır. Bu nümunə Allahın bütün mühəndislərə model olaraq verdiyi hədiyyədir. Hazırkı texnoloji dünya, həyatımızı asanlaşdıran və rahatlığımızı artıran hər cür elmi inkişaf təbiətdəki sənət əsərlərinin nüsxəsindən ibarətdir. Allah təbiətdəkiləri də, texnoloji təqlidlərini də bizim üçün nemət olaraq yaradır.



Heykəl sənəti xurafatçılar tərəfindən, əslində, keçmişdən gələn adət-ənənə üzündən hədəf alınıb. Keçmişdə bütpərəstliyin yayıldığı dövrlərdə bir çox hökmdarlar bəzi şəxslərin büt düzəltməyinin qarşısını almaq üçün heykəltəraşlığa qarşı xüsusi tədbir almışdılar. Qədim zamanlarda cəmiyyətlərdəki ehtimal təhlükələrin qarşısını almaq məqsədilə görülən bu tədbirlər Quranda hər hansı hökm olmadığına baxmayaraq, dinin bir qadağası kimi yayılmışdır. Bu da bəzi insanların Quranın yerinə adət-ənənələri mənimsəmələrinin gətirdiyi ən böyük təxribatlardan biridir.

Məcusilər atəşə, hindular inəyə, bəzi topluluqlar da günəşə sitayiş edir deyə inəkləri öldürüb od və günəşdən uzaq bir həyat sürə bilməyəcəyimiz üçün bütə təzim edən bütpərəstlərə görə də bütün heykəlləri qadağan etməyin bəsit düşüncə şəkli olduğu açıq-aydındır. Burada anormallıq nəsnə və varlıqları ilahiləşdirməkdədir və harama girənlər bunları edən insanlardır, nəsnələrin özü deyil.

Xurafatçıların müsəlmanlara haram etməyə çalışdıqları rəsm və heykəl sənəti Qurana əsasən, qətiyyən haram deyil. Allah sənəti sevir və qullarına da sevdirmişdir. Allah bütün kainatı sənətlə yaratmışdır. Quranda rəsm və heykəl kimi gözəl sənətləri haram edən ayə yoxdur. Tam əksinə, Quranda sənət əsərlərindən təriflə bəhs edilir.

Hz. Süleymanın sarayında mövcud olan və səltənətinin ehtişamı kimi təriflənən heykəl və digər sənət əsərlərindən Quranda bu şəkildə bəhs olunur:

*(Cinlər)* **onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli!** *(Bu nemətlərə)* **şükür edin! Qullarımdan şükür edəni azdır.**
(Səba surəsi, 13)

Bu Quran ayəsinə baxmayaraq, sənətə qadağa gətirən xurafatçılar sarayında möhtəşəm gözəllikdə heykəllər mövcud olan Hz. Süleyman

haqqında nə düşündüklərini açıqlamalıdırlar.

Xurafatçıların İslam cəmiyyətlərinə zərərləri çox böyük olub. İslam dünyasında heykəl və rəsm sənəti xurafatların yayıldığı dövrlərdən sonra heç bir zaman inkişaf etməmişdir. İncəsənəti inkişaf etdirə bilməyən cəmiyyətlər cansız və köhnə qalırlar. Yeniliklərə qapalı olurlar. Yaradıcılıq və incəlik görmək qabiliyyətlərini də itirirlər. Zövqsüzlük və donuqluq əhval-ruhiyyələrinə, bir-birilərinə qarşı davranış formalarına da əks olunur. Xurafatçıların qaranlıq dünyasına incəsənətdən uzaqlaşmağın nəticəsi kimi qorxunc bir zövqsüzlük və monotonluq hakimdir.



**Mövcud texnologiya aləmi, həyatımızı asanlaşdıran və rahatlığımızı artıran hər cür elmi inkişaf, təbiətdəki bu sənət əsərlərinin birə bir eynisidir.**

**Allah təbiətdəkiləri də, texnologiya təqlidlərini də bizim üçün bir nemət olaraq yaradır.**

## QIZIL VƏ İPƏYİN QADAĞAN OLDUĞU İDDİASI

Rəsulullah bir ovcuna bir az ipək, o biri ovcuna da bir az qızıl götürüb buyurdu ki, bu iki şey ümmətimin kişilərinə haramdır. (Tirmizi; Nəsaidə Əbu Musadan gələn digər bir rəvayətdə deyilir ki, ümmətimin kişilərinə ipək paltar və qızıl haram, qadınlarına isə halal edildi )

Xurafatçılar kişilərə qızıl və ipəyi qadağan ediblər, buna görə də yuxarıdakına bənzər bir çox hədis uydurublar. Halbuki Quranda qızıl və ipəyin qadağan olunduğuna dair heç bir ayə yoxdur. Əksinə olaraq, qızıl da, ipək də bir çox ayədə cənnət neməti olaraq tanıdılır:

**Məhz onlar üçün *(ağacları)* altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!**

(Kəhf surəsi, 31)

**Həqiqətən də, Allah iman gətirib yaxşı işlər görənləri *(ağacları)* altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada qızıl**



**Onlar Ədn bağlarına daxil olacaq, orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcəklər. Libasları da ipəkdən olacaqdır.** (Fatir surəsi, 33)

Peyğəmbərimiz Hz. Muhəmməd dövründə ipək qumaşların istifadəsinə dair hədislər mövcuddur:

*Abdullah bin Səd bin Osmanın atası Səddən rəvayət olunub; dedi ki, Buxarada ağ qatırın üstündə başında qara rəngdə ipək sarıq olan adam gördüm. Deyirdi ki, bunu mənə Rəsulullah geyindirib.*

(Sünəni-Əbu Davud tərcümə və şərhi, Şamil Nəşriyyatı, 14/112)

*Əbu Davud deyir ki, Rəsulullahın səhabələrindən iyirmi nəfər, yaxud daha çoxu ipək geyinib. Ənəs və Bəra bin Əzib bunlardan idi.*

(Buxari, Əşribə 6; Sünəni-Əbu Davud tərcümə və şərhi, Şamil Nəşriyyatı: 14/112-113)

Müsəlmanların gözəl geyimi və gözəlliyə layiq olduğu həqiqəti, göründüyü kimi, Peyğəmbərimizin sünnəsində də var.

Peyğəmbərimizin sünnəsində, əlbəttə, vardır. Çünki Quranda təriflənən bir neməti Peyğəmbərimiz sevib təşviq etmişdir. Yuxarıda verdiyimiz saxta hədisin uydurma olduğunun ən böyük sübutu odur ki, Quranda heç bir şəkildə keçməyən bir əməli Peyğəmbərimizin izahı kimi verməyə çalışıblar. Belə bir şeyin olması qətiyyən mümkün deyil.

Qızıl zinətdir. Daha əvvəl də açıqladığımız kimi, Allah Quranda zinətlərin gözəlliyini tərifləmişdir. **"Ey Adəm oğulları! Məscidlərə** *(gedərkən)* **zinətlərinizi taxın"** (Əraf surəsi, 31) ayəsində olduğu kimi, müsəlmanları gözəl zinətlər üçün təşviq etmişdir.

Yenə xatırladaq ki, "Əraf" surəsində dünyada zinətlərin qadın və ya kişi ayrı-seçkiliyi olmadan hər kəsə halal olduğu bildirilir:

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında** *(hamıya)*, **Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə- izah edirik.** (Əraf surəsi, 32)



## MAKİYAJIN, BAXIMLILIĞIN, TƏMİZLİYİN VƏ GÖZƏLLƏŞMƏYİN HARAM OLDUĞU İDDİASI

### Gözəl Qoxunu Qadağan Edən Saxta Hədislər

*Məscidə gələndə ətir vuran qadın evə qayıdıb cənabət qüslü alırmış kimi yuyunmadıqca,* Allah qatında namazı qəbul olmaz. (Əvnül-məbul, 11/230)

*İmam Cəfəri-Sadiq buyurub ki, heç bir qadın evdən çölə çıxanda paltarına ətir vurmamalıdır.* (Əl-Kafi, cild 5, 519)

*Rəsuli-Əkrəm buyurub ki, bir qadın ərindən başqası üçün ətir vurarsa, cənabət qüslü alırmış kimi, yuyunub o qoxudan təmizlənmədikcə* namazı qəbul olmaz. (Mən la yəxzurxül-fəqih, cild 3, səh.440)

*Rəsuli-Əkrəm buyurub ki, qadının ərindən başqası üçün ətir vurması od və zilləti satın alması deməkdir.* (Nəhcül-fəsahə, cild 1, səh.36)



### Tatunu, Üz Tüklərinin Təmizlənməsini və Estetik Diş Düzəltdirməyi Qadağan Edən Saxta Hədislər

*Döymə vuran və vurduran, üzünün tükünü aldıran və dişlərini gözəllik üçün seyrəltdirən qadınlara Allah lənət etsin.* (Səhihi-Buxari)

### Parik, Qaş Almaq və Tatunu Qadağan Edən Saxta Hədislər

*Parik taxan və taxdıran, qaşını incəldən və incəltdirən, döymə vuran və vurduran lənətlənmişdir.* (Əbu Davud, Tərəccül, 5)

### Qadının Gözəl Geyinib Evdən Çıxmağını Qadağan Edən Saxta Hədislər

*Rəsuli-Əkrəm qızı Hz. Fatiməyə xitabən belə buyurub: "Ey Fatima, hər hansı bir qadın gözəl şəkildə bəzənib və gözəl paltarda evdən çıxıb insanların diqqətini üzərinə toplayarsa, yeddi göyün və yerlərin mələkləri ona lənət edər və ölüb cəhənnəmə gedənə qədər Allahın qəzəbinə tuş gələr. (Əlbəttə, tövbə edib dönsə, başqa məsələ).* (Şəhabül-əxbar)

*İmam Sadiq buyurub ki, Bir insanın alçalıb rəzil olması üçün onu məşhur edən (yəni başqalarının barmaqla göstərdiyi) bir paltar geyinməsi kifayətdir.* (Biharul-Ənvar, cild 78, səh.252)

*Hz. Əli belə buyurub ki, qalın (vücudu göstərməyən) paltarlar geyinin; çünki paltarı incə olanın dini də incə (zəif) olar.* (Biharul-ənvar, cild 79, səh.298)

*Bir hədisdə belə deyilir ki, Allah Rəsulu qadınları çölə çıxarkən başqalarının diqqətini üzərində toplayacaq paltarlar geyinməyini və səs çıxaran zinət əşyaları taxmağını qadağan etmişdir.* (Müstədrəkül-vəsail, cild 14, səh.280)

## Qadının Qızıl və Geyimlərlə Məşğul Olub Cənnəti İtirdiyini İddia Edən Saxta Hədislər

*Cənnətə baxıb gördüm ki, cənnət əhalisinin ən azını qadınlar təşkil edirlər. Vəziyyəti belə görüb soruşdum ki, qadınlar haradadır? Cənnət gözətçiləri belə cavab verdilər: "Onları iki qırmızı, yəni qızıl və rəngli paltarlar cənnətdən uzaqlaşdırdı".*



## Qadına Geyimin Verilməməli Olduğunu İddia Edən Saxta Hədislər

"***Qadınlara onları yaxşı geyindirməməklə yaxşılıq edin.***"

Burada qadınların baxımlılığına dair saxta hədisləri ardıcıl yazmağımızın səbəbi xurafatçıların dinində qadınların necə alçaldığını və əhəmiyyətsiz varlıq olaraq görüldüyünü göstərməkdir. Quranın heç bir yerində olmayan hökmlər saxta hədislər vasitəsilə dinin bir parçası kimi göstərilmişdir. Beləliklə də, həm qadının gözəlliyi ortadan qaldırılmış, həm də qadının şəxsiyyətini və ağlını yox edən cəmiyyət modeli ortaya çıxarılmışdır. Bundan sonra onsuz da sevgi və gözəlliklərdən uzaq həyat sürənlərin

yaşayışı get-gedə daha da korlanmışdır. Dünyanın ən böyük nemətlərindən biri olan qadın gözəlliyi ortadan qaldırıldıqda isə həm öz ruhları, həm də cəmiyyət anlayışları getdikcə çökmüşdür. Əvvəlki hissələrdə ətraflı şəkildə bəhs etdiyimiz kimi, kəskin və detallı düşünən, tədbirli davranan və bir çox yöndən kişilərdən daha iti anlayış gücünə sahib olan qadın ağlının və fikrinin önü kəsilməklə sözügedən cəmiyyətlər inkişafdan məhrum qalmışdır. Maraqlıdır ki, qadınlar saxta dinə inanmaqla özlərini ikinci plana salmağı problem kimi görməyiblər. Baxımsızlıq onları kişilərdən fərqsiz hala gətirmişdir. Bu qadınlar eyni zamanda heç bir mövzuda fikir irəli sürməyən və kişilərin boyunduruğu altına girən hörmətsiz varlıqlara dönüblər.



Halbuki əvvəl də xatırlatdığımız kimi, Allah ayədə zinət və gözəl ruziləri haram edənlərdən bəhs edir. Onlar Qurana zidd davranırlar:

**De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında** *(hamıya)*, **Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə- izah edirik.** (Əraf surəsi, 32)

Təkrar qeyd edək ki, qadın Qurana görə bəzəkdir. Qadın dəyərlidir və qadın gözəlliyi bir nemətdir. Qadının ağlı cəmiyyətləri geniş üfüqlərə yönləndirir. Allah həm bu gözəl xüsusiyyətləri qadına vermiş, həm də onu hörmətlə qoruyub tərifləmişdir. Yuxarıdakı saxta hədislərdə işlənən ifadələri Quran rədd edir.

Bunu unutmaq olmaz ki, gözəllikləri və Allahın sevib bəyəndiyi nemətləri qadağan etməyə çalışan xurafatçılardır. Dolayısilə, xurafatçıların dünyasını gerçək zənn edib məlumatsız şəkildə müsəlmanlığa qarşı çıxanlara reaksiya vermək çox səhv hərəkətdir. Qurana tabe olanlar zinət və gözəllikləri qadağan edənlər deyil, bunların Allahın bir neməti olaraq bilənlərdir.




**Xurafatçıların rəsm və heykəl qadağaları gündəlik həyatda həyata keçirilsəydi, dünyanın heç bir yerində nə rəsm, nə şəkil, nə də reklam lövhələri olmaz, saray sənəti, şəkil və vizual vasitələr yox olardı.**

**QADAĞA SİYAHISI**
**SƏNƏT, MUSİQİ, QƏZET, RƏSM, İDMAN, HEYKƏL, BALET, TEATR, TEXNOLOGİYA, KARİKATURA, SEVGİ, KİNO, RƏQS**

## Xurafatçılığın Ruhu Bu Dünyaya Hakim Olsa İdi...

İndi isə xurafatçıların qadağalarına görə, onları həqiqətdə hansı dünyanın gözlədiyinə nəzər salaq. Əgər xurafatçıların rəsm və heykəl qadağaları gündəlik həyatda tətbiq olunsa idi, dünyanın heç bir yerində rəsm və reklam lövhələri olmazdı. Beləliklə:

- *Yazılı təbliğ zamanı şəkilli izahlardan istifadə olunmazdı*
- *Dərsliklərdə şəkilli izahlar olmazdı*
- *Pul əskinazlarında şəkildən istifadə olunmazdı*
- *Saraylardakı ehtişamlı şəkillər, tablolar, divar sistemləri olmazdı*
- *Anatomiyada insana faydalı olan, insan vücudunu tanıdan təsvirlərdən istifadə olunmazdı*
- *İncəsənətə aid məktəblər olmazdı*
- *Şəkilli qəzet, jurnal, kitab və internet olmazdı. Televiziya kanalları, ümumiyyətlə, şəkildən ibarət olduğu üçün baxmaq qadağan olardı*
- *Media qurumlarının qadağan edilməsi ilə minlərlə faydalı məlumatdan məhrum qalardıq. Bununla belə, gözəl əxlaqı təbliğ etmək, Quranın şərti olan yaxşı və gözəl olan şeyləri insanlara anlatmaq imkanı da ortadan qalxardı.*

## Makiyaj, Baxımlılıq, Təmizlik, Gözəl Geyim, Müasirlik və Mədəniyyət, Qısası Keyfiyyət İslamın Vacib Yönləridir

Müsəlman baxımlı, təmiz və gözəl olmalıdır. Çünki gözəllik, baxımlılıq, estetika və incəsənət Allahın bəyəndiyi xüsusiyyətlərdir. Yuxarıda verdiyimiz bir ayədə deyildiyi kimi, iman edənlərə xüsusi verilmiş nemətdir. Quranda müsəlman qadınların makiyaj etməsinin və baxımlı olmasının haram olduğuna dair tək bir hökm belə yoxdur. Peyğəmbərimizin dövründə xanımlar daima ən gözəl və baxımlı formada cəmiyyətin içinə çıxırdılar. Qadınlar o dövrdə də makijaydan istifadə edirdilər. Hətta Peyğəmbərimiz başda olmaqla, o dövrün kişiləri də gözlərinə sürmə çəkirdilər. Bir hədisdə belə deyilir:

*Aişə rəvayət edir: Rəsulullah oruclu ikən gözünə sürmə çəkmişdi.*

(İbni Macə, Siyam 17)



O dövrdə müsəlman xanımlar sürmə, pomada və ənlikdən istifadə edir, əl və dırnaqlarını xına ilə boyayırdılar. qadınlar da, kişilər də saçlarına xüsusi rənglərdə boya vururdular. Peyğəmbərimiz saç boyamağı təşviq edir, hətta özü də boyayırdı.

Bir çox hədis kitablarında verilən rəvayətə görə, Ümmi Həbibənin atası Əbu Süfyan öləndə üç gün yas tutandan sonra yanaqlarına həluk *(çəhrayı sarı rənginə görə ənliyə bənzəyir)* çəkdiyi ifadə edilir. (Bəlazuri, 1987:184185)

Bu barədə bəzi hədislər bunlardır:

*Təbəraninin bir rəvayətində deyilir ki, saçın rənginin dəyişdirilməsi ilə əcnəbilərə müxalif davranmaq əmr edilir.* (2111)

*Əbu Hüreyrə rəvayət edir: "Rəsulullah buyurub ki, yəhudi və xristianlar saçlarını boyamazlar. Siz onlara müxalif davranın."* (Buxari, Libas 67, Ənbiya 50; Müslim, Libas 80 (2103); Əbu Davud, Tərəccül 18, (4203); Nəsai, Nizət 14, (8, 137); Tirmizi, Libas 20, (1752))

Buxari və Müslimdə Hz. Ənəsdən gələn bir rəvayətdə belə deyilir: "Hz. Əbu Bəkir və Hz. Ömər (saçlarını) xına və kətan bitkisiylə boyayardılar".

*Sühəyb əl-Xeyr rəvayət edir: "Rəsulullah buyurub ki, (ağaran saç və saqqalınızı boyamaq üçün) ən yaxşı rəng, əlbəttə, qaradır. (Çünki qara rəng) elədir ki, qadınlarınızın sizdən daha çox xoşu gəlir, müxaliflərиниз içində də barənizdə daha çox çəkinməyə vəsilədir".*
(Əbu Davud, Libas 18, (4064), Tərəccül 19, (4210); Nəsai, Zinət 17, (8, 140); Buxari, Libas 66, Mənakib 23; Müslim, Fədail 100-105, (2341); Əbu Davud, Tərəccül 18, (4209); Nəsai, Zinət 17, (8, 140, 141)

Peyğəmbərimizin ən çox sarı rəngdən xoşlandığını yenə hədislərdən başa düşürük:

*İbn Abbas rəvayət edir: "(Saçına xına vuran biri gəlmişdi. Hz. Peyğəmbər: "Bu, nə gözəldir", -deyərək təqdir etdi. Bir az sonra xına və kətəm ilə boyanmış biri gəldi. Buyurdu ki, bu, əvvəlkindən də gözəldir. Sonra (saçını) sarıya boyayan biri yenə gəldi. Buyurdu ki, "Bu o birilərindən də gözəldir!"* (Əbu Davud, Tərəccül 19 (4211); İbni Macə, Libas 34 (3627)



**Qadınlar çox gözəl və baxımlı olmalı, rəftarları həmişə çox nəcib olmalıdır. Bu keyfiyyət mənasına gəlir. Keyfiyyət də insanların həmin insana hörmət və ehtiram göstərməsinə vəsilə olur.**

Əhmәd bin Hәnbәlin bir rәvayәtindә yazılır ki, әnsardan yaşlı vә saqqalları ağarmış qoca kişilәrlә rastlaşanda buyurdu ki, ey әnsar camaatı, (saçınızı) qırmızıya, sarı rәngә boyayın!"

*(Sәhabә vә tabeinin) çoxu sarı rәngә boyamağı daha uyğun görürdülәr. Hz. Əli, İbn Ömәr, Əbu Hüreyrә vә s. onlardan idilәr. Bir qismi xına vә kәtәm ilә, bir qismi zәfәran ilә, bir qismi dә qara boya ilә boyamışdılar. Qara rәngә üstünlük verәnlәr arasında Hz. Osmanın, Hz. Hәsәn vә Hz. Hüseynin (Hz. Əlinin iki oğlu), Ükbә bin Amirin, İbn Sirinin vә Əbu Bürdәnin adı çәkilir.*

*İbn Ömәrin rәvayәt etdiyinә görә, saqqalını sufra adlanan, sarı boya ilә boyayar vә belә deyәrdi: "Mәn, Rәsulullah (әleyhissalatu vәssalam)ı gördüm, saqqalını bununla boyamışdı, әn çox sevdiyi boya da bu idi. Bәzәn bununla paltarını da boyayırdı.*

(Əbu Davud, Libas 18 (4064), Tәrәccül 19 (4210); Nәsai, Zinәt 17 (8, 140)

*Əbu Qәtadә rәvayәt edir: "O, Peyğәmbәrә dedi ki, saçım çiyinlәrimә düşür, daraya bilәrәm? "Bәli, ona yaxşı bax", –deyә cavab verdi. Əbu Qәtadә Peyğәmbәrin bu sözündәn sonra saçına gündә әn azı iki dәfә yağ vururdu.* (Böyük hәdis külliyyatı, Cәmül-Fәaid әr-Rudani, II nәşr, İstanbul 2009)

Əbu Zәrdәn: Allah Rәsulu buyurdu ki, ağ saçı әn yaxşı xına vә kәtәm boyayır.

Peyğәmbәrimiz dövründә xanımların әl vә dırnaqlarını lakın әvәzinә xına ilә boyadıqları vә Peyğәmbәrimizin xanımları buna tәşviq etdiyi bir çox rәvayәtdә mövcuddur:

*Əlindә mәktub olan bir qadın pәrdәnin arxasından әlini Rәsulullaha uzatdı. Rәsulullah әlini tutub: "Bilmirәm, bu, kişi әlidir, yoxsa qadın?" –deyә soruşdu. Qadın: "Qadın әlidir", –deyә cavab verdi. Rәsulullah: "Əgәr sәn qadın olsaydın dırnaqlarının (rәngini) xına ilә dәyişdirәrdin", –deyә buyurdu.*

*Aişәdәn rәvayәt edildiyinә görә, Hind binti Utbә: "Ya Rәsulullah, mәnimlә beyәt elә", –dedi. Rәsulullah: "әllәrinin (rәngini) dәyişdirәnә qәdәr mәnә beyәt edә bilmәrsәn...", –deyә buyurdu.* (Əbu Davud, 4165)

## Qadın Gözәl Varlıqdır, Əlbәttә, Baxımlı Olmalıdır

Qadınlar çox gözәl vә baxımlı, hәrәkәtlәri isә çox әsil olmalıdır. Bu, keyfiyyәt demәkdir vә keyfiyyәt insanların ona hörmәt etmәsinә vәsilә olur. Bunun üçün çox gözәl vә zәngin olmaq lazım deyil, Qurandakı tәmizlik vә gözәllik anlayışını qavramaq lazımdır. Müsәlman baxımlı vә gözәl görünәrәk nurunu tamamlamalı vә belәliklә, görünüş cәhәtdәn etibarını vә hörmәtini artırmalıdır. Dünyada hamı hörmәtcil, mәdәniyyәtli vә etibarlı müsәlman qadın görmәkdәn çox tәsirlәnir. Bu, Allahın bәyәnib istәdiyi şeydir.

Makiyaj baxımlı vә gözәl görünmәyin yollarından biridir vә Allahın nemәtidir. Allah gözәlliyin hәr növünü sevir. Buna görә dә qadınlar, çiçәklәr, ağaclar, kәpәnәklәr vә quşlar gözәl yaradılıblar. Kәpәnәyә baxanda

üzərindəki simmetriya, bir-birini izləyən rənglər bizi heyran edir. Allah bu gözəlliyi sevir, buna görə də onu bəzəkli yaradıb. Qadınlar da dünyadakı bəzəyin bir parçası, hətta ən gözəlidirlər. Kəpənək Rəbbimiz tərəfindən zərif yaradıldığı kimi, qadın da elə yaradılıb. Ona nemət kimi verilən gözəllik baxımlı olmaqla ortaya çıxır və dəyərli hala gəlir. Özünə diqqət göstərməyən, dəyər verməyən qadının gözəlliyinin də dəyəri qalmır.

Makiyajı haram etməyə çalışanlar, ümumiyyətlə, gözəlliklərdən zövq almağı unudan insanlardır. Onların köhnə dünyasında incəsənət, zövq, sevinc və xoşbəxtlik deyə bir şey yoxdur, eyni zamanda qadınları evə həbs edilib yox edilməli bir varlıq kimi görürlər. Elə buna görə də onun gözəlləşməyinin əvəzinə çirkinləşməyini tərcih edirlər. Bu zaman ortaya belə bir sual çıxır: dünyada hansı modern və mədəniyyətli insan və ya cəmiyyət qadını dəyərsiz və baxımsız edən bir dini qəbul edər? Hansı belə bir dini müdafiə edər və ya təmsil etmək istər?

Bir çox qərb cəmiyyətləri buna görə xurafata qarşıdırlar. Lakin yanlışlıqla bunu İslam kimi tanıyırlar.

## Marka və Qəşəng Geyimlərə, Gözəl Avtomobil və Evlərə Sahib Olmaq Müsəlmanların Haqqıdır

Peyğəmbərimiz və onunla birlikdə olan səhabələr dövrün ən keyfiyyətli, modern və təmiz insanları idi. Peyğəmbərimiz indi yaşasa idi, şübhəsiz ki, bu dövrün ən keyfiyyətli insanı olardı. Yaşadığımız dövrün ən modern və qəşəng geyimlərini geyinər, ən gözəl evlərdə oturar və ən müasir avtomobillərdən istifadə edərdi. Bütün insanların arasında o dəqiqə seçilərdi. Necə ki hədislərdə Peyğəmbərimizin o dövrün ən seçilən və fərqlənən geyimi olan qızıl işləməli kaftan geyindiyi belə bildirilmişdir:

*"<u>Əynində qızıl kaftanla ortaya çıxdı</u> dedi ki, ey Məhrəmə, bax, bunu sənin üçün saxlamışam...*

<u>(Böyük hədis külliyyatı, cəmül-fəvaid, min camiül-üsul və məcmaiz-zəvaid, İmam Muhəmməd bin Muhəmməd bin Süleyman, ər-Rudani, "İz" Nəşriyyatı, II nəşr, İstanbul 2009, səh. 257-261-262-265-271-272-273)</u>

Xurafatlardan ibarət adət-ənənələri dinə çevirməyə çalışanlar, ümumiyyətlə, gözəllikləri özlərinə layiq görmədiklərinə və çox vaxt əzik əhval-ruhiyyə içində olduqlarına görə marka geyimləri, gözəl evləri və müasir avtomobilləri özlərinə və müsəlmanlara yaraşdırmırlar. Hər hansı bir insanın lüks evdə yaşayıb bahalı avtomobildə gəzməyinə və gözəl paltarlar geyinməyinə etiraz etməzlər. Lakin bunu müsəlman edəndə dəliyə dönürlər. Bu vəziyyət onların qəzəbini daha da artırır. Belə adamlar təkcə dünyaya deyil, müsəlmanlara da nifrət etməyə başlayırlar.

Müsəlmanlar, əlbəttə, çətin vəziyyətdə olan bütün müsəlmanları qorumalı, bu yolda Allah rizası üçün çox cəhd göstərməlidirlər. Lakin bu vəziyyət onların baxımsız və kirli yaşamağını labüd etmir. Müsəlman təkcə görünüşü ilə belə böyük təbliğ gücünə malikdir. Görünüşü nə qədər təmiz və müasirdirsə, həmçinin nə qədər sevimli, xoş üzlü və açıq fikirlidirsə, gerçək İslamın təbliğini o qədər mükəmməl etmiş olur. Əlbəttə, bu üstün keyfiyyətlər yalnız təbliğ zamanlarını deyil, bütün həyatını əhatə edir.



**Xurafələrdən əmələ gələn adət-ənənələrini dinə çevirməyə çalışanlar ümumiyyətlə özlərinə gözəllikləri layiq görməzlər və çox vaxt alçaldılmışlıq hissi ilə hərəkət edərlər. Gözəl, keyfiyyətli, brend paltarları, qəşəng evləri və maşınları da özlərinə və Müsəlmanlara yaraşdırmazlar.**

Müsəlmanlar Qurana əsasən, bu şəkildə yaşamalıdırlar və onsuz da bundan zövq alırlar.

İnsanlar pərişanlığın bürüdüyü qorxunc həyat tərzinin yerinə keyfiyyətin hakim olduğu sülhsevər İslam anlayışından təsirlənirlər. Bunu görəndə artıq qorxmurlar və sevgi duymağa başlayırlar. Qurana uyğun olan da budur. Belə ki, Peyğəmbərimizin dövründə onun üstün və müasir hərəkətləri görənlərə daima təsir etmişdir. Bu, hamıya məlumdur ki, Peyğəmbərimiz əcnəbilərlə görüşəndə əynində həmişə ən keyfiyyətli geyimlər və Bizans cübbələri olurdu. İslamın xalqlara tanıdılması üçün müxtəlif ziyarətlərə Hz. Dihyəni göndərirdi. Dihyə çox yaraşıqlı idi və İslamı təbliğ etmək üçün getdiyi yerlərə həmişə çox bahalı və keyfiyyətli paltarlar geyinirdi. Onun getdiyi yerlərdə görünüşü və keyfiyyətinə görə insanlar küçələrə çıxıb heyran qalırdılar. Burada məqsəd İslamın gözəlliyə və keyfiyyətə əhəmiyyət verən bir din olduğunun insanlara göstərilməsi idi.

Peyğəmbərimizin müsəlmanların gözəl geyinib keyfiyyətli görünmələri ilə əlaqədar hədisləri bunlardır:

Əbül Əhvasdan, o da atasından: "Əynimdə tör-töküntü paltarla Peyğəmbərin yanına getdim. Belə buyurdu: "Malın varmı?" "Bəli", –dedim. "Necə bir mal?" –deyə soruşdu. Dedim ki, Allahın mənə lütf etdiyi dəvə, inək, qoyun, at kimi hər cür malım var. Buyurdu ki, Allah sənə mal veribsə,

Onun əsəri və comərdliyi üzərində görünsün".

(Böyük hədis külliyyatı, cəmül-fəvaid, min camiül-üsul və məcmaiz-zəvaid, İmam Muhəmməd bin Muhəmməd bin Süleyman, ər-Rudani, "İz" Nəşriyyatı, II nəşr, İstanbul 2009, səh. 257-261-262-265-271-272-273)

*Cabirdən: "Ənmar savaşına Peyğəmbərlə birlikdə çıxdıq. " ... Ey Allahın Rəsulu, Mədinədən bir dostumuz var. Onu da hazır elədik, arxamızdan gəlib bizi qoruyur", –demişdim ki, adam əynində iki cırıq paltarla gəldi. Peyğəmbərimiz onu görüb soruşdu: "Bu iki cırıq paltardan başqa paltarı yoxdur?" Dedim ki, geyinmək üçün verdiyim iki paltarı torbasına qoyub. Dedi ki, çağır o paltarı geyindir. Onu çağırdım, verdiyim paltarları geyindi. O çıxıb gedəndə Rəsulullah belə buyurdu: "Nə olub ki, (yeni paltarları var ikən köhnələri geyinir), bu, onun üçün daha xeyirli deyil?" Adam bunu eşidib: "Ey Allahın Rəsulu, Allah yolunda cihad edəndə də yeni paltar geyinim?" "Bəli, Allah yolunda cihad edəndə də", –buyurdu.*

(Böyük hədis külliyyatı, cəmül-fəvaid, min camiül-üsul və məcmaiz-zəvaid, İmam Muhəmməd bin Muhəmməd bin Süleyman, ər-Rudani, "İz" Nəşriyyatı, II nəşr, İstanbul 2009, səh. 257-261-262-265-271-272-273)



**İnsanlar, bərbadlığın hökm sürdüyü o qorxunc həyat tərzindən çox, keyfiyyətin hakim olduğu sülhsevər bir müsəlman görüntüsündən təsirlənirlər. Bunu gördüklərində artıq qorxu deyil, sevgi hiss etməyə başlayarlar. Qurana uyğun olan da elə budur.**



## XURAFATÇILARIN DİNİNDƏ MUSƏVİLƏR VƏ XRİSTİANLAR



Xurafatçıların savaş və qadın barəsində gördüyümüz qorxunc məntiqlərini kitab əhlinə, yəni musəvi və xristianlara qarşı baxışlarında da görmək mümkündür. İllər boyu kitab əhlinə qarşı şiddətlə düşmənlik bəsləyən müsəlman cəmiyyətləri yenə saxta hədislərdən təsirləniblər. Peyğəmbərimizin adından rəvayət edilən bu saxta hədislər üzündən müsəlmanlar Quranda təriflənən kitab əhlini görməzlikdən gəliblər. Onların müsəlmanların himayəsi altında yaşamalı olduqları həqiqətindən demək olar ki, bixəbər olublar. Bu yanlış düşüncəyə görə səmimi xristian və musəvilərdən bəhs edilən Quran ayələrini belə inkar ediblər. Quran ayələrini inkar etmək isə İslama görə dindən çıxmaq mənasına gəlir ki, buna belə əhəmiyyət verməyiblər.

Bu hissədə xurafatçıların və bir çox İslam əleyhdarlarının kitab əhli düşmənliyinə dəlil kimi göstərməyə çalışdıqları Quran ayələrinin mənaları açıqlanacaq və tarix boyu təşviq edilən kitab əhli əleyhdarlığının əsil səbəbi olan saxta hədislərin yanlışlığından bəhs ediləcək. Əvvəlcə, bu əhəmiyyətli həqiqəti xatırladaq ki, xristianlıq və musəvilik İslamdan əvvəl göndərilən haqq dinlərdir və müsəlmanlar Qurana görə, bütün haqq dinləri və haqq peyğəmbərləri qəbul etməklə məsuliyyət daşıyırlar. Ayədə belə vurğulanır:

**Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!”**
(Bəqərə surəsi, 136)

Şübhə yoxdur ki, bu haqq dinlər belə öz içlərindəki xurafatçılar tərəfindən zamanla yanlış şərh olunmuş, bu iş kitablarına əks olunmağa qədər gedib çıxmışdır. Lakin biz Qiyamətə qədər pozulmayacaq Qurana baxanda anlayırıq ki, xristianlıq və musəvilik dinlərinin ilkin və orijinal variantlarına iman etməliyik və buna görə davranmalıyıq.

Quranda kitab əhli bir çox ayədə təriflənsə də, onlara qarşı həddən artıq düşmənlik siyasəti yürüdən bəzi müsəlman cəmiyyətləri Quran müsəlmanlığının deyil, uydurulan xurafat dininin təmsilçiləridir. Bəziləri bu xətaya bilərək düşür, bəziləri də bilmədən. Bu kitabın məqsədi bu xətaya

düşənləri xəbərdar etməkdir. Eyni zamanda bir qisim İslam əleyhdarlarına da qarşı olduqları dinin İslam olmadığını göstərməkdir.

Xurafatçıların bütün iddialarının əksinə olaraq Quran kitab əhlinə düşmənliyi lənətləyir və onlara sevgi göstərməyi nəsihət edir. İndi isə bunun dəlillərinə baxaq:

## MUSƏVİ ƏLEYHDARLIĞINA QURANDAN DƏLİL GƏTİRMƏYƏ ÇALIŞANLARA QURANDAN CAVABLAR

Musəvilər illər boyu müsəlmanların onlara düşmənlik bəsləmələrini anlaya bilmədilər. Ümumiyyətlə, Quranda belə bir hökmün mövcud olduğunu və müsəlmanların buna görə hərəkət etdiklərini zənn etdilər. Elə buna görə də bir çoxu daima Quranı günahlandırıb. Quranın musəviləri düşmən hesab edənləri lənətlədiyindən xəbərləri belə olmadı.

Musəvilərə qarşı iki əsas iddia vardır: onların lənətlənmiş olması, onların meymun və donuzlara bənzədilməsi (musəviləri tənzih edirik). Xurafatçılar bu iddialarını Qurana əsaslandırırlar. İndi bu iddiaların əsassızlığını və əsas mahiyyətini Quran ayələri ilə açıqlayaq:

## MEYMUN VƏ DONUZ BƏNZƏTMƏSİ VƏ QURANDA KİTAB ƏHLİNİN GERÇƏK HÖKMÜ

Quranda kitab əhlinin xüsusi yeri vardır. Allah səmimi musəvi və xristianları tərifləmiş, onları axirətdə mükafatlandıracağını bildirmişdir. Kitab əhlinin hamısı müsəlmanlara əmanət edilmişdir. Bu əmanət müsəlmanların şəfqət və sevgi duyğularını ifadə edir, yoxsa kitab əhlinin qorunmağa möhtac olduğunu göstərmir.

Bir qisim xurafatçılar xüsusilə musəvilərə qarşı kin bəsləyib buna dəlil kimi Quran ayələrini göstərməyə çalışırlar. Bunu bir çox qərbli İslam əleyhdarları əllərində dəlil kimi saxlayırlar. Onlar Qurandan ayələr göstərib musəvilərin lənətli olduqlarını və meymunlara, donuzlara bənzədildiklərini deyib hər yana musəvi düşmənliyini yayıblar. Halbuki Qurana baxanda görürük ki, lənətli olanlar və heyvanlara bənzədilənlər musəvilərin arasından çıxan münafiq və təcavüzkar müşriklərdir. Bu barədə Quran ayələrinə nəzər salaq: "Maidə" surəsinin 60-cı ayəsində Allahın meymun və donuzlar etdiyi topluluqdan bəhs olunur. Əvvəlki ayələrə baxanda məlum olur ki, bu adamlar özlərinə kitab verilənlərin, yəni xristian və musəvilərin arasından çıxan topluluqdur:

### "Maidə" surəsinin 60-cı ayəsinin açıqlaması

**Ey iman gətirənlər! Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri** *(özünüzə)* **dost tutmayın. Əgər möminsinizsə, Allahdan qorxun.** (Maidə surəsi, 57)

**Siz namaza çağırdığınız zaman onlar onu məsxərəyə qoyub oyun-oyuncaq sayarlar. Bu ona görədir ki, onlar düşüncəsiz bir camaatdır.** (Maidə surəsi, 58)

**De: "Ey Kitab əhli! Yalnız Allaha, bizə nazil edilənə və bizdən əvvəl nazil edilənlərə iman gətirdiyimizə və sizin əksəriyyətinizin günahkar olduğuna görəmi bizi məzəmmət edirsiniz?"** (Maidə surəsi, 60)

Bu ayələrdəki xitab kitab əhlinin arasından çıxan camaatadır. Lakin onların xüsusiyyəti odur ki, onlar qadağan olunan şeyləri etmək üçün israr edən və dinə rişxəndlə yanaşan fasiq inkarçılardır. "Kitab əhli" kəlməsindən yalnız bu iki üzlü insanların hansı topluluğun içindən çıxdığını müəyyən etmək üçün istifadə olunmuşdur.

"Maidə" surəsinin 60-cı ayəsindən əvvəlki ayələrə baxanda bu təsvirlərin hamısını görə bilərik. 57-ci ayədə **Sizdən əvvəl Kitab verilənlərdən dininizi ələ salıb oyun-oyuncaq hesab edənləri və kafirləri** *(özünüzə)* **dost tutmayın.** ifadəsi ilə müsəlmanlardan öncə kitab verilənlərin, yəni musəvi və xristianların arasından çıxmış **dini ələ salıb oyun-oyuncaq hesab edənlərdən və kafirlərdən** bəhs edilir. Təkrar qeyd edək ki, burada musəvi və xristianlardan bəhs edilmir, onların arasından çıxan dinsiz, yəni inkarçı və eyni zamanda təcavüzkar və rişxəndçi münafiq topluluqdan bəhs edilir. Belə bir topluluq təkcə müsəlmanlar üçün deyil, musəvi və xristianlar üçün də böyük təhdid və bəladır.

Burada və aşağıda açıqladığımız məalda bütün ayələrdə işlənən "inkarçı" kəlməsinin yanlış anlaşılmamağı üçün bunu qeyd etmək lazımdır: bir insan hər hansı bir dinə inanıb-inanmaya bilər. Bu barədə sərbəstdir və öz vicdanı ilə qərar verməlidir. Bir dindar əsla dini qəbul etməyən birinə öz fikirlərini zorla qəbul etdirə bilməz. Bu, Quranda qadağan edilib. Hətta əvvəlki hissələrdə gördüyümüz kimi, bir müsəlman inkar edən bir adamı belə canı bahasına qorumalıdır.

Lakin o inkarçı əgər dinə rişxəndlə yanaşıb dindarlara və onların dəyərlərinə zərər verməyə çalışarsa, hörmət və şəfqətdən üz döndərib düşmən kimi davranarsa, hətta hücum çəkərsə, bu zaman Allaha qarşı təqsirkarlıq etmiş olar. Diqqət ediləndə görünür ki, burdakı ayələrdə bəhs edilən inkarçılar həmin xüsusiyyətləri üzərində daşıyan və həddi aşan adamlardır. Dindarları çətin vəziyyətə salıb münafiqlik etdiklərinə görə Allah onları meymun və donuzlara bənzədərək alçaldır.

## Təriflənən Musəvilər

Göründüyü kimi, "Maidə" surəsinin 60-cı ayəsindən əvvəlki ayələr bu topluluğun hansı xüsusiyyətlərə malik olduğunu göstərir. Sonrakı ayələrə nəzər salanda həqiqi musəvi və xristianların Qurana görə xüsusiyyətləri ortaya çıxır:

**İman gətirənlərin, habelə yəhudi, sabii və xaçpərəstlərdən Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.** (Maidə surəsi, 69)

Bu ayədə müjdə verilir. Bu müjdə Allaha inanan və gözəl işlər görən musəvilərə və eyni zamanda xristianlara aiddir. Allah musəvi və xristianlardan Ona ürəkdən inananlara və səmimi olanlara qorxu

verməyəcəyini müjdələyir. Bu, onlara verilən cənnət müjdəsidir. Çünki onların əsla qəm-qüssə görməyəcəklərinə dair Allahın sözü vardır. Allah onların yerini üstün tutmuşdur. Allah onlara sevgisini ifadə edir.



**Allah ayələrində, Yəhudi və Xristianlardan bir olan Allaha qəlbdən iman gətirən və səmimi olanlara heç bir zaman qorxu daddırmayacağını müjdələməkdədir.**

## "Əraf" Surəsinin 166-cı Ayəsinin Şərhi

**Onlardan dəniz sahilində yerləşən kənd barəsində xəbər al! O vaxt onlar şənbə günü** *(üçün qoyulmuş qadağanı)* **pozurdular. Şənbə günü onların balıqları üzə çıxaraq onların yanına axışır, şənbədən başqa günlərdə isə onlara tərəf gəlmirdilər. Günah etdiklərinə görə Biz onları beləcə sınayırdıq.** (Əraf surəsi, 163)

**O zaman onlardan bir dəstə dedi: "Allahın məhv edəcəyi və ya şiddətli əzaba düçar edəcəyi bir tayfaya nə üçün öyüd-nəsihət verirsiniz?" Onlar dedilər: "***(Bu,)* **Rəbbiniz yanında üzrxahlıq etmək üçündür. Bəlkə, onlar çəkinsinlər!"** (Əraf surəsi, 164)

**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman Biz pis əməlləri qadağan edən kimsələri xilas etdik, haqsızlıq edənləri isə itaətdən çıxdıqlarına görə dəhşətli bir əzabla yaxaladıq.** (Əraf surəsi, 165)

**Özlərinə qoyulan qadağanı pozduqları zaman Biz onlara: "Mənfur meymunlar olun!"– dedik.** (Əraf surəsi, 166)

"Əraf" surəsinin 166-cı ayəsindən əvvəlki ayələrə baxanda birbaşa İsrail oğullarına xitab etdiyini görürük. İsrail oğullarının, yəni musəvilərin

arasından çıxan bir topluluq şənbə günü qadağasına əməl etmir, dinin hökmlərinə əhəmiyyət vermir və çəkinməli olduqları şeyi etməkdə israr edib qarşı çıxırlar. Dolayısilə, bu adamlar birbaşa öz "din"lərinə məxsus bir inkar içindədirlər. Musəvi topluluğunun arasından çıxan və söz dinləməyən topluluqdur.

Bu ayələrə diqqət ediləndə görünür ki, bir tərəfdə səmimi musəvilər var, o biri tərəfdə də musəvilərin arasında olub söz dinləməyən inkarçı topluluq var. Məsələn, 164-cü ayədə söz dinləməyən bu topluluğu israrla xəbərdar edən və doğru olana çağıran musəvilərdən bəhs edilir. Məqsədləri isə onları çəkindirib doğru yola çatdırmaqdır. 165-ci ayədə isə pislikdən çəkindirən bu səmimi topluluğun xilas olduqlarından söz edilir. Alçaldılanlar söz dinləməyən və səmimi musəvilərə çətinlik çıxaran inkarçılar olmuşdur.

Bu ayələrdən əvvəlki ayələrdə Allah düz yolda olan musəviləri belə tərifləmişdir:

**Musanın qövmündən elə bir camaat vardır ki, haqq ilə** *(insanları)* **doğru yola yönəldir və onun sayəsində ədalətlə hökm verirlər.** (Əraf surəsi, 159)

Musanın qövmündən, yəni musəvilərdən haqqa çatdıran və ədalətli olan topluluğu Allah gözəl əməllərinə görə tərifləyir. Allahın bu ayəni nazil etməsində böyük hikmətlər vardır.

Bu və digər ayələr müsəlmanların səmimi musəvilərə münasibətini mükəmməl şəkildə açıqlayır.



## "Bəqərə" Surəsinin 65-ci Ayəsinin Şərhi

**Bir zaman sizdən əhd-peyman aldıq, dağı başınız üstünə qaldırdıq** *(və buyurduq)*: **"Sizə verdiyimizdən möhkəm yapışın və onun içindəkiləri yada salın ki, bəlkə qorxasınız!"** (Bəqərə surəsi, 63)

**Sonra bunun ardınca siz üz döndərdiniz. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, ziyana uğrayanlardan olardınız.** (Bəqərə surəsi, 64)

**Siz artıq içərinizdən şənbə günü həddi aşanları tanıyırsınız. Biz də onlara: "Mənfur meymunlar olun!"– dedik.** (Bəqərə surəsi, 65)

Bilindiyi kimi, şənbə günü qadağası (şabat) musəvilər üçün xüsusi qadağadır. Bundan dolayı, belə başa düşülür ki, ayədəki topluluq musəvilərin arasından çıxan insanlardır. Bu ayədən əvvəlki ayələrdə çöllük ərazidə qaldıqları müddət boyu Hz. Musaya çətinlik çıxaranlardan bəhs edilir. Buradakı təsvir Tövratdakı təsvirlə bənzərlik təşkil edir. Hz. Musaya çətinlik çıxaran bu topluluğun etdiklərindən bəhs ediləndən sonra qeyd olunur ki, onlardan Tövratın hökmlərini sürəkli xatırlayıb ona uyğun davranacaqlarına dair söz alınır. Lakin buna baxmayaraq, bu topluluq üz çevirir. Şənbə qadağasına tabe olmayan, yəni Tövrata qarşı çıxan bu topluluq Allah tərəfindən alçaldılır.

Məlum olduğu kimi, bu adamlar onlardan söz alındığına baxmayaraq, Tövrata tabe olmayan insanlardır. Yəni musəvi deyil, inkarçılardır. Yenə şənbə qadağasına əməl etməmələri bunu müəyyən edə bilir. Onların xüsusiyyəti inkarçı olmaqla yanaşı, davamlı Hz. Musaya və səmimi musəvilərə çətinlik çıxarmalarıdır. Buna görə də alçaldılmağa layiq olublar.
Burada diqqəti cəlb edən başqa bir əhəmiyyətli həqiqət odur ki, yenə səmimi musəvi və xristianlar təriflənir və axirət üçün müjdələnirlər:

**Şübhəsiz ki, <u>möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır.</u> Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.** (Bəqərə surəsi, 62)

Göründüyü kimi, səmimi musəvi və xristianlar Quranda təriflənməyə layiq görülüblər. Allahın sevdiyini müsəlmanlar da sevər. Bu, məsuliyyət olduğu kimi, eyni zamanda qəlbdə yaranan təbii və vicdani hissdir. Buna görə də Allahın Quranda dəfələrlə təkrarlanan bu ayələrinə əsasən, müsəlmanlar kitab əhlini sevib qorumalı, onlara şəfqətlə yanaşmalıdırlar. Açıq şəkildə görünür ki, Allah bu ayələrdə səmimi xristian və müsəviləri səmimi müsəlmanlardan ayırd etmir. Bu ayə kitab əhlinə qarşı bütün düşmənlikləri tamamilə ortadan qaldırır.

### "LƏNƏTLİ MUSƏVİLƏR" İFADƏSİNİN YANLIŞLIĞI

İlk öncə, bütün musəvilərin lənətli olduğunu demək Allahın ədalətinə və yaratdığı dinə uyğun deyil. Birincisi, musəvilik haqq dindir və müsəlmanların da peyğəmbəri olan Hz. Musaya nazil olub. Allah Quranda musəviliyin və musəvilərin var olduqlarını bildirir və səmimi musəviləri tərifləyir. Eyni zamanda Quranda müsəlmanların kitab əhlini sevib onları qorumağa görə

məsuliyyət daşıdıqları qeyd olunur. Bəzi Quran ayələrində İsrail oğullarına və kitab əhlinə birbaşa xitab edilir. Buna görə musəvilərdən və xristianlardan da Quran oxuyanlar və Qurandan nəsihət alanlar ola bilər. Halbuki bir xurafatçıya görə, musəvinin əlində Quran tutması belə mümkün deyil.

İkincisi, bütün insanlar bu dünyaya imtahan üçün gəliblər. İmtahanın nəticəsinə görə axirətdəki yerləri bəlli olacaq. Allah dünya həyatının imtahan olduğunu aşağıdakı ayədə xəbər verir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.**
(Mülk surəsi, 2)

Beləliklə, müsəlman da, musəvi də eyni imtahandan keçir. Musəvi ailəsində doğulan və dünyadan xəbərsiz olan bir uşağın lənətli olduğunu iddia etmək Allahın ədalətinə tamamilə ziddir. Hələ imtahan olunmayan uşağın nə olursa olsun, lənətli olduğunu düşünmək, belə bir ədalətsizliyi Allahdan ummaq (Allahı tənzih edirik) Allahın ədalətini, şəfqət və mərhəmətini anlamamaq deməkdir. Musəvilərin lənətli olduğu iddiası ilə ortaya çıxanlar böyük-kiçik ayırd etmədən bu azğın düşüncədən bütün musəvilərə qarşı istifadə edirlər. Bəs xurafatçılar belə bir iddiaya Qurandan necə dəlil gətirməyə çalışırlar?

## "Bəqərə" Surəsinin 88-ci Ayəsinin Açıqlaması

**Onlar dedilər: "Qəlblərimiz qapalıdır!" Xeyr, Allah onları məhz <u>küfrlərinə görə lənətləmişdir.</u> Odur ki, onlar olduqca az inanırlar.**
(Bəqərə surəsi, 88)

Əvvəlki ayələrə baxanda başa düşülür ki, burada Hz. Musa qövmünün, yəni musəvilərin arasından çıxan bir topluluğa xitab edilir. Həmin topluluğun lənətlənməsi isə ayədə açıq şəkildə bildirilir: inkarlarından dolayı.

Onlar Hz. Musaya xəyanət edən, əvvəlki ayələrdən anlaşıldığı üzrə, peyğəmbərləri belə öldürəcək qədər azğınlaşan inkarçı topluluqdur. Quranda müsəlmanların arasından çıxan təcavüzkar inkarçılar lənətləndiyi kimi, eyni şəkildə, musəvilərin arasından çıxan təcavüzkar inkarçılar da lənətlənir. Odur ki, ayəyə əsasən, lənətli olanlar üsyankar inkarçılardır, musəvilər və ya müsəlmanlar yox.

## Nisa Surəsinin 155-ci Ayəsinin Açıqlaması

**Biz əhdə görə dağı** *(başları)* **üzərinə qaldırdıq və onlara: "Qapıdan səcdə edərək daxil olun!"– dedik. Biz onlara: "Şənbə günü** *(qadağanı)* **pozmayın!"– dedik. Biz onlarla möhkəm bir əhd-peyman bağlamışdıq.** (Nisa surəsi, 154)

**Onlar <u>bağladıqları əhd-peymanı pozduqlarına, Allahın ayələrini inkar etdiklərinə, pey-ğəmbərləri haqsız yerə öldürdüklərinə və: "Qəlblərimiz qapalıdır!"– demələrinə görə</u>** <u>*(lənətə düçar edildilər)*</u>**. Xeyr, küfrləri üzündən Allah onların qəlblərini möhürləmişdir. Onlar olduqca az inanırlar.**
(Nisa surəsi, 155)

Əvvəlki ayələrdə kitab əhlinin arasından çıxan inkarçı qövmdən bəhs olunur. Belə ki, həddi aşdıqlarına baxmayaraq, "Nisa" surəsinin 154-cü ayəsində Allahın onları bağışladığı və onlardan əhd aldığı açıqlanır. "Nisa" surəsinin 155-ci ayəsində isə həmin topluluğun verdikləri sözə əməl etməyib inkara sürükləndiyi və peyğəmbərləri haqsız yerə öldürdüyü bildirilir. Başlarına gələn sıxıntı və bəlaların səbəbi də budur.

Bu ayələrin davamında yenə musəvi topluluğundan bəhs olunur və Allah musəvilərdən kafir olanlarla dərin imana sahib olanları ayrı tutur:

**Lakin onlardan elmdə qüvvətli olanlar və möminlər sənə nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və Axirət gününə iman gətirirlər. Biz onlara böyük bir mükafat verəcəyik.** (Nisa surəsi, 162)



**Allah, ayədə açıq şəkildə səmimi olan Musəviləri ayrı tutmuşdur və onlara "böyük bir əcr verəcəyini" bildirmişdir. Allahın mükafatlandıracağını bildirdiyi və təriflədiyi bir Musəvi icmasını kim və necə lənətli edə bilər?**

Musəvilərdən kafir olub azğınlıq edənlərin hökmü başqadır. Eynilə müsəlmanların arasındakı kafir və azğınların hökmünün başqa cür olduğu kimi. Lakin Allah ayədə açıq şəkildə səmimi olan musəviləri ayrı tutmuşdur və onlara böyük əcr verəcəyini bildirmişdir. Allahın mükafat verəcəyini bildirdiyi, cənnətlə müjdələdiyi və təriflədiyi musəvi topluluğunu kim və necə lənətli edə bilər ki? Allah onları təriflədiyi halda, bir adam necə çıxıb deyə bilər ki, bütün musəvilər lənətlidir və onların hamısını öldürmək lazımdır? Gördüyünüz kimi, xurafatçıların problemi odur ki, onlar Allahı haqqı ilə təqdir etmir, Quranı anlamır və növbəti sətirlərdə qeyd edəcəyimiz kimi, saxta hədislərin tələsinə düşürlər.

Burada əhəmiyyətli mövzuya diqqət yetirək: bir insan inkarçı ola bilər, lakin münafiq olub dindar insanlara problem yaratmadığı, hörmətcil və dürüst həyat sürdüyü müddət boyu daima müsəlmanların qoruması altındadır. Bu da Quranda müsəlmanların öhdəsinə verilən məsuliyyətdir. Lakin həmin ayələrdə lənətlənənlər o şəxslərdir ki, onlar birgə yaşadığı dindar topluluğa xəyanət edir, yəni münafiqlik edir, hətta peyğəmbərləri belə öldürəcək qədər azğın davranırlar. Allah peyğəmbərləri öldürməyi lənətlənmə səbəbi kimi görmüşdür. Eyni zamanda onlar əhdlərini pozan, yəni ikiüzlü şəkildə münafiqlik edib iman edənlərə arxadan zərbə vuran topluluq kimi təsvir olunmuşdur. Bu insanlar Hz. Musa və dindar musəvilər üçün də təhdid ünsürü idilər. Yəni həmin inkarçı şəxslər musəvi topluluğun arasından çıxıb inkar etdikləri üçün deyil, Allaha qarşı təqsirkarlığa yol verdiklərinə görə Onun qatında lənətlidirlər. Aradakı fərq çox yaxşı başa düşülməlidir.

## MUSƏVİ VƏ XRİSTİANLARLA DOST OLMAMAQ YANLIŞLIĞI

Ümumiyyətlə, xurafatçılar və qərbdəki İslam əleyhdarlarının musəvi və xristianların əleyhinə dəlil kimi göstərdikləri Quran ayələrindən biri "Maidə" surəsindədir:

**Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost (vəli) tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz.** (Maidə surəsi, 51)

Ayədə **"dost"** sözü iki dəfə işlənir. **"Yəhudi və xaçpərəstləri dost (vəli) tutmayın!"** ifadəsində işlənən və **"dost"** şəklində tərcümə olunan kəlmənin ərəbcəsi **"evliyau"** sözüdür. Bu kəlmənin həqiqi mənası ***"qoruyucular, qanuni yöndən vəzifəsi olanlar, övliyalar, sahiblər, maliklər"*** şəklindədir. **"Sizlərdən kim onları dost tutarsa"** ifadəsində işlənən və yenə **"dost"** şəklində tərcümə olunan kəlmənin ərəbcəsi isə **"yətəvəlləhum"** sözüdür. Bu sözün mənası isə **"idarəni ələ keçirən, hakim vəziyyətə gələn, nəzarəti öz üzərinə götürən"** şəklindədir. Ərəbcə mənasına baxanda bu ayədə işlənən "dost" kəlmələrinin həqiqətdə idarəçi mənasına gəldiyi asan şəkildə başa düşülür. Burada müsəlmanların musəvi və xristianların idarəsi altına girməyi qadağan olunur.

(Prof. Dr. Bayraktar Bayraklı, Quran məali)

Burdakı hikməti anlamaq isə çox çətin deyil. Eyni tövhid inancı və eyni təməllər üzərinə qurulu olsalar da, hər dinin özünə aid ibadət formaları və hökmləri vardır. Dolayısilə, musəvi və ya xristianın idarəsində olan bir müsəlmanın ibadətlərini yerinə yetirməsinin çətin olması ehtimalı çox yüksəkdir. Belə çətinliyin olmaması üçün ayədə bu cür hökm verilir.

## CİZYƏ VƏ MÜHARİBƏYƏ DAİR YANLIŞ BİLİNƏNLƏR

**Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi dinə etiqad etməyənlərlə, zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun.** (Tövbə surəsi, 29)

Həqiqi İslamı səhv tanıyanlar, ümumiyyətlə, yuxarıdakı ayədə bəhs

edilən cizyə vergisinin yalnız kitab əhlindən alındığını və müsəlman olmayanlara qarşı haqsızlıq edildiyini irəli sürürlər. Ayədə işlənən "öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun" hökmünə əsasən, iddia edirlər ki, kitab əhli İslama dönmədikdə guya dinimiz onlara qarşı savaş açmağı əmr edir. Halbuki burada ciddi yanlışlıq var.

İlk öncə bunu qeyd etmək lazımdır ki, cizyə bir vergi növüdür. Vergi ödəmək hər ölkə vətəndaşının vəzifə borcudur. Yəni müsəlman ölkəsində yaşayan hər kəs müsəlman olub-olmamağından asılı olmayaraq, vergi ödəməlidir. Müsəlman ölkəsində müsəlmandan vergi alınmayıb kitab əhlindən alınması kimi bir ayrı-seçkilik yoxdur. Vergi vermək hər bir vətəndaşın üzərinə düşən məsuliyyətdir.

Cizyə ilə bağlı mövzuda bizim üçün həmin hökmün tarixdə müsəlman dövlətlərinin necə həyata keçirdiyi əsas deyil. Bizim üçün bu barədə Quranın əmri əsasdır. Yəni müsəlman ölkəsində yaşayan hər hansı bir şəxs dinindən asılı olmayaraq, vergi ödəməlidir. "Tövbə" surəsinin 29-cu ayəsindəki hökmə nəzər salanda qarşımıza bu həqiqət çıxır:

Ayədə bəhs edilən o şəxslər **Kitab verilənlərdən Allaha və axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi dinə etiqad etməyənlər,** yəni xristian və musəvilərin arasından çıxıb Allaha və axirət gününə inanmayan, dini və peyğəmbərləri tanımayan inkarçılardır. Daha əvvəl də qeyd etdiyimiz kimi, hər insan iman edib-etməməkdə azaddır. Quran dində məcburiyyəti qadağan etmişdir. Bir müsəlman hər kəsə olduğu kimi, inkarçıya da hörmət etməli, onu qorumalıdır (Tövbə surəsi, 6). Qurana görə, inkarçı birini təqsirkar edən ünsür onun təcavüzkar olması, dindarlara qarşı mübarizə aparması və fitnə çıxarmasıdır. Elə "Tövbə" surəsinin 29-cu ayəsindən bəhs etdiyimiz bu hissədə həmin inkarçıların bu xüsusiyyətinə diqqət çəkilir. Bu adamlar ayəyə əsasən, **Allahın və Rəsulunun haram buyurduğunu haram tanımayan şəxslərdir.** Dolayısilə, heç bir qadağanı dinləmir, fitnə çıxarır və təcavüzkarlıq edirlər.

İndi bir az düşünək: müsəlmanların idarə etdiyi bir dövlətdə müsəlman və müsəlman olmayanlar, hətta bütpərəstlər belə bir arada asayiş içində yaşayırlar. (Peyğəmbərimizə tabe olan bütün şəhər dövlət quruluşlarında belə olmuşdur. Mədinə müqaviləsi daxil olmaqla, Peyğəmbərimizin müəyyən etdiyi bütün sazişlər dövlətin hər fərdinə bərabərlik hüququ verən, onların bütün haqlarını qoruyan mükəmməl demokratik qanunlar olmuşdur). Lakin o dövlətin sakinləri arasında inkarçı olmaqla yanaşı, qanunlara riayət etməyən, haram olanı haram saymayan, buna görə də topluluqlarda pozuntu çıxarmağa çalışan və dövlətin onlara verdiyi yardımlardan və bütün imkanlardan faydalanmalarına baxmayaraq, dövlətin qanunlarına qarşı çıxan topluluq vardır. Müsəlman bir dövlətdə rahatlıqları qaydasında olub hər yöndən qorunsalar da, həm fitnə çıxarıb cinayət törədir, həm də heç yöndən faydalı olmayıb vergi də ödəmirlər. Cəmiyyətin arasında anarxiya yaradır, terror əməlləri törədir və eyni topluluqda yaşayan digər insanların və xüsusilə də

dindarların canlarına qəsd edirlər. Bu şərtlər əsasında etdiklərindən dolayı peşman olub boyun əymədikləri müddət boyu onlarla savaşmaq qaçılmazdır.

"Tövbə" surəsinin 29-cu ayəsi topluluq içindəki həmin təxribatçılara işarə edir. Bu insanlar təkcə müsəlmanlar üçün deyil, o topluluqdakı xristian və musəvilər üçün də böyük təhlükə sayılır. Bundan ötrü də, onlara qarşı gücdən istifadə edib fitnələri sona çatdırmaq o topluluqda yaşayan musəvi və xristianların rahat yaşamağı üçün lazımlıdır. Həmin inkarçı və fitnəkarların kitab əhlinin və ya müsəlmanların arasından çıxması ölçü deyil. İnkarçı onsuz da dini tərk edən insandır. Buna görə müsəlmanlarla və ya kitab əhli ilə eyni tutula bilməz. Burada həmin fitnəkarlarla onlar cizyə verənədək savaşmaq onların dövlət hakimiyyətini qəbul etdiklərinin əlaməti olduğu üçündür. Məlum məsələdir ki, bundan sonra dövlətin qanunlarına qarşı çıxmazlar və təxribat törətməzlər.

## YANLIŞ BİLİNƏN BAŞQA BİR ANLAYIŞ: TƏQİYYƏ

"Təqiyyə" kəlməsi qorunmaq, gizlənmək mənalarını ifadə edir. Quranda bu ifadə belə işlənir:

**Qəlbi imanla sabit qaldığı halda** *(haqqı danmağa)* **məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.** (Nəhl surəsi, 106)

Ayədə müstəsna vəziyyətdən bəhs olunur: şəxs iman etsə də, təzyiq altındadır və çətin vəziyyətdən xilas olmaq üçün keçici olaraq Allahı inkar etdiyini deməsi və ya imanını gizlətməsi söz mövzusudur. Qurana əsasən, təqiyyənin bundan başqa mənası yoxdur.

Halbuki təqiyyə bir çox xurafatçı din anlayışına sahib şəxslər tərəfindən fərqli şəkildə tətbiq olunur. Bir qisim İslam əleyhdarları isə bunu yanlış anlayırlar. Xurafatçı İslam anlayışına sahib şəxslər çalışırlar ki, təqiyyəni ikiüzlülük metodu kimi bütün həyatlarına hakim etsinlər. Beləliklə, heç bir həyati təhlükə olmadıqda belə saxta hədislərə əsaslanaraq İslama zidd işlər görür, özlərinə düşmən bildikləri insanlarla rol gərəyi dost kimi davranırlar.

Bir çox İslam əleyhdarları və radikallar ucbatından İslama şübhə ilə yanaşanlar bunu hamıya aid edib heç bir müsəlmanın sülh və sevgi sözlərinə inanmırlar. Elə düşünürlər ki, Quranda bəhs edilən təqiyyə elə bu şəkildə tətbiq olunur və müsəlmanlar sülh və barışıq sözlərindən istifadə etməklə böyük müharibəni səbirsizliklə gözləyirlər. Belə ki, bu şəxslərə görə, sevgi və sülhdən bəhs edən hər müsəlman yalan danışır. Burada hər iki tərəfin problemi odur ki, onlar Qurandan xəbərsizdirlər.

İlk öncə, Quranda işlənən təqiyyə kəlməsində xüsusi şərt var: **qəlbi imanla sabit qaldığı halda,** *(haqqı danmağa)* **məcbur edilən kəslər istisna olmaqla...** Ayədə müəyyən edilən şərt insanın təzyiq və ya təhdid altında, yəni çətin vəziyyətdə olmağıdır. Buna görə də vəziyyətdən çıxış yolu kimi imanını gizlədir, düşmənliyini deyil. Uca Allah Quranda Fironun ailəsindən olan və imanını gizlədən şəxsdən bəhs edir:

**Firon ailəsindən olub imanını gizlədən mömin bir kişi dedi: "Siz bir adamı: "Rəbbim Allahdır!"– dediyinə görə öldürəcəksinizmi? ...** (Mumin surəsi, 28) İmanını gizlədən bu şəxs açıq-aşkar təhlükə altındadır. Firon kimi dövrün ən zalım hökmdarının yanında yaşayır və ölüm təhdidi altında olduğuna görə imanını gizlədir, yəni təqiyyə edir. Bu vəziyyət tam olaraq Qurandakı təqiyyə şərtinin yerinə yetirildiyi vəziyyətdir. Həmin şəxs ciddi şəkildə təhdid altında olduğuna görə iman etsə də, bunu gizlədir. Təqiyyənin Qurana görə tətbiq olunması yalnız bu formadadır.

Hal-hazırda xurafatçıların təqiyyə adı verdikləri əməlləri və bunun İslama uyğun olduğunu düşünən bir qisim din əleyhdarları Qurandan uzaq olduqları üçün bu minvalla sülh və sevginin də önünü kəsirlər. Təqiyyənin Qurandakından fərqli şəkildə başa düşülüb tətbiq olunması hazırda dünyada böyük bir müharibə mühitinə zəmin yaradır. Buna yol verilməklə bəşəriyyətə əsla sülhün olmayacağı təlqini verilir; kütləvi və dəhşətli qırğınların davam edəcəyi bəyan edilir.

Bu anlayış Qurana zidd olduğu üçün məntiqə də ziddir. Təsəvvür edin ki, bir müsəlman Allah rizası üçün bütün həyatını sülhə, qardaşlığa və insanları dost etməyə həsr edir; bu yolda radikallardan, müharibə tərəfdarlarından təhdid alıb həyatını təhlükəyə atır; kitab əhlini dost olmağa çağırır və bunun üçün bütün zamanından, imkanlarından və maddi durumundan keçir... Sonra da min bir əziyyətlə aralarında sevgi bağı qurduğu insanları anidən qətlə yetirməyə qərar verir!

Bu, olduqca təhlükəli düşüncədir. Bir insan əgər şeytani fikirlərə sahibdirsə və insanları qətlə yetirməyə qərar veribsə, bunu etməyə mühit və imkan qazanmaq üçün heç də əziyyət çəkmir. Bu şeytani fikrini onsuz da bütün şərtlərdə tətbiq edə bilir. Əgər bunu din adından etməyi düşünürsə, dindən istifadə edib qətliamlar törədənlər heç də az deyildir.

Müsəlman həyatını yalan üzərində qurmaz, bu, haramdır. Həqiqi müsəlman daima Quran əsasında yaşayar. Müsəlmanlar dünyaya Quran ayələri işığında sevgi gətirməklə məsuliyyət daşıyırlar (Məryəm surəsi, 96). Eyni zamanda bütün dünyada sülhü bərqərar etmək (Bəqərə surəsi, 208), birlik və bərabərliyi təmin etmək müsəlmanların vəzifə borcudur. Müsəlmanlara inkar edənləri belə qorumaq, lazım gəldikdə bunun üçün özlərini riskə atmaq əmr olunmuşdur (Tövbə surəsi, 6). Quranda xüsusi yeri olan kitab əhli ilə isə qardaş və yaxın dost olmalıdırlar. Onları qətlə yetirmək və ya zorla öz dinlərinə döndərmək üçün deyil, Allahın əmri olduğuna və hər iki tərəfin Allahın bir olduğuna inandığına görə sevməlidirlər. Təqiyyə anlayışından saxtakarlıqla istifadə edib müsəlmanlığı savaş dini kimi göstərməyə çalışanlar hiyləli planlarında müvəffəqiyyətli olmayacaqlar. Çünki hiyləli plan daima pozulmuş olaraq qurulur. Bütün müharibə planlarına baxmayaraq, üç dinin təmsilçiləri bu dünyaya sülhü hakim edəcəklər. Çünki Allah haqqın hakim olmağını, sülhün yayılmağını istəyir. Allah bəşəriyyəti və bütün kainatı sevgi üzərinə yaratmışdır.

Xurafatçıların və İslam əleyhdarlarının musəvilərə qarşı istifadə etdikləri

Quran ayələrinin həqiqi mənalarını gördük. İndi isə xurafatçıların musəvi əleyhdarlığını aşılamaq üçün istifadə etdikləri və qeydsiz-şərtsiz inandıqları saxta hədislərdən bəhs edək:

## XRİSTİAN VƏ MUSƏVİLƏRLƏ BAĞLI SAXTA HƏDİSLƏR VƏ QURANA GÖRƏ AÇIQLAMALARI

### Yetkinlik Çağına Çatan Musəvilərin Öldürülməsi İddiası

*Atiyət əl-Kurazi dedi ki, Qureyza savaşı günü Rəsulullah tənasül yerindən istifadə edən hər yəhudilərin öldürülməsini əmr etdi. Mən o zaman hələ istifadə etməmişdim. Mənim vəziyyətimi Rəsulullaha danışdılar. O, məni buraxdı.*

(Əbu Davdu, Tirmizi, Nəsai, İbn Macə, İbn Hibban)

Bu saxta hədisə əsasən, yetkinlik yaşına çatan hər musəvi qətlə yetirilməlidir. İslam dini sevgi və mərhəməti nəsihət edir, haqsız yerə can almağı ən böyük günah sayır və səmimi musəviləri böyük əcrlə müjdələyir. Bir insanın heç bir günahı yox ikən –günahkar olsa belə, həmin adamı bağışlamaq əsasdır– onu sırf musəvi olduğuna görə yetkinlik çağına çatanda öldürmək əsla dinimizin qərarı ola bilməz. Quranda, əlbəttə, belə bir hökm yoxdur. Bu açıqlama Qurana və uca Rəbbimizin gözəl dininə iftira atmaqdır. Bu, Qurana görə, cinayət və qətliamdır. Səmimi olub cəhalət üzündən inanmadığı müddət boyu həmin saxta hədisi hökm olaraq tətbiq edən insan müsəlman deyil, qatildir. Allah səmimi musəviləri tərifləyərkən onların qeydsiz-şərtsiz qətlə yetirilməsini əmr edən hökmə inanmaq xurafatçılarda cəhalətin ölçüsünü göstərir.



**Allah səmimi Musəviləri Quranda təriflədiyi halda, xurafatçılar, Musəvilərin qeyd-şərtsiz öldürülməsini əmr edən bir hökmə inanırlar.**

### Müsəlmanların Günahlarının Musəvilərə Yüklənməsi İddiası

*Qiyamət günü müsəlmanlar dağlar boyda günahlarla gələcəklər, Allah bunların hamısını onlardan alıb yəhudilərə yükləyəcək.* (Ramuz əl-əhadis)

Bu saxta hədisə Quran ilə cavab verək:

Dağlar qədər günahlarla gələn bütün müsəlmanlar öz günahları ilə,

musəvilər də öz günahları ilə hesaba çəkiləcək. Heç kim öz günahını bir başqasına yükləyə bilməz. Yalnız öz günahlarından sorğu-sual ediləcək. Allah Quranda bunu açıq şəkildə bildirmişdir:

**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz...** (İsra surəsi, 15)

Allah başqa bir Quran ayəsində öz günahını günahsız birinə yükləməyə çalışanın hökmünü açıq şəkildə bildirmişdir:

**Kim xəta edər və ya günah qazanarsa, sonra da onu təqsiri olmayanın boynuna atarsa, özü üzünə böhtan atmış və açıq aydın günaha batmış olar.** (Nisa surəsi, 112)

Hər insan axirətdə öz əməlinə görə sorğu-sual ediləcək. Allahın bildirdiyi kimi, **"Allahın dərgahına qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır."** (Bəqərə surəsi, 281) ayəsinə əsasən, axirətdə heç kimə haqsızlıq edilməyəcək. Heç kim Rəbbimizin qatında deyə bilməyəcək ki, o, mənim günahlarımı üzərinə götürdü, ona görə də mənim günahım yoxdur. Dünyadakı yanlış düşüncəsini orada davam etdirə bilməyəcək. Çünki hamı bunun saxtakarlıq olduğunu vicdanən bilir.

## Yeməklərin Musəvilərin Üzündən Xarab Olduğu İddiası

*Əgər İsrail oğulları olmasa idi, yeməklər köhnəlib, ətlər xarab olmazdı.* (Camiüs-səğir)



**Quranda adı çəkilən, təriflənən və Hz. Musanın nəslindən olan bir topluluğun varlığının, yeməklərin köhnəlməsinə və ətlərin iylənməsinə səbəb olduğunu iddia edən bir inanc sistemi, şübhəsiz ki, qəti olaraq bir haqq dinə aid ola bilməz.**

Saxta hədislərin hansı düşüncənin məhsulu və uydurma olduğunu sübut etmək üçün bu saxta hədis olduqca əhəmiyyətli dəlildir. Kitabın əvvəlindən bəri bəhs etdiyimiz saxta hədislər bu düşüncənin məhsuludur. Əgər musəvilər yer üzündə olmasa, yeməklərin xarab olmayacağını iddia edən zehniyyətdən qadınlara, heyvanlara, incəsənətə və bütün sosial həyata dair qorxunc açıqlamaların gələcəyi, əlbəttə, sürpriz deyil. Bu saxta hədis eyni zamanda musəvilərlə bağlı alçaldıcı hədislərin də saxta olduğunun önəmli dəlilidir. Quranda adı çəkilən, təriflənən və Hz. Musanın soyu olan bir topluluğun yeməklərin köhnəlməsinə və ətlərin xarab olmasına səbəb olduğunu deyən sistem, şübhəsiz ki, haqq dinə aid ola bilməz. Bundan başqa,

Rəbbimizin Quranın "Maidə" surəsinin 5-ci ayəsində müsəlmanlara musəvi və xristianların yeməklərini halal etdiyini xatırlatmaq lazımdır. Burada qarşımıza Qurandan tamamilə fərqli xurafatçı baxış forması çıxır. Həmin bu məntiq pozğunluğu xurafatçıların məntiqini bir bütün olaraq izah etmək üçün kifayət edir.

## "Ərəb Torpaqlarında İki Din Qalmasın" İddiası

*Rəsulullahın son sözlərindən biri bu idi: Allah yəhudi və xristianları həlak etsin. Ərəb torpaqlarında iki din qalmasın.* (Beyhəki)

Bu saxta hədis yenə Peyğəmbərimizə qarşı atılan böyük iftiradır. Uca Allah Quranda xristianlıq və musəvilik dinlərinin varlığını bildirmiş, Quranın bu iki haqq dinin təsdiqləyicisi kimi göndərildiyini xəbər vermişdir. Quran bu iki dinin hökmlərini rədd etmir, o dinləri təsdiqləyir. Quranda bir çox ayədə bu barədə məlumat verilmişdir, bunlardan biri bu şəkildədir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi –** (Ali-İmran surəsi, 3)



**Ərəb torpaqları üç dinin birlikdə yaşandığı, üç dinin Peyğəmbərimiz tərəfindən qorunduğu mübarək torpaqlardır. Allahın, varlıqlarından xəbər verdiyi və təriflədiyi Xristianlar və Musəvilər olduğu halda, Peyğəmbərimizin "Allah onları məhv etsin" kimi bir söz söyləməyəcəyi məlumdur. Uydurma hədislər, Peyğəmbərimizə iftiradır.**

Yenə Quran yer üzündə musəvi və xristianların mövcud olacağını və yuxarıda qeyd etdiyimiz kimi, bunlardan bir qisminin səmimi və Allahın seçdiyi topluluq olacağını bəyan edir. Allah Quranda müsəlmanlara xristian və musəvilərlə evlənməyi, onların süfrəsində yemək yeməyi halal etmişdir (bu mövzu barədə ətraflı məlumat veriləcək). Bundan başqa, uca Rəbbimiz müsəlmanlara sevgi baxımından xristianların ən yaxın olduğunu buyurur. Allahın təriflədiyi, mükafatlandırdığı və varlığından xəbər verdiyi bu topluluqlar var ikən, "Allah yəhudi və xristianları həlak etsin" ifadəsinin Peyğəmbərimizin sözü olmadığı açıq-aşkardır. Bunu Peyğəmbərimizin sözü olaraq yayanlar bu böyük iftiranın vəbalını öz boyunlarına

götürürlər. Quranda kitab əhlini tərifləyən hökmlər və Peyğəmbərimizin kitab əhlinə qarşı rəftarı bu saxta hədisi tamamilə təkzib edir. Mövzu ilə əlaqədar Quran ayələrinə və Peyğəmbərimizin münasibətinə bir azdan nəzər salacağıq.

## Həqarət Olaraq "Ey Yəhudi", Savab Olaraq "Yəhudiyə Lənət"

*Bir adam başqa birinə: "Ey yəhudi", –deyərsə, ona 20 dəyənək vurun.* (Tirmizi)

*Kimin kasıba verməyə pulu yoxdursa, yəhudiyə lənət etsin, beləliklə, eyni savabı qazanar.* (Deyləmi, İbni Ədiyy)

Yenə bu saxta hədislərdə "yəhudi" ifadəsi həqarət nümunəsi kimi göstərilmişdir. Musəvilərə lənət oxumağı savab kimi qəbul edib onlara nifrəti bu yolla yaymağa çalışıblar. Xurafatçıların niyə bu qədər fərqli din yaşadıqları məlumdur. Səmimi musəvilərin axirətdə mükafat alacaqlarını bildirən və səmimi olduqlarını tərifləyən Quran bu insanların dünyasından tamamilə uzaqdır.

Musəvi və xristian nifrəti bu cür cəfəng iddialardan qaynaqlanır. Xurafata dair şikayətlərini İslam əleyhdarlığına çevirənlər bunu mütləq bilməlidirlər. Həqiqi İslama və səmimi müsəlmanlara cəbhə açarkən xurafatı ortadan qaldıracaq yeganə vasitəni yox edir, beləliklə, özlərinə qayıdan böyük bir fəlakəti hazırlayırlar.

## "Yolun Dar Hissəsinə Sıxışdırın"

*Əbu Hüreyrə rəvayət edir ki, Peyğəmbərimizdən belə eşidib: "Yəhudi və xristianlarla qarşılaşanda salamı birinci siz verməyin. Yolda onlardan birinə rast gələndə onu yolun bir tərəfinə sıxışdırın".*
(Müslim, Büluğul-məram, cild 4, Cihad bəhsi, Cizyə və hüdnə babı, 1335/1125- (246))

Sevgini, nəzakəti və ən başda kitab əhlinə qarşı mərhəməti öyrədən haqq bir dinin hökmlərinə qarşı uydurulan bu hədis ciddi vəhşilikdir və Peyğəmbərimizə qarşı böyük iftiradır. Bu sözlər Qurana uyğun olaraq kitab əhlinə şəfqət və sevgi göstərən Peyğəmbərimizin adından uydurulub və onun musəvi və xristianlara qarşı münasibətinə tamamilə zidd məntiqdir.

## Yəhudi Ağacı Qarqad

*Ta ki, yəhudilər daş və ağacların arxasında gizlənəcək, lakin ağac və daş dilə gəlib deyəcək ki, ey Allahın qulu, gəl bax, mənim arxamda yəhudi var; burda gizlənib, mənim arxamdadır, gəl onu cəzalandır. Təkcə qarqad ağacı bunu deməyəcək. Çünki o, yəhudi ağacıdır.* (Fitən, hədis: 2239)

Musəvi əleyhdarlığı mövzusunda, bəlkə də, ən çox istifadə olunan hədis qarqad ağacı ilə bağlı olan bu hədisdir. Bu hədisə əsasən, bir musəvi daşın və ağacın arxasında gizləndiyi təqdirdə öldürülməlidir. Bu yanlış düşüncəyə görə, həmin musəvi günahsız biri və ya dindar ola bilər, musəvi bir uşaq da ola bilər. Bu saxta hədisə əsasən, ağacın arxasında xüsusiyyətindən asılı



olmayaraq, bir musəvi gizlənərsə, ağac və daş hər hansı bir yolla bunu müsəlmana xəbər verir və həmin musəvi də mütləq öldürülür. Kiçik uşaq olsa da...

Halbuki bu, Qurana görə cinayətdir. Özünü müsəlman olaraq görən insan saxta hədislərə inanaraq ağacın ona əmr etdiyini deyib ağacın arxasındakı musəvini vurarsa, ölən musəvi cənnətə gedə bilər. Özü də tövbə etmədiyi müddət boyu axirətdə yol verdiyi cinayətə görə cəzalandırılar. Bundan başqa, bu, elə bir dəhşətli sistemdir ki, bu yalanlara inananlar "daş mənə əmr etdi" və ya "ağac mənə xəbər verdi" kimi saxtakarlıqlarla ortaya çıxıb asan şəkildə qətliam törədə bilərlər. Səbəbini soruşanda daşdan gələn əmri sübut kimi göstərə bilərlər. Belə bir saxtakar sistemdə onları hesaba çəkən də olmaz. Onsuz da qurduqları sistem Qrana görə işləmir və bu sistemdə öldürmək, alçaltmaq, bir kənara sıxışdırmaq və s. günah sayılmır. Halbuki Allah Quranda onların saxtakar sistemlərini alçaldır:

**Sizə nə olub, bu necə mühakimədir yürüdürsünüz? Məgər düşünüb ibrət almayacaqsınız? Yoxsa sizin aydın bir dəliliniz vardır? Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!** (Saffat surəsi, 154-157)

İndi də baxıb görək ki, musəvi və xristianlarla bağlı uydurulan hədisləri Quran və Peyğəmbərimizin əməlləri necə təkzib edir:

## Quranda Kitab Əhlinə Verilən Dəyər

Müsəlmanlar kitab əhli ilə evlənə bilər, onların yeməkləri müsəlmanlara, müsəlmanların yeməyi onlara halaldır:

**Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, Axirətdə ziyana uğrayanlardan olar.** (Maidə surəsi, 5)



**Müsəlmanlar kitab əhli ilə evlənə bilər, onların yeməkləri müsəlmanlara, müsəlmanların yeməyi onlara halaldır.**

Bu ayə çox müxtəlif və əhəmiyyətli detallarla kitab əhlinin müsəlmanlar üçün dəyərindən bəhs edir. Bu ayənin hökmünə əsasən, bir müsəlman kişiyə kitab əhlinin qadınları ilə evlənmək icazəsi verilmişdir.

Buradakı icazə çox əhəmiyyətlidir, çünki **"Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər...."** (Nur surəsi, 26) əmrinə əsasən, müsəlmanlar təmiz və yaxşı insanlarla evlənməlidirlər. Bu hökmlə əhəmiyyətli dərəcədə musəvi və xristianların təmiz və yaxşı insanlar olduqlarına işarə edilir.

Bununla yanaşı, bu ayə önəmli ölçünü müəyyənləşdirir. Bir müsəlman musəvi və ya xristian qadınla evlənir, ona: "Canım, xanımım, sevgilim", – deyə xitab edir, bütün ömrünü onunla birlikdə keçirir, hətta axirətdə də sonsuz həyatını onunla birlikdə davam etdirməyə niyyət edir. Bu insan bütün dünya həyatı boyu bütün çətinlikləri və gözəllikləri bölüşdüyü yeganə insandır. Xəstələnəndə bir-birinin yanında olub qulluq edirlər. Xurafatçıların düşüncəsinə görə, bir insan həyatı boyu birlikdə olduğu, canını əmanət etdiyi və uşaqlarının anası olan sevgilisinə xristian və ya musəvi olduğu üçün anidən düşmən kəsilib onu lənətli elan edəcək? Bütün həyatını onunla keçirəndən sonra bir gün: "Bu ağac mənə xəbər verdi ki, xanımım musəvidir və onun arxasında gizlənib", –deyib onu qətlə yetirməyə qərar verəcək? Bir insan bunu ancaq psixoloji problemləri olarsa, edə bilər. Bu ayə Qurana tabe olan ağıllı müsəlmana kitab əhlini sevməyi öyrədir.

Bundan başqa, ayədə müsəlmanlar üçün əhəmiyyətli izin qeyd olunur: kitab əhlinin yeməyindən yemək. Bu, çox əhəmiyyətli mövzudur. Çünki məlum olduğu kimi, müsəlmanlar yemək barədə müəyyən haramlara diqqət etməlidirlər. Donuz əti və Allahın adından kəsilməyən bir heyvanın əti müsəlmanlara haramdır. Musəvi və xristianların yeməklərinin müsəlmanlara halal edilməsi onların etibarlı olduqlarını göstərir. Eyni ölçü kitab əhli üçün də əsaslıdır və ayənin hökmünə görə, müsəlmanların yeməkləri də onlara halal edilmişdir.



**Musəvi və xristianların yeməklərinin Müsəlmanlara halal edilməsi, bu insanların etibarlı olduğuna dair bir zəmanətdir. Eyni ölçü Musəvi və xristianlar üçün də keçərlidir və ayənin hökmünə görə müsəlmanların yeməkləri də onlara halal edilmişdir.**

Burada eyni zamanda başqa bir dostluq ifadəsinə də diqqət çəkmək lazımdır. Kitab əhli və müsəlmanlar eyni süfrədə oturur, bir-birilərinin evinə qonaq gedirlər. Burada dostluq əlaqəsinin təsviri verilir. Belə ki, kin-küdurətə və öldürməyə əsaslanan nifrət mühiti deyil, dostluq və qardaşlıq mühiti təsvir olunur.

Bu ayədə verilən hökmlər bir xurafatçının əsla yanaşmadığı və qəti qəbul etmədiyi hökmlərdir. Quranın verdiyi bu haqlar xurafatçılara görə həm haram, həm də dəhşətli əməldir. Xurafatçılar kitab əhlindən bir qadınla evlənməyi və ya onların süfrəsində oturmağı qəzəblə rədd edər. Məlum məsələdir ki, xurafatçıların hökmləri Qurana əsaslanmır, çünki Quranın hökmlərini qəbul etmirlər. Kitab əhlinin mövqeyindən təkcə bu ayə bəhs etmir.

Allah Quranda bir qisim kitab əhlini tərifləyir. Mövzu ilə əlaqədar ayələr belədir:

**Musanın qövmündən elə bir camaat vardır ki, haqq ilə doğru yola yönəldir və onun sayəsində ədalətlə hökm verirlər.** (Əraf surəsi, 159)

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar. Belələri Allaha, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır.**

(Ali-İmran surəsi, 113-115)

**Həqiqətən, kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.** (Ali-İmran surəsi, 199)

*(Qurandan)* **əvvəl özlərinə kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara** *(Quran)* **oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!" – deyirlər.** (Qəsəs surəsi, 52-53)

**Lakin onlardan** *(yəhudilərdən)* **elmdə qüvvətli olanlar və möminlər sənə nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz onlara böyük bir mükafat verəcəyik.** (Nisa surəsi, 162)

**Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allaha və axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.** (Bəqərə surəsi, 62)

**İman gətirənlərin, habelə yəhudi, sabii və xaçpərəstlərdən Allaha və axirət gününə iman gətirib yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.** (Maidə surəsi, 69)

**"Biz xaçpərəstik!"– deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.** *(Allahın)* **elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz! Nə üçün biz Allaha və bizə gələn haqqa inanmayaq? Biz ki Rəbbimizin bizi əməlisaleh camaatla birlikdə** *(cənnətə)* **daxil edəcəyinə ümid edirik". Belə dediklərinə görə də Allah onları altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları ilə mükafatlandırdı. Yaxşı iş görənlərin mükafatı budur.** (Maidə surəsi, 82-85)

**Allah İsrail oğulları ilə əhd bağlamışdı. Biz onlardan on iki başçı təyin etdik. Allah dedi: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, Mənim elçilərimə inanıb onlara yardım etsəniz və Allaha gözəl bir borc versəniz, əlbəttə, Mən təqsirlərinizdən keçər və sizi altından çaylar axan cənnət bağlarına daxil edərəm. Sizlərdən kimsə bundan sonra kafir olsa, artıq o, doğru yoldan azmışdır".** (Maidə surəsi, 12)

Ayələrdə açıq şəkildə başa düşüldüyü kimi, saleh və səmimi olan musəvi və xristianlar Quranda gözəl sözlərlə təriflənir və Allahdan bir mükafatla müjdələnirlər. Allah onları cənnətə göndərəcəyini bildirir. Bu, Allahın onlara sevgi ifadəsidir. Allahın sevdiyi, razı olub cənnətinə göndərdiyi bir insana müsəlman necə düşmən ola bilər? Qurana görə, ola bilməz. Qurana əsasən, belə bir düşmənlik təqsirdir. Xurafatçılar Quran ayələrinə baxmayaraq, saxta hədisləri özlərinə yol göstərici kimi götürüb kitab əhli düşmənliyini yayır, beləliklə, İslama görə xətalı iş görürlər.

## Müsəlmanların Kitab Əhlini Dəvət Etməsi

**İçərilərindən zülm edənlər istisna olmaqla kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin və deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana iman gətirdik. Bizim də məbudumuz, sizin də məbudunuz birdir. Biz yalnız Ona itaət edirik".** (Ənkəbut surəsi, 46)

**De: "Ey kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"** (Ali-İmran surəsi, 64)

Bu ayələrdə göründüyü kimi, müsəlmanların vəzifəsi kitab əhlini pisləmək, küncə sıxışdırmaq, onlara kin bəsləmək, hətta onları öldürmək deyil; onları yalnız gözəl üslubda Allahın birliyinə çağırmaqdır. Tövhid inancı hər üç dində də təməl inancdır. Müsəlmanlar kitab əhli ilə görüşüb söhbətləşir, onlara təbliğ edir və onları Allahın birliyinə və endirilən haqq kitabların hamısına inanmağa çağırırlar. Aralarında dostluq münasibəti və təbliğ mövcuddur. Qurana əsasən, bir müsəlman kitab əhlindən birini görəndə onu küncə sıxışdırmamalıdır, onunla ən gözəl şəkildə danışmalı və ən gözəl tərzdə Allahın birliyinə çağırmalıdır.

## Müsəlmanların Kitab Əhlinə Ədalətli Davranışı

**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir.**
(Mumtəhinə surəsi, 8)

Daha əvvəl də açıqladığımız kimi, kitab əhlinin, müsəlmanların və ya hansı topluluğun içindən çıxırsa çıxsın, din mövzusunda iman edənlərə qarşı savaşan, çətinlik törədən, iman edənləri yaşadıqları yerlərdən sürgün etməyə, həmçinin öldürməyə çalışan azğın insanlar Quranda alçaldılır. Fəqət bunun xaricində, yəni zülm etməyən topluluğa qarşı müsəlmanlar mütləq ədalətli davranmalıdırlar. Bəzən ədalət insanın öz əleyhinə hərəkət etməsini lazımlı edə bilər. Öz əleyhinə belə olsa, ədaləti ayaqda tutmaq üstün xüsusiyyətdir. Müsəlmanlar bunu Allahın əmri olaraq yerinə yetirirlər. Bu davranış haqqında ayədə belə buyurulur:

**Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun.**
(Nisa surəsi, 135)

Bu hökmə əsasən, müsəlmanlar bəzən öz haqlarını bir kənara qoyub musəvi və xristianların, hətta dinsizlərin haqqını müdafiə etməlidirlər. Dolayısilə, Qurandakı ədalət sistemi musəviyə lənət edənin savab alacağını iddia edən azğın xurafatçı anlayışına tamamilə ziddir.



Quranda kitab əhlini durumu açıq-aşkardır. Bu hissədə nümunəsini verdiyimiz saxta hədislər Qurana birbaşa müxalifdir. Bunu Peyğəmbərimizin əməllərində və onu nümunə götürən bütün müsəlmanlarda açıq şəkildə görmək mümkündür:

## Peyğəmbərimizin Kitab Əhli İlə Əlaqələri

- *Peyğəmbərimizin kitab əhlinin bütün toy süfrələrində iştirak etdiyinə, xəstələrinə baş çəkdiyinə və onlara hədiyyə aldıqlarına dair rəvayətlər vardır.*
- *Nəcran xristianları ziyarətə gələndə Hz. Muhəmməd onlar üçün əbasını yerə sərmişdir*

- *Peyğəmbərimizin xanımlarından biri Misirdən gələn xristianlardan Mariya binti Şəmun idi*
- *Peyğəmbərimizin xanımlarından Səfiyyə anamız isə Hüyəyy binti Əxtab adında Mədinədəki musəvilərdən Madıroğulları qəbiləsinin başçısının qızı idi.*
- *Hz. Muhəmməd Əvs və Həzrəc qəbilələri ilə birlikdə bağladığı Mədinə müqaviləsinə musəvilərin də qatılmasına izin vermiş və beləliklə, musəvilərin müsəlmanların içində ayrı dini qrup olaraq varlıqlarını davam etdirmələrini təmin etmişdir.*
- *Mədinə müqaviləsinin "Bəni Əvf musəviləri inananlarla birlikdə bir camaat formalaşdırdılar. Musəvilərin dini özlərinə, müsəlmanların da dini özlərinədir" hökmü ilə müsəlmanların musəvilərin ənənələrinə və inanclarına göstərdikləri anlayışın əsası Peyğəmbərimizin dövründə qoyulmuşdur. Yenə eyni mətnin 26-33-cü maddələrində kitab əhlinə mənsub vətəndaşların müsəlmanlarla eyni haqlara sahib olduqları, 16-cı maddədə isə onlara qarşı haqsızlıq edilməyəcəyi müəyyən edilir.*
- *Peyğəmbərimiz 630-cu ildə müsəlman olduqlarını bildirmək üçün Mədinəyə gələn Ximyər hökmdarının elçilərinə belə bir təlimat verir: "Bir musəvi və ya xristian müsəlman olduğu təqdirdə möminlərdən olurlar (onlarla hüquqi yöndən bərabərdirlər). Kim musəviliyində və ya xristianlığında qalmaq istəsə, ona müdaxilə oluna bilməz".*

  (İbn Hişam, əs-Sirə, II, 586)
- *Nəcran xristianları Mədinəyə altmış nəfərlik heyət göndərdilər. Mədinəyə çatan Nəcran heyəti Məsciddə Peyğəmbərimizin hüzuruna çıxdılar. İbadət vaxtı çatanda Məsciddə ibadət etmək istədilər. Səhabələr buna etiraz etsələr də, Allah Rəsulu məscidi onlara verdi. Onlar da şərqə tərəf dönüb ibadətlərini yerinə yetirdilər.*

  (İbn Hişam, əs-Sirə, Beyrut ts, I, 573-574; Həmidullah, İslam peyğəmbəri, I, 619-620)
- *Peyğəmbərimizin dövründə musəvi və xristianlara verilən amannamələrlə kitab əhlinin haqları qoruma altına alınmışdır. Sonrakı dövrlərdə hər hansı bir anlaşılmazlıq olanda kitab əhli həmin amannamələri göstərmişdir. Məsələn, dəməşqli xristianların problem qarşısında onlara verilən amannaməni dövrün xəlifəsi Ömərə təqdim edərək problemin həll olunmasını istədikləri tarix kitablarında mövcuddur.*
- *Peyğəmbərimiz Hz. Muhəmmədin xristian İbn Harris bin Kab və qövmünə yazdırdığı müqavilə mətnində: "Şərqdə və qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, namusları və malları Allahın, Peyğəmbərinin və bütün möminlərin himayəsindədir. Xristianlıq dinini yaşayanlardan heç kim istəmədən İslamı seçmək üçün məcbur edilməyəcək. Xristianlardan biri hər hansı cinayətə və haqsızlığa məruz qalarsa, müsəlmanlar ona yardım etməlidirlər" maddələrini yazdırmışdır.*

- *Peyğəmbərimiz tərəfindən Ədruh, Maqna, Xeybər, Nəcran və Aqabədən olan kitab əhlinə verilən bəratlar müsəlmanların kitab əhlinin can və mal güvənliyini təminat altına aldıqlarını və onlara inanc və ibadət azadlığı verdiklərini göstərir.*
- *Peyğəmbərimiz təbliğə başlayanda ilk dəfə Məkkədə bəzi xristianlarla qarşılaşmışdı. Hətta ona vəhyin gəldiyi ilk günlərdə Hz. Xədicə və Peyğəmbərimizlə ilk dəfə danışanlardan biri Varaqa bin Nofəl İncilin əl yazmalarına sahib olan xristian idi.* (Buxari, Bədül-vəhy 3)
- *Xəlifələr dövründə dağıdılan kilsələr müsəlmanlar tərəfindən bərpa olunurdu. Yeni sinaqoq və monastırların inşa edilməsinə icazə verilirdi. Məsələn, Mədain xaricində olan və Patriarx Mar Ammə tərəfindən daha öncə yandırılan Müqəddəs Sercius monastırı Hz. Osmanın dövründə yenidən inşa edilmişdir.*
- *Suriyanın fəthindən sonra Şamda Müqəddəs Con kilsəsində müsəlmanlar cümə namazını qılırdılar, xristianlar da bazar günü öz dini ibadətlərini azad şəkildə yerinə yetirirdilər.*
- *Səhabələr səfərə çıxanda və ya səfər vaxtı yolüstü monastırlarda qalırdılar. Kitab əhli ilə olan müqavilədə bu barədə maddələr vardır.*



## Quranda İncil və Tövrat

Bir müsəlman göndərilən peyğəmbərlərin və haqq kitabların hamısına inanmaq məcburiyyətindədir. Peyğəmbərlərdən birini digərindən ayırd etməmək müsəlmanlığın Quranda verilən hökmüdür. Bu hökmə tabe olmayan, ayəyə tabe olmamış olur və dindən çıxmış sayılır. Buna görə də müsəlmanlar olaraq Hz. Muhəmməd necə bizim peyğəmbərimizdirsə, Hz. İsa və Hz. Musa da bizim peyğəmbərlərimizdir. Biz necə Muhəmmədiyiksə, eyni zamanda İsəvi və Musəvilərik. Bu, İslamın ən əhəmiyyətli şərtlərindən biridir.

Buna görə də biz müsəlmanlar Quranı rəhbər tutaraq bu haqq kitabların Allahın qatından olduğuna inanmalıyıq. Quranın təsdiq etdiyi hər bir hökm, əməl və söz müsəlmanlar üçün hidayət rəhbəridir.

Xurafatçıların Quranın təriflədiyi haqq kitabları hədisdən dəlil gətirib əsassız hesab etməsi İslamda qəbul edilə bilməz. Həqiqi müsəlmanların rəhbəri Qurandır və Quranda Tövrat və İncilin hökmü belə açıqlanır:

**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin**

**Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!"**
(Bəqərə surəsi, 136)

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır.** *(Allaha)* **təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar buna şahid oldular. İnsanlardan qorxmayın, Məndən qorxun! Ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir.** (Maidə surəsi, 44)

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik.** (Maidə surəsi, 46)

**Ondan əvvəl Musanın rəhbər və mərhəmət olan kitabı var idi. Bu isə zalımları qorxutmaq və yaxşı iş görənlərə müjdə vermək üçün ərəb dilində nazil edilmiş,** *(əvvəlkiləri)* **təsdiq edən bir kitabdır.** (Əhqaf surəsi, 12)

**O, sənə kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi– daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi...**
(Ali-İmran surəsi, 3-4)

**Qoy İncil əhli Allahın onda nazil etdiyi əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir.**
(Maidə surəsi, 47)

**Bu, şəhərlər anası** *(Məkkə əhlini)* **və onun ətrafındakıları qorxutmaq üçün nazil etdiyimiz, özündən əvvəlkiləri təsdiq edən mübarək bir kitabdır. Axirətə inananlar ona da inanırlar. Onlar namazlarını doğru-düzgün qılırlar.** (Ənam surəsi, 92)

**Onlar: "Allah insana heç bir şey nazil etməmişdir", – deməklə Allahı layiqincə qiymətləndirmədilər. De: "Musanın insanlar üçün nur və doğru yolu göstərən rəhbər olaraq gətirdiyi kitabı kim nazil etmişdir? Siz onu kağızlara yazıb** *(bir qismini)* **göstərir, çoxunu isə gizlədirsiniz. Axı, sizin də, atalarınızın da bilmədiyiniz şeylər sizə öyrədilmişdir". Sən: "Allah!"– de, sonra da onları burax ki, öz boşboğazlıqları ilə əylənsinlər.** (Ənam surəsi, 91)

**Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın nazil etdiyi** *(kitabla)* **hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsə idi, sizi tək bir ümmət edərdi. Lakin** *(başqa-başqa olmanız)* **sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir.** (Maidə surəsi, 48)

**Əgər onlar Tövrata, İncilə və Rəbbindən özlərinə nazil edilənə düzgün əməl etsə idilər, onlar başları üstündə və ayaqları altında** *(olan nemətlərdən)* **yeyərdilər. Onların arasında haqqı etiraf edən bir camaat vardır. Lakin onların çoxunun etdiyi əməllər necə də pisdir.**
(Maidə surəsi, 66)

**Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün açıq-aydın dəlillər, doğru yolu göstəricisi və rəhmət olaraq kitab verdik ki, bəlkə, düşünüb ibrət alsınlar.** (Qəsəs surəsi, 43)

**Onlar dedilər: "Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir kitab dinlədik".** (Əhqaf surəsi, 30)



**Müsəlmanlar, Qurani-Kərimi rəhbər götürərək bütün haqq kitabların Allahın dərgahından olduğuna inanırlar. Müsəlmanlar üçün Quran ilə təsdiqlənmiş hər hökm, əməl və söz; bir hidayət rəhbəridir.**

**Həqiqətən, kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.**
(Ali-İmran surəsi, 199)

**Məndən əvvəl** *(nazil olmuş)* **Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün** *(göndərildim)*. **Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin.** (Ali-İmran surəsi, 50)

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır.** *(Bu Quran)* **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusuf surəsi, 111)



Allah Quranda Tövratı nur və hidayət olaraq, həmçinin bəsirət və rəhmətə aparan yol göstərici kimi təsvir edir. Eyni zamanda İncili də içində hidayət və nur olan, əvvəl nazil olmuş Tövratı təsdiq edən və müttəqilər üçün yol göstərici kitab olaraq təsvir edir. Səhih Tövrat və İncil nur və hidayət rəhbəri kimi təriflənir. Bu, Quranın hökmüdür. Bundan başqa hökm çıxaranlar və bu haqq kitabı əsassız sayanlar açıq şəkildə göründüyü kimi yalan danışırlar.

Bunu Peyğəmbərimizin əməllərindən də anlamaq mümkündür.

## Peyğəmbərimizin Tövrat və İncilə Münasibəti

*Müslim belə nəql edir: "Əbu Hüreyrədən rəvayət olunur ki, Peyğəmbərimiz lap əvvəldən deyib ki, kitab əhlindən olanlar Tövratı ibranicə oxuyub müsəlmanlar üçün ərəb dilinə tərcümə edirdilər".*

(Mişkatül-məsabih, I kitab, 6-cı hissə, səh.42)

*Əl-Hafiz əl-Zəhəbi yazır ki, yəhudilikdən İslama dönən Abdullah bin Səlam Hz. Peyğəmbərin yanına gəldi və ona dedi ki, dünən gecə Quranı və Tövratı oxudum. O da cavab verdi ki, birini bir gecə oxu, o birini də başqa gecə.* (al-Thalabi, Al-İman al-Thalabi Tathkarar al-Huffadh, 1 cild, səh. 27)

*Hz. Peyğəmbərin yaxın çevrəsindən olan Abdullah bin Amr tez-tez Tövrat oxuyurmuş. Bir gün gecə yuxusunda görür ki, bir əlində bal, o birində də yağ tutub. Görür ki, bir az baldan yeyir, bir az da yağdan. O, yuxusunu Hz. Muhəmmədə danışır. Hz. Muhəmməd Abdullahın gördüyü yuxunu iki kitabı, yəni bəzən Tövratı, bəzən də Quranı oxuması ilə şərh edir.*

(Buxari, Səhih, VI cild, 987-ci hədis, səh.439)

*Əbu Səid əl-Hudridən rəvayət olunur: "Peyğəmbərimizə dedik ki, ey Allahın Rəsulu, İsrail oğullarından nəql edə bilərik? Belə buyurdu: "Bəli, İsrail oğullarından nəql edə bilərsiniz, yanlış heç nə yoxdur*

*bunda. Onlardan bir şey rəvayət etsəniz, bilin ki, onlarda çox maraqlı məlumatlar var".* (Hənbəl, Müsnəd, 111/12, hədis no: 11034)

## Qurana Görə, Musəvilərin Müqəddəs Torpaqlarda Yaşamaq Hüququ

Ümumiyyətlə, bir qisim müsəlman cəmiyyətləri Quran ayələrini bilmədiklərinə görə və İslam barədə ciddi şəkildə cahil olduqlarından dolayı, musəviləri müqəddəs torpaqlardan və ya oradakı İsrail dövlətini xəritədən silmək kimi təhdidlərlə ortaya çıxırlar. Halbuki həmin adamlar bununla Qurana zidd davrandıqlarını düşünmürlər.

Qurana əsasən, müqəddəs torpaqlarda yaşamaq musəvilərin haqqıdır. Bu barədə Quranda belə buyurulur:

**O zaman Musa öz qövmünə demişdi: "Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. O, sizin aranızdan peyğəmbərlər göndərdi, sizi hökmdarlar təyin etdi və aləmlərdən heç kəsə vermədiyini sizə verdi. Ey qövmüm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və arxa çevirməyin ki, ziyana uğrayaraq dönməyəsiniz".**
(Maidə surəsi, 20-21)

**Bundan sonra İsrail oğullarına: "Bu yerdə yaşayın! Axirət vədi gəlib yetişdiyi zaman sizin hamınızı** *(məhşərə)* **gətirəcəyik", – dedik.**
(İsra surəsi, 104)

Quran ayələrindən açıq şəkildə göründüyü kimi, musəvilər Tövrata əsasən olduğu kimi, Qurana əsasən də, müqəddəs torpaqlarda mövcud olmalıdırlar. Onsuz da musəvilərin müqəddəs torpaqlarda yaşaması gözəllikdir və həqiqi müsəlmanlar üçün sevinc qaynağıdır. Allahın 3000 illik vədinin gerçəkləşdiyini görmək, Hz. İbrahimin və Hz. Musanın dediklərinin baş verdiyinə şahidlik etmək böyük möcüzədir. Allah minlərlə il əvvəldən musəvilərin o torpaqlarda olacağını bildirmişdir və biz də bu möcüzənin hal-hazırda baş verdiyini görürük. Bu gözəllik insanda həyəcana səbəb olur.



**Müqəddəs torpaqlarda Musəvilər, Müsəlmanlar və Xristianlar olacaqlar və o bölgədə daim birlikdə sülhü və sevgini hakim edəcəklər. Allahın bizdən istədiyi budur və biz bunun üçün səy göstərməliyik.**

Burada bunu qeyd etmək çox əhəmiyyətlidir. Allah Quranda da, Tövratda da, həqiqi iman sahiblərinə sülhü şərt qoyur. Müqəddəs torpaqlarda musəvilər mövcud olmalıdır. Müsəlmanlar və xristianlar o ərazidə birlikdə sülh və sevgini hakim etməli, qardaşlıq içində yaşamalıdırlar. Allah hamımız üçün daima sülhü istəyir.

Sülhün yaranması üçün torpaq hərisliyi bitməli, düşmənlik ortadan qalxmalı və xurafatın saxta zehniyyəti qəti şəkildə yox edilməlidir. Bütün bunlar üçün haqq dinlərə, din əxlaqına, dindarlara və Qurana ehtiyac var. Torpaq tamahkarlığı üzündən baş verən münaqişələr daima böyüyüb qorxunc hal almağa məhkumdur. Bunu ortadan ancaq Qurana əsaslanan həqiqi din anlayışının təlim-tərbiyəsi qaldıra bilər. Belə bir təlim-tərbiyə bütün yanlış şeyləri və düşmənlikləri ortadan qaldırar. Zehniyyəti dəyişən insanlar düşmənlik və savaş üçün əsla səbəb tapa bilməzlər. Bunun yeganə yolu təlim -tərbiyədir.

## MÖVLƏVİLİK TƏHLÜKƏSİ



Mövləvilik deyildikdə bir çoxlarının ağlına Cəlaləddin Ruminin liderliyində inkişaf edən, Anadoluda yayılan və dünya miqyasında milyonlarla insan üzərində təsiri olan təriqət gəlir. İnsanların çoxu elə zənn edir ki, mövləvilik sevgi və qardaşlığı təlqin edir. Halbuki bir az araşdırma apardıqda durumun fərqli olduğu görünər.

Mövlana Cəlaləddin Ruminin kitabları islami əsərlərdən biri kimi tanınır. Lakin bu kitablarda Qurana uyğun olmayan, cəmiyyətin əxlaqını ciddi şəkildə pozan qeyri-əxlaqi hissələrin mövcud olduğunu bir çoxları bilmir. Bunu etməliyik ki, növbəti səhifələrdə sizə ətraflı olaraq təqdim edəcəyimiz Qurana uyğun olmayan həmin qisimlər Mövlananın kitablarına sonradan əlavə edilə bilər. Mövlanadan xəbərsiz şəkildə başqaları tərəfindən də yazıla bilər. Ancaq nəticədə Mövlana adına nəşr edilib yayılan kitablarda Qurana tamamilə zidd fəlsəfə və həyat tərzindən bəhs edilən qisimlər var.

Belə ki, Allaha iman etməyən, Hz. Muhəmmədi peyğəmbər olaraq qəbul etməyən və ya İslama açıq şəkildə qarşı çıxan bir çoxlarının mövləviliyi müdafiə etməyinin əsasında da Qurana uyğun olmayan bu qisimlər var. Həmin şəxslər müsəlmanlığa şiddətlə qarşıdırlar, lakin Mövlananı tərifləyir, ona aid edilən kitablarda bəhs edilənləri qəbul edir və insanlara bunu təbliğ edirlər.

Rumilik olaraq adlandırılan bu cərəyanın kökündə Allahın yaratmasını inkar edən darvinizm, Allahın Quranda çirkin əxlaqsızlıq adlandırdığı və haram etdiyi homoseksuallıq, qadınları ikinci sinif olaraq görüb alçaltmaq, irqçi yanaşma ilə türk millətini pisləmək və şərabı halal görmək kimi qeyri-əxlaqi və Qurana zidd inanclar var. Rumilik İslamsız və Quransız müsəlman anlayışını ortaya çıxarmaq üçün bəzi çevrələr tərəfindən xüsusi və şüurlu şəkildə istifadə edilən fəlsəfədir və Anadolu mövləviliyi ilə rumilik eyni deyil.

Rumiliyi İslamın yerinə mənimsətməyə çalışan insanların ortaq fikirlərinə baxdıqda görünür ki, onların böyük qismi homoseksuallığı və Quran əxlaqına uyğun olmayan həyat anlayışını müdafiə edir, elmi dəlilləri olmadığı halda təkamülü təbliğ edirlər. Bunlardan xəbərsiz olan bir çox adam böyük ehtimalla xoş niyyətlə Mövlananın kitablarından alınan bəzi cümlələri yayarkən fərqində olmadan rumilik fəlsəfənə kömək etmiş olurlar.

Şübhəsiz ki, bir insanın nəyə inandığı və necə yaşadığı yalnız onun özünü maraqlandırır. Allahın Quranda əmr etdiyi "dində məcburiyyət yoxdur" hökmünə əsasən, hər kəs istədiyi inanca sahib olmaqda azaddır. Ancaq rumilik mövzusunda müsəlmanları xəbərdar etmək hər müsəlman üçün bir məsuliyyətdir.

Bu fəlsəfə əsrlərdən bəri qəsdən müsəlmanları zəiflətmək və onları təsir altına alıb yönləndirmək məqsədi ilə yayılır. Bütün İslam aləmini birbaşa maraqlandıran belə bir durumda müsəlmanlar həssas davranmalı, insanları pislikdən çəkindirib yaxşılığı təbliğ etməlidirlər.

Kitabın növbəti səhifələrində başda "Məsnəvi" əsəri olmaqla, Mövlanaya aid edilən əsərlərdən bəzi qisimlər bir yerə toplanmışdır. Bu qisimlər həmin kitabların əsrlərlə yaşı olan farsca nəşrlərində də vardır. Türkiyə Dəyanət İşləri Nazirliyinin, Milli Təhsil Nazirliyinin, Türkiyə Mədəniyyət Nazirliyin və digər müxtəlif rəsmi qurumların nəşr etdirib yayımladığı, yaxud kitabxanalarda saxladığı nəşrlərdə də bu qisimlər var.

Burada təkrar xatırlatmaq lazımdır ki, mövləviliyə inanan, Cəlaləddin Rumini izləyən hər insan Rumi deyil. Rumilik Quran və İsamla ziddiyyət təşkil edən ayrı fəlsəfədir. Bu fəlsəfənin dayaq nöqtəsi isə Cəlaləddin Ruminin kitablarına böyük ehtimalla sonradan əlavə edilən əxlaqa zidd hissələrdir.

Dolayısilə, Mövlananın kitablarında mövcud olan, bəlkə də, bu kitablara xüsusilə yerləşdirilən və İslam əleyhdarları tərəfindən İslam əxlaqına qarşı istifadə edilən qisimlərin insanlara göstərilməsi əhəmiyyətlidir. O zaman bu qeyri-əxlaqi hissələrin Mövlananın kitablarından çıxarılması və beləliklə, mövləviliyin təmizlənməsi mümkün olar. Daha da əhəmiyyətlisi isə İslam əleyhdarlarının İslamı daxildən yıxmaq və İslam coğrafiyasını nəzarət altında tutmaq üçün müsəlmanlara qarşı istifadə etdikləri silahlardan biri əllərindən alınmış olacaq.

Bütün bunları etdikdən sonra müsəlmanlar əleyhinə qurulan tarixi hiylə puça çıxacaq və Quran əxlaqının dünya hakimiyyəti önündəki əngəl qalxacaq.

**Bu kitabda yer alan bölümlər fəsillər "Milli Eğitim Bakanlığı"nın nəşr etdiyi köhnə tarixli orijinal mənbələrdən götürülmüşdür.**




**Məsnəvinin 1, 2, 3-cü cildləri**




Məsnəvinin 4, 5, 6-cı cildləri, Ariflərin Əfsanələri 2

# MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA ALLAHA, İSLAMA VƏ QURANA HÖRMƏTSİZLİK EDİLƏN QİSİMLƏRDƏN NÜMUNƏLƏR

## 1. "İnşaAllah" Sözünə Qarşı Uyğun Olmayan Üslub, Mövlananın (Haşa) Allah Kimi Göstərilməsi

Mövlana bir işin görülməsini əmr edir. **Şeyx Muhəmməd Hadim: "İnşaAllah", –deyəndə Mövlana bağırır: "Ay axmaq, söyləyən kimdi bəs?"** (Mövlana Cəlaləddin, A.Gölpinarlı, "İnkilab" Nəşriyyatı, 1985, 4-cü nəşr, səh.196)

**"İnşaAllah" Demək Allahın Əmridir**

**Ancaq: "Əgər Allah istəsə!"** *("İnşaAllah"- de!)* **Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin", –de.** (Kəhf surəsi, 24)

196 MEVLÂNÂ CELÂLEDDİN

O, küçük insanlara, yarının büyüklerine de saygı göstermededir. Birgün yolda oynayan çocuklar, Mevlânâ'yı görünce secde ediyorlar. O da onlara secde ediyor. Tâ ilerde oyuna dalmış bir çocuk, bu hali görünce bağırıyor:

— Dur, ben de geleyim, secde edeyim, amma oyunum bitsin!...

Bekliyor Mevlânâ, çocuk oyununu bitirip gelinceyedek bekliyor. Ve bu küçük insanla bu büyük insan, birbirlerine karşı secdeye kapanıyorlar (Sipehsâlâr, s. 137, Eflâkî, 41. a).

Mevlânâ, kulu Tanrı yapıyor, gerçek varlığı yalnız insanda görüyor. Karısı Kira Hâtun, bir gün Mevlânâ'nın ferecesindeki söküğü, Mevlânâ'nın üstünde dikmededir. İnsanın üstünde birşey dikilirse kısmeti kapanır. Söküğü, yırtığı dikilen, ağzına birşey alır, dişleriyle tutarsa bu yomsuzluk gider. Kira, Mevlânâ'nın yüzüne bakıyor, ağzında birşey var mı acaba? Mevlânâ cevap veriyor: Dikmene bak. Kul - huvallâh okuyorum, Tanrıyı dişlerimle sıkıca yakaladım! (Eflâkî 66 b.).

Bir işin yapılmasını söylediği zaman Şeyh Muhammed Hâdim, İnşaallah deyince Mevlânâ bağırıyor. A aptal, ya söyleyen kim? (39. b). Fakat bu Tanrılığı kendisine hasretmiyor. Onca herkes O'dur ve insan, insanlığını anlayınca O, olur.

Birgün yolda bir genç görüyor, darağacının dibinde, asılacak. Ferecisini çıkarıp gencin üstüne atarak uzaklaşıyor. Cellâtlar, Mevlânâ'nın himayesine aldığı bu genci asmıyorlar. Makama arzediliyor ve genç, affa uğruyor. Ölümden kurtulan Rum, doğruca Mevlânâ'nın medresesine gidiyor. Süryanos adına bir Alâeddin ekliyor Mevlânâ, Varlık Birliğini, görgüyle, halle kavrayan Süryanos, bir müddet sonra bâzı taşkın sözler söylemeye başlıyor; Tanrı diyor Mevlânâ'ya. Neden böyle diyor-

### Peyğəmbərimiz "İnşaAllah" Deməyin İmanın Kamilliyindən Qaynaqlandığını Bildirmişdir

İnsanlar üçün "İnşaAllah" deməkdən daha fəzilətli itaətkarlıq yoxdur. (Hədisi-şərif)

Bir adamın bütün sözlərində "İnşaAllah" deməyi imanının kamiliyyindəndir… (Camiüs-səğir", 2486)

## 2. Allah Quranda Haram Etdiyi Halda, Şərab İçməyin Halal Olduğunun Deyilməsi

Zövq verən hər şey bu alçaq adamlar dəlil əldə edib dadanmasınlar deyə qadağan edilmişdir. Yoxsa şərab, çəng, gözəl sevmək və rəqs **seçilmişlərə halaldır, alçaq adamlara isə haramdır.**

(Seçmə rübailər, səh.43, Mövlananın həyatı və əsərləri, səh. 200)

**Şərab içən ağıllı adamdırsa, ağlı daha da artar**… pisdirsə, ondan da betər olar. (Məsnəvi, səh.183, Beyt 2155)

### Allah Şərabı Bütün İnsanlara Haram Edib

**Səndən sərxoşedici** *(içki)* **və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür"...** (Bəqərə surəsi, 219)

**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici** *(içki)* **də, qumar da, dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici** *(içki)* **və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz** *(buna)* **son qoyacaqsınızmı?** (Maidə surəsi, 90-91)



200 MEVLÂNÂ CELÂLEDDİN

«Zevk veren herşey, şu aşağılık kişiler, bir delil elde edip dadanmasınlar diye nehyedilegelmiştir.*Yoksa şarap, çeng, güzel sevmek ve semâ', haslara helâldir, aşağılık kişilere haram.» (Seçme Rubâiler, s. 43, rubâi CLXXII).

Ancak bu hürriyeti elde etmek için benliğinden geçmesi gerektir insanın ve bunun için de çetin bir iç savaşına katlanmalıdır :



MESNEVÎ 183

Fakat her yerde kendinden geçen, kötülük etmez.. şarap, zaten edepsiz olanı edepsiz eder!

Şarap içen akıllıysa daha ziyade akıllı olur.. kötü huyluysa büsbütün beter bir hale gelir.

## 3. Özünü Nə Müsəlman, Nə Də Kafir Kimi Tanıdır

Eşq kafiriyik biz, müsəlman başqadır.
**Müsəlmanlıqdan, kafirlikdən xaric bir ova.**
…
**Nə müsəlmanlığa yer var, nə də kafirliyə.**
(Mövlana Cəlaləddin Rumi, Rübailər, səh.298)

**Bu aləm müsəlmanlıqdan da xaricdir, kafirlikdən də.**
**Orada nə müsəlmanlığın işi var, nə də kafirliyin…**
(Mövlana Cəlaləddin Rumi, səh.198, Seçmə rübailər, səh.18, rübai 67)

### Allah Kafirləri Sevməz

**Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrayıla və Mikayıla düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir.**
(Bəqərə surəsi, 98)

**Allah sələmi puç edir, sədəqələri isə artırır. Allah kafirləri və günahkarları sevməz.** (Bəqərə surəsi, 276)

**Bu, ona görədir ki, Allah möminlərin himayəçisidir. Kafirlərin isə heç bir himayəçisi yoxdur.** (Muhəmməd surəsi, 11)


298 MEVLÂNÂ CELÂLEDDİN

XVIII

*Aşk kâfiriyiz biz Müslüman başka.*
*Ufacık karıncayız biz, Süleyman başka.*
*Bizden sarı bir yüz iste, ciğer parçası iste.*
*İpekli kumaş satan bezirgân başka.*

(s. 16, rub. LXI)

XIX

*Müslümanlığın, kâfirliğin dışında bir ova.*
*Uçsuz bucaksız ovada sevdamız uzar-gider.*
*Anlayan vardı mı usulca başını kor.*
*Ne Müslümanlığa yer var, ne kâfirliğe yer.*

(s. 9, rub. XXX)

### Allah Kafir Olaraq Ölənləri Lənətləmişdir, Kafirlər Cəhənnəm Əhlidir

**Kafir olub kafir kimi də ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu lənətin içərisində həmişəlik qalarlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir.** (Bəqərə surəsi, 161-162)

**… Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölsə, onun əməlləri dünyada və axirətdə puça çıxar. Onlar od sakinləridirlər və orada əbədi**

**qalacaqlar.** (Bəqərə surəsi, 217)

**Məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.** (Nisa surəsi, 151)

**Sonra Qiyamət günü** *(Allah)* **onları rüsvay edəcək və deyəcək: "Haqqında mübahisə etdiyiniz şəriklərim haradadır?" Elm verilmiş kimsələr deyəcəklər: "Şübhəsiz ki, bu gün kafirlərə rüsvayçılıq və əzab üz verəcək!"** (Nəhl surəsi, 27)

**Həqiqətən, Allah kafirləri lənətləmiş və onlar üçün** *(yaxıb-yandıran)* **Od hazırlamışdır. Onlar orada əbədi qalacaq,** *(özlərinə)* **nə bir himayəçi, nə də bir yardımçı tapa bilməyəcəklər.** (Əhzab surəsi, 64-65)

**Doğrudan da, kafirlərdən ötrü zəncirlər, buxovlar və alovsaçan od hazırlamışıq.** (İnsan surəsi, 4)



198 MEVLÂNÂ CELÂLEDDİN

* Gerçekten insan olan, insanlık mertebesine ulaşan, dinlerin üstüne çıkmıştır. O, küfürden de kurtulmuştur, imândan da. «Böyle erin küfrüne karşı iman kim oluyor ki? İman şarabiyle küfür denen kara yer, bu çeşit insanın ateşine karşı ancak bir çer-çöptür. İman, gönül sıfatıdır amma gönül, denize daldı mı nefes alması mümkün mü? Gece küfürdür, iman, mum ve ışık. Fakat güneş doğdu mu iman, küfre der ki: Yeter artık, lüzumumuz yok bizim. At, nasıl eğere alışırsa iman da tıpkı öyle din atına alışmıştır. Fakat hakıykat erinin ata ne ihtiyacı var?» [9]. Bu dereceye yücelmek için de aşka sarılmak gerektir. «Ölümden önce birbirimizin kadrini bilmeliyiz, birbirimizi sevmeliyiz. Kul eûzüleri, Kul huvallâhları [10] birbirimizi sevmek için okumalıyız» [11]. Zâten aşk ezelidir, kâfirlikle Müslümanlıksa çok sonradan meydana gelmiş bir şeydir!» [12]. Onca küfür ve iman birer keyfiyetten ibarettir, halbuki hakıykat makamına keyfiyet sığmaz (Seçme Rubâiler, s. 10, rubâi XXXV.) Bu âlem, Müslümanlıktan da dışarıdır, kâfirlikten de. Orda ne Müslümanlığın işi vardır, ne kâfirliğin (aynı eser, s. 9, rubâi XXX). Bu durağa varanlar, su gibi akarlar amma şarap gibi halkın içinde yürürler, damarlarında dolaşırlar. Ayaklarını çekip upuzun yatarlar, yerlere serilir, fakat durmadan giderler, gemideki yolculuk gibi (aynı eser, s. 18, rubâi LXVII).

## Kafirlər və Müsəlmanlar İç-İçə Deyillər, Müsəlmanların Həqiqi Dostları Möminlərdir

**Möminləri qoyub kafirləri** *(özlərinə)* **dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.** (Nisa surəsi, 139)

**Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə** *(bilsin ki,)* **Allah ilə** *(onun)* **heç bir əlaqəsi yoxdur. Ancaq onlardan** *(gələn təhlükədən)* **çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır.**

(Ali-İmran surəsi, 28)

**Ey iman gətirənlər! Möminləri qoyub kafirləri** *(özünüzə)* **dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlil verməkmi istəyirsiniz?** (Nisa surəsi, 144)

### Müsəlmanların Vəzifəsi Küfrə Qarşı Fikri Mübarizə Aparmaqdır

**Kafirlərə və münafiqlərə itaət etmə. Onların əziyyətlərinə fikir vermə və Allaha təvəkkül et. Allahın qoruyan olması kifayətdir.** (Əhzab surəsi, 48)

**Sən kafirlərə baş əymə və onlara qarşı bununla** *(bu Quranla)* **böyük bir cihad et!** (Furqan surəsi, 52)

## 4. "Məsnəvi" Əsərinin (Haşa) Allah Qatından Gəldiyinin və Qurana Bərabər Olduğunun İddia Edilməsi

Bu kitab Məsnəvidir. Məsnəvi həqiqətə çatmaq və yəqin (şübhə edilməyən elm) sirlərini açmaq xüsusunda din əsillərinin əslidir… **Allahın ən böyük fiqhi, Allahın ən aydın yolu, Allahın ən aydın şəriətidir və ən rəddedilməz dəlilidir… Şanları uca, özləri də xeyirli yazıçılar onu əlləri ilə yazıblar, tərtəmiz kişilər ona başqalarının toxunmağına izin verməzlər. Aləmlərin Rəbbindən enmişdir, batil nə önündən gələ bilər, nə də arxasından. Allah onu qoruyur…** Başqa ləqəbləri də var, Allah taxmışdır ləqəbləri ona… (Məsnəvi, ön söz)

### Allahın Fiqhi və Kitabı Qurandır

**Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi** *(olan Allah)* **nazil etmişdir.** (Səcdə surəsi, 2)

**Bu kitab qüdrətli, müdrik Allah tərəfindən nazil edilmişdir.** (Mumin surəsi, 2)

**Biz kitabı sənə bir həqiqət kimi nazil etmişik. Sən də dinin yalnız Allaha məxsus olduğuna** *(iman gətirərək)*, **Ona ibadət et!** (Zumər surəsi, 2)

### Doğruya Çatdıran və Şəfa Olan Qurandır

**Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksləridə olana bir şəfa, möminlərə doğru yolu göstərən rəhbər və mərhəmət gəlmişdir.** (Yunus surəsi, 57)

**Biz Quranda möminlər üçün şəfa və mərhəmət** *(olan ayələr)* **nazil edirik.** *(Bu ayələr)* **zalımların ancaq ziyanını artırır.** (İsra surəsi, 82)

**Həqiqətən, o, möminlərə doğru yolu göstəricisi və bir mərhəmətdir.** (Nəml surəsi, 77)

**O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik.** (Nəhl surəsi, 89)

3

**RAHMAN ve RAHÎM ALLAH ADIYLE**

Bu kitap, "Mesnevî,, dir. O, ulaşmada, tam inanış sırlarını açmada din temellerinin temellerinin temelleridir. O, Allâh'ın en büyük fıkhıdır; Allâh'ın en aydın şerîatıdır, en reddedilmez delîlidir. Işığına örnek, içinde kandil bulunan kandilliktir sanki. Bir doğar, parlar ki sabahlardan da ışıklıdır. Gönüllerin cennetleridir; pınarları var, dalları var, budakları var. Bu yol oğullarının katında, o pınarlardan birinin adı Selsebîl'dir; ululuklara ulaşmış, yücelikler elde etmiş kişilere en hayırlı konaktır, en güzel dinlenme yeri, Hayırlı kişiler orada yerler, içerler; hür kişiler orada ferahlanırlar, çalarlar, çağırırlar. O, Mısır'daki Nil'e benzer; sabırlılara içilecek sudur, Firavun'un soyuna-sopuna, kâfirlere hasret. Hani yüce Tanrı da, "Onunla çoğunu azdırır, çoğunu da doğru yola götürür,, demiştir ya. Gerçekten de O, gönüllere şifâdır, hüzünlere cilâ.. Kur'ân'ı, iyiden iyiye açar, açıklar; rızıkları genişletir, bollaştırır; huyları temizler, güzelleştirir; şanları yüce, özleri hayırlı yazıcılar, elleriyle yazmışlardır onu; tertemiz kişilerden başkasının ona dokunmasına meydan vermezler. Âlemlerin rabbinden inmiştir; bâtıl, ne önünden gelebilir, ne ardından. Allah gözetir onu, korur onu; odur en hayırlı koruyan, merhametlilerin en merhametlisi.. Başka lakapları da vardır, Allâh takmıştır o lakapları ona; bizse azını anarak sözü kısalttık; az çoğa delâlet eder; bir yudum su göle delâlet eder; bir avuç buğday koca bir harmana delâlet eder.

**Quran Allahın Qoruması Altındadır**

**Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, müdrik, tərifəlayiq** *(Allah)* **tərəfindən nazil edilmişdir.** (Füssilət surəsi, 42)

**Şübhəsiz ki, zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.** (Hicr surəsi, 9)

**Quran Tərtəmiz Yazıçılar Tərəfindən Yazılmışdır**

*(Bu Quran)* **kəramətli səhifələrdədir, yüksək və pak** *(səhifələrdədir)***.** *(Bu səhifələr)* **elçilərin əllərində, möhtərəm və müti olanların** *(əllərindədir)***.** (Əbəsə surəsi, 13-16)

**"Təmiz Olanların Kitaba Toxunması" Quranla Əlaqədar Hökmdür**

**Həqiqətən, bu, ehtirama layiq Qurandır, qorunub saxlanılan yazıdadır. Ona yalnız pak olanlar toxunur. O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.** (Vaqiə surəsi, 77-80)

## 5. Vasitə İlə Verilən Elmin Dəyərli Olmadığını İddia Edir (Peyğəmbərimizə Cəbrayıl Vasitəsi İlə Elmin Gəlməsini Nəzərdə Tutur)

**Tanrıdan vasitəsiz olaraq verilməyən elm, gəlini bəzəyən qadının onun üzünə çəkdiyi rəng kimi diri qalmaz, uçub gedər.** (Məsnəvi, səh.276)

### Quran Allahın Sözüdür, Peyğəmbərimizə Vəhy Çatdırmaq Üçün Cəbrayıla Vəzifə Verən Allahdır

**Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi – gözəl görünüşlü** *(Cəbrail)*. **O, yüksəlib** *(öz surətində göründü)*. **O, ən uca üfüqdə idi. Sonra** *(Muhəmmədə)* **yaxınlaşıb aşağı endi. O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi. Sonra** *(Allah)* **Öz quluna nazil edəcəyini vəhy etdi.** *(Peyğəmbərin)* **qəlbi gördüyünü yalan saymadı. İndi siz onunla gördüyü şey barəsində mübahisəmi edirsiniz?** (Nəcm surəsi, 4-12)

**Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq Ruh** *(Cəbrayıl)* **endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan.** (Şuəra surəsi, 192-194)

**Ən yüksək dərəcələrin və ərşin sahibi Odur. O, Öz əmri ilə vəhyi qullarından istədiyinə nazil edir ki, o,** *(insanları)* **görüş günü ilə qorxutsun.** (Mümin surəsi, 15)


276 MESNEVÎ

Gönle uran, adamı gönül ehli yapan ilim; insana fayda verir. Yalnız tene tesir eden, insana mal olmıyan ilim yükten ibarettir.

Tanrı "Yahmilü esfârâ-Tevrat'ı bilip onunla amel etmiyenler kitap taşıyan eşeğe benzer" dedi. Tanrı'dan olmıyan bilgi yüktür.

Tanrı'dan vasıtasız olarak verilmiyen ilim, gelini süsliyen kadının ona sürdüğü renk gibi diri kalmaz, uçup gider.

### Cəbrayıl Allah Qatında Şərəfli və Hörmətlidir

**Həqiqətən, bu, möhtərəm elçimizin sözüdür.** *(O elçi ki)*, **qüvvətlidir, Ərşin sahibi yanında** *(böyük)* **hörmət sahibidir.** (Təkvir surəsi, 19-20)

### Cəbrayılın Dəstəyi Möminlər Üçün Nemətdir

**De: "Müqəddəs Ruh** *(Cəbrail)* **onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstərən rəhbər və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir."** (Nəhl surəsi, 102)

## 6. Elə İddia Edir Ki, Kamil Birisi Küfrə Düşərsə, Küfr Şəriətə Çevrilər

İllətli adam nə tutarsa, illət olar. **Kafir belə olsa, o küfr din və şəriətə çevrilər.** (Məsnəvi, beyt 1610, səh.129)

## Küfr Müsəlman Üçün Qətiyyən Şəriətə Çevrilməz, Küfr Edənlər Sonsuza Qədər Cəhənnəm Əhli Olacaqlar

**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!"** (Kafirun surəsi, 1-6)

**Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan çəkinin.** (Bəqərə surəsi, 24)

**Kafir olub kafir kimi də ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu lənətin içərisində həmişəlik qalarlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir.** (Bəqərə surəsi, 161-162)

**Həqiqətən də, kafir olub kafir kimi də ölənlərin heç birindən dünya dolusu qızıl fidyə versə belə, qəbul olunmayacaqdır. Onlara sarsıdıcı bir əzab hazırlanmışdır və onların köməkçiləri də olmayacaqdır.** (Ali-İmran surəsi, 91)

## Allah Kafirləri Sevməz, Küfr Lənətlənmişdir

**De: "Allaha və Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz.** (Ali-İmran surəsi, 32)

**Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları cəhənnəm odu vəd etmişdir.** *(Bu)* **onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.** (Tövbə surəsi, 68)

*(Bu ona görədir)* **ki,** *(Allah)* **iman gətirib yaxşı işlər görənlərə Öz lütfündən mükafat versin. Şübhəsiz ki, O, kafirləri sevmir.** (Rum surəsi, 45)

**Həqiqətən, Allah kafirləri lənətləmiş və onlar üçün (yaxıb-yandıran) Od hazırlamışdır.** (Əhzab surəsi, 64)

## Müsəlman Kafirlərə İtaət Etməz

*(Belə olduqda)* **sən kafirlərə baş əymə və onlara qarşı bununla** *(bu Quranla)* **böyük bir cihad et!** (Furqan surəsi, 52)


MESNEVÎ 129

İlletli kimse, ne tutarsa illet olur. Kâmil kâfir bile olsa o küfür, din ve şeriat haline gelir.

Ey yayan olduğu halde süvari ile yarışa girişen! Sen bu müsabakada kazanmıyacak, onu geçmiyeceksin, iyisi mi, dur!

### Küfr Edənlər Daima Ziyan İçindədirlər

**Sizi yer üzündə xələflər edən Odur. Kafirin küfrü öz əleyhinə olar. Kafirlərin küfrü Rəbbi yanında ancaq onlara bəslənən qəzəbi artırar. Kafirlərin küfrü onlara ziyandan başqa bir şey artırmaz.** (Fatir surəsi, 39)

**Onlar Allahı qoyub özlərinə nə xeyir, nə də zərər verə bilməyənlərə sitayiş edirlər. Kafir öz Rəbbinə qarşı** *(şeytana)* **köməkçidir.** (Furqan surəsi, 55)

### Küfrün Vəlisi və Dostu Olmaz

**Bu ona görədir ki, Allah möminlərin Himayəçisidir. Kafirlərin isə heç bir himayəçisi yoxdur.** (Muhəmməd surəsi, 11)

**Aranızdan Quranı yalan sayanlar olduğunu da bilirik! Həqiqətən, bu, kafirlər üçün bir peşmançılıqdır. Sözsüz ki, bu** *(Quran)*, **əsl həqiqətdir. Elə isə böyük Rəbbinin adına təriflər de!** (Haqqə surəsi, 49-52)

**Nuh dedi: "Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları** *(sağ)* **qoysan, onlar qullarını azdıracaq və yalnız günahkar, kafir** *(övladlar)* **doğub-törədəcəklər.** (Nuh surəsi, 26-27)

**Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun. Doğrudan da, kafirlərdən ötrü zəncirlər, buxovlar və alovsaçan od hazırlamışıq.** (İnsan surəsi, 3-4)

**Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. Onlar taxtlar üstündə** *(ətrafa)* **baxacaqlar. Kafirlər törətdiklərinin cəzasını aldılarmı?!** (Mutəffifin surəsi, 34-36)

### 7. Peyğəmbərimizin Qurana Zidd Yaşadığını, Qədəri Unutduğunu, Dünyəvi Mənfəət Güddüyünü, Allahın Yaratdığı Hadisələrdən Razı Olmadığını və Özünü Öldürərək Cinayət Törətmək İstədiyini İddia Edir

Mustafanı ayrılıq dərdi götürdü. Sıxılan kimi özünü dağdan atmağa çalışardı. Cəbrayıl: **"Qəti olmaz, Mövla əmrində sənə neçə dövlətlər təqdir etmişdir", –deyincə sakitləşib özünü atmaqdan vaz keçərdi. Sonra yenə ayrılıq dərdi gələndə, yenə dərd-qəmdən üzülüb özünü dağdan atmaq istərdi.** (Məsnəvi, beyt 3535, səh.294)

### Peyğəmbərimiz Gözəl Əxlaqı ilə Aləmlərdən Üstündür, Allahın Örnək Olaraq Göndərdiyi Mübarək Şəxsdir

**Nun. And olsun qələmə və qələmə alınanlara! Məhz Rəbbinin mərhəmətinə görə sən dəli deyilsən. Şübhəsiz ki, sənin üçün tükənməz bir mükafat hazırlanmışdır. Həqiqətən də, sən böyük əxlaq sahibisən! Sən də görəcəksən, onlar da – hansınızın dəli olduğunu. Şübhəsiz ki, Rəbbin Onun yolundan azanları və haqq yolda olanları daha yaxşı tanıyır.** (Qələm surəsi, 1-7)

**Allahın Elçisi sizlərə – Allaha və axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.** (Əhzab surəsi, 21)

**Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi** *(günahlardan)* **təmizləyən, Kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir Elçi göndərdik.** (Bəqərə surəsi, 151)

**Allah möminlərə, öz aralarından onlara** *(Allahın)* **ayələrini oxuyan, onları** *(günahlardan)* **təmizləyən, onlara Kitabı və Hikməti öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər.** (Ali-İmran surəsi, 164)

**Savadsızlara özlərindən elçi göndərən Odur.** *(Elçi)* **onlara** *(Allahın)* **ayələrini oxuyar, onları** *(pis əməllərdən)* **təmizləyər, onlara Kitabı və Hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər.**

(Cümə surəsi, 2)



294 MESNEVÎ

Mustafa aleyhisselâmın, Cebrail aleyhisselâmın geç görünmesi yüzünden daralıp kendisini Hıra dağından atmaya kalkışması ve Cebrail aleyhisselâmını Kendini atma.. önünde devletler var diye kendisini göstermesi

3535. Mustafa'yı ayrılık derdi kapladı, daraldı mı, kendisini dağdan atmaya kalkardı.

Cebrail, sakın yapma. Kün emrinde sana nice devletler takdir edilmiştir deyince

Yatışır, kendini atmaktan vaz geçerdi. Sonra yine ayrılık derdi gelip çattı mı,

Yine gamdan, dertten bunaldı mı kendisini dağdan aşağı atmak isterdi.

## Peyğəmbərimiz Vəhylə Hərəkət Etmişdir

**And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə** *(haqdan)* **azmış, nə də** *(yoldan)* **çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi.** (Nəcm surəsi, 1-5)

**Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər deyərlər: “Bizə bundan başqa bir Quran gətir və ya onu dəyişdir!” De: “Mən onu öz istəyimlə dəyişdirə**

**bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxaram". De: "Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım, O da onu sizə bildirməzdi. Mən axı bundan öncə də sizin aranızda yaşamışam. Məgər bilmirsiniz?"**

(Yunus surəsi, 15-16)

**Buna görə də sən dəvət et və sənə əmr olunduğu kimi düz yolla get. Onların nəfslərinin istəyinə uyma və de: "Mən Allahın nazil etdiyi kitaba iman gətirdim. Mənə sizin aranızda ədalətli olmaq əmr edilmişdir. Allah bizim də Rəbbimiz, sizin də Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda mübahisə ediləcək bir şey yoxdur. Allah hamımızı bir yerə toplayacaqdır. Dönüş də yalnız Onadır".** (Şura surəsi, 15)

## Peyğəmbərimiz Bütün Həyatını Allah Üçün Yaşamışdır

**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur!** (Ənam surəsi, 162)

## Peyğəmbərimiz Təbliğ Qarşılığında Əsla Dünyəvi Qarşılıq Gözləməmişdir

**Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradana aiddir. Məgər anlamırsınız?** (Hud surəsi, 51)

**De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Təkcə onu istəyirəm ki, insanlar Rəbbinə tərəf aparan bir yol tutsunlar".** (Furqan surəsi, 57)

**De: "Mən buna görə sizdən heç bir mükafat istəmirəm və mən özümdən bir şey uydurmağa çalışmıram.** (Sad surəsi, 86)

**İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi** *(nemət)* **budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah bağışlayandır, şükrün əvəzini verəndir.** (Şura surəsi, 23)

**De: "Mən sizdən bir haqq istəmişəmsə, onu sizin üçün istəmişəm. Mənim haqqım ancaq Allahdan olacaqdır. O, hər şeyə şahiddir."**

(Səba surəsi, 47)

## Peyğəmbərimiz Allaha Təvəkkülü ilə Bütün Müsəlmanlara Nümunədir

**Allaha təvəkkül et! Allahın qoruyan olması** *(sənə)* **bəsdir.** (Əhzab surəsi, 3)

**Məgər Allah Öz qulunu qane etmirmi? Onlar isə səni Ondan başqaları ilə qorxudurlar. Allahın zəlalətə saldığı kimsəyə isə** *(doğru)* **yol göstərən olmaz.** (Zumər surəsi, 36)

**Əgər siz** *(Peyğəmbərə)* **kömək etməsəniz,** *(bilin ki,)* **Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq** *(Məkkədən)* **çıxartdılar. O iki nəfər mağarada olarkən** *(onlardan)* **biri öz yoldaşına dedi:**

**“Qəm yemə, Allah bizimlədir!”** *(Bundan sonra)* **Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.** (Tövbə surəsi, 40)

**… De: “Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!”** (Zumər surəsi, 38)

*(Bəzi)* **adamlar onlara: “Camaat sizə qarşı** *(ordu)* **toplayıbdır, onlardan qorxun!”– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl Qoruyandır!”– dedilər.** (Ali-İmran surəsi, 173)

**Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Himayəçi olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər!** (Nisa surəsi, 45)

**Acizlik göstərməyin və kədərlənməyin. Möminsinizsə, üstün olacaqsınız.** (Ali-İmran surəsi, 139)

**Əgər onlar səninlə mübahisə edərlərsə, de: “Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!” Kitab verilənlərə və savadsızlara isə de: “Siz də təslim oldunuzmu?” Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr,** *(bil ki)*, **sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Allah qullarını görür.** (Ali-İmran surəsi, 20)

### Peyğəmbəri Maddi Məsələlərlə Dəyərləndirmək Küfrün Xüsusiyyətidir

**Onlar dedilər: “Nə üçün bu Quran iki şəhərdən olan böyük bir adama nazil edilmədi?”** (Zuxruf surəsi, 31)

**Onlar dedilər: “Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik; və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud, iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca; və ya Allahı və mələkləri qarşımıza gətirməyincə.** (İsra surəsi, 90-93)

**De: “Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram”. De: “Məgər korla görən eyni ola bilərmi? Məgər düşünmürsünüz?”** (Ənam surəsi, 50)

## 8. Məsnəvinin Quranın Təfsiri Olduğunu Deyən Adama Qəzəblənmək və: “Məsnəvi Niyə Quran Olmasın?” – demək

Sultan Vələd (Mövlananın oğlu) buyurdu ki, dostlardan biri atama belə şikayət edib ki, alimlər: **“Mövlana Məsnəviyə niyə Quran deyir”**, - deyə mənimlə mübahisə etdilər. Mən qulunuz onlara cavab verdim ki, Məsnəvi Quranın təfsiridir. Atam bunu eşitdikdə bir qədər susub belə dedi: **“Ay köpək, niyə Quran olmasın? Ay eşşək, niyə Quran olmasın? Ay fahişənin qardaşı, niyə Quran olmasın?**

(Ariflərin mənkibələri, cild 1, səh.306)

## Quranın Tayı-Bərabəri Yoxdur

**De: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin sözləri qurtarmadan öncə dənizin** *(suyu)* **qurtarardı."** (Kəhf surəsi, 109)

**Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, fikirləşələr.**

(Həşr surəsi, 21)

**De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün toplaşıb bir-birinə kömək etsələr də, ona bənzərini gətirə bilməzlər". Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi.**

(İsra surəsi, 88-89)

**Yoxsa onlar: "***(Muhəmməd)* **onu özündən uydurdu!"– deyirlər. De: "Əgər doğru danışırsınızsa, Ona bənzər uydurulmuş on surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa,** *(köməyə)* **çağırın!" Əgər sizə cavab verməsələr, bilin ki, o ancaq Allahın elmi ilə nazil olmuşdur və Ondan başqa ilah yoxdur. Siz müsəlman olacaqsınızmı?**

(Hud surəsi, 13-14)

**Yoxsa: "***(Muhəmməd)* **onu özündən uydurdu!"– deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa,** *(köməyə)* **çağırın!" Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş bir şeyi** *(Quranı)* **yalan hesab etdilər. Onlardan əvvəlkilər də yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu.** (Yunus surəsi, 38-39)

**Əgər qulumuza nazil etdiyimizə şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı** *(bütün)* **şahidlərinizi** *(köməyə)* **çağırın! Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan çəkinin.** (Bəqərə surəsi, 23-24)



306 AHMET EFLÂKÎ 3/206-207

Sultan Veled buyurdu ki: Dostlardan biri babama: Dânişmentler Mevlânâ **Mesnevî**'ye niçin Kur'an diyor, diye benimle münakaşa ettiler. Ben kulunuz, onlara cevaben: **"Mesnevî Kur'an'ın tefsiridir dedim,"** diye şikâyette bulundu. Babam bunu işitince bir müddet sustu, sonra: Ey köpek! Niçin Kur'an olmasın? Ey eşek! Niçin Kur'an olmasın? Ey kahpenin kardeşi! Niçin Kur'an olmasın? Peygamberlerin ve velilerin söz kalıpları içinde ilâhî sırların nurlarından başka bir şey yoktur. Tanrı'nın kelâmı onların temiz yüreklerinden kaynamış ve ırmak gibi olan dillerinden akmıştır.

### Tək Hökm Verən Allahdır

**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını kitabdan hesab edəsiniz deyə kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, kitabdan deyildir. Onlar: "Bu, Allah qatındandır!"– deyirlər. Halbuki o, Allah qatından deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar.** (Ali-İmran surəsi, 78)

**Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edən bilən şərikləri vardır? Əgər həlledici söz olmasaydı, aralarındakı iş bitmiş olardı. Həqiqətən, zalımları ağrılı-acılı bir əzab gözləyir.** (Şura surəsi, 21)

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!"– deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!"– deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?** (Bəqərə surəsi, 170)

**Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən** *(bir peyğəmbər)* **göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!"– dedilər.** *(Peyğəmbər)* **dedi: "Əgər sizə atalarınızın tutduğu o yoldan daha doğrusunu göstərsəm necə?" Onlar dedilər: "Biz sizinlə göndərilənləri inkar edirik".** (Zuxruf surəsi, 23-24)

**Onlara oxunan kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır.** (Ənkəbut surəsi, 51)

**Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: "Bunlar Rəbbinə iftira yaxanlardır"– deyəcəklər. Allahın lənəti olsun zalımlara!** (Hud surəsi, 18)

**Sizə nə olub, bu necə mühakimədir yürüdürsünüz? Məgər düşünüb ibrət almayacaqsınız? Yoxsa sizin aydın bir dəliliniz vardır? Əgər doğru deyirsinizsə, kitabınızı gətirin!** (Saffat surəsi, 154-157)

**Sizə nə olub, necə hökm verirsiniz? Yoxsa sizin elə bir kitabınız vardır ki, ondan oxuyursunuz?** *(Ya da)* **onda bəyəndiyiniz hər bir şeyin sizin olacağı** *(yazılmışdır)***?** (Qələm surəsi, 36-38)

## 9. Məsnəvidə Bəhs Edilən Qədəri (Haşa) Mat Etmək İddiası

Qanadım getdisə, məni oxşayarsan, mənə iltifat edərsən, fələk belə oyunumun qarşısında mat qalar. (Məsnəvi, cild 2, beyt 345)

### Hər Şey Qədərin İçində Təqdir Edilmişdir

**Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq.** (Qəmər surəsi, 49)

**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın yazıda olmasın.** (Nəml surəsi, 75)

**O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da** *(bu işlər)* **sizin saydığınız min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir.** (Səcdə surəsi, 5)

**Onların etdiyi hər şey kitablarındadır. Hər bir kiçik və böyük** *(əməl)* **yazılmışdır.** (Qəmər surəsi, 52-53)

**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin.** *(Allah)* **onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir.** *(Bunların)* **hamısı açıq-aydın yazıdadır.** (Hud surəsi, 6)

### Allahın İzni Olmadan Heç Bir Şey Olmaz, Allahın Qədərini Heç Kim Dəyişdirə Bilməz

**Qeybin açarları Onun yanındadır. Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru** *(şey)* **yoxdur ki, açıq-aydın yazıda olmasın.** (Ənam surəsi, 59)

**Allahın izni olmadan** *(heç kəsə)* **bir müsibət üz verməz. Hər kəs Allaha iman gətirsə, Allah onun qəlbini haqqa yönəldər. Allah hər şeyi bilir.** (Təğabun surəsi, 11)

**De: "Sizə vəd edilmiş bir gün vardır ki, siz onu nə bircə saat belə yubada, nə də tezləşdirə bilərsiniz".** (Səba surəsi, 30)

**Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər.** (Əraf surəsi, 34)

417

Sana, Tanrı'yı anmaya, ona duâ etmeye izin verildi; o duâ edişten gönlüne bir ululuk geldi.

340. Kendini Tanrı'yla konuşuyor gördün; hey gidi-hey, niceler var ki bu zan yüüznden Tanrı'dan ayrı düştü.

Pâdişah da seninle berâber yerde oturur ama sen kendini tanı da daha iyi, daha edepli otur.

Doğan, pâdişâhım dedi, pişman oluyorum; tövbe ettim; yeniden Müslüman oluyorum.

Sarhoş edip de arslan avcusu yaptığın kişi, sarhoşluğundan eğri-büğrü yürür, sendeleyip giderse özrünü kabûl et.

Tırnaklarım gitti ama sen benim oldukça güneşin bile perçemini koparırım ben.

Kanadım gitti ama sen beni okşadın mı, felek bile oyunumdan kendini yitirir.

Bana sen bir kemer kuşatırsan dağı bile yerinden sökerim; bana bir kalem verirsen bayrakları yıkarım, orduları dağıtırım.

## 10. Mövlananın (Haşa) İlahiləşdirilməsi, Ağacların Mövlanaya Səcdə Etdiyinin İddia Edilməsi

Mövlana səhər tezdən evdən çıxdı… **O hansı ağaca rast gəlirdisə, salam verir və bütün ağaclar səcdə edirdilər. Mənə Qurandakı "ulduz və ağaclar səcdə edirdilər" ayəsinin sirindən bir hikmət göstərirdi.**

(Ariflərin mənkibələri, Şərq İslam klassikləri 29, Əhməd Əflaki, Milli Təhsil Nazirliyinin nəşrləri, 489)

### Bitkilər, Mələklər, İnsanlar və Bütün Məxluqat Yalnız Allaha Səcdə Edərlər

**Otlar da, ağaclar da səcdə edir.** (Rəhman surəsi, 6)

**Rəbbinin dərgahında olan** *(mələklər)* **Ona ibadət etməkdə təkəbbürlük göstərmir, Onu tərifləyir və yalnız Ona səcdə edirlər.** (Əraf surəsi, 206)

**Göylərdə və yerdə olan məxluqlar da, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir.** (Rəd surəsi, 15)

**Göylərdə və yerdə olanların hamısı, heyvanlar da, mələklər də təkəbbür göstərmədən Allaha səcdə qılırlar.** (Nəhl surəsi, 49)

**Onlara: "Ər-Rəhmana səcdə edin!"– deyildikdə: "Ər-Rəhman nədir? Məgər bizə əmr etdiyin şeyə səcdə etməliyik?"– deyərlər. Bu da onların nifrətini artırar.** (Furqan surəsi, 60)

**Onlar gecələrini Rəbbi üçün səcdədə və qiyamda keçirərlər. Onlar deyərlər: "Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir.** (Furqan surəsi, 64-65)


3/245 ÂRİFLERİN MENKIBELERİ 327

dık. Bin yedi yüz sultanî idi. Biz onun gösterdiği bu kudretten hayrette kalmıştık ki, Mevlânâ sabahleyin erkenden evden çıktı, bağın içine doğru yürüdü. Ben de nereye gidecek diye hep arkasından gidiyordum. O hangi ağaca raslasa, selâm veriyor ve bütün ağaçlar secde ediyorlardı ve bana Kur'an'daki 'Yıldız ve ağaç secde ederler' (K., LV, 6) âyetinin sırrından bir hikmet gösteriyordu. Ben bu hal karşısında feryat ve figan edip heyecanlar gösteriyordum. O, bana: "Sus, bir şey söyleme," diye mübarek yeni ile işaret etti. Ben bu heybetten üç gün üç gece kendimden geçmiş ve dili tutulmuş bir halde oldu-

## MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA ALLAHIN ÇİRKİN VƏ HARAM OLDUĞUNU BİLDİRDİYİ HOMOSEKSUALLIĞI QANUNİLƏŞDİRMƏYƏ ÇALIŞMAQ; QEYRİ-ƏXLAQİ MÖVZULAR

İslama görə, homoseksuallıq haramdır. Bu davranış Quranda və hədislərdə **çirkin iyrənclik** kimi təsvir olunmuşdur:

**Doğrudanmı, siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız". Onlar dedilər: "Ey Lut! Əgər** *(təbliğatına)* **son qoymasan, mütləq qovulanlardan olacaqsan!" O dedi: "Mən sizin əməllərinizə nifrət edənlərdənəm."** (Şuəra surəsi, 165-168)

**Lutu da** *(elçi göndərdik)*. **Bir zaman o, öz qövmünə demişdi: "Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz həddi**

**aşmış adamlarsınız". Onun qövmünün cavabı: "Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır", – deməkdən başqa bir şey olmamışdı.** (Əraf surəsi, 80-82)

**Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. O, geridə qalanlardan oldu. Biz onların üstünə (daşlardan) yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu.** (Əraf surəsi, 83-84)

**Siz qadınları qoyub şəhvətlə kişilərin yanınamı gedəcəksiniz? Yox, siz cahil bir qövmsünüz!" Qövmünün cavabı isə ancaq: "Lutun ailəsini kəndinizdən çıxarın. Çünki onlar təmiz qalmaq istəyən adamlardır!"– dedikləri oldu. Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. Biz onun geridə qalanlardan olmasına qərar verdik.** (Nəml surəsi, 55-57)

**Lutu da** *(xatırla!)* **Bir zaman o, öz qövmünə belə demişdi: "Doğrudan da, siz özünüzdən əvvəlki aləmlərdə heç kəsin etmədiyi iyrənc bir iş tutursunuz. Həqiqətən, siz kişilərin yanına** *(şəhvətlə)* **gedir, yol kəsir və məclislərinizdə** *(bir-birinizlə)* **murdar işlər görürsünüz?" Qövmünün cavabı isə ancaq: "Əgər doğru danışanlardansansa, bizə Allahın əzabını gətir!"– dedikləri oldu.**

(Ənkəbut surəsi, 28-29)

Peyğəmbərimiz də hədislərində homoseksuallığın ən qorxunc əməllərdən biri olduğunu belə xəbər vermişdir:

Rəsulullah buyurub ki, *Ümmətimə görə ən qorxduğum şeylərin ən qorxuncu Lut qövmünün işidir (homoseksuallıqdır).*

(İbni-Macə, Hüdud, 12)

Rəsulullah buyurub ki, *Lut qövmünün iyrənc əməlini (homoseksuallığı) işləyənlər lənətlənmişdir.* (Kutubi-sittə, hədis 1604, Ravi- Əbu Hüreyrə)

Hz. Peyğəmbər buyurub ki, *Allah kişi ilə cinsi əlaqə quran kişinin üzünə baxmaz, (Onu rəhmətindən qovar).*

(Kutubi-sittə, hədis 1607, Ravi- İbn Abbas, qaynaq: Tirmizi, Rəda 12, (1165))

Bəzi çevrələr bu hekayələrin ibrətverici olaraq təbliğ məqsədilə "Məsnəvi" əsərinə daxil edildiyini deyir. Bu, çox səmimiyyətsiz izahdır. Tarixin heç bir dövründə heç bir İslam alimi dini belə azğın, Qurana uyğun gəlməyən formada və haram hekayələr danışaraq təbliğ etməyib. Bu hekayələrlə din təbliğ edilmir, əksinə, Allahın haram buyurduğu şeyləri qanuniləşdirməyə çalışmaqdır.

## 1. "Yeniyetmənin Yekəpər Adamdan Qorxması" Hekayəsi

**Bir yekəpər adam yeniyetmə birisini ələ keçirdi.** Yekəpər adamın qəsd edəcəyindən qorxan uşağın rəngi soldu. Adam dedi ki, **gözəlim, qorxma… Sən mənim üstümə minəcəksən. Mən qorxunc görünsəm də, fikir vermə, mən ibnəyəm. Dəvə kimi üstümə min.** İnsanların surətləri ilə mənaları da belədir. Kənardan adam görünürlər, daxilən isə məlun şeytandırlar.

(Məsnəvi, cild 2, 3155-ci beyt, səh.137)



242 MESNEVİ

Oğlanın iriyarı adamdan korkması, adamın "Korkma çocuğum, ben er değilim" demesi

3155. Bir iri adam bir oğlanı ele geçirdi. Bu adam bana kasteder diye çocuğun yüzü sarardı.

Adam dedi ki: "Güzelim, emin ol.. sen benim üstüme bineceksin.

Ben korkunç görünsem de aldırış etme, bil ki ben bir ibneyim. Deveye biner gibi bin üstüme, sür"

İnsanların suretleriyle mânaları da işte böyledir. Dışardan adam görünürler, içeriden melûn Şeytan!

Ey Âd gibi ipiri adam, sen rüzgârın tesiriyle dalın vurduğu davula benziyorsun.

## 2. "Gərdək Gecəsi Kişinin Qadın Qılığına Girməsi" Hekayəsi

Ondan sonra gərdək gecəsi **bir gəncə qadın kimi xına yaxdılar. Əlinə, biləyinə gəlin kimi xına qoydular. Köləyə toyuq göstərib, xoruz verdilər.**

Başını örtdülər, **ona gəlin paltarı geyindirdilər.** Yalnız qalmaq vaxtı gələndə gənc tez şamı söndürdü. Hindli kölə elə bir güclü gənclə yalnız qaldı.

**Hindli dayanmadan bağırırdı, amma dəf çalanların səs-küyündən fəryadını çöldən heç kim eşitmirdi.** Dəfin səsi, çöldəkilərin hay-küyü kölənin fəryadını ört-basdır edirdi.

**Gənc səhərə qədər o hindlini bir təhər etdi. Zavallı itin qabağındakı un torbasına dönmüşdü…** (Məsnəvi, cild 6, 305-ci beyt)



Gelişti, semirdi, beti - benzi kızardı, kızıl gül gibi açıldı; binlerce şükürler etti.

Kimi - kimi de a hâtunum diyordu, sakın bir düzen olmasın bu.

* Efendi, toy yaptı, Ferec'i everiyorum diye halkı okudu.

300. Gelenler de, Ferec, toyun kutlu olsun diye onu kandırıyorlardı.

Sonunda Ferec, o söze iyice kandı; hastalığı, kökünden geçti - gitti.

Ondan sonra gerdek gecesi, bir genci kadın gibi kınaladılar.

399

400

Eline, bileğine gelin gibi kına yaktılar, köleye tavuk gösterdiler, horoz verdiler.

Başını örttüler, o gürbüz gence güzelim gelin elbiseleri giydirdiler.

Yalnız kalma çağında genç hemen mumu söndürdü; Hintli köle, öyle güçlü - kuvvetli bir gençle yapayalnız kaldı.

Hintlicik bağırıp duruyordu ama tef çalanların gürültülerinden, feryâdını dışarıdan kimse duymuyordu.

Tefin çalınışı el çırpış, erkeğin, kadının nâraları, kölenin feryâdını bastırıyordu.

Genç, gündüz oluncaya dek o Hintliceğizi harâb etti. Zavallı, köpeğin önündeki un torbasına döndü.

Sabahleyin tasla büyük bir bohça getirdiler; Ferec, damatlar gibi hamama vardı.

310. O can hastası, külhancıların peştemalı gibi sökük - yırtık, hamama gitti.

## 3. Bir Nəfərin Birlikdə Olduğu Kişi İlə Söhbəti

Bir nəfər oğlanla pis iş tuturdu, birdən belindəki xəncəri görüb səbəbini soruşdu. Oğlan cavab verdi ki, kim mənim haqqımda pis şey düşünərsə, bununla qarnını deşərəm. **Oğlanpərəst adam həm işini görürdü, həm də deyirdi ki, Tanrıya şükür ki, sənin haqqında pis şey düşünmürəm…**

**Bir oğlanpərəst evinə bir oğlan apardı. Onun başını aşağı əyib işini görməyə başladı.** (Məsnəvi, cild 4, beyit 2495, səh.205)

MESNEVI 205

* Adamın biri bir oğlana kötülükte bulunurken oğlanın belindeki hançeri görüp "Bu neden," diye sordu. Çocuk, "Birisi benim hakkımda kötü düşünceye saplanırsa onunla karnını deşerim" dedi. Oğlancı adam, hem işin beceriyor, hem de Şükür Tanrı'ya ki ben sana kötülük düşünmüyorum diyordu. "Benim beytim, beyit değil, bir ülkedir * Alayım, alay değil, bir şey öğretmek-

* Bir oğlancı, evine bir oğlan götürdü. Onu baş aşağı edip düzmeye koyuldu.

## 4. Məsnəvi Qəhrəmanı Cuhanın Qadın Qılığına Girib Hamamda Bir Qadına Cinsi Üzvünü Əllətməsi

Sözü qüvvətli, gözəl danışan vaiz var idi. Minbərə çıxıb vəz verirdi. Kişi-qadın hamı minbərin ayağına toplanmışdı. **Cuha da bir çarşab geyinib üzünü örtdü və qadınların arasına qarışdı.** Onu heç kim tanımırdı. Bir qadın vaizdən xəlvət soruşdu ki, qasıq tükləri namazı pozurmu? Vaiz dedi ki, uzun olarsa namaz məkruh olar. Taraş etməlisən ki, namazın tam olsun, qəbul edilsin…

Qadın dedi ki, uzun olarsa, namazım qəbul olmaz. Vaiz cavab verdi ki, arpa boyda olarsa taraş etmək fərzdir. **Cuha tez ona dedi ki, bacı, bax gör, mənim qasıq tüküm o qədər olub? Tanrı rizası üçün əlini uzadıb yoxla. Bax gör hələ, məkruh olacaq qədər uzanıbmı? Yanındakı qadın Cuhanın şalvarına əlini uzadan kimi əli alətə dəydi.** Dərhal qışqırdı. Vaiz dedi ki, sözüm qəlbinə təsir etdi. Cuha dedi ki, xeyr, könlünə təsir etmədi, əlinə təsir etdi… (Məsnəvi, cild 5, beyt 3325-3330, səh.272-273)



272 MESNEVİ

3425. Sözü kuvvetli, cerbezesi yerinde bir vazeden vardı. Mimbere çıkmış vaız ediyordu. Kadın, erkek, herkes mimberin dibine toplanmıştı.

Cuha da bir çarşaf giyip yüzünü örttü, kadınlar arasına karıştı. Kimse onu tanımıyordu.

Bir kadın, vaız edene gizlice sordu: Kasıktaki kıllar, namazın bozulmasına sebep olur mu?

Vaiz dedi ki: Uzun olursa namaz mekruh olur.

Ya hamam otiyle, ya ustura ile traş etmen lâzım ki namazın tamam olsun, kabul edilsin.

3330. Kadın: Ne kadar uzun olursa namazını kabul olmaz dedi.

Vaız eden dedi ki: Bir arpa boyu uzun olursa traş etmek farzdır.

Cuha, hemen kızkardeş dedi, bak bakalım, benim kasığımın kılı o kadar olmuş mu?

Tanrı rızası için elini uzat da bir yokla. Bakalım, mekruh olacak kadar uzamış mı?

Yanındaki kadın, Cuha'nın şalvarına el atar atmaz eline aleti geldi.

3335. Derhal şiddetli bir nara attı. Hoca, sözüm gönlüne tesir etti dedi.

## 5. Eşşəklə Cinsi Əlaqəyə Girən və Eşşəyi Qısqanan Qadının Hekayəsi

O hiyləgər cariyənin bir qabağı var idi. **Eşşək ona məsafəli yaxınlaşsın deyə, qabağı eşşəyin alətinə taxardı. Elə edirdi ki, yaxınlıq zamanı alətin yarısı girsin. Çünki eşşəyin aləti tam girsə, bətni də, damarları da dağılardı.**

Eşşək günü-gündən arıqlayırdı. Eşşəyin sahibi qadın bundan hey gileylənirdi. **O nərgizciyəz eşşəyin altına yatmırmı?** Bunu qapının deşiyindən görüb təəccübləndi.

**Eşşək eyni kişi kimi qadının işini görürdü. Qadın paxıllıq etdi. Dedi ki, bu eşşək mənim deyil? Bu şey mənə qarşı olmalı idi. Mən bu işin əhliyəm.**

Qadın əlində süpürgə qapını açanda: “Ay səni usta”, – dedi, “Üzünü turşutdun, əlinə süpürgə götürdün, bəs yeməkdən kəsilən eşşəyə nə olub?”

**İşi yarıda qalmış, qəzəbli, aləti də yellənir.**

**Qadın qapını örtdü, sevinərək eşşəyi özünə tərəf çəkdi, cəzasını gördü!** Eşşəyi dartıb axurun ortasına gətirdi və **eşşəyin altına yatdı…**

Eşşək ayağını qaldırıb alətini soxdu. Eşşəyin alətindən qadının içinə od düşdü. Eşşək alətini xayalarına kimi soxanda qadın gəbərdi. **Eşşəyin alətinin sürətindən ciyəri parçalandı, damarları qopdu və nəfəs belə almadan can verdi.** (Cild 5, beyt 1335-1420; səh. 112-118)


MESNEVİ

112

Bir halayık, şehvetinin çokluğundan, hırsının fazlalığından bir eşeği kendisine alıştırmıştı.

O eşek, kendisine yakınlaşmayı âdet edinmiş, insana yakın olmayı öğrenmişti.

O hilebaz halayığın bir kabağı vardı. Eşek, kendisine ölçülü yaklaşsın diye kabağı, eşeğin aletine takardı.

Yakınlaşma zamanında aletin yarısı girsin diye bu işi yapmaktaydı.

Çünkü eşeğin aleti tamamiyle girse rahmi de paralanırdı, damarları da.

Eşek, boyuna zayıflayıp durmaktaydı. Eşeğin sahibi olan kadın da neden bu eşek böyle zayıflıyor, neden böyle kıl gibi inceliyor deyip dururdu. Fakat işin ne olduğunu anlamakta âcizdi.

Nalbantlara, illeti nedir, neden zayıflamakta diye gösterdiyse de,

Onda hiçbir illet görünmedi, kimse, bunun içyüzünü haber veremedi.

Kadın, bu işin aslını adamakıllı araştırmaya başladı. Her an eşeğin haline dikkat etmekte, neden böyle zayıfladığını bulmaya çalışmaktaydı.

İnsanın, adamakıllı çalışmaya kul olması gerektir. Çünkü bir şeyi iyice arıyan, nihayet bulur.

Eşeğin haline dikkat edip dururken bir de ne görsün? O nerkisceğiz, eşeğin altına yatmıyor mu?

Bunu kapının yarığından gördü, bu hale pek şaştı.

Eşek erkekler kadınlar nasıl yakınlaşırsa aynen onun gibi halayığa yakınlaşmış, işini becermekteydi.


MESNEVİ

113

Kadın hasede düştü. Dedi ki, bu eşek, benim eşeğim, nasıl olur bu iş? Bu işin bana olması lâzım, ben bu işe daha ehlim.

Eşek işi öğrenmiş, alışmış. Âdeta sofra yayılmış, mum da yanmış.

Görmemezlikten gelip ahırın kapısını vurdu. A kız, ne vaktedek ahırı süpürüp duracaksın? dedi.

Bu sözü, işi gizlemek için söylüyor, ben geldim, kapıyı aç diyordu.

Sustu, halayığa hiçbir şey söylemedi. Bu işe tamah ettiği için işi gizledi.

Halayık, bütün fesat aletlerini gizleyip kapıyı açtı.

Yüzünü ekşitip gözlerini yaşartarak dudaklarını oynatmaya başladı, gûya oruçluyum demek istiyordu.

Eline sapı yıpranmış, bir süpürge aldı, develerin yatması için ahırı süpürüyor göründü.

Elinde süpürge kapıyı açınca kadın, dudak altından Seni usta seni, dedi.

Yüzünü ekşittin, eline süpürgeyi aldın, iyi. Fakat yemeden içmeden kesilmiş eşeğin hali ne?

İşi yarıda kalmış, öfkeli, aleti oynayıp durmada. Gözleri kapıda, seni beklemede.

Bunu dudağı altından söyledi, halayıktan gizledi. Onu suçsuz gibi ululayıp,

Dedi ki: Tez çarşafını başına al. Filân eve git, benden selâm söyle.

Şunu söyle, böyle yap, şöyle et. Neyse, ben kadınların masallarını kısa kesiyorum.

Maksat neyse sen onun hulâsasını al. O işi görmezlikten gelen kadın, onu yola vurunca,

8

## 6. Uşaqların Ciması (Cinsi Əlaqəsi)

Uşağın ciması nədir ki? Bir igidin ciması ilə müqayisədə oyun kimidir.

(Məsnəvi, beyt 3430, səh.275)

MESNEVİ 275

Dünyada daima istenen, peşinde koşulan, bir türlü terkedilmiyen bu şehvet; bil ki çocukların cimaı gibidir.

Çoçuğun cimaı nedir ki? Bir Rüstem'in, bir yiğitin cimaına nispetle oyundan ibaret.

## 7. Dərvişin Baxışından Təhrik Olub Boşalan Gəncin Hekayəsi

Həddi-buluğa çatmışdım. Bir gün Hələbdə mədrəsədə dərs oxuyurdum. "Hidayə"ni təkrarlamağa çalışırdım. Bir dərviş qapıdan içəri girdi və su istədi. Tez qalxdım və su qabını dərvişə verdim. Bir az yeməyim vardı, onu da önünə qoydum.

**Bu hərəkətimdən dərviş məmnun qaldı və mənə diqqətlə nəzər saldı. Onun bu şirin baxışından o qədər zövq aldım ki, boşaldım, özümə gələndə bir də gördüm ki, dərviş çıxıb gedib. O nəzərin ləzzəti hələ damağımda qalıb.** (Mənkibül-arifin, səh.323)

dediklerinde Mevlânâ Şemseddin baş koyup sevindi ve "Mevlânâ'nın buyurduğu gibidir" deyip şu hikâyeyi anlattı:

Buluğa ermiştim. Bir gün Halep şehrinde medresede öğrenim yapıyordum. *Hidâye*'yi tekrarlamaya çalışıyordum. Birdenbire bir dervişin kapıdan girip benden su istediğini gördüm. Hemen kalktım, su testisini dervişe verdim ve bendeki bir miktar yemeği de gönlü yaralı olan bu dervişin önüne koydum.

Benim bu yerinde hareketimden dervişin memnun olduğunu ve üzerime garip bir nazar attığını gördüm. Onun bu tatlı nazarından o kadar zevk duydum ki, ihtilam [cinsel boşalma] oldum ve ben o hoşluk içerisinde kendimi toplayıncaya kadar dervişin gidip kaybolduğunu gördüm. O nazarın lezzeti hâlâ benim ruhumda duruyor.

Fakat Mevlânâ hazretlerine ulaştığımda bu büyüklüğü gördüm, onun iyilik ve yardım dolu nazarına ulaştım. O, önceki nazarın tatlılığını, Mevlânâ'nın bu iyiliği karşısında denizdeki bir damladan daha az gördüm ve onu yüce nur karşısında bir zerreden daha az buldum.

Hamd ve minnet Tanrı'nın olsun ki, o Sultanın (Mevlânâ'nın) yardımı ve doğru yolu göstermesiyle veli tanır da oldum.

323

## 8. Şeyxin Xəlifənin Xanımına Cinsi Üzvünü Tutdurması və: "Sənin İstədiyin Budur" – Deməsi

Oğlunun şeyxə mürid olduğu xəbəri Misir xəlifəsinin qulağına çatdı. Ürəyi çox sıxıldı. Şeyxi öldürmək istədi. Fəqət şeyxin üzünü görər-görməz, onun da şeyxdən səmimi şəkildə xoşu gəldi. Xəlifənin xanımı da onu görmək istədi. Şeyxi evə dəvət etdilər. **Xatun irəli gəlib şeyxin qabağına diz çökdü və əlini öpmək istədi. Şeyx alətini çıxarıb qadının əlinə verdi və: "Sənin istədiyin o deyil, budur", – dedi və dönməyə başladı.** Bundan sonra xəlifənin etiqadı bir ikən, min oldu. (Ariflərin mənkibələri, Ahmed Eflaki, səh.95)

ÂRİFLERİN MENKIBELERİ

yüksek bir mertebe yoktur," buyurdu ve sonra şu hikâyeyi anlattı: "Şam'da bulunan Şeyh Ali Harirî, kademli, parlak kalbli, metanet sahibi bir kişiydi. Semâ esnasında kime baksa derhal o, ona mürit olurdu. Giydiği hırka parça parça idi. (Bu yüzden) Semâ esnasında vücudunun her tarafı görünürdü. Halifenin oğlu da, bunun menkıbelerini işittiği için, semâ'ını görmek istedi. Sema edenleri seyretmek için makam kapısından içeri girdiği vakit şeyhin nazarı ona *ilişti*. O derhal mürit oldu ve elbise giydi. Oğlunun şeyhe mürit olduğu haberi, Mısır'da halifenin kulağına ulaştı. Son derecede canı sıkıldı ve şeyhi öldürmek istedi. Fakat şeyhin yüzünü görür görmez o da tam bir samimîyetle, şeyhe teveccüh gösterdi. Halifenin karısı da onu görmek istedi. Şeyhi eve davet ettiler. Hatun ilerleyip şeyhin ayaklarına kapandı ve elini öpmek istedi. Şeyh tenasül âletini kaldırarak kadının eline verdi ve: "Senin istediğin o değil, budur," dedi ve semâ'a başladı. Bunun üzerine halifenin itikadı bir iken bin oldu.

## 9. Dərvişin Yeniyetməyə Göz Dikməsi Hekayəsi

Gözətçinin qorxusundan o iki gənc otaqda qalıb orada yatdılar… **Bekarlardan bir oğlanpərəst gecə vaxtı qələbəliyin içindən qalxdı. Yavaş-yavaş yeriməyə başladı. İştaha ilə oğlanın yanına gəlib** kərpicləri bri kənara qoydu. Uşağa əlini uzadınca uşaq yerindən sıçradı… Bir ovuc bulqur aşı ilə keçinməyə çalışan **dərviş əlləri ilə xayalarını sıxıb üzünü mənə tutdu. Namuslu olanlar gizli şəkildə baxıb alətləri ilə oynayarlar. Nəticədə, nə qadınlardan qurtula bilirəm, nə də kişilərdən. Heç bilmirəm nə edim. Nə bunlardanam, nə də onlardan…**

(Məsnəvi, beyt: 3845-3855)

öylece dur-
tanıyıp sada-
ahrumiyetten
bir kefenciye
ilime sar yol
açma, yalnız
n geçmesini
ı sanır da ke-
ir şey verir.

3845. Bekçinin korkusundan o iki delikanlı, o bekar odasında kaldılar orada uyudular. Kösenin sakalında dört kıl vardı. Fakat yüzü, ayın on dördüne benziyordu adeta. Delikanlı çirkindi. Arka tarafına tam yirmi tane kerpiç yığdı. Bekarlardan bir oğlancı,* gece vakti kalabalığın içinden kalktı.

729

Mesnevi-i Şe

Yavaş, yavaş yürüdü. İştahlı bir halde *oğlanın yanına gelip kerpiçleri bir tarafa koydu. Çocuğa elini uzatınca çocuk, yerinden sıçradı. Hey dedi, a köpeğe tapan kimsin sen?

3850. Bu otuz kerpici neye buradan aldın? Herif dedi ki: Sen ne için o otuz kerpici yığdın? Oğlan dedi ki: Hastayım zayıfım. Yatarken ihtiyata riayet ettim. Herif, hastaysan, hastalıktan hararetlendiysen neden hastaneye gitmedin? Yahut bir esirgeyici hekimin evine varmadın? Gitseydin hastalıktan kurtulurdun. Çocuk dedi ki: Ben de bilmem nereye gideyim? Nereye gidersem bir derde uğruyorum.

3855. Senin gibi bir zındık, bir pis, bir dinsiz herif, başucuma yırtıcı canavar gibi gelip dikiliyor. En iyi bir yer olan tekkede bile bir an olsun aman bulmadım. Bir avuç bulgur aşıyla geçinmeye çalışan derviş, gözlerinden meni akarak, elleriyle hayalarını sı*karak bana yüz tuttu. Namuslu oldun mu gizli, gizli bakar aletleriyle oynarlar. Tekke böyle olursa artık halkın pazarı, eşek sürüsü ve hamların divanı nasıl olur? Var kıyas et.

3860. Eşek, nerde, namus ve takva nerede? Eşek, korkuyu, ürkmeyi, ricayı ne bilir? Akıl kadının da emniyet ve adaletini diler, erkeğin de. Fakat akıl nerede? Tutar, bu sefer de kadınlara kaçarsam Yusuf gibi sınamalara, fitnelere düşerim. Yusuf, kadın yüzünden zindana düştü, sıkıntılara uğradı. O bile böyle olursa artık ben, elli kere darağacına çekilirim. Kadınlar, bilgisizliklerinden bana saldırdılar. Erkekler canıma kastederler.

3865. Sonuçta ne kadınlardan kurulabiliyorum ne erkeklerden. Ne yapayım bil*mem? Ne bunlardanım ben, ne onlardan! Ondan sonra oğlan, köseye baktı, dedi ki: O çenesindeki o iki kılla dertten kurtuldu gitti. Kerpiçten

730

## 10. Cariyənin Kölə və Sultanla Cinsi Əlaqəyə Girməsi

O qadına sitayiş edən ər şalvarını çıxarıb cariyənin ayağının dibində oturdu. **Aləti tam gedəcəyi yerə gedərkən orduda bir gurultu qopdu… Ər yerindən sıçradı, götü-başı açıq halda, od kimi zülfüqar əlində çölə çıxdı.**

Dərhal o ay üzlü dilbərin çadırına yürüdü. **O hurinin yanına gəlincə aləti hələ də dimdik idi.** Elə bir aslanla savaşdı ki, ərliyi sönmədi, hələ ayaqda idi.

**Xəlifə görüşmək istədi, bu məqsədlə o cariyənin yanına getdi. Onu andı, alətini qaldırdı.** O cana canlar qatan, o sevgisini getdikcə artıran gözəllə görüşməyə niyyət etdi.

Ərin qılıncını çəkib getməyini, aslanı öldürdükdən sonra gəlməyini, **alətinin hələ də kərgədan buynuzu kimi dik durduğunu dedi. Ondan sonra namuslu xəlifənin cılızlığını və siçanın səsindən alətinin öldüyünü görüncə özünü saxlaya bilməyib güldüyünü bildirdi.**

(Məsnəvi, cild 5, beyt: 3880-3967, səh.315-322)

3880. O kadına tapan er şalvarını çıkarıp cariyenin ayak ucuna oturdu.

Aleti, dosdoğru gideceği yere giderken orduda bir gürültü, bir kızılca kıyamettir koptu.

316 MESNEVİ

Er sıçradı, götü başı açık bir halde ateş gibi Zülfikar elinde dışarı çıktı.

Kılıçla bir vurdu, başını ikiye böldü. Derhal o ay yüzlü dilberin bulunduğu çadıra koştu.

O hurinin yanına gelince aleti hâlâ dimdikti.

Öyle bir aslanla savaştı da erliği, yine sönmedi. hâlâ ayaktaydı.

3890. O tatlı ve ay yüzlü güzel, onun erliğine şaşıp kaldı.

İstekle ona kendisini teslim etti. O anda o iki can, birleştiler..

322 MESNEVİ

Erin kılıcını çekip gidişini, aslanı öldürdükten sonra gelişini, aletinin hâlâ gergedan boynuzu gibi ayakta olduğunu söyledi.

Ondan sonra namuslu Halifenin gevşekliğini ve farenin bir çıtırdısından aletinin söndüğünü görünce dayanamayıp güldüğünü bildirdi.

## MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA TƏKAMÜLÜ MÜDAFİƏ EDƏN SÖZLƏR

**Mən də cansız varlıqdan öldüm; bitib boy atan bitki oldum, bitki ikən öldüm, heyvan şəkli ilə dirildim. Heyvanlıqdan öldüm, insan oldum.** Artıq ölüb azalmaqdan, nöqsana düşməkdən niyə qorxum ki? (Məsnəvi, cild 3, səh.273)

**İnsan öncə cansızlar ölkəsinə gəlmişdir, cansızlardan bitkilərə düşmüşdür.** İllərlə o bitkilərdə ömür sürmüşdür və cansızlardakı savaşını heç xatırlamamışdır. **Bitkidən canlılara düşüncə də bitki olduğu halını xatırlamaz… Təkrar onu bilən Yaradıcı onu tutar, heyvanlıqdan insanlığa çəkməyə başlar.**

(Məsnəvi, cild 4, səh.636)

F. : 18 273

A ulu kişilerim, canların dirilmesini istiyorsanız bu ineği boğazlayın.

* Ben de cansız varlıktan öldüm, biten, boy atıp gelişen nebat oldum; nebatken öldüm, hayvan şekliyle baş gösterdim.

* Hayvanlıktan öldüm, insan oldum; artık ölüp azalmaktan, noksana düşmekten ne diye korkacakmışım?*

* Bir daha hamle edeyim de insanken öleyim; böylece de me-

636

(M E T İ N)

* İnsanını ibtidâdan beri yaratılış hâlleri, yaratılış konakları

İnsan, önce cansızlar ülkesine gelmiştir; cansızlardan nebatlara düşmüştür.

Yıllarca nebatlarda ömür sürmüştür de cansızlardaki savaşını hatırına bile getirmemiştir.

Nebattan canlılara düşünce de nebat olduğu zamanki hâli hatırına gelmez.

A bahtı yâver kişi, bu ağaç oynamasa, dalın gölgesi nasıl oynar?

Tekrar onu bilen yaratıcı, onu tutar, hayvanlıktan insanlığa çekmeye başlar.

Böylece ülkeden ülkeye gider de sonunda akıllı, bilgili, yüce bir hâle gelir.

Quranda təkamül yoxdur. Bir hüceyrənin belə təsadüfən əmələ gəlməsi mümkün deyil. 700 milyondan artıq fosil də yaradılışı isbat edir. Təkamülün doğru olduğunu sübut edən tək bir fosil yoxdur. Cinlərin, mələklərin, Hz. Musanın ilana dönən əsasının heç bir təkamül keçirmədən bir anda yaradıldığı kimi, insan da Quranda xəbər verildiyi kimi, bir anda yaradılmışdır. Quranın və elmin göstərdiyi bu həqiqətə baxmayaraq, İslam ilə darvinizmi uzlaşdırmağa çalışmaq müsəlmanlara Quranda olmayan bir İslam təlqin etməkdir.

### Quranda Təkamül ilə Mərhələli Şəkildə Yaradılış Yoxdur. Hər Şey Allahın "Ol" Əmri ilə Yaradılmışdır.

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar.** (Bəqərə surəsi, 117)

**Dirildən də, öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol"– deyir, o da olur.** (Mumin surəsi, 68)

**Biz bir şeyi** *(yaratmaq)* **istədikdə, ona ancaq: "Ol!"– deyirik, o da olur.** (Nəhl surəsi, 40)

**Bir şeyi** *(yaratmaq)* **istədikdə ona təkcə: "Ol!" –deyər, o da olar.** (Ya Sin surəsi, 82)

**Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq "Ol!"– deyər, o da dərhal olar.** (Məryəm surəsi, 35)

### Mələklər Təkamül ilə Yaradılmamışdır

**Göyləri və yeri yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun! O, xəlq etdiklərindən istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir.** (Fatir surəsi, 1)

**Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!"– dedikdə…** (Bəqərə surəsi, 30)

**Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə…** (Bəqərə surəsi, 34)

**Sizi xəlq etdik, sonra sizə surət verdik, sonra da mələklərə: "Adəmə səcdə edin!"– dedik…** (Əraf surəsi, 11)

### Cinlər Təkamül ilə Yaradılmamışdır

**Biz insanı başqa şəklə düşmüş qara palçıqdan, səs çıxaran quru gildən yaratdıq. Cinləri isə daha öncə qızmar alovdan yaratmışdıq.** (Hicr surəsi, 26-27)

**O, insanı saxsı kimi quru gildən yaratdı, cinləri də təmiz oddan yaratdı.** (Rəhman surəsi, 14-15)

Allah üçün yaratmaq çox asandır. Rəbbimiz heç bir səbəb olmadan yoxdan var edəndir. Cinləri və mələkləri fərqli formalarda yaratdığı kimi, insanı da təkamülə ehtiyac olmadan ayrı varlıq olaraq var etmişdir. Eyni durum heyvan və bitkilər kimi, digər canlılar üçün də əsaslıdır. Quranda

xəbər verilən açıq həqiqət budur: Allah bu canlıların heç birini təkmilləşdirmədən, yəni növləri başqa növlərə döndərmədən bir anda yoxdan var etmişdir.

### Təkamülü Müdafiə Edən Müsəlmanlar Hz. Musanın Əsasının İlana Döndüyünü, Hz. İsanın Üfürdüyü Palçığın Quş Olub Uçduğunu Açıqlaya Bilməzlər

Hz. Musa əsasını yerə atanda cansız əsa canlı ilana dönür, əlinə alanda ilan təkrar cansız ağaca dönür. Daha sonra yenə yerə atanda yenə canlıya çevrilir. Yəni cansız maddə canlanır, sonra ölür, sonra yenə canlanır. Beləliklə, Allah möcüzə ilə insanlara sürəkli yaradılışı göstərir.

*(Musa)* **onu** *(yerə)* **atdı və o, dərhal ilan olub sürətlə sürünməyə başladı.** *(Allah)* **buyurdu: "Götür onu, qorxma! Biz onu əvvəlki halına qaytaracağıq.** (Taha surəsi, 20-21)

**Sağ əlindəkini yerə at, onların qurduqlarını udsun. Onların qurduqları sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə, hara gedirsə-getsin, uğur qazanmaz.** (Taha surəsi, 69)

**Əsanı** *(yerə)* **at!"** *(Musa)* **onun ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı və geriyə də dönmədi.** *(Allah dedi:)* **"Ey Musa! Qorxma! Elçilər Mənim hüzurumda qorxmazlar.** (Nəml surəsi, 10)

Quranda Hz. İsanın da palçıqdan quş şəklində bir şey düzəltdiyi, sonra ona üfürdüyündə Allahın diləməsi ilə bu quşun cana gəlib uçduğu xəbər verilmişdir:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu.** (Maidə surəsi, 110)

Bu quş heç bir səbəbə bağlı olmadan, Allahın diləməsi və möcüzəsi ilə cana gəlir. Cansız maddədən yaranan quş uca Allahın səbəbsiz və üstün yaratmasının nümunələrindən biridir. Hz. İsa da Allahın lütf etdiyi bu möcüzə ilə təkamülçü düşüncənin məntiqsizliyini və əsassızlığını gözlər önünə sərir.

## MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA EYNİ DARVİNİN ƏSƏRLƏRİNDƏ OLDUĞU KİMİ, TÜRKLƏR BARBAR OLARAQ GÖSTƏRİLİR

Bir gün Şeyx Salahəddin həzrətləri bağ salmaq üçün türklərdən muzdlu əkinçilər tutmuşdu. Bunu görən Mövlana həzrətləri: **"Salahəddin bəy, bağ salmaq üçün rumlu əkinçilər, pozmaq üçün də türk əkinçilər tutmaq lazımdır. Çünki dünyanı abad etmək rumlulara, dağıtmaq isə türklərə məxsusdur…** Hər şeydən uca Tanrı dünyanı yaratdığı vaxt əvvəlcə qafil

kafirləri yaratdı; onlara uzun ömür və güc verdi. Nəhayət, onlar heç bir şeydən xəbəri olmayan əkinçilər kimi bu torpaq aləmini abad etməyə çalışdılar. Əsrlər sonra gələnlərə nümunə olsun deyə, şəhərlər, dağların başında qəsrlər və təpələrin üzərində tarlalar inşa etdilər. **Sonra bu abad olunmuşların xarab edilməsi üçün Tanrı türkləri yaratdı. Onlar da çəkinmədən və acımadan gördükləri imarətləri uçurub xarabaya çevirdilər və hələ də edirlər və Qiyamətə qədər də belə edəcəklər. Konya şəhəri də yenə mərhəmətsiz türk zalımların əli ilə xaraba qalacaq", –buyurdu. Belə ki, dediyi kimi də oldu.**
(Mənakibül-arifin, Ahmed Eflakinin farsca əsəri (1360). Bu əsər mövləvi təriqətinin ən geniş miqyaslı kitabı kimi tanınır)

## Qurana Görə, İrqlər Üstünlük Təşkil Etmir, Üstünlük Yalnız Təqva İlədir

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır.** (Hücurat surəsi, 13)


ŞARK İSLÂM KLASİKLERİ

ÂRİFLERİN MENKIBELERİ

( مناقب العارفين )

II

AHMET EFLÂKİ

Çeviren
Tahsin YAZICI

M.E. G.S.B

DEVLET KİTAPLARI

MİLLÎ EĞİTİM BASIMEVİ — İSTANBUL 1986

Türkiye Diyanet
Kütüphanesi
İslâm Araştırmaları Merkezi
Kütüphanesi
18852-2

### İrq Üstünlüyü Düşüncəsi Cahillikdir

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahiliyyə lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə** *(mənəvi)* **rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir.**

(Fəth surəsi, 26)


5/23-24 ARİFLERİN MENKIBELERİ II 137

(23) Yine meşhur bir hikâyedir: Bir gün şeyh Selâhaddin hazretleri bağını yapmak için ücretle Türk rençberler tutmuştu. Bunu gören mevlânâ hazretleri: "Efendi, yani Bay Selâhaddin, bağ yapımında Rum rençberler, bozumunda da Türk rençberler tutmak lâzımdır. Çünkü dünyayı imar etmek rumlara, yıkmak ise, türklere mahsustur. Her şeyden arı duru olan yüce Tanrı, dünyayı yarattığı vakit önce gafil kâfirleri yarattı ve onlara uzun ömür ve büyük kuvvet verdi. Nihayet onlar, hiçbir şeyden haberi olmıyan rençberler gibi bu toprak âlemini imar etmeye çalıştılar. Birçok asırlar sonra gelenlerin örneği olsun diye birçok şehirler, dağların tepelerinde kaleler ve tepeler üzerinde tarlalar yaptılar. Sonra da azar azar bu imaretlerin tamamiyle harab olması için Tanrı'nın takdiri şöyle bir tedbirde bulundu: Bunları yıkmak için Türkleri yarattı, onlar da çekinmeden ve acımadan gördükleri her imareti yıktılar, harabeye çevirdiler ve hâlâ da yapıyorlar ve kıyamete kadar da böyle yapacaklar. Konya şehri de yine merhametsiz Türk zâlimlerin eliyle harap olacaktır" buyurdular. Nitekim şimdi buyurduğu gibi oldu.[1]

## MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA QADINLARI ALÇALDAN SÖZLƏR

Bu hissədə verilən bəzi sözlər Peyğəmbərimizin dilindən ifadə edilir (dini tənzih edirik). Rəsulullah qadınlara olan sevgisi, hörməti və nəzakəti ilə bütün dünyaya örnək olmuş insandır. Bütün ömrü boyu qadınlara verdiyi dəyəri ifadə etmiş, onları ən gözəl şəkildə qoruyub dəstəkləmişdir. Dolayısilə, Peyğəmbərimizin qadınların əleyhinə açıqlama verməsi mümkün deyil. Bu, Qurana da uyğun deyil. Allahı çox sevən, Allahdan çox qorxan və

bütün həyatını Qurana görə yaşayan Hz. Muhəmmədin qadınların əleyhində belə ifadələr işlətdiyini iddia etmək çirkin iftiradır. Peyğəmbərimiz bütün bu iftiralardan təmizdir.

Qadınları alçaldan düşüncə xurafata məxsusdur. Quran həmin çirkin xurafatları ortadan qaldırır. Məsələn, "Məsnəvi"dəki xurafatlara görə, qadınlar ağıldan kəmdirlər və onlarla məsləhətləşmək uyğun deyil. Halbuki Quranda Səba məleykəsi ilə əlaqədar hekayət vardır. Yəni bir qadının hökmdar olduğu nümunəsi verilmişdir. Buna bənzər şəkildə, Allah Quranda Hz. Məryəm və fironun xanımı kimi qadınları da tərifləyib onların gözəl əxlaqını bütün insanlara nümunə göstərmişdir.

## 1. Qadının Yarım Varlıq Olduğu Yalanı

Ümmət dedi ki, **yaxşı bəs bir uşağa və ya qadına rast gəlsək necə? Nə uşaqda, nə də qadında ağıl var, açıq-aydın qərar verə bilməzlər. Peyğəmbər dedi ki, onunla danış, dediyinin əksini elə, sonra yola düş. Nəfsini qadın kimi bil, qadından betər tanı, çünki qadın yarım varlıqdır, nəfs isə tamamilə şərdir.** (Məsnəvi, cild 2, səh.562)

562

Ümmet, kiminle danışalım deyince peygamberler, kendisine uyulan akılla dediler.

Ümmet, peki dedi, ya bir çocuğa raslarsak, ya bir kadın çıkarsa karşımıza.. Çocukta da, kadında da akıl yoktur, aydın bir karâra varamaz.

Peygamber, onunla danış, dediğinin tersini yap, düş yola dedi. Nefsini kadın tanı, kadından da beter tanı; çünkü kadın parçabuçuktur; nefisse tamam şerdir.

Nefsinle danıştın mı, ne derse o alçağın dediğinin tersini yap.

## 2. Qadınlarla Məsləhətləşməmək Yalanı

Ey yolçu, yolçu ilə məsləhətləş, qadınla deyil… Çünki qadının rəyi səni topal edər. (Məsnəvi, cild 4, beyt 2210)

178 MESNEVI

de diriltsin; fakat nerde öyle bir diri?

2210. Ey yolcu, yolcuyla danış, kadınla değil.. çünkü kadının reyi seni topal eder!

Vatan sevgisinden dem vurma; durma, yürü..

## 3. "Qadınlardan Soruşmayın, Soruşsanız da, Dediklərinin Əksini Edin" Uydurma Rəvayəti

"Qadınlarla məsləhətləşin, sonra dediklərinin əksini edin". Həqiqətən də, onlara asi olmayanlar həlak oldu. (Məsnəvi, cild 1, beyt 3064-3065)

Qadınlarla məsləhətləşin, sonra onların dediklərinin əksinə davranın. Arvadlarına qarşı qiyam etməyən kişilər nəfəslərini tükədirlər.

(Ariflərin mənkibələri, səh.402)

ru yol da budur.

* "Kadınlarla danışın, sonra da ne dedilerse aksini yapın.,, Gerçekten de onlara âsî olmayanlar helâk oldu.

Nefsin isteğiyle az dostluk et; çünkü Allah yolundan seni azdıran odur.

402

ARIFLERIN MENKIBELERI

du. "Bu damdan aşağı atlayacağım" dedi hanımına. Kadın bağırmaya başladı ve "Olmaz!" dedi. Kocası dinlemedi ve o yüksek damdan aşağı atladı. Kazara ayağı kırıldı. Hastalanıp yatağa düştü.

Bu sırada Şam'dan haberciler (kussâd) geldi ve ona "Bu zamanda ileri gelen atlı kahramanların başı sensin. Büyüklere danışarak Osman'ı ortadan kaldırmamız için senin de bulunman gerekir; çünkü onun aramızda kalması uzun sürdü" dediler.

Bunun üzerine o da "Özrüm açıktır ve zulüm de insanı rezil edicidir. Halimi görüyorsunuz, hiç hareket edecek mecalim yok" diye buyurdu.

Ayağının kırılması sayesinde bu boyun vurmak hadisesinden kurtuldu, boyun vuranlarla birlikte bulunmadı ve "Tanrı'nın elçisi *'kadınların söylediğinin aksini yapınız'* sözünde ne kadar isabet etmiştir. Beni böyle büyük bir günah işlemekten kurtardı ve Tanrı'nın göze görünmez yardımına ulaştırdı" dedi.

*Kadınlara danışın, sonra onların söylediklerinin aksine hareket edin.*
*Karılarına başkaldırmayan kişiler, nefeslerini tüketirler.* [Mesnevî, c. I, s. 182/2956]

## 4. Qadınların Yuxusunun Belə Kişilərdən Aşağı Olduğu İddiası

**Qadın ağıldan kəm və zəif varlıq olduğu üçün onun yuxusu kişinin yuxusundan daha aşağıdır.** (Məsnəvi, cild 6, beyt 4354)

733

Ahmağın rûyâsı aklıncadır; onun rûyâsı da kendisi gibi değersiz, hiçbir şeye yaramaz.

Kadının, rûyâsını, aklının noksan, canının arık olması bakımından, erkeğin rûyâsından aşağı bil.

Aklı noksan adamın, ahmak kişinin rûyâsı boştur; peki, akılsızlıktan meydana gelen şey nedir? Yel gibi bir rûyâ.

Adam, define benim evimde dedi kendi - kendine; peki, orada ne diye yoksul oturmuşum, feryâd etmişim?

## 5. Anaların Təhqir Olunması

Ərşdə oturub qalmışdım. **Anamın şəhvəti “enin” əmri ilə məni buraya atdı. Həmin ucalıqdan bir qarının hiyləsi ilə bətn zindanına düşdüm. Ruhu ta ərşdən buraya gətirdi. Qısacası, qadınların hiyləsi böyükdür. Enməyim əvvəl də qadının üzündən, sonra da qadının üzündən.** Ruh idim, necə oldu ki, bədənə büründüm? (Məsnəvi, cild 6, beyt 2795)


MESNEVİ 221

Arşta oturup duruyordum. Anamın şehveti “İnin” emriyle beni buraya attı.

O tam yücelikten bir kocakarının hilesiyle rahim zindanına düştüm.

Ruhu, ta arştan bu yurda getirdi. Hâsılı kadınların hilesi pek büyük!

İnişim, önce de kadın yüzünden, sonradan da kadın yüzünden. Ruhtum, nasıl oldu da bedene büründüm?

## 6. Qadının Heyvan Surətində Olduğu Yalanı

**Qadınlarda heyvanlıq sifəti çoxdur, çünki qadının könlü rəngə və qoxuya axar.** (Məsnəvi, cild 5, beyt 2968-2975)


224

Görünüşte dişinin saldırması da kuvvetlidir ama onun uğradığı zarar, eşekliğindendir; o eşek gibi hani.

Kadında hayvanlık sıfatları çoktur; çünkü kadının gönlü, renge, kokuya akar.

O eşek de çayırlığın rengini duydu, kokusunu aldı da bütün deliller, gönlünden kaçtı gitti.

## 7. Darvin də “Məsnəvi”də Olduğu Kimi, Qadınları Alçaq və Heyvan Kimi Görürdü

Darvin qadının evlilikdə rolunu belə təsvir edirdi: **“…Oynayacağınız əşya-necə də olmasa, itdən yaxşıdır…”** (Darvinin avtobioqrafiyası, 1809-1882, səh.232-233)

Darvin “İnsanın törəməsi” adlı kitabında **qadınların dərk etmə, sürətli qavrama və təqlid mövzusunda daha aşağı irqlərin xüsusiyyətlərini daşıdığını, buna görə də daha qədim və aşağı mədəniyyət səviyyəsində sahib olduqlarını** yazmışdı. (Darvinin “İnsanın törəməsi” adlı əsərindəki təbiətin inkişafı, səh.295)

Allah Quranda qadın və kişilərin iman, əxlaq və ağıl baxımından bərabər olduqlarını və üstünlüyün yalnız təqva ilə olduğunu bildirmişdir:

**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar,** *(Allaha)* **baş əyən kişilər və baş əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və** *(ismətlərini)* **qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır.**

(Əhzab surəsi, 35)

**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.** (Nisa surəsi, 124)

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.** (Nəhl surəsi, 97)

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar** *(insanlara)* **yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah qüdrətlidir, müdrikdir.** (Tövbə surəsi, 71)

**Allah mömin kişilərə və mömin qadınlara** *(ağacları)* **altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.** (Tövbə surəsi, 72)

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi.**

(Ali-İmran surəsi, 42)

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə** *(Allaha)* **sidq ürəkdən inanan bir qadın idi. Hər ikisi də yemək yeyirdi. Bax gör, ayələrimizi onlara necə bəyan edirik, sonra da gör onlar** *(haqdan)* **necə döndərilirlər.** (Maidə surəsi, 75)

**Allah iman gətirənlərə isə fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənə Öz yanında – cənnətdə bir ev tik. Məni firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!"– demişdi.** (Təhrim surəsi, 11)

**Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də** *(misal çəkdi)*. **Biz ona Öz ruhumuzdan üfürdük. O, Rəbbinin sözlərini və Onun kitablarını təsdiq etdi və itaət edənlərdən oldu.** (Təhrim surəsi, 12)

# SON SÖZ:
# İCTİMAİ PROBLEMLƏR DİN ƏXLAQININ YAŞANMASIYLA HƏLL OLUNAR

Daha əvvəlki hissələrdə din əxlaqı yaşanmadığı təqdirdə insanların necə bir ruh halına və xarakter xüsusiyyətlərinə sahib olduqlarını və bunun nəticəsində ortaya çıxan insan modellərini təfərrüatlı olaraq gördük. Bu hissədə isə din əxlaqını yaşamağa başlayan bir cəmiyyətdə əsrlərdir hakim olan sosial yaraların necə bir-bir ortadan qalxdıqlarını görəcəyik.

## Hər Cür Əxlaqi Degenerasiya Bitər

Din əxlaqının yaşanmadığı cəmiyyətlərin ən diqqətə çarpan xüsusiyyəti cəmiyyətdə əxlaqi degenerasiyanın hakim olması və bunun hər keçən gün durmadan artmasıdır. Bu cəmiyyətlərdə Quran hökmləri, Allah rizası və ya Allah qorxusu kimi dəyərlər yaşanmadıqdan ötrü, bu degenerasiyanın qarşısını alacaq heç bir məhdudiyyət yoxdur. Hər nə qədər cəmiyyətlərdə adət-ənənələrin, insanlar və ya rəhbərlər tərəfindən tətbiq olunan ictimai qaydalar müxtəlif qabaqlayıcı təsirləri göstərsə də, bu qaydalar insanlar tərəfindən çıxarılmış olduğundan və təməllərində Allah qorxusunun olmamasından ötrü insanların vicdansız, mərhəmətsiz və qeyri-insani davranmalarının qarşısını ala bilmir.

Məsələn, əxlaqsızlıq edən bir insanın daha da əxlaqsız olmaması üçün heç bir səbəb yoxdur. Bir iş yeri sahibini düşünün. Əgər bu adam Allaha inanmır və Ondan qorxub çəkinmirsə onsuz da vicdansızlığa qərar vermiş və ən kiçik fürsətdə bunu tətbiq etməyə hazır vəziyyətə gəlmiş bir adamdır. Çünki bir insanın özünü yaradan varlığa itaət etməməsi, Onun verdiyi nemətləri görə bilməməsi və Onun əmrlərinə, qadağalarına qarşı çıxması onsuz da vicdansızlıqların ən böyüyüdür. Belə bir insanın iş yerində işlətdiyi kəslərə qarşı pis rəftar göstərməsi, əsəbiləşib təhqir etməsi, onları ən az pulla ən çox müddətdə və ən çox əməklə işlətməsi öz vicdanına görə olduqca normal bir davranış olacaq. Birlikdə iş gördüyü kəsləri və ya şirkətləri əlinə imkan keçdikdə dolandırmaması, öz şirkətini böyüdüb gücləndirmək, daha çox pul qazanmaq üçün qanunsuz işlərə əl atmaması üçün özünü vicdani cəhətdən məsuliyyətli edəcəyi bir səbəb isə olmayacaq.

İlahi qanunlar əsas götürüldükdə əxlaqi dəyərlər hər kəsə görə dəyişəcək. Birinə görə çox böyük əxlaqsızlıq olan bir mövzu digərinə görə normal bir hal kimi görünə bilər. Buna görə də din əxlaqının yaşanmadığı cəmiyyətlərdə əxlaqi dəyərlər adamdan adama, yaşdan yaşa, bölgədən bölgəyə, şəhərdən, ölkədən və cəmiyyətdən cəmiyyətə də dəyişir. Tək bir dəyər mühakiməsi olmadığından ötrü cəmiyyətdə tez-tez əxlaqi ölçülərdə mübahisələr, qarşıdurmalar yaşanır. Hər yeni nəsil əvvəlki nəslə görə əxlaqi dəyərlər baxımından daha da korlanmışdır.

Ancaq burada əhəmiyyətli olan məqam əxlaqi degenerasiyada daima sürətlə artan bir inkişaf olmasıdır. Cəmiyyətlər, Allah inancları əskik olduğundan ötrü hər il daha da korlanır, bir il əvvəl cəmiyyətdən çox pis

kimi görünən bir hərəkət və ya anlayış, bir il sonra cəmiyyətin bütün fərdləri tərəfindən normal qarşılanmağa başlanır. Lakin, bu, əlbəttə ki, o cəmiyyətə böyük ziyan vurur, dinsizliyin gətirdiyi pis əxlaq hər keçən gün daha da güclənir. Maraqlı olan budur ki, əxlaqsızlıq müasirlikmiş kimi göstərilməklə cəmiyyətə bu istiqamətdə təlqin edilməsidir. "Müasir cəmiyyətin XXl əsr insanı azad, rahat və sərbəst olmalıdır" şəklində bir anlayış, dinsiz ideoloqlar tərəfindən cəmiyyətlərə yerləşdirilir.

Əxlaqsızlığın yaşı hər gün daha da azalarkən, edilən əxlaqsızlıq növləri də çoxalır. ABŞ və Avropada uşaq qatillərinin sayında əhəmiyyətli bir artım mövcuddur. Uzaq Şərq ölkələrində də uşaqlar kiçik yaşlardan etibarən özlərini insan alverinin ortasında tapır, hər cür pozğun əlaqəyə vasitə olurlar. 80-ci illərdə cinsi pozğunluqlar heç kimin ağzına belə ala bilmədiyi utanılacaq ifadələr olduğu halda, indiki vaxtda bu cür əlaqələr normal qarşılana bilir, bu əxlaqsızlıqları edənlərə qarşı rəğbət bəslənilir, bunlara qarşı çıxanlar isə müasir olmamaqla (mürtəce olmaqla) ittiham edilir. Dinsiz cəmiyyətlərdəki insanların bu səyləri ayədə belə təsvir edilir:

**Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz.** (Nur surəsi, 19)

Bunun əvəzinə din əxlaqı yaşansa əxlaqi degenerasiyanın baş verməsi qeyri-mümkün olar. Hər şeydən əvvəl insanlar Allahdan çox qorxduqları üçün onsuz da əxlaqsızlıq etməyə cəhd etməzlər. Bunun üçün isə Quranın hökmlərinə tabe olmaları kifayətdir. Məsələn, aşağıdakı ayədə Allahın istədiyi əxlaqi dəyərlər çox aydın olaraq bildirilir:

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara** *(haqqını)* **verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.** (Nəhl surəsi, 90)

Yuxarıdakı və bənzər ayələrdəki hökmləri bilən möminlərin bu hökmlərdən kənara çıxması qeyri-mümkündür. Buna görə də inanmış insanlardan ibarət olan bir cəmiyyətdə əxlaqsızlığın olması və yaşanması qeyri-mümkündür.

Bundan başqa istisna hallarda insanlardan qaynaqlanan bir xəta olsa, buna da digər möminlər göz yummayacaqları üçün yenə əxlaqsızlıq yaşanmayacaqdır. Üstəlik, cahil cəmiyyətində olduğu kimi insanların əxlaqsız hərəkətlərə sövq edilməsindən və yayılmasından söhbət belə gedə bilməz. Çünki möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də ayələrdə tez-tez ifadə edildiyi kimi bir-birlərinə yaxşı əməlləri əmr edib, pis əməlləri qadağan etmələridir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar** *(insanlara)* **yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa**

**qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.**
(Tövbə surəsi, 71)

Bu halda Quran əxlaqının yaşandığı bir cəmiyyət əxlaqi cəhətdən olduqca seçilən olar. Çünkü möminlər xeyirxah işlər görməyə tələsirlər (Ali İmran surəsi, 114) və yaxşı iş görürlər (Fussilət surəsi, 33) sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar. (Zumər surəsi, 18) Allah Quranda dini yaşayan insanlardan meydana gələn bir cəmiyyətin bu xüsusiyyətlərindən belə bəhs edər:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz…** (Ali İmran surəsi, 110)

Şübhəsiz ki, belə bir cəmiyyətin əxlaqi cəhətdən dini yaşamayan cəmiyyətlərə görə nə qədər üstün və heyrətamiz olduğu aydındır.

## Din Əxlaqının Yaşanmasıyla Ailə Daxili Problemlər də Aradan Qalxar

Cəmiyyətlərin yaxşı bir sosial struktura sahib ola bilməsi, yaxşı bir ailə strukturuyla mümkündür. Ailə korlandığı təqdirdə cəmiyyətin korlanması da qaçınılmazdır. Bundan ötrüdür ki, dinsizliyi qanuniləşdirmiş ideologiyalar -kommunizm, sosializm və s.- əvvəlcə ailəni hədəf alarlar. Nikah, ananın dəyəri, gizlilik, sədaqət, namus, iffət kimi dəyərləri yox etməyi qarşılarına məqsəd qoyarlar. Dinsiz cəmiyyətlərə istiqamət verən filosoflar və rəhbərlər bundan ötrü də bu dəyərləri əhəmiyyətsiz və dəyərsiz göstərəcək təlqinlər verirlər. Məsələn, əvvəllər nikahsız ailələr cəmiyyət tərəfindən rədd edildiyi halda, indiki vaxtda çox normal qarşılanan hal olmuşdur. Yenə nikahsız ailələrin yaşı elə azalıb ki, orta məktəb yaşındakı uşaqların arasında belə bu vəziyyətin çox yayıldığı məlumdur.

Cəmiyyət daxilində nikaha olan dünyagörüşü səhvdir. Gənc qızlar nikahı həyatlarını zəmanət altına alacaq bir sığorta kimi görərlər. Vəziyyət belə olduqda tək meyar maddiyyat olar. Bəzən buna vəzifə, xarici görünüş, ətraf mühit kimi xüsusiyyətlər də əlavə olunar. Ancaq ən əsas meyar puldur. Buna görə də cahil cəmiyyətindəki nikahların böyük hissəsində kişilərdə axtarılan xüsusiyyət mal və puldur. Pul, vəzifə, xarici görünüş kimi hər an, hər insanın asanlıqla itirə biləcəyi şeylər əsasında qurulan bir nikahın nə qədər sağlam ola biləcəyini başa düşmək üçün boşanma statistikalarına baxmaq kifayətdir. Çünki məlum olduğu kimi boşanmalarda ildən ilə bir artım müşahidə edilir.

Boşanmaya gətirib çıxaran səbəblərdən biri də kişilərin həyat yoldaşlarında axtardıqları xüsusiyyətlərdir. Məlum olduğu kimi ümumiyyətlə, kişilərin evlənərkən axtardıqları xüsusiyyətlərin başında gözəllik gəlir. Buna bir də qadının yaxşı bir təhsil alması və bacarıqlı olması da əlavə oluna bilər. Əlbəttə ki, iki tərəfin də axtardığı bu xüsusiyyətlərə sahib olmaq pis bir şey deyil, ancaq nikah kimi sağlam olmalı bir birlik yalnız bunlar əsasında qurulsa, bu xüsusiyyətlər itirildiyi vaxt bu nikahın pozulmasını seyr etməkdən başqa bir alternativ də qalmaz.

Halbuki, evlilikdə sədaqət, vəfa, sevgi, hörmət kimi anlayışlar çox əhəmiyyətlidir. Ancaq, insanları bir-birinə bağlayan din əxlaqının sağlam dəyərləri olmadan bu xüsusiyyətlər təmin edilə bilməz. Buna görə də dini dəyərlər olmadan belə bir nikahın pozulması çox asan olar.

Bu cür yanlış məntiqlər əsasında qurulan nikahlarda möhkəm bir özül olmamasından ötrü sevgi və hörmət qısa müddətdə yox olur və ər-arvad bir-birlərini tanımaz hala gəlirlər. Bu vəziyyət özüylə birlikdə gün keçdikcə artan döyüşlər, anlaşılmazlıqlar, ittihamlar da gətirər. Bir müddət sonra bu vəziyyət qəbul edilər və cəmiyyətdəki nikahların klassik pis dövrü başlanar. Doğan uşaqlar da bu mühitdə böyüdükcə psixologiyaları pozulur, ruh halı qeyri-sabit olan nəsillər meydana gəlməyə başlayır. Şübhəsiz ki, dinsiz cəmiyyətlərdə insanlar, ailələrində gördüklərinə müvafiq olaraq sevgi və hörmətdən uzaq bir xarakterə sahib olarlar.

Din əxlaqını bir yol göstərici kimi qəbul etməyən cəmiyyətlərdə, ailə tərkibindəki pozğunqluqlar çox geniş olaraq görülər. Xüsusilə pulun ailə üzvləri arasındakı əlaqələrdə çox əhəmiyyətli bir rolu vardır. Bol pul verən bir kişi həyat yoldaşı tərəfindən həmişə çox sevilər və qayğı görər, eynilə pullu bir ata uşaq üçün əhəmiyyətli bir ünsürdür. Ancaq bu sevgi və qayğının nə qədər könüllü olduğunu ehtimal etmək çətin deyil. Ailə başçısının işlərinin pozulduqda və verdiyi pul azaldıqda isə ümumiyyətlə, bu sevgi və qayğı bitər, birdən-birə narazılıqlar başlayar. Pul üzündən tez-tez mübahisələr, davalar baş verər. Hər hansı bir iflas baş verdikdə yaxud da işlər pozulduqda isə adamın həyat yoldaşı tərəfindən tərk edilməmə zəmanəti yoxdur. Çox vaxt da bu cür vəziyyətlərdə dərhal boşanmalar müşahidə olunar. Məhz bu vəziyyət Quran əxlaqını yaşamamağın nəticələrindən biridir.

Cahil cəmiyyətin evliliyə olan bu dünyagörüşünə qarşı möminlərin evliliyə olan dünyagörüşləri çox fərqlidir. Onlar evliliyin sonsuza qədər sürməsi niyyətiylə evlənərlər, çünki öldükdən sonra özlərini sonsuz bir həyatın gözlədiyini bilirlər. Yoldaşlarını seçərkən ən əhəmiyyətli meyarları təqvalı olması, digər bir sözlə Allahın istədiyi Quran əxlaqını yaşamasıdır. Çünki digər bütün xüsusiyyətlərin keçici olduğunu bilirlər. Evlilik həyatı boyu hər iki tərəf də yeganə meyar olaraq Quranı əsas aldıqları üçün çox uyğun bir bərabərlik olar, əlaqələrində sevgi və hörmət hakim olar. Bir tərəf səhv etdikdə dərhal digər adam Quran əxlaqına dəvət edər və problem həll edilər. Çünki mömin olan bir adamın bu dəvətə əhəmiyyət verməməsi qeyri-mümkündür. Buna görə də Allahdan qorxan və iman sahibi insanların qurduqları evliliklər çox möhkəm olar.

Ailə dedikdə, yalnız ər-arvad arasındakı əlaqəni düşünmək də səhv olar. Din əxlaqının yaşandığı bir mühitdə uşaqlar ata-analarıyla və digər ailə böyükləriylə çox ehtiramlı və hörmət dolu rəftar edərlər. Sevgidə, hörmətdə qüsur olmaz. Dövrümüzdəki ailələrdə olduğu kimi evlərdə qışqır-bağır, hörmətsiz üslub və danışıqlar olmaz. Həmişə bir hüzur və sevinc hakim olar. Ailə mühitləri insanların qaça-qaça getmək istədikləri yerlər halına gələr.

Uşaqlar ata-analarını himayədarları olaraq görər və sevərlər. Ailələr uşaqlarını Allahın bir əmanəti olaraq görər və qoruyarlar. Ailə dedikdə, ağıla mehribanlıq, sevgi, etibar, həmrəylik gəlir. Amma təkrar ifadə etməkdə fayda vardır ki, bu mükəmməl mühitə ancaq və ancaq din əxlaqının tam, əskiksiz və səmimi olaraq yaşanması, Allah qorxusu və sevgisinə sahib olmaqla nail oluna bilər.

## Cəmiyyətin Fərdləri Arasında Sevgi və Hörmət Əlaqəsi Meydana Gələr

Dinsizliyin insanlar üzərindəki mənəvi təsirləri, bu insanların sevgini və hörməti tanımamalarına gətirib çıxarır. Bu cür insanlardan ibarət olan bir cəmiyyət də, əlbəttə ki, böyük, kiçik, yaşlı, gənc, kəndli, şəhərli, bir-birinə sevgi-məhəbbət göstərməyən cəmiyyətdir. Belə bir mühitdə adam özünü həmişə tək və sevgisiz hiss edər. Şəfqət, mərhəmət olmadığı kimi hər kəs yalnız özünü düşünər. İnsanların bir-birlərinə bəslədikləri, zənn etdikləri sevgi və ya hörmət, heç vaxt Quranda nəzərdə tutulan mənada həqiqi hörmət və ya sevgi olmaz. Bunun ən böyük səbəbi isə həyatdakı bütün dəyərlərin mənfəət əlaqələri əsasında qurulmasıdır.

Heç kim başqasına könüllü surətdə hörmət etməz. Müdirinə qarşı hörmət göstərməsə işdən atılacağını bilən bir adamın, müəlliminə hörmət göstərməsə sinifdə qala biləcəyini düşünən bir şagirdin, yoldaşını qəzəbləndirsə cib xərcliyi ala bilməyəcəyini başa düşən bir qadının hörmət anlayışlarının yalnız mənfəətə əsaslanması aydındır.

Halbuki, əsasında din əxlaqı və onun gətirdiyi gözəl əxlaq olan bir həyat tərzində heç vaxt bu cür bir vəziyyət meydana gəlməz. Allahı razı salmaq üçün səy göstərən, Allahdan qorxan bir möminə hər kəs normal olaraq sevgi və hörmət bəsləyər. Bu adamın hörmət görmək üçün mal-dövlət, xarici görünüş kimi amillərə ehtiyacı yoxdur. Sevgi və hörmət görməsi üçün yalnız mömin olması, yəni Allahdan qorxub çəkinməsi və Onu razı salmaq üçün yaşaması kifayətdir.

Dinsiz cəmiyyətlərdə insanların necə bir ruh halına və əxlaq quruluşuna sahib olduqlarını daha əvvəlki hissələrdə izah etmişdik. İndi qarşınızda bu insanlardan meydana gəlmiş bir cəmiyyət düşünün, sizcə bu cəmiyyət sevgi və hörmətin hakim olduğu bir cəmiyyətdirmi? Əlbəttə ki, deyil. Özünü yoxdan var edən və ona sonsuz nemətlər verən Rəbbimizi təqdir edə bilməyən, Onu lazım olduğu kimi sevə bilməyən bir varlıq, əlbəttə ki, Onun qullarını da sevə bilməz. Bunun yeganə həlli isə din əxlaqının yaşandığı və Allah sevgisinin hakim olduğu bir cəmiyyətdir.

## Qumar Bəlası Aradan Qalxar

Din əxlaqı yaşanmadıqda əmələ gələn pis mühitdə ən diqqət çəkən istiqamətlərdən biri də insanların, içki və qumara əsaslanan həyat tərzləridir. Din əxlaqını yaşamadıqları üçün təvəkkülün, səbrin, ümid etməyin nə olduğunu bilməyən bu insanlar hər hansı bir çətinliklə qarşılaşdıqları təqdirdə etdikləri ilk iş içkiyə və qumara müraciət etməkdir.

Hər hansı bir işləri yolunda getmədikdə, canları sıxıldığında,

qəzəbləndiklərində, kədərləndiklərində hətta sevindiklərində belə dərhal içkiyə sarılıb öz aləmlərində “sıxıntılarını aradan qaldırarlar”. Halbuki, etdikləri, başda özləri olmaqla ətraflarındakı bütün insanlara zərər verməkdən başqa bir şey deyil. İçdikləri içkinin dozası artdıqca şüurları daha da itər və artıq müəyyən bir səviyyədən sonra etdikləri hər şey həddindən artıq sərxoş olmalarından ötrü normal bir halmış kimi qarşılanar. Belə bir vəziyyətdə adamın ətrafındakı insanları təhqir etməsi, cəmiyyət içində heç edilməyəcək yersiz bir hərəkəti gülərək etməsi və ya gündəlik həyatda iş-güc sahibi bir insan olduğu halda içki masasında hönkür-hönkür ağlaması, cahiliyyə ifadəsiylə “dağıtması” cəmiyyət tərəfindən də normal qarşılanan acizliklərdir.

İnsanların içkiylə özlərini itirmələri, bunun nəticəsində ətraflarındakı insanlara verdikləri hər cür zərər, həyat boyu qazandıqları hər şeylərini qumarda xərcləyib itirmələri, döyüşlər, cinayətlər, intiharlar dinsizliyin nə qədər böyük bir zülm gətirdiyinin ən aydın dəlilləridir. Bu həqiqət, ayənin ifadəsindən də aydın olur:

**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici** *(içki)* **də, qumar da,** *(tapınmaq məqsədilə)* **dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici** *(içki)* **və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz** *(buna)* **son qoyacaqsınızmı?** (Maidə surəsi, 90-91)



## SPİRTLİ İÇKİLƏRİN ORQANİZMƏ GÖSTƏRDİYİ TƏSİRLƏR:

### 1. Spirtli içkinin beyinə göstərdiyi təsir:

Spirtli içkilər beyin hüceyrələrinə və neyronlara təsir edərək, onları fəaliyyətdən saxlayır. Çox hallarda beyindəki nazik damarların partlamasına, qanın laxtalanmasına səbəb olub qanın normal qaydada dövr etməsinin qarşısını aldığına görə, infarktla nəticələnir. Bəzi hallarda isə beyində əzələlərin yığılmasına, şişlərə və qan təzyiqinin yaranmasına səbəb olur. Bu da bədən üzvlərinin iflic vəziyyətinə düşməsinə səbəb olur.

### 2. Spirtli içkilərin əsəb sistemindəki mənfi təsiri:

Spirtli içkilər müxtəlif xəstəliklərin, o cümlədən əllərdə və ayaqlarda titrəyişlərin yaranmasına, bədən üzvlərinin nəzarət altına alınmasında bacarıqsızlığa, zahiri və batini hiss orqanlarının zəifləməsinə, ifrat dərəcədə yuxusuzluğa və qarışıq yuxular görməyə səbəb olur.

### 3. Spirtli içkilərin mədəyə təsiri:

Spirtli içkilər dilin hissiyyatını və dadbilmə üzvünü təsirdən salır, ağız şirəsini azaldır və onu normal haldan çıxarır. Həmçinin mədədə vəzlərini təhrik edir, mədə şirəsinin turşuluğunu azaldır, həzm yollarının bağlanması ilə (buna pepsin deyilir) çox hallarda bəlğəm və ya qan laxtaları ilə qarışıq olan qusmaya səbəb olur. Eləcə də mədə və bağırsaqda müxtəlif xəstəliklər törədir, mədənin həddindən artıq genişlənməsinə, bağırsaqlarda qaşınmaya, həzm sistemində iltihabın yaranmasına səbəb olur. Həmçinin böyük bağırsağa xəsarət dəyməsi nəticəsində güclü ishal və ya ifrazatın qarşısının alınması kimi xəstəliklər spirtli içkilərə adət edən şəxsi təhdid edir.

### 4. Spirtli içkilərin qara ciyərə təsiri:

Spirtli içkilər qara ciyəri zəiflədir, onda müxtəlif şişlər əmələ gətirir. Onun zəifləyib öz funksiyasını itirməsi nəticəsində qarın tərəfdən müəyyən ağrılar, narahatçılıqlar baş verir. Əksər hallarda şərab içən şəxsin böyrəklərində sarılıq xəstəliyi əmələ gəlir ki, onun da təsirləri şəxsin gözündə zahir olur.

### 5. Spirtli içkilərin qan dövranındakı təsiri:

Əsas etibarı ilə spirt orqanizmdə məsrəf olunmadığından mədəyə daxil olan kimi birbaşa qana keçir və ondakı ağ qan cisimciklərini aradan aparır. Azacıq təzyiq belə şəxsin infarkt keçirməsinə səbəb olur.

### 6. Spirtli içkilərin tənəffüs orqanlarına təsiri:

Spirtli içkilərin tənəffüs orqanlarında yaratdığı xəstəliklərin ən güclüsü sel və təngnəfəslikdir. Çünki spirt qana daxil olandan sonra, ağ ciyərə gəlib çatır və onun vəzlərini təhrik edərək şişlər əmələ gətirir. Bu təhrik bədəndə olan kalsiumu aradan aparır, ağ ciyərin funksiyasında nasazlıqlar yaradır və bu da sel kimi xəstəliklərlə nəticələnir.

### 7. Spirtli içkilərin böyrəklərə təsiri:

Mövcud faktlara əsasən böyrək xəstəliklərinin 90 faizi spirtli içkilərin təsirindən yaranır. Çünki spirtli içkilər ifraz olunan zaman, sidik kisəsini təhrik edir və müxtəlif narahatlıqlar yaradır. O cümlədən, sidiyin saxlanmaması xəstəliyi buna misal ola bilər.

### 8. Spirtli içkilərin ürəyə təsiri:

Spirtli içkilər qan dövranında təsir qoyduğundan, yavaş – yavaş orqanizmdə maddələr mübadiləsini və hüceyrələrin qidalanması prosesini ləngidir, ürəyin ətrafında çoxlu piy əmələ gəlir, bu da onun işinin ağırlaşmasına səbəb olur, ürəyin həcmi artaraq döyüntüləri zəifləyir. Buna görə də spirtli içkilərə adət edən şəxslərin nəbzi adətən yavaş vurur, bəzi hallarda isə anormal olur.

### 9. Spirtli içkilərin əql qüvvəsinə təsiri:

Spirtli içkilər dəliliyin əsas amilidir. Psixi xəstəxanalardakı faktlar göstərir ki, dəlilərin əksəriyyəti ömürlərinin çox hissəsini şərabxorluqla keçirənlərdir. "İctimai – bəlalar" adlı kitabda "Təndürüst" jurnalından belə nəql olunur: Fransada təbiblərin apardığı araşdırmalarda 200000 (iki yüz min) nəfərin spirtli içkilər nəticəsində dəli olduğu məlum olmuşdur. Həmçinin dəlilərin 80 faizi spirtli içkilərin işlədilməsindən irəli gəlmişdir. İngiltərə alimlərinin apardığı tədqiqatlar nəticəsində sübuta yetmişdir ki, dəliliyin təqribən 90 faizi spirtli içkilər nəticəsində yaranmışdır.

### 10. Spirtli içkilərin insan nəslində təsiri:

Yuxarıda qeyd olunan kitabda yazılır: Spirtli içkilər insanın spermatozoidlərində və onları istehsal edən hüceyrələrdə xoşagəlməz təsirlər qoyur. Almaniyalı təbiblərdən sübut etmişdir ki, spirtli içkilərin acınacaqlı təsiri, hətta onlardan istifadə etməyən üç nəslə qədər davam edir.

Spirtli içkilərə qurşanan şəxslərin nəsli azalaraq tamamilə kəsilir. Amerikalı alim Doktor Nalin deyir ki, bir sağlam kişidən 11 övlad əmələ gələ bilər. Halbuki, spirtli içkilərə qurşanan şəxsdən 1 – 3 nəfər sağlam övlad əmələ gəlmir. Əmələ gələn övladlar da ruhi və fiziki xəstəliklərə, o cümlədən infarkt, əsəbilik, dəlilik, əql qüvvəsinin normal inkişaf etməməsi, qan azlığı və sair kimi xəstəliklərə düçar olur, daim ruhi və fiziki çatışmamazlıqdan əziyyət çəkirlər.

Quran əxlaqı qumarı qadağan etdiyi üçün möminlər heç vaxt qumar oynamağa cəhd etməzlər. Bunu Allah qorxularından ötrü etməzlər. Hər nə olursa olsun, nə qədər çətin vəziyyətdə də qalsalar, nə qədər cəlbedici təkliflərlə də qarşılaşsalar, nə qədər təzyiq də görsələr, nə qədər təşviq də edilsələr bu mövzuda güzəştə getmələrindən söhbət belə gedə bilməz. Din əxlaqında bunlara qarşı gətirə biləcək bəhanələr, ağlabatan səbəblər yoxdur. Heç kim bəhanə gətirmək kimi bir əxlaqsızlıq etməz. Çünki bir şey haramdırsa bunda güzəşt edilməsi, yüngülləşdirilməsi, tətbiq olunmaması ola bilməz.

Din əxlaqı yaşanmadığı təqdirdə isə insanların dəyər mühakimələrinə və ölçülərinə etibar etmək olmaz. Çünki yerə, zamana, adama, mühitə görə dəyərlər də, kəslər də dəyişərlər. Bunlarla əlaqədar olaraq çox fərqli izahlar gətirə bilərlər. Məsələn, qumar və ona bənzər pisliklər bəzi mühitlərdə pis olaraq qəbul edilərkən, bunu pis qəbul edən insanlar tərəfindən bəzi mühitlərdə oynanması və ya edilməsi normal qarşılanır. Otellərdə, əyləncə yerlərində oynanmasında bir problem görülməz. Prinsip etibarilə oynamayan biri belə bu tərz bir yerə getdikdə prinsipini pozar və oynayar.



Bir şey pisdirsə və ya əxlaqsızlıq kimi qəbul edilirsə, buna heç bir yerdə və heç bir şəkildə yanaşılmamalıdır. Yerə, zamana və insanlara görə fərqləndirmə inkişaf etməmiş bir şəxsiyyətin göstəricisidir. Din əxlaqından xəbərsiz bir kimsənin də güclü bir şəxsiyyət və iradəyə sahib olması qeyri-mümkündür.

## Narkotik Problemi Aradan Qalxar

"Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanan 1997-ci il Narkotik Hesabatında dünyada 200 milyon adamın narkotikdən istifadə etdiyi ifadə edildi…" (27 Haziran 1997, Yeni Yüzyıl Gazetesi)

Deməк olar ki, hər gün eşidilən xəbərlərdə və ya oxunan qəzetlərdə narkotiklə əlaqədar bir xəbər olması müasir dövrdə artıq adi qarşılanan hadisələrdən biridir. Halbuki, bir qədər düşündükdə yer üzündəki canlılar arasında ən şüurlu varlıq olan insanın bir neçə milliqramlıq bir maddədən onsuz yaşaya bilməyəcək, o olmadığı təqdirdə özünü itirərək, şoka girəcək dərəcədə asılı olması çox anormal bir vəziyyətdir. Üstəlik, bu insanların sayının az hesab edilməyəcək qədər olduğu da nəzərə alındıqda vəziyyət xeyli təəccüblü hala gəlir.



“Bir dəfə sınamaqla heç bir şey olmaz” məntiqiylə başlayıb qısa vaxt ərzində narkotik mübtəlası halına gələn insanların hamısı şüur altında bir üsyan ruhu daşıyırlar. Çünki ümumiyyətlə, narkotikə başlamağın öz aləmlərində ağlabatan səbəbləri vardır. Şəxsi iradəsizliklərini və zəifliklərini görməzlikdən gəlib ətraflarındakı insanları günahkar hesab edərlər. Ailə mühitində yaşanan narahatlıqlar, məktəbdəki və ya işdəki müvəffəqiyyətsizliklər, ətraflarındakı insanlarla yola getməmək, maddi imkansızlıqlar, hadisələrin istədikləri kimi inkişaf etməməsi və ya hər hansı bir səbəbdən ötrü canlarının sıxılması bu kəslərin üsyana yönəlmələri üçün kifayət edir. Artıq bundan sonra qarşılarına çıxan hər şeyi pis, mənfi olaraq qiymətləndirməyə başlayırlar. Getdikcə kədərli və qaranlıq bir ruh halına girərlər.


BİRLEŞMİŞ MİLLETLER'İN UYUŞTURUCU RAPORU

200 milyon kişi "Zehire" tutsak

Uyuşturucu kaçakçılığından sağlanan

Rusya'da uyuşturucu kullanımı artıyor

Rusya'da 3 milyon civarındaki bir kitlenin uyuşturucu kullandığı bildirildi. Rusya İçişleri Bakanlığı verilerine göre, ülkede uyuşturucu kullananların sayısı, resmi kayıtlara geçen sayıdan 10 kat daha fazla. İçişleri Bakanlığı Uyuştu- ... üstünde olduğunu kaydetti.

Şuşakov, uzmanların hesaplamalarına dayanarak, genel olarak Rusya'da 3 milyon civarında bir uyuşturucu kullanıcısının bulunduğunu söyledi. Son sayımlara göre ülke nüfusu 145.5 milyon olarak belirlendi.

Uyuşturucu tehdit ediyor

Uyuşturucu sebebiyle İstanbul'da 1990 yılında 5, 1991'de 8, 1992'de 11, 1993 yılında 17, 1994'te 23, 1995 yılında 24 ve geçen 1996 yılında ise 37 kişinin hayatını kaybettiği açıklandı

OSMAN KARA

ÖLÜMLER HER YIL ARTIYOR

KORKUNÇ BİLANÇO

1999'da kokain kullananların yüzde 67'si, eroincilerin de yüzde 52'si İstanbul'da yaşarken, esrar ve uyuşturucu hap kullananlara hemen hemen tüm illerde rastlandı.

Uyuşturucuda REKOR ARTIŞ

İSTANBUL

Tam 200 milyon kişi uyuşturucu müptelâsı

Həyatda özlərini hər şeyə qarşı çox gücsüz hiss edərlər, həqiqətən də Allahı dost tutmadıqları üçün heç bir dayaqları yoxdur. Yeganə həllin hər şeyi unutmaq, şüuru tamamilə bağlayıb özündən keçmək olduğunu düşündükləri üçün hər keçən gün narkotikin dozasını bir az daha artırar, öz əlləriylə ölümə sürətlə yaxınlaşarlar. Bütün bunlarla birlikdə, ölümdən sonra əsl həyatın başlayacağına inanmadıqları və yox olacaqlarını düşündükləri üçün öz aləmlərində kef çəkməklə yaşayıb əylənmək istədikləri dünya həyatının bu dərəcə kabusa dönməsi və hər keçən gün həm bədəncə, həm də ruhən çökmələri onları daha da çıxılmaz vəziyyətə salar.

Məhz içində olduqları bu qorxunc ruh halı, çöküşləri, kinləri, qəzəbləri, üsyanları, Allah razı salmaq əvəzinə nəfslərini razı salmağa çalışmaları, əslində vicdanlı davranmamalarının dünyada onlara verilən qarşılığıdır.

Halbuki, Allah insanlara ağıl, iradə, vicdan vermiş və Öz rizasına uyğun olaraq hərəkət edildiyi təqdirdə həm dünyada, həm də axirətdə gözəlliklər vəd etmişdir. Ancaq bunun əksini yaşamağı seçən şəxslərə də dünyada da, axirətdə çətinlik üz verəcəkdir. İşin həqiqəti, Allaha yaxınlaşmaq üçün yol axtaran insan həm Allahı razı salaraq sonsuz cənnət yurduna girməyə ümid edə bilər, həm də dünyada rahat və dinc bir həyat yaşaya bilər.

Yerlərin, göylərin və bu ikisi arasındakı hər şeyin Rəbbi olan Allaha səmimi bir yaxınlıq içində olmaq, əlbəttə ki, o adam üçün mümkün ola biləcək ən böyük dəstəkdir. Məhz buna görə də möminlər dünyanın ən güclü və ən dözümlü şəxsləridir. Həmçinin, iradələri və şüurları olduqca açıq insanlardır. Bu cür bir acizliyə düşməyəcəkləri kimi, özlərinə də əsla belə bir acizliyi yaraşdırmazlar. Onları belə güclü və iradəli edən şey isə Allaha olan imanları və Onun göndərdiyi haqq dinə olan bağlılıqlarıdır.

## Fahişəlik Aradan Qalxar

**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!** (İsra surəsi, 32)

Allahın Quranda haram buyurduğu hərəkətlərdən biri olan zina, bunu edən insanı, tövbə etmədiyi təqdirdə həm dünyada, həm də axirətdə çox alçaq mövqeyə salacaq böyük bir günahdır.

Zinanın ya da fahişəliyin cəmiyyətə və zina edən insanlara maddi-mənəvi bir çox zərərləri vardır. Möminlər üçün, Allahın bu hərəkətləri qadağan etməsi, bunlardan uzaq durmaq və nifrət etmək üçün kifayətdir. Unudulmamalıdır ki, Allah insanları qanuni olan evliliyə təşviq edir.

Həmçinin, fahişəliyin cəmiyyətə və insanlara verdiyi zərərləri görmək də möminlərin imanlarını artıran bir ünsürdür. Quran ayələrində qəti bir şəkildə qadağan edilən və qınanan fahişəliyi, heç bir hədd-hüdud bilmədən tətbiq edənlərin içinə düşdükləri vəziyyət möminlər üçün bir ibrət vəsiləsidir.

YENİYÜZYIL

TÜRKİYE

# Gizli fuhuşta müthiş artış

TBMM kadın sorunları ile ilgili araştırma komisyonu raporuna göre, son 10 yılda genel kadın sayısı hızla azalırken, gizli fuhuş yapanların sayısı 2 binden 5 bin kişiye çıktı



# 100 bin Ukraynalı seks kölesi oldu!

Uluslararası sivil toplum örgütü La Strada'nın rakamlarına göre, ülke dışında fuhuş yapmaya zorlanan Ukraynalı kadın sayısı 100 bine ulaştı

# Seks turistleri

10 yıl önce turist haritasında yer almayan Kamboçya ve Vietnam, artık seks turizminin cenneti haline geldi

Asya'da çocuklarla seks yapan turistlerin sayısının giderek arttığı, bu

Çocukların cinsel sömürüden korunması için mücadele eden ECPAT ad-

# Yeni dünyaya köle yağıyor

CIA raporu, her yıl Asya, Latin Amerika ve Doğu Avrupa'dan ABD'ye kaçırılan 50 bin kadın ve çocuğun fahişe olarak çalıştırıldığını belgeledi



# Yasaklandıkça artan fuhuşa çare arayışı

Avrupa ülkeleri fuhuşu denetim altına almak için yol ararken tutucular fahişeliğin yasallaştırılmasına şiddetle karşı çıkıyor

Bu gün fahişəlik üzündən xeyli insan qürurunu itirmiş, özünə olan hörmətini və etibarını itirmiş, alçaq bir həyatı mənimsəmişdir. Fahişəlik üzündən çox sayda ailələr dağılmışdır. İnsanlara ümumi bir bədbəxtlik, narahatlıq və axtardığını tapa bilməmək psixologiyası hakim olmuşdur. Halbuki, Allahın göstərdiyi yola tabe olub, təmiz olanı seçsələr, digər bir sözlə halal olan bir şeyi seçsələr insanlar həm psixoloji baxımdan rahat olarlar, həm özlərinə etibar edərlər, həm qarşılıqlı sevgi və hörmət yaşayarlar, həm də möhkəm ailələr, möhkəm cəmiyyətlər meydana gələr.

Cəmiyyətlərin korlanmasında fahişəliyin rolu danılmazdır. Çünki fahişəlik, cəmiyyətin ən fundamental dirəyi olan ailə quruluşunu hədəf alır. Nəticədə özlərinə və ətraflarındakı insanlara hörmət qoymayan fərdlərdən ibarət bir cəmiyyət ortaya çıxar. Fahişəliyin yalnız pul qarşılığında edildiyini düşünmək səhvdir. Kiçik ya da böyük, uzunmüddətli və ya qısamüddətli hər hansı bir mənfəət qarşılığında edildiyi təqdirdə də yenə eyni mənaya gəlir. Ümumiyyətlə, insanlar, "pul qarşılığında birlikdə olmadıqlarını" deyərək özlərini rahatlaşdırmağa çalışarlar, amma, əslində bu bir yalandır. Çünki Allahın qoyduğu hüdudlar aşıldıqdan sonra hamısı eyni mənanı verər. Allah Quranda qeyri-qanuni hər cür cinsi əlaqənin haram olduğunu bildirmişdir. Buna görə də fahişəliyi məhdud nümunələr çərçivəsində düşünmək də səhv olar.

Digər cəhətdən, fahişəlik edənlərin çoxu əslində bunun haram olduğunu bildikləri üçün şüur altlarında böyük bir vicdan əzabı və narahatlıq hissi duyarlar. İnkar etsələr də daxildə özlərinə olan etibarlarını itirmələri bunun bir göstəricisidir.

Fahişəliyin cəmiyyətə gətirdiyi zərərlərdən biri də fahişəlik üçün yaradılan məkanlardır. Artan degenerasiyaya düz mütənasib olaraq fahişəlik məkanları da artır, bu da cəmiyyətin əxlaqi çöküşünü sürətləndirir. Uşaq sayılan yaşdakı insanlar bu yerləri doldurur, ailə münasibətləri ziyan görür, buna görə də sədaqətsizlik və vəfasızlıq durmadan artır. Halbuki, Allah insanları təmiz, halal, etibarlı, sədaqətli, sevgi və hörmətin hakim olduğu bir modelə çağırır və bunu nemət olaraq göstərir.

Bununla yanaşı, dünya tarixi boyu xeyli sayda insan dolanışığını fahişəlik etməklə təmin etməyə üstünlük vermiş, beləcə alçaldılmağı seçmişdir. Bu gün də fahişəlik bütün dünyada asan yolla pul qazanma sektoru olaraq göstərilir. Beləcə, pul qazanma və lüks həyat ehtirasıyla çox sayda adam şərəfsizliyi seçir. Allah Quranda insanları bu təhlükəyə qarşı belə xəbərdar edir:

**Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah** *(hər şeyi)* **Əhatə edəndir, Biləndir.** (Bəqərə surəsi, 268)

Halbuki, insan əgər özünə Allahı vəkil edib, mömin namusuyla yaşamağa niyyət edərsə, Allah ona heç ağlına gətirmədiyi yerlərdən ruzi verər, qarşısına bir çox imkan çıxardıb, onu öz rəhmətiylə varlandırar. Çünki, belə şərəfli və saleh bir müsəlman Allahın diləməsiylə həm dünyada, həm də

axirətdə nemətlər içində yaşayacaq. Qaldı ki, Allah imtahan üçün məhdud imkanlar da verə bilər. Belə bir vəziyyətdə adam dünyanın faniliyini buna qarşı axirət yurdunun əbədiliyini düşünüb, səbir etsə Allah Qatında alacağı qarşılıq böyük olacaq.

Lakin təkrar xatırlatmaqda fayda var: Bir insan dünyada mümkün ola biləcək hər cür səhvi edə bilər, Quranda haram buyrulan günahları işləmiş ola bilər, həyatının böyük bir hissəsini fahişəlik edərək qəflət içində keçirmiş də ola bilər, ancaq doğru yola çağırıldığı təqdirdə Allaha qəti bir tövbə edib bağışlanma diləsə, inşaAllah Allahı tövbələri qəbul edən olaraq görəcək. Yalnız bu şeyə də diqqət edilməlidir, Allahdan qəbul etməsi ümid edilən tövbə, ölüm anı gəlib də edəcək başqa bir şey qalmadığı üçün səmimiyyətsizcə edilən tövbə deyil. Çünki Allah bunu Quranda açıq-aşkar bir şəkildə bildirmişdir:




**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq.**

(Nisa surəsi, 17-18)

## Heç Kim Asanlıqla Gəlir Əldə Etmək Yollarına Üstünlük Verməz

Din əxlaqından uzaq insanlar ölümdən sonrakı həyata həqiqi mənada inanmırlar, bundan ötrü də -keçici olan- dünyaya həddindən artıq dəyər verib, eqoist ehtiraslarının arxasınca gedirlər və bu mövzuda heç bir sərhəd tanımırlar. Bu insanların nəfslərinin pis arzuları və istəkləri üçün edə bilməyəcəkləri şey yoxdur. Heysiyyətlərindən, şərəflərindən, namuslarından rahatlıqla güzəştə gedə bilərlər. Əhəmiyyətli olan hər istədiklərinə qovuşa bilmələri, hər şeyi əldə edə bilmələridir. Öz səhv məntiqlərinə görə, sonunda onsuz da torpağa qarışıb yox olacaqlarını düşündükləri üçün bu fani dünyanın haqqını verməlidirlər. Dünyada da hər şeyin açarı pul olaraq görüldüyü üçün tək sahib olunmalı şey puldur. Öz aləmlərində əllərinə pul keçirsələr, istədikləri hər şeyi əldə edəcəklər. Məhz bu məqamda bütün əxlaqi zəiflikləri ortaya çıxar. Asanlıqla pul qazana bilmək üçün hər şeyi edə bilərlər.




Saxtakarlıq, xəyanət, fırıldaqçılıq, oğurluq, əskik ölçmək, əskik çəkmək, yalançı şahidlik etmək kimi hər cür ədəbsizliyin yolu açıqdır. Bu həqiqəti görmək üçün qəzetlərin 3-cü səhifə xəbərlərini xatırlamaq kifayət edəcək. Pul üzündən işlənən cinayətlər, əxlaqsızlıqlar, arvadını, qızını, qonşusunu pul qazanmaq məqsədiylə fahişəliyə təşviq edən insanlar, öz hesabına pul keçirənlər, fırıldaqçılar vərdiş edilmiş xəbərlərdəndir.

Buna qarşı möminlər Allahın, Rəzzaq sifətiylə insanlara ruzi verəcəyini bilirlər. Əlbəttə ki, Allah rizasına uyğun olaraq onlar da işləyərlər, lakin heç bir şəkildə dünyaya ehtirasla bağlanmazlar və qeyri-qanuni yollara yönəlməzlər. Dünyaya bağlanmamalarının qarşılığını da bolluq və bərəkətlə alarlar. Əsl həyatın axirət yurdu olduğunu bildikləri üçün, saleh mömin olduqları təqdirdə cənnətlə mükafatlandırılacaqlarını və sonsuz nemətə qovuşacaqlarını da bilərlər.

## Din Əxlaqı Yaşandıqda Sosial Həyat Necə Olar?

Din əxlaqı özüylə bərabər Allah sevgisini də gətirəcəyi üçün bu, bütün insanlara çox müsbət və gözəl təsir edər. Hər kəs Allahın rizasını qazanmaq üçün gözəl əxlaq göstərər, bir-birini Allah rizası üçün sevər və ehtiram göstərər. Cəmiyyətdə şəfqət, mərhəmət, tolerantlıq hakim olar. İnsanlar Allahın əmrinə müvafiq olaraq xeyirli işlər görməyə tələsərlər.

Digər tərəfdən Allah qorxusu sayəsində hər kəs əxlaqsızlıqlardan və pisliklərdən uzaq durar. Əsrlərdir qarşısı alına bilməyən hər cür mənfi hal bir anda aradan qalxar. Dinin məhəbbəti və ruhu hər yerə hakim olar. Əlbəttə ki, burada nəzərdə tutulan Quranda bildirilən həqiqi dindir və bu din əxlaqının səmimi olaraq yaşanmasıdır.

Bir cəmiyyətin varlığında ailənin rolu çox böyükdür. Din əxlaqının tam mənasıyla yaşandığı bir mühitdə daha əvvəlki mövzularda ifadə edildiyi kimi ailə əlaqələri çox möhkəmlənər, həqiqi sevgi, hörmət yaşanar. Ailə olmazsa, dövlətin də, millətin də mənası qalmaz. Bunlar bir-birləriylə çox əlaqəli anlayışlardır. Ailə dağıldıqda millət anlayışı da yox olar, dövlət də zərər görər. Bu vəziyyət domino daşları kimi beləcə davam edər. Necə ki, din əxlaqının yaşanmadığı cəmiyyətlərdə insanların üsyançı şəxsiyyətlərə büründükdə, anarxist aksiyalar keçirdikləri, dövlətə qarşı cəbhə aldıqları məlum olan bir həqiqətdir. Xüsusilə də milli və mənəvi dəyərlərin qorunması lazım gəldiyi hallarda, Allah qorxusu olmayan insanların biganə davranacaqları qəti bir həqiqətdir. Milli və mənəvi mənfəətlərlə öz mənfəətləri arasında bir müqayisə aparmaları yeri gəldikdə din əxlaqından uzaq insanların asanlıqla öz nəfslərini istəyinə uyğun gələni seçəcəkləri aydın bir həqiqətdir. Bu, yeri gəldikdə vətənə və millətə xidmət etməkdən, onun uğrunda mübarizə aparmaqdan çəkinməyə, hətta separatçı fəaliyyətlər göstərməyə qədər geniş bir çərçivədə düşünülə bilər. Halbuki, din əxlaqını yaşayan insanlar üçün dövlət və millət anlayışları çox böyük dəyərə malikdir. Yeri gəldikdə adam dövləti üçün canını təhlükəyə atar, dövlətinin, millətinin mənfəətlərini şəxsi mənfəətlərindən üstün tutar. Milli və mənəvi dəyərlərini canla başla qoruyar.

Din əxlaqının yaşandığı bir mühitdə şagirdlər də dövlətə, millətə qarşı hörmət və sevgi dolu olarlar. Nəinki, bu müqəddəs təşkilatlara qarşı mübarizə aparmaq, tam əksinə dəstək olub, kömək edərlər. İndiki dövrdə olduğu kimi əsgərə, polisə hücum etməzlər, tam əksinə dövləti qoruyan, müdafiə edən bu səlahiyyətli şəxslərə qarşı olduqca hörmət göstərər və onlara kömək edərlər. Cəmiyyət daxilində dövlətə, orduya və polisə qarşı tam bir etibar və sahiblənmə hissi yaranar. Tələbə hadisələri, qardaş davaları, sağ-sol qarşıdurmaları kimi problemlər aradan qalxar. Çünki heç kimin razılığa gələ bilmədiyi, mübahisə etdiyi, döyüşdüyü bir xüsus qalmaz. Hər kəs Allahın kitabına iman edər, onda bildirilən gözəl əxlaq anlayışını

mənimsəyər, nəticədə də heç kim bir-biriylə anlaşmazlığa düşməz. Problemlərin həllində hər kəs özünü qarşısındakının yerinə qoyar, mərhəmət edər, tolerantlıqla yanaşar. Beləcə hər problem qısa müddətdə gözəlliklə həll olar.

Dövlət belə bir mühitdə çox asan idarə olunar. Ölkə çox etibarlı və çiçəklənən bir hala gələr. Məsul işçilər də insanlara qarşı çox ədalətli, mərhəmətli olarlar, hər cür ədalətsizlik aradan qalxar. Buna görə də özləri də çox hörmət görərlər. Belə dövlətlər də çox güclü və sarsılmaz bir təmələ sahib olarlar.

Din əxlaqı yaşanmadığı təqdirdə isə ata oğula, oğul ataya düşmən olar, qardaş qardaşla mübahisə edər, işçi müdirə, müdir işçiyə düşmən olar. Anarxiya üzündən fabriklər, iş yerləri fəaliyyət göstərməz, ziyan görər. Sosial anarxiya baş verər, kasıb təbəqələr varlılara hücum edər, varlılar da kasıbları əllərindən gəldiyi qədər istismar etməyə çalışar. Müxtəlif peşə qrupları digərlərinə hücum edər. Cəmiyyətdə xaos, anlaşılmazlıq, anarxiya mühiti hakim olar. Bütün bunların səbəbi insanların Allahdan qorxmamalarıdır. Allah qorxusu olmayan insanlar rahatlıqla haqsızlıq, ədalətsizlik edə bilir, cinayət işləyə bilir, bənzəri görülməmiş zülm və qəddarlıqlar etməkdən çəkinmirlər. Üstəlik, vicdan əzabı belə çəkməyən, etdikləri vəhşilikdən peşman olmadıqlarını deyə bilirlər. Halbuki, qarşılığında axirətdə sonsuz cəhənnəm əzabı olduğuna inanan bir adam əsla bu cür hərəkətlər edə bilməz. Quran əxlaqı yaşandığı təqdirdə bu saydığımız mənfi halların heç biri qalmaz. Hər şey sakitliklə, gözəlliklə, ədalətlə həll edilər. Məhkəmə hadisələri olmaz, polis şöbələri, məhkəmə binaları demək olar heç bir iş görməz.

İnsanların rahat və dinc olmasıyla birlikdə cəmiyyətə hər sahədə bərəkət gələr. Elmi fəaliyyətlər artar, yeni ixtiralar olar, texnologiya, mədəniyyət və rifah səviyyəsi çox yüksələr. Çünki insanların ağlının üstündəki təzyiq yox olduqda rahatlayar, azad və rahat düşünmə qabiliyyətləri inkişaf edər. Gözəl əxlaqın yaşanmasıyla birlikdə insanların mallarına, pullarına, gördükləri işlərə, ticarətə, əkinçiliyə, sənayeyə bərəkət gələr. Demək olar ki, hər sahədə inkişaf müşahidə olunar. Bədii fəaliyyətlərdə də böyük addımlar atılar. Gündəlik sıxıntı, problem və narahatlıqlardan təxəyyülləri, düşüncə hüdudları zəifləmiş insanlar, din əxlaqının yaşanmasıyla birlikdə bu çətinliklərdən xilas olarlar. Buna görə də incəsənət qabiliyyətləri inkişaf edər, təxəyyülləri zənginləşər. Allahın Öz ruhundan üfürdüyünün və özünə sonsuza qədər qalması üçün ehtişamla, sənətlə, min bir növ nemətlərlə dolu cənnətini vəd etdiyini dərk edən bir insan çox normal bir haldır ki, sənətdən və estetikadan ən yaxşı dərəcədə zövq ala biləcək bir ruha sahib olacaq. Ruhunda bundan böyük bir zövq alacaq və daha çox zövq almaq üçün səy göstərəcək. Həmçinin ətrafındakı insanlara duyduğu sevgi və hörmət də bu kəslərə gözəlliklər təqdim etmə əzmini artıracaq, bu mövzuda böyük bir şövq verəcək. Buna görə də din əxlaqının həqiqi mənada yaşandığı və Qurana tam

mənasıyla tabe olunduğu bir mühitdə hər cür bədii cərəyan sürətlə inkişaf edər.

Amma din əxlaqını yaşamayan insanların ruhlarını zənginləşdirib, gözəlləşdirmə kimi bir məqsədləri də yoxdur. Ətraflarına gözəllik təqdim etmə mövzusunda isə əsla şövqlənməzlər. Çünki ətraflarındakı insanları mənşəyi meymunlara gedib çıxan və sonunda yox olub gedəcək varlıqlar kimi qiymətləndirərlər. Onların tək məqsədləri eqoist istəklərini, heyvani motivlərini təmin edə bilməkdir. Bunların arxasınca getmək də insanın ruhunu inkişaf etdirməz, tam əksinə korlaşdırar. Bu cür insanların sənətə heç bir töhfə verə bilməyəcəkləri kimi gözəl sənətdən zövq almaları, sənəti təqdir etmələri də qeyri-mümkündür. Sənətdən zövq almayan, estetik anlayışları olmayan insanlardan ibarət olan bir cəmiyyətdə sənətçilər da şövq və əzmlərini itirərlər. Ancaq pul və mənfəət qarşılığında etdikləri üçün də həqiqi mənada bir sənət əsəri ortaya qoya bilməzlər.

Nəticədə, din əxlaqı xalis və səmimi olaraq Quranda təsvir edildiyi şəkildə yaşandığı təqdirdə dünya cənnətə bənzər mühitə çevrilir. İnsanların əsrlərdir həsrətini çəkdikləri, çatmaq üçün cəhd etdikləri, lakin çox uzaq gördükləri ictimai səadət bir anda reallaşar.

## Nəticə: Həll Yolu Quran Əxlaqıdır

Kitabın əvvəlindən bəri, din əxlaqından uzaq yaşayan insanların düşüncə və davranış formaları və bu insanların meydana gətirdiyi ictimai quruluşun əsas xüsusiyyətlərinə müxtəlif cəhətlərdən toxunduq. Quran hər problemə, hər çıxılmaz vəziyyətdə ən mükəmməl və ən ağıllı çıxış yollarını təqdim edir:

Ədalətsizlik, ixtilaf, bərabərsizlik, mübahisə, döyüş, haqsızlıq, israf, təəssüb, zülm, şiddət, iqtisadi əlaqələr, ər-arvad münasibətləri, ticarət əlaqələri, insanlar arası ictimai əlaqələr, qohumlar arası əlaqələr və bunlar kimi saysız-hesabsız ictimai problem və mövzu haqqında Quran əxlaqının yaşanması insanların həyatlarını asan, rahat və xoşbəxt edəcək ən əsas, ən ədalətli, ən mükəmməl və ən əsaslı həlləri gətirər.

Bunlardan başqa Quran hər mövzuda və hər şəraitdə göstərilməsi lazım olan ideal rəftar və əxlaq quruluşunu da insanlara izah edər. Quranda təsvir edilən bu üstün əxlaq modelini yaşayan insanlardan ibarət olan bir cəmiyyət də, əlbəttə ki, əsrlərdir arzu olunan ideal quruluşuna qovuşacaq.

Quranın hər mövzuda insanlara şərh gətirdiyi bir ayədə belə ifadə edilir:

**...** *(Bu Quran)* **uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.** (Yusuf surəsi, 111)

İnsanlar haqq dinin rəhbərliyi olmadan nə şəxsi, nə də ictimai problemlərinə heç vaxt əsaslı və qaneedici həlləri öz başlarına tapa bilməzlər. Necə ki, tarix boyu din əxlaqından uzaq yaşayan cəmiyyətlərin bu vaxta qədər həll edə bilmədən daşıdıqları saysız-hesabsız problem bu həqiqətin aydın bir dəlilidir. İnsanlar din əxlaqından üz çevirdiyi təqdirdə bunun

qarşılığını özünün və içində yaşadığı cəmiyyətin, əsla öhdəsindən gələ bilməyəcəyi çətinlik və problemləriylə ödəmək məcburiyyətində qalacaq. Bu, dinsizliyin dünyadakı qarşılığıdır. Axirətdəki qarşılığı isə daha ağrılı və daimi olacaq.

İnsanı ən yaxşı tanıyan onu yaradan Allahdır. Allah insana hər dövrdə haqq din sayəsində ehtiyacı olan hər cür məlumatı və şərhi də göndərmişdir. Haqq dini tətbiq etdiyi təqdirdə insanın ən gözəl həyat tərzini əldə edəcəyini də bildirmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.** (Nəhl surəsi, 97)

Buna baxmayaraq insan kiçik hesablar, dünyəvi mənfəətlər, eqoist zəifliklərdən ötrü haqq dindən üz çevirdiyi təqdirdə ən böyük zərəri yenə özü görəcək. Çünki insan Qurandan üz çevirsə, özü üçün lazım olan ən həyati məlumatlardan məhrum olar. Halbuki, nə özünün, nə də özü kimi gəlib-getmiş insanların yığdıqları var-dövlət bu dünyada qarşısına çıxacaq tələblərin və problemlərin öhdəsindən gəlməsinə kifayət etməyəcək. Bütün həyatı çətinlik, narahatlıq, stress, şübhə, tərslik və çıxılmaz vəziyyətlərlə keçəcək. O da bir müddət sonra bu vəziyyəti qəbul edəcək, din əxlaqını yaşamamağının cəzası olan əzablarla dolu həyatını, həyatın bir həqiqəti zənn edərək böyük bir aldanış içində yaşayacaqdır.

Həll isə aydındır, hər şeyin Yaradıcısı olan Allaha yönəlmək, Onun bizlər üçün seçib bəyəndiyi dinini yaşayaraq həqiqi xoşbəxtliyə nail olmaqdır. Allah dünyadakı xilas yolunun dinə yönəlmək olduğunu xəbər vermiş və səmimi qullarına din əxlaqını yaşadıqları təqdirdə dünyada qorxuyla qarşılaşmayacaqlarıyla əlaqədar böyük bir müjdə vermişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir.** (Nur surəsi, 55)

Pislik, haqsızlıq, kədər, pessimizm, çətinlik, təklik, qorxu, stress, etibarsızlıq, vicdansızlıq, narahatlıq, qəzəb, qısqanclıq, kin, narkotik asılılığı, əxlaqsızlıq, qumar, fahişəlik, aclıq, kasıblıq, korrupsiya, oğurluq, döyüş, düşmənçilik, cinayət, müharibə, qarşıdurma, zülm…

Bütün bunlar demək olar ki, hər gün qəzet və televiziya verilişlərində gördüyünüz, gündəlik həyatda qarşılaşdığınız hətta şəxsən yaşadığınız problemlərdəndir.

İnsanların və cəmiyyətlərin xilas olmağa çalışdığı, hər sahədə mübarizə apardıqları bu cür mənfi hallar, qarşıdurmalar və gizli ictimai strukturlar, dünyada əsrlərdən bəri hakimdir.

Bəs insanlar bu mənfi hallarla indiyə qədər mübarizə aparmışdırlarmı ya

da aparmaq üçün bir səy göstərmişdirlərmi? Əlbəttə ki, dünyanın demək olar ki, hər dövründə insanlar bu qeyd olunan mənfi hallarla üz-üzə gəlmiş, bunlarla mübarizə aparmışlar, ancaq çarəni həmişə səhv üsullarda axtardıqları üçün heç cür həll tapa bilməmişlər.

Şübhəsiz ki, bu mənfi halların tək həll yolu "həqiqi din əxlaqı"nın yaşanmasıdır. Din əxlaqı yaşanmadığı müddətcə insanlar bu mənfi hallara məhkumdur.

Hal-hazırda şərqdən tutmuş qərbə qədər bütün dünyanı radikalizm bəlası bürüyüb. Bu problemin ilk əlamətləri görünəndə bir çox qərb ölkəsi elə zənn etmişdi ki, bunun öhdəsindən asanlıqla gələcək. Amma elə olmadı. Çünki radikal İslam saxta hədislərdən qaynaqlanan inanc formasıdır. İslam ölkələrinin və İslam alimlərinin böyük hissəsi (vəhşiliyi və savaşı qınasalar da) bu saxta hədislərin doğruluğuna inanırlar. Odur ki, həmin ölkə və alimlər çətin ki, radikal İslam problemini həll etsinlər.

Radikalizmi həll etmək üçün istifadə olunan hərbi müdaxilə metodu isə indiyə qədər dəfələrlə sınanmışdır. Hər dəfəsində müvəffəqiyyətsiz olmaqla yanaşı, minlərlə günahsız insanın qətlə yetirilməsinə, minlərlə insanın evsiz-eşiksiz qalmasına gətirib çıxarmışdır. Eyni zamanda ölkələrin sabitliyi daha da pozulmuşdur. Radikalların xüsusiyyəti silahdan yaxşı istifadə etmək bacarığına malik olmaları deyil, yanlış ideologiyaya sahib olmalarıdır. Onların yanlış ideologiyası ilə heç maraqlanmayıb yalnız öldürməklə həll yolu axtarmaq dünyanı daha böyük fəlakətə sürükləyəcək və radikallara daha çox güc qazandırmaqdan başqa heç bir işə yaramayacaq. Necə ki, indiyə qədər belə olmuşdur.

Haradasa bütün İslam dünyasını əhatə edən bu dəhşətli və təhlükəli inanc sistemini ortadan qaldırmağın tək yolu gerçək İslamdır. Başqa heç bir əqidə, heç bir silah və təhdid yolu bu problemi həll edə bilməz. Bu problemə gerçək İslamdan başqa heç bir həll yolu yoxdur.

Həqiqətən, radikalizmə çarə tapmaq istəyənlər İslamı günahlandıran hərəkətlərdən və heç cür bitməyən şübhələrdən uzaq durmaqla ilk addımı atmalıdırlar. Quranla danışan insanları dinləməlidirlər. Bu insanlarla ittifaq qurub dünyaya həqiqətin anladılması üçün səfərbər olmalıdırlar. "Gücümüz çatmaz", – deyərək ümidsiz davranmamalı, radikal topluluqların yalnız sosial mediadan istifadə edib yanlış fikirlərini dünyanın dörd tərəfinə yaymaqla tərəfdar topladıqlarını unutmamalıdırlar. Gerçək bilginin daha sürətli yayılma sahəsini və



daha güclü ideoloji yayılma strategiyasını vaxt itirmədən müəyyən etməlidirlər. Təkrar xatırladaq: bunu ancaq xurafatdan təmizlənmiş həqiqi İslama tabe olan Quran müsəlmanları ilə birgə edə bilərlər.

Əhəmiyyətli həqiqəti təkrar qeyd edək ki, müdafiə etdiyimiz İslam zamanla modernləşdirilmiş və ya mülayimləşdirilmiş İslam deyil (İslam dinini tənzih edirik). Müdafiə etdiyimiz İslam Qurandakı yeganə doğru İslamdır. Dünyanın sülh və əmin-amanlığa çatmağı üçün İslam coğrafiyasının böyük qisminin unutduğu gerçək İslamı yenidən bərqərar etmək məcburiyyətindəyik. Şiddətə şiddətlə qarşılıq verənlər və ya radikalların törətdikləri üzündən İslamsız bir dünya xəyalını quranlar daima radikalları daha çox bəsləyəcək və daha böyük fəlakətlərlə üz-üzə gələcəklər. Bu adamlar anlamalıdır ki, dünya qətiyyən İslamsız ola bilməz. Dünyaya  həsrətlə gözlənilən sevgi və sülhün gəlməsi ancaq və ancaq İslam vasitəsilə olacaq. Bunun üçün əlimizdə İslamın heç bir dəyişikliyə məruz qalmayan haqq kitabı– Quran vardır. Görüləsi bircə iş qalır: Quranla təlim-tərbiyə vermək.

# İÇİNDƏKİLƏR

GİRİŞ — 1
QARA KLANIN HƏYAT SAHƏSİ — 4
QARA KLANIN ƏXLAQSIZ DÜNYASI — 5
KLANIN İÇİNDƏN "BİZNESMENƏ NƏSİHƏTLƏR" — 11
QARA KLANIN SOSİAL DARVİNİST DÜNYASI — 14
SOSİAL DARVİNİZMİN GENETİK CİNAYƏT ANLAYIŞI — 17
KÖRPƏ CİNAYƏTLƏRİ — 19
OĞURLUQ, TƏCAVÜZ VƏ HOMOSEKSUALİZM — 22
QARA KLANIN DARVİNİZMƏ OLAN LABÜD EHTİYACI — 25
QARA KLANIN QURULUŞU — 26
KLANIN İÇİNDƏKİ ÇİRKLİ HƏMRƏYLİK — 28
KLAN ÜZVLƏRİNİN İÇİNDƏ YAŞADIQLARI DAİMİ QORXU — 31
QARA KLANIN LİDERLƏRİ VƏ ONLARA TABE OLANLAR — 34
QARA KLANIN MİLLİ DƏYƏRLƏRƏ OLAN DÜŞMƏNLİYİ — 37
QARA KLANIN MÜBARİZƏ ÜSULLARI — 41
KLANIN ƏHƏMİYYƏTLİ TAKTİKASI: SUİ-QƏSD — 43
BİR KLAN NÜMUNƏSİ: SƏMUD QÖVMÜNÜN DOQQUZ NƏFƏR QULDUR DƏSTƏSİ — 46
KLANIN MÜDAFİƏ MEXANİZMLƏRİ: YALAN VƏ BÖHTAN — 47
QARA KLANIN HAY-KÜYÇÜLÜYÜ — 52
QARA KLANIN SONU VƏ YER ÜZÜNÜN İŞIQLI GƏLƏCƏYİ — 53
ƏXLAQİ POZULMA DARVİNİST DÜNYABAXIŞININ BİR NƏTİCƏSİDİR — 56
DARVİNİZMİN MƏNFİ TƏSİRİ DAVAM EDİR — 67
DARVİNİZM İNSANLARI ALDATMAĞA DAVAM EDİR — 71
DARVİNİZMLƏ ELMİ MÜBARİZƏ APARILMASI BÜTÜN MÜSƏLMANLARIN MƏSULİYYƏTİDİR — 74
ELMİ DƏLİLLƏR AÇIQ-AYDIN ŞƏKİLDƏ TƏQDİM EDİLMƏLİDİR — 76
ŞEYTAN MÜSƏLMANLARI, DARVİNİZMƏ QARŞI APARILAN MÜBARİZƏDƏN AYIRMAQ İSTƏYƏR — 78
DARVİNİZMLƏ FİKRİ MÜBARİZƏ APARMAQ BİRLİK OLMAĞI TƏLƏB EDİR — 79
SOSİAL DARVİNİZM — 80
DARVİN DƏ SOSİAL DARVİNİST İDİ — 85
TƏBİƏT QANUNLARININ İNSANLARA TƏTBİQİ YANLIŞLIĞI — 87
MALTUSDAN DARVİNƏ MƏRHƏMƏTSİZLİYİN TARİXİ — 90
KEÇİLƏRİN VƏ İTLƏRİN HEKAYƏSİNDƏN DARVİNİZMƏ — 93
MALTUSUN İDDİALARI ELMİ MƏLUMATLARA ƏSASLANMIR — 94
"HƏYAT MÜBARİZƏDİR" İDDİASI DOĞRU DEYİL — 95
MALTUSÇU DARVİN — 96
MALTUSDAN AMANSIZ DÜNYAGÖRÜŞÜNƏ — 98

# CƏMİYYƏTİ AĞUŞUNA ALAN BƏLALAR VƏ PROBLEMLƏR

DARVİNİN TƏQİBÇİSİ "OĞRU BARONLAR" 99
DARVİNİZMİN İŞ DÜNYASINDAKI TƏXRİBATI 103
SOSİAL DARVİNİZMİN VƏ DİNSİZLİYİN ORTAQ MƏHSULU: VƏHŞİ KAPİTALİST QURULUŞ 106
SOSİAL DARVİNİZM VƏ ƏLVERİŞLİ FƏRDLƏR YALANI 110
DARVİN DƏ İRQÇİ İDİ 114
GENETİK BAXIMDAN İNSANLAR ARASINDA İRQ AYRI-SEÇKİLİYİ YOXDUR 117
İrqçi hərəkətlərdən nümunələr - Nigeriyalı kiçik qız 120
Darvinin qəbir oğruları 121
Rekapitulyasiya nəzəriyyəsi və İrqçilik 124
YENİ İMPERİALİZM VƏ SOSİAL DARVİNİZM 125
SOSİAL DARVİNİZM VƏ İRQLƏRARASI QARŞIDURMA 127
MÜSTƏMLƏKƏLƏRDƏKİ AMANSIZ TƏTBİQLƏR 130
SOSİAL DARVİNİZM VƏ MÜHARİBƏ 134
ALLAH QATINDA ÜSTÜNLÜK İRQƏ GÖRƏ DEYİL, TƏQVAYA GÖRƏDİR 139
DARVİN-NASİZM KOALİSİYASININ NƏTİCƏSİ: 40 MİLYON ÖLÜ 140
NASİST ALMANİYASINDA TƏKAMÜL VƏ MÜHARİBƏ 146
HİTLER SOSİAL DARVİNİST OLDUĞU ÜÇÜN ZALIM İDİ 149
Məşhur faşizm koalisiyası: Darvin-Hekkel-Hitler 149
SOSİAL DARVİNİSTLƏRİN SONSUZLAŞDIRMA VƏ ÖLDÜRMƏ QANUNLARI 153
DARVİNDƏN ƏMİOĞLUSU QALTONA QALAN MİRAS: YEVGENİ 155
İNGİLTƏRƏDƏ YEVGEVİ 156
ABŞ-DA YEVGENİ 158
NASİST ALMANİYASINDA YEVGENİ 161
Almaniyada yevgeni hərəkatının böyüməsi 162
Nuremberq qanunları 164
Üstün irqi təyin etmə proqramları 165
T4 evtanaziya proqramı: elmi cinayətlər 166
Hitlerin cinayətlərə icazə verən gizli əmri 170
T4 evtanazi proqramı necə tətbiq olundu? 171
Xüsusi hərəkat 14f13 174
QADINLARI AŞAĞI GÖRƏN NƏZƏRİYYƏ 175
KƏLLƏ ÖLÇÜLƏRİNƏ ƏSASLANAN CİNSİ AYRI-SEÇKİLİK 178
ELM DARVİNİ BİR DAHA YENƏ YALANLAYIR 180
QURAN ƏXLAQINA GÖRƏ QADINLA KİŞİ BƏRABƏRDİR, ÜSTÜNLÜK ƏXLAQA GÖRƏDİR 181
DARVİNİZM VƏ ƏXLAQİ POZUNTU 182
DARVİNİZM ATEİZMƏ ƏSAS TƏŞKİL EDİR 183
DARVİNİZM İNSANIN BAŞIBOŞ VƏ MƏQSƏDSİZ OLDUĞU YALANINI ÖNƏ SÜRÜR 185
SOSİAL DARVİNİZMİN "İNSAN HEYVANDIR" YALANI 187

"HƏYAT MÜBARİZƏSİ" YALANININ GƏTİRDİYİ PİS ƏXLAQ 192
SOSİAL DARVİNİZM İNSAN HƏYATINA DƏYƏR VERMƏZ 193
"TƏBİİ SELEKSİYA TƏTBİQ EDİRİK" DEMƏKLƏ TÖRƏDİLƏN QIRĞIN 195
TƏKAMÜLİ PSİXOLOGİYA YANILMASI 197
DOKİNZ VƏ EQOİST GENLƏRİ DAŞIYAN ROBOTLAR 199
TƏKAMÜLÜN BAŞQA BİR ÇƏTİNLİYİ: FƏDAKAR GENLƏR 202
Təkamüli psixologiyanın müdafiə etdiyi vəhşilik: körpə cinayətləri 204
GENETİK DETERMİNİZMİN SONU 205
İSLAM ÜMMƏTİNİN VƏZİYYƏTİ 209
Bosniya 209
Myanma 209
Çeçenistan 211
Fələstin 212
Kəşmir 213
Elmsizləşdirmə siyasəti 214
Sintzyan-uyğur muxtar vilayəti 214
Elmsizləşdirmə siyasəti 215
Əlcəzair 216
Elmsizləşdirmə siyasəti 216
Müstəqillik dövrü və Fransa zülmünün davamı 217
Tunis 217
Elmsizləşdirmə siyasəti 218
Zeynəlabidin bin Əli dövrü 218
Efiopiya və Eritreya 218
Efiopiyanın bu cinayətlərdəki muttəfiqi 219
Elmsizləşdirmə siyasəti 220
Çad 221
Elmsizləşdirmə siyasəti 221
Müstəqillik və əsarətin davamı 222
Vətəndaş müharibəsi 222
Somali 222
Cibuti 223
Sudan 224
Əfqanıstan 225
İraq 227
Azərbaycan 230
Qarabağın qaranlığı 233
ƏRZAQ TERRORU 234

GMO təhlükəsi 235
GMO nədir və nə məqsədlə yaradılmışdır? 235
İnsan orqanizminə ziyanı 236
Təbiətə ziyanı 237
Siyasi və iqtisadi asılılıq 237
Çıxış yolu 239
MƏZHƏB PARÇALANMALARI 240
Siyasi qüvvələrin səbəb olduğu parçalanmalar 240
Siyasətin məzhəbləri bütləşdirməsi 242
Xarici siyasat 245
Birinci məqam 245
İkinci məqam 246
Din xadimlərinin yaratdığı parçalanmalar 247
Din alimlərinin silahı 247
Qəlblərdəki gizli silah 247
Bütləşmiş ideallar 247
"Bütləşmiş din xadimi" obrazından sui-istifadə 248
Quranda çirkin din xadimləri 249
Müsəlman aləmində alim anlayışı 250
Seytani ruhanilərin islama təsiri 250
Alimlər niyə belə edir? 251
Elmə olan münasibət 253
Elmə olan münasibətin dəyişilməsi 253
Müsəlman elminin ikiyə parçalanması 255
Elmin ikiləşdirilməsi Kilsədən gəlir 255
İslamda "inkvizisiya" 256
XƏBƏRDARLIQ 259
Şiə müsəlmanları və elmi blokada 260
Əhli-sünnə müsəlmanları və elmi blokada 262
Çıxış yolu 263
YANLIŞ BİLİNƏN İSLAM 264
İSLAMI VƏHŞİLİK DİNİ KİMİ GÖSTƏRƏNLƏRİN YANLIŞ İSTİFADƏ ETDİKLƏRİ İKİ ƏSAS ANLAYIŞ: ŞƏRİƏT VƏ CİHAD 265
QURANDAKI GERÇƏK ŞƏRİƏT 267
Gerçək Quran Şəriəti Bir Ölkəyə Nə Verir? 269
QURANDAKI GERÇƏK CİHAD 271
İSLAMDA MÜHARİBƏ MÖVZUSUNDA YANLIŞ BİLİNƏNLƏR 271
Hər Bir Müsəlman Qurandakı Bütün Ayələrə Ayırd Etmədən İnanmalıdır 271

Quran Qorunan Kitabdır — 272
MƏKKƏ DÖVRÜ MÜSƏLMANLARI VƏ MƏDİNƏ DÖVRÜ MÜSƏLMANLARI AYRI-SEÇKİLİYİNİN YANLIŞLIĞI — 273
Məkkə Dövründə Müsəlmanların Çətin İmtahanı — 274
Mədinə Dövrü və Müharibələr — 276
Müharibələr Kimlərə Qarşı Aparılıb? — 278
Quranda Müharibənin Tərifi — 278
MÜŞRİKLƏRLƏ BAĞLANAN MÜQAVİLƏ — 280
Tarixin İlk Hərtərəfli və Ən Demokratik Qanunu: Mədinə Müqaviləsi — 281
MÜHARİBƏ İLƏ ƏLAQƏDAR AYƏLƏR VƏ AÇIQLAMALARI — 284
İSLAMDA MÜHARİBƏ ÜÇÜN ƏSAS YOXDUR — 292
Müharibə İslamı Zorla Qəbul Etdirmək Üçündür? — 292
Müharibə İdeoloji və ya Etnik Üstünlük Üçündür? — 293
Müharibə Müsəlman Liderin Gətirəcəyi İslam Qanunlarını Yaymaq Üçündür? — 293
Müharibə Düşmənlərin Aradan Götürülməsi Üçündür? — 294
MÜHARİBƏNİ İSTƏYƏN KİMLƏRDİR? — 295
XURAFATÇILARIN SAXTA DİNİ — 296
XURAFATÇILARIN DİNİNƏ İSTİQAMƏT VERƏN MƏVZU (SAXTA) HƏDİSLƏR — 297
SAXTA HƏDİSLƏR ORTAYA NECƏ ÇIXIB? — 298
QURANDAN XARİC HÖKM AXTARANLAR DİNİN HƏQİQƏTİNƏ YÖNƏLMƏLİDİRLƏR — 300
İSLAM ALƏMİNİN QURANI TƏRK ETMƏSİ — 302
QURAN ƏSAS YOL GÖSTƏRİCİMİZDİR VƏ DAİM ƏLİMİZİN ALTINDA OLMALIDIR — 302
BÖYÜK BİR PROBLEM: HƏDİSLƏRİN AYƏLƏRİ NƏSH ETMƏSİ İFTİRASI — 304
XURAFATÇI DÜŞÜNCƏNİN HƏDLƏRİNİ YAXŞI ANLAMAQ — 306
İÇKİ İÇƏNLƏRİN ÖLDÜRÜLMƏSİ — 306
TARAŞ OLANLARIN ÖLDÜRÜLMƏSİ — 311
ZİNA EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ — 311
QURANA ƏSASƏN, ZİNANIN HÖKMÜ — 315
OĞURLUQ EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ — 325
DİNDƏN DÖNƏNLƏRİN ÖLDÜRÜLMƏSİ — 327
NAMAZI TƏRK EDƏNLƏRİN ÖLDÜRÜLMƏSİ — 333
NAMAZI TƏRK EDƏN UŞAQLARIN DÖYÜLMƏSİ — 336
ZƏKAT VERMƏYƏNİN ÖLDÜRÜLMƏSİ — 336
ORUCU TƏRK EDƏNİN HƏBS RDİLMƏSİ VƏ YA AC SAXLANILMASI — 337
SƏRXOŞUN ÖLDÜRÜLMƏSİ — 339
PEYĞƏMBƏRƏ HÖRMƏTƏ UĞUN OLMAYAN SÖZ DEYƏNLƏRİN TÖVBƏYƏ ÇAĞIRILMADAM ÖLDÜRÜLMƏSİ — 339
XURAFATÇILARIN DİNİNDƏ “LƏNƏTLİ HEYVANLAR” UYDURMASI — 341

PEYĞƏMBƏRİMİZİN HEYVAN SEVGİSİ 345
Peyğəmbərimiz Heyvanlara Zülm Edən Çirkin Adətləri Ortadan Qaldırmışdı 345
Peyğəmbərimiz Heyvanların Çox İşlədilməsini Qadağan Edib 345
İşlədilən Heyvanların Dincəlmək Haqqı 345
Peyğəmbərimiz Heyvanlara Əziyyət və ya İşgəncə Verməyi Qadağan Edib 345
Peyğəmbərimizin Ana İtə və Balalarına Şəfqəti 346
Peyğəmbərimizin Heyvan Sevgisini Göstərən İfadəsi: "Bütün İtlərin Canı Möhtərəmdir" 346
Peyğəmbərimizin Müəzza Adlı Pişiyi 346
Peyğəmbərimizin Ana Quş və Balalarına Şəfqəti 346
Keçi Balası 346
Ac Saxlanılan Dəvə və Sahibi 346
Yatmış Ceyran 347
Üzü Dağlanmış Ulaq 347
Heyvanlara Yaxşılıq Etmək 347
XURAFATIN İYRƏNCLİYİ 348
XURAFATIN KEYFİYYƏTSİZ MÜSƏLMANLIQ ANLAYIŞI 352
XURAFATÇILARIN QADIN NİFRƏTİ 354
QADINLAR BU DÜNANIN ƏN GÖZƏL NEMƏTLƏRİNDƏN BİRİDİR 354
QURANDA QADIN 355
XURAFATÇILARIN QADINLARA QARŞI İFTİRALARI 356
Qadının Ağlının və Dininin Qüsurlu Olduğu İddiası 356
Qadının Əyri Olduğu İddiası 358
QADINLARI ALÇALTMAQ ÜÇÜN UYDURULAN HƏDİS VƏ BAŞQA İDDİALAR 359
Qadınların Dini Yaşamağa Əngəl Olduğu İddiası 360
Qadınların Ağlına Güvənməmək İddiası 361
Qadınların İkinci Dərəcəli Olduqları və Allahın Onları Geridə Qoyduğu İftirası 364
Qadınların Bəzənməyini Qadağan Edən İddialar 366
Xurafatçılara Görə, Müsəlman Qadınların Ərlərinə Olan Münasibətləri 368
Quranda Qadına Verilən Haqq və Üstünlüklər Xurafat Dinində Yoxdur 371
Ərindən Boşanan Qadının Vəziyyəti 371
Qadının Əri Ondan Razı Olana Qədər Günahkar Sayılması 372
Qadınların Çölə Çıxmamaları və Şeytanın Oyununa Açıq Olduqları İddiası 373
Qadının Guya Namazı Pozacağı və Uğursuz Olduğu İddiası 376
Qadınları Heyvanlara Bənzədən Xurafatçı Zehniyyətdən Nümunələr 377
PEYĞƏMBƏRİN XANIMLARINA DAİR ENDİRİLƏN AYƏLƏR 378
NƏTİCƏ: QADINA ƏN ÇOX DƏYƏR QURANDA VERİLİR 379
QADINLARI SIXIŞDIRMAQ VƏ ALÇALTMAQ ÜÇÜN QURANDAN DƏLİL GƏTİRMƏYƏ ÇALIŞANLARA CAVABLAR 380

Qadını Sıxışdırmaq Üsulu Olaraq Quran Tərcümələrinə "Baş Örtüyü" Kəlməsinin Əlavə Edilməsi — 380
"Nur" Surəsinin 31-ci Ayəsinin Açıqlaması – I Hissə — 380
"Xumur" / "Örtmək" Kəlməsinin Açıqlaması — 381
"Yəzribnə" / "Vurmaq" Felinin Açıqlaması — 381
"Cuyub" / "Sinə" Kəlməsinin Açıqlaması — 382
Saxta Hədislərdən Qaynaqlanan Xətalı Tərcümələr — 382
Yanlış Təfsir: "Baş Örtüklərini Çəksinlər" — 383
AYƏLƏRİN ƏRƏBCƏDƏKİ MƏNALARI VƏ TƏFSİRLƏRİN DOĞRULUĞU İLƏ BAĞLI BİLİNMƏSİ VACİB OLAN MƏLUMATLAR — 385
"NUR" SURƏSİNİN 31-Cİ AYƏSİNİN AÇIQLAMASI – II HİSSƏ — 386
Qadınların Zinəti Mövzusundakı İzahlar — 386
Qadınların Fitnə Vəsiləsi Olduğu İddiası — 386
Zinət Əşyaları və Muncuqları Haram Etmə Yanılması — 388
Zinət kəlməsi Quranda necə işlənir? — 388
"Nur" Surəsinin 31-ci Ayəsində Müəyyən Edilən Bəzək Yerləri — 389
BAŞ ÖRTÜYÜ MÖVZUSUNDA İSTİFADƏ EDİLƏN SAXTA HƏDİSLƏR VƏ DAŞIDIQLARI ZİDDİYYƏTLƏR — 390
Quranda Haramlardan Üstü Örtülü Bəhs Edilmir — 392
Yalnız Qadını və Qadın Bədənini Örtmək Məqsədi — 393
Quranda Baş Örtüyü Deyil, Cilbab Təsvir Edilir — 394
"Əhzab" Surəsinin 59-cu Ayəsinin Açıqlaması — 394
Baş Örtüyünü Müdafiə Etmək, Lakin Cilbabdan (Çarşabdan) Heç Bəhs Etməmək — 395
Müsəlman Qadın Qurana Görə Necə Geyinməli Olduğunu Bilir — 396
2 QADIN = 1 KİŞİ YALANI — 397
QADIN VƏ MÜVƏQQƏTİ BORCDA ŞAHİDLİK — 398
QADINLARIN MİRAS HAQQI — 401
QADININ BOŞANMA HÜQUQU — 403
BOŞANMA VƏ BOŞANMADAN SONRA QADININ QORUNMASI — 404
Boşanarkən Qadınların Könlünü Almaq və Onları Razı Salmaq — 404
Boşanandan Sonra Qadınlara Maddi Yöndən Dəstək Olmaq — 404
Qadınlara Verilən Malın Boşanandan Sonra Geri Alınmaması — 405
Boşanandan Sonra Qadınlara Sığınacaq Vermək — 406
Qadınlara Zorla Varis Olmamaq — 406
Anaya Verilən Dəyər — 407
KİŞİNİN ÜSTÜN OLMASI YALANI VƏ QADIN DÖYMƏK XURAFATI — 408
Kişilərin Üstünlüyü İddiası: — 408
"Qadınları Döyün" İddiası — 409

QADINLAR HAQQINDA BAŞQA YANLIŞ MƏLUMATLAR 413
PEYĞƏMBƏRİMİZİN QADINLAR HAQQINDAKI XOŞ SÖZLƏRİ 413
XURAFATÇILARIN SƏNƏTDƏN NİFRƏT ETMƏSİ 414
ZARAFATDAN, MƏZHƏKƏ VƏ GÜLMƏKDƏN ÇƏKİNMƏYİN LAZIM OLDUĞU İDDİASI 414
Qurana Görə, Hüzn və Bədbəxtlik Yalnız İnkarçıların Xüsusiyyətidir 416
Cənnətdə Sevinc və Hüznün Həqiqi Mənası 416
"MƏZHƏKƏDƏN ÇƏKİNİN" İDDİASI 417
MUSİQİ VƏ ŞEİRİN HARAM OLDUĞU İDDİASI 418
Zarafatdan, Məzhəkə və Gülməkdən Çəkinməyin Lazım Olduğu İddiası 419
Musiqini Qadağan Etməyə Çalışan Xurafatçıların Qeyri-Səmimiliyi 420
Allah Musiqini Sevər, Bunu Qullarına da Sevdirmişdir 421
RƏSM VƏ HEYKƏLTƏRAŞLIĞIN HARAM OLDUĞU İDDİASI 423
QIZIL VƏ İPƏYİN QADAĞAN OLDUĞU İDDİASI 426
MAKİYAJIN, BAXIMLILIĞIN, TƏMİZLİYİN VƏ GÖZƏLLƏŞMƏYİN HARAM OLDUĞU İDDİASI 428
Gözəl Qoxunu Qadağan Edən Saxta Hədislər 428
Tatunu, Üz Tüklərinin Təmizlənməsini və Estetik Diş Düzəltdirməyi Qadağan Edən Saxta Hədislər 428
Parik, Qaş Almaq və Tatunu Qadağan Edən Saxta Hədislər 428
Qadının Gözəl Geyinib Evdən Çıxmağını Qadağan Edən Saxta Hədislər 428
Qadının Qızıl və Geyimlərlə Məşğul Olub Cənnəti İtirdiyini İddia Edən Saxta Hədislər 429
Qadına Geyimin Verilməməli Olduğunu İddia Edən Saxta Hədislər 429
Xurafatçılığın Ruhu Bu Dünyaya Hakim Olsa İdi... 432
Makiyaj, Baxımlılıq, Təmizlik, Gözəl Geyim, Müasirlik və Mədəniyyət, Qısası Keyfiyyət İslamın Vacib Yönləridir 432
Qadın Gözəl Varlıqdır, Əlbəttə, Baxımlı Olmalıdır 434
Marka və Qəşəng Geyimlərə, Gözəl Avtomobil və Evlərə Sahib Olmaq Müsəlmanların Haqqıdır 435
XURAFATÇILARIN DİNİNDƏ MUSƏVİLƏR VƏ XRİSTİANLAR 438
MUSƏVİ ƏLEYHDARLIĞINA QURANDAN DƏLİL GƏTİRMƏYƏ ÇALIŞANLARA QURANDAN CAVABLAR 439
MEYMUN VƏ DONUZ BƏNZƏTMƏSİ VƏ QURANDA KİTAB ƏHLİNİN GERÇƏK HÖKMÜ 439
"Maidə" surəsinin 60-cı ayəsinin açıqlaması 439
Tərifənən Musəvilər 440
"Əraf" Surəsinin 166-cı Ayəsinin Şərhi 441
"Bəqərə" Surəsinin 65-ci Ayəsinin Şərhi 443
"LƏNƏTLİ MUSƏVİLƏR" İFADƏSİNİN YANLIŞLIĞI 443
"Bəqərə" Surəsinin 88-ci Ayəsinin Açıqlaması 444

Nisa Surəsinin 155-ci Ayəsinin Açıqlaması 444
MUSƏVİ VƏ XRİSTİANLARLA DOST OLMAMAQ YANLIŞLIĞI 446
CİZYƏ VƏ MÜHARİBƏYƏ DAİR YANLIŞ BİLİNƏNLƏR 446
YANLIŞ BİLİNƏN BAŞQA BİR ANLAYIŞ: TƏQİYYƏ 448
XRİSTİAN VƏ MUSƏVİLƏRLƏ BAĞLI SAXTA HƏDİSLƏR VƏ QURANA GÖRƏ AÇIQLAMALARI 450
Yetkinlik Çağına Çatan Musəvilərin Öldürülməsi İddiası 450
Müsəlmanların Günahlarının Musəvilərə Yüklənməsi İddiası 450
Yeməklərin Musəvilərin Üzündən Xarab Olduğu İddiası 451
"Ərəb Torpaqlarında İki Din Qalmasın" İddiası 452
Həqarət Olaraq "Ey Yəhudi", Savab Olaraq "Yəhudiyə Lənət" 453
"Yolun Dar Hissəsinə Sıxışdırın" 453
Yəhudi Ağacı Qarqad 453
Quranda Kitab Əhlinə Verilən Dəyər 454
Müsəlmanların Kitab Əhlini Dəvət Etməsi 457
Müsəlmanların Kitab Əhlinə Ədalətli Davranışı 458
Peyğəmbərimizin Kitab Əhli İlə Əlaqələri 458
Quranda İncil və Tövrat 460
Peyğəmbərimizin Tövrat və İncilə Münasibəti 463
Qurana Görə, Musəvilərin Müqəddəs Torpaqlarda Yaşamaq Hüququ 464
MÖVLƏVİLİK TƏHLÜKƏSİ 465
MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA ALLAHA, İSLAMA VƏ QURANA HÖRMƏTSİZLİK EDİLƏN QİSİMLƏRDƏN NÜMUNƏLƏR 469
1. "İnşaAllah" Sözünə Qarşı Uyğun Olmayan Üslub, Mövlananın (Haşa) Allah Kimi Göstərilməsi 469
"İnşaAllah" Demək Allahın Əmridir 469
Peyğəmbərimiz "İnşaAllah" Deməyin İmanın Kamilliyindən Qaynaqlandığını Bildirmişdir 470
2. Allah Quranda Haram Etdiyi Halda, Şərab İçməyin Halal Olduğunun Deyilməsi 470
Allah Şərabı Bütün İnsanlara Haram Edib 470
3. Özünü Nə Müsəlman, Nə Də Kafir Kimi Tanıdır 471
Allah Kafirləri Sevməz 471
Allah Kafir Olaraq Ölənləri Lənətləmişdir, Kafirlər Cəhənnəm Əhlidir 471
Kafirlər və Müsəlmanlar İç-İçə Deyillər, Müsəlmanların Həqiqi Dostları Möminlərdir 472
Müsəlmanların Vəzifəsi Küfrə Qarşı Fikri Mübarizə Aparmaqdır 473
4. "Məsnəvi" Əsərinin (Haşa) Allah Qatından Gəldiyinin və Qurana Bərabər Olduğunun İddia Edilməsi 473
Allahın Fiqhi və Kitabı Qurandır 473
Doğruya Çatdıran və Şəfa Olan Qurandır 473
Quran Allahın Qoruması Altındadır 474

Quran Tərtəmiz Yazıçılar Tərəfindən Yazılmışdır — 474

“Təmiz Olanların Kitaba Toxunması” Quranla Əlaqədar Hökmdür — 474

5. Vasitə İlə Verilən Elmin Dəyərli Olmadığını İddia Edir (Peyğəmbərimizə Cəbrayıl Vasitəsi İlə Elmin Gəlməsini Nəzərdə Tutur) — 474

Quran Allahın Sözüdür, Peyğəmbərimizə Vəhy Çatdırmaq Üçün Cəbrayıla Vəzifə Verən Allahdır — 475

Cəbrayıl Allah Qatında Şərəfli və Hörmətlidir — 475

Cəbrayılın Dəstəyi Möminlər Üçün Nemətdir — 475

Küfr Müsəlman Üçün Qətiyyən Şəriətə Çevrilməz, Küfr Edənlər Sonsuza Qədər Cəhənnəm Əhli Olacaqlar — 476

Allah Kafirləri Sevməz, Küfr Lənətlənmişdir — 476

Müsəlman Kafirlərə İtaət Etməz — 476

Küfr Edənlər Daima Ziyan İçindədirlər — 477

Küfrün Vəlisi və Dostu Olmaz — 477

7. Peyğəmbərimizin Qurana Zidd Yaşadığını, Qədəri Unutduğunu, Dünyəvi Mənfəət Güddüyünü, Allahın Yaratdığı Hadisələrdən Razı Olmadığını və Özünü Öldürərək Cinayət Törətmək İstədiyini İddia Edir — 477

Peyğəmbərimiz Gözəl Əxlaqı ilə Aləmlərdən Üstündür, Allahın Örnək Olaraq Göndərdiyi Mübarək Şəxsdir — 477

Peyğəmbərimiz Vəhylə Hərəkət Etmişdir — 478

Peyğəmbərimiz Bütün Həyatını Allah Üçün Yaşamışdır — 479

Peyğəmbərimiz Təbliğ Qarşılığında Əsla Dünyəvi Qarşılıq Gözləməmişdir — 479

Peyğəmbərimiz Allaha Təvəkkülü ilə Bütün Müsəlmanlara Nümunədir — 479

Peyğəmbəri Maddi Məsələlərlə Dəyərləndirmək Küfrün Xüsusiyyətidir — 480

8. Məsnəvinin Quranın Təfsiri Olduğunu Deyən Adama Qəzəblənmək və: “Məsnəvi Niyə Quran Olmasın?” – demək — 480

Quranın Tayı-Bərabəri Yoxdur — 481

Tək Hökm Verən Allahdır — 482

9. Məsnəvidə Bəhs Edilən Qədəri (Haşa) Mat Etmək İddiası — 482

Hər Şey Qədərin İçində Təqdir Edilmişdir — 482

Allahın İzni Olmadan Heç Bir Şey Olmaz, Allahın Qədərini Heç Kim Dəyişdirə Bilməz — 483

10. Mövlananın (Haşa) İlahiləşdirilməsi, Ağacların Mövlanaya Səcdə Etdiyinin İddia Edilməsi — 483

Bitkilər, Mələklər, İnsanlar və Bütün Məxluqat Yalnız Allaha Səcdə Edərlər — 484

MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA ALLAHIN ÇİRKİN VƏ HARAM OLDUĞUNU BİLDİRDİYİ HOMOSEKSUALLIĞI QANUNİLƏŞDİRMƏYƏ ÇALIŞMAQ; QEYRİ - ƏXLAQİ MÖVZULAR — 484

1. “Yeniyetmənin Yekəpər Adamdan Qorxması” Hekayəsi — 485

2. “Gərdək Gecəsi Kişinin Qadın Qılığına Girməsi” Hekayəsi — 486

3. Bir Nəfərin Birlikdə Olduğu Kişi İlə Söhbəti — 487
4. Məsnəvi Qəhrəmanı Cuhanın Qadın Qılığına Girib Hamamda Bir Qadına Cinsi Üzvünü Əllətməsi — 488
5. Eşşəklə Cinsi Əlaqəyə Girən və Eşşəyi Qısqanan Qadının Hekayəsi — 489
6. Uşaqların Ciması (Cinsi Əlaqəsi) — 490
7. Dərvişin Baxışından Təhrik Olub Boşalan Gəncin Hekayəsi — 490
8. Şeyxin Xəlifənin Xanımına Cinsi Üzvünü Tutdurması və: "Sənin İstədiyin Budur" –Deməsi — 491
9. Dərvişin Yeniyetməyə Göz Dikməsi Hekayəsi — 491
10. Cariyənin Kölə və Sultanla Cinsi Əlaqəyə Girməsi — 493
MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA TƏKAMÜLÜ MÜDAFİƏ EDƏN SÖZLƏR — 494
Quranda Təkamül ilə Mərhələli Şəkildə Yaradılış Yoxdur. Hər Şey Allahın "Ol" Əmri ilə Yaradılmışdır. — 495
Mələklər Təkamül ilə Yaradılmamışdır — 495
Cinlər Təkamül ilə Yaradılmamışdır — 495
Təkamülü Müdafiə Edən Müsəlmanlar Hz. Musanın Əsasının İlana Döndüyünü, Hz. İsanın Üfürdüyü Palçığın Quş Olub Uçduğunu Açıqlaya Bilməzlər — 496
MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA EYNİ DARVİNİN ƏSƏRLƏRİNDƏ OLDUĞU KİMİ, TÜRKLƏR BARBAR OLARAQ GÖSTƏRİLİR — 496
Qurana Görə, İrqlər Üstünlük Təşkil Etmir, Üstünlük Yalnız Təqva İlədir — 497
İrq Üstünlüyü Düşüncəsi Cahillikdir — 498
MÖVLANAYA AİD OLDUĞU DEYİLƏN KİTABLARDA QADINLARI ALÇALDAN SÖZLƏR — 498
1. Qadının Yarım Varlıq Olduğu Yalanı — 499
2. Qadınlarla Məsləhətləşməmək Yalanı — 499
3. "Qadınlardan Soruşmayın, Soruşsanız da, Dediklərinin Əksini Edin" Uydurma Rəvayəti — 499
4. Qadınların Yuxusunun Belə Kişilərdən Aşağı Olduğu İddiası — 500
5. Anaların Təhqir Olunması — 501
6. Qadının Heyvan Surətində Olduğu Yalanı — 501
7. Darvin də "Məsnəvi"də Olduğu Kimi, Qadınları Alçaq və Heyvan Kimi Görürdü — 501
SON SÖZ: İCTİMAİ PROBLEMLƏR DİN ƏXLAQININ YAŞANMASIYLA HƏLL OLUNAR — 503
Hər Cür Əxlaqi Degenerasiya Bitər — 503
Din Əxlaqının Yaşanmasıyla Ailə Daxili Problemlər də Aradan Qalxar — 505
Cəmiyyətin Fərdləri Arasında Sevgi və Hörmət Əlaqəsi Meydana Gələr — 507
Qumar Bəlası Aradan Qalxar — 507
SPİRTLİ İÇKİLƏRİN ORQANİZMƏ GÖSTƏRDİYİ TƏSİRLƏR: — 509
Narkotik Problemi Aradan Qalxar — 511
Fahişəlik Aradan Qalxar — 513
Heç Kim Asanlıqla Gəlir Əldə Etmək Yollarına Üstünlük Verməz — 517

Din Əxlaqı Yaşandıqda Sosial Həyat Necə Olar? 518
Nəticə: Həll Yolu Quran Əxlaqıdır 520